
ŞİRMƏMMƏD HÜSEYNOV

MƏTBU İRSİMİZDƏN SƏHİFƏLƏR



Y612
H98

ŞİRMƏMMƏD HÜSEYNOV

242415

MƏTBU İRSİMİZDƏN SƏHİFƏLƏR

M.F.Axundov ... Azərbaycan Milli Kitabxanası

Bakı – 2007

REDAKTOR: ÜLKƏR HÜSEYNOVA

Şirməmməd Ağaməmməd oğlu Hüseynov.
"Mətbu irsimizdən səhifələr".
Bakı "Çənlibel" NPM, 2007, 484 səh.+ 40 səh. şəkil

Kitaba müəllifin 2005-2006-cı illərdə dərc olunmuş məqalələri, əlavələr və xatirələr bölməsində müxtəlif illərdə onun haqqında yazılmış rəylər və digər materiallar, həmçinin öz qısa xatirələri daxil edilmişdir. Bu kitab əvvəllər nəşr olunmuş "Müstəqilliyin çətin yolu... biz hara gedirik?" (1996), "Haqq və ədalət axtarışında" (2004) və "Mənəvi irsimiz və gerçəklik" (2004) məqalələr külliyyatlarının davamıdır. Müəllifin yarım əsrdən artıq bir müddətdə apardığı araşdırmaların nəticəsi olan yazıların tariximizin öyrənilməsi və anlaşılması baxımından faydalı olacağına əminik.

H 4702060204-083
065-2007

© Ş.Hüseynov – 2007
© "Çənlibel" NPM, 2007

ÖN SÖZ

60 illik məslək və əqidə dostum Bəxtiyar Vahabzadə son vaxtlar – yəni 80 yaşımız tamam olandan sonra mənə təqdim etdiyi bir kitabında yazmışdır: "Əziz qardaşım Şirməmməd! Biz də bir ömürdür, yaşadıq". Ömrü havayı yaşamamışıq. Taleyin və zamanın verdiyi imkan daxilində Vətənə və millətimizə bizdən əvvəlki ziyalılarımızdan əxz etdiyimiz təmənnasız xidmət təcrübəsinə arxalanıb nəsə bir iş görməyə çalışdıq. Buna nail olub-olmadığımızı yenə tarix və zaman göstərəcək. 80 illik ömür artıq tarixə çevrilmişdir, qalan yazılanlardır. Oxuculara təqdim etdiyim bu kitab əvvəllər nəşr olunmuş "Müstəqilliyin çətin yolu... biz hara gedirik?"(1996), "Haqq və ədalət axtarışında"(2004) və "Mənəvi irsimiz və gerçəklik" (2004) məqalələr toplusunun davamıdır. Kitaba 2005-2006-cı illərdə dərc olunmuş məqalələr, əlavələr və xatirələr bölməsində isə müxtəlif illərdə müəllif haqqında yazılmış bəzi rəylər və digər materiallar, son vaxtlar yazılmış qısa xatirələrim daxil edilmişdir.

Güman edirəm ki, bunlar mətbuat və bütövlükdə Vətən tariximizin öyrənilməsi və anlaşılması baxımından faydasız olmaz.

MÜƏLLİF

ÖZ GÖZÜ İLƏ GÖRÜB ÖZ AĞLI İLƏ DÜŞÜNMƏK

Jurnalistlərimizin ağsaqqalı Şirməmməd Hüseynov Azərbaycanda sovet rejimi qurulana qədərki dövri mətbuatı böyük səbr və həssaslıqla izləmiş, iynə ilə gor qaza-qaza M.Ə.Rəsulzadə, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə, Üzeyir bəy Hacıbəyli və b. bu kimi böyük qələm sahiblərinin bu gün bizim üçün lazım olan fikir və mülahizələrini üzə çıxarmış, bu kitabı ilə oxucuya təqdim etmişdir.

Kitabda toplanan yazılar içərisində elələri var ki, bunlar bu günkü oxucular və tədqiqatçılar üçün tamamilə yenidir. Məsələn, "Azərbaycan" qəzetinin 1918-ci il 3 oktyabr tarixli Bakıda çıxan ilk beşinci nömrəsi, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə dair bir sıra sənədlər, "Şəki inqilabdan əvvəlki mətbuat səhifələrində" başlığı altında verilmiş yazılar və s. Bu yazıların hamısı onları üzə çıxarıb oxuculara təqdim edən müəllifin toxunulan məsələlər barədə ümumiləşdirici məqalələri ilə müşayiət olunur.

Biz bu yazıları oxuduqca tarixin necə də təkrar olunduğunu və ən mühümü də başımıza gətirilən müsibətlərin bu qaynaqdan tuşlandığının şahidi oluruq.

O zaman "Nicat" cəmiyyətinin sədri olan Məhəmməd Əmin Rəsulzadənin "Tərəqqi" qəzetində (26 noyabr 1908) nəşr etdirdiyi "Fitnə və provakasiya" məqaləsində Qafqaz qartalı Şeyx Şamilin milli azadlıq hərəkatından bəhs edən "Qəzavat" pyesinin tamaşasının gizli bir əl tərəfindən yasaq edilməsindən söhbət açılır. Bu gizli əl o zaman Bakıda yaşayan Dağıstan əhlini qızışdırıbmış ki, guya Azərbaycan türkləri "Qəzavat" pyesini oynamaqla Şeyx Şamili və onun millətini lağa qoymuş, təhqir etmişlər. Bunu eşidən "Niçat" cəmiyyətinin üzvləri Dağıstan nümayəndələrini tamaşanın məşqinə baxmağa dəvət etmiş, onlar gəlmiş, tamaşadan razı qaldıqlarını bildirmiş və üzr istəmişlər. Buna baxmayaraq, yenə də tamaşanın göstərilməsi qadağan edilmişdir. Məqaləsində bu əhvalatı təfsilatı ilə nəql edən M.Ə.Rəsulzadə yazır: "Görünür,

onlar fürsət axtarırmışlar ki, ləzgi qardaşlarla Bakı camaatı arasında ixtişaş salsınlar". Yerində deyilmiş bu fikir necə də bu günlə səsləşir. Ssenari bir, məqsəd bir, provakasiya üsulları isə başqa... Bu məqalənin bu gün təkrar çap olunması həm bizim üçün, həm də respublikamızda yaşayan qeyri-millətlər üçün çox vacibdir.

Təəssüf olsun ki, əsrimizin əvvəllərində bizim böyük qələm sahiblərinin görüb yazdıqlarından biz əsrin sonunda nəticə çıxara bilməmiş, eyni tora yenidən düşmüşük. Çünki böyüklərimizin vaxtilə yazıb miras qoyduqlarını bizə vaxtında çatdırmamış, tarixi yaddaşımızı unutdurmuşlar. Bu mənada bir daha bu yazıların bu gün kitab halında çap olunması bizdən daha çox gələcək nəsillər uçün vacibdir. Biz heç... Qoy balalarımız, nəvə-nəticələrimiz atalarımızın bizə verdiyi dərsdən nəticə çıxartsınlar.

Rus imperiyasının yardımı ilə erməni millətçilərinin Azərbaycanda törətdiyi müsibətləri göstərən bu yazılar elə bil bu gün bizim qarşımızda ayna tutur. Ermənilərin bu günkü iddialarının əsas məqsədini açıqlamaq üçun haqlı olaraq müəllif tarixə üz tutur: "Əkinçi", "İrşad", "Açıq söz", "Hümmət", "Tərəqqi" kimi qəzetlərda çap olunan yazılarla bizi erməni fitnəsinin tarixi köklərini anlamağa və bunları təhlildən keçirməyə çağırır. Müəllif demək istəyir ki, bütün bunlar əsası çox qədimdən qurulmuş "Böyük Ermənistan" xülyasının ardıcıl davamıdır və burada o, Ömər Faiq Nemanzadənin ürək yanğısı ilə yazdığı "Nə etməliyik?" məqaləsini bizə təqdim edir və yazır: "5 əsrdən çoxdur ki, 25 yaşına çatmış hər bir erməni hər il "millət vergisi" verməyə məcbur edilir. Tam bir əsrdir ki, erməni millətçilərinin Daşnaksütyun partiyası dünya ermənilərini "Böyük Ermənistan" uğrunda səlib yurüşünə səsləyir".

Kitabda müxtəlif qəzet müxbirlərinin Ş.Hüseynovla müsahibələri də verilmişdir. Bu müsahibələr, günümüzün mühüm hadisələrinin əsl siyasi icmalı kimi doğru və düzgün təhlilidir. Bu təhlillərin bir çoxu son dərəcədə bədii və obrazlıdır. Məni bir şair kimi də ovsunlayan müəllifin bəzən ictimai hadisələri təbiət hadisələri ilə qiyaslandıra bilməsidir. Məsələn, müəllif belə hesab edir ki, yer üzündəki bütün təbii fırtınalar (vulkan püskürməsi, zəlzələ və s.) günəş enerjisinin qeyri-bərabər bölünməsi nəticə-

sində baş verdiyi kimi, ictimai böhranlar da maddi nemətlərin qeyri-bərabər bölünməsi, milli ədalətsizlik zəminində meydana gəlir. Demək həm təbiət və həm də cəmiyyətdəki fırtınaların əsas səbəbi ədalətsizlikmiş. Bu, son dərəcə orijinal və maraqlı bir baxışdır. Millət üçün siyasi mədəniyyətin vacibliyini sübut etməyə çalışan müəllif dünyamızın bugünkü mənzərəsindən çox maraqlı bir müqayisə gətirir: "Nə üçün Şərqi Avropanın sosialist ölkələrində avtoritar rejimdən demokratik quruluşa keçid çox sürətlə, əsasən ağrısız və tələfatsız keçir, keçmiş Sovet İttifaqı isə hələ də çalxalanır? Ona görə ki, Rusiyada və sonralar Sovet İttifaqında siyasi mədəniyyət aşağı səviyyədə olub".

Bu, hadisələrə son dərəcədə düzgün və ibrətamiz münasibətdir. Çünki tam siyasi azadlığı əldə etmək üçün siyasi mədəniyyətin vacib şərt olduğunu birdəfəlik dərk etməliyik.

Kitabda gedən məqalələrin bir qismi din və millət məsələlərinə həsr olunmuşdur. Bu məqalələrdə M.Ə.Rəsulzadə dini mənsubiyyətlə milli mənsubiyyət məsələsini bir-birindən ayırır və İslam dininin milli mənsubiyyəti inkar etmədiyini irəli sürür.

Bu cəhətdən "Açıq söz"də dərc olunmuş "İslam dini və ana dili" məqaləsi bu məsələlərə elmi yanaşmanın ən gözəl nümunəsidir. Məqalədə göstərilir ki, milli mənsubiyyətin əsas amili o millətin doğma dilidir və islam dininə mənsub olan bütün millətlərin ana dili qorunub saxlanmalıdır. Əks təqdirdə o millət məhv ola bilər. Bu məsələdə o, daha irəli gedərək göstərir ki, "Dilək‌ləri öz dilində diləmək, istədiklərini öz dilində istəmək... ağzından çıxan sözlərin nə mənada sözlər olduğunun özünü də bilmək bizcə daha məqul görünüyor".

"Açıq söz" "İslama mənsub olan hər millət bəzi duaları öz ana dilində desə, bu, dini birliyimizə ziyan gətirə bilər" - deyənlərə cavab olaraq yazır ki, "Duaların mənalarını anlamaqla xalqda İslamın ruhunu, fikrini anlamaq daha da irəlilər... Bu gün İslam aləmində olan zahiri birlik o zaman ruhi və mənəvi birliyə mübəddəl olar".

Göründüyü kimi, böyük ustad toxunduğu hər məsələnin mahiyyətinə enir, onun bəzəyini deyil, özəyini görür və problemlərə müasirlik baxımından yanaşır. Yalnız bu məqalə onun

yaratdığı bayrağın üç rəngli olmasının mahiyyətini açır: islamlaşmaq (dinimiz), türkləşmək (millətimiz) və müasirləşmək. Bu isə millətin gələcəyinə, taleyinə mütəfəkkirane yanaşmağın nəticəsi idi. Buna görə də onun hələ 1917-ci ildə irəli sürdüyü bu uzaqgörənlik bu gün üçün də, sabah üçün də məqbuldur.

Mən bu kitabda toplanan məqalələrin böyük əksəriyyətini vaxtilə müxtəlif qəzet səhifələrində oxumuşam. İndi toplu halda oxuyanda toxunulan məsələlərlə və bu məsələlərə müəllif münasibəti ilə tanış olduqca bütün bu yazıların içindən keçən vahid bir xətt görürəm. Bu xətt bunları yazan müəllifin vahid prinsipi, fikri və əqidəsidir. Bu prinsip, bu baxış və bu əqidə məqalədən məqaləyə dərinləşir və 50 ilə yaxın bir müddətdə tanıdığım əqidə qardaşım Şirməmməd Hüseynovun vətəndaş obrazını tamamlayır. Şirməmmədi yaxından tanıyanlar çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan bütün yazılarının arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır. Bu isə qələm əhli üçün çox vacib şərtdir. O, ətrafımızda cərəyan edən irili-xırdalı bütün hadisələrə yalnız öz gözləri ilə baxır, öz ağlı ilə də qiymətləndirir. Onun öz yaxınlarına, qohum-qardaşına, dostlarına və hətta övladlarına olan münasibəti də eyni güzəştsiz prinsip və eyni baxış əsasında qurulmuşdur.

Ömrü boyu vətəninə, millətinə, doğma ana dilinə səcdə qılan, onların taleyini öz şəxsi taleyi bilən və bu əqidəsi yolunda qələmi ilə çarpışan əsl vətəndaş jurnalistin, tarix aliminin qələmindən çıxan bu kitabın hər bir azərbaycanlının masaüstü kitabı olacağına inanıram.

Bəxtiyar VAHABZADƏ

NƏHƏNG ELM MƏBƏDİ, QÜDRƏTLİ TƏHSİL OCAĞI

1. Qısa tarixi arayış

Moskva Universiteti haqlı olaraq Rusiyanın ən qədim universiteti sayılır. Onun əsası 1755-ci ildə qoyulmuşdur. Moskvada universitet təsis edilməsi görkəmli ensiklopedist alim, ilk rus akademiki Mixail Vasilyeviç Lomonosovun (1711-1765) fəaliyyəti sayəsində mümkün olmuşdur. 1940-cı ildə, bu universitetin 185 illik yubileyi qeyd edilən günlərdə ona M.V.Lomonosovun adı verilmişdir. Tarixçilər yazırlar ki, M.V.Lomonosov Moskvada universitet açılması barədə dəfələrlə məsələ qaldırmışdır. İmperatriça Yelizaveta Petrovnanın favoriti İ.İ.Şuvalova ünvanlanmış məktubda Lomonosovun irəli sürdüyü təkliflər Moskva Universitetinin layihəsinin əsasını təşkil etmişdir. 1755-ci il yanvarın 12-də (yeni stillə yanvarın 25-də) Moskva Universitetinin yaradılması barədə fərman imzalanmışdır. Yelizaveta Petrovnanın tacqoyma mərasiminin ildönümü münasibətilə bayram günündə - 26 aprel (7 may) 1755-ci ildə universitetdə məşğələlərin təntənəli açılış mərasimi oldu. O vaxtdan bəri ənənəyə görə həmin gün universitetdə tələbələrin bayramı kimi qeyd edilir, bu münasibətlə hər il "Lomonosov qiraətləri" adlanan elmi konfrans və tələbələrin elmi yaradıcılıq günləri keçirilir.

M.V.Lomonosovun planına uyğun olaraq Moskva Universitetində üç fakültə yaradılmışdı: fəlsəfə, hüquq və tibb fakültələri. Avropa universitetlərindən fərqli olaraq, Moskva Universitetində ilahiyyat fakültəsi yox idi. Professorlar mühazirələri təkcə o vaxt hamılıqla qəbul edilmiş elm dili sayılan latın dilində deyil, həm də rus dilində oxuyurdular.

Moskva Universiteti tələbələrin və professorların demokratik heyəti ilə seçilirdi. Çox cəhətdən məhz buna görə tələbələr və müəllimlər arasında qabaqcıl elmi və ictimai ideyalar geniş yayılmışdı. Bir sıra məşhur elm xadimləri, yazıçılar, Rusiyanın aparıcı siyasi partiyalarının liderləri məhz bu Universitetdə oxumuş və dərs demişdir. Təkcə 1917-ci ildən bəri Moskva Universiteti xalq təsərrüfatı, mədəniyyət və maarif sahələri üçün təqribən 180 min mütəxəssis və 35 minə yaxın elmlər namizədi və elmlər doktoru yetişdirmişdir.

2. Universitetin bu günü

Moskva Universiteti Rusiyanın aparıcı maarif, elm və mədəniyyət mərkəzlərindən biridir. 1992-ci ilin iyun ayında RF prezidentinin fərmanı ilə MDU-ya Rusiyanın özü-özünü idarə edən (muxtar) ali təhsil müəssisəsi statusu verilmişdir. Burada 27 elmi istiqamət və 57 ixtisas üzrə tələbələr, 168 elmi ixtisas üzrə aspirantlar və doktorantlar hazırlanır. Bu ixtisaslar müasir universitet təhsilinin demək olar ki, bütün spektrini əhatə edir. Hazırda MDU-da 40 mindən çox tələbə, aspirant və doktorant oxuyur, mütəxəssislər ixtisasartırma sistemində peşə səviyyələrini təkmilləşdirirlər. Bundan əlavə, MDU nəzdində təqribən 10 min məktəbli məşğul olur. Bu universitetdə təhsil, bir qayda olaraq, pulsuzdur. Lakin bazar iqtisadiyyatı münasibətlərinin inkişafı ilə əlaqədar, 1992-ci ildən etibarən qəbul planından əlavə 15 faizə qədər abituriyentin pullu təhsil almaq üçün qəbul

edilməsi qərara alınmışdır. Müvəffəqiyyətlə oxuyan hər bir tələbə dövlətdən təqaüd (stipendiya) alır.



1980. MDU-nun 225 illiyi. MDU-nun məzunlarının Universitetdə görüşü

MDU-da təhsil prosesi və elmi işlər unikal müəllim və alim kollektivi sayəsində təmin edilir. Bu kollektivdə 2500 elmlər doktoru, təqribən 6 min elmlər namizədi, 1000 nəfərə yaxın professor, 2000 nəfərə yaxın dosent və baş müəllim çalışır. Rusiya Elmlər Akademiyasının və sahə akademiyalarının 300 nəfərə yaxın akademiki və müxbir üzvü MDU-da işləyir. Hər il MDU-da müxtəlif bilik sahələri üzrə 800-ə yaxın namizədlik dissertasiyası və 200-ə qədər doktorluq dissertasiyası müdafiə edilir. Universitetin 5 min elmi işçisi fundamental və tətbiqi elmi araşdırmalarla məşğuldur. MDU-nun strukturunda 29 fakültə, 15 elmi-tədqiqat institutu, 4 muzey, 350-dən çox kafedra, elmi park, nəbatat bağı, 9 milyon cilddən ibarət fonda malik olan elmi

kitabxana, nəşriyyat, mətbəə, mədəniyyət mərkəzi, bütün Rusiyadan cəlb edilmiş 300-ə yaxın istedadlı uşağın təhsil aldığı internat məktəb fəaliyyət göstərir.

MDU-da ümumi sahəsi təqribən 1 milyon kvadrat metrə bərabər olan min bina və tikili, o cümlədən 12 min nəfərlik 8 yataqxana vardır.

Universitetin ən böyük kitabxanası elmi kitabxanadır. Onun fondlarının ümumi həcmi təqribən 9 milyon cildə bərabərdir, o cümlədən xarici dillərdə 2 milyon cilddən çox ədəbiyyat vardır, MDU-nun beynəlxalq əlaqələri çox genişdir. MDU Beynəlxalq Universitetlər Assosiasiyasına daxildir. O, xarici ölkələrin 60-dan çox elmi mərkəzi və birliyi ilə, Avropa ölkələrinin, ABŞ-ın, Yaponiyanın, Çinin və digər ölkələrin universitetləri ilə birbaşa əməkdaşlıq barədə müqavilələr bağlamışdır. MDU-da hər il dünyanın bir sıra dövlətlərindən olan 2 mindən çox tələbə və aspirant təhsil alır. Burada 150 xarici ölkə üçün 11 mindən çox yüksək ixtisaslı mütəxəssis hazırlanmışdır.

2000-ci il oktyabrın 27-də RF prezidenti V.V.Putin MDU-nun yaradılmasının 250 illiyinə həsr edilmiş tədbirlərin hazırlanması və həyata keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması barədə fərman imzalamışdır.

3. Moskva Dövlət Universiteti və Azərbaycan

MDU-nun tarixini tədqiq edənlər yazırlar ki, "1861-ci ildə təhkimçilik hüququ ləğv ediləndən və Rusiya kapitalizm yoluna qədəm qoyandan sonra universitetin həyatında yeni mərhələ başlandı. Universitetin 1863-cü ildə qəbul edilmiş nizamnaməsi ölkənin inkişafını sürətləndirmək məqsədi güdən islahatlar keçirilməsindən ibarət ümumi kursu əks etdirirdi". Universitetin

dörd fakültəsində - tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrində təqribən 1500 tələbə oxuyurdu. Onların əksəriyyəti raznoçinçilər təbəqəsinə mənsub idi. Azərbaycan mətbuatının, teatrının, xeyriyyəçilik hərəkatının, maarifçiliyinin atası sayılan Həsən bəy Zərdabi XIX əsrin 60-cı illərində Moskva



MDU-nun jurnalistika fakültəsinin dekanı Y.N.Zasurskinin başçılıq etdiyi metodik şura üzvləri Bakıda. 1972

Universitetində təhsil alan ilk azərbaycanlı gənclərdən biri, bəlkə də birincisi idi. 1861-1865-ci illərdə universitetin fizika-riyaziyyat fakültəsinin təbiətşünaslıq bölməsində təhsil alan Həsən bəy Rusiya azadlıq hərəkatının 60-cı illər ruhunu da mənimsəmiş və ömrü boyu bu ideyaların daşıyıcısı olmuşdur. Həsən bəydən sonra Moskva Universitetinin məzunları içərisində xalqımızın tarixi və taleyində mühüm rol oynamış Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədovun adlarını göstərə bilərəm. Hüquq fakültəsini müvəffəqiyyətlə başa vurmuş bu görkəmli hüquqşünasların adı Moskva Universitetinin tarixinə də düşmüşdür.

Moskva Universiteti ilə Azərbaycanın əlaqələri lazımınca tədqiq olunmamış geniş bir mövzudur. Lakin mən şahidi olduğum bəzi məqamları yada sala bilərəm. 1950-1954-cü illərdə Moskva Universitetinin jurnalistika üzrə aspiranturasında oxuyarkən orada 100-ə yaxın azərbaycanlı tələbə, aspirant və doktorant vardı. Məşhur riyaziyyatçı, sonralar MEA-nın həqiqi üzvü Əşrəf Hüseynov, rus dilçiliyi üzrə tanınmış alim Qulam Ələkbərli, geoloq-coğrafiyaşünas Qasım Gül MDU-nun doktoranturasında idilər, bizimlə bir yataqxanada yaşayırdılar. Hazırda Milli Elmlər Akademiyasının həqiqi üzvləri Hacıbəy Sultanov, Cəlal Allahverdiyev, Tofiq Köçərli, Cəmil Quliyev, Abdulla Muxtarov o vaxt aspiranturada təhsil alırdılar. Həmin illərdə MDU-da təhsil almış B.Kərimov, filosoflar Ş.Məmmədov, Z.Orucov, iqtisadçı Q.Cavadov, filoloq Ç.Hüseynov, türkoloq T.Məlikov universitetin sayılan professorlarındandır. Mərhum professorlar Əziz Şərif və Əkbər Bağırov MDU-da uzun müddət kafedra müdirləri olmuşlar. Hazırda respublikamızda Moskva Dövlət Universiteti məzunlarının və orada elmi məktəb keçmiş alim və mütəxəssislərin böyük bir ordusu fəaliyyət göstərməkdədir. Odur ki, MDU-nun 250 illik yubileyi həm də bizim hamımızın bayramıdır. Qeyd edim ki, 100 il bundan əvvəl - 1905-ci ilin yanvarında Moskva Universitetinin 150 illik yubileyi münasibətilə "Kaspi" qəzetində görkəmli dövlət və siyasi xadim Əlimərdan bəy Topçubaşovun çox dəyərli bir məqaləsi dərc olunmuşdur. Bu yubiley günlərində həmin məqaləni də oxuculara təqdim edirəm. I rus inqilabının başlanğıcı sayılan 1905-ci ilin 9 yanvar - Qanlı bazar günündən 3 gün sonra dərc olunmuş bu yazıda dövrün təzadları da öz əksini tapmışdır.

MOSKVA UNİVERSİTETİNİN 150 İLLİYİ QARŞISINDA



Bu gün Rusiya cəmiyyətinin düşünən hissəsinin hamısı 12 yanvar 1755-ci il tarixini dərin minnətdarlıq və ümid hissi ilə xatırlayır. Məhz həmin gün İ.İ.Şuvalovun təşəbbüsü ilə Moskvada ilk Rusiya universiteti açılmışdır.

Bu gün Rusiya cəmiyyəti o əlamətdar günü "xatırlayır", amma alqışlamır və bayram etmir, çünki Rusiyada ilk maarif ocağının 150 illiyinə təsadüf edən son dərəcə qeyri-adi şəraitdə bu cür hallarda qəbul edilmiş zahiri formada bayram şənlikləri keçirməyin yeri deyil.

Lakin bu gün basmaqəlib bayram formalarının olmaması bu hadisəyə daha böyük təntənə bəxş edir, indiki dövrdə bu hadisə daha dərin daxili məna kəsb edir...

Yaşadığımız məqamın ciddiliyi hər hansı bayram barədə düşünməyə imkan vermir, yalnız Moskva Universitetinin 150 illiyi gününə ciddi, yaxşıca götür-qoy edilmiş münasibət bəslənməsini tələb edir... Əgər həyat mübarizədirsə, onu isə yalnız bu cür başa düşmək olar, onda ötən 150 illik dövrdə Moskva Universiteti həqiqətən, əsl mənada yaşamışdır.

Universitet bu 150 ildə Rusiya elminin və məktəbinin əzəli və kortəbii düşmənləri olan cəhalətə, nadanlığa və 100 milyonluq bir xalqın taleyi barədə bu qədər özbaşınalıqla sərəncam verən qara qüvvələrin saysız-hesabsız bəd əməllərinə qarşı həqiqətən çox böyük mübarizə aparmışdır...

Bu, qəhrəmanlıq epizodları ilə zəngin olan ölüm-dirim mübarizəsi idi. Qüvvələr nisbəti dəfələrlə düşmən qüvvələrinin xeyrinə, cəhalətin təntənəsi üçün çalışan, xalqı nadanlıq və dilənçilik vəziyyətində saxlamaq üçün əlindən gələni əsirgəməyən şər qüvvələrin xeyrinə dəyişmişdir.

Moskva Universiteti məhz bu cür qeyri-bərabər, sürəkli və amansız mübarizə şəraitində yaşamış, bu mübarizədə yaşa dolub bərkimişdir və hər dəfə özünün nəyə qadir olduğunu bilən və düşmənin qüvvəsini ölçüb-biçmiş bir pəhləvan kimi mübarizəyə atılmağa hazırdır...

Moskva Universiteti qara qüvvələrə qarşı bu mübarizədən şərəflə çıxmışdır...

Təkcə həsəd aparılmağa layiq olan bu şücaəti sayəsində o, Rusiya cəmiyyətinin nur çeşməsi adlanmağa layiqdir. Bu cəmiyyətin inkişafına rəhbərlik edən, onun qarşısında mədəni inkişaf məsələləri qoyan və onları həll edən Moskva Universiteti 150 illik şərəfli maarifçilik həyatı dövründə ölkədə xeyir və həqiqət ideyalarını dəstəkləmişdir. Bu universitet bütün ölkə üçün dirilik çeşməsi olmuşdur, bu çeşmənin suyunu içən hər kəs cavanlıq, gözəllik, güc-qüvvət və həyat qazanırdı...

O, Rusiyaya dövlətə və cəmiyyətə xidmətin bütün sahələrində vətənə hədsiz məhəbbət hisslərini təzahür etmiş namuslu və əməksevər oğullar vermişdir...

Bütün dövlətin və xalqın həyatının nəbzini həssaslıqla dinləməyi bacaran Moskva Universiteti keçdiyi həyatın bütün keşməkeşli məqamlarını saf bir güzgü kimi özündə əks etdirir, ölkənin üzləşdiyi bəlalara, kədərli anlara görə onunla bərabər qüssələnir, özünün bəyan etdiyi mədəni-maarifçilik ideyalarının hər qələbəsinə görə ürəkdən sevinirdi.

Universitet elmi biliklərlə, güclənən bu xeyir və həqiqət ideyalarından şər qüvvələr üzərində yeni qələbələr qazanmaq üçün güc-qüvvət alırdı. Ona bu gücü-qüvvəti verən ideyalar həyat nuru saçan bahar günəşinin şüaları kimi Rusiya torpağına yayılır, get-gedə daha çox insanı əhatə edir, onları nadanlığın, mənəvi miskinliyin caynağından xilas edirdi...

Bu ideyaların tərəfdarlarının sıraları gücləndikcə universitet daha cəsarətli, daha məhsuldar fəaliyyət göstərir, onun yolunda yaranmış təsadüfi, ötəri nə varsa hamısını süpürüb atırdı...

Moskva Universiteti öz qüdrətli sinəsini bütün zərbələrə, bəzən çox güclü zərbələrə gərərək, ölkənin xoşbəxtliyini və onun bütün gələcəyini müəyyənləşdirirdi...

Bu mənada universitetin ölçüyəgəlməz xidmətləri var və Rusiyada maarifin tarixini yazanlar bu ölkənin müqəddəs maarifçilik işində ən fəxri yerlərdən birini Moskva Universitetinə ayırmalıdırlar...

Bu günlərin şahidi və həməsri olan bizlər isə Moskva maarif ocağına ölkənin şöhrəti və tərəqqisi naminə bu qədər zəfərlər qazanmış və hələ daha çox nəticələr doğuracaq ideya mübarizəsini davam etdirməsi üçün ona yeni qüvvələr arzulayır...

T.(Topçubaşov Əlimərdan bəy)

"Kaspi" qəzeti, 12 yanvar 1905-ci il, №8

Günay, №1, 8 yanvar 2005-ci il

100 İL BUNDAN ƏVVƏL OLMUŞLAR VƏ BƏZİ DÜŞÜNCƏLƏR

Bir əsr tarix üçün gözqırpımıdır. Bizim üçün isə geridə qalan uzun məsafədir. 20-ci yüzilliyi dünya tarixinin ən önəmli dövrlərindən hesab edirlər. Dünyanın, bəşəriyyətin elmi-texniki, ictimai-siyasi, maarif və mədəniyyət sahəsində əldə etdiyi nailiyyətlər, həmçinin qarşılaşdığı faciələr insanlıq tarixinin heç bir əsri ilə müqayisəyə gəlmir. Adətən hər bir xalq başa çatan və ya mühüm hadisələrlə bağlı olan yüzillikləri, cərəyan edən hadisələri, bu hadisələrin gedişində mühüm rol oynayan şəxsiyyətləri yad edir. Onların qoyub getdikləri maddi-mənəvi irsi nəzərdən keçirir, öyrənir, nəticə çıxarır. Bu ilin yanvarında I rus inqilabının başlanmasının da 100 ili tamam olur. Bizim üçün I rus inqilabı dövrü tariximizin həm də milli oyanış dövrü kimi səciyyələnir. Tarixdən məlumdur ki, bu oyanış ağrılı-acılı keçmişdir. Bu oyanışdan təkcə daxili mühafizəkarlar deyil, ən çox qorxuya düşən qatı erməni millətçiləri - daşnaklar idi. Onlar əsrin əvvəllərindən başlayaraq, əsas diqqətlərini Osmanlı Türkiyəsindən zəif düşməkdə olan Rusiyanın Qafqaz bölgəsinə, xüsusilə Azərbaycana, azərbaycanlılara qarşı yönəltmişdilər. "Böyük Ermənistan" xülyasına məhz buradan başlamaq və bu mənfur planın həyata keçirilməsi işinə Rusiyanı və rusları da cəlb etməyi qarşılarına məqsəd qoymuşdular. Ermənilərin istifadə etmək istədikləri rus

2427/15.

M.F.Axundov Azərbaycan Milli Kitabxanası

şovinistlərinin türk-müsəlman düşmənçiliyi minillər davam etmiş xristian-islam qarşıdurması idi. Şüurlarda həkk olunmuş hər iki hissdən ermənilər istifadə etməyə də başlamış, xristian dünyasına "erməni məsələsi" adlı qondarma bir problem xofu qəbul etdirməyə girişmişdilər. XIX əsrin sonlarından bu mənfur planı əvvəlcə Türkiyədə, əsrin əvvəllərində isə Qafqazda və Azərbaycanda real şəkil almağına cəhdlər edildi. 1905-ci ilin fevralında Bakıda, sonra isə Qafqazın azərbaycanlılar yaşayan ərazilərində, Naxçıvan, İrəvan, Qarabağ və digər yerlərdə ermənilərin silahlı qətliamları başlandı. Ermənilər təkcə silahlı deyil, həmçinin genişmiqyaslı təbliğat kampaniyasına da rəvac verdilər. İftira və böhtan səciyyəli yazılar Rusiya və Avropada geniş intişar tapdı.



Azərbaycanın sayca az, maddi imkanca məhdud bir ziyalı qrupu bu iftiraçı kampaniyaya lazımınca cavab vermək qarşısında qaldı. Bu qrupa Həsən bəy Zərdabi başda olmaqla Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Ə.M.Topçubaşov, Qara bəy Qarabəyov, Fərrux bəy

Vəzirov, C.Məmmədquluzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov və b. daxil idi. Bu hadisələr vaxtı ermənilərin ixtiyarında 10-a yaxın mətbuat orqanı, azərbaycanlıların isə yeganə "Kaspi" və 1905-ci ilin iyulundan nəşrə başlayan yeganə anadilli "Həyat" qəzetləri vardı. Bütün bu çətinliklərə sinə gərənlər içərisində Əhməd bəy Ağayev və Əli bəy Hüseynzadənin yazdıqları, fəaliyyətləri xüsusilə tutarlı, kəskin və geniş əks-səda doğururdu.

Əli bəy Hüseynzadə "Həyat" qəzetinin 1905-ci il iyulun əvvəllərində (№21) "Erməni vətəndaşlarımıza tövsiyə və ixtaratımız" (xəbərdarlığımız) sərlövhəli məqaləsində yazırdı: "Ermənilərin əhli-maarifi, mühərrirləri, ədibləri öhdələrinə tərtib edən (düşən) vəzifəyi, iki millət arasında təlifi - beyn (olmuşları rəf) etmək xüsusundakı müqəddəs vəzifəyi əsla ifa edəmmədilər, bu xüsusda hətta bəzilərində bir həmaqət (səfihlik) belə ariz oldu". ...Ermənləri haqlı, insaniyyətli, bigünah (günahsız) və əlhasil (sözün qısası) məsum bir quzu kibi göstərməyə, bizi isə bütün bunun əksi-ovsaf (sifət) ilə tövsif etməyə (tanıtmağa) qeyrət (təşəbbüs) ediyorlar, qəzetlərlə, teleqraflarla, ajanslarla Avropanın bir ucundan o biri ucuna, bəlkə ta Amerika və Avstraliyaya qədər o yolda fəryadlar ediyorlar. Daha doğrusu, bizim kibi aciz qalmayıb edə biliyorlar idi. Pişik öz pisliyini torpaqla sitr etdiyi (örtdüyü) kimi, bunlar da öz qüsurlarını, öz qəbahətlərini, öz vəhşətlərini söz tufanı içində gizləyib, bizim isə ən kiçik qəbahətimizi birəmi dəvə edərcəsinə mübaliğələndiriyorlar idi. Bu qədərlə də iktifa etməyib (kifayətlənməyib) adətən qəsdi - iftiralarda bulundular. Əvvəla, Həsən bəy və Fərrux bəy kibi hər növ şaibədən bərra (ləkədən təmiz) bulunan vicudi-pakları ləkədar etmək istədilər, müvəffəq olmayınca Əhməd bəyə müsəllət oldular (girişdilər)..."

Əli bəy ermənilərin, onların iftiraçı mətbuat orqanı "Mşak" qəzetinin Əhməd bəy Ağayev haqqındakı uydurmalarını ifşa edir və yazırdı ki, "hər nə hal isə biz böylə şəxsə aid iftiralara zatən (adətən) əhəmiyyət verənlərdən deyiliz. Əsl məsələ ümumizə, ümumtürk və müsəlmanlara aid iftiralardır ki, bəzi erməni mühərrirləri bu növ iftira və böhtandan dəxi çəkinmədilər. Guya ümumi müsəlmanlar, yəni 300 milyondan ibarət müsəlmanlar ittifaq və ittihad edib (birləşib) bu günlərdə çəgirtgə kimi qanadlanıb uçacaq və Rusiya ilə Avropanın üstünə töküləcək və Qərb mədəniyyətini, bəlkə də bütün xristian aləmini bağı ilə, bağçası ilə, əkiniylə, əhalisiylə yeyib yetəcəklərmiş. Buna da guya indiyə qədər ermənilər mane olduğundan ittihadi-məzkurun (bu birləşmənin) mərkəzi olan bir nöqtədən, İstanbuldan, Kabildən, ya Bombeydən ermənilərin qətli-aminə dair bir barmaq işarəti çəkilmiş imiş!..."

Əli bəy erməni iftiraçılara cavabında yazırdı ki, sizi qorxudan islamın və türklərin uydurma ittihad və ittifaqı deyil! Siz onların "xabi-qəflətdən oyanıb" mədəniyyət və tərəqqi yoluna, maarif səmtinə hərəkətindən qorxursunuz. "Sizi təlaşa salan zənn ediyoram bu cəhətdir... Sizin qorxu və təlaşınızla qanuni-təbiətə (təbiət qanunlarına) səddmi çəkiləcək zənn edirsiniz? Və ya siz bütün Avropanı təlaşa düşürməklə bizi təhdid etdiyiniz (hədələdiyiniz) üçün, biz: xeyr, əstəğfürullah, qələt etdik. Biz nə aləmi-islamın sülh və insaniyyət dairəsində ittihadını (birliyini) arzu edər və nə də bu aləmin xabi-qəflətdən (qəflət yuxusundan) oyanıb ənvari-mədəniyyətlə (mədəniyyət işığı ilə) münəvvər (nurlu) olmasını istəriz, - deyənlərdənmiyik, zənn edirsiniz? Və bütün Şərq dəxi oyandığı halda: sizin qorxunuzdan: "qorxma, qorxma hənuz oyanmadıqmı deyəcək?... Xeyr! Xeyr!"

Əli bəy Hüseynzadə sonra qətiyyətlə yazırdı: "Çalışalım ki, Bakı və İrəvan hadisələri kimi çirkin şeylər yaddan çıxsın...

Maarifə, təməddünə (tərəqqiyə), təkamül və təaliyə (inkişafa) çalışalım, vaxtımızı qeyb etməyəlim, çünki yol uzundur, yoxuşdur, arizəli (maneəli)dir".

1905-ci il avqustun 23-də sağ kadetlərin Moskvada nəşr etdikləri "Russkiye vedomosti" (1863-1918) qəzetində İspaniyanın Seqoviya adlı şəhərindən guya bir osmanlı müsəlmanı tərəfindən rus dilində axmaqca və imla yanlışlıqları ilə dolu imzasız bir məktub dərc olunmuşdu. Məktubun sərlövhəsində fransızca aşağıdakı sözlər yazılmışdı: "Məğlub olub xar və zəlil düşən Rusiyanın Portsmutda şərəfsiz bir sülh müahidəsini imzaladığı zaman ona xitabən Türkiyənin dediyi sözlərdir".

Əli bəy Hüseynzadə bu məktub və qəzetin onunla əlaqədar şərhini "Xəyali-xam!" (xam xəyal) sərlövhəli məqaləsində ("Həyat", 1905, №58) çox kəskin, tutarlı, məntiqlə ifşa edir. Ermənilərin təşkil etdikləri bu iftira məktubuna Moskva qəzeti belə bir şərh vermişdi: "Əgər bu məktubda ifadə və bəyan olunan hissiyyat həqiqətən osmanlı türklərinin hissiyyatına tərcüman isə, o halda bu günlərdə Qafqaz ölkəsində müsəlmanlar arasında nümayan olan (görünən) hərəkatı-hissiyyati-məzkurə ilə bir dərəcə izah etmək qabil olur. Bu hərəkat ermənilər qırmaqdan başlayıb indi xristianları təhdidə keçir".

Məqalədə oxuyuruq: "Nə qədər batil (həqiqətə zidd), xam fikirlər!... Biz "Russkiye-vedomosti" qəzetəsinin yerinə olaydıq, böylə bir məktubu yırtar, lüzumsuz kağızlar səbətinə atar, onu qəzetimizin sütunlarında zikrə belə layiq görməz idik, nərədə qaldı ki, onunla Qafqaz vüquatı (hadisələri) arasında bir də irtibat (əlaqə) aramağa qalxışmaq!... Çünki İspaniyanın ucqar bir

şəhərindən rus lisanı ilə imzasız bir məktubun türk bir müsəlman tərəfindən yazılmış olması qayət şübhəlidir".

Ə.Hüseynzadə qəzetin baş redaktoru V.M.Sobolevskiyə müraciətlə qeyd edir ki, əgər onlar Türkiyə daxilində və xaricində nəşr olunan müxtəlif istiqamətli mətbuat orqanlarını nəzərdən keçirsələr, "rus və yapon müharibəsinin ibtidasından bəri əqsayi-Şərqdə (Uzaq Şərqdə)... məzkur müharibəyə dair Avropa mətbuatında görünən hadisati ancaq qayət bitərəfanə surətdə tərcümə ilə iktifa etdilər (kifayətləndilər). Özlərindən bu xüsusda müstəqilən kiçicik bir məqalə, bir bənd belə yazmadılar. ...Böylə bir məktubun həm rus, həm də müsəlman düşməni olan bir şəxs tərəfindən yazılmış olması əlaimizahirəsindən (zahiri əlamətlərindən) aşkardır".

Daşnakların rus-yapon müharibəsində məğlub olan Rusiyada genişlənən inqilabi hərəkatdan öz çirkin məqsədləri üçün istifadə etmək, Bakıda və Qafqazın digər yerlərində müsəlman türklərə qarşı başlatdıqları qanlı qətliama haqq qazandırmaq, rusları bu çirkin oyuna cəlb etmək, məsələni xristian-müsəlman türk qarşıdurması kimi Rusiya və dünya ictimaiyyətinə təlqin etdirmək niyyətlərini ifşa etmək sahəsində qüdrətli qələm sahibləri, mütəfəkkir alim, publisistlərimiz – Ə.Hüseynzadə və Ə.Ağayevin 1905-1908-ci illərdə yazdıqları məqalələr, etdikləri çıxışlar bu gün də öz qiymətini saxlamaqdadır. I rus inqilabının və daşnakların bu illərdə törətdikləri cinayətlərin üstünü açmaq baxımından bu tarixi materialların, sənədlərin tədqiqi və müasir ictimaiyyətə çatdırılması vacibli bir işdir. Hadisələrin 100 illiyilə əlaqədar biz hər iki müəllifin bəzi yazıları ilə oxucuları tanış edəcəyik.

Günay, №2, 15 yanvar 2005-ci il

QAFQAZI "BƏLAYA" SALANLAR KİMLƏRDİR?

(tarixə bir nəzər)

Tarix ədəbiyyatında bizə 1905-ci ilin fevralında Bakıda və Qafqazın digər bölgələrində qatı erməni millətçiləri-daşnakların həyata keçirməyə başladıqları kütləvi qırğın, talan və misli-bərabəri görünməyən vəhşilikləri barədə necə məlumat verildiyi çoxlarımıza bəllidir. İndinin özündə də XX əsrin lap əvvəllərindən xalqımıza qarşı erməni təcavüzü və qətliamı haqqında yerli-yataqlı bir sanballı əsərə rast gəlmək olmaz. Daşnakların çarizmin əlində bir vasitə olması, inqilabi hərəkatı boğmaq və zəiflətmək məqsədilə rəsmi dairələrin belə çirkin bir siyasətə əl atması barədə də çox yazılıb. Lakin hadisələrin əsl təşkilatçıları və iştirakçıları olan ermənilərin rus şovinistlərini, bəzi rəsmi dairələri öz əllərində alətə çevirmələri kölgədə qalıb. Bu çox mühüm məsələdir. Bu barədə elə 1905-də az yazılmayıb...

1905-ci il martın əvvəllərində Peterburqda rusofil şovinist A.A.Suvorinin redaktoru olduğu "Rus" qəzetində (1903-1908) fevralda Bakıda daşnakların türk-müsəlmanlara qarşı həyata keçirməyə başladıqları kütləvi-qırğın və talan hərəkətlərinə haqq qazandıran, əsl həqiqəti təhrif edən, məkrli bir "Zlo Kavkaza" (Qafqazın bəlası) sərlövhəli irihəcmli bir yazı dərc olunmuşdu. Müəllifi İ.Doluxanov idi. Belə birtərəfli yazılar Tiflisdə, Moskvada, Rusiyanın bir sıra əyalət qəzetlərində də dərc olunmaqda idi. Daşnaklar bu təbliğat kampaniyasına da əvvəlcədən yaxşı və mükəmməl hazırlıq görmüşdülər. "Günay"ın

keçən nömrəsində bu barədə Ə.Hüseynzadənin yazdıqlarını, "Həyat" qəzetində verilmiş yazılardan nümunələr göstərmişdik. Bakıda törədilmiş qanlı hadisələrə dair əsl həqiqəti yazanların, çıxış edənlərin önündə əlbəttə mükəmməl biliyi, dərin təfəkkürü, qüdrətli savad və qələmi olan Əhməd bəy Ağayev gedirdi. Erməni İ.Doluxanovun "Rus" qəzetindəki yazısına da tutarlı cavabı məhz Əhməd bəy Ağayev vermişdir. Elə "Zlo Kavkaza" sərlövhəsilə verilmiş bu cavab məqaləsi 1905-ci il martın 18 və 23-də "Kaspi" qəzetində dərc olunmuşdur. Çox ciddi elmi, ictimai-siyasi və fəlsəfi səciyyəli yazını təhlil və şərh etmək fikrində deyiləm. Onların işıq üzü görməsindən 100 il keçmişdir. Oxucular özləri yazının qiymət və tarixi dəyərini müəyyən edib, verə bilərlər. Bircə çox böyük təəssüf hissilə qeyd etmək istəyirəm ki, bu qiymətli mənəvi irsə bu vaxtadək laqeyd, bəzən düşmənçilik münasibəti bəslənib və ona yenə də yiyə çıxan yoxdur. Amma çox nahaq! İndi həmin yazını oxuculara təqdim edirəm.




QAFQAZIN BƏLASI

İ. Doluxanov soyadlı birisi "Rus" qəzetində belə, xeyli iddialı sərlövhə ilə geniş bir məqalə dərc etdirmişdir. Məqalə Bakı şəhərində baş verən son hadisələrə həsr edilmişdir.

Bu hadisələrdən sonra elə ilk günlərdən etibarən biz hamımızı - fərqi yoxdur, istər müsəlmanları, istərsə də erməniləri biabır etmiş dəhşətli qardaş qırğınına öz münasibətlərimizi kifayət qədər açıq şəkildə bildirmişik. Biz əvvəl də bu fikirdə olmuşuq, indi də bu fikirdəyik ki, bu dəhşətli qalmaqala səbəb olmuş hər bir

polemika, mətbuatda hər hansı mübahisələr, yaxud bu və ya digər tərəfin təqsirkar olmasını müəyyən etmək cəhdləri sözün yaxşı mənasında istər ədalət mühakiməsi üçün, istərsə də əhalini sakitləşdirmək üçün yerinə düşmür. Xüsusən ona görə ki, biz bu qanlı hadisələrin ayrı-ayrı epizodlarının hər hansı şəkildə şişirdilməsini və həmin epizodların qərəzli, təhrif edilmiş şəkildə yozulmasını bəyənməmişik və bəyənmirik. Biz əvvəl də elə düşünmüşük, indi də elə düşünürük ki, bu qanlı hadisələrin təqsirkarlarını müəyyənləşdirmək, səbəblərini təyin etmək ciddi, aşkar və qərəzsiz məhkəmənin borcu və vəzifəsidir və özünün subyektiv, çox vaxt yoxlanılmamış, bəzən də xoşagəlməz qərəzli polemik xarakter daşıyan, ədalət mühakiməsini təhrif edə biləcək, hələ sağalmamış yaraların qaysağını qopara biləcək müqəddəs hisslərə müdaxilə etmək mətbuatın işi deyil, bu, məsələnin mahiyyətini aydınlaşdırmağa ciddi səmərə verə bilməz. Bununla belə, oxşar hallarda mətbuatın rolu böyükdür: o, bir tərəfdən təlatümə gəlmiş mühitdə sülh və əmin-amanlıq yaratmaq üçün insanları zəkaya, çoxəsrlik qardaşlıq, birlik və razılıq ənənələrinə əməl etməyə çağırmalı, digər tərəfdən həqiqətən baş vermiş faktları göstərməklə ədalət mühakiməsinə kömək etməlidir. Xoşbəxtlikdən bizim səsimiz eşidildi və Bakı qəzetləri tarixən bir-birilə qırılmaz əlaqələri olan xalqlar arasında qədim qardaşlıq münasibətlərini bərpa etmək, sakitləşmək barədə çağırışları ilə xalqın sakitləşməsinə və hamının bu dəhşətli yuxudan ayılmasma xeyli kömək etmişdir. İndi o qanlı hadisələrdən bir ay keçəndən sonra sakitləşmiş və ayılmış hər bir müsəlman və hər bir erməni o günləri qarışıq bir yuxu kimi xatırlayır, Bakıda baş vermiş hadisələrin məhz şeytan vəsvəsələri nəticəsində hər iki xalqın eyni dərəcədə əziyyət çəkdiyini düşünürlər. Biz indiyə qədər Tiflis mətbuatının bir qismi, eləcə də teleqraf agentliklərinin yerli müxbirlərinin rəva gördükləri şişirtmələri və bəzən açıq-aşkar vicdansız yazıları hər hansı şəkildə qiymətləndirməkdən

çəkinmişik. Məsələn, "Qafqaz" qəzetinin müxbiri cənab Pavlovun ağzı o qədər qızışıb ki, o, öz yazılarının birində bütün bu hadisələrdə erməni inqilabi komitəsini günahlandırdığı halda, başqa bir yazısında sübut etməyə çalışırdı ki, müsəlmanlar bu qırğına əvvəlcədən hazırlaşırmış və bu məqsədlə onlar hətta ermənilərin evlərinə xüsusi nişanlarla işarələr qoyurlarmış! Peterburq teleqraf agentliyinin yerli agentinə gəldikdə isə, o da özünü çox da nəzakətli aparmamışdır. O, özünün bütün teleqramlarında məsələni elə şəkildə qələmə verirdi ki, guya bu qırğını, bu talanları törədən yalnız müsəlmanlar olmuşdur. Lakin sonradan həmin teleqraf agentliyi əks mənalı və əvvəlkindən heç də az vicdansız xarakter daşımayan teleqramlar yayanda elə həmin cənablar rus mətbuatına müraciətlə xahiş etdilər ki, Bakıdan verilən xəbərlərə bir qədər ehtiyatla yanaşsınlar.



Bir daha təkrar edirik, biz yuxarıda şərh edilən baxışları əsas götürərək indiyə qədər Bakı hadisələrinə açıq-aşkar qərəzli münasibətlərin bütün bu cür təzahürlərinə və yalnız müsəlmanların qatil və talançılar kimi qələmə verilməsi cəhdlərinə laqeyd qalmışıq.

İndi isə vəziyyət tamam dəyişir: bütün Rusiya mətbuatında

bu cür şişirdilmiş məlumatlar, ən vicdansız şəkildə şərhlər baş alıb gedir. Paytaxt və əyalət mətbuatında dərc olunan bütün yazılarda müsəlmanlar şüurlu və ya şüursuz qatillər, araqızışdıranlar kimi qələmə verilir. Bəlkə də başqa bir vaxtda biz bu halda da öz əsas baxışlarımıza sadiq qalar və Məhəmməd peyğəmbərin belə bir vəsiyyətini rəhbər tutardıq ki, vaxt gələcək, yalan həqiqətin qarşısında puç olacaqdır, belə böhtanlara və insinuasiyalara əhəmiyyət verməzdik. Lakin indiki məqamda həqiqətin yalan üzərində təntənəsini gözləmək olmaz. Bu gün Rusiya cəmiyyətində müsəlmanlar barəsində yaranacaq bu və ya digər təsəvvür onlardan ötrü həyati əhəmiyyət kəsb edir. İş burasındadır ki, hazırda Rusiya cəmiyyətində böyük bir tarixi an yaşanır, bu cəmiyyət başdan-başa böyük islahatlar əhatəsindədir və Rusiyanın 25 milyonluq müsəlman əhalisinin bu islahatçılıq fəaliyyəti dairəsinə daxil edilməsi həyati məsələdir.

Aşkardır ki, əgər müsəlmanlara münasibət onların şüurlu və ya şüursuz qatillər, araqızışdıranlar, talançılar, kor fanatiklər anlayışlarından ibarət olsa onların nəzərdə tutulan və can atılan islahatlar sahəsinə yaxın buraxılması imkanı istisna olacaqdır. Buna görə də hər bir ziyalı müsəlmanın müqəddəs borcu onlara nahaqdan və vicdansızcasına şər atılan yerdə, məlum hisslər ve aprior anlayışlarla oynayaraq onların Rusiya cəmiyyəti qarşısında uydurma şəkildə təsvir edilməsi hallarına qarşı dərhal cavab verməkdir.

Bu baxımdan cənab Doluxanovun yuxarıda adını çəkdiyim məqaləsinə nəzər salaq. Həmin məqalədə iki sənəd gətirilir.

Birinci sənəd cənab Bunyatovun məktubudur. Budur həmin məktub:

"Əziz qardaşım Mkrtıç.

Şənbədən bazara keçən gecə saat 12-dən başlayaraq bizdə Sodom və Qomorra bir-birini qırır - tatarlar ermənilər, ermənilər tatarları.

Şəhər qan içindədir. Yaxın kəndlərdən buraya çoxlu tatar gəl-

mişdir - hamısı da berdanka və revolverlərlə silahlanmışdır. Onlar qarşılarına çıxan hər bir ermənini öldürür, dükanları qarət edirlər. Ermənilərə heç kəs kömək etmir. Polis və qoşunlar bu hallara əhəmiyyət vermir, tatarları qovub dağıtmır. Bu işin axırı çox pis olacaq. Ermənilər bunu gözləmirdilər - mollalar onları qətlə yetirməyə çağırırdı. İndi bizim vəziyyətimizi özün təsəvvür et. Tatarların evlərində çox erməni yaşayır - heç cür bir yerə toplaşmaq mümkün deyil, küçəyə çıxanların hamısını öldürürlər. Əgər bizim köməyimizə gəlməsələr sabah bizi çox böyük təhlükə gözləyir. Sabah bizi ölüm gözləyir - ola bilsin ki, mədənlərdəki ermənilər köməyə gəlsinlər. İndi biz hamımız ölü kimiyik: qapıları bağlayıb, otaqda oturmuşuq. Fevralın 8-də çox böyük qırğın oldu. Tatarlar ermənilərı qılıncdan keçirirlər. Ermənilər bir neçə evdə birləşməyə cəhd göstərdilər - onları qırdılar, evləri yandırdılar; elə bil bu məlunlar əvvəlcədən hazırlıq görüblərmiş. Ermənin yaşadığı evin üstünə kerosin töküb yandırırlar. Bu gün, ayın 9-da 20 nəfər silahsız erməni 4 kazakın konvoyu altında vağzala yola düşmüşdü; deyilənə görə, onları yolda öldürüblər. Hazırda mən və qardaşım eyni nömrədəyik. Biz ruslardan çox xahiş etdik ki, bizi öz evlərində gizlətsinlər - amma onlar bunu istəmirlər, çünki xəbər tutublar ki, harada erməni tapılsa, oradakı adamların hamısını qılıncdan keçirəcəklər. İndi saat 6-dır. Biz qaçmaq istəyirdik - lakin burada artıq atışma gedir, artıq bizim evin qapılarını sındırırlar. Zavallı ermənilər! Vay sizin halınıza! Mənim əzizim, əgər sən bu məktubu alsan və məni öldürsələr mənim iki yetimimi tək qoyma. Onlara ata ol. "Rusiya Xarici Ticarət Bankında" mənim cari hesabımda pulum var (qəbzin nömrəsi) - onu götürüb xərcləyərsən...

Üç gündür ki, acıq, acından gözlərimiz tor görür, başımız gicəllənir. İlahi! Keç mənim günahlarımdan. Mən xilas olacağımıza ümidimi itirmişəm. Qoşunlar bizə heç kömək etmir. Tatarların hamısında zabit revolverləri, berdankalar var. Baş molla bütün ermənilərı qətlə yetirməyi əmr etmişdir. Bu məktubun sənə çatıb-

çatmayacağını bilmirəm. Poçta getməyə imkan yoxdur, çalışacam bir yolla onu poçt qutusuna atım. Qardaşım və bacım, mənim nəyim varsa öz aranızda bərabər bölün. Əgər mən buradan azad olsam sizə teleqram vuracam, yoxsa əlvida, qardaşım və bacım. Q.Bunyatov".

Bu da ikinci sənəd:

Bakıdan katolikosa ünvanlanmış və onun tərəfindən baş rəisə göndərilmiş teleqramın mətnini yazıram:

"Üçüncü gündür ki, şəhərdə ermənilərlə tatarlar arasında mütəşəkkil qırğın gedir, artıq bir neçə yüz nəfər öldürülmüş, çox adam yaralanmışdır. Qubernator elə ilk gündən bu hadisələrin qarşısını almaqda aciz olduğunu etiraf etmişdir. Tatarlar əllərinə keçən ermənilərı qırırdılar. Ətraf kəndlərdən olan tatarlar gecə şəhərə gəlmişlər. Səhər hava işıqlaşandan mağazaların talan edilməsi və qətllər başlandı. İndi küçələrin yolayrıclarında bir əsgərdən ibarət patrul qoyublar"...

Beləliklə, birinci sənəddən bəlli olur ki: a) mollalar müsəlmanları çoxdan ermənilərı qırmağa çağırırmış; b) bu məqsədlə ətraf kəndlərin sakinləri şəhərə gəlmişlər və c) baş molla (??) bu şeytan əməlinə sanksiya verərək bütün ermənilərı qətlə yetirməyi əmr etmişdir.

Bu, müsəlman ruhaniləri başda olmaqla müsəlman cəmiyyətini qabaqcadan düşünülmüş və mütəşəkkil formada ermənilərı qırmaqda ittihamdan başqa bir şey deyil. Bu cür ittiham irəli sürmək üçün adam gərək ya ruhi xəstə olsun, ya da çox həyasız. Mənim fikrimcə, bu sözlərin birincisi cənab Bunyatova, ikincisi isə cənab Doluxanova aiddir. Deyim nəyə görə, belə hesab edirəm.

Cənab Bunyatov özü etiraf edir ki, öz yeremiadasını çox təhlükəli bir vəziyyətdə yazmışdır: "Üç gündür ki, o, hec nə yeməmişdir, ətrafda güllələr vıyıldayır". O, hər dəqiqə ölümünü gözləyirdi və hətta, ölümü qabaqlayaraq o, öz son vəsiyyətini də etmişdir. Belə bir vəziyyətdə ölümün özü qorxunc görkəmi ilə insanın qarşısında olduğu halda bu insanın, üstəlik həyat tərzinə

görə güllə səslərinə o qədər də vərdiş etməmiş bir adamın ağlını itirməsini və ağzına gələni kağıza köçürməsini başa düşürəm. Bunlar onun qıcıqlanmış, vahiməyə düşmüş təxəyyülünün söylədiyi sözlərdir. Belə anlarda insanın fantaziyasının kabusları canlı varlıqlara çevrilir və gerçək hadisələr kimi onun təsəvvüründə canlanır. Axı, mollalar, baş molla, necə deyərlər, müsəlman fanatizmi bu cür anlarda hazır təbii kabuslardır. Onların gerçəklik kimi qəbul edilməsi, hətta "ermənilərı qırmağa çağırmağa" məcbur edilməsi cənab Bunyatovun düşdüyü psixi şəraitdə tamamilə təbii və adi haldır. Buna görə də cənab Bunyatovun bağışlanması da eyni dərəcədə təbii və məntiqlidir: o, necə deyərlər, öz xəstə təxəyyülünün günahsız qurbanı olmuşdur...

Amma cənab Bunyatovun fantasmaqoriyasını bütün dunyaya yaymış cənab Doluxanovu bağışlamaq çətin və qeyri-mümkündür. Cənab Doluxanov öz məqaləsini Tiflisdən, özü də həmin qanlı hadisələrin baş verdiyi gündən bir neçə həftə sonra hadisə yerindən bir neçə yüz verst məsafədə yazmışdır. Çox güman ki, o, öz məqaləsini götür-qoy edilmiş şəkildə, soyuqqanlı tərzdə yazmışdır. Onun təxəyyülünə nə aclıq, nə ölüm qorxusu, nə də güllələrin vıyıltısı heç bir təsir göstərməmişdir; o, həmin biabırçı və dəhşətli günlərdə baş vermiş hadisələrin bütün təfərrüatı artıq məlum olarkən yazmışdır. Bütün bunlar cənab Doluxanova məlumdur. Şübhə yoxdur ki, o, həmin qırğınlarda müsəlman ruhanilərinin şanlı insanpərvərlik rolu oynamasını da bilirdi. Müsəlman ruhaniləri özlərinin bu hərəkəti ilə bu diyarın həqiqi mənafelərini necə yüksək qiymətləndirdiyini, iki xalq arasında sülhə, sevgiyə, birliyə necə hədsiz qiymət verməsini nümayiş etdirdi. Ölümdən, güllələrdən qorxmayaraq birinci olaraq küçəyə çıxan, öz nüfuzlu ağsaqqal sözləri ilə xalqı təmkinli olmağa çağıran kim idi? Məhz Bakının baş mollası Qazı Seyid Mirməmmədkərim Hacı Mircəfərzadə: çərşənbə axşamı, fevralın 8-də, yəni qırğının ən dəhşətli vaxtında, güllələr yağış kimi səpələndiyi bir məqamda o, təkbaşına

küçəyə çıxaraq bütün xalqı təmkinli olmağa, sülhə çağırırdı. Və o qədər mərd adam idi ki, erməni kilsəsinə təkbaşına getmişdi!

Ertəsi gün, yəni çərşənbə günü, cənab qubernatorun konvoyu altında toplaşmış möhtərəm şəhərlilər və ruhanilər tərəddüd edəndə, bir-birinə qətiyyətsiz halda baxanda bu klassik güclü sözləri kim söyləmişdi: "Cənablar, hər dəqiqə tərəddüd etməyimiz, bircə dəqiqə gecikməyimiz bəlkə də bir neçə insanın həyatı bahasına başa gələ bilər! Gəlin gedək: mən əlimə Quran götürüb qabaqda gedirəm, qoy birinci güllə mənə dəysin!" Bunu deyən elə həmin qazı idi. Və onun bu hərəkəti bütün o biri insanlara da ürək-dirək verdi, bu, hər iki qardaş xalqın onları bürümüş qəflət yuxusundan ayılmaq, xilas olmaq anı idi. Elə həmin gün, bəlkə də elə həmin dəqiqələrdə başqa bir molla qubernator Məclisindən qayıdırdı - molla Ağa Axundzadə eyni fədakarlıq və eyni cəsarətlə sənaye rayonundakı xalqa müraciət etdi, onları sülhə və dostluğa çağırdı. Bəs Zaqafqaziyanın Şeyxülislamı və müftisi - Məhəmmədin dininin bu diyardakı bu iki ali nümayəndəsi nə etdi? Məgər onlar erməni yepiskopu ilə birlikdə başını itirmiş, ağlı başından çıxmış və bədbəxt Bakıya sülh, məhəbbət və qardaşlıq çağırışları ilə müraciət etmədimi?

Küçələrdə, bazarlarda, məscidlərdə və kilsələrdə moizə oxuyaraq ağlını itirmiş bu kütləyə onlar başa salmadımı ki, müsəlmanların və ermənilərin dinlərinin mahiyyəti birdir, onların vətənləri, tarixləri ümumi, taleləri müştərəkdir. Mən çox istərdim ki, cənab Doluxanov, bu günlərdə siz burada olaydınız, ümumi nadanlığın, ümumi ağılsızlığın qurbanı olmuş bu erməni və müsəlman kütlələrinin öz ruhani ağsaqqallarının moizələrini necə dinlədiklərini, öz əməllərindən peşman olaraq xəcalət içində necə acı göz yaşları axıtdıqlarını, onları qəflət yuxusundan oyatmış sözlərin təsiri altında çöhrələrinin necə nurlandığını öz gözünüzlə görəydiniz.

Bəs mollalara, baş mollaya böhtan atmaq cənab Doluxanovun nəyinə lazım idi? Doğrudanmı, bunu etmək bu dərəcədə vacib

idi? Doğrudanmı, heç olmasa, burada, bütün Qafqazın müsibət içində olduğu bir vaxtda müvəqqəti də olsa, qərəzli ideyalardan əl çəkmək, bu qanlı müsibətin əsl kökünün harada gizləndiyini axtarmaq olmazdı?

Xeyr! Görünür, İlovayski bizim başımızın üstünü fatal şəkildə kəsdirib, bizim intelligentlərə xas olan səfehliklərimizə fatal şəkildə rəhbərlik edir. Biz - gələcək "intelligentlər" və "publisistlər" hələ yeniyetmə yaşlarında məktəb skamyasında onun "tarix" kitabını öyrənməkdən aldığımız təəssüratlar, bizim hələ yetkinləşməmiş şüurumuza və qəlbimizə "Məhəmmədə", "səlib yürüşlərinə", xristianların yaşadığı və sarasin-basurmanlardan əziyyət çəkdikləri "Fələstinə" həsr edilmiş kitabların səhifələrinə və sərlövhələrinə yayılmış zəhəri acgözlüklə dadanda baxışlarımız hələ uzun müddət kütləşəcək, hisslərimiz təhrif olunacaqdır. Bu "ən xalis xristian" yazılarının "zəhəri" hələ neçə-neçə nəsilləri zəhərləyəcək və nəinki indiki, həmçinin gələcək Doluxanov cənabları da mediumlar hipnozçuların onlara aşıladıqları fraza və fikirləri təkrarladığı kimi Doluxanovların aşıladığı fraza və fikirləri təkrarlamaqda davam edəcəklər. Cənab Doluxanov cənab Bunyatovun mollalar barəsində qorxu hissindən aşılanmış fantasmaqoriyanı, necə deyərlər, elə-belə, adamlar çoxdan məlum olan aksiomları, labüd və hamı tərəfindən qəbul edilmiş həqiqətləri necə qəbul edirlərsə, eləcə, yoxlamadan qəbul etmişdir. Əcəba, bu o qədər həqiqətə oxşayır, o qədər təbii görünür ki, mollalar kafirlərin döyülməsini təbliğ etsinlər. Cənab Doluxanovun fikrində və qəlbində İlovayskilər, Çrevanskilər, Krımskilər dilə gəlmiş və onun "intelligent" qəlbində onların müsəlmanlar və müsəlmanlıq haqqında yazdıqlarını oxuyarkən yaranmış şüalar əks etmişdir.

Beləcə nəsilbənəsil, cərgəbəcərgə insanlara təlim və tərbiyə verirlər. Xristian müsəlmanı tanımır, müsəlman xristianı tanımır. Yanıldım: onlar bir-birini tanıyırlar, lakin əslində olduqları kimi

deyil, cənab İlovayskinin onları bir-birinə təqdim etmək istədiyi kimi bilirlər. Bu cür tanışlıq nəticəsində aradan qaldırılması mümkün olmayan ümumi bəlalar baş verir. Əlbəttə, bunların cənab İlovayskilərə heç bir zərəri yoxdur; bəlkə də daha çox: cənab İlovayskilərin davrandığı, onların məxsusi nəzərdə tutduğu nəhəng kütlə bütün bunlara münasibətdə tamamilə indifferentdir.

Onlar özlərinə əsla ziyan vurmadan bizim barəmizdə istədikləri fikri və ya təsəvvürü yarada bilərlər: onlar elə fikirləşə bilərlər ki, biz nə isə xüsusi növlü adamlarıq, antropofaqlarıq, sikloplarıq və bəlkə də anlaşılmazlıq nəticəsində insanlara çevrilmiş itlərik, buna görə də hətta bəşər ailəsinə yaxın buraxılmağa da layiq deyilik.

Bir yerdə yaşayan, eyni bir hava ilə nəfəs almağa, eyni bir torpağa ana vətən deyə müraciət etməyə, anadan olduğu gündən ölən günə qədər eyni təəssüratlar almağa, taleyin bəxş etdiyi bütün sevinci və kədəri bir-biri ilə bölüşməyə, eyni bir bəla üzündən sarsılmağa məcbur olan Əhməd və Karapet kimi adamlar üçün bu tale qismətini onlara təbiətin, həyatın, yoxsa tarixin bəxş etməsindən asılı olmayaraq bir-biri barəsində hər hansı təsəvvür yaratmaq o qədər də fərqsiz deyil. Burada hər hansı anlaşılmazlıq, hər hansı saxta anlayış, hər hansı yalan fikir yaranması labüddür və insanlara çox baha başa gəlir.

Onda ümumi həyat başdan-başa anlaşılmazlığa, münaqişələrə, bitib-tükənməyən mübahisə və savaşlara çevrilir. Halbuki onların bir-birindən ayrı salınması və bir-birini başa düşməməsi sanki "crecsendo" tərzdə baş verir.

Düzdür, biz bir yerdə yaşamışıq və yenə bir yerdə yaşayırıq, dumalarda, klublarda, meydanlarda, bazarlarda üz-üzə gəlirik; bizim taleyimiz müştərəkdir, eyni hadisələrin şahidi oluruq, lakin bizim ürəklərimiz bir-birindən uzaq olmuşdur və zaman keçdikcə aramızdakı uçurum genişlənmiş, dərinləşmişdir. Hələ aşağılarda ciddi və əməksevər insanlar, özləri və ailələri üçün

bir tikə çörək qazanmaqla məşğul olan adamlar bir-birini başa düşə bilərlər, çünki əməyin birləşdirdiyi bu adamların bütün fikirləri və hissləri bu ümumi əməyin dövrəsində fırlanırdı; lakin biz - İlovayskilərin rəhbərlik etdiyi üzdəniraq intelligentlər bir-birimizdən get-gedə uzaqlaşırdıq. Daha mədəni, daha mütərəqqi olanlar çox irəlidə gedir, nisbətən az mədəni olan digərləri isə birincilərlə ayaqlaşa bilməyib geri qalırdılar.

Birincilər ikincilər tərəfindən dəstək görməyəndə əsəbiləşir, ikincilər isə birincilərin onlara kömək etmək, onların qayğılarını və ehtiyaclarını anlamaq istəmədiklərini görəndə onlar da əsəbləşirdilər. Bəziləri özlərindən razı halda o birilərinə heç nəyə qabil olmayan adamlar kimi nifrətlə baxır, digərləri isə birincilərə şübhə ilə yanaşır, onlara etibar etmirdilər.

Dostcasına söhbətlər, salamlaşmaq, hal-əhval, çıxışlar, debatlar - bütün bunlar bizdə inkvizitor baxışları ilə, düşmənin qəlbinə nüfuz etmək, onun gizli hisslərini araşdırmaq istəyi ilə müşayiət olunurdu, lakin bunu etmək mümkün olmadığına görə hər kəs digərində gizli fikirlər, bədxah niyyətlər olduğunu güman edirdi. Bu hələ harasıdır: indi insanların qəlbinin dərinliklərində cənab İlovayskinin qayğıkeş əli ilə yaranmış zəhərli toxumlar baş qaldırmışdır. İndi insanların təxəyyülündə antipod anlayışlar, xristian və müsəlman kimi düşmən rəmzlər yaranmışdır! Bunun nəticəsində biz bir-birimizə qarşı münasibətdə öz çıxışlarımızda və debatlarımızda heç istəsək də, ədalətli ola bilməzdik. Buna görə də həmin çıxışlar və debatlar bu qədər kəskin, düşmən xarakteri daşıyırdı və buna görə də cənab Doluxanov mollalara böhtan atmağı özünə rəva görmüşdür.

Biz cənab İlovayskilərdən aldığımız zəhərlə öz xalqlarımızı və xalq kütlələrini zəhərləməyə başlamışıq. Biz maarifçilər rolunu öz üzərimizə götürənə qədər həmin kütlələr öz hisslərinin və fikirlərinin sadəliyi və səmimiliyi, instiktlərinin saflığı ilə yaxşıca dil tapır və bir-birini başa düşürdü, lakin biz onlara

rəhbərlik etməyə, onları maarifləndirməyə başlayan vaxtdan elə özümüzün ilovayskilərdən aldığımız zəhərlə onları da zəhərləmişik; hisslər, fikirlər, anlayışlar tədricən təhrif olunmuş, bir-birindən uzaqlaşmışdır və yaranmış uçurum xalqları bir-birindən ayırmağa başlamışdır. Amma biz nəinki bu iki xalqın bir-birinə yaxınlaşması, onların birləşməsi və bir-birini başa düşməsi üçün heç nə etməmişik, hətta onları bir-birindən ayırmaq və bir-birinə düşmən etmək üçün əlimizdən gələni etmişik. Qırğın dövründə yaralananlar və zərərçəkənlər arasında paylanmaq üçün ianələr toplayan komitənin bir üzvü kimi mən zərərçəkənlərin yanında olarkən istər-istəməz onların üzləşdiyi müsibətlərin, çəkdikləri əzabların və arasıkəsilməz göz yaşlarının şahidi oluram və hər dəfə də həm özümü, həm də üzdəniraq intelligent adamların hamısını lənətləyərək öz-özümə deyirəm: "Axı, heç bir günahı olmayan bu bədbəxt insanlar nəyə görə əziyyət çəkirlər?"

Xeyr, cənab Doluxanov, günahkar nə mollalardır, nə də baş molla, günahkar siz özünüzsünüz. Qafqazın əsl bəlası sizin axtardığınız yerdə deyil, bizim özümüzdədir. Nə qədər ki, qəzet səhifələrini sizin fikirləriniz və hisslərinizlə "bəzəyəcək", nə qədər ki, siz cənab ilovayskilərdən oxuduğunuz zəhərləri bizim orqanizmimizə yeritməkdə davam edəcəksiniz, bizə nicat yolu olmayacaq. Bizim nicatımız özümüzün ayılmağımızdadır, qərəzli ideyalar və hisslərdən əl çəkməyimizdədir - vəssalam! Doğrudan da ayılmağın vaxtıdır.

Ə. (Əhməd bəy) AĞAYEV,
"Kaspi" qəzeti, 18, 23 mart 1905-ci il, №48,52

"Günay" №3-4, 23, 29 yanvar 2005-ci il

DAHA BELƏ YAŞAMAQ YARAMAZ!

Neçə-neçə yüzilliklərdir ki, bu strateji şüar müxtəlif şərait və formalarda, dillərdə, planetimizin müxtəlif guşələrində səslənməkdədlr. Yüz il bundan qabaq - birinci rus inqilabının ilk günlərindən danışmaq və yazmaq imkanı əldə edən Azərbaycan ziyalıları da bəşəri inkişafın məcrasına qoşulmaq arzusu ilə bu həqiqəti dilə gətirməyə imkan tapdılar. Əsl ziyalı gələcəyi, tərəqqi və inkişaf yolunu görməklə yanaşı, xalqın yaşadığı real vəziyyəti görüb təhlil və tənqid etməklə çıxış yolunu müəyyən etməyi bacaranlar hesab edilir. Söhbət açmaq istədiyimiz şəxslərdən biri - Rusiya imperiyasını kökündən çalxalayan və sarsıdan inqilab tufanı və fırtınaları şəraitində Azərbaycanın ictimai-siyasi meydanına çıxan cəsarətli mütəfəkkir, qələm və əməl sahiblərinin sərkərdəsi hesab edilən Əhməd bəy Ağayevdir. Onun 1905-1908-ci illərdə təkcə Bakıda deyil, Rusiya və Qafqaz mətbuatında Azərbaycan və rus dillərində çap olunmuş məqalələrini, müxtəlif yığıncaq və mərasimlərdəki çıxışlarını nəzərdən keçirdikdə məhz bu qənaətə gəlmək olur. "Daha belə yaşamaq yaramaz!" - bu sözlər də Əhməd bəy Ağayevindir. O, açıqca yazırdı ki, biz elə bir şərait və cəmiyyətdə yaşayırıq ki, "belə cəmiyyətdə ağıl, bilik və işgüzarlıq, zövq və xeyirxahlığın özü labüd olaraq səfehliyin, nadanlığın, istedadsızlığın, rəzilliyin köləsinə çevrilir və cəmiyyət qarşısıalınmaz bir tərzdə parçalanmağın mail müstəvisi boyunca yuvarlanır", "min illər boyu şahlar və xanlar bizim başımıza və kürəyimizə qapaz vurmuş, biz də ilan kimi qıvrılaraq, dinməməyi ən yaxşı yol hesab edərək səbirlə hər şeyə

dözmüşük", "nəhayət həm ruhən, həm də cismən əzilmiş, şikəst edilmiş bizlər tamam lal olmuşuq. Bizim nə danışmağa, nə də ağlamağa gücümüz, taqətimiz qalmayıb", "halbuki indi məhz "danışmaq" qabiliyyətinə öz ehtiyaclarımızı başa düşərək ixtira etməyi bacarmağa çox böyük ehtiyac yaranmışdır. Bizim bütün gələcək taleyimiz, bizim bütün gələcək mövcudluğumuz bundan asılı olacaqdır".

Bu müdrik kəlamlar, bu tarixi açıqlamalar da Ə.Ağayevin "Kaspi" qəzetinin 1905-ci ildə 93-cü nömrəsində dərc olunmuş "Peterburqa səyahətimdən nə nəticə çıxardım?" sərlövhəli səfər təəssüratından götürülmüşdür.

Məlumdur ki, daşnaklar 1905-ci il fevralın əvvəllərində Bakıda və Zaqafqaziyanın ayrı-ayrı bölgələrində azərbaycanlılara qarşı kütləvi qırğın taktikasına əl atmışdılar. Bu iyrənc hərəkətlərinə rusları da qatmaq, azərbaycanlılarla rusların arasını vurmaq üçün geniş kampaniya başlamışdılar. Belə bir çətin və məsul bir dövrdə erməni şovinistlərinə və onların Peterburqdakı havadarlarına layiqincə cavab vermək, öz millətinin şərəf və ləyaqətini qorumaq, onun tələblərini rəsmi dairələrə çatdırmaq üçün Əhməd bəy Ağayev nümayəndə heyətinin tərkibində Peterburqa getmişdir. "Kaspi" qəzetində dərc olunmuş təəssüratı da bu səfərin nəticələrinə həsr olunmuşdur. Müəllif elə ilk cümləsindən bəyan edirdi ki, "mənim Peterburqda olduğum müddətdə biz müsəlmanlar üçün çıxardığım birinci və ən qıymətli nəticə ondan ibarət oldu ki, rus camaatı, ruslar bizi sevirlər, bizə rəğbət bəsləyirlər". Qeyd edim ki, bu çox mühüm nəticə dasnakların onların Bakıda ermənilərin pulu ilə nəşr olunan "Baku" qəzetinin hiddətinə və Ə.Ağayevə hücumuna səbəb olmuşdur. Bu barədə gələn yazılarımızda. Hələlik isə adı çəkilən yazını oxuculara təqdim edirəm.

PETERBURQA SƏYAHƏTİMDƏN NƏ NƏTİCƏ ÇIXARDIM?



Mənim Peterburqda olduğum müddətdə biz müsəlmanlar üçün çıxardığım birinci və ən qiymətli nəticə ondan ibarət oldu ki, rus camaatı, ruslar bizi sevirlər, bizə rəğbət bəsləyirlər.

Mən olduğum yerlərin hər birində - istər jurnalistlər arasında, istər yüksək vəzifəli şəxslər mühitində, istərsə də görüşüb qarşılaşdığım qeyri-rəsmi şəxslər mühitində bu qənaətə gəldim.

Aydın məsələdir ki, mən heç bir xüsusi məqsəd güdməyən, fanatik missioner vəziyyətində və ya qədim Moskvada adamları zorla ruslaşdıran libasında və ya formalist-bürokrat sürtukunda eybəcərləşdirilməmiş sadə rusları, təmiz və sadə qəlbli rus adamlarını nəzərdə tuturam. Hansı ranqa, hansı silkə və ya peşəyə mənsub olmasından asılı olmayaraq, bu cür insanlar uzaq şimalda bizimlə görüşəndə sadəliklə, səmimiyyətlə üzümüzə gülümsəyir, onun xeyirxah fizionomiyasından bizə rəğbət yağırdı. Dərhal görünürdü ki, bizimlə görüşmək ona xoşdur və bizə xoş gəlmək üçün nə isə etmək istəyir. Bəzən siz hər hansı bir albomu vərəqləyərkən portretlərdən birində ara verirsiniz, ona nə isə qeyri-iradi, potensial rəğbət hiss edirsiniz. Bəs bu rəğbət haradan gəlir? Bəlkə səbəb odur ki, portretdəki insanın gözlərinin ifadəsində, onun sifətinin cizgilərində, dodaqlarının özünəməxsus bir tərzdə qapanmasında siz elə bir şey hiss edirsiniz ki, bu hisslər

sizə belə bir fikir təlqin edir: əgər bu portret birdən canlansaydı, qamətini düzəltsəydi, siz onunla çox rahat dil tapar, dostlaşar, qohumlaşardınız. Onda hamının işi yaxşı olardı, belə adamla bir yerdə olmaq xoşdur.

Rusun müsəlmana qeyri-iradi rəğbətində, heç şübhəsiz, potensial baxımdan gizli bir duyğu, doğma, yaxın insanın qeyri-iradi hissləri mühüm rol oynayır. Rusiyadakı müsəlmanların böyük əksəriyyəti türk-tatarlardır, rusların damarlarında türk-tatar qanı çoxdur. Tatarların bir neçə yüz il davam etmiş hökmranlığı hədər getməmişdir: hər iki irq bir-birinə möhkəm qaynayıb qarışmış, ayrılmaz şəkildə bir-birinə bağlanmışlar. Tatar irqinin antropoloji xüsusiyyətlərini heyrətamiz bir barizliklə hələ də qoruyub saxlamış adi adamlar bir yana, ali, kübar rus ailələrinin də çoxunda onların tatar mənşəli olmasını göstərən izlər hələ də aşkar görünür. Buna görə də həm tatarların, həm də rusların yaxşı anlamadığı, eyni bir mənbədən qaynaqlanan din ayrılığına baxmayaraq, vətənpərvərlərin rus tarixində baş vermiş bütün bədbəxtlikləri tatarların təsirinə müncər etmək üçün bütün cidd-cəhdlərinə baxmayaraq, pravoslav rus dindar tatarla görüşəndə onun damarındakı qanı coşur. Bu qanın səsi bütün başqa hissləri üstələyir. Bu səs istər-istəməz onların başı üzərində ucalır, siz diqqətinizi cəlb edən portretə özünüzdən asılı olmayaraq, diqqətlə baxdığınız kimi həmin rus da özündən asılı olmayaraq həmin tatara diqqətlə baxır. O, özünə doğma olan sifət cizgiləri görür, tatarın qəlbində ona doğma olan yaxın keyfiyyətlərə heyranlıqla tamaşa edir. Bizim açıq-saçıqlığımız, bizim xeyirxahlığımız, bizim utancaqlığımız, bizim kütlüyümüz və hətta tənbəlliyimiz də rusa çox yaxın, çox doğma cizgilər kimi xoş gəlir. Onun xeyirxah, geniş təbəssümlü fizionomiyasında aşkar təəssüf hissləri oxunur: "Görəsən bu portret nə üçün cana gəlib ayağa qalxmır?"

Bu nidanı biz bir dəfə yox, iki dəfə yox, onlarca dəfə, hər yerdə və öz ehtiyaclarımız barədə, yaşamalı olduğumuz müstəsna şərait barədə dərdləşdiyimiz hər bir kəsdən eşitmişik.

Biz deyəndə ki: "Allaha çox-çox şükürlər olsun ki, indiyə qədər "sirkulyarların" təlqin etdiyi mənfur məzhəbçilik-ruslaşdırma siyasətinə son qoyuldu. Bu siyasət müsəlmanlara nə qədər bəlalar və bədbəxtliklər gətirmişdir! Onun nəticələri hələ nə qədər davam edəcəkdir!! Biz indiyə qədər doğrudan da ümumi anamız olan Vətənin ögey oğulları olmuşuq, bizə etibar etmirdilər, bizi kənarda saxlayırdılar, bizi ən mühüm hüquqlardan məhrum edirdilər, bütün Yer kürəsinin bütün xalqlarına verilmiş ən bəsit və eyni zamanda gərəkli mədəniyyət müəssisələrini bizə verməkdən imtina edirdilər. Hətta indi, çarın canişini qraf Vorontsov-Daşkov bizim müstəsna vəziyyətimizə son qoyulacağını bildirəndə, bu diyarın ehtiyaclarına, islahatların təxirəsalınmaz zərurət olmasına fikir verəndən sonra o, islahatların həyata keçiriləcəyini vəd edəndə biz müsəlmanlar ümidsiz və çaşqın halda özümüzdən soruşuruq: biz yeni həyata uyğunlaşa biləcəyikmi, orada itib-batmayacayıq ki, gücümüz çatacaqmı?! Bax buna görə bizi ətrafımızda baş verə bilən hər şeydən təcrid olunmuş halda qapalı vəziyyətdə saxlayırdılar. Biz məhbus vəziyyətində hətta işıqdan da qorxuruq, azadlığın özünə də etibar etmirik!

Peterburqun hər yerində bizə belə cavab verirdilər: "Təqsir sizin özünüzdədir. Axı, siz nə üçün səsinizi çıxarmırdınız, nə üçün indiyə qədər özünüzü göstərmirdiniz? Hətta doğma ana da uşağını yalnız o ağlayanda xatırlayır. Bizim məsafələr və məkanlar barəsində sizin təsəvvürünüz vardımı? Bizə ən yaxın şəhər Moskvadır və o, bizdən bir neçə yüz verst aralıdır. Bu, Fransa ilə bərabər götürülmüş Almaniya boyda bir ərazidir. Bizim əraziyə gəldikdə, bu dünyanın yarısı deməkdir, qütbdən

ekvatora qədər geniş bir məkandır! "Bu şəraitdə uşaq özü qışqırmayınca, onun qışqırtısı dünyanın yarısını bürüməyincə, ən xeyirxah ana da heç nə edə bilməz. Siz isə indiyə qədər yatmısınız, özü də elə yatmısınız ki, hamıya elə gəlib ki, sizin işləriniz lap yaxşıdır, o qədər yaxşıdır ki, ondan yaxşısını heç özünüz də istəmirsiniz".

Əlbəttə, biz bu iradların acı həqiqət olmasını dərk edib, sarsılmış halda başımızı aşağı dikirdik.

Lakin nə edəsən? Biz müsəlmanlar - türklər, tatarlar belə yaranmışıq. Başqalarının qüsur hesab etdiyi şeyləri biz xeyirxah əməl sayırıq. Dinməməyi heç bir xalq bizdə olduğu qədər yüksək qiymətləndirmir. Bu, bizim tərbiyəmizin birinci kredosudur, valideynlərimizdən aldığımız birinci öyüddür. Bizim bütün şairlərimiz, yazıçılarımız, müdriklərimiz dinməməyi gəncliyin ən böyük bəzəyi, qocaların müdriklik əlaməti kimi tərənnüm edirlər. İstər yaşca, istərsə də rütbəcə böyüklərin qarşısında danışmaq bizdə həmişə dikbaşlıq və tərbiyəsizlik əlaməti hesab edilmişdir, hətta kiçik olan siz böyüklərdən yüz qat ağıllı və işgüzar olsanız belə! Təvazökarlıq, əlbəttə, yaşından, cinsindən və vəziyyətindən asılı olmayaraq, hər kəs üçün müsbət cəhət sayılır, lakin bu təvazökarlıq öz qismətindən qorxaraq kölə itaəti həddinə, sizin başınıza açılan hər oyuna səbirlə dözmək həddinə çatanda bu artıq yaxşı xasiyyət deyil, alçaldıcı, məhvedici nöqsandır. Belə cəmiyyətdə ağıl, bilik və işgüzarlıq, zövq və xeyirxahlığın özü labüd olaraq səfehliyin, nadanlığın, istedadsızlığın, rəzilliyin köləsinə çevrilir və cəmiyyət qarşısıalınmaz bir tərzdə parçalanmağın mail müstəvisi boyunca yuvarlanır.

O ki qaldı biz müsəlmanlar arasında "susmaq" əməlinin məhz bu cür xarakter kəsb etməsinə, - bu fakt hər kəs üçün aşkardır.

Şahlar və xanlar minilliklər boyu bizim başımıza qapaz vurub, kürəyimizə yumruq vurub, biz isə ilan kimi qıvrıla-qıvrıla "səbr yaxşı şeydir" deyərək bütün bunlara dözmüşük.

Minilliklər boyu hər cür şarlatanlar özlərinin əmin-amanlığı naminə bizim müqəddəs dinimizi istismar etmişlər, onlar bizim qəlbimizlə oynamışlar və biz buna da dözmüşük.

Əslində bizi döyməyən, bizi cismən şikəst etməyən, qəlbimizi və ruhumuzu təhqir etməyən qalıbmı? Bizi hökumət adamları da döyüb, bizdən yaşlılar da döyüb, riyakar ikiüzlülər də döyüb, müdərrislərimiz də döyüb, valideynlərimiz də döyüb.

Nəhayət, həm ruhən, həm də cismən əzilmiş, şikəst edilmiş bizlər tamam lal olmuşdur. Bizim nə danışmağa, nə də ağlamağa gücümüz, taqətimiz qalmayıb!

Halbuki, indi məhz "danışmaq" qabiliyyətinə, öz ehtiyaclarımızı başa düşərək icad etməyi bacarmağa çox böyük tələbat yaranmışdır. Bizim bütün gələcək taleyimiz, bizim bütün gələcək mövcudluğumuz bundan asılı olacaqdır. Rusiyalı müsəlmanlar üçün də köhnə dəyərləri yenidən qiymətləndirmək üçün tarixi məqam yetişmişdir. Biz özümüzün "tarixi sükutumuzu" da, onunla birlikdə insanların taleyinə hansısa möcüzəli bir ilahi qüvvənin müdaxilə edəcəyinə tarixi inamı da bir kənara atmalıyıq. Biz müsəlmanlar nədənsə belə düşünməyə vərdiş etmişik ki, guya biz heç nə etməsək də ulu tanrı bizim qeydimizə qalacaq və işlərimizi lap yaxşı yoluna qoyacaqdır. Bu cür düşüncə ilk növbədə "Quran"a ziddir. "Quran"da göstərilir ki, insanın bütün taleyi, onun bütün qisməti özünün enerjisindən və əməyindən asılıdır (Leysa lil İnsani əllamə sə'a). İnsan öz xoşbəxtliyini yalnız əməkdə tapa bilər. Bir də ki, tarix özü dəfələrlə bizi başa salıb ki, bu cür inanclar cəfəngiyyatdır. Biz hər dəfə səhlənkarlıq edəndə, tənbəllik, apatiya bizi

üstələyəndə, həyat enerjisi fövqəltəbii möcüzələrə tənbəlcəsinə inamla əvəz ediləndə elə həmin ulu tanrı öz çarxını bizə qarşı çevirir və ən amansız zərbələr endirirdi. Lakin bütün bu ibrət dərslərinə baxmayaraq, biz düzəlməmişik və hələ də düşünürük ki, biz heç nə etmədən sutkada 18 saat yatmaq, kef etmək, yuxudan, tənbəllikdən, kefdən asudə vaxtlarımızı da bir-birimizin qeybətini qırmaqla keçirə bilərik. Guya bunların heç bir eybi yoxdur, tale özü bizim həyatımızı quracaq və biz gündə 18 saat işləyən, əl-ələ verib yaşayan xalqlarla rəqabət aparmağa qadir olacağıq.

Daha belə yaşamaq yaramaz.

Ruslar bizi sevirlər! Bəli, Peterburqda olduğum müddətdə mən bunu hamıdan artıq yəqin etdim. Lakin bu sevgidən istifadə etmək üçün, ondan hər cür səmərə almaq üçün biz işləməliyik, biz özümüz özümüzün qeydinə qalmalıyıq, öz ehtiyaclarımız barədə danışmalıyıq, bu ehtiyacların təmin edilməsi üsullarını göstərməliyik. Bir sözlə, özümüzü cansız, ölü portretlər yerinə qoymaqdan əl çəkməliyik. Artıq neçə əsrdir ki, ruslar bizi sevir və lakin bizim tənbəlliyimiz sayəsində, bizim dinməzliyimiz sayəsində bu sevgi bəhrəsiz qalıb. Biz müsəlmanlar Rusiyada ən hüquqsuz, diqqətdən ən çox kənarda qalmış, Rusiyada ən geridə qalmış ünsürlərik. Bu cür tənbəl və fəaliyyətsiz tərzdə, təkcə rusların rəğbətinə ümid bəsləməklə yaşamaq daha olmaz. İndi bütün Rusiya qarşısıalınmaz və qüdrətli bir tərzdə yeniləşdiyi bir dövrdə biz müsəlmanlar da yeniləşməliyik, əks təqdirdə biz yenə geridə qalacağıq, yenə hamı bizi ötüb keçəcək. Təkcə çarın canişini qraf Vorontsov-Daşkovun bəyan etdiyi islahatların həyata keçirilməsi yüksək mədəni hazırlıq tələb edir. Gün kimi aydındır ki, bu diyarda ən sanballı ünsür olan bizlərin köməyi olmasa, bu islahatlar həyata keçirilə

bilməz. Halbuki, öz keçmişimiz sayəsində, bizim mürgüləməyimiz sayəsində çətin ki, biz öz vəzifəmizi yerinə yetirməyə hazır olaq, çətin ki, həyatın yeni formalarından baş açа bilək. Bu yeni həyat formaları elə yeni şərait yaradacaq ki, mövcudluq uğrunda mədəni mübarizə bizdən ötrü "nec plus ultra" həddinə qədər qəlizləşəcək və yalnız mədəni ünsürlərin üstün gəlməsinə imkan yaradacaqdır.

Bax, bu yeni həyat formaları arasında başımızı itirməmək üçün, həmin formalara ağlabatan tərzdə uyğunlaşmaq üçün, orada özümüzə layiqli yer tuta bilmək üçün biz müsəlmanlar bütün qüvvəmizi ikiqat artırıb səfərbər etməliyik. Bir tərəfdən indiyə qədər itirilmiş qızıl kimi vaxtımızın əvəzini çıxmaq və ətrafımızdakı xalqların səviyyəsinə çatmaq üçün, digər tərəfdən - lap elə bu saat, dərhal yeni həyatda bizim sayımıza və biliklərimizə münasib yer tutmaq üçün. Bundan ötrü isə: a) elə bu saat, dərhal ictimai həyatda bizim zəifliyimizin, indiferentliyimizin, apatiyamızın, dava-dalaşın, şəxsi-qərəzliyin bütün səbəblərini bir kənara atmalıyıq; b) hər yerdə və hər işdə ağla, zəkaya, işgüzarlığa, biliklərə, namusluluğa üstünlük verməli, onları yerlibazlığın, qohumbazlığın və şəxsi qərəzlərin kölələrinə çevirməməliyik və nəhayət c) müsəlmanlar hər yerdə və hər işdə müsəlman ziyalılarına tam etimad göstərməli, onları özləri üçün rəhbər seçməli, onların məsləhət və göstərişlərinə əməl etməlidirlər, çünki yeni həyatın tələblərini, bu tələblərin təmin edilməsi üsullarını ən yaxşı bilən həmin ziyalılardır. Ziyalılar isə bütün qüvvələrini cəmləşdirməli, gecə-gündüz dayanmadan işləməlidirlər, ölkə yeni həyata qədəm qoyduğu andaca çarın canişininin rəhbərliyi altında bu diyarın bütün ünsürləri diyarda yeni həyat qurmaq üçün ümumi işə çağırılanda ziyalılar bir məqamı dərindən dərk etməlidirlər ki, onlar

Herkules kimi, çətin və mürəkkəb bir məsələni həll etməli olacaqlar. Bu məsələnin həllində ən çətin, ən mürəkkəb işlər ziyalıların üzərinə düşəcək, onlar öz xalqlarının taleyini müəyyənləşdirən məsələləri həll etməli olacaqlar. Bax buna görə də ziyalılar elə bu saat, təxirəsalmadan bu məsələlər üzərində düşünməli, onları hərtərəfli, ağılla götür-qoy etməli, heç bir sentimental və ya nəzəri ideologiyaya uymamalıdırlar.

Məşvərətçi orqan, andlılar məhkəmələri, zemski və silk təsisatları, ruhanilərin yeni təşkilatı və diyara vəd edilən sair yeniliklər ifrat dərəcədə mürəkkəb, dolaşıq və ciddi məsələlərdir, onları hər hansı ümumi şablon əsasında həll etmək olmaz; indiki halda bu məsələlərin hər biri müəyyən ölkənin, müəyyən diyarın xüsusiyyətlərinə, onun iqtisadi və etnoqrafik vəziyyətinə uyğunlaşdırılmalıdır. Bundan ötrü isə həm sözügedən təsisatları, həm də diyarın özünü hərtərəfli öyrənmək lazımdır. Yalnız bu şərtlər daxilində həmin təsisatlar bizdən ötrü ən çox arzuedilən forma və çalarlar kəsb edəcək və bu halda diyarın ən sanballı ünsürü, nəhayət diyarın həyatında onun sayına və mövqeyinə uyğun yer tuta biləcək. İndiyə qədər olduğu kimi kənarda qalmayacaqdır. Bizim ziyalılarımız bax, bu məsələni öz üzərinə götürməlidir.

Ə. (Əhmədbəy) AĞAYEV,
"Kaspi" qəzeti, № 93, 1905

Ruscadan çevirən: O.Qəbələli
"Günay", №6, 7; 12, 19 fevral 2005-ci il

1917-Cİ İLİN FEVRAL İNQİLABI NİYƏ QEYD EDİLMİR?

Rusiyada mütləqiyyət rejiminə son qoymuş fevral inqilabının 88 ili tamam olur. 1917-ci il fevralın 27-də (yeni təqvimlə martın 12-də) Petroqradda qələbə çalmış bu böyük inqilab nəticəsində Rusiya imperatorluğu süqut etmiş, Rusiyada yaşayan millətlərin çoxu istibdad zəncirindən qurtarmışdı. İnqilabın nəticəsində bir məşhur şüar ortaya atılmışdı. O da millətlərin təyini - müqəddəratı hüququ şüarı idi. Maraqlıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq varlığı dövründə, yəni, 1919 və 1920-ci illərdə Azərbaycanda 27 fevral (12 mart) çox geniş və təntənəli şəkildə ümumxalq bayramı kimi qeyd edilmişdir. Həm də uzun müddət bizə təlqin edilən "burjua-demokratik inqilabı" kimi yox, "Rusiyada süni millət halına gətirilmiş millətlərin azadlığının elan olunduğu inqilab" günü kimi səciyyələndirilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 1919-cu il martın 12-də keçirilən 22-ci təntənəli iclası haqqında "Azərbaycan" qəzetinin martın 15-i nömrəsində dərc olunmuş qısa hesabatda bu bayram mərasimi haqqında çox dəyərli məlumat var. Qəzetdə oxuyuruq:

"Çərşənbə axşamı, martın 12-də, Böyük Rusiya inqilabının ildönümü münasibətilə parlamentin təntənəli iclası keçirilmişdir.

Parlamentin binası bayır tərəfdən milli və qırmızı bayraqlarla, çil-çıraqlarla bəzədilmişdi. İclas zalına xalçalar döşənmiş, zal bayraqlar və yaşıllıqlarla bəzədilmişdi.

Saat 11-dən etibarən xalq parlamentin binası qarşısında toplaşmağa başladı. Məktəblilər öz orkestrləri ilə, dəmir yol rayonunun, Tağıyev fabrikasının, Qara şəhərin və başqa rayonların

fəhlələri musiqi və bayraqlarla toplaşdı. Parlamentin sədri H.Ağayev və parlamentin üzvləri D.Məlik-Yeqanov, R.Vəkilov, R.Qaraşarov, M.Ə.Rəsulzadə, Ə.H.Qarayev, A.K.Kazımzadə, N.Usubbəyov inqilabın əhəmiyyəti mövzusunda nitqlərlə parlament qarşısında çıxış etdilər. Müxtəlif partiyaların sədrləri də çıxış etdilər.

Saat 12.45 dəqiqədə H.Ağayevin sədrliyi ilə parlamentin təntənəli iclası başlandı. Sədr aşağıdakı məzmunda nitq söylədi: "Bugünkü təntənəli iclasın səbəbinin Böyük Rus inqilabının ildönümü ilə bağlı olmasını siz, əlbəttə, bilirsiniz. Siz bilirsiniz ki, düz iki il bundan əvvəl köhnə stillə fevralın 27-də rus çarizmi süqut etmiş və mütləqiyyət zülmü altında olan xalqlar azadlığa çıxmışlar. Zəncirlər qırılıb tökülmüş, xalqlar öz hüquqlarını əldə etmişlər. Dünənki kölələr bu gün azad olmuşlar. Azadlıq, bərabərlik, ədalət şüarları zəfər çalmışdır. Hamı ümid edirdi ki, inqilabın rolu birinci növbədə xalqların azadlığa çıxmasından ibarətdir. Bu inqilaba hamıdan çox sevinən mütləqiyyətin zülmünü və öz milli heysiyyatının təhqir olunmasını, xüsusilə hiss edən kiçik xalqlar olmuşdur. Lakin bu sevinc uzun sürmədi, çünki inqilab öz yolundan sapdı. Siyasi inqilabı sosial inqilaba çevirməyə cəhd edən insanlar tapıldı. Onlar tarixin ibrət dərslərinə əsla məhəl qoymadan bütün məsələləri dərhal sosializm ruhunda həll etmək istəyirdilər. Bolşevizm alovu bütün Rusiyanı bürümüsdü. Onlar kiçik xalqların hüquqlarını da qəsb etdilər. Ayrı-ayrı xalqlar öz ərazilərində inqilabın nailiyyətlərini qorumaq üçün öz müstəqilliyini elan etməli idilər. Lakin bizim müstəqilliyimiz barədə fikirləri yaxın buraxmayan solçu və sağçı partiyalar bunun əleyhinə çıxdılar. Buna görə də Azərbaycan türkləri öz müstəqilliyi uğrunda mübarizədə yüz minlərlə qurban verməli oldular, qan su yerinə axıdıldı. Azadlıq asanlıqla, qansız əldə edilmir. Biz də qan axıtmışıq və indi öz müstəqilliyimizə nail olandan sonra var qüvvəmizlə onu qoruyub saxlamalı və müdafiə etməliyik (alqışlar).

İndi biz öz müstəqilliyimizi ona təhlükə yaradan qüvvələrdən sona qədər müdafiə etməliyik. Əgər biz onu qorumasaq, məhv ola bilərik. Buna görə də hamını partiya mübarizəsindən əl çəkməyə və sıx birləşərək öz azadlığımızı və müstəqilliyimizi müdafiə etməyə çağırıram. Əgər bu işdə Qafqaz xalqları əlbir olsa, heç bir düşmən qüvvə bizim üçün qorxulu olmaz.

Yaşasın Azad Azərbaycan!

Yaşasın Qafqaz xalqlarının birliyi!

(Alqışlar)".

* * *

1920-ci il martın 12-də (fevralın 27-də) Azərbaycanda fevral inqilabının 3 illiyi daha geniş və təntənəli surətdə bayram edilmişdir. Millət vəkilləri öz çıxışlarında qeyd etmişlər ki, "İstiqlalımız dövründə bir neçə dəfə təntənəli iclaslarımız və bayramlarımız olmuşdur: istiqlaliyyət elanı münasibətilə, istiqlalımızın təsdiqi münasibətilə bugünkü təntənəli iclas onları doğduğu üçün onların anasıdır".

Azərbaycan parlamentinin təntənəli iclasını açan Məmməd Yusif Cəfərov giriş nitqində demişdir: "Fevralın 27-də Petroqradda böyük bir inqilab əmələ gəlmiş, Rusiya imperatorluğunu yıxmışdır. Bu inqilabda Rusiyanın cümlə millətləri dəxi iştirak etmişlərdir, bu gün böyük və tarixi bir gündür. Əgər dünya min sənələrlə yaşasa, yenə böylə bir günə təsadüf edilməyəcəkdir... Bu inqilabın içində azəri türkləri də iştirak etdilər, qanlar tökdülər və qurbanlar verdilər. İnqilabın nəticəsində bir şüar meydana atılmışdı. O da millətlərin təyini - müqəddəratı idi. Yəni hər millət öz müqəddəratını təyin edə bilər. Millətlər bu şüarı təqib ilə öz müqəddəratlarını əllərinə aldılar. O cümlədən azəri türkləri də öz müqəddəratlarını əllərinə aldılar, elani-istiqlal edib parlament və hökumət vücuda gətirdilər. Bu həqiqəti unutmamalıyıq".

Azərbaycan Parlamentinin üzvlərindən M.Ə.Rəsulzadə, İbrahim Əbilov, Qarabəy Qarabəyov, Səmədağa Ağamalı oğlu və b. təntənəli iclasda çıxış etdilər. M.Ə.Rəsulzadə çıxışında belə bir mühüm məsələyə toxundu: "Bir Rusiya inqilabı var, bir rus inqilabı var. Bu iki məfhumu anlatmaq lazımdır. Bu gün (fevralın 27-si) rus inqilabı deyil, Rusiya inqilabıdır. Rusiya süni bir millət götürmüşdü. Millət, təbiidir ki, hökumət və dövlət qurar, bir də süni millət var ki, böyük cahangirlər, imperialistlər qollarının gücü ilə bir yerə toplar və onları bir yerə cəm edər, bir millət düzəldər. Rusiya istibdadı zamanı bir türk, bir gürcü, bir erməni xaricə çıxarkən Rusiya pasportu ilə çıxıb bir rus sayılardı. Rusiya inqilabı, Rusiyada toplanmış və süni millət halına gətirilmiş millətlərin yandığı inqilabdır. İnqilab bunları azad etdi... Bu gün Azərbaycan, Gürcüstan, Ermənistan milli hökumətlər təşkil etmişsə, bu göstərir ki, Rusiya inqilabı əsl mahiyyətinə bir qədər yaxınlaşmışdır. İkincl inqilab ki bolşevik şüarı ilə meydana atılmışdır, bu Rusiya inqilabı deyil, rus millətinin inqilabıdır. Rus inqilabı isə Rusiya daxilində rus millətinin istixlası (xilas olması) üçün vücuda gəlmiş bir inqilabdır. Bu gün... sabiq Rusiya inqilabından rus inqilabı təşkil olunmuşdur".

Millət vəkillərinin çıxışlarında Rusiyada 1917-ci ildə həyata keçirilən böyük Rusiya fevral inqilabı ilə oktyabrda bolşeviklərin həyata keçirdiyi inqilabı münasibətdə müxtəlif fikir və münasibətlər də öz əksini tapırdı. İstiqlalçılar bolşeviklərin Rusiya imperiyasını başqa şüarlarla yenidən bərpa etmək meyllərini nəzərə çatdırdıqları halda, hümmətçi sosialist-bolşeviklər iddia edirdilər ki, "Ermənistanda və Azərbaycanda hələ inqilab olmayıb, bu inqilab qabaqdadır" (Ağamalı oğlu).

Məncə dərsliklərimizdə və tarix ədəbiyyatında Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1917-ci ilin fevral inqilabına verilən qiymət nəzərə alınmalıdır.

"Günay", №8, 26 fevral 2005-ci il

85 İL BUNDAN ƏVVƏL QARABAĞDA ERMƏNİ QİYAMI VƏ ONUN LƏĞVİ

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamentinin ölkənin ərazi bütövlüyünü qorumaq, sərhədlərinin toxunulmazlığını təmin etmək, qanuni hökumət orqanlarına tabe olmamaq meyllərini, hər cür özbaşınalıq və hətta müxtəlif bəhanələrlə milli toqquşmalar törədən separatçılara qarşı aldığı qəti tədbirləri araşdırıb ümumiləşdirmək və təbliğ etmək vacib vəzifələrdəndir. Bu sahədə son illər az iş görülməyib, çox maraqlı sənədlər və tədqiqatlar aparılıb, əsərlər nəşr olunub. Təəssüf doğuran onları oxuyub-öyrənənlərin sayının azlığıdır. Elə əsərlərin tirajı da həddindən artıq az və həm də bəzi hallarda çox bahadır. Məsələn, 1998-ci ildə prezidentin sərəncamı ilə "Azərbaycan" nəşriyyatı Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi münasibətilə çoxcildlik sənədlər toplusunu (7 kitab) nəşr etmişdir. Burada dövlət quruculuğu, xarici siyasət, ordu quruculuğuna və digər sahələrdə görülən işlər, parlamentin qanunvericilik və ölkənin taleyi ilə bağlı müzakirə etdiyi məsələlər və s. dair çox qiymətli materiallar, arxiv sənədləri və s. verilmişdir. Əvvəla bu sənədlər toplusu cəmi min nüsxə tirajla buraxılıb, həm də kiril əlifbası ilə nəşr olunduğundan, artıq köhnəlib, ikincisi, çox baha qiymətə (təxminən 100 dollara) satıldığından, hətta mütəxəssislərin belə onu almağa imkanı yoxdur. Göstərdiyimiz sənədlərdən dərs vəsaiti kimi istifadə etmək də vacib və lazımdır. Respublikanın təkcə mərkəzi kitabxanaları deyil, ali və orta məktəblərinin kitabxanalarında, şəhər və rayonların mərkəzi kitabxanalarında bu kitabların olması, oxunması və təbliği faydalı olardı. Təəssüf ki, belə deyil. Müasir dövrdə hayküyçülüklə, teleşoularla, yubiley mərasimləri ilə kimisə inandırmaq, nəyisə təlqin etmək mümkün deyil. Əsas diqqəti təhsil

sisteminə, dərsliklərə, müəllim kadrlarının hazırlıq və peşəkarlıq səviyyəsinin daim təkmilləşməsinə, yüksəlməsinə, tədqiqat işlərinin elmi əsaslar üzrə obyektiv, hər cür təzyiqlərdən və sifarişlərdən, ideoloji və siyasi stereotiplərdən azad surətdə aparılmasına yönəltmək lazımdır. Bu mühüm məsələdə kütləvi informasiya vasitələri də böyük rol oynaya bilər.

85 il bundan əvvəl 1920-ci il martın 22-də Novruz bayramı günü ermənilər Şuşa şəhəri, Şuşa qəzası və onunla qonşu olan digər qəzalarda eyni vaxtda qiyam qaldırdılar. Bu məsələ Azərbaycan Cümhuriyyəti parlamentində çox geniş və ciddi müzakirə edildi, ümumiyyətlə ermənilərin türk-müsəlmanlara qarşı həyata keçirdikləri və keçirməkdə olduqları milli qətliam siyasətinə və onun aradan qaldırılması yolları və vasitələrinə dair dəyərli təklif və mülahizələr söyləndi. Həm də hökumətin bu qiyamı yatırmaq sahəsində gördüyü tədbirlər barədə parlamentin sonrakı iclaslarında daxili işlər nazirinin hesabatı dinlənildi. Bu tarixi sənədlərlə tanışlıq bu gün üçün də ibrətamiz və faydalıdır. Onlarla oxucuların da tanış olmasını vacib bilirəm.

AZƏRBAYCAN PARLAMENTİNDƏ ERMƏNİ TƏCAVÜZÜNÜN MÜZAKİRƏSİ

(MART 1920)

MUSTAFA BƏY VƏKİLOV (DAXİLİYYƏ NAZİRİ):

Möhtərəm məbus əfəndilər! Son günlərdə əfkari-ümumiyyəni işğal edən Qarabağ hadisələri barəsində izahat verəcəyəm. Martın 22-də və iki gün ondan irəli Şuşa qalasına, Azərbaycan xidmətində olan uçastoka erməni pristavları generalqubernatorun görüşünə gəlmək adı ilə hərəsi 15-20 nəfər müsəlləh (silahlı) erməni strajnikləri ilə şəhərə gəlmişlərdir. Beləliklə, şəhərə 200 nəfər müsəlləh erməni əsgəri toplaşmışlar.

Bir bu qədər də şəhərdə olanlar bizim Şuşada əsgərlərimizə hücum etmişlərdir.

Bir neçə zabiti həbs edib, əsgərlərə atəş atmışlardır. Bir tərəfdən bayram münasibətilə xalq evlərində istirahətə məşğul olduqlarından, digər tərəfdən camaat böylə xəyanətə və məchulə bir hücum gözləmədiklərindən bu hadisə olduqca nagəhan olmuşdur. Məəmaafiyə (buna baxmayaraq) Şuşadakı əsgəri hissələrimiz onların başlarında duran zabitan (zabitlər) qəhrəmanə bir surətdə onların hücumunu dəf edə bilmişdir. Bu surətlə martın 22-23-də bütün günü atışma getmiş və o günün qürub çağı asilər artıq dayanmayıb şəhərdən çıxmağa məcbur olmuşlardır.

Ermənilərin bu hücumları yalnız Şuşada deyil, eyni hal ilə Xankəndində də olmuş, hücumları dəf edilmişdir.

Həmçinin bu növ Əskərana da hücum edilmişdir... Məlum olur ki, iş bu üsyan hərəkatı bir neçə aylardan bəri imiş ki, hazırlanırmış. Bu xüsusda böyük hazırlıqlar görülmüş, bu hücuma başlamaq üçün onların müəyyən siqnalı olmuşdur. Şuşa qalasının yaxınlığında bulunan "Şuşa" kəndində top atəşi vasitəsilə verilən siqnal üzərinə hər yerdən birdən bizim əsgərlərimizə hücum eyləmişlərdir.

Bunlarla bərabər Qarabağın Cavanşir, Zəngəzur qəzalarında olan erməni əhalisi də bizim əsgərlərimizə hücum edib, üsyan qaldırmışlardır. Əlbəttə, bu üsyan na qədər böyük bir miqyasda hazırlansa da hər yerdə onlara böyük zərbələr vurulub hücumları dəf edilmişdir. Hazırladıqları planları bir nəticə verməmişdir...

Ələ keçən sənədlərdən və vəsiqələrdən məlum olur ki, bu fitnə hazırlığını yerli əhali nəinki öz təşəbbüsü ilə etmiş, bəlkə kənardan gəlmiş qüvvələr bunu hazırlamışlardır. Şuşa şəhərində

erməni ziyalı sinfi onların arxasınca getməmişlərdir. Başqa köylərdə (kəndlərdə) də əhali asilərə qoşulmaq istəməmişlər. Fəqət, üsyançılar onları zor ilə kəndilərinə (özlərinə) tabe etmişlərdir.

Əlbəttə, bu kimi həyasız fitnəni yaratmaq üçün əsgəri qüvvəyə müraciət etməkdən əvvəl həyəcana gəlmiş əhali kəndisi (özləri) yatırmağa çalışmış.

Məmləkətin hər tərəfindən camaat sel kimi könüllü sifətilə axıb məhəlli-hadisəyə gəlməkdədir. Hazırda bu xalq axınının qarşısını almaq müşkül bir hal olmuşdur. Hər yerdən cəbhəyə qoşularaq kəndi (öz) qardaşlarının imdadına gəlirlər.

Qarabağda müvəqqətən pozulmuş imtizam və qayda bu yaxınlarda düzələcəkdir. Hökumət bu xüsusda ciddi və qəti tədbirlər görmüş və görməkdədir. Yaxın günlərdə bu üsyan təsviyyə (ləğv) ediləcəkdir.

Nəsibbəy Yusifbəyli (hökumət rəisi): Erməni (Ermənistan) hökuməti qərar vermişdir ki, o yerlər ki, ermənіyə tabe olmayır, top ilə alsınlar... Erməni qoşunları 24 ədəd müsəlman kəndlərinin yer ilə yeksan edib, orada əhalini tamamilə kəsmişlərdir. Uşaqları belə tonqala basmışlardır. Övrətlər də tələf edilmişdir, yerdə qalanlar da qaçan qaçmışdır... Ermənilərin idarəsi altında olan yerlərdə Eçmiadzin, Novbayazid, İrəvan qəzalarında və sair yerlərdə külli miqdarda müsəlman var idi. Hər halda əhalinin 30 faizi qədərdi. Fəqət, nasılsa, birdən-birə bunların həbsi yoxa çıxmış və nəticədə müsəlman şimdi orada yoxdur... Bunun önünü (qarşısını) almaq lazımdır...

Əfəndilər! Böyləliklə qurulan hökumət yaşamaz. Qan ilə yoğrulmuş dövlət başa getməz... Göstərək ki, vəhşi kimdir, mədəni kimdir?...Erməni vətəndaşlarımız da bizimlə, hətta bizdən də qabaq səslərini ucaltmalı və deməlidirlər ki, bəsdir

daha böylə hökumət qurmaq olmaz. Bu cür rəftarınızla aləmi qana bulayırsınız...

İbrahim İsmayılzadə (məbus): ...Erməni daşnak firqəsi müsəlman qüvvə propaqandasına istinad edərək Türkiyə və Qafqaziyada bir yekvücud Ermənistan fikrinə düşdülər. Həmin bu zaman Rusiyada birinci inqilab araya gəldi. Daşnaklar cığırlarından çıxdılar və öz arzularına nail olmayacaqlarını, inqilab şüarı ilə yeni hökumətlər meydana gəldiyi təqdirdə imperialist arzuları məhv olacağını görərək başqa yolda işə başladılar. O idi ki, Kerenski dövründə Mivanfolov vasitəsilə min dürlü fitnələr yapmağa başladılar. Məqsədləri də məhəlli idarələri pozmaq, Azərbaycan və Gürcüstan idarələrini məhv etmək idi. Fəqət bu da olmadı. Çünki o zaman Rusiyada sosialist inqilabı başladı və iş başına bolşeviklər keçdilər. Ruslar cəbhəni tərk etdilər. Bu zaman daşnaklar Türkiyədə, Kilikiyadan başlamış bəhri-Xəzərədək böyük bir Ermənistan yaratmaq fikrinə düşdülər və bolşeviklərlə əlbir olaraq, bizi xan və bəy deyərək qırdılar. Mən özüm Gəncədə komissar olan zaman gəlib kazaklara deyirdilər: Gəncə məhəlli türklərini tərk silah etdirmək lazımdır. Guya bizim depolarımız, kilitli silahlarımız varmış və fikrimiz bəylərin və xanların əksinqilab fikrinə xidmət etmək imiş. Eyni zamanda, bolşeviklər türklər ilə sülh əqd edərək gözlədikləri Karsı türklərə verdilər. Bu surətlə daşnakların ümidləri olan bolşeviklərdən də əli çıxaraq bu dəfə də Avropa imperialistlərinə qul olub, fitnə-fəsad çıxarmağa başladılar. Digər tərəfdən isə Avropa sosialistlərinin konfransına soxularaq, Azərbaycanda sosialist yoxdur, tək-tək düşünənlər varsa da, bəylərin nüfuzundan qurtarmamışlar - deyə guya türk demokratiyasını yox kimi göstərərək Azərbaycan sosialistlərinin konfransa yolunu kəsmək və nəticədə daşnak xülyasına nail olub 7 quberniya daxilində Böyük Ermənistan yaratmağa səy

edirlərdi. Çox qəribə gəlməsin ki, ingilislər Batuma ilk qədəm qoyduqları vaxt daşnak alayı Gürcüstana hücum eylədi. Mən o zaman Tiflisdə idim. Onlar elə güman eylədilər ki, ingilislər gəlib Gürcüstanda onların keyfi istədiyi kimi hərəkət edəcəklər. Xalqa deyirdilər ki, Azərbaycanla Gürcüstan xalqını tələf edərək, daşnakları bütün Şərqə hakim edəcəklərdir. Bu olmadı... Bugünkü məsələ yalnız Kars deyil, Zəngəzur məsələsi var, Qarabağ var... Onlar fikirlərini Avropa imperialistlərinə verib, onlara güvənirlər... Bir firqə ki, mərkəzi komitəsi xaricdədir, onun şöbəsi Azərbaycanda olmaz. Daşnakları qovub buradan çıxarmaq lazımdır. Dünən İrəvanda xalqı məhv edən bir firqənin əzasını (üzvlərini) aradan çıxarmaq lazımdır...

Baba bəy Kabulov (Əhrar partiyası): Mən öylə bilirəm ki, nə qədər danışılarsa, bu məsələ qurtarası deyildir. Əfəndilər! Bu gün Parlamentin xariqüladə iclasıdır. Burada biz açıq danışmalıyıq. Siz bilirsiniz ki, bu gün ortalıqda bir erməni məsələsi vardır. Və, o məsələni Azərbaycan milləti və Parlamenti... həll etməlidirlər. Artıq quru danışıq və alqışlar ilə bir şey olmaz. Belə şeylər ilə Zəngəzurda qırılan, irzi-namusu puç olan müsəlmanların dərdinə dərman olmayır. Baxınız, əgər İstanbulda naxoşluqdan bir erməni ölürsə, ermənilər bütün Avropa əfkari-ümumiyyəsinə, türklər filan qətliamda bunu öldürdülər deyə qışqırırlar. Avropa əfkari-ümumiyyəsi də onları eşidir, fəqət erməni bandaları, canavarları, mauzeristləri tərəfindən tar-mar edilən xanimanları Avropa görmür. Ərşə qalxan ah-nalələri onlar eşitmir (Alqış). Əl çalmarız, əl çalmaq ilə dərdə əlac etmək olmaz. Mən hissiyata qapanıb danışmıram. Mən bir azərbaycanlı kimi danışıram. Bu cür məsələləri müahidələr, bağlaşmalar ilə, konfranslar ilə həll etmək olmaz. Artıq biz aldanmamalıyıq, çünki o qatillərin şüarı islamı qırmaqdır. Hamımız bilirik ki, daşnaklar

Avropanı qapı-qapı gəzib Türkiyə məsələsinin bu cür həll edilməsi üçün hər alçaqlığı qəbul etmişlərdir. Onlar Osmanlı türk məsələsindən sonra Azərbaycan məsələsinə girişmişlərdir. Onlar süni yollar ilə erməni əksəriyyəti (çoxluğu) qayırmaq istəyirlər, bu inkar edilməz. Bunların darülfunun görmüşləri, alimləri vardır, əcaba bunların heç qəlbi ağrımır, ruhu sıxılmır, ürəklərində şəfqət və mərhəmət yoxmudur ki, heç olmazsa daşnakların bu zülmünə qarşı protesto etsinlər?...Biz quru protesto edirik, fəqət bunlardan dərdə əlac olmaz. Bugünkü gündə azərbaycanlılar öz müqəddəratını düşünüb həll etmək üçün başqa yolların hamısını bilir. Qoyunuz millət özü bunu düşünüb böylə məsələləri həll etsin. Avropadan isə şimdiyə qədər bu fəlakətləri görmürlər. Çünki onların gözlərindəki çeşmələr Poqos Nübar paşaların əlilə taxılmışdır. Nə qədər ki, o çeşmələr çıxarılmamış biz xilas olmayacağıq və onlar da həqiqəti görməyəcəklər. İş böylə olduqda, biz bilümum təfriqəni bir yana buraxıb, yığışalım, tədbir edəlim və çalışalım ölmək icab edərsə, nə eybi var, qoy desinlər ki, Parlament əzasından (üzvlərindən) bir neçəsi gedib, özünü millətə fəda etdi və birdəfəlik bu zalımların qarşısına bir sədd çəkəlim. Sizsə öylə bilməyin ki, burada daşnak firqəsi işləməyir. Bir para namussuz müsəlmanlarımız vasitəsi ilə, hətta daşnak şöbələri buradan külli surətdə paralar toplayıb, Ermənistana belə göndərirlər. Belə işlərdə bütün ermənilər iştirak edir... Mən təvəqqe edirəm ki, buna ümumi bir əlac tapasınız. Məlumunuzdur ki, hər xəstəliyin özünə məxsus əlacı vardır. Hökumət bu xəstəliyə hərgah əlac etməyə, biz millət özümüz gedib intiqam alarıq.

Əsədulla Əhmədov: ...Nə qədər hökumətlər dəyişir, sosialistlər olur, menşevik olur, daşnakların nəzərində biz yenə də müsəlmanıq. Osmanlı olur, bolşevik olur, yenə müsəlmanıq. Onların məqsədi burada müsəlmanları qırıb məhv etməkdir...

Mart hadisələrində bir həyətdə deyil, bir evdə 24 çocuq ölməsini gözümlə görmüşəm... Vəhşiliyə və canavarlığa qarşı kulturnu yol heç çarə edəməz. Mən onların injenerlərini, həkimlərini, raboçilərini, hamısını əli tüfəngli, güllə atan gördüm. Hökumət dedi sülh yolları arayayım... Məncə, camaatın qabağını kağızla saxlamaq mümkün olmayacaq. Mənim 50-dən artıq yaşım var, mən heç görməmişəm ki, ermənilər döyüləndən sonra ağlasınlar. Həmişə döymüşlər, həm də ağlamışlar. Biz müsəlmanlara deyirlər ki, vəhşisiniz. Məncə ən böyük vəhşilik insan öldürməkdir ki, onu da əlinizdən alıblar.

Qara bəy Qarabəyov: ...Fəlakətimizin mənbəyi budur ki, kiçik hadisələri nəzərə alırıq, amma onları təvəllüd etdirən (doğuran) böyük amillərə əhəmiyyət vermirik. Millət öylə təhlükə qarşısındadır ki, xətti-hərəkətimiz bəlli olmazsa, bizim də Karsdakı qardaşlarımızın gününə düşməyimizə bir şey qalmayıb. Məsələyə böylə yaxınlaşmaq və bu nöqteyi-nəzərlə tədqiq etmək istəyirəm. Bu məsələ: 40-50 ildir bizi qırırlar, həmişə bizim əlimiz bağlı, dilimiz tutulu olub, cavab verməmişik. Bu gün də yenə böylə qalarsa qeyri-məlumanə surətdə xətti-hərəkətimizi bulmayıb, fəlakətdə qalarıq.

Siz bilirsiniz ki, bu qırğınlar mühüm və əsgi bir siyasət nəticəsidir. Karsdan əvvəl məsələ olmamış, İrəvan, Zəngəzur və digər qəzalarda əmsalı (misli) görünməmiş vəhşətlərə məhəl verilmədi. Rusiya çarı vaxtında Avropa siyasəti ilə müsəlmanları əziyyətdə saxlamaq üçün dürlü vasitələr vardı. Onlardan birisi də daşnak firqəsi idi. Onun siyasətini biz çoxdan görürük. Türkiyəyə qarşı xətti-hərəkət bu günə qədər zühur etməmiş qan tökülür. Səbəb nə idi? Fikirləri nə idi? Türkiyə Avropa müharibəsinə müdaxilə etdi, o zaman onların fikirləri meydana gəlmədimi? Hər tərəfdə bandalar təşkil edilərək türklər əleyhinə

qiyamla rus ordusu himayəsinə atılırlardı. Bu Avropa fikridir. Aləmi-İslama qarşı müstəqil Avropa və Rusiyanın planı idi. Bunu artıq biz gördük. Bu işə bir az açıq gözlə baxmalıyıq, baxmasaq bəlanı üzərimizə kəndimiz (özümüz) gətirəcəyik. Bizə başımıza çarə qılmalıyıq. Rusiya çarizmi getdi, fəqət onu təmsil edən siyasət meydandadır... Daşnakları araya salıb, bizi qırdırıb məhv etmək istəyirlər. Avropada öylə qüvvət yoxdur ki, bura gəlib istədiyini yapsın. Daşnak və Denikin kimi qara qüvvələr vasitəsilə öz məqsədlərini təqib edirlər... Yalnız sülh arzusu kafi deyildir. Gərək hökumət ciddi tədbirlər görsün! ...Kimsədən müavinət istəməməliyik, özümüz-özümüzü mühafizəyə çalışmalıyıq. Budur bizim şüarımız və nicatımız.

Muxtar Əfəndizadə: Ermənilərin bu hərəkəti birinci dəfə deyildir. Bir çox dəfə bu surətlə bizim türklərin kökünü kəsməyə qərar vermişlərdir... Siz bilirsiniz ki, cahan müharibəsi əsnasında ermənilər rus ordusunu əllərində alət edərək Kars həvalisində, Olti, Ərdəhan, Qağızman, Artivən, Həsənqələ və sair türk yurdlarında şimdiki vəhşətdən daha ziyadə vəhşətlər yapmışlardı. Oralarda məscidləri tövlə yapmışlardı. Çoluq-cocuqları nizələrə taxaraq divarlara sancmışlardı. Qadınların əmcəklərini kəsmişlərdi və əlhasil yapmadıqları bir vəhşət qalmamışdı. Bununla iktifa etməyib (kifayətlənməyib) bu tərəflərdə də bizlərə bir çox təcavüzlərdə bulunmuşlardı. Məsələn, qoca bir islamı vaqon yürüdüyü halda vaqondan atmışlardı. Ucar vağzalında müsəlman qadınlarına təərrüz (təcavüz) etmişlərdi. Bunlar həp milli qitaldır (müharibədir). Fəqət, bu qital heç bir tarixdə bizdən baş verməmişdir. Biz hər zaman onları istədiyimiz kimi qıra bilərdik. Bir nəfər türk əvəzinə onlardan on nəfərini öldürməyə iqtidarımız vardır. Fəqət, əvvəla bizim dinimiz və saniyə də bizim mənsub

olduğumuz türk millətinə məxsus olan alicənablıq, böylə bir vəhşəti yapmağa bizə müsaidə etmirdi. Əgər onların yuxarıda zikr olunan yerlərdə və Bakıda yapmış olduqları vəhşəti (vəhşiliyi) məazüllah (Allaha sığınıb) müqabilə etməyə (əvəz çıxmağa) tənəzzül etsəydik (girişsəydik), yəqin hər kəs bilir ki, Bakıda, Gəncədə, Qarabağda, bəlkə İrəvanın özündə də bir nəfər erməni qalmazdı. Amma biz bunu yapmadıq və yapmayacayıq da, bu vəhşət ermənilərə məxsus və təbiidir. Biz, biləks (əksinə olaraq) ermənilərə təərrüz etmək istəyən bir çox türkləri Bakının ən görkəmli yerlərində asdıq, ipə çəkdik. Beləliklə də ermənilərin həyatını təmin etdik. Bu saatda da Azərbaycanda bütün ermənilər bizimlə həmhüquq olaraq yaşayırlar. Özləri də yaşamaq hüquqlarına əmindirlər. Amma biz onlardan öz vətənimizdə belə əmin deyilik. Görürsünüz ki, Azərbaycanın ayrılmaz bir hissəsi olan Zəngəzurda nə yapırlar. Bu hallar sizi şübhələndirməsin ki, Əsədulla Əhmədovun dediyi kimi, həmişə ermənilər bizi qırmışlar və sonra da özləri ağlamışlar. Yəni bizim onları döyməyə ixtiyarımız yox imiş. Xeyr! Biz hanki zaman istəsək onlardan bir an intiqamımızı ala bilərik... Ermənilər əvvəlləri rus ordusuna güvənib bir çox vəhşətlər yapmışlardısa da bu dəfə Kars, Zəngəzur, İrəvan hadisələrini qətiyyən yapamazlardı. Bunu yapa bilmələrinin əsl səbəbi bizim siyasətçilərin bir qisminin və hökumətimizin əksəriyyətinin istinad etdiyi Antantadır...

Onlar Bakıya gəldikdə bizim üçün də bir tərəfdə Denikin kimi bir yağı hazırlamağa başladı, digər tərəfdən ermənilərlə əlaqədə bulunub hər yerdə ermənilərı müdafiə etməyə başladı. Şuşada, Zəngəzurda vaqe olan bu qədər qətliamın önünü almağa nə bizi buraxdı, nə özü bir çarə gördü... boğazımıza ilan kimi sarılıb, bizi öz hüququmuzu müdafiə etməyə buraxmadı.

Bu gün Zaroşatda evlər, xanimanlar dağılır, türk qadınları təhqir edilir. Türk balaları kabab kimi şişə çəkilir. Qaçıb qurtara bilən beş-üç ac-yalavac türklər iş bu nümayəndələrin qulaqlarına ağızlarını dirəyib qışqırırlar. Onların qulaqları əsla eşitmir. Nə üçün qulaqları eşitmir, nə üçün vicdanları sızlamır? Çünki kəsilən türklər, şişə çəkilib kəbab edilən türk balalarıdır... Türklər Zaqafqaziyanı tərk edib, müttəfiq əsgərləri buraya qədəm qoyduqlarından şimdiyə qədər bu ölkədə qan axınlarının, türk və İslam qanı axmasının arası kəsilməmişdir...

Rüstəmbəyov Ş.B. ("Müsavat"): Cənab deputatlar! Hamımıza yaxşı məlumdur ki, biz həmişə Zaqafqaziya respublikaları arasında sərhəd məsələlərinin dinc yolla həll edilməsinə tərəfdar olmuşuq. Biz bu prinsipi Qarabağda da, dövlətimizin başqa yerlərində də həyata keçirmişik. Bizim qonşular da bu prinsiplə razılaşırdılar.

Noyabrın 23-də üç Zaqafqaziya respublikasının baş nazirlərinin Tiflisdə keçirilmiş görüşündə Azərbaycan, Ermənistan və Gürcüstan arasında mübahisəli sərhəd məsələlərinin dinc yolla həll edilməsinin bu prinsipi bir daha təsdiq edilmişdir. Lakin Ermənistan hökuməti tərəfindən bu prinsipin həyata keçirilməsini görmədik.

Ermənistan hökuməti İrəvan və Zəngəzurda müsəlman kəndlərini məhv etməyə başlamış, həmin kəndlərin əhalisini qırmış və zorakılığa məruz qoymuşdur. Biz elə güman edirdik ki, bu, müvəqqəti haldır və gözləyirdik ki, Ermənistan hökuməti ağlını başına yığacaq, müsəlmanlara qarşı bu qeyri-insani münasibətə son qoyacaqdır. Lakin bunu görmədik. Əksinə, biz Ermənistan hökumətinin Qars vilayətindəki müsəlman əhalini fiziki cəhətdən məhv edilmək təhlükəsinə məruz qoymasının şahidiyik. İndi bizə aydın olmuşdur ki, müşahidə etdiyimiz ayrı-

ayrı çıxışlar Ermənistan hökuməti tərəfindən həyata keçirilən müsəlmanların tamamilə qırılması kimi genişmiqyaslı cinayətkar planın ayrı-ayrı anları imiş.

Ermənistan sistematik bir üsul ilə öz planını icra edir. Öz istədiyi yerləri müsəlmanlardan təmizləmək siyasətini güdür. Bu açıq və aydındır. Bunu İrəvan quberniyasında və Bayazid qəzasında icra etdi. Bu kimi planını hazırda Kars vilayətində icra etməkdədir. Bu saat Kars vilayəti müsəlmanları başsız qalmışlardır. Kimsəyə öz ah və əninlərini (iniltilərini) eşitdirəmirlər. Adamları yoxdur ki, fəryadlarını Avropaya bildirsinlər. Başsız, təşkilatsız qalmışlar.

M.Ə.Rəsulzadə: - Əfəndilər! Burada müəyyən bir məsələ var. O məsələ budur ki, Qarabağda Azərbaycan istiqlal və hürriyyətinin düşməni olan bir ünsür tərəfindən fəsad və üsyan qaldırılmışdır. Bu fəsad qarşısında hökumət və bütün məmləkət əmri-vaqe qarşısında bulunaraq mübarizə edir. Burada digər bir sui-qəsdin şəriki Qarabağda deyil, Bakının özündə, Azərbaycan mərkəzində böyük bir üsyan qaldırmaqda iştirak edən birisi, bir asi burada deyir ki, nə qədər siz biz asilər ilə uzlaşmamısınız, Qarabağ asiləri ilə mübarizə edəmiyəcəksiniz, binaən-ileyh (ona görə) bir üsyanı yatırmaq üçün hökuməti, ümuri-idarəni biz asilərin əlinə verməlisiniz.

Əfəndilər! Üsyana çağıranın adı Əliheydərmi olsun, ya Vartazarmı olsun, ikisi də asidir: Qarabağdamı və Bakıdamı çıxışda bulunsun, ikisi də birdir.

Bizə deyirlər ki, ermənilər ilə mübarizə edə bilmirsiniz. Bu mübarizəni Azərbaycan davam etdirə bilməz. Qarabağ asilərini təfriq etmək üçün sovet Rusiyasının qırmızı ordularını buraya gətirməlisiniz... Bu nədir? Bunu söyləyən əcaba kimdir? Bunu deyən Azərbaycan xalqının nümayəndəsimidir və yaxud məclisi-məbusan üzvü sifətiylə guya bizimlə Azərbaycan

müqəddəratı məsələsində şərik görünən Rusiya vəkilidir? Öz içərimizdən bizə ultimatum verir, bizi Qırmızı Rusiyanın orduları ilə təhdid edir?

Səslər: Ar olsun!

Bumudur vətənpərvərlik? Böyləmi danışar bir cümhuriyyət üzvü? Böyləmi söylər bir xalq nümayəndəsi?

Əfəndilər! Bu kimi ultimatumlara, fürsətdən bilaistifadə asi əlini dal qapıdan millətin hüququna uzatmaq derlər. Mən burada hər halda bir Azərbaycan məclisi-məbusan üzvü deyil, bir Rusiya vəkilinin, bir Rusiya agentisinin sözünü eşidirəm...

Nə üçün siz böylə ümid edirsiniz ki, Azərbaycan xalqı bir asi ilə mübarizə edə bilmək üçün kəndi (öz) hüququnu ikinci bir üsyan hazırlamaqda əli olan Qarayevlərə təslim etməli imiş? Qarabağ asilərini bəyənmirlər. Onlar ilə mübarizə etmək üçün buradakı üsyançılara təslim olmağı təklif edirlər. Bunun üçün nəzərə alınmayır ki, Qarabağda üsyan qaldıran vartazarlar həmin bu asilərin başındadırlar ki, siz də onda iştirak edirsiniz. Əgər siz, məni təmin etsəniz ki, ümuri-idarə əlinizə keçdiyi təqdirdə burada Azərbaycan türk hökuməti təşkil edəcəksiniz, əgər mən bilsəm ki, Azərbaycan hökuməti adı ilə Rusiya sovetinin bir şöbəsini burada açmayacaqsınız, o vaxt sizinlə danışa bilərdik. Bu sözlər əvəzində bizi qane edəcək dəlillər göstərə bilsəniz, biz hər vaxt sizinlə danışardıq, fəqət siz həqiqi bir istiqlaliyyətçi deyil, digər bir üsyan hazırlayan bir sui-qəsdçisiniz. Siz bu gün bombalar ilə, silahlar ilə əsgər arasına girib onları təxvif etməklə (qorxutmaqla) bizi özünüzlə danışdırmaq istəyirsiniz... belə asilər və bombaçılar ilə bomba ilə danışarlar. Əgər siz məni inandırsanız ki, o böyük şüarlara əməl olunacaq, bu millətin hüququna riayət ediləcək, o halda mən sizinlə danışardım. Fəqət, haqq və hüquqdan danışmaq

əvəzinə bizi təhdid edirsiniz ki, hökuməti bizə verməsəniz dalımızda böyük Rusiya və onun böyük Qırmızı ordusu var. Onlar gəlib sizi qıracaqlar. Siz bizi böylə qorxudursunuz.

Əfəndilər! Məsələ qətiyyən pək mühümdür. Zənn etməyiniz ki, mənim könlümdə Rusiya bolşeviklərinə qarşı o qədər böyük inad vardır ki, sui-niyyətə alışaraq onlarla anlaşmaq istəməm. Xayır, həmişə mühakimə etmək mümkündür. Bir tağım şəraiti-siyasiyyə ilə uzlaşmaq, barışmaq olur. Fəqət bizə desələr ki, əgər bir üsyançı qüvvətlə barışmasanız, Rusiya da sizinlə barışmayacaqdır. Biz görsək ki, bizim içərimizdə bir neçə əliheydərlər varmış, onlarla hesablaşmaq lazım imiş, lakin bir millətin rəyi və hüququ ilə hesablaşmaq lazım deyilmiş, o halda biz böylə bir qüvvətə heç vaxt inanmarız. Axı bu bir qurd ilə qoyunun məsələsinə bənzər. Onun üçün siz hər şeydən əvvəl məni iqna ediniz (inandırın) görək o millətlərin haqqını tanıyıb əda etmək (vermək) istəyən qüvvə millətlərin hüququnu özünə vermək üçün gəlib Qarabağ məsələsini həll edəcək, yoxsa Qarabağ məsələsi adı ilə gəlib bizi çeynəyəcəkdir.

Onların pulu ilə burada bombalar alıb bizi o vasitə ilə özünüz ilə hesablaşdırmaq istəyirsiniz, qoyunuz millət öz işini görsün. Əgər o qüvvə sənin kimilərin əqli ilə Şərq məsələsini həll edəcəklər isə və bizlər ilə o yolda hesablaşacaqlar isə, onda mən onlara inanamam. Əgər Əliheydər Qarayev kaprizi ilə onlar buraya gələcəklər isə, o vaxt onlar bizə dost deyil, düşməndirlər...

...Bugünkü məsələ budur ki, Qarabağda bizə asilər üsyan qaldırmışlar. Həqiqi bir vətənpərvər olursaq əldə silah oraya qoşmalıyıq. Bu gün bundan başqa məsələ ola bilməz (alqış).

"Günay", №9, 10, 11, 12; 5, 12, 19, 26 mart 2005-ci il

AZƏRBAYCAN ZİYALILARININ İLK AÇIQ İSLAHAT TƏLƏBLƏRİ

100illiyini qeyd etdiyimiz Rusiya 1905-1907-ci illər inqilabı Azərbaycanda da çox ciddi əks-səda doğurmuşdu. Əsrin əvvəllərindən Rusiyanı, o cümlədən Bakı neft sənayesini də sarsıtmaqda olan böhran cəmiyyətin uzun müddət mürgüləyən təbəqələrini belə hərəkətə gətirmişdi. Yaranmış sistemli böhrandan öz azğın məqsədlərini həyata keçirmək məqsədi ilə Bakıda və Qafqazın müsəlman - türklər yaşayan bölgələrində etnik təmizləmə, kütləvi qətliam tədbirləri həyata keçirən erməni təcavüzkar daşnak güruhu 1905-ci il fevralın 6-9-da Bakıda milli qırğın törətdilər, bu vəhşi siyasətə haqq qazandırmaq üçün geniş kampaniya başlatdılar. Belə bir mürəkkəb, təhlükəli və millətin taleyinin həll olunduğu şəraitdə Azərbaycanın əzmkar, namuslu ziyalıları və iş adamları düşmənlərin hücumlarını dəf etmək işini təşkil etməklə yanaşı, umumi milli birliyə, təşkilatlanmağa, hakimiyyət orqanları ilə faydalı danışıqlar aparmaq sahəsində də çox ciddi addımlar atmağa başladılar. 1905-ci ilin ilk altı ayında bu sahədə görülən işlərin xronikası bunu sübut edir. Qeyd edim ki, milli mətbuat orqanından məhrum olmuş ziyalıların, ictimaiyyətin karına hələ 1897-ci ilin sonunda H.B.Zərdabinin təvsiyəsi ilə H.Z.Tağıyevin satın aldığı və Ə.M.Topçubaşov kimi hazırlıqlı, qeyrətli bir qələm sahibinə tapşırılmış "Kaspi" qəzeti çox mühüm rol oynayırdı. Məhz bu qəzet səhifələrində daşnakların azğın kampaniyasına layiqli cavab verilir, ümumi milli oyanışın

gedişi öz bariz əksini tapırdı. Məsələn, "Kaspi" qəzetində 1905-ci il martın 17-də "Yerli xronika" (Mestnaya letopis) sərlövhəli yazı dərc olunmuşdur. Orada oxuyuruq:

Yerli xronika

"Martın 15-də H.Z.Tağıyevin mənzilində müsəlmanların nümayəndələrinin Ali hökumətə müsəlmanların ehtiyacları barədə, o cümlədən Qafqaz diyarının təkmilləşdirilməsi, abadlaşdırılması, xalqın maddi rifahının yaxşılaşdırılması şəklində zəruri islahatlar barədə xüsusi ərizəsinin müzakirə edilməsi üçün müşavirə keçirilmişdir. Müşavirə belə bir ərizə verilməsini ümdə zərurət hesab edərək, ilk növbədə Qafqaz müsəlmanları adından bu diyarın nümayəndələrinin daxili işlər nazirliyinin sədrliyi ilə keçirilən xüsusi müşavirənin işində iştirak etməyə buraxılması barədə vəsatət qaldırılması məsələsi üzərində dayanmışdır. Peterburqda bu vəsatəti müdafiə etmək və müsəlmanların ərizəsini təqdim etmək üçün bütün Qafqaz müsəlmanlarının xüsusi deputat heyətini oraya göndərmək zəruri hesab edilmişdir. Müşavirə diyarın bütün əsas yaşayış məntəqələrinə teleqramlar göndərərək, nümayəndələr seçilməsini xahiş etmək qərarına gəlmişdir. Həmin nümayəndələr Bakıda toplaşıb buradan birlikdə Peterburqa gedəcəklər. Lənkəran, Quba, Şamaxı şəhərlərinə, həmçinin Göyçay, Salyan, Yelizavetpol, Şuşa, Nuxa, Qazax, Tiflis, İrəvan, Naxçıvan, Dərbənd, Teymurxanşura və Vladiqafqaza teleqramlar göndərilmişdir. Müşavirədə Bakı müsəlmanları adından seçilmiş nümayəndə heyətinə Fərrux bəy Vəzirov, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Şəmsi Əsədullayev, Kərbəlayı Ağakişi Əliyev və Kərbəlayı Nəcəfqulu Sadıqov daxildir".

Qeyd edim ki, bu müşavirədən əvvəl "Kaspi" qəzetinin 3 mart 1905-ci il tarixli nömrəsində Ə.M.Topçubaşovun "Qafqaz canişinliyi" sərlövhəli irihəcmli, proqram səciyyəli bir məqaləsi dərc olunmuşdur. Tarixi sənəd səciyyəli bu yazı haqqında tarix ədəbiyyatında müxtəlif səpkili mülahizələr söylənmiş, ciddi təhriflərə yol verilmişdir. Məlumdur ki, Ə.M.Topçubaşovun əsərləri, xüsusilə onun redaktor olduğu "Kaspi" qəzetindəki qiymətli məqalələri bu vaxta qədər toplanıb nəşr olunmamışdır. Martın 15-də H.Z.Tağıyevin mənzilində ziyalıların müşavirəsində müzakirəyə qoyulan, hakimiyyət orqanlarına veriləcək ərizənin əsas müddəaları da məhz bu məqalədə öz əksini tapmışdı. Həmin məqaləni də "Günay"ın oxucularına təqdim edirəm. Məncə bu, 1905-ci ilin hadisələri barədə ümumi təsəvvür yaratmaq üçün faydalı olar.

QAFQAZ CANİŞİNLİYİ

General-adyutant qraf Vorontsov-Daşkovun adına yenicə dərc edilmiş Ali Reskriptə əsasən bizim diyarda 1883-cü ildə ləğv edilmiş canişinlik yenidən bərpa olunmuşdur. Son dövrlərdə Qafqazda canişinlik yaradılması məsələsi mətbuatda və cəmiyyətdə dəfələrlə qaldırılmışdır və bu məsələnin, onun həllinin kim tərəfindən və necə qoyulmasından asılı olaraq qafqazlılar ya sevinmiş, ya da onların ürəkləri kədərlə dolmuşdur...

Hamı hiss edirdi ki, tarixdə satrapiyalar adı ilə məşhur olan, "canişin-satrap"ın özbaşınalığı hökm sürən canişinlik dövrü bir daha geri qayıtmayacaq və əlamətdar dövrə qədəm qoymuş azadlıq hərəkatında ömrünü başa vurmuş idarəetmə formalarına

qayıdış ola bilməz. Buna baxmayaraq biz qafqazlıların hamısı aydın həyəcan və ecazkar diyarımızın gələcəyi üçün narahatçılıq hissi ilə Rusiya mətbuatının və Rusiya cəmiyyətinin məlum hissəsinin mənfur öncəgörmələrini dinləyirdik. Onlar bunu izah etməyə tələsirdilər ki, tətbiq edilən canişinliyin məqsədi bütün Qafqaz diyarını ümumi imperiyada tətbiq olunan idarəetmə qaydalarından yenidən ayırmaq, bizi müstəsna qanunlara tabe etmək məqsədi güdür.

Bizim şovinistlər qafqazlıların separatizm, millətçi və sair meyllərini "urbi et orbi" kimi qələmə verərək imkan düşən kimi konsullara müraciət edərək Qafqaz diyarına xüsusi ciddi rejim tətbiq olunmasını tələb edirdilər...

Qafqazda yaradılan canişinliyin məqsədinin bu cür "izah edilməsi", təbii ki, mədəni inkişaf yoluna yaxın vaxtlarda qədəm qoymuş diyarımızın taleyi barədə ciddi narahatlıqlar doğurmaya bilməzdi. Lakin xoşbəxtlikdən bu cür təşvişlər hədər imiş.

Knyaz P.D.Svyatopolk-Mirskinin daxili işlər naziri olduğu dövrdə canişinlik yaradılması məsələsinin gündəliyə çıxarılması xəbəri yayılanda qafqazlılar bir qədər rahat nəfəs aldılar. Qafqazın canişini də bu knyaz təyin edildi.

Knyaz Svyatopolk-Mirskinin qısa, lakin mütərəqqi fəaliyyəti Rusiyanın bütün daxili həyatında silinməz izlər qoymuş, bu cür qabaqcıl xadimin rəhbərliyi altında Qafqazın tezliklə mənəvi, əxlaqi və iqtisadi inkişaf yoluna düşəcəyinə və Rusiya imperiyasının bərabərhüquqlu üzvü olacağına ən yaxşı təminat idi.

Ötən fevral ayının 18-də daxili işlər naziri A.Q.Bulıginə ünvanlanmış Ali Reskript də buna şübhə oyatmamışdır. Doğrudur, "Rusiya hökmdarları müdriklik göstərərək həmişə zəruri

dəyişikliklərdən asılı olaraq bu dəyişiklikləri yalnız müəyyən ardıcıllıqla və ehtiyatla həyata keçirir və bu zaman ucsuz-bucaqsız vətənimizin xüsusi şəraitini, onun əhalisinin qəbilələrə parçalanmasını və bu əhalinin bəzi hissələrində vətəndaşlıq duyğularının zəif inkişaf etməsini nəzərə alırdılar", lakin biz əminik ki, "ən layiqli, xalqın etimadını qazanmış və xalq arasından seçilmiş insanların qanunvericilik təkliflərinin işlənib hazırlanmasında və ilkin müzakirəsində iştiraka" cəlb edilməsi kimi çox əhəmiyyətli və əlamətdar aktın bütün bəhrəsi bizim Qafqaza da eyni dərəcədə şamil ediləcəkdir.

Biz inanırıq ki, bizim diyar yaddan çıxmayacaq və Rusiya imperiyasının başqa vilayətləri kimi Qafqaz da indi Rusiya torpağına doğmuş azadlıq islahatları günəşinin parlaq şüası ilə nurlanacaqdır. Qraf İ.İ.Vorontsov-Daşkovun adına yenicə dərc edilmiş Ali Reskript bizi buna bir daha inandırır.

Əlahəzrət imperator hazırda Qafqazda baş verən hadisələri müvəqqəti hal hesab edərək, "hazırda bizim dövlətdə görülən daxili quruculuq işlərinə və mənim niyyətlərimə bu diyarı da cəlb etmək üçün Qafqazda əmin-amanlığın dərhal bərqərar olunmasını zəruri" hesab edir.

Qafqaz diyarının Rusiyada aparılan daxili quruculuq işlərinə cəlb edilməsi barədə taxt-tac səviyyəsində elan edilməsi o deməkdir ki, bizim diyar ölkənin başqa hissələri ilə bərabər yeni həyata - sağlam, zəkalı və azad həyata başlamaq üçün Rusiya diyarının daha yaxşı qurulması üçün qarşıdakı mühüm işlərdə bərabər hüquqla iştirak edəcəkdir...

Görüləcək işlərin məqsədi insanların həyatını mədəni zəmin üzərində yeniləşdirməkdir. Ali-Reskriptin mahiyyətinə görə Qafqazın yeni idarəsi də bu məqsədə xidmət etməlidir. Bizim Qafqazda mövcud olan inzibati quruluşun, məhkəmə quruluşunun və ictimai quruluşun islahatları da bu ali məqsədə doğru aparır...

Qeyri-qənaətbəxş hesab edilmiş bütün bu quruluş hər şeydən əvvəl Rusiyanın daxili quberniyalarında asayiş barədə tətbiq edilən məhdudiyyətlərdən imtina etməlidir. Başqa sözlə desək, bizim diyar, ilk növbədə, Zemski özünüidarəsi, andlılar məhkəməsi və bu vaxta qədər bizim məhrum edildiyimiz və mövcud olmamaları diyarın mədəni inkişafını ləngidən bütün təsisatları əldə edəcəkdir...

İndi birinci növbəyə qoyulmuş və ali səviyyədə təyin olunmuş nazirlərin komissiya və komitəsində artıq işlənib-hazırlanmaqda olan şəxsiyyətin və əmlakın toxunulmazlığına, vicdan azadlığı, mətbuat, söz və xalq toplantılarının azadlığına qanunverici zəmanətlərin Qafqaza da şamil edilməsi ilə əlaqədar Qafqazın Rusiyanın daxili hissələri ilə bərabər hüquqlara malik olmasının ədalətli və zəruri olması göz qabağındadır.

Rusiyanın başqa yerlərində olduğu kimi, Qafqazda da keçiriləcək islahatlarda yerli adamlar əlbəttə, çox xeyir verəcəklər və biz əminik ki, görülən işlərdə Qafqaz xalqlarının nümayəndələrinin səsi eşidiləcək, ona xüsusi diqqət yetiriləcəkdir.

Bu baxımdan biz, elə həmin Ali Reskriptə fəxarətlə istinad edə bilərik. Qafqazda insanların rifahında qazanılmış uğurlardan bəhs edilərkən Reskriptdə qeyd edilir ki, qafqazlıların çoxunun görkəmli əsərləri Rusiyaya xeyir və şərəf gətirir.

Şübhə yoxdur ki, doğma diyarın qurulması kimi müqəddəs işdə elə həmin qafqazlılar öz qüvvə və biliklərini əsirgəməyəcəklər.

Bundan əlavə, bizim diyara bələd olan yeni təyin edilmiş Qafqaz canişininin şəxsiyyəti zəmanət verir ki, qraf İ.İ.Vorontsov-Daşkov bu quruculuq işində yerli qüvvələrin hərtərəfli köməyindən istifadə edəcəkdir. Xatırladaq ki, bu günlərdə Moskvadakı Zemski təşkilatının qərarı ilə qraf Vorontsov-Daşkovun ictimai müəssisələrin fəal nümayəndələrini Qırmızı Xaçın fəaliyyətinə cəlb edilməsi təşəbbüsü alqışlanmışdır.

Yuxarıda göstərilən mülahizələr bizi buna əmin edir ki, Qafqazda canişinlik bizim diyarı təcrid etmək və dövlət quruluşu, dövlət qaydaları barədə sənədlərdən irəli gələn bütün nemətlərin Qafqaza şamil edilməməsi məqsədilə yaradılmamışdır. Əksinə, bu canişinlik bizim diyara imkan verəcəkdir ki, Rusiyanın daxili vilayətləri ilə müqayisədə heç bir məsələdə kənarda qalmayaq,

Yeni üsuli-idarə yalnız bu şərtlə diyarda tam əmin-amanlıq bərqərar olmasına, onun mənəvi, maarifçilik və ictimai tələbatının ödənilməsinə şərait yarada bilər.

Ə.M.TOPÇUBAŞOV.

"Kaspi" qəzeti, 3 mart 1905-ci il, №35

"Günay", №13, 2 aprel 2005-ci il

ƏHMƏD BƏY AĞAYEVİN ƏSƏRLƏRİ NİYƏ VƏTƏNİNDƏ NƏŞR OLUNMUR?

M.F.Axundov adına Milli Kitabxanada xarici xeyirxahların köməyi ilə "elektron kataloq" şöbəsi yaradılmışdır. Kitabxananın Azərbaycan kitabı şöbəsində mühafizə olunan ana dilində nəşr olunmuş təxminən 80 min adda kitab indi latın qrafikası ilə beynəlxalq standartlara uyğun elektron kataloqa salınmağa başlanıb. Bu kataloqdan İnternet vasitəsilə dünyanın istənilən nöqtəsində istifadə etmək imkanı yaranacaq. Göstərək ki, 1831-1920-ci ilin aprelinə qədər olan müddətdə ana dilində nəşr olunmuş bir minə yaxın kitab kitab arxivində mühafizə olunur. Sovet hakimiyyəti illərinə 60 minə yaxın adda kitab, son müstəqillik illərində, yəni 2004-cü ilə qədər isə təxminən 20 min adda kitab kataloqa salınacaq. Bu, Milli Kitabxana kollektivindən çox gərgin əmək və səy tələb edir. Növbədə elektron kitabxana, kitabların kompüterin yaddaşına yüklənməsi prosesi durur. Mən elektron kataloqu şöbəsində oldum. Azərbaycanın XX əsrdəki görkəmli şəxsiyyətlərinin, xüsusilə ictimai-siyasi xadimlərindən kimlərin əsərlərinin kataloqa salınması ilə maraqlandım. Məlum oldu ki, məsələn, bu vaxta qədər Əhməd bəy Ağayev kimi mütəfəkkir alim, görkəmli jurnalist-publisist, ictimai-siyasi xadimin bir əsəri belə müstəqil şəkildə onun vətənində nəşr olunmamışdır. Məlumdur ki, 70 il zəngin və keşməkeşli ömür sürmüş (1869-1939), Şuşanın maarifpərvər və mütərəqqi ziyalı mühitində böyümüş, Tiflis gimnaziyasında, Sankt-Peterburq Texnoloji İnstitutunda, Fransanın ən şöhrətli Sarbonna Universitetində təhsil almış ilahiyyatçı, hüquqşünas, siyasətçi, redaktor, jurnalist, müəllim, publisist, professor, doqquz dil bilən və dillərin zəminində öz

ictimai-siyasi dünyagörüşünü zənginləşdirən Ə.Ağayev 1909-cu ilin əvvəllərinə qədər öz doğma vətənində çox böyük və nəhəng ictimai-siyasi fəaliyyətlə məşğul olmuşdur. "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi" qəzetlərində və dövrün digər nüfuzlu mətbuat orqanlarında Əhməd bəyin yüzlərcə məqaləsi dərc olunmuşdur. Ömrünün son 30 ilini isə qardaş Türkiyədə yaşamağa məcbur olmuşdur. Lakin bir an belə vətəni Azərbaycanı, anadan olduğu Şuşanı unutmamışdı. Məşhur türkçü alim Yusif Akçura öz qələm və məslək dostu Ə.Ağayev haqqında yazmışdır: "Əhməd bəy asancasına və çox yaza bilmək kimi fövqəladə bir istedada malik idi. Türkcə, rusca, fransızca məqalələrini eyni bir asanlıq və həvəslə yazırdı. Maraqlıdır ki, o farsca da məqalələr yazmışdır. Özü bir dəfə etiraf edib demişdi ki, "həyatım boyu yazdığım məqalələrin hamısı bir araya toplansa, Bakıdan İstanbula qədər bir geniş yol ortaya gələr".

Professor Vilayət Quliyev 1997-ci ildə nəşr olunmuş "Ağaoğlular" adlı kitabında əsrin əvvəllərində Azərbaycan türklərinin erməni-daşnak təcavüzündən qorunması, milli təhlükəsizliyinin təmin olunması kimi çətin bir vəzifənin öhdəsindən gəlmək sahəsində qüdrətli qələmi, təşkilatçılıq bacarığı ilə seçilən Əhməd bəy Ağayev haqqında yazmışdır ki, "Bu illər fəaliyyəti Əhməd Ağaoğlunu Azərbaycan xalqının milli-azadlıq hərəkatına rəhbərlik edən ümummilli lider, ölkədə ilk siyasi partiya qurucusu və milli mənafelərin qoruyucusu kimi səciyyələndirməyə imkan verir".

Ə.Ağayev 1918-ci ilin iyununda Nuru Paşanın komandanlığı altında müstəqil Azərbaycanın köməyinə gəlmiş türk ordusu hissələrilə vətəninə gəlmiş, sonralar Zəngəzur və Şuşadan Azərbaycanın ilk parlamentinə deputat da seçilmişdi. 1919-cu il yanvarın əvvəllərində Fransaya, Versal sülh konfransına göndərilən Azərbaycan hökumət nümayəndə heyətinə Ə.Ağayev də daxil idi.

Məqsədim XX əsrdə xalqımızın yetişdirdiyi ən nadir şəxsiyyətlərdən biri haqqında geniş söhbət açmaq deyil. Məni heyrətləndirən onun əsərlərinin öz doğma vətənində nəşr olunmamasıdır. Türkiyədə Ə.Ağayevin - Əhməd Ağaoğlunun onlarca kitabı işıq üzü görmüşdür. Məsələn, "Üç mədəniyyət" (İstanbul, 1927), "Hindistan və İngiltərə"(1929), "Sərbəst insanlar ölkəsində" (1936), "Dövlət və fərd" (1936), "Türk-təşkilati-əsasiyyəsi" (1925-1929), "Türk-hüquq tarixi" (1931-1933), "Mən nəyəm" (1936), "İran və İnqilabı" (1941-1942), "Könülsüz olmaz" (1941-1942), "İxtilalmı, inqilabmı?" (1941-1942), "Sərbəst firqə xatirələri" (1950) və s.

Sovetlər dövründə ünvanına "pantürkist", "panislamist", "burjua-ideoloqu" və s. kimi böhtan və iftiralar yağdırılan Ə.Ağayevin əsərlərinin toplanması və nəşri barədə əlbəttə, söhbət gedə bilməzdi. Bəs son 14 ildə nə üçün bu sahədə bir iş görülmür. Doğrudur, münasibət müəyyən qədər dəyişib, haqqında məqalələr, əsərlər, bir neçə dissertasiya işi yazılıb. Amma təkrar edirəm, öz əsərlərindən ayrıca nəşr olunanı yoxdur. Vəziyyətlə bağlı akademik Kamal Talıbzadə ilə əlaqə saxladım. O da təəssüfünü bildirdi. Mən bilirdim ki, mərhum ədəbiyyatşünas, akademiyanın müxbir üzvü Əziz Mirəhmədov Ə.Ağayevin fəaliyyətinin Bakı dövrünə aid məqalələrini toplayıb nəşrə hazırlayır. Lakin nədənsə əsər işıq üzü görmədi. Əziz müəllimin həyat yoldaşı Əminə xanıma zəng etdim. Ə.Ağayevin əsərlərinin taleyi ilə maraqlandım. Müsbət bir cavab verilmədi.

Respublikamızda ən son məlumata görə, 527 nəşriyyat və poliqrafiya müəssisəsi fəaliyyət göstərir. Onların buraxdıqları çap məhsullarının sayı fantastik dərəcədə çoxdur. İndi kim nə

istəyir, nədən istəyir, nə haqda istəyir, imkanı varsa, kitab çap edir, etdirir. Məddahlıq, yaltaqlıq, yerliçilik "ədəbiyyatı" baş alıb gedir. Adını da qoymuşlar bazar iqtisadiyyatı dövrü nəşrləri. Yiyəlilər iş görür, çoxcildliklər buraxdırır, təmtəraqlı təqdimat mərasimləri keçirirlər. Əhməd bəy Ağayev, Nəsibbəy Yusifbəyli, Ə.M.Topçubaşov və b. əsərlərini, çox dəyərli ədəbi irslərini gənc nəslə təqdim etmək yada düşmür.

Milli azadlıq hərəkatımızm görkəmli xadimlərindən biri, uzun illər Türkiyədə fəaliyyət göstərmiş Əhməd bəylə yaxından təmasda olan Mirzə Bala Məmmədzadə bu böyük vətənpərvər haqqında yazırdı ki, "Əhməd Ağaoğlu təpədən dırnağa qədər bir azəri türkü olaraq yaşamış, düşünmüş və söyləmişdi. Hətta ölüncəyə qədər şivəsini belə düzəltməmişdi". Bu sözlərdə çox böyük həqiqət vardır. 1921-ci il iyunun 19-da Bakıda "Kommunist" qəzetinin 109-cu nömrəsində Əhməd bəy Ağayevin İtaliyanın Torrento şəhərindən Azərbaycanın Müvəqqəti İnqilab Komitəsinin sədri Nəriman Nərimanova yazdığı məktub dərc olunmuşdur. Məktubda oxuyuruq: "Möhtərəm Nəriman! 26 aylıq əsarətdən sonra nəhayət mən buraxıldım və başqa arkadaşlarımız ilə bərabər gətirilib bizim xilaskarımız olan Ankara hökumətinin Romada nümayəndəsinə tapşırıldıq.

Doğrusunu söyləmək lazım gəlsə mən indi də bilməyirəm ki, məni nə üçün həbs etmişlərdi və indi də nə səbəbə azad edirlər? Bu uzun müddətdə, qoca vaxtımda nə qədər cismani, maddi və mənəvi əziyyətlər çəkdiyimi, təhqirlər və istehzalar gördüyümü təsəvvür edəməzsiniz. Mənim ailəm İstanbulda qalıb məndən az əziyyət çəkməyirdi. Mən iki dəfə sizə müraciət etmişəm və ailəm də həmçinin müraciət etmişdir. Ola bilər ki, bizim yazdıqlarımız ya Sizə gəlib çatmamışdır və yain ki, Siz bizə yardım etmək imkanı əldə edə bilməmişsiniz".

Ə.Ağayev Rusiyada və dünyada cərəyan edən hadisələrə öz münasibətini geniş şərh edir və vətənə qayıtmaq istəyini əsaslandıraraq yazırdı: "Mənim 51 yaşım vardır. Qocalığım yaxınlaşır. Bir neçə illik qüvvət qalmışdır. Mən istərdim ki, bu son illərimi doğma vətənimə ithaf edim, son çağlarımı orada keçirim və nə gizlədim - vətənimin torpağında dəfn olum!

Məni Ankaraya cəlb edirlər və orada mənə geniş fəaliyyət imkanları verirlər, hərgah vətənim imtina edərsə, mən oraya gedəcəyəm. Fəqət mən Bakıya tələsirəm, orada bir saat yaşayım və ölüm! Mən orada 5 cocuq yetişdirmişəm və arzu edərdim ki, onlar da vətənimə xidmət etsinlər. Əgər mənim təklifimi qəbul etməyi lazım bilsəniz mən zikr olunmuş təbliğatla məşğul olub və xalq maarifini yeni əsaslar üzrə qurmağa çalışaram".

Bəlkə iqtidar, vəzifə və imkan sahibləri bu sətirləri oxuyub insafa gələlər, xalqımızın bu böyük mütəffəkir, həqiqi vətənpərvər övladına, onun zəngin irsinə laqeyd münasibəti dəyişilər!

"Günay", №14, 9 aprel 2005-ci il

ƏHMƏD BƏY AĞAYEVİN NƏRİMAN NƏRİMANOVA MƏKTUBU

Keçən nömrəmizdə professor Ş.Hüseynovun "Əhməd bəy Ağayevin əsərləri niyə vətənində nəşr olunmur?" sərlövhəli yazısını dərc etmişdik. Bu yazıda 1921-ci ilin mayında Əhməd bəyin İtaliyanın Torrento şəhərindən Nərimanova yazdığı və "Kommunist" qəzetinin 19 iyun tarixli nömrəsində dərc olunmuş məktubundan maraqlı parçalar verilmişdir. Oxucularımızdan bu məktubun tam mətninin dərc edilməsini xahiş edənlər vardır. Bunu nəzərə alaraq professor Ş.Hüseynov həmin məktubun tam mətnini redaksiyamıza təqdim edib. Məktubda Əhməd bəyin də Nərimanovla onun dünyagörüşü, ədalətli, istismar və zülmdən azad bir cəmiyyət quruluşu idealına inamı öz əksini tapır. Lakin incə bir mətləbə də işarə var. Vətəndən uzaq düşmüş, el-oba həsrətilə qovrulan Əhməd bəy Nərimanova və ətrafına xoş gəlmək üçün Sovet Rusiyası rəhbərlərinə və onların ideologiyasına rəğbət izhar etməsi də bir növ taktiki gediş kimi də başa düşülə bilər. Ə.Ağayev məktubunda yazır: "Açıq söyləyim məni bu işə vadar edən xüsusi bir səbəb var... Mən istərdim ki, bu son illərimi doğma vətənimə ithaf edim, son çağlarımı orada keçirim və nə gizlədim - vətənimin torpağında dəfn olum".

Əhməd Ağayevin məktubu

Doktor Nəriman Nərimanov yoldaşımız naminə Azərbaycanda məruf (adlı-sanlı) və məşhur olan Əhməd Ağayevdən bir məktub alınmışdır ki, ruscadan tərcüməsini tamamilə aşağıda dərc ediriz.

İtaliya, Torrento, 11 may 1921

Möhtərəm Nəriman!

26 aylıq əsarətdən sonra nəhayət mən buraxıldım və başqa arkadaşlarımız ilə bərabər gətirilib bizim xilaskarımız olan Ankara hökumətinin Romada nümayəndəsinə tapşırıldıq.

Doğrusunu söyləmək lazım gəlsə mən indi də bilmirəm ki, məni nə üçün həbs etmişlərdi və indi də nə səbəbə azad edirlər? Bu uzun müddətdə, qoca vaxtımda nə qədər cismani, maddi və mənəvi əziyyətlər çəkdiyimi, təhqirlər və istehzalar gördüyümü təsəvvür edəməzsiniz. Mənim ailəm İstanbulda qalıb məndən az əziyyət çəkməyirdi. Mən iki dəfə sizə müraciət etmişəm və ailəm də həmçinin müraciət etmişdir. Ola bilər ki, bizim istidadlarımız (xahişlərimiz) ya sizə gəlib çatmamışdır və yainki siz bizə müavinət (yardım) etmək imkanı əldə edə bilməmişsiniz.

Bakıda bulunan ingilis əsirləri hadisələrindən və bizi xilas etməyə çalışdığınızdan bizi unutmadığınız məlumumuz idi. Görünür ki, siyasi vəziyyətdən dolayı bunu icra etmək sizə mümkün olmamışdır. Bununla bərabər istər mən, istərsə mənim arkadaşlarım təşəbbüslərinizə qarşı sizə minnətdardırlar.

"Şərsiz xeyir olmaz", - demişlər. Əsirlik müddətində mən çox oxudum, fikirləşdim, düşündüm, qabaqcadan mənə bir qədər tanış olan ingilis dilini əsaslı surətdə öyrəndikdən sonra onun sayəsində və fransız dilinin köməyi ilə mən Qərb kulturasının əsasları haqqında çox oxudum, Sizə də məlum olduğu kimi müsəlman millətlərinin dillərini də bildiyimdən mən çoxdan lazımınca Şərqi bilirdim.

Bütün bu mütaliələr, düşüncələr və bu müddətdə görmüş olduğum təcrübələr məni dərin və qəti bir imana gətirdi ki, istər Şərqdə, istərsə Qərbdə bütün ictimai üsul və bütün ictimai

quruluş yalan, qaba arizu (sifət), güclülərin gücsüzləri əzmələri üzərində durmaqdadır. O şeyə ki, mədəniyyət, hürriyyət, müsavat (bərabərlik) deyirlər zəhərli bir yalan, alçaq bir riyakarlıqdır ki, onların sayəsində ancaq qaba zülm və haqsızlıq səltənəti qurula bilər.

Bu üsuli-idarə öz yalan və riyakarlığı ilə davam etdikcə bəşəriyyətə qurtuluş yoxdur və o bəşəriyyət əziyyətə məhkumdur. Ondan ötrü yeganə qurtuluş hal-hazırda Rusiyada hökmfərma olan ideal sayəsində mümkündür. Mən bu hərəkat rəhbərlərinə, bəşəriyyətin xilaskarlarına istirahət, məhəbbət və səadət üçün imanı ilə doğru yol göstərən peyğəmbərlərə baxan kimi baxıram.

Bu, Şərq üçün də xüsusən yeganə bir qurtuluş yoludur. Bu sugüvar, məzlum, təşkilatca zəif, mədəniyyətcə avam, daimi surətdə əsarətə, qul olmağa məhkum olan Şərqin halı Qərbin üzərinə də fəna bir surətdə əksəndaz (əksetmə) olur. Zira zəif Şərqi təhti-istismara alan Qərb imperialistləri Qərb zəhmətkeşlərini də təhti-istismara alıb boğmağa imkan qazanırlar və bu da ümumbəşəriyyət ailəsi arasında yaxın bir müvafiqət (uyğunluq) vücuda gətirir. Rusiya qəhrəmanlarının böyüklüyü də bu dərin həqiqəti dərk etməkdə, bir millətin başqa millət tərəfindən təhti-istismara alınmasını inkar etməkdə, onu təyini-müqəddərati miləl, millətlərin fedarasyonu və daxili işdə millətlərin ixtiyaratı prinsipləri ilə əvəz etməkdədir.

İştə Şərqi əsarətdən xilas edəcək və onunla bərabər Qərbi də qurtara biləcək budur.

Biz Şərq millətləri bütün mövcudiyyətimiz ilə bu ideala iltihaq edəcək (qoşacaq) və Şərq naminə onun vücuda gəlməsinə xidmət etməliyiz. Ələlxüsus İslam Şərqi onu qəbul edəcəkdir və bütün Asiyanı, Afrikanı öz arxasınca dartaraq bütün Qərbi də

onun qarşısında səcdə etməyə məcbur edəcək, zəhmətkeş sinfi əsarətə alan yeganə vəsaiti-imperialistlərdən onu xilas edəcəkdir.

Bu barədə Bakı fövqəladə tarixi bir rol oynaya bilər: İslam Asiyasının yol mərkəzində bulunan Bakı öz coğrafi və iqtisadi vəziyyəti sayəsində bütün Asiya təbliğatı üçün asanlıqla bir mərkəz halını ala bilər. Bu təbliğatı təşkil etmək bir vəzifədir.

Müsəlmanlıq ilə tanış olduğum Sizə məlum olmaya bilməz. Yeddi ildən bəri İstanbul darülfünunda (universitetində) "İslam mədəniyyət tarixi" tədris etdiyimdən məlumatım daha da təkmil edilmişdir.

Mən üç əsas müsəlman dillərində - türkcə, farsca və ərəbcəni bildiyim kimi bir o qədər də Qərb dillərindən ruscanı, fransızcanı və ingiliscəni bilirəm. Bu millətlərin həyatı ilə, mənəvi fikri hərəkatları ilə tanışam.

Bu surətlə zənn edirəm, bəşəriyyətin xilası üçün qalibiyyətini yeganə vasitə ədd etdiyim (saydığım) işdə mənfəətli bir amil ola bilərəm.

Möhtərəm doktor! Əgər mənim nəzəriyyə və imanımın səmimiliyinə qabilincə əhəmiyyət verə bildiyinizdən indi layiqli mövqeni işğal etdiyiniz işin qələbəsindən əgər bir yararlıq göstərəcəyimə inanarsınız isə yalnız əcələ etmək (tələsmək) üçün bir sözünüzü bəkləyirəm.

Açıq söyləyəlim məni bu işə vadar edən xüsusi bir səbəb də var. Mənim 51 yaşım vardır. Qocalığım yaxınlaşır. Bir neçə illik qüvvət qalmışdır. Mən istərdim ki, bu son illərimi doğma vətənimə ithaf edim, son çağlarımı orada keçirim və nə gizlədim vətənimin torpağında dəfn olum.

Məni Ankaraya cəlb edirlər və orada mənə geniş fəaliyyət imkanları verirlər, hərgah vətənim imtina edərsə, mən oraya gə-

dəcəyəm. Fəqət mən Bakıya tələsirəm, orada bir saat yaşayım və ölüm! Mən orada 5 cocuq yetişdirmişəm və arzu edərdim ki, onlar da vətənimə xidmət etsinlər. Əgər mənim təklifimi qəbul etməyi lazım bilərsiniz mən zikr olunmuş təbliğat ilə işğal edib (məşğul olub) və xalq maarifini yeni əsaslar üzrə qurmaqda çalışaram.

Sizə ehtiram bəsləyən: Əhməd Ağayev.
"Kommunist" qəzeti, 19 iyun 1921-ci il, №109

P.S. Ə.Ağayevin N.Nərimanova məktubu rusca yazılmışdır. "Kommunist" qəzetində dərc olunmuş məktub redaksiyanın da göstərdiyi kimi, tərcümədir. "Kommunist" qəzetilə Bakıda eyni vaxtda nəşr olunan "Bakinski raboçi" və "Kommunist" (rusca) qəzetlərinin səhifələrini nəzərdən keçirdik və məktub mətninə rast gəlmədik. N.Nərimanov haqqında yazılmış ədəbiyyatda da bu barədə məlumat demək olar ki, gözə dəymədi. Odur ki, rusca mətn azərbaycancadan tərcümədir **(Ş.Hüseynov).**

"Günay", №15, 16 aprel 2005-ci il

İNGİLİS HƏRBİ JURNALİSTİ MƏKRLİ ERMƏNİ TƏBLİĞATI HAQQINDA

Hər il aprelin 24-də Ermənistan və dünyanın bir sıra ölkələrində özlərinə isti yuva salmış erməni şovinist daşnak dairələri türklərin erməni soyqırımı haqqında hay-küy salmaqda, bu uydurulmuş yalana beynəlxalq miqyasda dəstək qazanmaq uğrunda canfəşanlıq etməkdə davam edirlər. XIX əsrin ikinci yarısından Qərbin Osmanlı Türkiyəsinə qarşı elan etdiyi təcavüz yürüşündən ermənilər də faydalanmaq, Avropa, Rusiya və ABŞ-ın köməyi ilə özlərinin "Böyük Ermənistan" xülyalarını həyata keçirmək planlarına himayədarlar axtarmağa başlamışdılar. 1919-cu ilin sentyabrında Versal sülh konfransına göndərilmiş Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov, Fransadan Bakıya göndərdiyi hesabatında yazırdı: "Erməni ziyalılarının Avropanın mərkəzində yarım əsrdən çox apardıqları iş, hər yerdə istifadə etdikləri böyük maddi vəsait, bütün cəbhələrdə hərəkətetmə və adamları özləri tərəfinə çəkə bilmə bacarıqları, amerikalı varlı həmvətənləri - ermənilərin həyat tərziylə bağlı bütün bu faktlar (bəzi şeylərin üzərində dayanmıram) nəticədə, xüsusilə də son vaxtlar ermənilərə daha geniş rəğbət oyatmışdır. Bu böyük üstünlüklər ermənilərin bizə məlum olan mənfi tərəflərini hələ ki, gizlədir".

Böyük diplomat və qlobal düşüncə tərzinə malik Əlimərdan bəy Topçubaşovun bu tutarlı və tarixi əhəmiyyətli fikirlərinə ondan xeyli əvvəl 1905-ci ilin sentyabr günlərində Şərq-Qərb tarixinin gözəl bilicisi, mütəfəkkir filosof Əli bəy Hüseynzadənin yazdıqlarını da əlavə etsək, Qərbin ermənipərəstliyinin

bəzi mühüm tarixi kökləri də aydınlaşmış olar. Ə.Hüseynzadə yazırdı: "XI əsrin sonlarından XIII əsrin nahiyətinə qədər Şərq və Qərb arasında baş verən və ədədi səkkizə varan səlib müharibələri o növ hadisatdandır ki, əkmiş olduğu nifaq və ziddiyyət toxumlarının izlərini cahanın əsrimizdə belə cərəyan etmiş və etməkdə olan bir çox hadisələrində görməmək mümkün deyildir... avropalılar və avropalılarla bərabər bəzi qonşularımız "panislamizm" deyə-deyə bizi, biz müsəlmanları bizar etmişlər!"

Bu yazılanlara Üzeyir bəyin 1919-cu ilin yanvarında "Azərbaycan" qəzetində yazdığı sözləri də əlavə etməliyik. "Daşnakların andronikləri vasitəsilə üzərimizə atdığı top və tüfəng güllələrini dəf etmək, onların iftira və böhtanlarını dəf etmək işindən çox asandır, çünki ermənilər cəngavərlikdən artıq böhtan və iftira qurmaq ustalığı ilə məşhurdurlar". Əgər 90 il ərzində istər Türkiyə türkləri və istərsə də daşnakların son illər təcavüzünə məruz qalmış bizlər bu deyilənləri vaxtında nəzərə alıb slstemli şəkildə, geniş miqyaslı tədbirlər görsəydik, ermənilərin həyasızlığı indiki həddinə çatmazdı. Həm də daşnak iftira və böhtanını, geniş miqyaslı təbliğat maşınını təkcə bizlər görməmişik, bunu obyektiv düşünən, real fakt və hadisələri öz gözlərilə görən, daşnakların toruna düşməyən qərbli siyasətçilər və jurnalistlər də vaxtında müşahidə etmiş və ifşa etmişlər. Məsələn, 1919-1920-ci illərdə Qafqazda, o cümlədən Azərbaycanda münaqişə zonalarında olmuş ingilis hərbi jurnalisti Skotland-Liddellin, ingilis qəzetləri üçün hazırladığı yazılar buna bariz nümunədir. Bu yazılardan birində oxuyuruq: "Ermənistan əbədi olaraq toqquşma axtarır, nə vaxtki ona nail oldu, onu öz təbliğatlarında "təzyiq aləti" adlandırır və doğrudan da bu, əməlli-başlı cəza alətinə çevrilir. Daşnaklar üçün ölmüş erməni çox qiymətlidir. Əgər ondan lazım olduğu kimi istifadə etmək mümkün olsa, onda o, təbliğat işinə çoxlu fayda gətirə bilir".

Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivində (f.894, siy.10, iş 103, v. 10-19) Skotland-Liddellin "Erməni-tatar sazişi. Qarabağda sülhün bərqərar olması" (Армяно-татарское соглашение. Наступление мира в Карабахе.) sərlövhəli çox dəyərli bir korrespondensiyasının rusca mətni mühafizə olunur. Bəzi mübahisəli cəhətlərinə baxmayaraq, bütövlükdə obyektiv səciyyə daşıyan bu yazını bəzi ixtisarlarla (həcminə görə) oxuculara təqdim edirəm. Erməni-daşnak güruhunun və onların beynəlxalq miqyasdakı havadarlarının təbliğat kampaniyasını ifşa etmək baxımından ingilis hərbi jurnalistinin şahidi olduğu və qələmə aldığı faktlar və təhlil çox maraqlı və qiymətlidir.

Mənсə bu yazıların nəşr olunduğu qəzetləri axtarıb tapmaq və ictimaiyyətə dərc olunduğu dildə və şəkildə təqdim etmək çox faydalı olardı. Bu işə Londondakı Azərbaycan səfirliyini də cəlb etmək olar.

ERMƏNİ-TATAR SAZİŞİ.
QARABAĞDA SÜLHÜN BƏRQƏRAR OLMASI

Əgər Zaqafqaziyada asayiş yaradılması üç respublikada - Azərbaycanda, Gürcüstanda və Ermənistanda asayiş yaradılmasından asılı olsaydı, məsələ, mahiyyət etibarilə bu dərəcədə mürəkkəbləşməzdi: bir qədər rəng sərf edib xəritədə sərhədləri asanlıqla qeyd etmək olardı. Onda Azərbaycanda da, Gürcüstanda da sülh bərqərar olardı, Ermənistanın bəzi hissələrində kiçik münaqişələrin davam etməsinə baxmayaraq, Amerika hərbi missiyasının gəlişi bu vəziyyətə son qoyardı. Lakin əsas məsələlər, heç şübhəsiz çətindir. Məsələn, Azərbaycanın bir şəhərində çoxsaylı erməni əhali yalnız ermənilərin hakimiyyət orqanlarına tabe olmaq istəyir, indiki Ermənistan ərazisində sakinlərinin əksəriyyəti müsəlman olan başqa şəhərdə isə bu

sakinlər ermənilərin qanunlarına tabe olmaqdan imtina edirlər. Plebisitlərdən danışırlar, amma onların nəticəsi bütün Qafqazda çoxsaylı xırda müsəlman və xristian dövlətlərinin yaranmasından ibarət olardı.

Ən mürəkkəb məsələlərdən biri Yelizavetpol quberniyasının Qarabağ rayonu məsələsi idi. Bu məsələ yalnız yaxın vaxtlarda həll edilmişdir. Bu münasibətlə Bakıda təşkil edilmiş banketdə həm tatar (azərbaycanlı - Ş.H.), həm də erməni nümayəndələr qılıncları qınına qoymaq qərarına gəldilər. İndi Qarabağda əmin-amanlıqdır. Sakinlərin dediyinə görə, burada əvvəllər heç vaxt bu dərəcədə sakitlik olmamışdır.

Qarabağ məsələsi əslində Şuşa şəhərinə və Şuşa rayonuna aiddir. Qarabağ özünün coğrafi mövqeyinə görə, həqiqətən Azərbaycana məxsus olmalıdır...

Erməni liderlərinə məsləhət gördülər ki, sakitləşsinlər və Paris konfransı bu bölgədə idarəetmə formasını müəyyən edəcəyi vaxtı gözləsinlər, bunun nə vaxt ediləcəyinin konfransın qərarı üçün heç bir əhəmiyyəti olmayacaqdır. Lakin bu məsləhətlər hədər oldu. Erməni liderləri açıq-aşkar bildirdilər ki, Azərbaycana müvəqqəti də olsa tabe olmaqdansa ölüm yaxşıdır. Onlar yerli ermənilərə elə təsir göstərdilər ki, yerli ermənilərlə tatarlar arasında münaqişələr başlandı və neçə-neçə adam öldürüldü, əlbəttə liderlərdən başqa, çünki onların təşviqatı artıq öz bəhrəsini vermişdi və liderlər bu bəhrənin yığılmasını gözləmədən tələsik qaçıb aradan çıxdılar.

Ermənilər dünyada ən yaxşı təbliğatçılardır. Onların təbliğatı son ayların işi deyildi, bu iş uzun illər boyu mütəmadi aparılmışdır. İstər Rusiyada, istərsə də Qafqazda ermənilər barəsində bircə kəlmə xoş söz deyən bir nəfər də tapmazsan. Ruslar, tatarlar və gürcülər ermənilərə nifrət edir, onların ermənilərdən zəhləsi gedir. Bunun düzgün olub-olmadığını deyə bilmərəm, amma fakt göz qabağındadır - ermənilər başqa irqlərə nifrət

edirlər. Onlar xaricdə özlərini elə təbliğ edirlər ki, Avropa və bütün dünya onların tərəfini saxlayır. Əlbəttə, onlar çox əziyyətlər görüblər, lakin minlərlə müsəlman kişi, qadın və uşaqlar da onların əlindən əziyyət çəkiblər. Şübhəsiz, ermənilərə münasibətdə amansızlıq edilmişdir, lakin onlar özləri də müsəlman kəndlərində türklərin onlara qarşı törətdiklərindən qat-qat artıq qəddarlıqlar törətmişlər. Onlar bunu türklərin barəsində etmiş və öz növbəsində özləri də türklərdən bu cür amansızlıqlar görmüşlər. Bu mənada ermənilər tatarların tayıdır. Ümumiyyətlə, tatarlar, əlbəttə, ermənilərdən qat-qat yuxarı, onlardan çox-çox mərddirlər.

Qarabağ məsələsini əsaslı şəkildə öyrəndikdən sonra inamla deyə bilərəm ki, iğtişaşların əksəriyyətinin səbəbi təbliğat olmuşdur - məkrli təbliğat.

Hər iki xalq öz həyat yolunu sakitcə davam etdirməyə hazır idi və təşviqatçılar işə qarışmasaydı, bu xalqlar elə belə də edəcəkdilər. Daha sonra, mən əminəm ki, Zaqafqaziyanın başqa yerlərində törədilmiş erməni-tatar qırğınına görə də bu sonuncular (təşviqatçılar - Ş.H.) cavabdehdirlər. Erməni təbliğatçısı öz işini vicdanla görür, çünki bu iş təbliğatla bağlıdır, lakin Zaqafqaziyada onun fəaliyyəti çox vaxt adi provokasiyadan ibarətdir. Mən misallar da gətirə bilərəm.

Əlbəttə, mətbuat təşviqatçı üçün ən yaxşı tribunadır. Mətbu sözdə elə bir hipnotik qüvvə var ki, onu oxuyan adamı inanmağa məcbur edir. Tiflisdə erməni dilində iki həftəlik qəzet nəşr edilir. Mən məhz erməni dilində nəşr edilənləri nəzərdə tuturam. Bəzi başqa qəzetlər də ermənilərə məxsusdur və ya onların maliyyə dəstəyindən istifadə edir. İki-üç ay bundan əvvəl erməni qəzetlərinin birində Qarabağda, İranın şimalında, Azərbaycan sərhədində ermənilərin qırılması barədə xəbər dərc etmişdi. Həmin xəbərdə bildirilirdi ki, üç mindən artıq adam öldürülmüşdür. Mən bu barədə arayış topladım. Qəzetin naşiri ilə, daha

doğrusu, naşirlərindən biri ilə görüşdüm, çünki adətən bu yerlərdəki qəzetləri bir nəfər deyil, kollegiya nəşr edir. Mən həmin adamdan qırğın barədə soruşdum. O mənə izah etdi ki, bir neçə gün bundan əvvəl redaksiyaya bir erməni gəlmiş və ona bu əhvalatı danışmışdır. Mən soruşdum: "Bəs bu qırğın haçan olub?". O, bunu bilmirdi. Mən sübut etməyə başladım ki, qəzetçilik işində iki ən mühüm sual var: "harada?" və "haçan?". O cavab verdi ki, özünə əziyyət verib bu hadisənin harada baş verməsini soruşmamışdır. Nəhayət, uzun axtarışlardan sonra mən aydınlaşdırdım ki, bu qırğın 1918-ci ilin noyabr ayında baş vermişdir. O vaxt türklər hələ bu rayonu tutmamışdı və yerli sakinlər onlara qarşı partizan müharibəsini davam etdirirdilər. Bundan əlavə, mən öyrəndim ki, ölənlərin sayı üç min nəfər deyil, ən çoxu üç yüz nəfər olmuşdur. Həmçinin, onu da öyrəndim ki, bu hadisə baş verəndən bir neçə həftə sonra mətbuatda bu barədə lazımınca məlumat verilmişdir.

Elə həmin həftə digər erməni qəzetində belə bir məlumat dərc edilmişdi ki, ingilislər Qafqazı tərk edib gedirlər və "Britaniya hökuməti ilə əldə edilmiş razılaşmaya görə Britaniya qoşunlarını əvəz etmək üçün Qafqaza 50 min türk göndəriləcəkdir". Əlbəttə, mən bu məsələ ilə əlaqədar yenə redaktorla görüşməli oldum. Təbii ki, naşir bir nəfər deyildi, amma mən naşirin hər üzünü gördüm. Soruşuram: "Siz bu ağlabatmaz xəbərə inanırsınızmı?" Cavab verir: "Xeyr, inanmıram". "Bəs elə isə bu məlumatı nə üçün çap etmisiniz?" Onlar (xorla) cavab verdilər ki, bəs xəbər azdır, poçtun pis işləməsi və ya olmaması xüsusi müxbirlərdən məlumatlar alınması zamanı çətinliklər yaradır, buna görə də həqiqətə uyğun olub-olmamasının fərqinə varmadan aldıqları bütün xəbərləri çap etməyə məcburdurlar. Sonra da özlərini təmizə çıxarmaq üçün dedilər: "Biz yanlış məlumatları növbəti nömrədə təkzib etməyi həmişə özümüzə borc bilirik".

Təxminən eyni vaxtda bu qəzet baş nazir Jordaniya ilə general Tomson (o dövrdə Britaniyanın Tiflisdəki qoşunlarının komandanı) arasında guya olmuş müsahibə barədə hesabat dərc etmişdi. Həmin məlumatda deyilir: "General Tomson Jordaniyaya demişdir ki, Sülh konfransında Gürcüstanın Rusiyaya qaytarılması qərara alınmışdır və yalnız Ermənistan müstəqil dövlət olacaqdır". Jordaniya bir neçə dəqiqə ərzində bir kəlmə də danışa bilməmiş, sonra isə Tomsona yalvarmağa başlamışdır ki, əhali arasında ciddi iğtişaşlar törənməməsi üçün bu xəbəri yaymasın. General Tomson bu məlumatı sirr kimi saxlayacağını vəd etmişdir".

Bu müsahibə haqqında bütün deyilənlər başdan-ayağa uydurmadır və qəzetin növbəti nömrəsində təkzib verilmişdi, lakin zərərli təbliğat artıq öz işini görmüşdü. Hətta faktların məhz qəzetdə təsvir edildiyi kimi olduğunu güman etsək belə, qəzet özündən uydurmuşdur ki, baş nazir Jordaniya general Tomsondan "bu sirri açmamasını" xahiş etmişdir.

Mən cəmi üç misal göstərdim, lakin belə misallardan çox göstərmək olar. Erməni mətbuatı qırğınlar, qəddarlıqlar barədə uydurmalarla və tatarlara (azərbaycanlılara - Ş.H.) qarşı təbliğatlarla doludur. Bu mətbuatda provokasiya çoxdu və heç şübhəsiz, indiki dövrdə Qafqazda və Ermənistanda baş verən milli münaqişələrin çoxuna görə məhz erməni mətbuatı cavabdehdir.

Yanvar ayında Şuşada olarkən bir ingilis zabitinə demişdim ki, Zəngəzur mahalındakı qaçqın müsəlmanların hansı vəziyyətdə yaşamasını yəqin etmək üçün oraya getməyə hazırlaşıram. Orada 40 minə yaxın qaçqın müsəlmanın hamısı ermənilərdən zərər çəkmişdir. Bununla belə, mənə dedilər ki, indiyə qədər heç bir ingilis heç vaxt bu yerdə olmamışdır. Qərara alındı ki, iki gündən sonra mən oraya gedim. Mənim Zəngəzura səfərimdən bir gün əvvəl həmin zabit mənə məsləhət gördü ki, oraya getməyim. O mənə dedi: "Heç bir ingilis zabiti oraya tək-

cə gedə bilməz. Əgər yaxşı silahlanmış konvoy olmasa, bu çox təhlükəlidir. Deyirdilər ki, Zəngəzurdakı müsəlmanlar ingilislərin əleyhinədir, orada türk zabitləri və türk qoşunları var. Bir sözlə, Zəngəzur dünyanın xəstə qitəsinin xəstə yeri imiş. Bu zabitin tərcüməçisinin erməni olması faktı mənim hərəkət tərzimi şərtləndirdi. Mən nəzərdə tutduğum kimi oraya getmək qərarına gəldim. O vaxta qədər mən heç yerdə bu cür qonaqpərvərlik görməmişdim, heç yerdə məni Zəngəzurdakı müsəlmanların qəbul etdiyi kimi qəbul etməmişdilər. Mənim bütün səyahətlərim dövründə mənə bu qədər xoş arzular bildirilməmişdi. Kiminlə görüşürdümsə, hamısı ingilislərdən yerdən göyə qədər razı olduqlarını söyləyirdi. Onlar mənimlə lap səfir kimi rəftar edirdilər. Qonaqpərvər ev sahiblərindən ayrılıb gedəndə təəssüfləndim. Lakin mən tək getməli oldum, çünki ermənilərin məskunlaşdığı ölkədə məni müşayiət etməyə heç kəs razılaşmadı. Onlar güllələnəcəklərindən qorxurdular... Mən cəbhə xəttinin tatarlar yerləşən tərəfindən ermənilər tərəfə gedəndə məni atəşə tutdular. Mən Gorus şəhərinə yollandım. O vaxt qiyamçı erməni Andranik orada yaşayırdı. Mən bir gün orada qaldım, ertəsi gün Şuşaya, oradan da Bakıya yola düşdüm. Andranik mənə bir at və müşayiətçi kimi bir erməni əsgər verdi. Şərtləşdik ki, gecəni Gorus ilə Şuşa arasında yerləşən Abdalyar adlı tatar kəndində keçirəcəyəm. Erməni əsgər Andranikin mənə verdiyi atı götürməli idi, çünki orada başqa at tapacağıma ümid edirdim. Bu erməni çox yaxşı adam idi. Əvvəllər rus ordusunda əsgər olmuş, bir neçə cəbhədə döyüşübmüş. Biz Abdalyar kəndinə yaxınlaşanda hiss etdim ki, erməni həyəcanlanır. Biz kəndin bir neçə verstliyində olanda o bildirdi ki, daha məni müşayiət edə bilməyəcək. Niyəsini soruşdum, dedi ki, tatarlar məni öldürərlər. Onun nə üçün belə fikirləşdiyini soruşanda cavab verdi: "Mən bu barədə bizim qəzetlərdə oxumuşam". İndi mən özüm jurnalist olduğum halda, onu inandırmalı idim ki,

qəzetlərdə oxuduğun hər şeyə inanmaq lazım deyil. Mən ona dedim ki, ona heç nə olmayacaq və mənimlə getməyə razı saldım. Bız sağ-salamat kəndə çatdıq. Mənə balaca bir koma verdilər və erməni tatarla birlikdə atları tövləyə apardı. Mən bir stəkan çay içib qəlyanaltı edəndən sonra öz komamdan çıxdım, görək erməni özünü necə hiss edir. Gördüm ki, erməni o biri komada ev sahibləri olan bir qrup tatar milisionerinin arasında ocağın qırağında əyləşib. Onlar hamısı çay içir, siqaret çəkir və ən yaxın dostlar kimi gülüşürdülər. Səhəri gün erməni Gorusa gedəndə gördüm ki, tatarlar onun əlini sıxırlar və eşitdim ki, onlar bir-birinə cansağlığı və xoşbəxtlik arzulayırlar...

Yenə Şuşadayam və ermənilər yenə bildirirlər ki, tatarlara tabe olmaqdansa, ölmək yaxşıdır, ermənilər və tatarlar bir-birinin düşmənidir və onların arasında razılıq ola bilməz.

Həyəcanlı dövr başlandı. Britaniya hakimiyyət orqanları qərara aldılar ki, indiki vaxtda Qarabağ Azərbaycana birləşdirilməli və bu respublikanın hakimiyyəti altında olmalıdır...

Beləliklə, Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın tərkib hissəsi olduğu kimi, inzibati baxımdan da, Azərbaycanın tərkib hissəsinə çevrildi. Doktor Sultanov Şuşanın general-qubernatoru təyin edildi, britaniyalı bir zabit və Britaniya qoşunlarından ibarət kiçik bir dəstə Şuşada qaldı. Əldə edilmiş razılaşmaya görə Sultanov öz əmr və dekretlərini İngiltərənin nümayəndəsi ilə razılaşdırmaq şərti ilə dərc etməli idi. Ermənilər hətta bu cür idarəetməni də tanımaqdan imtina etdilər və şəhərdə Azərbaycan dilində yazılıb yapışdırılmış məlumatlar və proklamasiyalar qoparılıb atılanda təşviqatçılann təhriki ilə ermənilər bu vərəqələri korlayır və cırırdılar. Bu şəhərdə və mahalda olan qaçqınların çoxu Türkiyə Ermənistanından olan qaçqınlardır. Buna görə də onlara təsir göstərmək çətin deyildi. Təşviqatçılar deyəndə ki, tatarlar da elə türklərdir - onlar öz məqsədlərinə çatırdılar. Münaqişələrin baş verməsi labüd idi.

Asayiş yaratmaq üçün Britaniya qoşunları göndərilmişdi və iki indus öldürülmüşdü. Bir neçə tatar əsgər və bir neçə erməni bu toqquşmalar zamanı öldürülmüşdü. Onların bir-birini qırmaq üçün göndərildiyi kəndlərdə bir neçə yüz adam həlak olmuşdu.

İndi insident səngimişdir. Qarabağda əmin-amanlıqdır. Ermənilər Azerbaycanın hakimiyyət orqanlarına tabe olmağa razılaşmışlar. Artıq yuxarıda dediyim kimi bu münasibətlə banket verilmiş, qılınclar qınına qoyulmuşdur...

Onlar (ermənilər) mənə deyirlər ki, Şuşada və Qarabağda əvvəllər heç vaxt bu qədər sakitlik və qayda-qanun olmamışdır.

Skotland-Liddell
Şuşa, Zaqafqaziya
Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi,
fond 894, siyahı 10, iş 103, vərəq 10-19
"Azərbaycan SSR EA Xəbərləri".
Tarix, fəlsəfə və hüquq seriyası, №4,
B. 1989, səh. 121-126

Ruscadan çevirən:
O.QƏBƏLƏLİ

"Günay", 23, 30 aprel 2005-ci il, №16, 17

ÜZEYİR BƏYİN YAZDIQLARINI NİYƏ İXTİSAR VƏ HƏTTA REDAKTƏ EDİBLƏR?



Bu il sentyabrın 18-də milli iftixarımız Üzeyir bəyin anadan olmasının 120 illiyi tamam olur. Yubileyə az qalır. Zənnimcə qarşıda duran ən başlıca məsələlərdən biri Üzeyir bəyin zəngin irsinin araşdırılması və nəşrinin, xüsusilə, akademik nəşrinin təşkilidir. Məlumdur ki, hələ keçən əsrin 60-cı illərində bu sahədə çox ciddi işə başlandı. Nəzərdə tutulan 10 cilddən 4 cild işıq üzü gördü. Sonralar seçilmiş əsərlərinin bir cildi, 1918-1920-ci illərdə "Azərbaycan" qəzetində dərc olunmuş məqalələrinin böyük bir qismi ayrıca kitabça halında buraxıldı. Ən son Azərbaycan və rus dillərində "Üzeyir Hacıbəyov ensiklopediyası" nəşr olundu.

Bütün bunlar diqqətəlayiq hadisələrdir. Lakin görüləsi işlər də çoxdur. Yeni əsrdə gəncliyə Üzeyir bəyin əsərlərinin latın qrafikası ilə tam nəşrini çatdırmaq vəzifəsi durur. Həm də bu işi təkcə mövcud nəşrlərə əsaslanaraq görmək də məqbul sayıla bilməz. Həmin əsərlərin hər birini dərc və çap olunduğu mə-

xəzlərlə dəqiq və dürüst yoxlamaq tələb olunur. Nə üçün? 1968-ci ildə Üzeyir bəyin əsərlərinin 3-cü cildinə "Tərtibçidən" sərlövhəli ön sözdə qeyd olunurdu ki, "Dilimizin inkişaf tarixini düzgün müəyyən etmək və habelə Üzeyir Hacıbəyov kimi böyük publisistin dil, üslub, janr xüsusiyyətlərini saxlamaq məqsədilə yazılarına, demək olar ki, toxunulmamışdır". Çox yaxşı! Lakin 3-cü və 4-cü cildlərin sonunda verilmiş "kommentariyalar" göstərir ki, qeyd olunan prinsipə bir sıra hallarda əməl edilməmişdir. Məsələn, 3-cü cildə daxil edilmiş 161 yazıdan 22-sində ixtisar və bəzi redaktə aparılmışdır. Bu barədəki qeydlərdə oxuyuruq: "Burada ixtisarla verilir", "cüzi ixtisar edilmişdir", "felyeton cüzi ixtisar və redaktə edilmişdir", "burada ixtisar və cüzi redaktə edilmişdir" və s. Maraqlıdır, nəyi ixtisar və nəyi redaktə ediblər? Bununla əlaqədar göstərilən əsərlərin bir qismini dərc olunduqları qəzet mətnlərilə yoxladıq. Ümumi qənaətim belədir ki, ixtisar və əl gəzdirmələr siyasi-ideoloji senzura ilə bağlı aparılıb. Məsələn, "İrşad" qəzetinin 1906-cı il 10 aprel tarixli 86-cı nömrəsində Üzeyir bəyin "Ordan-burdan" rubrikası altında "Flankəs" təxəllüsü ilə "Cavad uyezdində pristav Şəfi bəy Fətəlibəyova açıq məktub"u dərc olunmuşdur. Bu məktub 3-cü cildin 54-55-ci səhifələrində verilib. Bu barədəki redaksiya qeydində oxuyuruq: "Polis məmurlarının cəlladlığını ifşa edən bu felyeton... burada ixtisarla verilir".

Göstərim ki, bu məktubun "Cavanşir uyezdində Gürcüstan!" adlı birinci hissəsi ixtisara düşüb. İxtisar olunmuş hissə belədir: "Cənab Əlixanovun Gürcüstanı təxrib etdikdə göstərdiyi "şöhrət" bəzi sahibi-hökumətləri qibtə məqamına gətirdi. Onlar dedilər bizim də Əlixanov kimi şöhrət qazanmağa əfsadarımız (fəsadçımız) vardır. Biz də istəsək Qafqazın könül sevən yerini xarabaya döndərə biləriz!

Qibtəçilərdən bərk "ürəyi aşlanan" Cavanşir uyezd naçalniki Pivovarov həzrətləri idi. (Bu cənab Şuşa müsəlmanlarına yaxşı tanışdır. Bu cənabın bir fərzəndini (oğlunu) də bir müsəlman yoxdur ki, tanımasın. Mərqum (adı çəkilən) oğlan Rusiyada cəlladlıq edən kazaklardan bir dəstə götürüb erməni-müsəlman davasında Şuşa müsəlmanlarından "intiqam" aldı).

Cənab Pivovarov "şöhrət" xəyalına düşüb bunu qövldən-felə (sözdən-işə) götürmək üçün fürsət axtarırdı. Gün keçdi, ay gəldi, fürsət yetişdi. Müsəlman qaçaqları Cavanşir uyezdində bir neçə nəfər rus cəlladını öldürdü.

Pivovarov həzrətləri bu əhvalatı eşidib "şiri-jəyan" t (qəzəblənmiş şir) kimi qızdı. "Fürsəti fövt eləməz aqil məgər nadan ola" (fürsəti əldən versə, aqil nadan olar) – deyib pristav Şəfi bəyi özünə bələdçi götürüb kazaklar ilə bir yerdə düşdü uyezdin canına. Qabağına çıxan kəndi odladı, yol ilə keçən müsəlmanları öldürtdü və bir neçə müsəlmanı diri tutub verdi kazaklara – bunlar sizin olsun, nə istəyirsiniz eləyin! Hansı zülm ilə öldürəcəksiniz öldürün, faili-muxtarsınız! (ixtiyar sahibisiniz) – dedi. Kazaklar da filvaqe (həqiqətən) cəllad olduqlarını ən aydın bir surətdə göstərdilər. İştə cənab Pivovarovun "şöhrəti" qafqazlılara faş (aşkar) oldu!

Görürsünüz nəyi ixtisar ediblər!

Başqa bir misal: "İrşad" qəzetinin 1907-ci il 2 mart tarixli 37-ci nömrəsində Üzeyir bəyin "Təzə xəbərlər" sərlövhəli felyetonu dərc olunmuşdur (bax, əsərlərinin 3-cü cildi, səh. 163-164). Bununla əlaqədar qeydlərdə yazılıb: "felyeton cüzi ixtisar və redaktə edilmişdir".

Üzeyir bəy yazırdı: "Hökumət Allahdan istəyir ki, Qarabağda, filanda yenə bir urus öldürsünlər ki, "ekzekusiya" qoymağa bəhanə olsun, çünki heç bilirsinizmi ki, bu cürə "ekzekusiya"ların xəzinəyə nə qədər nəfi (xeyri) var!...

Bu cümlədə bircə söz dəyişdirilib "urus" əvəzinə "adam" yazıblar. Beləcə bütün mahiyyət təhrif olunub. Axı Qarabağda hakimlər üçün bir adam öldürülməsi ilə bir rusun öldürülməsi arasında çox böyük fərq vardı. Məgər bu redaktədir? Bəs cüzi ixtisar edilən nə idi? Oxuyun:

"Qafqazda müsəlman pitrovları (qabaqda gedənləri) aclıq məsələsilə köç məsələsinin həllini saxlayıbdırlar. Çəyirtkə məsələsi çatana kimi deyirlər ki, bunların hərəsinə ayrı-ayrı diqqət sərf eləməkdənsə üçünü də bir gündə qurtarmaq məsləhətdir".

Üzeyir bəy kimi qüdrətli bir düşüncə və qələm sahibinin, böyük vətənpərvər və mütəfəkkirin yazdıqlarına əl gəzdirmək çox böyük və bağışlanılmaz xətadır. Məqsədimiz günahkar axtarmaq deyil. Yeni nəşrlərdə bu cür xətaların, təhriflərin təkrarının qarşısını vaxtında almağın zəruriliyini nəzərə çatdırmaqdır. "Günay"ın qarşıdakı saylarında bu növ xətalardan konkret nümunələr verəcəyik. Zənnimcə bu cür xətalara diqqəti cəlb etmək faydasız olmaz.

"Günay", №18, 7 may 2005-ci il

ÜZEYİR BƏYİN PUBLİSİSTİK İRSİNİN NƏŞRİNƏ DAİR QEYDLƏR

"Günay"ın keçən nömrəsində göstərdiyimiz kimi, milli iftixarımız Üzeyir bəyin publisistik əsərlərinin bir qismi keçən əsrin bir neçə onilliyində tədqiq və nəşr edilərək oxuculara çatdırılıb. 1968-ci ildə bu publisistik irsin 1905-1915-ci ilin oktyabrın əvvəllərini əhatə edən iki – 3-cü və 4-cü cildləri işıq üzü görüb. İndi bu cildlərin yeni əlifba ilə nəşri məsələsi qarşıda durur. Əlbəttə, bu yalnız böyük işin başlanğıcı ola bilər. Məsələn, Üzeyir bəyin 2003-cü ildə nəşr olunmuş ensiklopediyasında yazılır ki, təkcə "İrşad" qəzetinin 1905-1908-ci illər nömrələrində onun 100-ə yaxın publisistik məqaləsi və 200-dən artıq felyeton və satirik yazısı dərc olunmuşdur. Bunların hamısı göstərdiyimiz cildlərdə varmı? Üzeyir bəyin 1915-ci il oktyabrın 6-dan sonra mətbuatda dərc olunmuş qiymətli əsərləri nə vaxt toplanılıb nəşr olunacaq?

Üzeyir bəyin əsərlərinin göstərdiyimiz 3-cü və 4-cü cildlərinin redaktoru xalq yazıçısı, akademik Mirzə İbrahimov "Üzeyir Hacıbəyovun publisistikası haqqında" sərlövhəli irihəcmli və tutarlı giriş məqaləsində yazır: "Oxucular Üzeyirin çox qüdrətli, çox gözəl və kamil bir publisist olduğunu, bir zaman günün ən cari siyasi tələblərinə cavab verən əsərlər yazdığını, eyni zamanda bu əsərlərdə nə isə əbədi, ölməz bir şeyin əks etdiyini görəcəklər.

Bəli, Üzeyir Hacıbəyov o cür xoşbəxt sənətkarlardan və ictimai xadimlərdəndir ki, zaman keçdikcə böyüklüyü, fəaliyyətinin mütərəqqi və humanist mənası daha parlaq şəkildə gözə dəymək-

dədir. Onun zəngin irsi indi də diqqəti cəlb edir və müəyyən dərəcə genişliyi, dərin mənası ilə bizi heyran buraxır. Bu zəngin mədəni irsin əhəmiyyətli bir hissəsini publisistika təşkil edir".

Mən çox böyük bir təəssüf hissilə qeyd etmək istəyirəm ki, çox böyük əmək sərf edib Üzeyir bəyin publisistik yazılarını toplayıb, əlifbadan - əlifbaya çevirən (transliterasiya edən) və nəşrə hazırlayanlar bəzən diqqətsizlik ediblər, yaxud özlərinin də yazdıqları kimi, redaktə etmək təşəbbüsündə bulunublar. Mən senzura ixtisarlarını onların ayağına yazmıram. Məsələn, yenə də bircə nümunə ("Tərəqqi" qəzetinin 1909-cu il martın 6, 8, 19 və aprelin 1-i tarixli 50, 51, 58 və 67-ci nömrələrində Üzeyir bəyin "Yenə üsuli-təbii haqqında bir neçə söz" sərlövhəli məqalələri dərc olunmuşdur). Əsərlərinin 4-cü cildinə daxil edilmiş (bax:səh.99-113) bu məqalələr haqqında cilddə verilmiş məlumatda düzgün olaraq qeyd edilir ki, "məktəb, təlim, tədris, tərcümə, maariflənmənin yeni yollarla inkişaf etməsi və bu kimi mübahisəli məsələlər o zaman Azərbaycan ictimaiyyətini olduqca maraqlandırırdı və ona görə onun diqqət mərkəzində olmuşdu. Burada verilmiş məqalələr Üzeyir Hacıbəyovun bu mübahisələrdə fəal iştirak etdiyini bir daha sübut edir. Burada həmçinin göstərilir ki, "sonuncu məqalə cüzi ixtisar edilmişdir".

Əvvəla cüzi ixtisar edilən nədir?

Üzeyir bəy yazırdı ki: "Biz müəllimlər isək (cilddə "isə" yazılıb) öz türk dilimizi bilmirik və bilmədiyimiz üçün bədbəxt dilimizi daha da xarab edirik. Hələ yaxşı ki, siz ilə mən bir qədər savadlıyıq, amma yüzlərcə müəllim var ki, türk dili cəhətincə sırf bisavaddırlar, bədbəxtlik burasıdır ki, (cilddə "burasındadır ki" yazılıb) öz türk dilimizi öyrənmək həvəsi də biz müəllimlərdə yoxdur". Bundan sonra gələn aşağıdakı sətirlər ixtisar edilib:

"Biz türk dili üzrə böyük bir padşahlıq təsis etmiş olan osmanlılardan, fars və rus tərcümələri altında bilkülliyə (hamılıqla) xarab olub türklük ruhunu itirmiş olan dilimizi təzədən

öyrənmək əvəzinə hələ osmanlıları bəyənməyib sərf (morfologiya) cahili olduğumuz bu məsələ üstündə onlar ilə mübahisəyə də cəsarət edirik!"

Məqalələri orijinal ilə yoxladıqda xeyli miqdarda səhvlərə, düzgün transliterasiya edilməyən söz və ifadələrə, söz və cümlələrin düşməsinə və s. təsadüf edirik. Belə səhv və xətaların sayı 30-dan artıqdır. Məsələn "suyi-zənn" (bədgümanlıq, pis xəyal) "su'zən" kimi (əgər indiki latın qrafikasında apostrof olmadığını nəzərə alsaq, "suzən" kimi yazılmalıdır ki, mənası "iynə" deməkdir), "daha dürüstü" əvəzinə "daha doğrusu", "bu tərəfdən" əvəzinə "bu səbəbdən", "öyrənmək mümkün deyildir" əvəzinə "öyrənmək lazım deyildir", "bir-iki" əvəzinə "birinci", "dövr tərəfindən əsən yellər" əvəzinə "dörd tərəfdən əsən yellər", "mənim haman sözlərin qəzetə vasitəsilə tədrisini göstərməyə iqtidarım olarmı?" cümləsi "mənim həmin sirlərin qəzetə vasitəsilə tədrisini göstərməyə iqtidarım olarmı?" kimi verilmişdir.

Üzeyir bəy yazırdı: "Rəfiqim, sizin bu sözləriniz üsuli-tərcüməni müdafiə deyildir. Bəlkə həmin üsulu daha da heç məqamına gətirməkdir" sonuncu cümlədə "bəlkə həmin"dən sonrakı sözlər düşüb. Və yaxud mətndə oxuyuruq: "Qafqazda türk dilini mükəmməl bilənlərdən Əli bəy Hüseynzadə cənabları dəfələrlə qəti surətdə elan etmişlər ki, türk dilində "hansı ki", "hansılar ki" sözü yoxdur. Mən də deyirəm ki, bu sözü tərcümə üsulilə dərs verən müəllimlər, rusun "kotoryy" kəlməsini tərcümə etmək üçün özlərindən çıxardıblar, onun istemalı dil üçün lüzumsuz bir ağırlıqdır". Sonuncu cümlədən nədənsə "dil üçün" sözləri çıxardılıb.

Nəhayət, daha bir ixtisar haqqında. 3-cü cilddə Üzeyir bəyin "İrşad" qəzetinin 1907-ci il martın 2-si tarixli 37-ci nömrəsində günün yeniliklərinə həsr edilmiş "Tazə xəbərlər"i dərc olunmuşdur. Aşağıdakı xəbərlər nədənsə cildə düşməmiş, ixtisar olunmuşdur:

"Əcnəbi vilayətində - ingilis, firəng və sair böyük hökumətlər çox bərk fikir eləyirlər ki, görək yenə bir müsəlman padşahlığı varmı ki, üstünə tökülüb payi-püşt (alt-üst) eləsinlər. Hələ fikirlərinə bir yer gəlməyir.

Osmanlı hökuməti bu fikirdədir ki, hərgah Osmanlıda da İranda olan kimi şuriş (qarışıqlıq) filan olsa məmləkəti əcnəbilərə satıb canın qurtarsın.

İngilis hökuməti İran hökumətinə ürək-dirək verib deyir ki, qorxma, camaət çox oyan-buyan eləsə lələşin burda durubdur!

Fas (Mərakeş) sultanı Yuropa padşahlarının hücumundan sonra neçə vaxtdır ki, ta bir də kamança çaldırmayır və cəngi oynatmayır".

Belə misal və nümunələrin sayını artırmaq da olar.

Fikrimizcə, Üzeyir bəy kimi mütəfəkkir bir qələm sahibinin əsərlərinin dəqiq, doğru, düzgün, orijinalda olduğu kimi nəşrini həyata keçirmək üçün yeni xüsusi bir redaksiya heyəti təşkil olunmalı, onlara lazımi şərait yaradılmalı, vəsait ayrılmalı və nəhayət, bu məsələ dövlət səviyyəsində həll olunmalıdır. Üzeyir bəyin publisist irsi zəngin mənəvi xəzinəmizdir. Ona laqeyd münasibət yolverilməzdir.

"Günay", №19, 14 may 2005-ci il

İSTİQLALIN MƏŞƏQQƏTLİ YOLU, MİLLİ MÜCAHİDLƏRİN QƏTİYYƏTİ

(28 may düşüncələri)

Azərbaycanın dövlət müstəqilliyini elan etdiyi 1918-ci ilin 28 mayından 87 il keçir. Bu gün tariximizin və taleyimizin ən əlamətdar, əsrlərə bərabər fəxarətli günüdür. İllər keçdikcə biz onun əzəmətini, onu reallığa çevirən nəslin fədakarlığını, qəhrəmanlıq və şücaətini daha aydın dərk edəcəyik. Biz uzun illər müstəmləkəçiliyin, hər cür təqib və zülmün şiddətinə baxmayaraq, milli varlığımızı, maddi və mənəvi sərvətlərimizi, torpaqlarımızı qoruyan namus və qeyrət sahiblərinin əməllərini, fəaliyyətlərini araşdırmağa, nəsildən-nəslə verməyə borcluyuq. Milləti yaşadanlarla yanaşı, işğalçılarla əməkdaşlıq edən naxələfləri də tanımalıyıq. Millət və xalq dostunu və düşmənini tanımaqla qüdrətli və qüvvətli olur. 28 may da belədir. Onun qələbəsinin ilk təməl daşlarını tarixi yaddaşa söykənən mədəniyyət və maarif xadimlərimiz, ictimai-siyasi mübarizə meydanına girmiş gənc istiqlal mücahidləri qoymuşdular.

Məlumdur ki, istiqlal uğrunda mübarizə əvvəlcə ideoloji cəhətdən hazırlanır, siyasi cərəyana çevrilir, cəmiyyətin sağlam qüvvələrinin şüuruna həkk olunur, hərəkatın siyasi ordusu formalaşır. Bu il nəşrinin 90 ilini qeyd edəcəyimiz "Açıq söz" qəzeti və onun ətrafında cəmləşmiş dövrün ən qabaqcıl və mütərəqqi ziyalıları 28 may fütuhatını hazırlayan və həyata keçirən nəsil idi. Qəzetin fəaliyyəti haqqmda təsəvvür yaratmaq üçün onun baş redaktoru M.Ə.Rəsulzadənin yazdığı "Tutacağımız yol" sərlövhəli baş məqalənin mühüm hissələrini oxuculara təqdim edirəm.

TUTACAĞIMIZ YOL

Dəhşətlərinə şahid olduğumuz böyük müharibə böyük bir həqiqəti - əsrimizin milliyyət əsri olduğunu isbat etdi.

"Dünyanın xəritəsi qəribə dəyişəcək" deyə heyrətlə qarışıq bir cümlə indi bir çox ağızlardan eşidilməkdədir. Dünya xəritəsinin alacağı yeni şəklə vətəndaşların fədakarlığı, dövlətlərin təşkilatı və orduların əzəməti ilə bərabər heç şübhə yoxdur ki, vüzuh (aşkar) və rüsux (qətiyyətlə) peyda (zühur) etmiş milliyyət məfkurələrinin də böyük təsiri var və olacaqdır.

Özünü lüzumunca bilib də istiqbal üçün müəyyən bir ideal (məfkurə) bəsləyən millət şübhəsiz ki, böyük bir qüvvət təşkil edər. Şübhəsiz ki, sözün tam mənası ilə deyiləcək qədər kuhəfkən (dağ dağıdan) topların hakim olduğu hərb meydanlarında təsirsiz qalmayan bu qüvvət yaşıl mahudlu barışıq masası üzərində də əsaslıca bir təsir yapacaq.

Hər hankı qalib tərəf az-çox sorunclu bir dinclik vücuda gətirmək istərsə əsrin vicdanları üzərində ən çox təsir icra edən qüvvətli milliyyət məfkurəsini ehmal edəməz! Bunun böylə olacağı arabir gələcəyin sülhü haqqında söz söyləyən Avropa mütəfəkkirlərincə də təsdiq olunmaqdadır. Sülhsunə mənsub siyasilərcə, milliyyət əsasına riayət etməyəcək, millətlərin hüququnu gözətməyəcək bir sülh əqdnaməsi çox çəkməz yırtılar və sorunclu bir dinclik təmin edəməz.

Hüquqi-təbiisi paymal olmuş bir millət baqi (əbədi) qalıncaya qədər Avropa müvazineyi-düvəliyyəsi (dövlətlər müvazinəti) hüquqi və sorunclu bir sülh üzü görməkdən məhrum qalacağı kimi, kəndi (öz) vətəndaşları arasında ögey-doğmalıq gözədən bir dövlət də həqiqi bir qüvvətə söykənməyəcək, mütərəqqi və qüvvətli bir təşkilata malik olmayacaqdır.

Demək ki, müəyyən bir məfkurəyə və əksər əfradınca (fərdlərcə) müşəxxəs (tanınmış) qayeyi-amala malik olan millətlər, dövlətlər arasındakı münasibətdə əhəmiyyət qazandıqları kimi,

dövlətlərin daxili siyasətləri üzərinə də böyük təsirlər icra edəcəklərdir. Bu surətdə ayrı-ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün hər şeydən əvvəl özlərini bilməli, müəyyən fikir və amallar ətrafında birləşərək bütün bir məfkurəyə, qayeyi xəyala hədəf olacaq o işıqlı yıldıza sahib olmalıdırlar. Çünki müttəhid bir ruh və müştərək bir yıldıza malik olmayan millətlərlə yeni əsaslar üzərinə qurulacaq həyat hesablaşmayacaq və böylə silahdan məhrum qalan heyətlər kimsəyə söz eşitdirəməyəcəklərdir!

İştə millətimizin bir qəzetəçisi olmaq hesabilə öhdəmizə düşən rəhbərlik vəzifəsinin ifası üçün tutacağımız yolun nöqteyi-əzimətini (məramını) təşkil edəcək əsas - milliyyət əsasıdır.

Fəqət sui-təfahümə (anlaşmaya) meydan qalmamaq üçün həmən ixtar edəlim ki, (xatırlayalım ki) bizim qəbul etdiyimiz milliyyət düsturu "Zemşina", "Novoye vremya"nın və sair bu kimi sağ qəzetə və məhfillərin (heyətlərin) bəhimi (vəhşi) millətçiliklərindən əlbəttə başqadır. Onlarca özgə millətlərin mənafeyi milləti-hakimənin mənafeyinə fəda edilməlidir. Halbuki bizim tərvic elədiyimiz əsas bütün milliyyətlər üçün bir dərəcə hürriyyət və müsavat tələb edir ki, bununla biz rus camaatının da salim düşünür qismilə heç bir ixtilafda bulunmuyoruz.

Hər bir millət azadə yaşayıb da tərəqqi edə bilmək üçün 3 əsasa istinad etmək məcburiyyətindədir:

DİL, DİN VƏ ZAMAN

Dilcə – biz türküz, türklük milliyyətimizdir. Binaən əleyh (ona görə) müstəqil türk ədəbiyyatı, türk sənəti, türk tarixi və türk mədəniyyətinə malikiyyətimiz-məqsədimizdir. Parlaq bir türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır.

Dincə - müsəlmanız. Hər bir din öz mütədəyyinləri (inananları) arasında məxsusi bir təməddün (mədəniyyət) vücuda gətirmişdir ki, bu təməddün də bir beynəlmiləliyyət səbəbi təşkil

edir. Müsəlman olduğumuz üçün biz türklər beynəlmiləliyyəti-islamiyyəyə daxiliz. Bütün islam millətlərilə şərikli bir əxlaqa, dini bir tarixə, müştərək bir yazıya, xülasə ortaq bir təməddünə malikiz. Qəlblər bir Allaha mütəvəcce (üz tutan) və dilimiz müəyyən virdlər (daim təkrar edilib söylənən, dualarla mütəzəkkir (yada salınan) olduğundan bütün müsəlmanlarla şərik bir ruha sahibiz. Bu şəriklik islamiyyətə daxil olan zərərli təsirlərdən bizi mütəzərrir etdiyi kimi, bu yolda olacaq islahat feyzlərindən də bizi nəsibsiz qoymaz.

Zamanca da - biz texnikanın (alyatın), elm və fənnin möcüzələr yaradan bir dövründəyiz. Türk və müsəlman qalaraq müstəqilən yaşamaq istərsək, mütləqa əsrimizdəki elmlər, fənnlər, hikmət və fəlsəfələrlə silahlanmalı, sözün bütün mənası ilə zəmanə adamı olmalıyız.

Demək ki, sağlam, mətin və oyanıq məfkurəli bir milliyyət vücuduna çalışmaq istərsək ki, zaman bunu iqtiza (tələb) ediyor - mütləqa 3 əsasa sarılmalıyız.

TÜRKLƏŞMƏK,
İSLAMLAŞMAQ VƏ MÜASİRLƏŞMƏK

İştə millətimizin həyati-ictimaiyyəsini islah üçün üzərinə dayandığımız se (üç) payeyi-mədəniyyət!...

Xülasə tutacağımız yolda önümüzə çıxacaq olanlara qarşı yeganə vasitəmiz olacaq açıq söz!

M.Ə.Rəsulzadə,
"Açıq söz" №1, 2 oktyabr 1915

"Günay", №20, 21 may 2005-ci il

TİFLİSDƏ MƏRASİM, GƏNCƏDƏ ŞƏNLİK, BAKIDA TƏŞVİŞ

1918-ci ilin may günlərində Tiflisdə və Zaqafqaziyada cərəyan edən tarixi əhəmiyyətli hadisələr haqqında yazılanlar da çoxdur, təhriflər və uydurmalar da az deyil. O dövrün mətbuat orqanlarında dərc olunmuş yazıları diqqətlə nəzərdən keçirib müqayisə etdikdə, qalmış az-çox arxiv sənədlərilə tanış olduqda, həmçinin həmin hadisələrin fəal iştirakçısı olmuş şəxslərin təəssürat və xatirələrini oxuduqda belə bu mənzərəni bütün dəqiqliyi ilə aydınlaşdırmaq o qədər də asan olmur. Bu, mənim təəssüratımdır. Məlumdur ki, 1918-ci ilin mayında Tiflisdə Azərbaycan dilində mətbuat orqanı nəşr olunmurdu. Rus, gürcü və erməni dillərində isə xeyli qəzet çıxırdı. Gürcü tarixçiləri 1918-ci ilin mayında ölkədə baş vermiş hadisələrdən əsasən aşağıdakıları mühüm hesab edirlər: 1) 1918-ci il mayın 11-də Batumda Almaniya, Türkiyə, Zaqafqaziya, Şimali Qafqaz və Dağıstan nümayəndə heyətlərinin iştirakı ilə sülh konfransının açılışı; 2) Mayın 14-də Gürcü Milli Şurasının "əksinqilaba" qarşı mübarizə məqsədilə alman silahlı qüvvələrinin dəvət edilməsi barədə qərarı; 3) Mayın 17-də Abxaziya və Suxumun bolşeviklərdən azad edilməsi; 4) Mayın 26-da Zaqafqaziya Seyminin öz səlahiyyətlərinə xitam verməsi və Gürcü Milli Şurası tərəfindən müstəqil Gürcüstan Respublikasının elan edilməsi, N.Ramişvilinin hökumət başçısı təyin edilməsi.

Bakıda ana dilində nəşr olunan yeganə gündəlik "Hümmət" qəzeti bu xəbərləri Tehrandan aldığı teleqrama əsaslanaraq oxucularına belə təqdim edirdi. İtalyan, ingilis, fransız və amerikan konsulları 26 mayda Tiflisdən çıxdılar. Amerika və

Fransa konsulxanasını və rəiyyətlərini mühafizə etmək vəzifəsi İran general konsuluna tapşırılmışdır. Ayın 26-da Seym özünü buraxılmış elan etdi. Zaqafqaziya hökuməti düşdü. Gürcüstan özünü müstəqil elan etdi. Zaqafqaziyanın müsəlman əhalisi olan yerlərində də (quberniyalarında da) dəxi ayrılmaq istənilir".

"Hümmət" qəzetinin mayın 27-də Tiflisdən aldığı və dərc etdiyi "Gürcüstan istiqlalının elanı" sərlövhəli xəbərdə deyilirdi:

"Zaqafqaziya Seymi qapanandan sonra, dvoretsin (canişin sarayının - Ş.H.) Ağ zalında Gürcü Milli Komitəsinin üzvləri Jordaniyanın sədarəti altında bir iclas yapdılar. Jordaniya öz nitqində Gürcüstan istiqlaliyyətini təbrik edərək dedi ki, gürcü milləti özünün keçmiş padşahlıq zamanında Gürcüstan nahiyəsində olan sair millətlər nümayəndələri ilə gözəl əlaqədə bulunduqları kimi indi də o gözəl məsləki təqib edəcəklər...".

Göstərdiyimiz kimi, gürcülər alman qoşunlarını yardıma dəvət edib öz müstəqilliklərini elan etdilər. Bunu nəzərə alan Azərbaycan nümayəndə heyəti də Batum danışıqlarında Türkiyə tərəfinə eyni xahişdə bulunmuşdu. "Hümmət" qəzetində dərc olunmuş bir yazıda (№89) göstərilirdi ki, Batuma qaçqınlar məsələsinə nəhayət vermək üçün getmiş doktor Xosrov bəy Sultanov Tiflis qəzetlərindən birinə verdiyi müsahibədə demişdir ki, "mənimlə bərabər Şərqi Zaqafqaziya camaatının vəkilləri də vardı ki, müsəlman olan yerlərə bolşeviklər ilə mübarizə etmək üçün türklərdən kömək istəyim. Türklər cavab verdilər ki, bizim gəlməyimiz Zaqafqaziya hökumətinin xahiş və tələbindən asılıdır. Zaqafqaziya hökuməti isə Türkiyə qonşusunda olan müsəlmanların mühafizə edilməsini özünə müqəddəs vəzifə hesab edir". Sonra yazıda oxuyuruq: "Türklərin gəlməsi anarxiyanı yatırıb ermənilərlə münasibətin yaxşılaşmasına xidmət edəcəkdir. İndilikdə bu nəticələr görünməkdədir. Məsələn, Gəncə quberniyasında Nuru paşanın əmrinə görə ermənilərin dağılmış qaçqınları öz yerlərinə qayıdırlar. Ağdam və Bərdədə indi ermənilər vardır, hansı ki, qabaqca yox idi. Bundan belə məlum olur ki, qüvvətli bir hökumət lazımdır ki, ixtişaşı yatırsın...".

"Hümmət" qəzeti 18 iyun tarixli 92-ci nömrəsində Tiflis mənbələrinə istinadla "Nazim paşa Gəncədə" sərlövhəli yazı dərc etmişdi. Məlumdur ki, mayın 28-də təşkil olunmuş Fətəli Xan Xoyskinin başçılıq etdiyi Azərbaycan hökuməti iyunun əvvəllərində Tiflisdən Gəncəyə gəldi. Hökumətdən əvvəl Gəncəyə gələn türk qoşunlarının Gəncədə necə qarşılanması qəzetdə belə təsvir edilirdi: "İyunun 12-də müsəlmanlar ermənilərə ultimatum verdilər ki, silahları verin. Vaxt keçən kimi top atəşi açıldı. Ermənilər ağ bayraq qaldırıb təslim olublar. Türk və gəncəli əsgərləri tərəfindən erməni hissəsi işğal olundu... Şəhərdə rahətlikdir... Nazim paşa qabaqca Gəncəyə gələrək camaat tərəfindən təntənəli surətdə istiqbal edilmişdir. Vağzaldan şəhərə kimi xalçalar döşənərək hər yerdə izdiham var idi. Musiqi dəxi çalınırdı.

Nazim paşa nitq edərək demişdir ki, sizi təbrik edirəm. Çoxdan bəri Türkiyənin sizlərə qovuşmaq arzusu bu gün hasil oldu. Bu gün mənim viladətimin (anadan olmağımın) ikinci günüdür.

İndi 15 gündür ki, biz bütün zəhmətlərə mütəhəmmil olaraq (qatlaşaraq) sizləri görmək üçün İstanbuldan çıxmışıq...

Məsciddə çox təntənəli duaxanlıq oldu. Nazim paşa piyada olaraq şəhərdə gəzməyə başladı. Camaat dəxi onunla bərabər gedirdilər. Sonra Nazim paşanı onun üçün hazırlanmış evə apardılar...

Hal-hazırda Nazim paşa Nuru paşa ilə bərabər kəndlilər arasında təbliğat edirlər... Camaat onları milli mahnılarla qarşılayırlar".

Azərbaycan istiqlalını və xalqın istiqlal savaşına qardaşlıq köməyinə gəlmiş türk ordusu hissələrini böyük ruh yüksəkliyi və sevinclə qarşılayan gəncəlilərin əksinə olaraq Bakıda möhkəm yuva salmış bolşevik-daşnak güruhu, xəyanətkar qüvvələr çox böyük təşviş içində idilər. Onlar Bakını əldən verməmək üçün hər cür xəyanət və cinayətə əl atırdılar. Bolşeviklərin əsas ümidi Sovet Rusiyası idi. Maraqlıdır ki, hümmətçilərin "Əxbar" qəzeti müsəlmanlara qarşı çevrilmiş mart qırğınından sonra sosialist adı ilə fəaliyyət göstərən daşnakları və onlarla birgə hərəkət edənləri ifşa edərək "Qurd tələyə düşüb" sərlövhəli çox qısa bir xəbərində yazırdı: "Müsəlmanlar

arasında xəbər dağıdıldı ki, "Adə, vaxsey bütün rus, erməni sosialistləri yalandan sosialistlərdir, ancaq müsəlman sosialistləri anlamaz olduqlarına görə ürəkdən millətlərə məhəbbət edirlər. Məsələn, baxın Şaumyana o gizlində daşnak-sakandır, üzdə bolşevik...".

Tarix öz işini görürdü. Əgər gürcülər almanlara arxalanırdılarsa, daşnaklar Qərb dövlətlərinə, birinci növbədə ingilislərə ümid bəsləyirdilər. 1918-ci ilin avqustunda ingilis hərbi hissəsinin İrandan Bakıya gəlişi belə daşnakları və Azərbaycan istiqlalı düşmənlərini xilas etmədi. 1918-ci il sentyabrın 15-də Bakı bolşevik-daşnak və milli xəyanətkarlardan xilas edildi. Müstəqil Azərbaycanın üçrəngli bayrağı ölkənin əbədi paytaxtında dalğalanmağa başladı.

Professor Herbert Yanski 1938-ci ildə Berlində işıq üzü görmüş "Azərbaycan istiqlalı" məqaləsində yazırdı ki, "1918-ci ildə rus əsiri olan türklər üçün bir istiqbal açıldı; həsrətini çəkdikləri hürriyyətə qovuşacaqlardı. Müstəqil bir dövlətin təməlini quran ilk türk yurdu Azərbaycan idi".

28 mayın həqiqi tarixi qiymətini anlamaq və vermək üçün ən azı uzun müddətdən sonra belə o dövrün tarixi şəxsiyyətləri səviyyəsində düşünmək, milli qeyrət və namus sahibi olmaq gərəkdir. Ümid gələcəyədir!

"Günay", №21, 28 may 2005-ci il

HƏYAT DAVAM EDİR!

İyunun 7-də Azərbaycanda anadilli ilk gündəlik "Həyat" qəzetinin nəşrə başlamasının 120 ili tamam olur. Azərbaycan mətbuatı və jurnalistikası tarixində bütöv bir dövr və məktəb yaratmış "Həyat" qəzetini 1905-1906-cı illərin fikir, düşüncə və mübarizə salnaməsi adlandırmaq olar. 1906-cı ildə qəzetin nəşrinin bir illiyi münasibətilə onun baş redaktoru Əli bəy Hüseynzadənin "Həyat"ın sənəyi-dövriyyəsi" sərlövhəli baş məqaləsində deyilirdi: "Həyat"ın bir il zərfində duyduğu, gördüyü, keçirdiyi, bildiyi və bildirdiyi, misli tarixlərdə görünməyən, eşidilməyən və fövqəladə müəzzəm (böyük) və möhtəşəm surətdə zühur edib davam edən bir dövri-inqilab və təcəddüdün (yeniləşmənin) asarmdan (əsərindən) başqa bir şey deyildir. "Həyat" və "Həyat"ın qarələri (oxucuları) min kərə şükür etməlidirlər ki, onun ibtidai-zühuru (ilk işıq üzü görməsi) inqilab və təcəddüdün ibtidasına rast gəldi. Bir kitabı ibtidasından oxumayıb, ortasından və ya nəhayətindən qiraətə başlasaq, əlbəttə o kitabı anlayamazsan".

"Həyat" həyata necə gəldi? Tarixin çox əsrarəngiz təzadları var. Dünyanın ən böyük müstəmləkəçi mütləqiyyət dövlətlərindən – imperiyalarından olan Rusiya XX əsrə çox ciddi böhranla daxil olmuşdu. Böhranlardan çıxmaq yolunu qəsbkarlıq müharibələrində görən Rusiya bu dəfə uzaq Şərqdə meydan oxumaq xəyalına düşdü. M.Ə.Rəsulzadənin o dövrdə yazdığı kimi, I Pyotrun Avropaya pəncərə açması II Nikolayın Şərqə pəncərə açmaq meylini gücləndirdi. Lakin Yaponiya Rusiyanın qabağını kəsdi, onu dəhşətli şəkildə məğlubiyyətə uğratdı. Ə.Hüseynzadə "Həyat"da bu münasibətlə yazırdı: "İştə illərdən bəri uyumuş, uyutmuş, bir nöqtədə donub qalmış olan Rusiya, Ümum-

rusiya bu il oyandı, bu il başını qaldırdı, ayağa qalxdı... İştə "Həyat" da bir hüsni-təsadüf (yaxşı təsadüf) olaraq böylə bir zamanda ortaya çıxdı, fəryada başladı. Fəryada başladı ki, müsəlman camaatı da ümumxalqın oyandığı bir zamanda oyansın, ayılsın. Yoxsa yatanların, oyananların ayağı altında qalıb əziləcəkləri mühəqqəqdir (gerçəkdir)..."

XX əsr ictimai-siyasi və ədəbi-fəlsəfi fikir tariximiz Ə.Hüseynzadə və onun rəhbərlik etdiyi "Həyat" və "Füyuzat"la bilavasitə bağlıdır.

Peterburq və İstanbulda mükəmməl təhsil görmüş, Şərq və Qərb ədəbiyyatı və fəlsəfi fikir cərəyanları ilə yaxından tanış olan Rusiya və Türkiyədə ictimai-siyasi hadisələri diqqətlə izləyən Əli bəy 1903-cü ildə, yəni 39 yaşında vətənə - Bakıya gəldi. Əli bəyin Bakıya gəlişinin səbəbləri barədə türk tədqiqatçılarından professor Əliheydər Bayat yazır: "İqtidar və tərəqqi cəmiyyəti mənsubu olduğundan polisin davamlı təqibi altında olan Hüseynzadə Əli bəy 1903-cü ildə Azərbaycana döndü". Professor Əziz Mirəhmədova görə isə Əli bəy ittihatçıların tövsiyəsi ilə Azərbaycan türklüyünü oyandırmaq məqsədilə vətənə dönmüşdü. Əli bəy qısa bir zamanda görkəmli ziyalılarla ünsiyyətdə oldu. Ə.M.Topçubaşovun redaktoru olduğu "Kaspi" qəzetinə məqalələr yazmağa başladı.

1905-ci ilin yanvarın 9-da Peterburqda çara ərizə ilə müraciət etməyə toplaşmış dinc nümayişçilərin güllələbaran edilməsilə başlayan və bütün Rusiyanı ayağa qaldıran inqilab Rusiyanın iri sənaye mərkəzlərindən olan Bakını da hərəkətə gətirdi. Tətil və nümayişlər başladı. Çarizmin zəifləməsini hiss edən daşnaklar siyasi təşkilatsız, mətbuatsız, milli mərkəzsiz qalmış Azəri türklərinə - yerli müsəlman əhalisinə qarşı bütün Zaqafqaziya ərazisində açıq-açığına təcavüzə başladılar. 1905-ci ilin fevralın birinci ongünlüyündə Bakı dəhşətli günlər yaşadı. Belə bir ölüm-dirim savaşında informasiya və təbliğat vasitəsi, yəni mətbuat orqanı olmadan keçinmək olmazdı. Məlumdur ki, "Əkinçi"dən (1875-

1877) sonra Bakıda ana dilində mətbuat orqanı nəşr etməyə icazə verilməmişdi. M.Ə.Rəsulzadə və hümmətçilərin gizli nəşr etdikləri cəmi 100-150 nüsxə tirajla buraxılan "Hümmət" (1904 oktyabr-1905 yanvar) bu ehtiyacı qətiyyən ödəyə bilməzdi. Zaman, dövr, həyat-gündəlik milli bir mətbuat orqanının yaradılmasını tələb edirdi. 1905-ci il martın 15-də Hacı Zeynalabdin Tağıyevin mənzilində toplaşmış tanınmış ziyalıların məclisində bu problem də müzakirə edilmişdi. 1905-ci il aprelin 16-da Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayev Peterburq Baş Mətbuat İdarəsinə "Həyat" adlı qəzet nəşr etmək üçün icazə ərizəsilə müraciət etmişdilər. Qəzetin sahibi H.Z.Tağıyev, naşiri kimi Ə.Topçubaşov göstərilmişdi. H.Z.Tağıyevin şəxsən işə qarışması ilə 1905-ci il aprelin 22-də Qafqaz canişi qraf Vorontsov-Daşkovun məktubuna əsasən "Həyat"ın nəşrinə icazə verildi. Lakin "Həyat" qəzeti üzərinə ikiqat senzura nəzarəti qoyuldu. Onun dərc etdiyi mühüm yazılar rus dilinə tərcümə edilib Tiflis Senzura Komitəsinə göndərilirdi.

1905-ci il iyunun 7-dən 1906-cı il sentyabrın 3-nə qədər "Həyat"ın 325 nömrəsini buraxmaq mümkün oldu. Bunlardan 131-i 1905, 194-ü isə 1906-cı ildə işıq üzü görmüşdür. "Həyat"ın 101 nömrəsi Ə.Hüseynzadə və Ə.Ağayevin redaktorluğu ilə çıxmışdır. Ə.Ağayev ikinci bir gündəlik qəzetin - "İrşad"ın nəşrinə icazə almış və 1905-ci il dekabrın 17-dən nəşrinə başlamışdı.

"Həyat" qısa bir müddətdə Azərbaycan ziyalılarının, ictimai-siyasi, ədəbi-bədii fikrimizin mübarizə tribunasına çevrildi. Qəzetin 36 nəfər daimi yazan müəllifi vardı: Ə.Hüseynzadə, Ə.Ağayev, H.Zərdabi, M.Hadi, A.Səhhət, M.Ə.Sabir, H.S.Ayvazov, Ü.Hacıbəyov, Ə.Haqverdiyev, N.Nərimanov, M.Hacınski, M.Ə.Şeyxzadə, K.V.Mikayılov, S.M.Qənizadə, Axund Əbuturab oğlu və b.

"Həyat"da Ə.Hüseynzadənin öz imzası ilə 50-yə yaxın yazısı dərc olunmuşdur. Əli bəy ədəbi irsinin görkəmli tədqiqatçısı, filologiya elmləri namizədi Ofelya xanım Bayramova çox böyük

və gərgin zəhmət və elmi axtarışlar bahasına bu qiymətli əsərləri 1997-ci ildə xeyirxah bir xeyriyyəçinin köməyi ilə ayrıca kitab halında "Türklər kimdir və kimlərdən ibarətdir?" sərlövhəsilə nəşr etdirmişdir. Bu kitab həm də akademik nəşr hesab edilə bilər. Çünki çox zəngin biliyə, mütaliə istedadına malik Əli bəyin 50-yə yaxın məqaləsinə Ofelya xanım 50 səhifəlik 590 "izahat" verməli olmuşdur.

Ə.Hüseynzadənin "Həyat" qəzetinin əsas qayəsi vətənə, xalqa, türkçülüyə xidmət idi. Professor Ə.Mirəhmədov göstərilən əsərə yazdığı "Türklüyə xidmət nümunəsi" sərlövhəli ön sözündə haqlı olaraq qeyd edir ki, "həyat"çıların əsas yaradıcılıq yolu ədəbiyyat, mətbuat, fəlsəfəyə xidmət, sosial kredosu Azadlıq, Milli tərəqqi naminə birliyə çağırmaqdır. Bir sözlə bütün bunların kökü, mayası -Məhəbbətdir! İnsana məhəbbət!".

M.Ə.Sabirin məşhur "Beynəlmiləl", M.Hadinin "Məktəb", "Biz nə haldayıq?", "İnsan nə ilə mükərrəm olur?" şeirləri ilk dəfə "Həyat"da işıq üzü görüb. Redaksiyada tərcüməçi işləyən Ü.Hacıbəyovun ilk iri publisistik əsəri - "Bir xanım əfəndinin bizlərə hüsni-təvəccöhi" məqaləsi "Həyat"da dərc olunub. C.Məmmədquluzadənin Tiflisdə rusdilli qəzetdə dərc olunmuş "Obezdolennıye" məqaləsi M.Ə.Rəsulzadənin tərcüməsində "Binəsiblər" sərlövhəsilə "Həyat"da çıxıb. "Həyat" Azərbaycan jurnalist və publisistlərinin bütöv bir nəslini yetişdirdi. Qəzetin mətbuatın, qəzetin cəmiyyətin həyatındakı roluna dair yazdıqları bu gün də aktualdır. Bu baxımdan onun 1-ci nömrəsində dərc olunmuş "Qəzetimizin məsləki" sərlövhəli baş məqalə səciyyəvidir. Orada oxuyuruq:

"Qəzet insan üçün adətən munis bir yoldaş, xeyirxah bir müəllim, nafe (faydalı) bir məktəb, hətta fərəhəfzi (şadlıq gətirən) xoş bir tamaşaxana kimidir. Zəlalətdə qalanlara doğru yolu, hidayət (rəhbərlik) yolunu göstərir".

Ə.Hüseynzadə xüsusi olaraq qeyd edirdi ki, hər qəzet faydalı deyil. "Qəzetə dəxi tutduğu məsləkə görə bir qism xalqın

mübtəla olduğu əfyun (tiryək) və bəng (anaşa) kimi müzürr (zərərli) ola bilir. Fikrin sönməsinə xəsaili-məmduheyi-milliyyə (tərif edilmiş milli keyfiyyətin) və insaniyyənin məhv olmasına, cavanların qəbləl-vəqt (vaxtından qabaq) fikrən qocalmasına xidmət edən qəzetlər də vardır. Avropa mətbuatının içində nə qədər qərəzkaranə (qərəzli) məqalələr nəşr edən qəzetlər mövcuddur!...

Binaənəleyh qarein (buna görə oxucular) bir qəzetədən layiqi vəchlə fayda görmək üçün əvvəl əmrdə (ilk növbədə) o qəzetin nə məsləkdə olduğunu, yəni nə yol tutduğunu bilməsi lazımdır".

"Həyat"ın ən müqəddəs amalı vətənə, millətə, həqiqətə, insanlığa xidmət idi. Bu amalı indi də yaşadanlar az deyil, deməli həyat davam edir.

"Günay", №22, 4 iyun 2005-ci il

ZƏRDABİYƏ QƏDƏRKİ İNTİBAH

"Əkinçi" qəzeti dedikdə nəzərimizdə Həsən bəy Məlikov Zərdabinin nurlu siması canlanır. Həmçinin Zərdab dedikdə qeyri-ixtiyari Həsən bəy, "Əkinçi" xatirimizə gəlir. Həsənbəy Məlikovun - Zərdabi təxəllüsünü götürməsi, özü də "Əkinçi"nin nəşrilə əlaqədar götürməsi təsadüfi idimi? Əlbəttə, yox! "Əkinçi"nin 1875-ci il "Fi rəcəbülmürəccəb, sənə 1292" (22 iyul Rusiya, sənə 1875) tarixli əvvəlinci nömrəsində oxuyuruq. "Bu qəzeti çap elədir Badkubə gimnaziyasının müəllimi Həsən Məlikzadə Zərdabi".

Həsən bəy Məlikzadə özünün zərdablı olmasını nə üçün nəzərə çarpdırırdı? Bu sualın cavabını onun vəfalı ömür-gün yoldaşı, türk soyundan olan balkar qızı Hənifə xanım Abayeva-Məlikova öz xatirələrində ötəri, lakin qiymətli bir ştrixlə qeyd etmişdir: "Həsən bəyin ilk müəllimi atası Səlim bəy olmuşdur. Uşaq öz nəslinin keçmişi... haqqında söhbətlərə xüsusi maraqla qulaq asardı".

"Öz nəslinin keçmişi" – bu xalqın keçmişi deməkdir. Vətən torpağının keçmişi, onun indiki taleyi və gələcəyi haqqında düşünməyin, taleyinə ortaq olmağın, övladlıq məsuliyyətini öhdələmək borcudur - demək idi.

Min illərcə ümumtürk dünyası ilə birlikdə müstəqil dövlətçilik həyatını yaşamış, zəngin tarixi, ədəbi, mədəni irsə malik xalqımız 19-cu əsrin birinci çərəyində türk və müsəlman dünyasının ümumi tənəzzülü şəraitində, vətənimiz daxilən xanlıqlara parçalanıb zəif düşdüyü bir şəraitdə Şimaldan rus çarizminin işğalına məruz qaldı. Rusiya və İran Azərbaycanı

ikiyə böldü. Bu milli faciənin nəticələri dəhşətli oldu. Təkcə Qarabağda rus işğalından əvvəl 18 minə qədər türk ailə yaşayırdı, azərbaycanlı türk ailəsi. İşğalın sonrakı illərində aparılan siyahıya alınmada onlardan yalnız 3 min ailənin qaldığı məlum olmuşdu. 1804-1828-ci illər zərfində Qarabağa və ətraf qəzalara kənardan 18 min erməni ailəsi köçürülmüşdü. Bütövlükdə Azərbaycanın şimalındakı 300 mindən artıq yerli əhali vətəni tərk etməyə məcbur olmuşdu. Bura Gəncədə və vətənin digər yerlərində işğalçılarla vuruşlarda, 1830 və 1837-ci illərdə Car-Balakən və Quba üsyanlarında həlak olmuş və qaçqın düşmüş vətən övladlarını da əlavə etsək, milli faciənin mənzərəsi aydınlaşar.

Ürəyində vətəndaşlıq hissi, qanında və tarixi yaddaşında azadlıq və müstəqillik ruhu daşıyan milli qeyrət sahibləri vətənin düşdüyü təhlükəni bütün ağırlığı və məsuliyyəti ilə dərk etməyə bilməzdilər. Vətən bölünmüş, qüvvələr parçalanmış, inam zəifləmiş, iqtisadi və siyasi şərait ağırlaşmış, ümidsizlik, dözümlülük hökm fərma olmağa, manqurt dəstəsi yetişdirilməyə başlamışdı.

Belə bir milli uçurum qarşısında ən öncə tarixi yaddaşı yaşatmaq sahəsində ilk addımı böyük maarifçi alim, ilk jurnalist, tərcüməçi, şair Abbasqulu ağa Bakıxanov atdı. Bakı qalası və Bakı xanlığının süqutunu öz gözlərilə görən Cavadxan və Gəncə qəhrəmanlarının işğalçılarla ölüm-dirim savaşından xəbərdar olan, 1828-ci ildə vətəni ikiyə bölən bədnam Türkmənçay müqaviləsinin imzalanma mərasiminin şahidi olmuş Abbasqulu ağa Bakıxanov özünün məşhur "Gülüstani-İrəm" əsərini yazdı. Müstəqilliyini itirmiş bir xalqın, məmləkətin tarixini yazmaq, həm də qədim dövrlərdən başlayaraq ta 1813-cü il "Gülüstan müahidəsi"nə qədərki dövrü əhatə edən tarixini yazmaq vətənə, onun gələcəyinə xidmətin ən bariz nümunəsi deyilmidir?

Mükəmməl təhsil görmüş, Şərq və Avropa dillərinə və mədəniyyətinə bələd olan A.A.Bakıxanov müxtəlif dillərdə yazıl-

mış yüzdən artıq mötəbər mənbələrdən istifadə edərək 10 illik zəhmətinin nəticəsi kimi "Gülüstani-İrəm" əsərini nə qayə və məqsədlə yazmışdı? Əsərin ilk sətirlərini oxuyaq:

"Təbiətimiz hər şeydən artıq tarixə maildir. O, hadisələrdən başqa əfsanələrə də talibdir. Bu elm (tarix) insanı gözəl əxlaqlı və bilikli edir, ona dolanacaq və yaşayış işlərini öyrədir. Buna görə, onu mənəvi elmlərin qiymətlilərindən hesab edib demək olar: tarix hökmsüz və zülmsüz elə bir hökmrandır ki, bütün Adəm övladı onun əmrlərinə boyun əyməkdədir. Onun təlim məktəbində dünyanm müəllimləri əlifba oxuyan bir uşaqdırlar...

Tarix elə bir danışmayan natiqdir ki, sələflərini (ata-babaların) vəsiyyətlərini bütün təfsilat və təriflərilə xələflərə (övladlara) bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə biləcək əhvalatı keçmişin libasında insanların ibrət nəzərinə çatdırır.

Bəli, keçmişdə vaqe olan bir iş gələcək üçün dəsturüləməldir (təlimatdır) və elmə əsaslanan bir əməl möhkəm və paydar olar.

Zəmanənin dəyişikliklərindən bixəbər işə başlamaq, yolsuz və qorxulu bir səhraya yönəlmək kimidir...

Tarix elmi isə, dünyanın təcrübəsini bizə kəşf edir. Bundan daha yaxşı nə ola bilər?

Hər bir ölkənin tarixi orada yaşayan xalqın özü üçün xüsusən faydalıdır. Çünki, tarix ona öz millətinin təbiət və adətlərindəki xüsusiyyətləri bildirir, qonşu tayfaların rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanan əlaqələrin xeyir və zərərini ona məlum edər".

A.Bakıxanov özünü "günahkar bəndə" adlandırır, halının "pərişan" olduğunu söyləyir, "vəsaitinin azlığını", "vaxtının darlığını" qeyd edirdi.

Tarixçilər yazırlar ki, "Gülüstani-İrəm"ə qədər Azərbaycan tarixinə aid yazılmış ümumi bir tarix əsərinə təsadüf etmirik.

Diqqətəlayiq cəhət budur ki, Bakıxanov öz əsərini ruscaya tərcümə etmiş, birinci dəfə onun ayrı-ayrı hissələri 1846 və

1848-ci illərdə Tiflisdə həftəlik siyasi və ədəbi "Kavkaz" qəzeti səhifələrində dərc olunmuşdur.

A.Bakıxanov Qafqazda - Tiflisdə nəşrə başlayan dövri mətbuat orqanlarında da fəaliyyət göstərən jurnalistika ilə məşğul olan ilk azərbaycanlı qəzetçidir. 1828-ci ildən Tiflisdə hökumət orqanları tərəfindən rus dilində nəşr olunan "Tiflisskoye vedomosti", sonralar onun fars və Azərbaycan dillərində buraxılan "Tiflis əxbarı" nömrələrinin aparıcı redaktor və əməkdaşı da Abbasqulu ağa Bakıxanov olmuşdur. "Rus ictimai fikri və Qafqaz mətbuatı" əsərinin müəllifi D.L.Vateyşvilinin yazdığı kimi, "əməksevərlik, vətəndaşlıq borcunu vətənpərvərlik düşüncəsi ilə yerinə yetirmək, qəzet işinin müasir formalarını axtarmaq, geniş bilik, ədəbi-jurnalistik təcrübəsi və Qafqaz xalqlarının ehtiyac və arzularını dərindən başa düşmək A.Bakıxanovun da qəzetçilik fəaliyyətinin canını təşkil edirdi".

Göründüyü kimi, jurnalistikada ilk addımlar atan milli ziyalımız Abbasqulu ağa Bakıxanov olmuşdur. "A.A.Bakıxanov 1833-cü ildə jurnalistlik fəaliyyətini dayandırmış, istefaya çıxaraq Qubaya köçmüş, öz geniş elmi bilik ehtiyatına rəğmən elmi və digər əsərlərini yazmağa başlamışdı".

Həm də özünün yazdığı kimi, "fəzilət və şöhrət iddiası ilə deyil, bəlkə bu ölkədə mənsubiyyəti etibarı ilə fəxr etmək üzündən" "Gülüstani-İrəm"i yazmışdır.

"Gülüstani-İrəm"dən sətirlər:

"1833-cü ildə səyahət qəsdilə səfərə çıxıb, 2 il Don ölkəsini, Malorossiyanı, Velikorossiyanı, Liflandiyanı, Litvanı və Lehistam (Polşanı) gəzdim. Avropa ölkələrinin təcrübəli dövlət adamları, məşhur alimləri və bilici sənatkarları ilə görüşdüm. Bir çox qəribə işlər və saysız təəccüblü əsərlər gördüm. Hər bir ölkədə, hər bir işdən bilik və təcrübəmi artırdım. Get-gedə cəhalətim azaldı. Yavaş-yavaş xəyalət və təsəvvüratımın puçluğu aydınlaşdı və gördüm ki, dünyanın yüksək mənsəbləri çox alçaqdır və bizim əziz saydığımız tədbirlər bir sərxoşun ağıl

sınamasına bənzər. Çünki mal və dövlət hər halda puç olacaq, ixtiyar və iqtidar əldən gedəcəkdir. Sənaye cürbəcür alətlərə və bədən qüvvəsinə möhtacdır.

Şəxsi ləyaqət olmadan, nəsəb və sülalə şərafəti qürbətdə naməlum, vətəndə isə məzəmmətə məruzdur. Bunlara təkyə (istinad) etmək mənasızdır. Etibar ediləcək və arxalanacaq bir dövlət varsa, o da hər bir halda elm və adabdan (bəyəniləcək qaydalardan) ibarətdir...

Bu elm və adab da zahirpərəst adamların boşboğazlıq edib, özləri üçün fəzilət sandıqları mənzum kəlmələrdən və mövhumi (xəyali) qaydalardan ibarət deyildir...

Bu elm və adab, sərf olunan mərifət və edilən əməldən ibarətdir ki, bu da ümumin mənfəəti, sülh və asayiş üçün yararlıdır".

"Pak torpaqdan müqəddəslik feyzini alan" Abbasqulu Ağa Bakıxanovun elmi əsərləri, şəxsiyyəti, etdiyi tərcümələr, yazdığı şeirlər öz dövrünün və sonrakı nəsillərin dünyagörüşünə, jurnalistlik fəaliyyəti isə milli dövri mətbuatımızın təşəkkülü işinə faydalı təsir göstərmişdir.

"Günay", №24, 18 iyun 2005-ci il

"ƏKİNÇİ"yə APARAN YOL, MİLLİ İNTİBAHIN M.F.AXUNDOV DÖVRÜ



XIX yüzillikdə Azərbaycanda ictimai, ədəbi-bədii fikrin inkişafı M.F.Axundovun adı, nəhəng və hərtərəfli yaradıcılıq fəaliyyəti ilə sıx surətdə bağlıdır. A.Bakıxanov, İ.Qutqaşınlı, Mirzə Şəfi Vazeh və Azərbaycanın digər görkəmli ziyalıları, həmçinin Qafqazda qulluq və ezamiyyətdə olan Rusiyanın adlı-sanlı ədəbi şəxsiyyətlərilə yaxın təmasda olan Mirzə Fətəli 66 illik (1812-1878) ömrünün şüurlu çağlarında həyata, xalqının taleyinə passiv seyrçi kimi tamaşa etməmiş, fəal və yaradıcı zəka sahibi kimi xalqının tərəqqisi yolunda can-başla fəaliyyət göstərmişdir.

"Hər dərədən baş qovzayan it-qurd nə vaxta qədər malımızı, canımızı dağıdacaq", "yollar xarab, qəryələr (kəndlər) viran, şəhərlər birövnəq (çirkin), küçələr biəndam (dağınıq), qəbiristanlar küçələrin içində havanın kəsafətinə bais", "tamam oğrular, quldurlar və qatillər avamunnasdan (avam adamlardan) və cəhənnəmə inanan kəslərdən zühur edər. Heç ürəfadan (arif adamlardan) ya quldur, ya qatil görübsənmi?!", "Bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt mümkün olacaqdır ki, istər Asiyada və istərsə Avropada insan əqli tamamilə əbədi həbsdən qur-

tulacaq, işlər və fikirlər nəql (nağıl) deyil, yalnız insan ağlı istinadgah və dəlil tapılaraq hakimi - mütləq olacaqdır", "əgər sən nəşeyi azadiyyətdən və hüquqi-insaniyyətdən xəbərdar olsaydın belə übudiyyətə (köləliyə), belə rəzalətə mütəhəmmil (dözən) olmazdın, kəsbi-elmə talib olub (yiyələnib), fəramuşxanalar (yığıncaq yerləri), məcmuələr yapardın, vəsaili ittifaqı (birlik vasitələrini) dəryaft edərdin (tapardın)". Yuxarıdakı kəlamlar A.A.Bakıxanovdan sonrakı dövrün ən böyük mütəfəkkir mücahidi M.F.Axundova məxsusdur. Axundov 22 yaşında, yəni 1834-cü ildə Tiflisə gələndə "Tiflis əxbarı" qəzeti artıq iki il idi ki, çıxırdı. Qafqazda dövrü mətbuatın yaradıcısı P.S.Sankovski vəfat etmişdi. "Tiflisskiye-vedomosti" qəzetinin nəşrinə xitam verilməsini həm də ölkədə senzuranın güclənməsilə də izah edirlər. Təsadüfi deyil ki, 1832-1837-ci illər arasındakı beş il ərzində Rusiyada cəmi iki adda yeni qəzetin çıxmasına icazə verilmişdi. 1838-ci ildə Rusiyanın quberniyalarında rəsmi "Qubernskiye vedomosti" qəzetlərinin nəşr edilməsi barədə sərəncam verildi. Həmin vaxtda Tiflisdə də "Zakavkazski vestnik" qəzeti nəşrə başladı. 1845-ci ilin yanvarında Tiflisdə həmin rəsmi qəzetin Azərbaycan dilinə tərcümə edilmiş ilk nömrəsi işıq üzü gördü. Qəzet, "Qafqazın bu tərəfinin xəbəri" adı ilə çıxırdı.

Əgər "Tiflis əxbarı" qəzetinin nüsxələri bu vaxta qədər tapılmamışdırsa, söhbət gedən ikinci qəzetin birinci nömrəsi aşkar edilmişdir. Qəzet 4 səhifə həcmində çıxıb. Bütün materialları rəsmi xarakterlidir. Redaktoru Platon İosseliani idi. Gürcü və Azərbaycan dillərində cəmi 50 nüsxə tirajla buraxılmışdı. Qəzetin təxminən 11 nömrəsi işıq üzü görüb. 1846-cı il dekabrın 30-da Tiflisdə ikinci bir "Qafqaz" qəzeti nəşrə başladı. Siyasi və ədəbi mətbuat orqanı kimi nəşr olunan "Qafqaz" qəzeti əvvəllər həftədə bir dəfə, sonralar isə üç dəfə çıxırdı. Azərbaycan ziyalılarının, o cümlədən A.Bakıxanov, M.F.Axundov, Mirzə Şəfi Vazeh və s. qəzetdə mühüm yazıları dərc olunmuşdur. Rusiyada,

xüsusilə Şərqdə mətbuatın çox ləng intişar tapmasının köklü səbəbləri vardı. Bununla əlaqədar Əhməd bəy Ağayev "Kaspi" qəzetində dərc olunmuş "Obzor jurnalistiki na Vostoke" sərlövhəli irihəcmli tarixi-analitik səciyyəli məqaləsində yazırdı:

"Uzun müddət Avropa sivilizasiyasına yabançı olmuş Şərq son 20-30 ildə bu sivilizasiyanı qəbul edir, onu məktəblər, hökumət idarələri və ticarət-sənaye fəaliyyətinin formaları şəklində özündə tətbiq edir; bütün bunlar bəzi yerlərdə elə həmin Avropanın təzyiqi altında, Avropa sivilizasiyasının üstünlüklərini təcrübədə çətin sınaqlardan keçirdikdən sonra, bəzi yerlərdə isə könüllü şəkildə edilirdi; lakin Avropa sivilizasiyasının bütün formalarından müsəlman Şərqinə ən çox çətinliklə nüfuz edən - jurnalistika və mətbuatdır. Bu ona görə deyildir ki, müsəlmanlar mətbuatın və jurnalistikanın vacibliyini və zəruriliyini hələ başa düşmürlər; əksinə... mütərəqqi adamlar onu daim təbliğ edir, dövlətlərin və xalqların həyatında mətbuatın və jurnalistikanın vacibliyi və zəruriliyi barədə uca səslə danışmaqdan yorulmurlar".

Ə.Ağayevin göstərdiyi mətbuat və jurnalistikanın cəmiyyətin həyatındakı mühüm rolunu dərk edən və bu yolda vacibi hazırlıq tədbirlərini görən Azərbaycan ziyalılarından biri M.F.Axundov idi. Məlumdur ki, milli mətbuatın təşəkkülü üçün vacib olan bir sıra mühüm ünsürlər - əlifba, yazı və oxu mədəniyyəti, ədəbi dil, texniki vasitə və s. tələb olunurdu. M.F.Axundovun bütün yaradıcılıq fəaliyyəti məhz bu sahələrə yönəlmişdi.

Qafqaz canişininin baş dəftərxanasında mülki işlər sahəsində Şərq dilləri mütərcimi təyin olunmuş və ömrünün sonunadək həmin vəzifədə calışmış Mirzə Fətəli 1850-1855-ci illərdə özünün məşhur 6 komediyasını yazmış, həm bütün Yaxın Şərq ədəbiyyatında realist dramaturgiyanın təməlini qoymuş, həm də Azərbaycan ədəbi dilini formalaşdırmışdı. Onun yeni əlifba layihələri də mədəni intibaha xidmət məqsədini güdürdü. "Mən

insanların düşünə bilməsini... həbsdə qalan təsəvvürlərini azad etmək istəyirəm" - M.F.Axundovun elan etdiyi qayə bu idi. Tədqiqatçılar yazırlar ki, M.F.Axundov və Mirzə Şəfi Vazeh Tiflisdə mətbəə açmaq təşəbbüsündə də olmuşlardı.

Qeyd edək ki, XIX əsrin 60-cı illərinin əvvəllərində Qafqazda nəşr olunan mətbuat orqanlarının sayı cəmi 5 idi. Azərbaycanda isə heç bir mətbuat orqanı çıxmırdı. Lakin Rusiya və xaricdən müəyyən miqdarda qəzet, jurnal və kitab gətirilirdi. Əhalinin az da olsa ziyalı-oxucu qismi üçün informasiya mənbəyi məhz həmin nəşriyyat məhsulları idi.

Azərbaycanda dövri milli mətbuatın nəinki Qərb, hətta Rusiya və bəzi Qafqaz xalqlarının dillərinə nisbətən gec yaranmasının səbəbləri barədə mülahizələr də mövcuddur. İqtisadi və mədəni gerilik, müstəmləkə rejimi və s. yanaşı, Ə.Ağayev yuxarıda adını çəkdiyimiz məqaləsində bunun əsas səbəblərindən birini belə şərh edir:

"Şərq xalqları arasında dövri mətbuatın inkişafına mane olan səbəblər isə daha dərindir və çox güman ki, ümumiyyətlə, Şərqin təbiəti və o cümlədən, müsəlmanların həyatının bəzi xüsusiyyətləri ilə bağlıdır. Məlum olduğu kimi, dövri mətbuat və xüsusən, gündəlik jurnalistika icrada çeviklik və sürət, işdə dəqiqlik və səliqə tələb edir, bu isə, əlbəttə Şərqin mürgüləyən təbiətinə heç uyğun gəlmir".

H.Zərdabi 1865-ci ildə Moskva Universitetini bitirib, 1866-cı ildə Tillisdə işə başlayarkən yaradıcılığına yaxşı bələd olduğu M.F.Axundovla görüşmüşdü. O, Mirzə Fətəlinin şəxsində xalqın tərəqqisi üçün çalışan bir vətənpərvər insan görürdü.

"Günay", №25, 25 iyun 2005-ci il

RUSİYADA ƏVVƏLİMCİ TÜRK QƏZETƏSİ

QƏZETİMİZİN BU NÖMRƏSİNDƏ OXUCULARA VƏD ETDİYİMİZ HƏSƏN BƏY ZƏRDABİNİN "HƏYAT" QƏZETİNDƏ ÇAP OLUNMUŞ MƏQALƏSİNİ DƏRC EDİRİK



Dünyada ittifaq olmasa heç bir cəmiyyət işi bina tutmaz. Bizim sabiq cəmiyyəti-xeyriyyə bina tutmadığından, teatro oynanan otaq boş qaldığından, aşkar oldu ki, müsəlman qardaşlarımızı bir yerdə cəm edib zəmanəyə müvafiq məktəbxanələr açdırıb küçə və bazarlarda qalan uşaqları oxutmaq olmayacaq. Elmsiz də bu zəmanədə dolanmaq mümkün deyil, ələlxüsus bizim yerlərdə ki, qonşularımız elm, təhsil edib, gün-gündən irəli gedib bizim əlimizdə olan mülk-malımıza sahib olurlar və bir az vaxtdan sonra biz onlara rəncbərlik edib, onların malını daşımaqdan ötrü kirakeşlik edəcəyik. Böylə də nə qayırmalı? Hər kəsi çağırıram gəlmir. Göstərirəm görmür. Deyirəm qanmır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın, necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan bir neçə ildən sonra o su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir. Habelə sözdə, ələlxüsus doğru söz mürur ilə qanmazın başını deşib onun beyninə əsər edər. Böylədə mən onları necə görüm və görmək mümkündürmü? Hər kəs öz qara sandığının üstə oturub onun içində olana səcdə edər və sandığı

doldurmaq fikrindədir. Amma ətrafda müsəlman qardaşlarımız bir-birinə düşməniz. Əjdahanın ağzına düşüb puç olduğunu görmək də istəmir. Belə də qəzetə çıxarmaqdan savayı bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə 10 qəzetə oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar, axırda o bənd ki, suyun qabağını kəsmişdi və suyu axmağa qoymur idi, rəxtə tapar və su mürur ilə bəndi uçurub aparar. Sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən doğru yolun doğru olmağı aşkar olur. Bəs qəzetəni necə çıxardım, pul yox, yazıçı, yoldaş yox, çapxana yox, hürufat yox, ümid yox, 1-2 yüzdən artıq oxuyan da olmayacaq. Dövlət tərəfindən izn almaq da ki, bir böyük bəladır. Bizim qubernator mütəvəffa (mərhum) general Staroselski doğrudur, xalis rus idi. Amma onun övrəti gürcü qızı idi, ona görə Qafqazın yerli əhlini artıq dost tuturdu. Mən ona dərdimi deyəndən sonra məsləhət gördü ki, qəzetənin adını "Əkinçi" qoyum ki, guya məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki, senzorluğu qəbul eləsin. Bu tövr ərizə verib izn aldım. Çünki əvvəl vaxtda yazı-pozu şikəstə xətti ilə olurdu və basma xəttini oxuyan yox idi. Və tamam Rusiyada işlənən hürufat çox yaman idi. Ona görə mənə məsləhət elədilər ki, qəzetəni daş basması ilə (litoqrafiya) basdırım. Mən buna razı olmadım. Çünki, litoqrafiya ilə çıxan qəzetə həftədə bir və ya iki dəfə çıxa bilir. Amma mənim ümidim var idi ki, sonra qəzetəni hər gündə çıxarım. Və bir də Osmanlı və İran məmləkətlərində əvvəl vaxtlar qəzetələr çıxırdı və onlar da hürufat ilə basılırdı və daş üstə çıxanlar da sonra hürufat ilə basılacaqdır. Belə də yaxşı olurdu ki, işin binasından oxuyanları basma xəttinə öyrədim ki, sonra dübarə zəhmət çəkib, onları təzədən basma xəttinə öyrətmək lazım olmasın. O vaxtda Bakıda iki basmaxanə var idi. Onların birisi də ki, quberniskiye pravleniyanın idi. Bircə müsəlman

hürufatını alayarımçıq düzən Minasov adlı erməni var idi. Onu gətirdib danışdırdım, söz verdi ki, nə qədər hürufat düzən lazım olsa öyrədib mənim qəzetəmdə işlədər. Sonra fikrə getdim ki, yaxşı hürufatı hardan alım. Rusiyada doğrudur, yaxşı hürufat yoxdur. Amma qəliblər qayırıb təzə hürufat tökdürmək mümkün idi. İş burasındadır ki, təzə qəliblər qayıran kargahçı 5-10 putdan ötrü onları qayırmağa razı olmazdı. Əvvəl vaxtda İstanbulda olan bizim şirvanlılar ilə mənim irsal-mərsulum (məktublaşma) var idi. Onların yazmağından bilirdim ki, orada bizim türk dilində bir neçə qəzetə çıxır. Hətta onlardan gündə çıxanı da var. Ona görə lazım bildim ki, gedim İstanbulu da ziyarət edim və orada işlənən yaxşı hürufatdan 5-10 put gətirim.

1874-cü sənənin iyun ayında gedib İstanbulda 10 put hürufat alıb avqust ayında qayıdıb gəldim. Hürufat qışda gəlib çatdı. Əlahəddə basmaxanə açmağa pulum olmadı. Ona görə Staroselski mənim hürufatımı quberniski pravleniyanın basmaxanəsi üçün satın aldı. Kağız və qeyri mayəhtacı hazırlayıb "Əkinçi" qəzetəsini çıxarmağı 1875-ci sənənin iyul ayının 22-də başladım. İyul ayına qəzetənin açılmasını salmaqdan muradım o idi ki, zikr olunan Minasovdan başqa türk hürufatı düzən tapıldı. O da bircə bacısı oğlunu götürüb yanında şagird saxladı. Belə də labüd qalıb mən özümdə gərək kömək edirdim. Basmaxanə hər nömrəni bir kiçik vərəq üstə hər 1000 vərəq basmaqdan ötrü məndən 15 manat həqq istədi. Hesab çəkib gördüm ki, qəzetəni hər iki həftədə bir dəfədən artıq çıxarda bilməyirəm. Qəzetə çıxarmaq elamnaməsini novruzda paylamışdım və Qafqazın tamam şəhərlərinə və böyük kəndlərinə də göndərmişdim. İyul ayınacan 100 müştərim var idi ki, hərəsindən 3 manat, cümlətən 300 manat vüsul olmuşdu.

Qubernator naçalniklərə hökm yazdı ki, hər bir kəndin yüzbaşısı qəzetə alsın. Bu tövr ilə 300 də müştərim artdı ki, cümlətən 1200 manata qədər qəzetə satılmaqdan vüsul oldu. Qəzetə əldə satılmaq və elamnamə basdırmaq da ki, əvvəl

vaxtda yox idi, qəzetəni 8-9 yüzə qədər basdırdım, onun 400-nü müştəri olanlara və artığını Bakının küçə və bazarlarında paylamaqdan savayı qeyri şəhərlərə də müftə göndərirdim ki, qəzetə oxumağa adət eləsinlər.

Əvvəlinci nömrələri çıxarmağın zəhməti çox artıq oldu, yayda şagirdlərim Bakıdan evlərinə getmişdilər. Mən tək qalmışdım və bir də Minasov ömründə qəzetə işi görməmişdi və çox ağır işləyirdi. Ona görə özüm yazırdım, hürufatı düzməyinə kömək edirdim, qələtlərini düzəldirdim. Əvvəlinci yarım ili, yəni yanvarın birinəcən 500 manata qədər zərər elədim, amma müştərilərimin qədəri yüzdən 300-ə qədər artdı. O ki, yüzbaşlarıda naçalniklər onlara qəzetənin vaxtında göndərmədiyinə onların qədəri azaldı. Yanvarın 1-dən 400-ə qədər müştərim var idi. Novruzdan sonra qəzetənin vərəqlərini böyüklətdirdim və o ilin payızında qəzetəni həftədə bir dəfə çıxartdım, çünki yazıçı yoldaşlarım gün-gündən artırdı. Və Minasov öz bacısı oğlu ilə işə artıq öyrənmişdi, il qurtaranda hesabımı çəkib gördüm ki, min manata qədər zərərim var.

Üçüncü sənə 1877-ci sənədə yüzbaşılardan savayı 400-ə qədər müştərim var idi. Mənim əvvəlinci köməkçilərim şagirdlərim idi, onlar yazmaqdan savayı qəzetəni müftə paylamağa, posta verməkdə kömək edirdilər, onların hamısı qəzetə oxumaq ilə yazıb oxumağı öyrənmiş idilər və öz vətən dilində qəzetə görəndə çox şad olurdular. O günü onlar üçün bir böyük bayram olurdu.

"Əkinçi"nin əvvəlinci bədbəxtliyi qubernator Staroselskinin Bakıdan getməyi oldu. Ondan sonra vitse qubernator bir yəhudi senzor oldu. İkinci və böyük bədbəxtliyi Osmanlı davasının başlanmağı oldu. Nə qədər Osmanlı davası başlanmamışdı bir tövr bu yəhudi ilə yola gedirdim. Elə ki, dava başlandı, özləri rus olmayan, amma rus dövlətinə ixlas (sədaqət) göstərmək istəyənlər əz on cümlə bir yəhudini hər bir cəhətdə artıq diqqət edib qəzetə çıxarmağı düşvar (çətin) elədilər. "Əkinçi"yə ixtiyar

vermişdilər ki, siyasi xəbərləri qeyri qəzetlərdən çap eləsin, amma onlar yer istəyəndə çap etməyə qoymadılar və bir tərəfdən də müştərilərimiz tazə xəbər istəyirlər idi. Senzordan təvəqqe elədim ki, özü qeyri qəzetlərin siyasi xəbərlərindən göstərsin ki, hansıları çap etmək mümkündür. Ona da razı olmayıb izn verdi ki, dövlət tərəfindən hər gündə gələn telləri çap edim. Əlbəttə həftədə bir dəfə çıxan qəzetədə bir həftənin müddətində gələn tellərin hamısını çap etmək mümkün deyil idi, çünki hər gündə 2-3 yüz sətrə qədər tel gəlirdi və onlardan seçib lazım olan qədərində basdırmağa qoymadılar, xülasə, siyasi xəbərləri basmaq mümkün olmadı və müştərilərimiz də çox narazı oldular. Müsəlmanların düşmənləri ki, Staroselskinin vaxtında bir iş görə bilmirdilər, hər tərəfdən "Əkinçi"nin üstə tökülüb onun bağlatmağına səy etdilər. Jandarma polkovnikinə hər gündə məndən və "Əkinxi"dən adsız danoslar göndərdilər. Jandarma tərəfindən mənim üstümə qaravulçular qoyuldu. Onların birisi mənim rus qulluqçumun qardaşı adı ilə gecələr mənzilimin içində yatırdı. Birisi də küçə qapısında durub mən hər tərəfə gedəndə məni aparıb-gətirirdi. O vaxtı da və jandarma polkovniki də bəzi vaxtda mənim ilə oynuyurdu. Onunla belə həftədə bir neçə dəfə o polkovnikin məni apardıb məndən cavab istəyirdi ki, doğrudurmu ki, flan günü axşam flan kəslərin yanına gedib flan sözü demisən. Mən ona cavab verirdim ki, flan saatda sənin ilə biliyard oynuyurdum. Deyirdi ki, mən özüm də yaxşı bilirəm. Amma neyləyim zakon belədir, gərək xəbər alım. Belə danosları bircə jandarmaya versəydilər, yenə dərd yarı idi. Amma onları vəzirlərə, sərdara və qeyrilərə də göndərirdilər ki, onların cavablarını yazmaqdan biçarə jandarma yorulmuşdu. Amma bununla belə mən qəzetəni vaxtlarında çıxarırdım. Elə ki, Dağıstanda şuluqluq başlandı, "Əkinçi"nin günü dəxi artıq qara oldu. Bir gün Nəcəf bəy Vəzirovun məqaləsin ki, Moskvadan göndərmişdi, vermişdim düzməyə. Məqalədə bir dərviş bazarda, dükanların qabağında

qəsidələr oxuyub onları elm təhsil etməyə çağırırdı. Senzor qol çəkib çap olmağa izn vermişdi. Qəzetə çap olub paylanandan sonra qubernatorun hökmunə görə o nömrəni bağlayıb məni istədilər. Gedib gördüm ki, mənim Minasovum oradadır.

Qubernator buyurdu ki, Minasov deyir ki, dərvişin sözlərinin qeyri mənası var, ona görə nömrəni bağlayıb sənə hökm edirəm ki, bir qeyri nömrə çap edəcəksən. Cavab verdim ki, qeyri nömrə çıxarda bilmərəm. Mən gedəndən sonra qubernator özü bir nömrə çıxardıb paylatdı. Çünki nömrə mənim adımdan çıxmışdı. Mən təvəqqe elədim ki, dəxi mənim adımdan qəzetə çıxarmasınlar. Bu tövr mən istəyirdim qəzetəni vaxtı ilə bağlayıb dava qurtarandan sonra çıxardım, amma müsəlmanların düşmənləri əl çəkmədilər. Bir gün gimnaziyanın direktoru mənə məlum elədi ki, sərdarın hökmünə görə gərək mən Yekaterinodar şəhərinin gimnaziyasına müəllim gedəm, ona görə mən ərizə verib qulluqdan çıxdım. Çünki mən Bakıdan çıxıb müsəlman işlərindən kənar olmağı özüm üçün ölüm hesab edirdim.

Dava qurtardı. Amma mənim Bakıda qalmağım müşkül oldu, padşahlıq qulluğuna məni götürmədilər və bakılılardan heç kəs məni qulluğa götürmədi. 1-2 yerdə cəmiyyət qulluğuna girmək istədim, amma məni seçkidə qaraladılar və qaralayanlar da Bakı müsəlmanları oldu ki, oraya xaricilərdən intixab etdilər. Belə də mən nə ki, "Əkinçi"ni dəxi çıxarda bilmədim. Hətta Bakıda da qala bilməyib öz kəndimizə köçüb getdim.

Həsən ZƏRDABİ,
"Həyat", 28 dekabr 1905-ci il,
3 yanvar 1906-cı il

"Günay", №27, 9 iyul 2005-ci il

ŞƏRQ JURNALİSTİKASI TARİXİNƏ DAİR CİDDİ BİR ARAŞDIRMA

Azərbaycanda milli mətbuatın yaradılmasının 130 illiyini qeyd etdik. Rusiyada türk dilində ilk qəzet Bakıda nəşr olunan "Əkinçi" idi. Qərb ölkələrinə nisbətən türk-islam Şərqində mətbuat və jurnalistikanın neçə yüzilliklər sonra təşəkkül tapmasının obyektiv və subyektiv səbəbləri üzərində düşünənlər və bu barədə araşdırmalar aparıb yazanlar əvvəllər barmaqla sayılacaq qədər az olmuşdur. Məlumdur ki, bunun üçün söhbət gedən regionun ictimai-siyasi durumunu, tarixini, ən əsası isə dillərini bilmək və mətbuat üzərində xüsusi tədqiqat aparmaq tələb olunurdu. Bu baxımdan biz görkəmli mütəfəkkir alim Əhməd bəy Ağayevin adını iftixarla çəkə bilərik. Mən "Kaspi" qəzetinin XIX əsrin 90-cı illər nömrələrini nəzərdən keçirərkən bunun şahidi oldum. Qəzetin 1899-cu ildə çıxan 255 və 262-ci nömrələrində Əhməd bəyin "Obzor jurnalistiki na Vostoke" və "Obzor vostoçnıy jurnalistiki" sərlövhəli irihəcmli məqalə-icmalına rast gəldim. Məqalə müəllifin Qərb və Şərqin yalnız mətbuat və jurnalistikasının mövcud vəziyyətilə deyil, bütövlükdə cəmiyyətin həyatında mətbu sözün rolu və vəzifələrini, qarşılaşdığı çətinlikləri dərindən bildiyini nümayiş etdirir. Geniş təhlil aparmaq fikrim yoxdur. Qoy oxucular özləri Ə.Ağayevin qüdrətli qələmi, geniş dünyagörüşü, dərin bilik və təfəkkür tərzi ilə tanış olsunlar. Axı müasir informasiya cəmiyyəti məhz mətbuat və elektron kütləvi informasiya vasitələrinin inkişaf səviyyəsi ilə bilavasitə bağlıdır. Bu prosesin tarixi ilə tanışlıq baxımından da təqdim edilən yazı ciddi maraq doğurur.

ŞƏRQDƏ JURNALİSTİKAYA BİR NƏZƏR

Avropa sivilizasiyasına uzun müddət yabançı qalmış Şərq son 20-30 ildə bu sivilizasiyanı qəbul etməyə, onu özündə məktəblər, hökumət idarələri və ticarət-sənaye fəaliyyətinin formaları şəklində tətbiq etməyə başlamışdır. Bütün bunlar bəzən elə həmin Avropanın təzyiqi altında, Avropa sivilizasiyasının üstünlükləri təcrübədə çətin sınaqlardan çıxarıldıqdan sonra, bəzən isə könüllü şəkildə edilir. Lakin Avropa sivilizasiyasının bütün formalarından müsəlman Şərqinə ən çətin yol tapan forması jurnalistika və mətbuatdır. Bu ona görə deyildir ki, müsəlmanlar mətbuatın və jurnalistikanın əhəmiyyətini və zəruriliyini hələ dərk etmirlər; əksinə, Hindistandan başlamış Mərakeşə qədər hər yerdə mütərəqqi adamlar mətbuatı və jurnalistikanı təbliğ edir, xalqı ona tərəf istiqamətləndirir, onun dövlətlərin və xalqların həyatında zəruri və vacib olmasından dəm vurmaqdan yorulmurlar. Şərq xalqları arasında dövrü mətbuatın inkişafına manea olan səbəblər isə daha dərindir və çox güman ki, ümumiyyətlə Şərqin təbiətindən və xüsusən müsəlman həyatının bəzi səciyyəvi cəhətlərindən irəli gəlir. Məlum olduğu kimi, dövri mətbuat və xüsusən gündəlik jurnalistika çeviklik, icrada sürətli, işdə dəqiq və səliqəli olmağı tələb edir, bu isə, əlbəttə, Şərqin mürgülü təbiətinə əsla uyğun gəlmir. Burada "times is money" ("vaxt - puldur" - Ş.H.) ingilis zərb-məsəlini anlamırlar; şərqli elə bilir ki, "zaman hər şeyə dözər", o, qərblinin çılğın fəaliyyətini, onun başgicəlləndirici "va a vient" həyat tərzini hələ başa düşmür. Taleyin hökmü ilə Parisə gedib çıxmış və evsiz avaraların saxlanıldığı həbsxananın "gözəlliklərini seyr etmək" zərurətindən bizim xilas etdiyimiz bir dərviş fransızların "vurnuxmasına" heyrətlənir, onları elə

salaraq gülürdü. Bu dərviş "Journal des Debats" jurnalının əməkdaşlarından birinə deyirdi: "Lütfən deyin, bu xalq kütlələri hara qaçır, bu karetalar, arabalar, omnibuslar haraya şütüyür; bu hay-küy, bu çatırtı-patırtı nəyə gərəkdir; siz nə vaxt ayaq saxlayıb özünüz haqqında, sizin kim olmağınız, haradan gəlib haraya getməyiniz barədə fikirləşəcəksiniz?"

Bax, Şərqin naturasında mürgü izi qoyan, onun ayrılmaz atributu olan və insan təbiətinin görünür tam üzə çıxarılmasına mane olan bu dini-fəlsəfi skeptisizmdir; şübhələr və inamsızlıq hər cür şəxsi təşəbbüsün və fəaliyyətin kökündədir. Müsəlmanlar arasında həyat hadisələrindən söhbət açarkən bu xüsusiyyəti heç vaxt nəzərdən qaçırmaq lazım deyil, çünki islam özlüyündə həyatsevər təlim olsa da sonradan müsəlmanlar arasında yayılmış müxtəlif mistik təlimlər faktiki olaraq əsas təlimi arxa planda qoymuş və mistik skeptisizm müsəlmanların təbiətinə o qədər dərindən daxil olmuşdur ki, bu, onların həyatının bütün təfsilatında əks olunur; mütərəqqi müsəlmanlar öz dindaşlarının həyatının bu cəhətinə qarşı hələ çox uzun müddət mübarizə aparmalı olacaqlar. Bununla əlaqədar, Şərq xalqları arasında dövri mətbuatın yayılmasına uzun müddət mane olmuş və hələ də onun inkişafına mane olan digər səbəb - müsəlman xalqları arasında hər hansı tənzimləyici başlanğıcın olmamasıdır. Məlum olduğu kimi, gündəlik və ya dövri mətbuat yalnız o yerdə mümkündür ki, orada fərdin cəmiyyətə və ya hakimiyyətə münasibətdə hüquq və vəzifələri az-çox dəqiq müəyyən edilsin, vətəndaşların əmlakı və azadlığı qanunla qorunsun, bir sözlə, həyat qaydaları sarsılmaz təmələ əsaslansın; lakin o yerdə ki, özbaşınalıq və ya hərc-mərclikdir, ümumi tənzimləyici təməl yoxdur, hər şey təsadüfdən və ya kimlərinsə istəyindən asılıdır, - orada mətbuata yer yoxdur. Bu sonuncu - idealın ifadəsidir, ideal isə həmişə mövcud qaydalarla ziddiyyət

təşkil edir və təbii ki, ideyanın daşıyıcılarının həyatı və azadlığı yoldan ötənin birisinin istəyindən asılı olan yerdə nə arta bilər, nə də inkişaf edə bilər. Bu şəraitdə gənc və əzmkar xalqlar arasında mətbuat gizli xarakter kəsb edir və qələm əhli zəruri hallarda təkamülə deyil, inqilaba xidmət edir və hadisələrin öz təbiətinə görə subversiv olublar.

Uzun müddət istibdadın və qanunsuzluğun tüğyan etdiyi, gizli həyat enerjisinin tükəndiyi xalqlar arasında isə mətbuat ya heç inkişaf etmir, ya da sürüşkən istiqamət alır; müsəlman xalqlarının çoxu məhz bu vəziyyətdədir. Nəhayət, dövri mətbuatın müsəlmanlar arasında inkişaf etməsinə uzun müddət mane olmuş və gələcəkdə onun inkişafına az ümid verən axırıncı və ən mühüm səbəb – müsəlman əlifbasıdır. Quttenberqin ixtirasının Qərbdə necə böyük zehni çevrilişə səbəb olması, o vaxta qədər adi insanlar üçün əlçatmaz sayılan biliklərin xalq kütlələrinə yol tapmasında bu ixtiranın necə güclü vasitəyə çevrilməsi məlumdur. Lakin təəssüf ki, müsəlman əlifbasının bəzi xüsusiyyətləri ucbatından sürətli çap - müsəlmanlar arasında az qala müşkül şeydir. Bu əlifbanın hərflərinin formaları və cizgiləri Qərb əlifbalarındakı hərflərin forma və cizgilərindən fərqlidir və bu fərqlər onları çap üçün yararsız edir. Məlum olduğu kimi Qərb əlifbalarında bütün hərflərin ümumi cizgiləri ya silindrik, ya da konik şəkildədir ki, onlar bir-birinin yanında yazılanda bir-birinə qarışmasın; bundan əlavə, bütün bu əlifbalarda səslər xüsusi saitlərlə ifadə edilir və onların da forması silindrik və ya konik formadır. Müsəlman və ya ərəb əlifbasında isə bundan əsər-əlamət yoxdur. Orada samit hərflər ya çökük, ya da qabarıq formadadır və onları bir-birinin yanında yazanda bir-birinə qarışaraq əcaib, bəzən də "arabeskalar" adı ilə məşhur olan əsl bədii formalar kəsb edir. Beləliklə, yazan adam fikrin sadə ifadəçisindən daha çox rəssam olmalıdır; elə buna görə də müsəlman

Şərqində xəttatlıq sənəti yüksək qiymətləndirilmişdir və indi də yüksək qiymətləndirilir. Bəzi xəttatların əlyazması özü ağırlığında qızıla bərabər tutulur. Lakin bədii baxımdan bu qədər dəyərli olan və özünəməxsus mavritaniya incəsənətinin təməlini qoymuş olan bu hərflər sürətli çap üçün əsla münasib deyil. Hər kəs asanlıqla başa düşə bilər ki, bu əcaib formaları sürətli çapda ya ümumiyyətlə tətbiq etmək mümkün deyil, ya da mümkun olsa belə, bahalığı üzündən faktiki olaraq əlçatmaz məsələdir. Lakin çətinliklər təkcə bundan ibarət deyil, aradan qaldırılması daha mürəkkəb olan çətinlik ondan ibarətdir ki, müsəlman əlifbasında sait hərflər yoxdur. Orada səslər, kilsə-slavyan dilindəki məlum hallarda olduğu kimi, sətirin yuxarısında və ya aşağısında, müvafiq samit hərflərin üstündə və ya altında təsvir edilən müxtəlif şərti işarələrlə ifadə olunur. Bu işarələrin əksəriyyəti tirelər və ya nöqtələrdir. Bu halda həmin işarələrdən asılı olaraq hər bir samit hərf öz mənasını itirir və tamamilə əks məna kəsb edir. Məsələn, "h" hərfini götürün, əgər onun üstünə bir nöqtə qoysaq bu hərf "hk", nöqtəni hərfin aşağısında qoyduqda isə "tch" hərf birləşməsinə çevrilir, bir nöqtə əvəzinə iki və ya üç nöqtə qoyulduqda hərf tamam yeni məna kəsb edəcəkdir. Bütün o biri samitlər də elədir. Əgər samitlərin öz aralarında qarışmalarını, bir-birindən yalnız dişciklərin sayı ilə və dəyirmiliyin forması ilə fərqləndiyini də nəzərə alsaq, onların hamısının mənası nöqtələrin yerindən və sayından asılı olacaqdır. Nöqtələri səhvən o biri hərfə və ya o biri sətirə aid etmək çətin deyil. Deməli, oxucu müsəlman əlifbasının necə qəliz "Çin heroqlifləri toplusu" olduğunu təxmini də olsa təsəvvür edə bilər.

Sürətli çap işi nə qədər mükəmməl olsa da, bütün bu naqolaylıqları aradan qaldıra bilməz, çünki istər çap zamanı, istərsə də əlyazısında rahatlıq naminə bu işarələri, yəni saitləri

təsvir etməyib yalnız samitləri yazırlar. Bu samitlərdən baş çıxarmaq oxucunun həvalәsinə verilir. O, yazılan mətni oxumur, öz sövq-təbiisini, instinktini, çox vaxt da oxuyub öyrəndiklərini rəhbər tutaraq nə yazıldığını tapmaca kimi yozur; ikicə sətirlik mətni asanlıqla və ya səhvsiz oxumaq üçün ərəb, fars və türk-tatar ədəbiyyatını çox dərindən bilmək lazımdır; bu çətinlikləri konkret anlamaq üçün rus dilindəki aşağıdakı sözlərə nəzər salaq: stl, stt; oxucu həmin sözləri bu cür oxuya bilər: стол, стоит, стал, стоить, стул стоит və s. İkinci sözü isə aşağıdakı kombinasiyalar şəklində yoza bilər: стоит, стоят, стать və s. Bu çətinliklər müsəlman uşaqlarının təlim vaxtı qarşılaşdıqları mürəkkəblikləri izah etməyə imkan verir. Digər tərəfdən, elə həmin çətinliklər dövri mətbuatın müsəlmanlar arasında inkişafını nəinki ləngidir, hətta onu rüşeym halında məhv edir. Qiraətlə məşğul olan adamların olmadığı yerdə dövri mətbuat mümkün deyil. Buna görə də müsəlmanların əlifbasında islahat aparılması, onun müasir çap tələblərinə uyğunlaşdırılması məsələsinin nə qədər böyük əhəmiyyət kəsb etməsini başa düşmək çətin deyil. Bu məsələ üzərində Qərbdə orientalistlər, Şərqdə isə görkəmli xadimlər çox əziyyət çəkmişlər. Qərb orientalistlərindən Vamberinin, Barbiyer de Meynarın və Bartelemi-Sent İlerin əsərlərini göstərə bilərik. Şərqdə isə bu məsələ üzərində ən çox əmək sərf edən Qafqazda bizim məşhur tatar dramaturqu, mərhum Mirzə Fətəli Axundov, iranlı Mülküm xan (hazırda Romada səfirdir) və bəzi türklər olmuşdur. Mərhum Mirzə Fətəli hələ 50-ci illərdə müsəlman əlifbasının nöqsanlarını və bu əlifbada islahat layihəsini Türkiyə hökumətinin nəzərinə çatdırmışdır. Mülküm xan isə bu məsələ ilə maraqlanaraq Londonda səfir olduğu dövrdə orada adi mətbə işçisi kimi çalışaraq bu işi praktiki baxımdan öyrənmişdir; sonradan o, çox orijinal və maraqlı bir əlifba fikirləşib tapmışdır.

Bu əlifbada əvvəlki hərflərin forma və cizgiləri saxlanmış, lakin sait hərflər daxil edilmişdir, saitlər samitlərlə yanaşı yazılır; o, hətta öz mətbəəsini açmış, yeni əlifba üçün şriftlər sifariş etmiş və Sədi, Hafiz və digər məşhur İran klassiklərinin əsərlərini həmin şriftlə çap etdirmişdir. Lakin indiki sultan onun layihəsini şəxsən rəğbətlə qarşıladığına baxmayaraq bu layihəni nəzərdən keçirən komissiya onu qəbul etməmişdir. Komissiya öz izahatında layihəni qəbul etməməsini əsasən dini-siyasi səciyyəli mülahizələrlə əsaslandırmışdır. Komissiya, bəlkə də haqlı olaraq, ruhanilərin avamlığını və nadanlığını nəzərə alaraq belə güman edirdi ki, Quran köhnə hərflərlə yazıldığına görə yeni əlifbanın tətbiq edilməsi müsəlmanlar arasında yeni parçalanmaya səbəb ola bilər və onların dini birliyinə zərər vurar. Beləliklə, müsəlman əlifbasının islahatı məsələsi ön plana çəkilmiş olduğuna baxmayaraq hər halda açıq qalır və müsəlmanlar arasında başlanmış bu iş qeyri-qənaətbəxş vəziyyətdə qalmaqda davam edir. Bununla belə, dövrün tələbləri, zamanın ruhu və Avropanın təzyiqi sayəsində dövri mətbuat müsəlmanlar arasında artıq yaranmış, özünə yer tutmuşdur və çətinliklə, ləng də olsa, hər halda inkişaf edir. İndi isə bu mətbuatın vəziyyətini, onun istiqamətini və xarakterini nəzərdən keçirək.

"Günay", №29, 23 iyul 2005-ci il

ŞƏRQ JURNALİSTİKASININ İCMALI

Keçən dəfə biz dövri mətbuatın müsəlman xalqları arasında yaranma mərhələsində qarşılaşdığı çətinliklər üzərində dayandıq və göstərdik ki, bu çətinliklərə baxmayaraq jurnalistika müxtəlif, bəzən bir-birinə diametral zidd olan qüvvələrin qarşılıqlı təsiri şəraitində hər halda yaranmış, möhkəmlənmiş və Şərqdə özünə mövqe tutmuşdu. İndi biz məxsusi olaraq bu jurnalistikanın istiqamətləri və xarakteri, onun qüvvəsi və əhəmiyyəti üzərində dayanacaq, onun gələcəyinə nəzər salmağa çalışacağıq.

Əvvələn onu qeyd edək ki, müsəlmanlar arasında dövri mətbuatın banisi və atası, haqlı olaraq Şərqin tanınmış siyasi xadimi Seyid Cəmaləddin hesab edilə bilər. Doğrudur, ondan əvvəl də "əsl" mətbuat yaratmaq üçün cəhdlər göstərilmiş və hətta bəzi mətbu orqanlar mövcud olmuşdur. Lakin bu cəhdlərin əksəriyyəti ya uğursuzluqla bitir, ya da jurnalistikanı yaxşılaşdırmaqdan daha çox onu pisləşdirən, heç bir əhəmiyyəti olmayan efemer nümunələr yaranmasına gətirib çıxarırdı. Aşağıda İran mətbuatı barədə söhbət açanda həmin nümunələrlə tanış olacağıq. Seyid Cəmaləddin müsəlmanlar arasında birinci olaraq mətbuatı onun həmişə və hər yerdə layiq olduğu zirvəyə ucaltmışdır. O, öz sözünün tutarlılığı, qələminin kəsərliliyi sayəsində müsəlmanlara ilk dəfə olaraq başa saldı ki, vicdanlı və ciddi jurnalist "mənfur cənnət" deyil, ictimai fikrin və ictimai vicdanın daşıyıcısıdır, "volens nolens" onun səsini eşitməli və əməl etməlidir. Buna görə də bu maraqlı xadimin həyatı ilə bağlı bəzi məlumatları xatırlatmaq yersiz olmazdı. Bu, xüsusən ona görə zəruridir ki, Seyid Cəmaləddinin nümunəsi başqaları üçün ibrət dərsi olardı, bu nümunə jurnalistikanın müsəlmanlar arasında

gələcək inkişafına çox təsir göstərmişdir; bundan əlavə, oxucularımız bu mühitdə faydalı və uğurlu fəaliyyət göstərmək üçün hansı məziyyətlərə malik olmaq lazım olduğunu canlı nümunə üzərində görərlər.

Çoxları belə hesab etmişdir və indi də belə hesab edir ki, Seyid Cəmaləddin əfqan olmuşdur. Əslində isə o, Həmədandan olan əsl iranlı və seyid olmuşdur. Şərq üslubunda yaxşı təhsil almış, müsəlman tarixinə, ilahiyyatına və ədəbiyyatına dərindən bələd olan, ən mühüm müsəlman dialektlərinə mükəmməl yiyələnmiş bu şəxs uzun müddət həm Şərqdə, həm də Qərbdə səyahətdə olmuş, dövrünün görkəmli siyasi xadimləri və tanınmış ədəbiyyatçıları ilə, o cümlədən, Qladston, Renan və hətta Katkovla yazışmış və şəxsi münasibətləri olmuşdur. Renan bu sözləri onun haqqında demişdir: "Seyid Cəmaləddinlə söhbət edəndə mənə elə gəlir ki, qarşımdakı şəxs - yenidən həyata qayıtmış Averroesdir". Varı, dövləti, ailəsi və deməli, ailə qayğıları da olmayan bu insan daim şəhərbəşəhər gəzib dolaşmış, nəhayət Parisdə məskunlaşmaq və orada qəzet nəşr etmək qərarına gəlmişdir. Diqqətəlayiq məqamdır ki, hələ kifayət qədər güclü, xoşagələn zahiri görkəmə malik olan, qeyri-adi natiqlik məharəti ilə seçilən bu şəxs heç bir hərəkəti ilə öz adətlərinə xilaf çıxmamış, bununla belə bütün siyasi və ədəbi məclislərdə arzu edilən qonaq olmuşdur. O, həmişə şal parçadan tikilmiş konus formalı, ipək parçadan köbə çəkilmiş baş geyimində olardı, Qələndərlər ordeninə mənsub dərvişlər kimi əyninə ərəb əbası, enli şalvar, alçaq dabanlı sarı rəngli başmaq geyərdi. Özünün təsis etdiyi qəzetə gurultulu bir ad seçmişdi: "Urvatul vuska" (Nicat sapı); ərəb dilində nəşr edilən bu qəzetin ilk nömrələri naşirin çoxsaylı dostlarının və əlaqələrinin sayəsində qısa bir müddətdə müsəlman dünyasının bütün guşələrinə yol tapdı və qeyri-adi maraqla qarşılandı. Bu qəzetin peyda

olması əvvəlcə, hamını heyrətləndirmiş və çaşdırmış, sonra isə nifrətə, qəzəbə, məzəmmətə, böhtana və hətta söyüşə səbəb olmuşdu.

Bəs Seyid Cəmaləddin nədən danışırdı? O, yalnız özündə cəsarət tapıb birinci olaraq deyirdi ki, müsəlmanların ailə və cəmiyyət həyatının şəraiti köhnəlmişdir, bu şərait müasir dövr üçün yaramır və buna səbəb ruhanilərin özlərinin köhnəlməsi, hakimiyyətin kütlüyü və nadanlığı, onların müasir dövrün tələbatını anlamamasıdır. O, heç bir qərəzli məqsəd güdmədən türk sultanına, İran şahına, digər əmirlərə və hökmdarlara ünvanlanmış fikirlərini söyləyir, onları öz təbəələrinin mənafelərinə məhəl qoymamaqda günahlandırır və müsəlman xalqlarını ilkin İslama qayıtmağa, ləyaqətsiz hökmdarlara qarşı açıq mübarizəyə qoşulmağa çağırırdı. Eyni zamanda o, ruhanilərı amansızcasına tənqid edir, onların "boş dialektika və sxolastikasını" məsxərəyə qoyur, onların riyakarlığına və həyasızlığına gülürdü. O, öz mühakimə və mülahizələrini Qurandan gətirilən sitatlarla, müsəlman tarixinə aid misallar və əfsanələrlə əsaslandırırdı. Onun bütün gücü də məhz bu "uyğunlaşmaq" bacarığında idi. Bütün ölkələrin müsəlmanları onun səsində nə isə tanış, eyni zamanda yeni çalarlar hiss edirdiler. Təbii ki, onun həmlə obyektləri olan hökmdarlar və ruhanilər əlbir olaraq köhnə üsullardan istifadə etməyə başladılar, yəni onu kafirlikdə, Allahsızlıqda, böhtançılıqda, saxtakarlıqda, xainlikdə təqsirləndirdilər. Lakin, bu kimi ittihamlar onun sözünün kəsərini daha da artırırdı. O, demək olar ki, bütün ölkələrdə özünə tərəfdarlar tapdı və nəticə etibarilə hökmdarlar onunla "kompromisə getməyə", ondan məsləhətlər istəməyə və ümumiyyətlə, onunla dil tapmağa çalışmağa məcbur oldular. Qəzet felyetonunun məhdud çərçivəsində bu gözəl insanın başqa xüsusiyyətlərini ətraflı təhlil etməyə imkan olmadığından, yalnız bunu qeyd etməyi lazım bilirik ki, bir tərəfdən öz dövrünə və müsəlmanların əqli-mənəvi vəziyyətinə uyğun olmadığından, digər tərəfdən Şərq xadimlərinin həyatında ümumiyyətlə müşahidə olunduğu kimi zəruri əzmkarlığa malik olmadığından, Seyid Cəmaləddin öz təşəbbüsünü başa çatdırmamış və coşğun həyatının son illərini Konstantinopolda keçirmiş, hətta sultan da ona diqqət və ehtiram göstərmişdir.

Hər halda onun böyük xidmətləri olmuşdur. Şərqdə nümunəvi ictimai xadim olan bu şəxs eyni zamanda özünün gələcək davamçılarının fəaliyyəti üçün proqram tərtib etmiş, bu davamçıların yalnız inkişaf etdirməli olduğu ideyaları göstərmiş, müsəlmanlar arasında müasir jurnalistikanın gündəlik qayğı predmeti olan məsələləri tam kəskinliyi ilə qarşıya qoymuşdur.

İndi ayrı-ayrı müsəlman xalqlarında mətbuatın icmalına keçirik. Asanlıqla görmək olar ki, bu mətbuatın xarakteri hər yerdə eyni deyildir, əvvəlki felyetonumuzda göstərdiyimiz maneələrin təsir qüvvəsi konkret xalqın mədəniyyət və tərəqqi səviyyəsi ilə tərs mütənasibdir və müsəlmanlar arasında mətbuat milli xüsusiyyətlərin və cəmiyyətin vəziyyətinin ifadəçisinə çevrilməyə başlamışdır.

İlk növbədə İrana müraciət edək. Bu ölkədə dövri nəşrlər həm məzmununa, həm də ruhuna görə bir-birindən kəskin fərqlənən iki kateqoriyaya bölünür: ölkə daxilində nəşr edilənlər və ölkənin hüdudlarından kənarda nəşr edilənlər. Birincilərə "Ettila", "Tehran", "İran" (Tehranda) nəşr edilənlər, "Fərqani" (İsfahan), "Nasiri" (Təbriz) və başqaları; ikincilərə - Kəlküttədə nəşr edilən "Həblul-mətin", Bombeydə çıxan "Hekmat", Qahirədə çıxan "Sürəyya" və başqa nəşrlər aiddir. Bu iki kateqoriya nəşrlərin arasında ümumi cəhət onların dili (fars dili) və formatıdır. Onlar öz formatlarına görə ingilis qəzetlərini xatırladır və dörd, səkkiz və on altı səhifəlik "in folio" kitablar şəklində nəşr edilir.

İranın özündə qəzetlər ilk dəfə "mətbuat vəziri" Mötəmidi Saliqana tərəfindən təsis edilmişdir. Bu yaxınlarda dünyasını dəyişmiş bu şəxsin vəfatı ilə əlaqədar "İmperiya arxeoloji cəmiyyətinin Şərq bölməsinin qeydləri" məcmuəsində xüsusi məqalə dərc olunmuşdu. O, elmli, lakin məzmunsuz, yaxud elə İran yazıçılarının öz təbirincə desək, mirvari ilə dolu, lakin ağzı bərk-bərk bağlanmış böyük bir kisəni xatırladırdı. Onun heç kimə nə yaxşılığı dəymişdi, nə də pisliyi. O, heç vaxt jurnalist səviyyəsinə ucalmamışdı və bütün ömrü boyu şahın sarayındakı vəzir vəziyyətində qalmışdı.

Onun qəzetlərində daxili işlərə həsr edilmiş bölmələr müxtəlif hökmdarların və ya nüfuzlu şəxslərin şərəfinə mədhiyyələrlə dolu idi. Bu mədhiyyələrin stereotip forması belə idi: filankəsin (hökmdarın adı göstərilir) böyük zəkası, mərhəməti, səxavəti və nəcabəti sayəsində filan yerdə (əyalətin adı göstərilir) tam tərəqqi müşahidə olunur, bol yağış yağır, əkinlər yaxşı cücərir, orada nə oğurluq var, nə qətl, nə də başqa cinayətlər, qurd qoyunla otlayır, bu nemətlərdən sərməst olan xalq gecə-gündüz şahın və hökmdarın qiymətli ömrünə dua oxumaqla məşğuldur. Bu - yerli xəbərlər şöbəsi. Siyasət və ədəbiyyat şöbələrinə gəldikdə isə, bunlardan birincisi yalnız "Novoe vremya" və "Times" qəzetlərində dərc edilmiş və bəzən həmin qəzetlər çap olunandan yalnız bir ay sonra Tehrana və ya Təbrizə gəlib çatmış teleqramların tərcümələrindən ibarətdir. İkinci bölmə isə "Stenlinin səyahətləri", "Telemak","Don Kixot" və bu qəbildən olan başqa əsərlərin tərcümələrindən ibarətdir. Yeri gəlmişkən, bütün bu nəşrlərin birinci səhifəsində belə bir reklam var: "Bu qəzet hər cür hökumət əlaqələrindən tam azaddır və bütünlüklə milli məsələlərə həsr edilmişdir".

Ümumiyyətlə, İranda dərc edilən daxili nəşrlərdə iki sözdən biri əslində heç bir mənası olmayan təmtəraqlı "millət", "Vətən"

kəlmələridir. Təbii ki, bu cür mətbu orqanlar oxucuda heç bir etimad hissi oyatmır və İran "qəzetçiləri" ölkə üçün nüfuz sahibi deyildirlər.

Amma əvəzində İranda çıxan xarici nəşrlər təsəlliverici təzad doğurur və bu təzadda iranlının əsl istedada malik olan naturası özünü göstərir. Burada İranın özündə daha kəskin şəraitin sıxışdırmadığı və hökmdarların qarşısında dörd əl-ayaq üstündə sürünməyə məcbur olmayan iranlı öz istedadını hərtərəfli göstərir. Lakin xaricdə nəşr edilən İran mətbuatından söhbət düşəndə ilk növbədə "Əxtər"in adını çəkməmək olmaz. Bu möhtərəm və ən qədim mətbu orqan Konstantinopolda nəşr edilirdi. Oradakı materialların ciddiliyi və məzmunluluğu sayəsində bu nəşr az vaxtda nəinki İranda, fars dilinin yayıldığı bütün ölkələrdə nüfuz qazandı. Ön Asiyanın bütün guşələrinə yol tapan bu nəşr yerli sakinlərdə Avropa həyatına maraq oyatmaq üçün çox iş görmüşdür. Lakin, təəssüf ki, "Əxtər"in redaktoru Mirzə Tahir nədənsə məhz bu qəzet bütün çətinliklərdən keçərək möhkəmləndiyi və öz mövcudluğunu davam etdirmək iqtidarında olduğu bir vaxtda bu təşəbbüsdən imtina etdi. İranın Londondakı sabiq səfiri Mülküm xan tərəfindən Parisdə nəşr edilən "Qanun" adlı ultrainqilabi orqanın ömrü bundan da qısa oldu. Şərq üçün bu qədər cəlbedici mistisizmlə zəngin olan inqilabi ideyalar şah hakimiyyətini qorxutdu və o, "Qanun"u ciddi təqib etməyə başladı. Bundan sonra oxucuların marağı daha da artdı, onlar "Qanun"un nüsxələrini əlbəəl axtarmağa başladılar. Mülküm xan konstitusion idarəetmə üsulunu Qurana əsasən təbliğ edirdi - nə artıq, nə də əskik. Lakin sonradan məlum oldu ki, o, Londonda səfir vəzifəsindən azad edildiyinə görə, şəxsi qisas zəminində mübarizə aparırmış. Buna görə də İran hökuməti ona Romada yeni vəzifə verən kimi o, "inqilab"dan imtina etdi və bu orqanın mövcudluğuna xitam

verildi. Hazırda xaricdə nəşr edilən, yuxarıda sadaladığımız nəşrlər isə yalnız bir fərqləndirici cəhətə malikdirlər: onlar Misirdə və Hindistanda mətbuat azadlığından istifadə edərək, bütün milli həyat tərzini amansızcasına tənqid edirlər və bu zaman onlar tənqidin ifrata varması və amansızlığı baxımından Avropanın ən ifrat mövqeli orqanlarından əsla geri qalmırlar. Doğrudur, onlar şahın şəxsiyyətinə toxunmurlar, lakin yerdə qalanların hamısının barəsində, şahın oğlanları da daxil olmaqla istədiklərini yazırlar. Kəlküttədə çıxan "Həblül-mətin" qəzeti xüsusilə populyardır. Onun redaktoru və naşiri, məşhur ilahiyyatçı, Höccətül-İslam, gilanlı müctəhid o qədər çoxsaylı abunəçi cəlb edə bilmişdir ki, bu yaxınlarda o, özünün İrandakı bütün müxbirlərinə ölkənin bütün əsas şəhərlərində onun hesabına qiraətxana-kitabxanalar açmaq barədə tapşırıq vermişdir. İran mətbuatının digər nümunələri İranda hələ kifayət qədər inkişaf etməmişdir, buna görə də onların barəsində danışmağa dəyməz.

Türkiyədə və Misirdə mətbuatın vəziyyəti barədə qəzetimizin növbəti saylarında söhbət açacağıq.

Ə.A. (Əhməd Bəy Ağayev)
"Kaspi" qəzeti, 1899, №262
Ruscadan çevirən: O.Qəbələli

"Günay", №31, 6 avqust 2005-ci il

ÜZEYİR İRSİNİN ƏSRARƏNGİZ SƏHİFƏLƏRİ



1905-ci ilin qızmar yay günü – 100 il bundan əvvəl. 20 yaşı hələ tamam olmamış Üzeyir bəy Bakıya gəlir. Arxada gözəl Qarabağ, doğmalar, bir il əvvəl başa vurduğu təhsil illəri - Qori seminariyası, ibtidai məktəbdə - Hadrutda dərs dediyi şagirdləri. 1905-ci il yanvarın 9-da Peterburqda qanlı Yanvar qırğını ilə başlayan inqilab bütün ölkəni, o cümlədən Qafqazı və xüsusilə neft Bakısını çulğalamaqda idi. Mərkəzi hökumətin çaşqınlığını görən şovinist erməni daşnak partiyası öz "Böyük Ermənistan" planını həyata keçirmək məqsədilə hərəkətə keçmişdi. 1905-ci ilin fevralında Bakıda, Qarabağ və Naxçıvanda, Qafqazın türklər yaşayan digər məntəqələrində daşnak quldur silahlı dəstələri azğınlıq etməyə başlamışdılar. Millətin ölüm-dirim məsələsi gündəliyə gəlirdi. Ermənilər təkcə odlu silahla deyil, çox güclü təbliğat vasitələri ilə də hücuma keçmişdilər. Bakıda, Tiflisdə, hətta Peterburqda ermənipərəst qəzetlər, jurnalist və publisistlər müsəlman-türklərə qarşı olmazın həyan və iftiralar yazmaqda, yaymaqda idilər. Azəri türklərinin əlində vur-tut iki mətbuat orqanı vardı -

rusca nəşr olunan "Kaspi" və iyulun 7-dən Bakıda nəşrə başlayan "Həyat" qəzeti. Daşnak partiyası qarşısına çıxa biləcək milli siyasi təşkilat və partiya isə yaradılmamışdı. "Kaspi" və "Həyat" qəzetləri redaksiyaları bir binada yerləşmişdi. Mətbəələri də eyni idi. Hazırlıqlı, yetkin, qüdrətli qələm əhlini də barmaqla saymaq olardı. Jurnalistikamızın yaradıcısı və ağsaqqalı Həsən bəy Zərdabi, Ə.M.Topçubaşov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, N.Nərimanov, N.Vəzirov, M.Hadi, Ə.Haqverdiyev, M.Ə.Rəsulzadə və b.

Üzeyir bəy Bakıya gəldikdən sonra demokratik milli ruhlu ziyalıların qərargahına çevrilməkdə olan "Həyat" qəzeti redaksiyasına gəlir. Qəzetin redaktorları Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayevlə görüşür. Gənc Üzeyir bəyi redaksiyada tərcüməçi-mütərcim vəzifəsinə işə götürürlər. 1905-ci il sentyabrın 7-də qəzetin 59-cu sayında "Mütərcim Üzeyir" imzası ilə verilən yazıya rast gəlirik. Rus dilindən azəri türkcəsinə çevrilmiş reportaj səciyyəli - "Avqustun 20, 21 və 23-də küçə müqatiləsi" sərlövhəli bu yazı, əvvəlcə Peterburqda nəşr olunan "Novoye vremya" qəzetində, sonra isə Bakıda ermənipərəst, rus dilində çıxan "Baku" qəzetində dərc olunmuşdu. Söhbət "Novoye vremya"nın Bakıda məzuniyyətdə olan müxbirinin erməni-müsəlman davası barədəki mülahizələrindən gedir.

"Həyat" qəzeti redaksiyası belə bir mürəkkəb, çətin, təhlükəli vəziyyətdə paytaxtda, yəni Peterburqda, Tiflisdə, əlbəttə Bakıda nəşr olunan qəzetləri diqqətlə izləyir, dərc olunan yazılara operativ reaksiya verirdi. Üzeyir bəy bu prosesdə çox fəal iştirak edirdi.

Maraqlıdır ki, göstərdiyimiz tərcümə yazısından sonra "Həyat" qəzetinin sentyabrın 10-da çıxan 62-ci nömrəsində Üzeyir bəyin ilk müstəqil, çox ciddi, elmi-nəzəri və tarixilik baxımından

tutarlı tənqidi bir yazısı - "Bir xanım əfəndinin bizlərə hüsni-təvəccöhi" sərlövhəli məqaləsi dərc olunur. Uzeyirşünaslar haqlı olaraq yazırlar ki, Üzeyir Hacıbəyovun jurnalistlik fəaliyyəti, demək olar ki, bu məqalə ilə başlayır".

Heyranedici cəhət budur ki, hələ 20 yaşı tamam olmamış bir gəncin qələmindən ilk olaraq bu cür yetkin, kəskin və tutarlı əsər çıxmışdır. Bu yalnız çox böyük fitri istedada, milli ruh və qeyrətə malik çox nadir şəxsiyyətlərə aid keyfiyyətdir. 100 il keçməsinə baxmayaraq bu gün də aktual olan həmin məqaləni oxuculara təqdim edirəm. Axı Maqda Neymanların sayı azalmayıb, çoxalıb!

P.S. Müasir oxucuları nəzərə alaraq məqalədə fars və ərəb mənşəli ayrı-ayrı sözlərin izahını mötərizədə verməyi lazım bildik.

BİR XANIM ƏFƏNDİNİN BİZLƏRƏ HÜSNÜ-TƏVƏCCÖHİ

"Петербургские ведемости" qəzetinin 210-cu nömrəsində rusca bilən qarelərimizə (oxucularımıza) ismi məlum Maqda Neyman xanım Qafqaz müsəlmanları barəsində öz rəyini yalandan adlanmış bir "qoca administrator"un dili ilə rus camaatına izhar edir.

Maqda Neyman xanım deyir ki:

"- Mənim rəyimə gəlincə, əsrlərcə şəqavət (qəddarlıq) və sui-rəftar (pis rəftar) üzrə güzəran edən və bundan naşi (bu səbəbdən) zatən şəqi (quldur) və şərir (soyğunçu) olan Teymurləng ordusu nəslini (yəni biz türkləri - Ü.H.), Şimali Amerikanın

"qırmızı dəri" vəhşilərini - mədəniləşdirmək namümkündür... Bizim mühərrirlərin bəzisi iqnaiyyət izhar edə də ki, (inandırmaq istəyəndə ki) guya mərifət, elm və ədəb ilə Zaqafqaziya türklərinin xülq (təbiət) və xasiyyətlərini təbdil edərək (dəyişdirərək) onları rus mədəniyyətinə tərfi etmək (yiyələndirmək) olar, onda mənim gülməyim tutur. Əcəba bu yırtıcıların təbiəticinsiyyəsinə mədəniyyətin bir təsiri olarmı?"...

Görürsünüz, Maqda Neyman xanım nə dərin mənalı sözlər deyir?! Xanım çox fikir və zikirdən (xatırlamadan) sonra yəqin etmiş ki, biz türk tayfasına mədəniyyət və mərifət bilmərrə (qətiyyən) əsər etməz. Əcəba bu bir tazə kəşfiyyat deyilmi?! Xeyra!... Cəsarət edib deyə bilərəm ki, xanım səhv edir. Necə ola bilər ki, ədalətli olan həqq sübhanəhu və taala (haqq olan böyük yaradan) tək bir türk tayfasını yaradanda onun xəmirəsində istedad qoymayıb, binəva (yazıq) türklərin xislət (xasiyyət) və təbiətlərini qabili-mədəniyyət və mərifət yaratmaya? Bu ola bilməz, Xanım, haşa! (heç bir vaxt!) Olsa da sizin heç bir haqq və səlahiyyətiniz olmaz ki, bu surətdə bədbəxt türkləri müqəssir tutasınız. Çünki Allahın işinə bəndə nə qayırsın?! Yox! Yenə təkrar edirəm ki, Allah taala adildir. Elə iş ondan baş verməz. Və belə olan surətdə sizin bu "dərin mənalı" sözlərinizininciməyinizin heç bir mənası gərək olmasın.

Ola bilər ki, Maqda Neyman xanım biz türklərin mədəniyyət sarıdan həqiqətdə də pəsməndəliyimizi nişan vermək istəyirmiş. Ancaq qərəzkaranə yazmağına görə haqdan kənar düşmüşdür. O halda dəxi biz deyək ki, doğrudur, cümlə Qafqaz əhalisi bilümum (ümumiyyətlə) və biz türk tayfası da ba xüsus (xüsusilə) Avropa miləli-mütəməddinəsinə (milli-mədəni səviyyələrinə) nisbətən ümumiyyət etibarı ilə yarım-vəhşiyik. Ancaq burası nəzərdə tutulmalıdır ki, avropalılar bu darı-dünyaya (dünya

evinə) ana bətnindən mədəniyyətli halda düşməmişlər. Bəlkə əsrlərcə ömür edərək, mədəniyyət təriqini (yolunu) tapıb, ondan bəhrəyab olmuşlar (faydalanmışlar).

Biz türk tayfası dəxi əsrlərcə ömür etmişiksə də məəttəəssüf, kənardan biruz edən (müdaxilə edən) səbəblərə binaən (görə) rahimədəniyyəti (mədəniyyət yolunu) tapa bilməyib, sərgərdan (avara) qalmışdıq. Əlhal (indi) lillahülhəmd vəlminnə (Allaha şükür, onun köməyi ilə) işıq qapısı üzərimizə açılmaqdadır. Və biz türk tayfası əl-ələ verib, cümləmiz mədəniyyət və mərifət sarayına daxil olmağa amadəyik (hazırıq). Çifayda (nə edəsən ki,) bəzi fasid (pozğun) və məfsud (fitnəkar) şəxslər belə bir fürsətli həngamda (vaxtda) bizlərə xələl yetirir, öz məsiyyətli (günah) və qəbahətli qəsd və niyyətlərinə nail olmaq üçün biz ətşan (susamış) tayfanın mədəniyyət bulağından su içməyimizə mane olurlar.

Qərəz, gələk mətləb üstünə. Türklərin elm və ədəb (gözəl əxlaq) əxz etməyə naqabil (qabiliyyətsiz) olduqlarını sübut etmək üçün Maqda Neyman qareləri (oxucuları) inandırır ki, (bilmirəm kim ona inanar - Ü.H) türk tayfası 500 il (?!) öz həmdin iranlıların təhti-hökumətində güzəran keçirdilərsə də, onlardan heç bir şey əxz edə (öyrənə) bilmədilər (!)

Nə deyim! Həqq-taala (Allah) mənə bir şairlik əta buyurmuş olsaydı, xanımın kəşfiyyatında belə bir məharətinə gözəl nəzmlər (şerlər) ilə bir mədhnamə yazardım. Hörmətli xanım, kitab oxumaqla Qafqaz türklərinin hal və övzaından (vəziyyətlərindən) vüqufiyyəti-külli (bütövlükdə fikir) hasil etmək olmaz. Və oxuduğunuz cəfəngiyatı dəstaviz (bəhanə) edərək belə əhəmm (çox əhəmiyyətli) məsələlərdən mübahisə etməklə özünüz heç, darüssəltənədə (paytaxtda) intişar olan (çıxan) "Петербургские ведомости" kimi bir böyük cəridəni (qəzeti) bədnam edirsiniz. Nə qayırdığınızdır?

Məgər İranın bir şeyi qalmışdı ki, Qafqaz türkləri onu əxz etməmiş olalar? Türkmi Firdovsiyə, Hafizə nəzirə etmiyor? Türkmi fars dilini öz məxsusi dili tək istemal etmiyor (işlətmir)? Türkmi tərzi-məişətində, güzəranında, adət və ərkanında (qaydalarında), xülq təbiət və xasiyyətində iranlıdan seçilir? Hərgah siz 30 il bundan əqdəm, qəflətən, Zaqafqaz şəhərlərinin birinə düşsəydiniz, inandırıram sizi, bilməzdiniz ki, rus torpağındasınız, yainki Qəzvin şəhərində? Əcəba siz güman edirsiniz ki, belə kizb (uydurma) və yalan sözlər ilə rus camaatını aldada bilərsiniz?! Lövhəşəllah! (Allah uzaq eləsin!) "O fikirdən daşın, yaxşı olmaz bu hədyan". Qəribə budur ki, Maqda Neyman xanım öz yazdığı yalanını özüdəcə aşikar edir. Bir tərəfdən camaatı inandırır ki, "Qafqaz türklərinin elm, ədəb əxz etməyə qabiliyyətləri yoxdur. Onlar hər bir tərəqqi və mədəniyyətin düşmənidirlər". Bir tərəfdən dəxi deyir ki, "axır zamanda türklər dövlətdən tələb edirlər ki, hüquq və imtiyazatda (ixtiyarda) nəsranilərlə (xristianlarla) müsavi olub, məktəblər güşad etməyə (açmağa) haqları olsun". Hərgah türklər elm və mərifətə zidd olsaydılar, məktəb açmaq istərdilərmi? Türklər "qırmızı dəri" vəhşilər tək olsaydılar "haqq" ləfzini (ifadəsini) anlayardılarmı? Hüquqda müsavi olmağı tələb edərdilərmi? Heç nə... Görünür ki, xanımın qələm, mürəkkəb və kağızı müftə imiş!

Görək sonra nə deyir:

"Yaxşı olardı ki, biləydik, görək onlar (türklər) o məktəblərdə nə dilində dərs verəcəklər. Axı, onlar əsrlərcə özlərinə ədəbiyyat və ədəbi dil icad edə bilmədilər? Siz deyirsiniz ki, onlar qəzetə nəşr və kitab təlif (tərtib) etmək üçün fars və Osmanlı dilləri ilə mənfəətbərdar olarlar? Onda nə olsun. Bəs biz onların Osmanlı və fars ilə ruhani müttəfiq olmalarına kömək edəcəyik? Nə mənzur (məqsəd) ilə? İttəhadi-islam (islam birliyi) əhəmiyyəti üçünmü?"

Qarelərimizdən (oxucularımızdan) təvəqqə edirik ki, xanımın bu sözlərinə artıq diqqət yetirib düşünsün: əcəba, xanım bilir ki, türk kimdir və nə dildə danışır? Məlum ki, bilmir və illa (digər tərəfdən) belə cəfəngiyatı bilən adam yazarmı? Xanımın qulluğuna ərz olsun ki, türk dili əmələ gəlir ərəb, fars və məhz türk dilindən. Yəni türk dili ibarətdir üç dilin bir-birinə qatışmasından. Ancaq xanım elə güman etməsin ki, guya biz türklər fars və ərəb dilini dünən öz məhz türk dilimizə qatışdırmışıq. Xeyr! (biz vəhşi tayfayıq, bizdə o fərasət hanı - Ü.H.). Ərəb və fars dili min ildən bəri türklər arasında işləndiyinə görə, əlhal (indi), türklərin öz ana dili olubdur. Və bunu da xanım bilsin ki, türklər mədəniyyətin ən baş dərəcəsində də olsaydılar yenə də öz türk dilindən, ərəb və fars əlfazını (sözlərini) xaric edib, məhz türk dilini vəsiləndirmək (vüsətləndirmək) üçün saxta sözlər icad etməzdilər. Necə ola bilərdi ki, bir türk alimi durub "ağıl" ləfzini (sözünü) tullayıb, əvəzində məsələn "baş dolu eləyən" - deyəydi. Görək "ağıl" ləfzinin nəyi pisdir? Niyə rus "qaloş" ləfzinə "mokrostop" demir? Niyə erməni "fədai" əvəzinə bir erməni sözü demir?... Bizim dilimiz sarıdan xanım arxayın olsun. Və dilimiz ilə tanış olmaq istəyirsə qəzetəmizi mütaliə etsin (oxusun).

Yox, iş bizim dilimizin qeydində olmaq deyil. Maqda Neyman xanım bizim dinimizdən qorxur. Çünki ittihadi-islam (islam birliyi) vüquə (zühura) gələr. Mərhəba bu dəqiqliyə, kəramətli (hörmətli) xanım! İnandırıram sizi, əbəs yerə təşvişə düşürsünüz! Siz kimi şəxslər min-min yerdən baş qövzuyub (qaldırıb) "ittihadi-islam" deyib qışqıra, yenə dövləti qorxuda bilməzsiniz. Çünki dövlət bizi də yaxşı tanıyır, sizi də. Rusiyanın durbin (uzaqgörən) şəxsləri çoxdur, siyasi işlərdə mahir zəvati (adamları) çoxdur, dəqiq kəsləri çoxdur, müttəle (məlumatlı) adamları çoxdur. Bunlar hamısı yəqin bilirlər ki, türk tayfasının ən ümdə mətlubi (arzusu) ruslarla

müttəhid və müttəfiq olmaqdır. "İttihadi-islam" ləfzi (sözləri) dəxi gözübağlıçılıq hiyləsi ilə ortaya atılmış bimənа (mənasız) sözdür və bunu da xanım özü yaxşı bilir. Amma, əksinə yazmaqda məqsəd var. Bəs, Maqda Neyman xanım dedi ki, Qafqazın türkləri vəhşi və yırtıcı heyvan surətindədirlər, onları elm və mərifət sahibi etmək namümkündür. Çünki onların zatında (mayasında) elm ilə münəvvər olunmaq qabiliyyəti yoxdur. Və əlavə türkləri qoymamaq ki, fars və ərəb dilləri ilə nəfbərdar (mənfəət götürən) olsunlar və illa (yoxsa) "ittihadi-islam" vüqu olar... Bəs nə etməli? Xanım cavab verir: Qafqaz türklərinin cəmi bəyzadələri və xanları quldur və soyğunçudurlar, zəhmətkeşliklə işləri yoxdur. Onların yerlərini əllərindən alıb rus mühacirlərinə və yainki Osmanlıdan qaçıb gələn ermənilərə verməliyik. Özlərini dəxi buraxmalı, o yol, o da onlar, qoy hara istəyirlər getsinlər. Və qalanlarının da əsləhəsini (silahlarını) alıb, hüququnu təhdid edib (hədələyib) özlərini də hər halda "zinhar" və sıxıb incitmək... Düşündünüzmü qarelər (oxucular), ürəyi nazik xanımın qəsdi nədir?... Biz türkləri vəhşi heyvan mənziləsində (cildində) tutaraq rəftar etmək.

Əcəba, hansı əhli-insaf (insaf sahibi) belə dəhşətli sözlərdən nifrət etməz? O sözləri yazandan ictinab etməz (kənar durmaz!).

Bədbəxt türklər! Böhtan, kizb (yalan) və iftira altında qol çalan türklər! Biinsaf (insafsız), bimürvət (namərd) və bivicdan (vicdansız) mühərrirlər qələminin oynağı olmuşsunuz. Hər əli qələm tutan sizin barənizdə bir iftira yazmasa olmaz! Əcəba buna səbəb nədir? Qafqaz ixtişaşatıdırmı? Elə isə genə bədbəxt türklər...


ÜZEYİR,
"Həyat" qəz. №62, 10 sentyabr 1905-ci il

"Günay", №39, 1 oktyabr 2005-ci il

TÜRK DÜŞMƏNÇİLİYİ NƏ VAXTA QƏDƏR DAVAM EDƏCƏK?

(Biz fərasətsizik, yoxsa düşmən güclüdür?)

1905-ci il avqustun sonunda Rusiya imperiyasının paytaxtı Peterburqda nəşr olunan rəsmi hökumət "Санк-Петербургские ведомости" (1728-1917) qəzetində qatı şovinist, türk düşməni, ermənipərəst Maqda Neymanın iftira və böhtanla dolu, Qafqaz türklərinə qarşı genosidə səsləyən bir yazısı dərc olunmuşdu. Azərbaycanda və Qafqazda bu azğın və dəhşətli çağırışa qarşı ilk etiraz səsini ucaldan 20 yaşlı Üzeyir Hacıbəyov oldu. "Günay"ın keçən nömrəsində bu yazını oxuculara təqdim etmişdik. Maqda Neyman rəsmi qəzetdə yazırdı: "Qafqaz türklərinin cəmi bəyzadələri və xanları quldur və soyğunçudurlar, zəhmətkeşliklə işləri yoxdur. Onların yerlərini (torpaqlarını) əllərindən alıb rus mühacirlərinə və yainki Osmanlıdan qaçıb gələn ermənilərə verməliyik. Özlərini dəxi buraxmalı, o yol, o da onlar, qoy haraya


СТРОГО СЕКРЕТНО
ОСОБАЯ ПАПКА
Коммунистическая Партия Советского Союза. ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ
№ 060/127
Выписка из протокола № 63 заседания Политбюро ЦК ВКП(б) от 4 апреля 1949 года
О выселении турецких граждан, турок, из районов побережья и Закавказья
1. Обязать Министерство государственной безопасности СССР (Абакумова) выселить проживающих на побережье и в Закавказье всех турецких граждан, турок, не имеющих гражданства, и бывших турецких граждан, принятых в советское гражданство, на вечное поселение в Томскую область, под надзор органов Министерства внутренних дел.
2. Разрешить выселенцам брать с собой личное имущество, домашний скот, семенной фонд, сельскохозяйственный инвентарь и денежные накопления в размере предельной стоимости одного груза до 1.000 килограммов на семью.
3. Обязать Министерство внутренних дел СССР (т.Круглова) обеспечить своевременное выселение, перевозку по железной дороге и выдачу им мест в местах нового поселения в Томской области, включая возможность работы, а также расселение их по деревням и трудоустройство.
СЕКРЕТАРЬ ЦК И.СТАЛИН
Türklərin Qara dəniz sahilləri və Zaqafqaziyadan sürgün

istəyirlər getsinlər. Və qalanlarının da əsləhəsini (silahlarını) alıb, hüququnu təhdid edib (hədələyib) özlərini də hər halda zinhar və sıxıb incitmək...".

XX əsrin ilk onilliklərində Maqda Neymanın arxasında duran erməni daşnak-rus qatı şovinist dairələri öz planlarını tam həyata keçirə bilmədilər. Qafqaz türkləri öz torpaqlarını, milli varlıqlarını qanları, canları bahasına qoruya bildilər. İqtisadi, siyasi, mədəni geriliyi aradan qaldırmaq üçün çox böyük qüvvə və səy göstərdilər. Bu səylər hədər getmədi. 1918-ci ilin mayında Qafqaz türklərinin istinadgahı müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövləti yaradıldı, böyük dövlətlər tərəfindən tanındı. Azərbaycanın tarixi torpaqlarının əksəriyyəti bu dövlətin sərhədləri daxilində toplandı.

Türk düşmənləri 1920-ci il sovet işğalından sonra taktikanı dəyişdilər. Rusiyada bu dəfə Leninin başçılıq etdiyi yeni rus bolşeviklərinin əlilə iş görməyə, birinci növbədə milləti daxildən sinfi mübarizə şüarı ilə parçalamağa girişdilər. Maqda Neymanın bəy və xanların torpaqlarını əllərindən alıb, özlərini dərbədər salmaq planı, onların bir sinif kimi fiziki cəhətdən məhv edilməsi siyasətilə əvəz edildi. Milli satqınların və leninçilərin yağlı vədləri toruna düşənlər dəstəsi yetişdi. Azərbaycan Xalq Cümhuriyyətini rus-erməni silahı gücünə devirdilər. Bir neçə il ərzində 1920-1923-cü illərdə Azərbaycanda ən qeyrətli, savadlı, milli ruhlu təbəqəsinə divan tutuldu, ölüm düşərgələri yaradıldı. Əhalinin sayı xeyli azaldıldı, neçə yüz min azəri və Qafqaz türkü vətəni tərk etmək məcburiyyətində qaldı. Qısa bir zaman kəsiyində Azərbaycan 28 min kvadrat kilometr tarixi ərazisini itirdi. 114 min kvadrat kilometrdən 86,6 min kvadrat kilometrə endi. Qərbi Azərbaycan, Borçalı, Zəngəzur, Dərbənd, Göyçə bu qəbildəndir.

Azərbaycan türklərini Maqda Neyman yazan kimi incitməyə, zinhara gətirməyə, fiziki cəhətdən məhv etməyə yönəldilmiş əməliyyatlara da ara verilmədi. 20-30-cu illərdə qolçomaq, xalq

düşməni, pantürkist, millətçi və s. ittihamları ilə yüzminlərcə soydaşımız məhv edildi, sürgünə, ölüm düşərgələrinə sürüldü. Nəhayət, İkinci Dünya müharibəsi cəbhələrində 350 mindən artıq azəri türkü məhv oldu.

Müharibədən sonrakı illərdə də Qafqaz türkləri yeni təqiblərə məruz qaldılar. Ermənistan və Gürcüstan Moskvanın təhriki ilə Türkiyə Cümhuriyyətinə və hətta Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə başladılar. Antitürk kampaniyası yenidən qızışmağa başladı. Bədnam cəllad Beriyanın oğlu Sergey Beriya atası barəsində "Mənim atam Beriyadır: Stalin hakimiyyətinin dəhlizlərində" adlı kitabında ("Мой отец Берия: В коридорах Сталинской власти" M.2002) yazır: "Stalin Türkiyənin qəti əleyhdarı idi. Lakin bu daha çox Rusiyanın imperiya siyasətinin varislik ənənəsindən irəli gəlirdi. Stalin bizim Türkiyəyə qarşı ərazi tələblərimizlə bağlı mətbuatda təşkil olunan kampaniyaya başçılıq edirdi. Bunun üçün tarixçilər fəaliyyətə keçdilər ki, bu tələbləri əsaslandırsınlar".

Professor Eldar İsmayılov 2003-cü ildə işıq üzü görmüş "Hakimiyyət və xalq (1945-1953)" adlı əsərində belə bir əhvalatı nəzərə çatdırır: "1945-ci ilin payız günlərinin birində M.C.Bağırov Stalinin qəbul otağında ÜİK(b)P Siyasi Bürosunun iki üzvü erməni Anastas Mikoyan və gürcü Lavrenti Beriya ilə qarşılaşdı. Onlar hər ikisi bildirdilər ki, Cənubi Azərbaycan məsələsi artıq həll edilmişdir və Azərbaycan SSR-in ərazisi yaxın vaxtlarda xeyli genişlənəcəkdir. Onlar guya zarafatyana, bəlkə də ciddi mənada ümidvar olduğunu bildirdilər ki, indi M.C.Bağırov səxavətli olacaq və Dağlıq Qarabağın Ermənistana, respublikanın şimalındakı bəzi rayonların isə (Balakən, Zaqatala və b.) Gürcüstana verilməsinə razılaşacaqdır. M.C.Bağırov cavab verdi ki, hələ bu barədə fikirləşmək vaxtı deyil" (səh.293).

Sovet rəhbərliyinin Türkiyə və İrana qarşı ərazi iddiaları boşa çıxandan sonra ermənilər Ermənistanda yaşayan azərbay-

canlılar hesabına torpaqla təmin etmək planını həyata keçirməyə girişdilər. 1947-ci ildə azərbaycanlıların öz tarixi Qərbi Azərbaycan torpaqlarından kütləvi surətdə köçürülməsinə başlandı. Moskva bu siyasətini Azərbaycan rəhbərlərinin əlilə həyata keçirmək və beləliklə, bu mənfur plana haqq qazandırmaq istəyirdi.

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin Stalinin imzası ilə "Azərbaycanlı kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı qəbul edilmişdir. Bu qərara əsasən on minlərcə azərbaycanlı öz ata-baba torpaqlarından köçürüldü. Bu torpaqlar və evlər vaxtilə Maqda Neymanın təklif etdiyi kimi xaricdən gətirilən ermənilərə verildi.

Türkiyə Cümhuriyyəti Qərbin köməyi, öz başçılarının və xalqının qətiyyətilə ərazi bütövlüyünü sovet təhdidindən qoruya bildi. Lakin bu dəfə də Qafqaz türkləri əsas hədəf oldular. Sovet rəhbərliyində hakim mövqe tutan gürcülər və ermənilər rus şovinist qüvvələrilə əlbir olub, türklərin Qara dəniz sahilləri və Zaqafqaziyadan sürgün edilməsi haqqında Siyasi Büronun qərar verməsinə nail oldular.

1949-cu il aprelin 4-də çıxarılmış bu qərarın tam mətni belədir:

"Qara dəniz sahillərində və Zaqafqaziyada yaşayan Türkiyə vətəndaşlarının, vətəndaşlığı olmayan türklərin və sovet vətəndaşlığına qəbul edilmiş keçmiş Türkiyə vətəndaşlarının sürgün edilməsi haqqında" ÜİK(b)P MK Qara dəniz sahillərini və Zaqafqaziyanı siyasi cəhətdən səbatsız ünsürlərdən təmizləmək məqsədilə qərara alır:

1. SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinə (Abakumov) tapşırılsın - Qara dəniz sahillərində və Zaqafqaziyada yaşayan bütün Türkiyə vətəndaşları, vətəndaşlığı olmayan türklər və sovet vətəndaşlığına qəbul edilmiş keçmiş Türkiyə vətəndaşları Daxili İşlər Nazirliyi orqanlarının nəzarəti altında həmişəlik Tomsk vilayətinə sürgün edilsin.

2. Sürgün edilənlərin özləri ilə şəxsən onlara məxsus olan sərvətləri, ev əşyalarını (paltar, qab-qacaq, xırda kənd təsərrüfatı, sənətkarlıq və ev müxəlləfatı) va hər ailə üçün ümumi çəkisi 1.000 kiloqrama qədər ərzaq ehtiyatı götürmələrinə icazə verilsin.

3. SSRİ Daxili İşlər Nazirliyinə (yol.Kruqlov) tapşırılsın - sürgün olunanlara konvoy nəzarəti, onların dəmir yol ilə daşınması və Tomsk vilayətində yeni məskunlaşma yerlərində onlara nəzarət təmin edilsin, qaçma imkanı istisna edilsin, onların yaşamaq üçün məskunlaşması və işə düzəlməsi təmin edilsin.

MK katibi İ.Stalin

Azərbaycan torpaqlarına göz dikənlərin sayı azalmır ki azalmır. Son illərdə onun 20 faizi də işğal olunub. Amma dözürük! İndi türk düşmənçiliyi az qala qlobal səciyyə alsın. Bu neçə əsrlik təhlükəni görməməyin, laqeydliyin, tarixi unutqanlığın acı nəticələri göz qarşısındadır. Əlbəttə, az da olsa tarixçi alimlərimiz içərisində bu tarixi həqiqətləri ortaya çıxarıb ictimaiyyətin diqqətinə çatdıranlar vardır. Bunların içərisində çox böyük fədakarlıq, milli qeyrət və namusla qələm çalan tarix elmləri doktorları, professorlar Cəmil Həsənlinin və Eldar İsmayılovun adlarını çəkmək istəyirəm. Bu yaxınlarda C.Həsənlinin "SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı" sərlövhəli irihəcmli fundamental tədqiqat əsəri işıq üzü görmüşdür. İbrətamiz əsərdir.

Üzeyir Hacıbəyovun 100 il bundan əvvəl yazdıqları bu gün də türklər haqqında deyilə bilər. Görünür, türk dünyası hələ də öz tarixi yerini tuta bilməmişdir. Təəssüf! Çox təəssüf! Amma hadisələrin bu tövr cərəyanı daha uzun sürə bilərmi, əsas məsələ budur!

"Günay", №40, 8 oktyabr 2005-ci il

KİM LAYİQLİ MİLLƏT VƏKİLİ OLA BİLƏR?

(Tarixi təcrübəmizdən)

Azad və ədalətli seçkilər keçirmək bacarığı demokratik cəmiyyətin mahiyyətini təşkil edir, varlığını nümayiş etdirir. Demokratiya təcrübəsi həyatın özünün təcrübəsi kimidir, həmişə dəyişir, rəngarəngliyində məhdudiyyət bilmir, bəzən narahatlıq da yaradır. Azərbaycan ilk seçki təcrübəsini təxminən 100 il bundan əvvəl Rusiyada I Dövlət Dumasına seçkilər vaxtı keçmişdir. Məlumdur ki, 1906-cı ilin yazında Rusiyada ilk dəfə olaraq qanunvericilik orqanı kimi təsis edilmiş Dövlət Dumasına seçkilər keçirildi. Bakı və Gəncə quberniyalarından Dumaya nəmizədlər verildi, geniş müzakirə açıldı. Dövrün mətbuat orqanlarında bu barədə çox maraqlı yazılara, fikir və mülahizələrə rast gəlirik. Seçki sisteminin mürəkkəbliyinə, məhdudiyyətlərinə və s. baxmayaraq Azərbaycan ictimaiyyəti, ziyalılar bu seçkilərə çox böyük diqqət yetirir, yaranmış şəraitdən istifadə edərək ən layiqli ziyalıları, iş bilənləri, müstəqil düşünmək və fikirlərini cəsarətlə ifadə etmək, ən əsası isə milli mənafelərdən irəli gələn problemlərin imkan və şərait daxilində müzakirəyə çıxarılması və müsbət həllinə nail olmağa qüdrəti və gücü çatanları vəkil göndərməyə çalışırdılar. O da məlumdur ki, 1906-cı il aprelin 27-də Peterburqda I Dövlət Duması fəaliyyətə başlasa da, o vaxtkı Yelizavetpol-Gəncə quberniyasında seçki 1906-cı il mayın 16-da, Bakı və Bakı quberniyasında isə mayın 31-də keçirilmişdi. I Dövlət Dumasına Azərbaycandan kimlər seçilmişdi: 44 yaşlı, ali təhsilli hüquqşünas, "Kaspi" qəzetinin redaktoru, ictimai-siyasi xadim Əlimərdan bəy Topçubaşov, 39 yaşlı, ali təhsilli hüquqşünas İsmayıl xan Ziyadxanov, 48 yaşlı,

ali təhsilli kənd təsərrüfatı mütəxəssisi Məhəmmədtağı Əliyev, 40 yaşlı müəllim Əsədullah bəy Muradxanov, 36 yaşlı yazıçı, tanınmış ziyalı Əbdürrəhim bəy Haqverdiyev.

Qeyd edim ki, seçki ərəfəsində Üzeyir bəy Hacıbəyov "İrşad" qəzetində "Vəkillərimiz nə tövr olmalıdır?" sərlövhəli çox maraqlı bir yazı dərc etdirmişdi. Məncə, aradan 99 il keçməsinə baxmayaraq, Üzeyir bəyin millət vəkillərinə öz verdiyi tələbləri indi də öz aktuallığını saxlayır. Mən onu oxumağı, həm də təkcə oxumağı deyil, düşünməyi də ağına-bozuna baxmadan millət vəkilliyinə öz namizədliklərini irəli sürənlərə də məsləhət görürəm. Bəlkə fikirləşələr! Yaxşı bir atalar məsəli var: hər vızıldayandan bal arısı, hər gədadan bəy olmaz. Məncə millət vəkilliyi də belədir. Üzeyir bəy də bunu deyirdi. Faydalı məsləhətdir!

VƏKİLLƏRİMİZ NƏ TÖVR OLMALIDIR?

Bakı quberniyasından da Dövlət Dumasına vəkil seçmək zamanı yetdi: seçiçilər gəlibdirlər ki, öz aralarından adamlar seçib Dövlət Dumasına göndərsinlər. İştə, bütün Bakının və Bakı quberniyasının ümidi yalqız bu adamlara bağlıdır. Çünki əhalinin illərcə yığılıb qalmış və nəzər-diqqət və etibara alınmamış ehtiyacatını rəf etmək bu adamların əlindədir. Lakin əhalinin dərdlərinə dərman, ehtiyacatlarına əncam və çarə aramaq üçün əhali tərəfindən vəkil olub Dumaya getmək nəhayət dərəcə böyük bir əmrdir (işdir) ki, hər kəs bu əmri (işi) əmələ gətirməyi bacarmaz. Ona görə vəkillərimizə lazımdır ki, seçilib Dumaya getmədən əvvəl, öhdələrinə götürdükləri bu əmri-əzimin (böyük işin) barəsində dərin-dərin mülahizə və təsəvvürlərdə bulunub öz istedad və qabiliyyətləri ilə tutuşdursunlar və vicdanlı hökm ittixaz (qəbul) etsinlər. Əgər bu əmri-əzimin (böyük işin) öhdəsindən gələ bilməyəcəyini

qəlbən iqrar edərsə, bu işdən əl çəksin və bu vəzifəni öhdəsindən geri versin.

Əhali tərəfindən vəkil olub, Dövlət Dumasına gedən şəxsə lazımdır ki, onu layiq bilib seçən əhalinin rəfah (xoş güzəran) və səadətinə çalışmağı niyyət edib, yalqız bir bu niyyətin hüsulə gəlməsinə səfi-məsai (çalışıb səy) etsin. Bu yolda heç bir məmaniət (maneə) gərək onun qabağını kəsməsin.

Əvvəla, vəkil olan şəxs gərək əhalinin hər bir ehtiyacatından xəbərdar olsun. Ümumi ehtiyacatımız dürlü-dürlüdür. (Bu ehtiyacat ilə dürüst aşina olmaq üçün vəkillərimiz bu nömrəmizdə mündəric (dərc olunan) "Qafqaz müsəlman vəkillərinin vəzifələri" ünvanda (adlı) məqaləyə artıq-artıq diqqət yetirməlidirlər). Bundan masiva (başqa), əhali neçə-neçə siniflərə bölünür, ümumi ehtiyacatdan savayı, hər bir sinfin özünəməxsus ehtiyacatları var. Bu ehtiyacatlar dəxi vəkil adlanan şəxsə məlum olmalıdır. Əgər vəkil özü mənsub olan sinifin ehtiyacatlarına artıq diqqət yetirib də sair siniflərin ehtiyacatından əğmazi-eyn edərsə (diqqət verməzsə), o surətdə sairlərinin haqqında zülm etmiş kimi olub, onların yanında məsul qalar. Əhali tərəfindən Dövlət Dumasına öz vəkilinin adına göndərilən ərizələrə (petisiya - Ü.H.) vəkil olan şəxs böyük diqqət yetirib müzakirələr əsnasında mövqiə qoyub əncam aramalıdır.

Saniyən (ikinci), əhali ehtiyacatından mükəmməl surətdə xəbərdar olan vəkil bu ehtiyacatı layiq surətdə izhar etməkdən ötrü rus dilinə kəmalən və tamamən dara (yiyələnən) olmalıdır. Məlumdur ki, fəsih (aydın) və bəliğ (ifadəli) surətdə danışmağa qadir olan şəxsin söylədikləri hamının diqqətini cəlb edib heç bir vaxt əsərsiz qalmayır. Dürüst dil bilən adam ürəyində olanın hamısını izhar və ifadə etməyə qadirdir. Onun izharat (izahatı) və ifadatı (ifadə tərzi) da nə qədər ki, fəsih (aydın) və bəliğdir (gözəl üslubdadır), bir o qədər əsərnəzir (təsirli) olub nəzəri-etibardan geri durmaz.

Salisən (üçüncü), əhali ehtiyacatından xəbərdar olub, o ehtiyacatı söyləməyə də qadir olan vəkil gərəkdir ki, heç bir şeydən çəkinməyib və qorxmayıb, hər nə ki, ürəyində vardır hamısını kəmali-cəsarət və cürət ilə izhar etsin. Dövlət Duması öylə bir yer deyil ki, orada utanmaq, qorxmaq, çəkinmək kimi sifətlər vəkil qabağında məmaniət (maneçilik) olub onun niyyət və məqsədi-alisini (ali məqsədinə) xələl yetirə. Bu bir meydandır ki, burada hər bir millət bahadırı öhdəsinə götürdüyü vəzifənin ifa və icrası üçün nə tövr iş görməyi lazım bilirsə, o işləri görməkdə özünü sərbəst, azad və muxtar hesab etməlidir. Vəkil bunu heç bir an unutmamalıdır ki, o, əhalinin ümidgahi-yeganəsidir (yeganə ümidgahıdır). Onu seçib göndərən əhalinin gözü bir tək ondadır. Bu isə vəkilə cürət və cəsarət verib, onu hərdəm (hər saat) ürəkləndirir.

Rabiən (dördüncü), vəkil olan şəxs mənfəəti-şəxsiyyəsini (şəxsi mənfəətini) bilmərrə (büsbütün) kənara atmalıdır. Ümumi əhalinin mənfəətini öz nəfinə (xeyrinə) satmamalıdır. Əhalinin mənfəətini hər bir şeydən əziz tutmalıdır ki, onun hüsuluna (vücuda gəlməsinə) da can və dil ilə çalışsın. Dumada xətir gözləmək, təməllüq (yaltaqlıq) etmək, böyük-kiçik saymaq kimi adətləri bərtərəf edib (aradan qaldırıb), mərd-mərdanə iş görmək lazımdır.

Xamisən (beşinci), bütün əhali ilə vəkil arasında gərək məhəbbət və rabitə olsun. Vəkil əhaliyə biganə olmamalıdır. Əhali dəxi öz sevgili vəkilini Dumaya göndərdikdə ona hər bir halda arxa və tərəfdar olacağını səmimülqəlb izhar etməlidir ki, bu da vəkildən ötrü ürək-dirək olsun. Vəkil gərək əhalinin ona olan ümidinə inansın, əhali dəxi vəkilin vəkilliyə layiq olduğunu dürüst bilsin, ondan sonra da bir-birinə arxa və kömək olacaqlarında əmin olsunlar.

Bu halda Dövlət Dumasının üzvləri, yəni əhali tərəfindən göndərilmiş vəkillər orada neçə-neçə firqəyə bölünübdürlər.

Bizim vəkillərə də lazımdır ki, bu firqələrin birinə özlərin daxil etsinlər. Bu işi biz vəkilin öz vicdan və insafına həvalə ediriz. Əlbəttə, hər bir halda vəkillərimizə lazımdır ki, o firqəyə daxil olsunlar ki, onun məramnaməsi biz əhalinin bütün ehtiyacatını rəf etmək üçün ittixaz (qəbul) oluna bilən məramnaməyə müvafiq ola.

İştə, Bakıya cəm olmuş seçkiçilərimiz öz vəzifələrinin əzəmətini aydın surətdə düşünməlidirlər və sədayi-vicdanə (vicdanın səsinə) qulaq verməlidirlər. Onlar unutmamalıdırlar ki, əhali onların Dumada hər bir əməlinə və hər bir sözünə kəmalihüş və guş ilə diqqət yetirib qulaq asacaqlar. Binaən əleyh (buna görə) əhali məhəbbətini əziz tutmalı və əhali qəhr (hiddət) və qəzəbindən həzər etməlidir (çəkinməlidir).

Üzeyir Hacıbəyov,
"İrşad" qəz., №126, 30 may 1906

"Günay", №41, 15 oktyabr 2005-ci il

İLK MİLLƏT VƏKİLİMİZ, İLK PARLAMENT SƏDRİMİZ

Noyabrın 5-də ilk Rusiya parlamenti - I Dövlət Dumasına xalqımızın seçib göndərdiyi ilk millət vəkilimiz, Dumanın Rusiya müsəlmanlığını təmsil edən 36 nəfərlik Duma müsəlman fraksiyasına rəhbərlik etmiş, 1918-ci il dekabrın 7-də Bakıda Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin ilk iclasında parlamentimizin sədri seçilmiş Əlimərdan bəy Topçubaşovun vəfatının 71 ili tamam olur. XX əsrdə xalqımızın fəxri və iftixarı sayılacaq bu görkəmli tarixi şəxsiyyətin nə anadan olduğu 4 may (1862) günü, nə də mühacirətdə vətən həsrətilə dünyasını dəyişdiyi 5 noyabr günü qeyd edilir, yada düşür. Niyə? Bu çox müəmmalı məsələdir, sovet dövründən qalma xəstəlikdir. Doğrudur, son müstəqillik illərində cümhuriyyətin digər görkəmli xadimləri kimi Ə.M.Topçubaşov haqqında da az-çox yazılmış kitabça və məqalələr vardır. Hər il mayın 28-də o da yada düşür, onun da adı çəkilir. Lakin görülməsi vacib olan işlər daha çoxdur. Bunlardan ən birincisi Ə.M.Topçubaşovun həyat və fəaliyyətini əhatə edən, həm də bütün zənginliyi və əhatəliliyi ilə elmi şəkildə əhatə edilib yazılacaq tərcümeyi-halıdır. Xalqa onun mütəfəkkir, böyük vətənpərvər, istedadlı və bacarıqlı siyasət və dövlət xadimi övladını yaxşıca tanıtmaq lazımdır. Bunun üçün ilk əvvəl Ə.M.Topçubaşov haqqında yazılanları arayıb ortaya çıxartmaq vacibdir. 1934-cü il noyabrın 5-də Ə.M.Topçubaşov Parisdə vəfat etdikdən sonra, onun məslək və əqidə dostları və arkadaşları Azərbaycan mühacirlərinin 1934-cü ilin noyabrından Berlində nəşr

etdikləri "Qurtuluş" jurnalının ilk sayında Ə.M.Topçubaşovun vəfatı münasibətilə redaksiyanın matəm yazısı, M.Ə.Rəsulzadənin bu böyük mücahidə həsr etdiyi yazısı dərc olunmuşdu. "Qurtuluş" məcmuəsində deyilirdi ki, "Cənazə mərasimində Parisdə mövcud bütün azərbaycanlılarla qafqasiyalılardan başqa Ukrayna, Türküstan, istiqlalçı kazaklar kimi Rusiyadan ayrılmaq istəyən milli koloniyaların da bir çox nümayəndələri hazır dayanmışdılar".

"Qurtuluş" məcmuəsinin 2-ci nömrəsində "Əli Mərdan bəy Topçubaşi (Tərcümeyi-halı - 1862-1934)" sərlövhəli iri bir yazı dərc olunmuşdur. Bu, böyük şəxsiyyətin ilk mükəmməl tərcümeyi-halıdır. Onu "Günay"ın oxucularına təqdim edirəm. Vətənə, xalqa xidmət nümunəsi ola biləcək şəxsiyyətin tərcümeyi-halıdır.

ƏLİ MƏRDAN BƏY TOPÇUBAŞİ

(Tərcümeyi-halı – 1862-1934)



İkinci təşrinin (noyabrın) 5-də Parisdə vəfat edən Əli Mərdan bəy Topçubaşi 4 mayis 1862-ci ildə Tiflisdə doğulmuşdur. Onun böyük babasının babası olan Əli Mərdan bəy, son gürcü kralları yanında, bütün topçu qüvvələrinin rəisi və Tiflis qalabəyisi kimi yüksək mövqelər işğal edərdi. Şərq dillərinə böyük vüqufu (bələdliyi) ilə tanınmış olan böyük babası Mirzə Cəfər bəy Peterburq Universiteti tərəfindən əvvəlcə müəllim, sonra professor olaraq dəvət edilmişdi. Mirzə Cəfər bəy 1819-dan 1849-a qədər İran ədəbiyyatı və lisanı haqqında dərslər vermişdir.

Əli Mərdan bəy daha çocuq ikən yetim qalmış və böyük anasının (nənəsinin) himayəsində böyümüşdür.

İlk təhsilini müsəlman məktəbində gördükdən sonra 1-ci Tiflis gimnaziyasına girən mərhum, bu məktəbi 1884-də mükafat ilə birinci dərəcədə ikmal edərək pedaqoji şurasının dilçilik və tarixdəki başarığını təqdir edən xüsusi bir şəhadətnaməsi və Qafqasiya təhsisatı (stependiyasilə) təltif edilmişdir. Bunun nəticəsində Əli Mərdan bəy Peterburq Universitetinin tarix-filologiya fakültəsinə girmişdir. Fəqət bu fakültənin slav (slavyan) dil və şivələrinə verdiyi fəzlə əhəmiyyət bu müsəlman tələbəni təmin etmədiyindən o, eyni universitetin hüquq fakültəsinə girmişdir və bu surətlə ona verilən dövlət stependiyasını da qeyb etmişdir. Əli Mərdan bəy hüquqda oxumaqla bərabər Şərq və tarix fakültələrinin dərslərini dinləməyə dəxi vaxt tapırdı.

Hələ tələbə ikən Əli Mərdan bəy gizli tələbə təşkilatlarında iştiraka başlamışdır. 1887-də, 3-cü kursda ikən universitetdən xaric edilərək Peterburqda yaşamaq haqqından dəxi məhrum edilmişdisə də, professorlarının müdaxiləsi sayəsində ixrac karserlə dəyişdirilmişdi.

Əli Mərdan bəy 1888-də universiteti birinci dərəcədə ikmal edərək (qurtararaq) hüquq elmləri namizədi adı ilə elmi bir ünvan (ad) almağa dəxi müvəffəq olmuşdur. Onun təqdim etdiyi dissertasiya dövlət hüququ, atte (vətəndaşlıq) hüququ, qeyri mənqul (köçürülən) mülkiyyət hüququ və yerli muxtariyyət mövzularında olmuşdur. Universitet Əli Mərdan bəyi hüquq fakültəsində saxlamaq istəmişsə də, buna rus qanunu mane olmuşdur. Məlum olduğu üzrə 1886-cı ilin universitet qanunu xristian olmayanlara universitetlərdə elmi vəzifə tutmağı yasaq edirdi.

Əli Mərdan bəy Tiflisə ovqət edərək (qayıdaraq) məsləki daxilində çalışmağa başlamış, əvvəlcə vilayət məhkəməsi katibi, sonra müstəntiq və sülh hakimi olmuşdur. Eyni zamanda

Tiflis ziraət (kənd təsərrüfatı) məktəbində dövlət hüququ və vətəndaşlıq hüququna dair dərslər verdiyi kimi Qafqasiya hüquq cəmiyyətinin də katibi və kütübxanə müdiri olmuşdur. Hələ lisey tələbəsi ikən mühərrirliklə (jurnalistika) ilə maraqlanan Əli Mərdan bəy 5-ci sinifdə ikən əl ilə yazılı bir neçə nüsxə məcmuə hazırlamışdı. Universitet tələbəsi olduğu zaman isə Qafqasiya qəzetlərinə daima məqalələr yazardı.

Əli Mərdan bəy ədliyyədə 5 il çalışdıqdan sonra rus qanunu mucibincə vəkil olmaq haqqını qazanaraq 1894-də Bakıya köçdü. Və eyni illərdə Azərbaycanın ilk qəzetəçisi və ilk türkcə qəzetə olan "Əkinçi" sahibi məşhur Həsən bəy Zərdabinin qızı Pəri xanımla evləndi. Əli Mərdan bəyin Bakıya köçməsi onun həyatında yeni səhifə açırdı. Çünki Bakı bütün Qafqaz müsəlmanlarının, xüsusilə azəri türklərinin böyük mədəni mərkəzi halına gəlməkdə idi. Burada petrol (neft) sənayesi sürətlə inkişaf edir və yeni bir həyat doğurdu. Müxtəlif əcnəbi ehtirasların qabardığı bu şəhərdə əsil yurd sahibləri olan türklər Əli Mərdan bəy kimi bir adama çox möhtac idilər. Əli Mərdan bəy üçün burada geniş imkanlar və üfüqlər açılırdı.

Əli Mərdan bəy çox gəlirli işləri buraxaraq özünü ictimai-milli işlərə həsr etdi. O, qayınatası Həsən bəylə bərabər bələdiyyə idarəsinə seçildi və orada millətdaşlarının mənafeini müdafiəyə başladı.

Bir müddət sonra Bakı zənginlərindən məşhur xeyirişləyənimiz mərhum Hacı Zeynalabdinin satın almış olduğu "Kaspi" qəzetəsinin başına keçərək Azərbaycan türkünün mədəni, milli, siyasi hüququnu rusca olaraq müdafiəyə başladı. Bu fəaliyyət sayəsində Bakı, yalnız Azərbaycan üçün deyil, bütün Qafqasiya üçün, bütün Rusiya türkləri üçün siyasi və mədəni mərkəz halına gəldi.

Əli Mərdan bəyin "Kaspi" qəzetəsinə verdiyi xarakter rus hökumətini rahatsız etməyə bilməzdi. "Panislamist" "Kaspi" və onun müdiri şübhə altına alındı. 1904-1905-də Rusiya məhkumu

bütün millətləri əhatə edən qurtuluş hərəkatı 30 milyonluq Rusiya türklərini hərəkətə gətirmişdi. Onlar rus hökumətinə ictimai, siyasi, mədəni və iqtisadi mahiyyətdə tələblər ibraz edirdilərdi (verirdilər). "Kaspi" senzuranın zəifləməsindən istifadə edərək daha geniş proqramla nəşr olunmağa başlayırdı. Təəssüf ki, 1905-də Qafqasiyada başlayan və rus hökumətinin törətdiyi və məxsusən təhrik etdiyi erməni-müsəlman qırğını rus hakimiyyətinin zəifləməsindən istifadəni imkansız qıldı. Rusiya dəxi zatən bunu istəyirdi: Qafqasiya millətlərini birbirilə məşğul edərək qurtuluş hərəkatlarını imkansız bir hala salmaq. Buna baxmayaraq Əli Mərdan bəy, Ağa oğlu Əhməd, Əli bəy Hüseynzadə və digərləri yorulmaz bir əzmlə işə başladılar. Fəaliyyət yalnız milli-mədəni sahələrdə deyil, siyasi sahələrdə dəxi özünü göstərməyə başlayır.

Demək olar ki, Əli Mərdan bəyin əsil fəaliyyəti bundan sonra başlamışdır. Bakı bələdiyyəsi o zaman Peterburqa müraciət edərək Bakıya 3 deputat seçmək haqqı verilməsini istəmişdi. 1905 sənəsi nisanında (aprelində) Əli Mərdan bəy bu xüsusda təşəbbüsdə bulunmaq üçün nümayəndə olaraq Peterburqa ezam edilmişdi.

Həmin ilin mayında Əli Mərdan bəy rus hökumətinə bir məruzə ilə müraciət edərək Qafqasiya müsəlmanlarının ehtiyaclarını bildirmişdi. Eyni ildə Əli Mərdan bəy Qaspıralı İsmayıl Mirzə ilə bərabər Edilboyu, Krım, Türküstan və sair yerlərin nümayəndələrini paytaxta çağıraraq türklərə məxsus ümumi bir proqram tənziminə girişdi və ümumi müsəlman konqresinə qərar verildi. Peterburqdan hərəkət etmədən Əli Mərdan bəy yeni təyin olunmuş Qafqasiya valisinə müraciət edərək azəri türkcəsində qəzetə çıxarmaq icazəsini əldə etdi. Bu icazə sayəsində Əhməd bəy Ağa oğlu ilə Hüseynzadə Əli bəyin redaktorluqları ilə Bakıda "Həyat" qəzetəsi nəşrə başlamışdı.

1905 sənəsi avqustunda Əli Mərdan bəy Nijni Novqoroda gedərək Qaspıralı İsmayıl Mirzə ilə Akçura oğlu Yusif bəyin də

iştirak etdiyi Birinci Rusiya Müsəlman Konqresində iştirak və riyasət edir. Bu konqre bütün Rusiya müsəlmanları üçün vahid siyasi bir orqan yaratmağa və bu sayədə müsəlmanların hürriyyət haqlarını müdafiəyə qərar vermişdi.

1906 sənəsi ikinci kanunda (yanvarda) Peterburqda 2-ci müsəlman konqresi vaqe olur. Burada "İttifaq" adlı "müsəlman siyasi firqəsinin nizamnaməsi" qəbul olunmuşdur. Eyni zamanda 3-cü konqrenin çağırılmasına dəxi qərar verilmişdi. Birincidə olduğu kimi İkinci konqredə dəxi riyasət edən Əli Mərdan bəy olmuşdu.

1906-da Əli Mərdan bəy 1-ci Rusiya Dövlət Dumasına (parlamentinə) Bakı məbusu (deputatı) olaraq seçilmişdi. Dövlət Dumasında Əli Mərdan bəyin ətrafına 26 nəfərdən ibarət müsəlman deputatlar toplanaraq, yenə onun başçılığı altında xüsusi bir "müsəlman fraksiyası" təşkil etmişlərdi. Yenə 1-ci Dumada müxtəlif millətlərin nümayəndələri polyaq deputatı Aleksandr Lednijskinin başçılığı altında "Muxtariyyətçilər birliyi" adında bir təşkilat yaratmışdılar. Əli Mərdan bəy bu təşkilatın ikinci rəisi seçilmişdi.

1906 sənəsinin 9 temmuzunda (iyulunda) 1-ci Dövlət Duması buraxılaraq, deputatlar dağıdılmışdı. Bunun üzərinə deputatların əksəriyyəti Finlandiyada Vıborq şəhərinə toplanaraq məşhur "Vıborq Bəyannaməsini" imzalamışlardı. Bu Bəyannaməni imzalayanlar, o cümlədən Əli Mərdan bəy də daxil olmaq üzrə 5 müsəlman deputatı məhkəməyə verilərək 3 ay həbsə məhkum və hər bir siyasi haqlardan məhrum edilmişlərdi, üstəlik Əli Mərdan bəyin "Kaspi" qəzetəsini idarə etmək və mətbəə işlətmək haqları da alınmışdı.

1906 sənəsi yazında Nijni Novqorod şəhərində 3-cü müsəlman konqresi toplanmışdı. Əli Mərdan bəyin riyasət etdiyi bu konqredə Qaspıralı İsmayıl Mirzə, Akçura oğlu Yusif, Sədri Maksudi, Fatih Kərimi, Abdullah Bubi, Sait Girey, Alkin, Ehtiyamov, Səlim Girey, Mirzə Çanturin kimi mühüm şəxsiyyətlər iştirak etmişdilər.

Konqredə "İttifaq" firqəsinin proqramı qəbul edilərək mərkəzi komitə seçilmiş və riyasətinə Əli Mərdan bəy gətirilmişdi.

1908 sənəsi mayında Peterburqda məhkumiyyətini keçirməyə başlayan Əli Mərdan bəy eyni zamanda maarif, müsəlman ruhani təşkilatları və Qafqasiyada zemstvo tətbiqi haqqındakı əsərlərini ikmal etmişdir (tamamlamışdır).

Həbsxanadan çıxdıqdan sonra Əlimərdan bəy 3-cü Dövlət Duması müsəlman fraksiyası rəisi Kitluk-Mühəmməd Mirzə Tevkelov ilə bərabər Edil boyu ilə Sibiryaya səyahətə çıxmışdır. Bu səyahətdən məqsəd, son konqredə qəbul olunan proqram əsası üzərində müsəlmanları birləşdirmək idi.

Əli Mərdan bəy Peterburqda "müsəlman fraksiyası" yanında xüsusi bir büro təşkil edərək deputatlara yardım göstərirdi. 1910-da Rusiyada irticanın şiddətlənməsi üzərinə Əli Mərdan bəy fraksiya bürosundakı işini buraxaraq Bakıya gəlmiş, Qafqasiyada zemstvo işlərilə məşğul olmuş və bütün haqlardan məhrum olduğuna baxmayaraq bu işlə məşğul komisyona dəvət edilərək rəisliyə seçilmişdi.

Əli Mərdan bəy yenidən vəkilliyə başlayaraq az zamanda əski mövqeni əldə etməyə müvəffəq olmuşdu. Fəqət eyni zamanda maarif sahəsində və ictimai işlərdə də çalışmaqda davam etmiş, Bakıdakı "Nicat" maarif cəmiyyətinin rəisi olmuş, "Səadət" məktəbinin fəxri müdiri sifətilə bu məktəbin istiqlalını müdafiə etmiş, din işlərinin bir təşkilat halına gətirilməsinə və bu təşkilatın istiqlalını rus hökümətinə qəbul etdirməyə çalışaraq, nəhayət 1914 sənəsi iyulunda 45 nəfərdən ibarət bir müşavirə dəvətinə müvəffəq olmuşdu. Əli Mərdan bəyin başçılıq etdiyi bu müşavirə 10 gün çalışma nəticəsində Dövlət Dumasına verilmək üzrə bir layihə vücuda gətirmişdi. Hərb başladığı zaman Azərbaycan türkləri və bütün Qafqasiya islamları zahirən sakit görünsələr də, içdən əbədi

olaraq Rusiya əsarətindən qurtarmaq atəşilə dolu idilər. Gələcəyin tarixçisi Azərbaycan türklərinin müharibədən gözlədiyini aydın bir şəkildə meydana qoya bilmək üçün çox mahir bir psixoloq bacarığına malik olmaq məcburiyyətində qalacaqdır.

Qafqasiyada müharibədən ilk ən çox zərər çəkən acar müsəlmanları oldu. Provokatorların yalan raportları üzərinə minlərlə günahsız acarlar zindanlara atılırdı. Əli Mərdan bəy bu xüsusda fəaliyyətə keçərək topladığı material üzərinə Qafqasiya ümumi valisinə bir raportla müraciət etdi və xüsusi bir komissiya təşkilinə müvəffəq oldu. Bu komissiya rus əsgərlərinin müsəlmanlar üzərində icra etdikləri bir çox vəhşət, zülm və barbarlıq sənədləri meydana gətirdi.

1916-da Qafqasiya ümumi valisi zemstvo məsələsini müzakirə üçün Qafqasiya millətlərinin nümayəndələrindən ibarət bir müşavirə çağırdı. Müşavirədə azərbaycanlılarla gürcülər nüfuzlarını təsis edə bildilər. Azərbaycanla Gürcüstan arasında bu yaxınlaşmaya Əli Mərdan bəy hər kəsdən çox səy etmişdi. Məşhur gürcü şairi Akaki Seretelinin dəfn mərasimində Əli Mərdan bəyin irad etdiyi nitqi hər bir gürcü xatırlayır. Əli Mərdan bəy ümumun hüzurunda demişdi ki: "Azərbaycanlıların və bütün Qafqasiya müsəlmanlarının simpatiyası "yaşa və başqasına yaşamaq imkanı ver!" prinsipinə riayət edən, millətin tərəfindədir".

1917 sənəsində çarlıq devrildikdə Əli Mərdan bəyi milli qurtuluş hərəkatının ilk sıralarında görürük. 1917-nin aprelində Bakıda açılan Qafqasiya qurultayına sədrlik etdiyi kimi Əli Mərdan bəy həmin ilin mayında Moskvada açılan bütün Rusiya türklərinin qurultayına dəxi, digər azərbaycanlı deleqatlarla bərabər iştirak, hətta sədrlik etmişdir.

Məlum olduğu üzrə məzkur qurultay yeni Rusiyanın idarə şəklini, məhkum türklərin milli mənafeləri baxımından müzakirə etməkdə idi və bu xüsusda mərkəziyyət və ədəmi mərkəziyyət (tam muxtariyyət) olmaq üzrə iki əsaslı cərəyan

çarpışırdı. Rusiya imperatorluğu içində olan bütün millətlərin milli hüdudları daxilində müqəddəratlarını özlərinin təyini əsasını müdafiə edən və qayəsi tam istiqlaldan ibarət olan ikinci cərəyanı Azərbaycan nümayəndəsi və "Müsavat" firqəsi lideri Rəsulzadə Məhəmməd Əmin bəy müdafiə edirdi. Günlərlə sürən və nəhayət Məhəmməd Əmin bəyin zəfəri ilə nəticələnən bu çox həyati məsələnin münaqişə iclaslarını Əli Mərdan bəy idarə etməkdə idi.

Əli Mərdan bəy 1917 sənəsinin sonuna qədər, yeni təşkil olunan Azərbaycan milli komitəsinin sədrliyində bulunmuş və bu sifətdə həmin ilin avqust ayında Moskvada çağırılmış Rusiya Dövlət müşavirəsində iştirak etmişdir.

Yenə 1917-ci ildə Gəncədə Azərbaycan milli komitələri qurultayı "Müsavat" firqəsilə bərabər müştər bir siyahı tərtib edərək, Rəsulzadə Məhəmməd Əmin bəy, Yusifbəyli Nəsib bəy, doktor Həsən bəy və digərlərilə bərabər Əli Mərdan bəyin də daxil olduğu bu siyahı ilə Rusiya Müəssisan Məclisi seçkilərində iştiraka qərar verilmişdi.

Məlum olduğu üzrə Azərbaycan xalqı səslərini həp bu siyahıda vermiş və bu surətlə istiqlalçı olduğunu açıq və aşkar elan etmişdi.

Bolşeviklərin üsyanı və müvəqqəti hökümətin yıxılması üzərinə Rusiya Müəssisan Məclisinin toplanmadığı məlumdur. Buna müqabil Azərbaycan, Gürcüstan və Ermənistan deputatları Tiflisə toplanaraq bir Seym təşkil etmişlərdir. Azərbaycan deputatlarının bu Seymdəki fəaliyyətini hər kəs bilir. Onların fəaliyyəti sayəsində Seym Qafqasiyanın Rusiyadan ayrılmasına qərar verir və Qafqasiya millətlərinin, istiqlallarını elan edən Milli Şuralar, iştə bu Seymdəki deputatlar tərəfindən təşkil olunmuşdu.

Əli Mərdan bəy xəstəliyi səbəbi ilə Seymin fəaliyyətində iştirak edə bilməmişdir. Eyni zamanda xəstə olduğu zamanlar Bakıda 1918 sənəsinin məlum mart hadisələri baş vermiş, Əli

Mərdan bəy təzyiq və işgəncələrə məruz qalmışdır. Bolşeviklərlə daşnak firqəsi tərtib etdikləri qətliamdan başqa bir çox ziyalılarımızı, hadisədən sonra belə ev-ev axtararaq qurşuna düzürlərdi. Əli Mərdan bəy dəxi bir dəfə tutulmuş, nəhayət Bakı ətrafında olan sayılmaz yerlərdə gizlənməyə məcbur olmuşdu.

Birləşmiş Azərbaycan-Türkiyə orduları Bakı üzərinə yürüdükləri zaman Əli Mərdan bəy qaçaraq qurtuluş ordusuna iltihaq etmişdir.

Əli Mərdan bəy hələ Bakıda bolşevik əsarətində ikən Azərbaycan istiqlalını elan edən Milli Şura onu hökumətə daxil etmişdi, fəqət hanki nazirliyi idarə edəcəyi hələ təyin edilməmişdi. Gəncəyə gəldiyindən bir az sonra Əli Mərdan bəyin ailəsi də qurtularaq Gəncəyə gəlmişsə də o, uzun müddət ailəsilə bərabər olmamışdır. Azərbaycan hökuməti 1918 avqust qərarı ilə Əli Mərdan bəyi əvvəlcə Gürcüstana, sonra da İstanbula fövqəladə səfir olaraq göndərmişdir. O, Azərbaycan istiqlalına aid olan bütün məsələləri həll etmək üçün İstanbulda, Vyana və Berlində təşəbbüsdə bulunacaqdı. Fəqət, 1918 sənəsinin payızında vaqe olan beynəlmiləl mahiyyətdəki hadisə, hərbin bitməsi və barışığın başlaması, fəaliyyət planını radikal bir şəkildə dəyişməyi və yeni vəziyyətə görə yeni bir plan cızmağı əmr edirdi.

Əli Mərdan bəyin İstanbula gəlişindən bir neçə həftə sonra Türkiyə barışığa imza etmiş və Əli Mərdan bəy vəzifəsini ifadan məhrum olmuşdu. Bununla bərabər o, müttəfiq ordularının İstanbula girişindən sonra belə Azərbaycan istiqlalının tanınması və Qafqasiya cümhuriyyətləri arasında konfederasiya təşkili haqqında bir memorandum yazmış və təqdim eyləmişdi. Eyni zamanda o, barışıqnamədə Bakıya və Azərbaycan dəmir yollarına aid maddələrə qarşı protesto edərək, Azərbaycan hökumətinə sormadan yapılan bu aktın Azərbaycan üçün heç bir hökmü olmayacağını bildirmişdi.

1918 sənəsi nihayətində Bakıda Azərbaycan milli parlamenti açılmış, Əli Mərdan bəy qiyabi sədrliyə seçilmişdi. Eyni zamanda Parisdəki sülh konfransına Əli Mərdan bəyin başçılığı ilə bir heyət göndərilməsinə qərar verilmişdir.

Azərbaycan, istiqlalını dünya əfkari-ümumiyyəsinə tanıtmaq və beynəlmiləl təsdiq baratımızı almaq kimi çox böyük və tarixi bir vəzifə yüklənən bu heyət 9 yanvar 1919-da Bakıdan hərəkət edərək həmin ayın 20-də İstanbulda Əli Mərdan bəylə birləşmişdi.

Mayın 12-də İstanbuldan hərəkət edən nümayəndə heyəti Parisə gələr-gəlməz müttəfiq dövlətləri Azərbaycanın keçmişi və hal-hazırı ilə tanış etməyə başlamışdır. Heyət Azərbaycan xalqının qəti iradəsini, istiqlalının tanınacağına olan ümidini anlatmışdı. Bunlarla bərabər Kolçaq və Denikinin hərəkətlərini, ingilislərin Xəzər dənizindəki flotu zəbt etmələrini protesto edən bir çox notalar vermişdir.

Bu fəaliyyət nəticəsində 12 yanvar 1920-də ilk öncə müttəfiqlərin Yüksək Şurası, ondan sonra da Sülh Konfransı Azərbaycan istiqlalını rəsmən tanımışdır.

Sülh Konfransının Azərbaycan istiqlalını tanıtdığı zaman, Klemansonun riyasət etdiyi ictimada Əli Mərdan bəy dəxi hazır bulunmuş və Azərbaycan haqqında ətraflı məlumat verdikdən sonra Şimali Qafqasiya cümhuriyyətinin tanınmasını dəxi müdafiə etmişdi.

Əli Mərdan bəy 1920 sənəsi martında London konfransına, apreldə Romaya, iyulda Spaya getmiş və Azərbaycanın hüquqən dəxi tanınmaq üzrə bulunduğu bir zamanda bolşeviklər ətrafı qana və atəşə verərək barbarcasına məmləkətimizi istila etmiş, millətin bu istilaya qarşı olan müqavimət qiyamlarını qanda və atəşdə boğmuşlardı.

Nümayəndə heyəti Rusiyanın bu vəhşi imperializmini bütün dünya millətləri qarşısında şiddətlə protesto eyləmiş və Azər-

baycanın bolşeviklər tərəfindən təxliyəsini (tərk edilməsini) tələb etmişdir.

1920-ci ilin noyabrında Əli Mərdan bəy Cenevrəyə gedərək Azərbaycanı Millətlər Cəmiyyəti qarşısında müdafiə etmişdir. Bundan sonra Əli Mərdan bəy arkadaşları ilə bərabər 1922-də London və Genuya və 1923-də Lozan konfranslarına gedərək Azərbaycanın milli mənfəətlərini müdafiədə bulunmuş, bu sayədə məsələn, Genuya konfransı bolşeviklərin Azərbaycan adından söz söyləməyə səlahiyyətləri olmadıqlarına qərar vermişdir.

Bütün bu fəaliyyətləri zamanı Əli Mərdan bəy daima Qafqasiya cümhuriyyətlərinin nümayəndələrilə birgə fəaliyyətdə bulunmuş və Azərbaycan kimi istiqlal savaşında olan bu millətlərin bərabər yürümələrini hər daim müdafiə etmişdir. Yalnız Qafqasiya millətlərilə deyil, istiqlallarını öz millətinin istiqlalı qədər sevdiyi Türküstan və Ukrayna ilə dəxi orta olan ehtiyacı ta ilk gündən bəri təqdir edən yenə Əli Mərdan bəy olmuşdur.

Ukraynanın Şərqi Avropanın gələcək qurtuluşunda böyük bir amil olacağını o, heç bir zaman nəzərdən uzaq tutmazdı. Unutmazdı ki, 40 milyon nüfuza malik azad Ukrayna, qonşusu olan Qafqasiyanın azadlıq və istiqlalı üçün lazım amillərdən biridir. Əli Mərdan bəy çox yaxşı bilirdi ki, müstəqil və azad qonşuya malik olan Birləşmiş Qafqasiya daima hürriyyətini qorumağa müqtədir olacaqdır. Əli Mərdan bəy üçün Türküstan qardaş məmləkəti, Azərbaycanın şərqində olan bu qardaş ölkənin azad və müstəqil olması Azərbaycanın və bütün Qafqasiyanın istiqlalı üçün, Ukrayna istiqlalı qədər ən lazımlı şərtlərdən biridir.

Həyatının son çağlarında Əli Mərdan bəy bütün gücünü və bacarığını bu yolda sərf edirdi. Yurddan uzaq, mühacirət həyatı, ehtiyac və zərurət, yorulmaq bilməyən bir fəaliyyət, sevgili övladının ölümü və s. mənəvi sarsıntılar onu yormuşdu. Qanın cərəyanı pozulmağa başlayırdı. İki il əvvəl xəstələndi. Bununla bərabər o, müqəddəs istiqlal bayrağı altında və milli birlik uğrunda çalışmaqdan yorulmadı. Yalnız Azərbaycan sahəsində deyil, bütün Qafqasiya və bütün "Prometey" millətləri cəbhəsində bu birliyi təmin üçün o, son nəfəsinə qədər çalışdı. Və ölümündən tam üç ay əvvəl 50 illik fəaliyyətinin qayəsini təşkil edən milli istiqlalın vəsiqələrindən ən mühümünü, Qafqasiya Konfederasiyası əhdnaməsini imza etdi.

O, bu son vəsiqəni titrək əlilə imza edərkən, bütün azəriləri və bütün qafqasiyalıları bir bayraq altında birləşdirmək işini başaracağına dərin bir iman bəsləyirdi. O, gücünə inanırdı və fəaliyyətində davam edəcəyinə əmin idi. Yaxşılaşırdı və həkimlər də ona ümid verirdilər. Fəqət tale başqa cür həll etdi və bazar ertəsi noyabrın 5-də yeni bir ürək tutması bu yorulmaz vücudu yıxdı və Əli Mərdan bəy gözlərini qapadı. Noyabrın 8-də pəncşənbə günü yad torpaqlar onu qoynuna aldı və məzarı üzərində Əli Mərdan bəyin vəsiyyətlərini, həyat və fəaliyyətini təqdir edənlərin gətirdikləri çiçəklərdən böyük bir yığın vücuda gəldi.

"Qurtuluş" məc. №2, 1934, səh.47-52

"Günay", №42, 43, 44;
22, 29 oktyabr; 4 noyabr 2005-ci il

AZADLIQ VERİLMİR, ALINIR!

1905-ci il oktyabrın 17-də çar II Nikolayın məşhur manifesti elan olundu. Bu tarixdən 100 il keçir. Rusiyada ilk xalq inqilabı nəticəsində əldə olunmuş bu manifestlə əlaqədar olaraq yüzlərcə məqalə, şərh, əsər və xatirə yazılmış və indi də yazılmaqdadır. Nə üçün? "Füyuzat" jurnalında bununla əlaqədar dərc olunmuş bir analitik məqalədə yazılırdı. "Bizə deyirlər ki, çirkaba daş atma, üzərinə sıçrar!". Biz də bu sözü bir hikmət zənn edərək atmıyoruz. Lakin bir müddətdən bəri... ətrafımız çirkabla dolmağa başladı. Bu çirkabların qoxusu, üfunəti getdikcə artıyor... Çirkaba daş atmalıdır, həm də doluncaya qədər daş atmalıdır, mümkün qədər böyük daşlar atmalıdır, qayalar yuvarlatmalıdır. Daş, qaya kafi deyildir! Oraları tibbin tövsiyə etdiyi zəhərli-zəhərli mikrob öldürücü təvaddi-əfniyyə (öldürücü maddələr) ilə doldurmalı, üzərinə neft tökməli, sonra da atəş yağdırmalı, taki, üfunətdən, üzviyyati-sariyyəsindən (sirkayətedici, yoluxucu üzvlərindən) bir əsər qalmasın! Fədai lazımdır, fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafəli fədai! İngilis, amerikan kimi tizrəftar (cəld hərəkət edən), yeni yaponlar kimi kütahdamən (ətəyi kitablı) fədailər!" (№23,1907)

17 oktyabr manifestinin rusca mətni oktyabrın 22-də "Бакинские губернские ведемости" (1894-1916) qəzetinin 42-ci nömrəsində dərc edilmişdi. Bütün Rusiyanı bürümüş inqilabi hərəkatın ən qaynar nöqtələrindən olan Bakıda bu manifest əvvəlcə, əsasən razılıq hissi ilə qarşılanmışdır. Söz, mətbuat, vicdan, yığıncaq, ittifaq və s. azadlıqlar, şəxsiyyətin və mülkiyyətin toxunulmazlığı və xalqın Dövlət Dumasında və ölkənin idarə olunmasındakı iştirakına dair vədlər ümidvericilik hissi yaradırdı. Çarın manifestinin ana dilinə tərcümə edilmiş mətni - "высочайшие манифест" - "Xətti hümayun" sərlövhəsi ilə oktyabrın 25-də "Həyat" qəzetində dərc edildi. Qəzetin baş redaktorlarından olan Əli bəy Hüseynzadə bu münasibətlə "Hürriyyət" sərlövhəli iri həcmli bir məqalə vermişdi. Azadlıq yolunun çox cəfalı, məşəqqətli, daşlı-kəsəkli, qanlı-qadalı olduğunu çox böyük publisistik məharətlə təsvir edən müəllif yazırdı: "Azadlıq yolunda neçə-neçə zəkalar, dühalar, dühayi-müəzzəmlər, dostayevskilər, çernişevskilər məhbəslərdə, qürbətlərdə, sürgünlərdə, Sibiriya çöllərində, hər növ iztirabatı, hər növ əzab və cəfanı qəbul etdilər." Yazı azadlığı vəsf edən aşağıdakı cümlə ilə bitirdi: "İnsanlara bilaferq lisan (dil), şivə, bilaferq din və məzhəb, bilaferq qövm və millət, əfkar və amalın həvayi-nəsimində (müstəqil şəkildə) sərbəst nəfəs almağa müsaidə edən sənsən, sən! Yaşa hürriyyət, yaşa!"

"Həyat" qəzeti yazırdı ki, "Avropayi-Qərbi keçən əsrlərdə hürriyyətlərini, ancaq sellər kimi axıdılan qanların bahasına qazanmış idilər." Qəzetin redaktoru Ə.Hüseynzadə oktyabr manifesti və ümumiyyətlə Rusiya inqilabi ilə əlaqədar "Rusiya inqilabının əhəmiyyəti-aləmiyyəsi" (ümumdünya əhəmiyyəti) sərlövhəli bir baş məqalə yazmışdı (1905, №120). Son 5 əsrdə dünyada, xüsusilə Amerika, Fransa və Avropada respublika uğrunda xalq hərəkatını və onun nəticələrini ciddi təhlil edən və qiymətləndirən müəllif yazırdı ki, "Dörd-beş yüz ildən bəri avropalı qonşularımızın gözləri müstəqbələ (qabağa), gələcəyə mətuf (meylli) ikən, biz gözümüzü hənuz mazidən (keçmişdən) ayıramadıq. Biz hətta xatırımızdan çıxartdıq ki, maziyi (keçmişi) görmək, bilmək, ancaq istiqbalı, təriqeyi-atiyi (gələcək yolu) təyin üçün bizə lazımdır!..."

Müəllif rus inqilabı ilə yaranmış şəraitdən maksimum faydalanmağa çağırırdı "bu hərəkata qarşı laqeyd durmayalım!

Cərəyanı-ümumiyyəyə qatılmamız, iştirak etməmiz lazımdır" - deyirdi.

100 il bundan qabaq çar manifesti ilə vəd edilmiş azadlıqlar indi də tam şəkildə həyata keçirilə bilmir. "Həyat" qəzetinin sonralar yazdığı kimi: "Hürriyyət hənuz (hələlik) sözdə qalmışdır. Felən (işdə) təqərrür etməmişdir (həyata keçməmişdir)... Köhnə üsuli-idarənin məmurları hənuz qəti ümid etməmişlərdir (ümidlərini kəsməmişlərdir)... Əl altından ortalığı qarışdırmaqda davam edirlər. Rusiyanın bu günlərdəki halı hürriyyət səadəti deyildir..."

Bir əsr bundan əvvəl yazılmışlara nəsə əlavə etmək çətindir.


17 oktyabr manifestinin qəzetlərdə dərc olunmuş mətnini oxuculara təqdim edirəm.

XƏTTİ-HÜMAYUN (ƏLAHƏZRƏTİN MANİFESTİ) ELANİ-RƏSMİ

Lütvi-İlahi ilə Biz İkinci Nikolay Ümumrusiyanın hökmdarimütləqi, Polşanın padşahı, Finlandın veliki knyazı və sair və sairə...

Bizim bilcümlə (hamı) təbəəi-sadiqəmizə (sadiq təbəələrimizə) elan ediriz ki:

1. Paytaxtlarımızda və məmaliki-imperiyamızın bir çox yerlərində vaqe şuriş (qiyam) və həyəcanlar qəlbimizi əzim (böyük) bir kədərlə məşhun etdi (doldurdu). Rusiya padşahının xeyir və səadəti naqabil (hədsiz) dəxi bir irtibat ilə (bir növ dərəcə ilə) millətin xeyir və səadətinə bağlı olub millətin yas və qəmi padşahın yas və qəmidir. Bu gün vüquə gələn (baş verən) həyəcanlardan millətdə əzim (böyük) bir intizamsızlıqla hökumətimizin tamamiyyət və vəhdətinə (birliyinə) qarşı bir təhdid zühuru mümkündür. Vəzifeyi-hökmdari ilə xidmət üçün böyük bir əhdü-peyman (öhdəyə götürülmüş) bizə əmr ediyor ki, dövlət üçün bu qədər təhlükəli olan bir şurişin (hərc-mərcliyin) səriən (surətlə) qət (ləğv) olunmasına əqlü hikmət (şüurlu düşüncə) və hökmü hökumətimizin cəmi qüvvəsi ilə qeyrət edək. Aid olan hökumətə fərman etdim ki, şuriş və iğtişaşın, nizamsızlıqların, cəbr və təzyiqin vüqu və zühurunu bərtərəf etmək üçün tədbirlərdə bulunub sülhpərvər adamları əmin və asayiş içində hər kəsin mükəlləf bulunduğu öz vəzifəsini ifaya məyyal (artıq meyl edən) adamları vəqayə və müdafiə etsinlər və həyat və məişəti düvəliyyədə (dövlət yaşayışında) sülh və səlahi (asayişi) təmin uğrunda tərəfimizdən iraə (təqdim) edilən tədabiri-ümumiyyəyi bər (üzrə) müvəffəqiyyətlə mövqei-icrayə qoymaq (vaxtında yerinə yetirmək) üçün biz hökuməti-aliyyənin cəhd və qeyrətini birləşdirməyi əlzəm (lazım) və vacib gördük.



Biz hökumətin öhdeyi-vəzifəsinə həvalə ediyoruz ki, bizim mətin və sabit olan iradımızı ənfas edib (nüfuz edib) əhaliyə hürriyyəti-şəxsiyyəyi-həqiqiyyə, hürriyyəti vicdan, hürriyyəti-kəlam, hürriyyəti-ictima (yığıncaq azadlığı) və ittifaq üsul və qavaidinə (qaydalarına) ibtina və istinad edən hürriyyəti-mədəniyyənin naqabil təğyir olan ərkan (dəyişikliklərə mane olan vəzifəli şəxslər) və əsasını əta etsinlər.

2. Əvvəlcə qərar verildiyi üzrə Dövlət Duması intixabatını (seçkisini) tətil etməyib (təxirə salmayıb) Dumanın yovm ictimainə (təşkil gününə) qədər qalan müddətin azlığına görə o

nisbətdə bir imkan dairəsində Dumaya iştirak etdirmək üçün əhalinin hüquqi-intixabiədən (seçki hüququndan) qətiyyən məhrum olan sinfini dəxi haman indi cəlb etməlidir və hüquqi-intixabiyeyi-ümumiyə əsasının bundan sonra irəliləyib tərəqqi etdirilməsini yeni təsis olunan tənzimat (izlahat) və vəzi-qəvanin (təsis edilən qaydaların) üsuluna məhvəl (həvalə) etməlidir.

3. Naqabili-təğyir (dəyişikliyə mane olan) bir qaidə hökmündə tutmalıdır ki, Dövlət Dumasının tənsib (uyğun hesabetmə) və təsdiqi olmaqsızın heç bir qanunun hökm və qüvvəti olmasın və millət tərəfindən seçilən məbusların (vəkillərin), tərəfimizdən təyin olunan ümərai-hökumətin (hökumət əmrlərinin) əfal (işlər) və icraatları müvafiq qanun və nizam bulunmasını təftiş və nəzarət etmək xüsusuna iştirak edib müdaxiləyihəqiqiyyədə bulunmaları imkanı təmin edilsin.

Rusiyanın bilcümlə (bütün) sadiq övladını dəvət ediriz ki, vətənə qarşı olan öz vəzifələrini yadlarına salsınlar, indiyədək misli eşidilməmiş olan bu iğtişaşa xatimə çəksinlər (son qoysunlar) va bizimlə birlikdə vətən torpağında sülh va asayişin yenidən təqərrürü (sabitləşməsi) uğrunda cəmi qüvvətlərini toplayıb cəhd və qeyrət etsinlər. Bədəlmiladi-İsa (Miladdan sonra) 1905-ci və hökmranlığımızın 11-ci sənəsi oktyabr ayının 17-ci günü Peterqofda əta olundu.

Xətti (manifestin) mətnində əlahəzrət imperatorun öz dəstxəttilə böylə imza edilmişdir:

NIKOLAY,

"Həyat" qəzeti №87, 25 oktyabr 1905

"Günay", №46, 19 noyabr 2005-ci il

"ƏKİNÇİ"nin LAYİQLİ DAVAMÇISI

Azərbaycan mətbuatı və jurnalistikası, ictimai-siyasi və fəlsəfi fikir tarixində 1905-ci il dekabrın 17-dən 1908-ci il iyunun 25-dək Bakıda ana dilində nəşr edilən "Gündəlik siyasi, ədəbi, elmi, iqtisadi və ictimai türk dilində müsəlman qəzeti" "İrşad"ın xüsusi tarixi yeri və rolu vardır. I rus inqilabının yüksəlişi günlərində, çar II Nikolayın 17 oktyabr manifestilə yaranmış əlverişli şərait dövründə Azərbaycan ziyalıları və iş adamlarının səyi ilə yaradılmış mətbuat orqanlarından biri məhz "İrşad" oldu. Qəzetin müdir və sahibi-imtiyazı (ixtiyar sahibi) Şuşanın maarifpərvər və mütərəqqi ziyalı mühitində böyümüş, Tiflis gimnaziyasında, Sankt-Peterburq Texnoloji İnstitutunda, Fransanın ən şöhrətli Sarbonna Universitetində təhsil almış, ilahiyyatçı alim, hüquqşünas, siyasətçi, redaktor, jurnalist və publisist, doqquz dil bilən görkəmli və istedadlı ziyalı Əhməd bəy Ağayev, naşiri isə Ə.Hüseynzadənin sözləri ilə desək "qeyrətli bir nocəvan" İsa bəy Aşurbəyov idi. Göstərdiyimiz müddət ərzində "İrşad"ın 525 nömrəsi işıq üzü görmüşdür. Qəzet adətən 3-5 min tirajla çıxır, təkcə Azərbaycan və Qafqazda deyil, Rusiyanın bir sıra türk-müsəlman əhalisi yaşayan bölgələrində, hətta bir sıra xarici ölkələrdə də az miqdarda olsa da alınırdı.

"İrşad", 1905-ci ilin iyunundan Bakıda nəşr olunan gündəlik "Həyat" qəzetilə birlikdə tariximizin çox gərgin və məsuliyyətli bir dövründə milli ziyalıların qüvvə və səylərini birləşdirən,

azadlıq və tərəqqi yolunu işıqlandıran qərargah, mərkəz idi. "İrşad" qəzetinin əməkdaşları və fəal müəllifləri sırasında Ü.Hacıbəyov, M.Ə.Rəsulzadə, N.Nərimanov, Ö.F.Nemanzadə, F.Ağazadə, Q.Qarabəyov, M.S.Axundov, A.Sur, M.Hacınski, S.M.Əfəndiyev, F.Köçərli, M.Ə.Sabir, M.Hadi, H.S.Ayvazov və b. görürük. Bütövlükdə qəzetin fəaliyyəti dövründə onun səhifələrində 250-dən artıq müxtəlif imzaya rast gəlmək olur.

"İrşad" sözünün lüğəti mənası, "doğru yol göstərən" deməkdir. Qəzet bu funksiyanı çox böyük məharətlə həyata keçirmişdir. Qəzet "Hürriyyət, Müsavat, Ədalət" şüarı ilə nəşr olunurdu. "İrşad"da onun baş redaktoru Əhməd bəy Ağayevin 150-dən artıq imzalı və bir o qədər də imzasız çox qiymətli yazısı, mən deyərdim ki, öz qiymətini və aktuallığını hifz etməkdə olan əsəri dərc olunmuşdur. Təəssüf ki, bu zəngin xəzinə bu vaxtadək Azərbaycan oxucusuna ayrıca kitab halında nəşr olunub çatdırılmamışdır. Qəzet redaktorunun müavini və qəzetin məsul katibi 20-23 yaşlı Üzeyir bəyin "İrşad"da 100-dən artıq publisistik məqaləsi və "Ordan-burdan" ümumi başlığı altında 200-dən çox felyeton və satirik miniatürü dərc olunmuşdur. Bütövlükdə "İrşad"da yuxarıda adlarını çəkdiyimiz və çəkmədiyimiz müəlliflərin dərc olunmuş əsərlərini toplayıb çap etsək 15-20 cildlik "İrşad" kitabxanası yaratmaq olar. Həm də XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi fikir tarixinə dair ən sanballı vəsait əldə etmiş olarıq.

"İrşad"ın nəşri haqqında ilk elmi-tarixi rəy söyləyən böyük mütəfəkkir alim, yazıçı, jurnalist və publisist Əli bəy Hüseynzadə olmuşdur. 1905-ci il dekabrın 19-da, yəni "İrşad"ın nəşrə başlamasının 3-cü günü "Həyat" qəzetində dərc olunmuş həmin yazını oxuculara təqdim edirəm.

"İRŞAD"

Bu günlərdə şəhərimiz iki vəqəənin (əhəmiyyətli hadisənin) şahidi oldu. Bu vəqələr müsəlmanca "İrşad" və rusca "Fəhlə və Əmələ Vəkilləri Şurasının əxbarı" ("Известия Совета Рабочих Депутатов") namilə iki yeni və gözəl qəzetələrin intişara (nəşrə) başlamasından ibarətdir. "Həyat" dəxi zatən məsləkini məzkur "Şura əxbarının" məsləkinə tovfiq edib (uyğunlaşdırıb) mündərəcatının əmələ (işçi) və fəhlənin və ələlxüsus füqərayi-kasibənin (proletarların) mənfəətinə həsr edəcəyindən "Şura əxbarı" davam etdikcə oradakı məqalələri bol-bol tərcümə edib, ya o amalda (məzmunda) məqalələr yazıb, qareini-giramə (hörmətli oxuculara) ərz edəcəyindən və bu surətlə hər kəsi onun əfkarına (fikirlərinə) aşina (tanış) etmiş olacağından, biz bu günkü məqaləmizdə, ancaq "İrşad" haqqında bir neçə söz söyləmək istəriz.

Biz "İrşad"ın zühur (meydana çıxması) və intişarını (nəşrini) ən səmimülqəlb təbrik edəriz. Çünki "İrşad"ın zühuru həyati-milliyyəmizdə qayət mühüm bir xitvəyi-tərəqqidir (tərəqqi addımıdır). Hətta deyə bilərəm ki, bu xitvənin (addımın) əhəmiyyəti əxirən (keçənlərdə) sair şəhərlərdə sahəyi-intişara çıxan qəzetələrin zühurundan dəxi ziyadədir (artıqdır). Bu dərəcə mühüm bir vəqeə (əhəmiyyətli hadisə) bizim şəhərimiz üçün olsa-olsa "Əkinçi" qəzetəsinin zühuru idi. "Əkinçi" qəzetəsi bir zamanda çıxmış idi ki, o vaxt müsəlmanca heç bir qəzetə yox idi. Hətta cəmaətimiz qəzetə nədir? - onu belə bilmiyordu. Əgər qəzetə millətin, cəmaətin gözü isə, o cəmaəti birgözlü edən Həsən bəy həzrətləri idi. İştə, cəmaəti ilk dəfə də ikmali məxluqat (daha kamil yaradılmış) olan insan kimi "Həyat" ilə bərabər ikigözlü edən "İrşad" olmuş oluyor. Gərçi cəmaət üçün insan kimi ikigözlü olmaq da az olub yunan xürafatındakı (əfsanələrindəki) Arqos kimi "Yüz göz" - sədçeşm olmaq lazımdır. Lakin bu günkü halımızda bizim üçün ikigözlü ola bilmək də bir səadət sayılmalıdır. Streoskop (müsəlmanca

"mücəssəmbin" iki eyni şəkli hər iki gözlə baxdıqda bir şəkil kimi göstərən optik cihaz - Ş.H.) deyilən aləti şübhəsiz qarelərimizdən çoxu görmüşdür. Görmüşsə biliyor ki, əşya və əcsami (şeyləri və cisimləri) hali-təbii və həqiqəsində mücəssəm (görkəmli) göstərə bilmək üçün bu alət cüftə (qoşa) misilli fotoqraflara müraciət ediyor. Bu iki fotoqrafdan biri sağ və digəri sol gözə məxsusdur. İştə şəhərimizin cəmaəti də hadisati-dəhri (əsrin hadisələri) və şüuni-aləmi (dünya işləri) iki qəzetə vasitəsilə iki tərəfli seyr və tamaşa edərsə, şübhəsiz o şüuni (işləri), o hadisatı daha dürüst, daha mücəssəm (ətraflı) və mükəmməl bir surətdə görmüş olur. Ələlxüsus, böyük bir inqilab dövrü olan bu günlərdə hər halda bir neçə gözlü olmaq zəruridir. Şəkk və şübhə yoxdur ki, "İrşad" ilə "Həyat"ın fikirlərində çox kərələr ixtilaf olacaqdır. Məbadə cəmaətimiz bu ixtilafi-əfkarı (fikir ayrılığını) ittihadsızlığa (birlik əleyhinə), ittifaqsızlığa həml edə (yoza)! Xeyr! Ancaq ixtilaflarının vücudilə həqiqət təcəlla (üzə çıxar) və təzahür edər, müsadiməyi-əfkardan bariqəyi-həqiqət parlamaqda (fikirlərin toqquşmasından həqiqət qığılcımı parlamaqda) olduğu hər kəscə müsəlləmdir (qəbul olunmuş aksiomadır). Elm və həqiqətin ən böyük, ən şərəfli dostlarının belə hər zaman əfkar və arasında ixtilaf olmuşdur. Ərəstü-Əflatuna (Aristotel-Platonla), Calinos-Əbu Qırtasə, Əbu Əli Sina-ibn Rüşdə müxalif idilər!... Bütün bu günkü elektrik bariqələri (parıltıları) italiyalı Volta ilə Qalvanın ixtilafı arasından çıxdı!... Binaənəleyh (buna görə) cəmaətə, millətə lazım olan, mücahidlərin, mürşidlərin, dəlillərin (yol göstərənlərin) ittihadi-əfkarı (fikir birliyi) deyil, bəlkə ittihadi-qülub (qəlb birliyi), ittifaqi-hissiyyati-qəlbiyyələridir!... Qəlbən "Həyat"ın "İrşad" ilə müttəhid (əlbir) və müttəfiq bulunduğuna və bulunacağına kimsə şübhə etməsin!...

"İrşad"ın bu gün çıxan birinci nömrəsini böyük bir zövqi-ruhani ilə mütaliə etdik, möhtəviyyatı (məzmunu) mündəricatı pək gözəl və müfid (faydalı), üslub və şivəsi pək şirin!...

Başda Bakı ruhani məclis üzvü, fazil və möhtərəm axundlarımızdan Molla Ağa Əlizadə həzrətlərinin bir təbriknaməsi bədə (sonra) Molla Məhəmmədzadə həzrətlərinin mənidar (məzmunlu) bir məqaləsi, sonra rüfəqamızdan (dostlarımızdan) sabiq baş mühərririmiz Əhməd bəy Ağayevin "İslam və Hürriyyət" sərlövhəli bir bəndi ki, bunda hürriyyət nemətı islamın şərtlərindən biri olduğu mükəmmələn isbat ediliyor. Daha sonra "İrşad"ın məsləki haqqında bəzi izahat və ilx... Bu babda (hissədə) deyilir ki: qəzetənin məsləki, əshabi-kəhfin (padşahın zülmündən qaçanların) yüzlərcə il yatıb oyandıqdan sonrakı ovza (vəziyyət) və əhvalını bəyan edər kimi olacağından, "qum, qum ya əyyühəlqafilun" (dur, dur ey qəflətdə olanlar) sözünü virdi-zəban (dildə əzbər) edib təkrar etməkdən ibarətdir. Niyyətimiz diyir: "İrşad" millətimizi, cəmaət hürriyyəti, cəmaət muxtariyyəti nemətlərindən müstəfiz (feyzyab) etmək və bu nemətlərin bizə bəxş olunmasına bais olan ərbabi elm (elm xadimləri) və qələmin, fəhlə və əməlinin (zəhmətkeşin), kasıbların, əhl-sənət və ziraətin (əkinçinin) hüquq və mənafeini müdafiə eləməkdir. Bundan başqa "İrşad" Qafqaziyada sakin tayfaları, ələlxüsus ermənіləri və müsəlmanları sülh və müsalimətə (barışığa), ittifaq və ittihada (birliyə) dəvət edəcəkdir ki, vətənimiz bu surətdə irəlidə böyük bir təhlükədən xilas olub hürriyyət və mədəniyyətin cəmi nemətlərinə nail olsun.

"Həyat", "İrşad"ın bütün bu niyyətlərinə təhsinxah olub (tərəfdar olub) cənab haqqdan təmənna və istirham (xahiş) edir ki, "İrşad"ın məsləkində müvəffəq buyursun!...Ancaq "İrşad" qəzetəsi əshabi-kəhf fəqərəsində (əhvalatında) bir maddəyi xatırlarından çıxarmasınlar. Məlumdur ki, əshabi-kəhf (gizlənmiş şəxslər) oyandıqdan sonra "karvanın dalınca sürətlə getsələr" dəxi karvana yetişməyəcəklərini bildiklərindənmi, yoxsa başqa bir səbəbdənmi, hər nədənsə təkrar mağaraya gedib bəstəri-xabı (yataq yuxusunu) tərcih etdilər (seçdilər)!...

"İrşad" millətimizi naümid (ümidsiz) etməsin. Bildirsin ki, bu gün atla, ya dəvə ilə səyahət edilmiyor. Dəmir yollar, avtomobillər kimi vəsaiti - nəqliyyə mövcuddur. Binaənəleyh (buna görə) hər an sürətlə teyyi-mərahil (mərhələli yol) edib irəlidə gedən qafilələrə (karvanlara) yetişmək mümkündür... Təkrar əshabi-kəhf kimi uyumağa heç lüzum yoxdur.

"İrşad"ın hürufat kimi və mürəttib qələtləri kimi bəzi qüsurları varsa da, bu xüsusda şübhəsiz məzurdur (üzürlüdür). Çünki, hənuz idarə və mətbəə işlərini yoluna qoymamışdır. Bir də dəmir yolların, teleqrafların ümumən tətil etdiyi böylə bir zamanda vəlou (hətta) nəvaqisli (nöqsanlı) olsun qəzetə çıxara bilmək hər halda böyük bir hünər və qeyrətə vabəstədir (bağlıdır). İnşallah, "İrşad" bu nöqsanları da qəribən (tezliklə) islah edər. Baqi (daima) qəzetənin hər xüsusda xeyirxahi olub, ümid ediyoruz ki, mürşid (düz yol göstərən) və müridləri (onun ardınca gedənləri) ilə bərabər "İrşad" din və millət və insaniyyət yolunda cəhd və qeyrət xüsusunda bizim ilə həmdəst vifaq (həmfikir yoldaş) olaraq çalışacaqdır!

"İrşad"ın müdir və sahibi-imtiyazı (ixtiyar sahibi) Əhməd bəy Ağayev kimi, kamil bir publisist və naşiri İsa bəy Aşurbəyov kimi qeyrətli bir novcəvan olduqca buna əmniyyətimiz bərkəmaldır (ümidimiz tamamdır).

Dər biyaban kər ze şovqe-Kəbə
xahi zəd qədəm,
Sərzənişha kər dəhəd xare-moğilan qəm məxor!...

(Əgər Kəbənin həvəsilə biyabanda istəsən qədəm vurasan, Dəvə tikanı əgər səni dalasa da qüssə yemə!)

Ə.H-zadə

(Əli bəy Hüseynzadə) "Həyat" №121, 19 dekabr 1905.

"Günay", №50, 17 dekabr 2005-ci il

MƏTBUATIMIZIN YUBİLEYLƏR İLİ

2006-cı ili Azərbaycan mətbuatının yubileylər ili adlandırmaq olar. Yüz il bundan əvvəl bütün Rusiyanı bürümüş demokratik hərəkat nəticəsində zorla əldə edilmiş müvəqqəti azadlıq imkanlarından istifadə edən xalqına və millətinə namus və qeyrətlə xidməti həyatlarının mənası bilən ziyalılarımız milli oyanış və dirçəlişin, demokratiya və siyasi mədəniyyətin qüdrətli vasitəsi olan milli mətbuat orqanlarının yaradılmasına çox ciddi səy və enerji sərf etməyə başladılar. Bu işə onlar mənəvi və maliyyə imkanları və rəsmi dairələrdə nüfuzu olan iş adamlarını da cəlb etməyi bacardılar. Məlumdur ki, inqilabın ilk ilində - 1905-də Bakıda 28 illik fasilədən sonra Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşovun, həmçinin məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin imkanları və səyilə iyun ayında "Həyat" adlı gündəlik qəzet nəşrə başladı. Həmin il dekabrın 17-də Ə.Ağayevin baş redaktorluğu ilə ikinci bir gündəlik qəzet - "İrşad" işıq üzü gördü. Bundan əvvəl Tiflisdə nəşr olunan M.Şaxtaxtlının "Şərqi-rus"u (1903-1905, yanvar) nəşrini dayandırmış, Bakıda isə gənc M.Ə.Rəsulzadənin başçılıq etdiyi gənc hümmətçilər "Hümmət" adlı gizli qəzetin 5-6 nömrəsini çıxara bilmişdilər. Zaqafqaziyanın inzibati mərkəzi olan Tiflisdə Azərbaycan dilində mətbu orqanın olmaması, rus, gürcü və erməni dillərində dövri mətbuat orqanlarının sayının sürətlə artması və onların bəzilərinin səhifələrində islam və türklərə qarşı aparılan düşmənçilik kampaniyası çox vaxt cavabsız qalırdı. Tiflisdə yaşayan və fəaliyyət göstərən azərbaycanlı ziyalılar, birinci növbədə "Şərqi-rus" qəzetinin əməkdaşları və yerli müəllifləri bu vəziyyəti nizama salmaq üçün ciddi səy göstərirdilər. Bu sahədə Cəlil Məmmədquluzadə və Ö.F.Ne-

manzadənin təşəbbüsləri xüsusilə nəzərə çarpırdı. Lakin mətbuat orqanı nəşrinə icazə almaq nə qədər müşkül idisə, onun nəşri və yayılması üçün maddi imkanlar əldə etmək ondan da müşkül idi. Lakin siyasi qəzet nəşr etməyin qarşılaşacağı çətinlikləri, oxucu auditoriyasının lazımınca formalaşmadığı bir şəraitdə, Bakıda iki gündəlik siyasi, ədəbi, ictimai qəzetin: "Həyat" və "İrşad"ın fəaliyyət göstərdiyi bir vaxtda Tiflisdə də bu tipli qəzet nəşr etmək ideyasından - yəni C.Məmmədquluzadənin "Novruz" adlı qəzet nəşrindən imtina edib satirik, şəkilli həftəlik "Molla Nəsrəddin" jurnalı üzərində dayanması təsadüfi deyildir. Bu il aprelin 7-də məşhur "Molla Nəsrəddin" jurnalının nəşrinin 100 ili tamam olur. 25 illik bir dövrdə, yəni 1906-1931-ci illərdə jurnalın Tiflis (1906-1917), Təbriz (1921) və Bakıda (1922-1931) 723 nömrəsi buraxılmışdır. Bunlardan 370-i Tiflisdə, 8-i Təbrizdə, 345-i isə Bakıda. Biz bu rəqəmləri ona görə diqqətə çatdırırıq ki, Azərbaycan Sovet Ensiklopediyası kimi mötəbər nəşrdə C.Məmmədquluzadənin atasının adı kimi (Məmmədqulu əvəzinə Hüseynqulu yazılıb) jurnalın buraxılmış nömrələri haqqında da dəqiq olmayan rəqəmlər verilmişdir. Yazılanlardan belə çıxır ki, guya jurnal Tiflisdə 1918-də çıxmışdır. Yaxud "25 il ərzində 748 nömrəsi-340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda çıxmışdır" (bax.ASE c.VII səh.37).

Təkcə Azərbaycanda, Zaqafqaziyada, Rusiyada deyil, Yaxın və Orta Şərqdə uzun müddət qabaqcıl oxucu təbəqəsinin, bəzən ən sadə adamların belə rəğbətini qazanmış demokratik fikir cərəyanının mübariz orqanı "Molla Nəsrəddin"in 100 illik yubileyi xüsusi qeyd ediləcəkdir və bu barədə seriya məqalələr də veriləcəkdir.

2006-cı ildə mətbuat tariximizdə xüsusi yeri və çəkisi olan həftəlik "Füyuzat" jurnalının nəşrinin (1906.1.XI-1907.1.XI) 100 ili tamam olur.

Bu il nəşrə başlamasının 100 ili tamam olan mətbuat orqanlarından biri də "Bakinski raboçi" qəzetidir. Rusiyada və keçmiş SSRİ ərazisində bu yaşda olan və nəşrini indi də davam etdirən qəzeti heç barmaqla da saymaq olmaz. 1906-cı ilin mayında gizli şəkildə ilk nömrəsi buraxılan "Bakinski raboçi" Azərbaycan mətbuatı və jurnalistikası tarixində dövrün və zamanın bütün təzadlarını özündə əks etdirən mətbuat orqanıdır.

1906-cı ildə iki dildə, Azərbaycan və erməni dillərində açıq nəşr olunan sosial-demokrat qəzeti "Dəvət-Qoç" (1906.26.V.-6.VIII), uşaqlar və müəllimlər üçün həftədə bir dəfə çıxan "Dəbistan" (1906.16.IV - 1908.10.III), həftəlik siyasi-iqtisadi, ədəbi qəzet "Təkamül" (1906.10.XII - 1907.26.III) qəzetlərinin nəşrə başlamasının 100 ili tamam olur. Bu mətbuat orqanları böyük bir mənəvi xəzinəni bizim üçün hifz edib saxlayan çox qiymətli tarixi sənədlərdir. Mən təəssüf hissilə qeyd etmək istəyirəm ki, onlar müasir gənclik üçün qapalı bir xəzinədir. Hətta 100 il ərzində "Molla Nəsrəddin" kimi sözün həqiqi mənasında heç vaxt xeyir və faydasını itirməyən bir jurnalın tam mətni dəfələrlə qəbul edilən qərar və sərəncamlara baxmayaraq müasir oxucunun oxuya biləcəyi əlifbada nəşr edilməyibsə, yalnız son illərdə cəmi bir neçə cildi (1996,2002) buraxılıbsa buna necə qiymət vermək barədə çətinlik çəkirəm.

2006-cı il mətbuatımızın yubileylər ilidir. Məncə görüləsi işlər, dəqiqləşdiriləsi məqamlar, nəzərə çatdırılması vacib problemlər həddən artıq çoxdur. Yubileylər təkcə müəyyən standart tədbir günləri kimi deyil, mütərəqqi mətbu irsə sahib çıxmaq, ondan faydalanmaq ruhunda keçirilməlidir. Atalar yaxşı deyiblər ki, hal-hazırın kökü keçmişdədir, keçmiş gələcəyin iynəsidir, keçmişinə söykənməyən millətin gələcəyi olmaz.

"Günay", №5, 4 fevral 2006-cı il

XALQA "ÖZ CAMALINI" GÖSTƏRƏN MƏTBU ORQAN



Bu il aprelin 7-də "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 100 ili tamam olur. Nəşrinin bir ili tamam olmamış, yəni 1907-ci il fevralın 17-də jurnalın müdir və baş mühərriri Cəlil Məmmədquluzadə "İdarədən" sərlövhəli gələcək nəslə müraciətində yazırdı:

"Ay 100 il bundan sonra dünyada yaşayan nəvə və nəticələrimiz! Bəlkə 100 il bundan sonra "Molla Nəsrəddin"in köhnəlmiş və qat yemiş vərəqləri tozlanmış və çürümüş kitabların içindən çıxıb düşə əlinizə və oxuyasınız! Mən qorxuram ki, siz o vədə deyəsiniz ki, "bu rəhmətlik Molla Nəsrəddin bizim rəhmətlik babalarımıza böhtan deyib, çünki, bu yazdığı əməlləri heç qədim əsrlərdə Germaniyanın çardaq altında yaşayan millətləri də tutmazdılar!".

Ey xoşbəxt nəvə və nəticələrimiz! Qorxuram belə deyəsiniz!".

Ötən 100 ilin 25 ilində, yəni 1906-1931-ci illərdə "Molla Nəsrəddin" müəyyən fasilələrlə nəşr olunub, yaşayıb: 1906-1917-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda. Bu üç dövrün nəşrləri, əlbəttə bir-birindən müəyyən dərəcədə fərqlənir. Lakin Mirzə Cəlilin məqsəd və qayəsi, xalqının keçmişinə və gələcəyinə dərin inamı, onun

tərəqqisinə mane olan, gözlərini şirin yuxu ilə xumarlandıran, mübarizəyə olan inamını zəiflədirən, xəyallar aləmində dolaşdıran mürtəce qüvvələrə qarşı şiddətli satira atəşi heç vaxt zəifləməmişdi.

Məlumdur ki, Yaxın və Orta Şərqdə neçə yüz illərdən bəri Molla Nəsrəddin, Xoca Nəsrəddin ədəbi obrazı folklorda xüsusi yer tutmaqda idi. Bu obrazın tarixi şəxsiyyət, yaxud xalq yaradıcılığının ümumiləşdirilmiş komik obrazı olması barədə mülahizələr də uzun illərdir davam edir. Birinci rus inqilabı dövründə Cəlil Məmmədquluzadə və onun qələm dostlarının səyi ilə işıq üzü görmüş və qısa bir müddətdə şöhrət qazanmış "Molla Nəsrəddin" jurnalı bu obraza yeni həyat vermiş, yeni, mübariz bir hürriyyət və tərəqqipərəst mollanəsrəddinçilər nəsli yetişdirmişdi. Bu nəslin sərkərdəsi və bayraqdarı Azərbaycan Molla Nəsrəddini - Cəlil Məmmədquluzadə idi.



Cəlil Məşədi Məmmədqulu oğlu Məmmədquluzadə 1866-cı il fevralın 10-da (köhnə hesabla) Naxçıvanda anadan olmuşdur. (Təəssüflə qeyd edək ki, Azərbaycan Sovet Ensiklopediyasında yazıçının atasının adı Hüseynqulu kimi getmişdir (bax-cild VI, səh.494). Halbuki, Hüseynqulu onun ata babasıdır).

Atası Naxçıvan şəhərinin sakini Məmmədqulu Məşədi Hüseynqulu oğlu, anası Sara Məşədi Baba qızıdır. O ki, qaldı Mirzə Cəlilin anadan olduğu göstərdiyimiz tarixə onun yaradıcılığı və tərcümeyi-halının ən dəqiq və elmi tədqiqatçısı, Mirzə

Cəlili şəxsən tanıyan və təmasda olan professor Əziz Şərif bu barədə "Molla Nəsrəddin" necə yarandı" adlı fundamental əsərində (1982) yazmışdır: "Zaqafqaziya Müəllimlər Seminariyasının fondunda tapdığımız bu sənədlər haqqında dövri mətbuatda dərc etdirdiyimiz məqaləmizdən sonra Azərbaycanda əvvəllər göstərilən təxmini tarix 1869-cu il, rəsmi sənəddə qeyd edilmiş 1866-cı il tarixi ilə əvəz edildi" (bax səh.36). Deməli, bu il fevralın 10-da (təzə üsulla 22-də) C.Məmmədquluzadənin anadan olmasının 140 illiyi də tamam olacaq.

Mirzə Cəlil sonralar öz uşaqlıq xatirələrini aşağıdakı acı etirafla başlayırdı: "Gözümü ömrümdə birinci dəfə açan kimi dünyanı qaranlıq görmüşəm". Yeddi yaşlı Cəlil əvvəlcə yerli mollaların yanında dərs almışdır. Ərəb əlifbası və fars dilini öyrənmiş, sonra atası onu Naxçıvanda şəhər rus məktəbinə vermişdir. 1882-ci ildə məktəbi müvəffəqiyyətlə bitirib və elə həmin il Qori şəhərində olan Zaqafqaziya Müəllimlər Seminariyasının "tatar" şöbəsinə daxil olmuşdur. 1887-ci ildə seminariyanı bitirmiş və 1897-ci ilədək İrəvan quberniyası kəndlərində müəllimlik etmişdir. İlk əsərlərini - "Çay dəstgahı" (1889), "Danabaş kəndinin əhvalatları"nı (1894) da məhz bu dövrdə yazmışdır. M.Cəlil 1895-ci ildə Moskva və Peterburqa getmiş, bu şəhərlərin mədəni həyatı və mətbuatı ilə tanış olmuşdur.

C.Məmmədquluzadə 1903-cü ilin dekabrında xəstə həyat yoldaşının müalicəsi üçün İrəvandan Tiflisə gəlir. Tiflisdə həmyerlisi, mart ayından burada "Şərqi-rus" adlı qəzet nəşr edən tanınmış ziyalı Məhəmmədağa Şaxtaxtlı ilə görüşür. Bu görüş onun həyat və mübarizə yolunu dəyişir. M.Cəlil Tiflisdə qalır, "Şərqi-rus" qəzetinin fəal əməkdaşı və əsas müəlliflərindən biri olur. Tiflis cəmiyyəti, qabaqcıl, mütərəqqi demokratlar cəmiyyəti onun dünyagörüşünə güclü təsir bağışlayır. 1904-cü ilin

noyabr-dekabr aylarında M.Cəlil hətta qəzetin müvəqqəti redaktoru da olmuşdur. Müxtəsər desək, M.Cəlil ilk jurnalistika məktəbini "Şərqi-rus"da keçmiş və hətta çox böyük uğurla və yaradıcılıq təcrübəsilə keçmişdir. Elə "Molla Nəsrəddin" jurnalı da "Şərqi-rus" mətbəəsində işıq üzü görmüşdür. Qəzet 1905-ci ilin yanvarında nəşrini dayandırdıqdan sonra M.Cəlil öz dostları ilə birlikdə bu mətbəəni satın almış, adını "Qeyrət" mətbəəsi qoymuşdu. "Molla Nəsrəddin"in 1-ci nömrəsində birinci səhifədə "Tiflisdə "Qeyrət" mətbəəsi" sərlövhəli elanda oxuyuruq:

"Bir ildir Tiflisdə açılan "Qeyrət" mətbəəsində türkcə, farsca, ərəbcə, rusca və firəngcə hər növ kitab, məcmuə və hər cür tüccar və divanxana, dəftər və kağızları ən gözəl hərf ilə çap edilir. Hər şəhərdən poçta ilə sifariş qəbul olunur və tezliklə təb edib göndərmək təəhhüd olunur".

Bax, belə bir beş dildə nəşr etmək imkanı olan mətbəədə "Molla Nəsrəddin" jurnalı intişara başlamışdı.

"Günay", №5, 4 fevral 2006-cı il

"MOLLA NƏSRƏDDİN" JURNALI NƏDƏN VƏ NECƏ YAZMAĞA BAŞLADI?

Yüz il bundan əvvəl nəşrə başlamış, əsrin dörddə biri qədər ömür sürmüş " Molla Nəsrəddin" eyni adlı böyük bir fikir cərəyanı, inqilabi demokratik ədəbi-jurnalist hərəkatı vücuda gətirmişdir. "Bu fikir cərəyanı və ədəbi-jurnalist hərəkatın əhəmiyyəti, gözəllik və qüvvəsi, hər şeydən əvvəl milli-azadlıq hərəkatından ilham almasında və ona xidmət etməsində, Azərbaycan torpağına, onun qəhrəmanlıq tarixinə, zəngin mənəvi sərvətinə, habelə dünya xalqlarının humanist mədəni irsinə bağlı olmasındadır" (Ə.Mirəhmədov).



Demokratik maarifçilik və mütərəqqi xalqçılıq meylləri mühitində yetişən, zəngin əməli təcrübə keçmiş, xeyli müddət xalq maarifi sahəsində bilavasitə cəfakeşliklə fəaliyyət göstərmiş Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin birgə səyi və gərgin zəhmətlərilə yaranmış bu satirik jurnal ilk nömrəsindən, özündən əvvəl yaradılmış mətbuat orqanlarından əsaslı surətdə fərqlənməyə başladı. Həm də təkcə xarici görkəmi, rəngarəng mövzuları, janrları ilə deyil, sosial-estetik idealının mahiyyəti, dil-üslubu, hadisə və faktlara

yanaşmaq, onları şərhetmə tərzi, lakonizmi ilə, xüsusilə xalq yumor və satirası ilə möhkəm mənəvi bağlılığı və satirik sənətkarlıq təbiəti ilə fərqləndi. Jurnalistikamızın bu yeni istiqaməti onun kütləvilik və maarifçilik vəzifələrini ifadə etmək baxımından çox böyük kəşf idi. Jurnalın elə 1-ci nömrəsinə nəzər salaq.

"Molla Nəsrəddin"in 1906-cı il 7 aprel tarixli 1-ci nömrəsində M.Cəlilin "Molla Nəsrəddin" imzası ilə "Tiflis. 7 aprel" sərlövhəli baş məqaləsi, "Məcmuəmizə müştəri olanlara nəsihət", ""Molla Nəsrəddinin teleqramları", "Bilməli xəbərlər", "Dəllək", "Atalar sözü", "Molla Nəsrəddinin poçta qutusu", "Həyat" qəzetinin 65-ci nömrəsindən "Lisan bəlası" sərlövhəli yazılar, 4 müxtəlif karikatura və bir neçə elan dərc olunmuşdur. Həcmi kiçik formatda - 7 səhifədir. Həftədə bir dəfə nəşri nəzərdə tutulmuşdu.

Proqram səciyyəli baş məqalədə oxuyuruq:

"Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə.

Çünki hükəmalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər.

Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb gözlərinizi yumub o qədər xa-xa edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəklərinizlə üz-gözünüzü silib "lənət şeytana" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.

Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxınız camalınıza.

Sözümü tamam etdim, ancaq bircə üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən siz ilə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dilində danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir, amma hərdən bir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyərdi və siz qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırı biçarə ananız sizə deyirdi: "Bala, ağlama, xortdan gələr, səni aparar" və siz dəxi canınızın qorxusundan səsinizi kəsib ağlamaqdan sakit olurdunuz.

Hərdənbir ana dilində danışmaq ilə keçmişdə gözəl günləri yad etməyin nə eybi var?"

Birinci nömrədə ikinci mühüm yazı - **"Məcmuəmizə müştəri olanlara nəsihət"**dir, nədir bu nəsihətlər:

- Müştəri olmaq üçün əvvəlcə istixarə etmək;
- Yazılan məktubları polad qələm və rus mürəkkəbilə deyil, qəmiş qələm və Təbriz mürəkkəbi ilə yazmaq;
- Göndərilən pullara poçta qulluqçularının əlləri dəyməməlidir, yoxsa idarə onları yuyub suya çəkməyə məcbur olar;
- Məktubları elə bir dildə yazmaq lazımdır ki, bir dənə türk kəlməsi olmasın;

Müştəri olmaq gününü seçməyi bilmək, bacarmaq lazımdır. Bunu isə müəyyənləşdirmək müşkül məsələdir.

Nömrədə növbəti yazı **"Molla Nəsrəddinin teleqramları"**-dır. Bu sərlövhə altında qısa, lakonik 8 teleqram mətni verilib, onlardan 2-si Peterburqdan, 2-si Təbrizdən, 1-i Tehran, İstanbul, Şamaxı və Naxçıvandandır.

Peterburqdan martın 29-u və 30-da alınan teleqramlar:

- Bütün Rusiya məmləkəti sakitlikdir, qurd quzu ilə otlayır;
- Burada belə söyləyirlər ki, Orenburq müftiliyinin mənsəbinə senator Çerivanski təyin olunacaq. Orenburq müftisi cənab Sultanov jandarm qulluğuna keçir.

İstanbul - Küçə ilə gedən vaxt öskürməyi Osmanlı hökuməti əhaliyə qədəğən edib.

Şamaxı - Müsəlmanlar tərəqqi etməkdədirlər. Bir rus aptekçisinə izn verilib qiraətxana açsın, bu şərt ilə ki, türkcə orada bir şey oxunmasın.

Naxçıvan - Kazaklar general qubernatordan təvəqqe edirlər ki, onlara patron əvəzinə çoxluca işpiçka göndərilsin və s.

Teleqramlarla yanaşı 3-cü səhifədə çox maraqlı bir "Bilməli xəbərlər" adlı yazı verilib: "Molla Nəsrəddin nəzr edib məcmuəsini il başınadək göndərsin o şəxslərə ki, bu aşağıdakı suallara cavab yazıb göndərə idarəmizə:

1) O hansı şəhərdir ki, qlava divanxanasının iki nəfər müsəlman vəkilinin cümləsi bisavad və məhz biri, ancaq hıqqana-hıqqana adını yaza bilir?

2) Bir qabdan ki, sünni məzhəb su içə, o qabdan şiə məzhəb su içə bilər, ya xeyr, o qabı yuyub təmizləmək lazımdır, ya xeyr?

3) Göydə ulduz çoxdur, yoxsa müsəlman bazarında qumarxana?

4) Yas evinə plov yemək üçün zor ilə hücum edən molları, ağlamaqdan ötrü cəm olan övrətləri rədd etməyin çarəsi nədir?

5) Harada bir elə təlim kitabı ələ gətirmək olar ki, müsəlman uşağına türk dilində savad öyrətmək mümkün ola?

6) Tənbəllik və qeyrətsizlik hansı məmləkətin karxanalarından çıxır?"

100 il sonra da "Molla Nəsrəddin"in bu klassik sualları müəyyən mənada aktual deyilmi? Doğrudan da axırıncı sualın cavabını hələlik indinin özündə də cavablandıran və açıq şəkildə bildirənə rast gəlməmişik! Tənbəllik və qeyrətsizlik karxanası yenə də işləmirmi?! Bu karxanalar bağlanıb, ya fəaliyyətlərini davam etdirir?

Jurnalın 1-ci nömrəsində onun ümumi proqramı ilə səsləşən 4 mühüm karikatura verilmişdir. 1-ci səhifə boyu məscidi xatırladan otaqda müsəlmanlar sıra ilə yan-yana yatırlar, onlardan yalnız biri otağın kiçik pəncərəsindən düşən günəş şüasının təsirindən oyanıb gərnəşir. Molla əlində əsası, başında əmmaməsi, çiynində əbası bu mənzərəni seyr edir. 3-4-cü səhifələrdə verilən şəkillərin altında məzmunla əlaqədar aşağıdakı sözlər yazılmışdır: "Mən ölüm, götür bu heyvanları, ver o tüfəngi mənə", "Pojalusta, davay rujyo, vozmi denqi", "Dəllək".

Nəhayət, 6-7-ci səhifələrdə "Atalar sözü", "Molla Nəsrəddinin poçta qutusu" və "Həyat" qəzetinin 65-ci nömrəsindən "Lisan bəlası" sərlövhəli satirik felyeton.

"Molla Nəsrəddin"in ilk nömrəsi çox böyük maraqla qarşılandı. Elə 100 il sonra da maraqla oxunur. Axı, jurnalın toxunduğu problemlərin bir qisminin aktuallığı qeyd etdiyimiz kimi indi də qalır, həllini gözləyir.

"Günay", №6, 11 fevral 2006-cı il

MİRZƏ CƏLİLİN USTA ZEYNALI MOSKVADA POLİTBÜRODA

1988-ci il fevralın 22-də Sov.İKP MK-nın baş katibi M.S.Qorbaçov MK-da məsul şöbələrdən birində işləyən erməni Karen Nersesoviç Brutensə şəxsən zəng edib deyir: "Karen, sən gərək Stepanakertə gedəsən. Orada xalq coşub". Əslən bakılı, qəlbən şovinist-daşnak, əməlcə hiyləgər və riyakar, Azərbaycanı, onun xalqını gözü götürməyən Karen özünün yazdığı kimi, "Fevralın 25-də biz - mənim dəvət etdiyim Marksizm-Leninizm İnstitutunun direktor müavini professor Mçedlov, "Novosti" Xəbərlər Agentliyinin sədr müavini K.Xaçaturov və mən təyyarə ilə Bakıya yola düşdük. Burada Sov. İKP MK tərəfindən DQMV-yə göndərilmiş bir qrup alimin hazırladığı materiallarla tanış olduq". Həmin günün axşamı Karenin dəstəsi təyyarə ilə Ağdama uçur. Görün o, Ağdamda onları qarşılayan və yedizdirənlər barədə əclafcasına nə yazır: "Biz Ağdamda təyyarədən düşdük. Oradan maşınlara minib Stepanakertə getməli idik. Lakin rayon partiya komitəsinin katibi israrla "toqqanın altını bərkitməyi" təklif etdi və mən Şərq adətlərinə bələd olduğum üçün razılaşdım. Qonaq evində "xidmət heyətindən" olan iki nəfərin televizor qarşısında əyləşdiyini gördüm. Ekranda Xomeynini göstərirdilər (ikinci təəssürat!)" (Bu Xomeyni işarəsinə diqqət verin!) Karenin Stepanakertdə xoşuna gəlməyən növbəti məsələ SSRİ daxili işlər nazirinin müavini, general B.Elisovun erməni daşnak dəstəsinə dediyi açıq sözlər olur: "Bu küçə tamaşaları nə vaxt başa çatacaq?".

Karen erməni "ziyalıları" ilə söhbətlərindən müəyyən "seçmələri" yadında saxlayıb, qələmə alır. Məsələn, yazır ki, "Pedaqoji İnstitutun dosenti azərbaycanlıları "çuçmek" (avam kəndli) adlandırır və ermənilərin üstünlüyünü sübut edərək bildirirdi ki, onlar "dünyada ilk dəfə - 301-ci ildə xristianlığı dövlət dini elan etmiş və elə həmin əsrdə öz əlifbasını yaratmışlar."

Karen Qorbaçovun köməkçisi A.Çernyayevlə əlaqəyə girir, rəhbərliyə daşnakpərəst məlumat verir və nəticədə ondan belə bir göstəriş alır: "Qorbaçov mənə "xeyir-dua verir" və tapşırır ki, mitinq keçirənlərə deyim: a)Qarabağda nümayişləri və bütün hərəkatı "millətçi" və "ekstremist" kimi qiymətləndirən əvvəlki qərar ləğv edilir; b)Qarabağlıların arzu və iddialarına baxmaq üçün komissiya yaradılacaq və bu komissiyaya aparat işçiləri deyil, özlərinin qərəzsiz mövqeyi ilə tanınmış nüfuzlu ictimai xadimlər daxil olacaqdır".

Karenin oyunları tam baş tutmasa da, əlindən gələni öz daşnak həmkarlarından əsirgəmədən Azərbaycanı tərk edib gedir, o yazır: "Faktiki olaraq heç bir nəticə əldə edilməmiş, lakin çox ibrətamiz səfərdən Moskvaya qayıdandan sonra mən bu səfərin yekunları və öz təəssüratlarım barədə M.S.Qorbaçova məruzə etdim". Karen baş katibə 12 maddədən ibarət yazılı hesabat da təqdim edir. Məhz bu hesabatda Mirzə Cəlilin usta Zeynalından da söhbət açılır. K.N.Brutensin 1998-ci ildə Moskvanın "Mejdunarodnıe otnoşeniya" nəşriyyatı tərəfindən çap edilmiş "Otuz il Köhnə meydanda" adlı avtobioqrafik kitabında həmin hesabat və C.Məmmədquluzadənin hekayəsi barədə oxuyuruq.

"Məktubda mənim hesabatımla birlikdə Qorbaçova göndərdiyim kitabçanın (C.Məmmədquluzadənin hekayələr məcmuəsinin) adı çəkilir. Qorbaçov 1988-ci il martın 3-də Siyasi Büronun iclasında bu kitabça barədə danışmışdı. 1983-cü ildə

Bakıda buraxılmış bu kitabçanın 1989-cu ildə kütləvi tirajla təkrar nəşr edilməsi nəzərdə tutulmuşdu. "Saqqallı uşaq" hekayəsində erməni Muğdusi Akopun mənzilini təmir edən azərbaycanlı usta Zeynal (master Zeynal) və onun köməkçisi, azərbaycanlı Qurban arasında belə bir dialoq olur:

"Ustalar yetişdilər Muğdusi Akopun evinə və yarım saatdan sonra usta Zeynal çıxdı taxtanın üstünə. Qurban başladı gəc qayırmağı və söhbəti.

- Usta, bizim xozeyn yaxçı adama oxşayır.

Usta Zeynal gəci ləyəndən sağ əli ilə götürüb cavab verdi:

- Yaxçı adam olmağına yaxçı adamdı, Allah dinə gətirsin, amma nə fayda?!...

- Usta, mən bir şeyə mat qalıram, yaxçı ermənilər bu aşkarlıqda zadı görmürlər? Bunlar niyə bəs dönüb musurman olmullar?

-Usta Zeynal gəci mala ilə səqfə vurub dedi:

- Qurban, bu işlər hamısı sirdir. Bunları heç başa düşmək olmaz. Bunlar hamısı Allah yanındadır, çünki belə fərz elə, ermənilərin hamısı çönüb müsəlman oldu, onda cəhənnəmi Allah kimdən ötrü xəlq edib və kimi ora göndərəcək? Bu işlərin hamısının bir səbəbi var, yoxsa ermənilər çox yaxşı bilir ki, bizim məssəbimiz onlarınkından yaxçıdı. Xüdayi-əzz və cəll...

- Usta, sözünü də kəsirəm, hələ deyək ki, musurman olmasınlar, mən bilirəm bunlar hələ necə donuz ətindən irgənmirlər?

Usta Zeynal malanı qoydu taxtanın üstünə, çubuğu götürüb başladı doldurmağa və alçaq səslə dedi:

- Mən deyirəm ki, ermənilər özləri də görürlər ki, donuz ətində bir ləzzət yoxdu, amma boyunlarına düşüb, ta əl çəkə bilmirlər. Nə eləsinlər yazıqlar? Adamın adam xörəyi olar, hey-

vanın da heyvan xörəyi. Və bir də bunlar hamısı Allahındır. Gəl ləyəni götür, gəc qayır!

Qurban çıxdı nərdivana və başladı:

- Bəli, qıl körpüdən keçəndədi tamaşa!... Usta Zeynal çubuğunu tüstülədib başladı:

- Qurban, bilirsən nə var? İşin əsli-haqq yolu tanımaqdadır, insan ki, haqq yolu tapdı, insan ki, xudayi-taalanın...

Muğdusi Akop içəri girib dinməz-söyləməz baxdı usta Zeynalın üzünə. Usta Zeynal üzünü Muğdusiyə tutub soruşdu:

- Ay xozeyn, səni and verirəm İncilə, bir mənə de görüm: o zəhrimarda nə ləzzət görübsünüz ki, yeyirsiz?

Muğdusi Akop hirslənib, iki əlini yuxarı qalxızıb qayımdan dedi:

- Ay kişi, bir mənə de görüm, sən bura mollalığa ki, gəlməmisən?

Xozeyn, qadan alım, ta niyə hirslənirsən? Bir sözdü ağzıma gəldi, soruşdum. Qurban, gəc qayır!...

... - Qurban, görürsən bu erməni millətini! İstəyirsən yüz min dəfə imama, peyğəmbərə and iç, təsəm elə, heç vaxt sənin sözünə inanmayacaq. De ki, ay kafir oğlu kafir burada nə bir o qədər iş var...

... - Usta, birisi Allahı dandı, laməzhəb oldu, heç bir şeyə qayıllığı olmadı, çətindi onu, inandırmaq."

Daha sonra, "Qurban bir az fikir edib çıxdı balqona və əlində bir küpə su gətirdi.

Usta Zeynal işi dayandırıb dedi:

- Qurban, Allah sənə lənət eləsin! Ermənin küpəsində su gətirib gəc qayırdın və dünya-aləmi murdar elədin. Allah sənə lənət eləsin!

Qurban dinməyib mat-mat baxırdı Usta Zeynalın üzünə. Usta Zeynal üzünü turşudub iki dəfə tüpürdü yerə, bir dəfə Qurbanın üzünə və həyətə çıxıb getdi, oturdu arxın kənarında və başladı əllərini yumağa və sonra otağa gəlib Qurbana dedi ki, şeyləri yığışdırsın və aqoşkanın içindən paltarını götürüb yenə Qurbanın uzünə bır dəfə tüpürdü və üz qoydu çıxıb getməyə.

Bu gün axşama kimi usta Zeynalın arvadı ərinin paltarlarını yuyub qurtarmağa məşğul oldu. Usta Zeynal çıplaq oturmuşdu evində və gözləyirdi ki, paltarları quruyandan sonra getsin hamama və təmizlənsin".

Karen adı çəkilən kitabında (səh.525) naşıcasına oxucuları ermənisayaq aldadaraq yazır ki, guya "Bu hekayənin Bakıda (1932-ci və 1966-cı illərdə) və Moskvada (1940-cı və 1959-cu illərdə) buraxılmış əvvəlki nəşrlərində bu odioz yerlər ixtisar edilmişdi. 80-ci illərdə - rəsmi versiyaya görə "xalqlar dostluğu" yeni zirvələrə çatdığı dövrdə isə növbəti Bakı nəşrində (yeri gəlmişkən, kitabın çıxış məlumatlarında onun guya 1959-cu il Moskva nəşrindən təkrar nəşr edilməsi barədə saxta məlumat verilir) həmin kupyuralar nədənsə bərpa edilmişdir".

Bu böhtançı, riyakarcasına təhriflərdən məlum olur ki, Karen C.Məmmədquluzadənin "Usta Zeynal" hekayəsini özü deyəsən oxumamış, üzünü də görməmişdir. Erməni saxtakarlardan kimsə hekayənin adını dəyişik salıb, yuxarıda təsvir olunan usta Zeynalla- Qurbanın söhbətinin guya "Saqqallı uşaq" (rusca "Borodatıy rebenok"da) hekayəsində olduğunu ona yazıb vermişdir. C.Məmmədquluzadənin adı çəkilən hekayəsində isə nə usta Zeynal var, nə də adı çəkilən əhvalat. Bu hekayələrə isə heç vaxt əl gəzdirilməyib.

Deməli, daşnak, riyakar Karen Brutens Qorbaçova, Siyasi Büroya kəf gəldiyi kimi 10 il sonra Moskvanın nüfuzlu bir

nəşriyyatı tərəfindən nəşr edilən kitabında da bu saxtakarlığı təkrar edir. Məqsəd aydındır, Ağdamda teleekranda Xomeynini, Stepanakertdə azərbaycanlılara qarşı müsəlman olduqları üçün qızışdırılan nifrəti, Usta Zeynal da iranlı usta Zeynalla yerli Qurban arasındakı söhbəti Karen islam-xristian davası, qarşıdurması kimi təqdim etməyə və oxucuları bu cəfəngiyyata inandırmağa çalışır. Doğrudan da vicdanını itirənlərdən bundan artıq şey gözləmək də olmaz!

P.S. *Bu yaxınlarda Moskvada olmuş tarix elmləri doktoru, professor, millət vəkili Cəmil Həsənli mənə bildirdi ki, 2005-ci ildə K.N.Brutensin adı çəkilən nəşriyyatda "Baş tutmayan sövdə. Yenidənqurma barədə səmimi qeydlər" adlı 656 səhifəlik yeni bir kitabı çıxmışdır. Dağlıq Qarabağ hadisələrinə və Azərbaycan xalqına qarşı nifrət və kin-küdurətlə dolu əvvəlki yazdıqlarını o yeni kitabında da təkrar etməkdədir. Görünür, at ölüncə otlayar.*

"Günay", №7, 18 fevral 2006-cı il

"QEYRƏT" MƏTBƏƏSİNİN MÜDİRİ – MİRZƏ CƏLİLİN SAĞ ƏLİ

"Molla Nəsrəddin"in yubileyi hər şeydən əvvəl molla nəsrəddinçilərin yubileyidir. Mirzə Cəlilin jurnalın yaradılması və nəşri sahəsində birinci köməkçisi, həmkarı Ömər Faiq Nemanzadə olmuşdur. C.Məmmədquluzadə xatirələrində yazırdı: "Yoldaşım Ömər Faiq Nemanzadəni mən birinci dəfə "Şərqi-rus" qəzeti idarəsində gördüm və onunla üns tutdum. "Şərqi-rus" qəzeti mənim üçün iki babətdən xoş, qiymətli yadigar oldu. Birinci tərəfi budur ki, möhtərəm ədibimiz Məhəmməd Ağa Şaxtaxtlı məni öz qəzetinin idarəsinə cəlb etməklə məni qəzet dünyasına daxil etdi. İkinci tərəfi odur ki, onun varlığı ilə, onun yoldaşlığı ilə "Molla Nəsrəddin" məcmuəsini bina etdim, daha doğrusu bina etdik".

Ö.F.Nemanzadə 1872-ci ildə Gürcüstanın Axalsix qəzasının Azqur kəndində anadan olmuşdur. 1891-ci ildə İstanbulda "Darüş-Şəfəq" məktəbini bitirmiş, bu məktəbdə şəriət dərslərindən əlavə tarix, fizika, kimya və digər texniki və təbiət fənləri tədris olunur, dövlətə sadiq qulluqçular hazırlanırdı. Faiq əfəndi bir il poçt idarəsində Avropadan gələn poçt və teleqrafları qəbul etməklə məşğul olur. İstibdada qarşı mübarizə aparan gənclərə qoşulur. Onların gizli fəaliyyətinin üstü açılır, Faiq çətinliklə qaçıb vətənə gəlir. Sonralar Azərbaycanın demokratik ruhlu vətənpərvər ziyalılarına qoşulur. 1894-cü ildə Şəkiyə müəllimliyə dəvət olunur. Şəkiyə gəlişi buranın xalq maarifi və mədəni həyatında bir canlanma yaradır. 1895-ci ildə Şəkidə onun təşəbbüsü ilə Zaqafqaziyada ilk türk məktəbi fəaliyyətə başladı. M.F.Axundovun komediyaları tamaşaya qoyuldu. Əsrin axırlarında Ömər Faiq Şəkidən əvvəlcə Şamaxı,

sonra Gəncə şəhərlərində müəllimlik edir. Bakını gəzir. "Şərqi-rus" nəşrə başlayanda Tiflisə gəlir və qəzetçilik fəaliyyətinə başlayır. "Şərqi-rus" fəaliyyətini dayandırdıqdan sonra Mirzə Cəlillə bərabər onun mətbəəsini alıb, adını "Qeyrət" mətbəəsi qoyub birgə işlədirlər. Mətbəənin rəsmi müdiri Ömər Faiq idi. "Molla Nəsrəddin" də bu mətbəədə nəşrə başlamışdı.

Ö.F.Nemanzadə çox hazırlıqlı, istedadlı, kəskin qələmli jurnalist və publisist idi. "Şərqi-rus" qəzetində dərc olunmuş "Biz də vaxta görə çalışaq" sərlövhəli silsilə məqaləsində yazırdı: "Zaman dəyişir, dünya dəyişir, hər şey dəyişir, hər millət dəyişir, hər zərrə dəyişir". Deməli biz də dəyişməliyik.

Tədqiqatçılar Ö.F.Nemanzadə və "Molla Nəsrəddin" mövzusunda xeyli tədqiqat əsərləri yazmışlar. Məsələn, qeyd edilir ki, jurnalda dərc olunan siyasi karikaturaların, şəkillərin çoxunun mövzusunu o vermişdir. Lüğətlərin, mətnlərin, tapmacaların xeyli hissəsini Mirzə Cəlil ilə Ö.Faiq birlikdə hazırlamışlar. Çox vaxt birlikdə yazdıqları məqalələrin altında "Molla Nəsrəddin", "Mozalan", "Lağlağı" və sair imzalar qoyardılar.

"Molla Nəsrəddin"in nəşrinin və yayılmasının, mürtəce qüvvələrin hücumundan müdafiəsinin əsas ağırlığını da Mirzə Cəlillə bölüşən Ömər Faiq idi. Ömər Faiq Bakıda nəşr olunan mətbuat orqanları ilə də müntəzəm əlaqə saxlayır, günün və dövrün aktual mövzularına dair tutarlı məqalələr yazırdı. Bunlardan jurnalla əlaqədar "İrşad"ın 1907-ci il 13 iyun tarixli nömrəsində dərc edilmiş "Molla Nəsrəddin bağlandı" sərlövhəli yazısını oxuculara təqdim edirəm. Müraciətlə yazılmış bu məqalə "İrşad"da çıxandan bir neçə gün sonra Həştərxanda nəşr olunan "Bürhani-tərəqqi", həmçinin Kazanda çıxan "Bəyanülhəqq" qəzetlərində də dərc olunmuşdu. Azərbaycanda satirik jurnalistikanın bu möhtəşəm orqanı haqqında ilk ətraflı fikir və mülahizələri də məhz Ö.F.Nemanzadə yazmışdır.

"MOLLA NƏSRƏDDİN" BAĞLANDI

Cümə günü axşam saat səkkiz idi. Yazı otağında tənha oturub fikirləşirdim. Fikirləşirdim ki, nə üçün bir para adamlar "Molla Nəsrəddin"in yazdığını, məqsədini yaxşı düşünməyib fürsət axtaranların hiylə və təvillərinə (başqa məna vermələrinə) aldanırlar. Nə üçün camaatımız bu qədər avamdır?

Bu qədər qışqırıq saldılar da gündə gözlərinin qabağında min cür bidin (dinsiz) və biqeyrət işlərə, aşkar haram və məsiyyətlərə (günahlara) sükutla tamaşa edirlər...

Mən bu cür xəyalatda ikən balkonda ayaq səsləri çoxaldı. Getdikcə şiddətləndi, şaşqa şıqqıltısı qaba ayaq səslərinə qarışdı. Yerimdən durdum, qapını açıb gördüm ki, bir sürü polis bizə doğru gəlir.

Mən özüm-özümə dedim: genə bir müsəlmanın, bəlkə millət atası adını qəsb edən bir müsəlmanın donos, şəridir.

Donos şərlərinə çox düçar olduğumuz üçün pristava gülə-gülə dedim: "Genə nə var?".

Dedi: "Bir zad yox, ancaq qubernator buyurur ki, "Molla Nəsrəddin" idarəsi və "Qeyrət" mətbəəsi bağlansın".

İndilik çarə nə: Ağa deyir sür dərəyə, sür dərəyə. "Molla Nəsrəddin" bağlandı, lakin mətbəəmiz öz işində davam edir.

Ertəsi gün senzor idarəsinə gedib şikayət elədim ki, nə səbəb ilə bağladıbsınız? Təəccüb edib, dedilər ki, heç bir zaddan xəbərimiz yox. O saat bildim ki, hansı millət atası hökumətə donosbazlıq edib, məsləkimizi hökumətə müzurr (zərərli) göstəribdir.

Bildim ki, millətin heç bir dərdinə, heç bir ehtiyacına hərgiz baxmayıb, donosbazlıqla hökumətə xidmət göstərən yalançı millətçilər kimlərdir. Bildim ki, maarif ağacımızı içindən yeyən yenə öz qurdumuzdur. Bildim ki, millətimizin hüququnu paymal (məhv) edən, millət qəlbini kəsməyə çalışan baltanın sapı yenə bizdəndir. Bildim ki, müsəlman donundakı islam xainləri, "Mol-

la Nəsrəddin"in 22-ci nömrəsində ayıların, qurdların, aslanların parçalanmış islamı qapıb yemələri barəsindəki şəkilləri əldə dəstəvuz edib "Molla Nəsrəddin"i hökumətə asi göstərən alçaqlar nə cür müsəlmanlardır.

Bildim ki, 22-ci nömrədə 3-cü səhifədə, birinci sütunda yazılan: "Amma heç kəs ilə dava eləməyibsiniz ki, niyə müsəlman qızlarını uruslaşdırırlar" fəryadını bir özgə dona geydirib xuliqanlıq edənlər bu cürə bir həqiqəti deyənləri hökumətə asi (üsyançı) göstərib millətinə xəyanət edənlər hansı xainlərdir.

Qoy bu cəhalət babaları iki qəpiklik mənfəətləri, üç günlük şöhrət və rahatlıqları üçün hər növ xainlik, hər qisim həlqeyi-həqarəti boyunlarına keçirib bir neçə gün ömür sürməyə çalışsınlar.

Qoy beş-on avamın xatiri üçün həqiqət və hikməti inkar etsinlər! Camaatı köhnə-qəflət və qaranlıqda saxlamağa bəzl-şeytanat (şeytanlara hədiyyə) etsinlər!

Lakin bu bişüur (şüursuz) müstəbidlər, bu islam şəriətini əllərində oyuncaq edənlər burasını heç fikir etmirlər ki, belə bir vaxtda bu cür alçaq qulluqlar ilə milləti aldatmaq olmaz. Bu qədər şüurlarıdamı yox, bilələr ki, hürriyyət və müsavatı ümumiyyətə istənilən belə bir vaxtlarda həqiqət və maarif selinin qabağına donosbazlıq ilə durmaq olmaz!

Biçarələr elə güman edirlər ki, "Molla Nəsrəddin" bağlanmaqla onların eyibləri örtüləcək. Dəxi bilmirlər ki, aləm sürətlə dəyişilməkdədir. Bu az maarifimizlə də olsa, içimizdə bir çox Molla Nəsrəddinlər var. Bu gün Molla Nəsrəddin batar, sabah Molla Xeyrəddin çıxar.

Bixəbər və qafil donosçu gərək biləydi ki, həqiqət ilə köhnə cahilanə adətləri fərq edənlər, şəriəti həqiqeyi-adətə qarışdırmayanlar getdikcə çoxalmaqdadır, dəxi bir para cahillərin, nadanların xatiri üçün həqiqət fəda edilməyəcək!

Bu gün "Molla Nəsrəddin" bağlandı, amma "Molla Nəsrəddin"i meydana gətirən fikirlər bağlanılmayacaq.

"Molla Nəsrəddin" müdiri və mühərrirləri çoxdan söyülməyi, bağlanmağı, nadanların tənə (rişxənd) və töhmətini və xurafatpərəstlərin küfrünü gözünə almışdır. "Molla Nəsrəddin"in gedəcəyi yol birdir ki, o da hər şeydən artıq öz qüsuratımıza, öz üstümüzdəki ləkələrə, tərəqqiyə mane olan öz cahilanə adətlərimizə acı-acı gülüb millətin səadətinə çalışmaqdır. Binaən-əleyh (o səbəbə görə) heç bir təhdid, donosbazlıq, bağlanmaqlıq "Molla Nəsrəddin"in bu əzm və məsləkinə mane olmayacaqdır.

"Molla Nəsrəddin"in müdiri - möhtərəminə vəkalətən həqiqətpərəst müştərilərə kəmali-cürətlə ərz edirəm ki, "Molla Nəsrəddin"in yenə özü və ya onun əvəzi yaxın vaxtda mövqeyi-intişara qoyulacaqdır.

Ömər Faiq Nemanzadə

"İrşad" qəzeti, №110, 13 iyun 1907.

"Günay", № 8, 25 fevral 2006-cı il

XİDMƏTİNİN MÜKAFATINI ÖZ VİCDANINDAN ALAN ŞAİR – M.Ə.SABİR



Yüz il bundan əvvəl "Molla Nəsrəddin" səhifələrində Mirzə Cəlilin təbirilə: "İlham atının çapmasına meydan verilən" 44 yaşlı Şamaxı sakini, Seyid Əzim Şirvani kimi söz və fikir sərrafından dərs almış Mirzə Ələkbər Tahirzadə - Sabir bu əyalət şəhərində "Molla Nəsrəddin" jurnalının ilk nömrəsilə tanış olur. Onu diqqətlə oxuyur. Onun bundan öncə maarifpərvərlik ruhunda yazılmış ilk şeiri hələ 1903-cü ildə "Şərqi-rus" qəzetində dərc olunmuşdu. Lakin "Molla Nəsrəddin" onun qəlbini, ruhunu riqqətə gətirir: - "Pəh, pəh, pəh! Maşallah! Qələmi ver mənə. Ay arvad, sən də qapıları bərk bağla! Məni soruşan olsa, de ki, gedib sabun satmağa".

"Molla Nəsrəddin" jurnalının Sabirin oxuduğu 1-ci nömrəsində Mirzə Cəlil özü "Lisan bəlası" sərlövhəli felyetonunda məşhur:

Ey dil, dəxi dinmə və sükut et, səni tarı,
Lal ol və danışma!

Sal başını aşağa və heç baxma yuxarı,
Mal ol və danışma!

misraları il başlayan şeirini dərc etmişdi. Müəllifin özünün də sonralar yazdığı kimi məqsədi şairlik etmək deyildi: "Bu bir nümunə idi ki, bunu birinci nömrədə dərc etməkdə biz həqiqi "Molla Nəsrəddin" şairini axtarırdıq. Biz Sabiri və Məşədi Sijimqulunu (Əli Nəzmini - Ş.H.) axtarırdıq".

Mirzə Cəlil sonralar yazdı: "Sabir mərdi-mərdanə özünü tulladı "Molla Nəsrəddin" meydanına və elə bir nərilti və gurultu ilə dalbadal yazmaqda davam etdi ki, bəlkə özünə bərabər olan Məşədi Sijimqulunu da xeyli bir vaxt sükutda saxladı və elə yadıma gəlir ki, Sabirin "Molla"da zühurundan ta il yarıma qədər Məşədi Sijimqulunun mənzum əsərləri idarəmizə gəlib çatmadı".

M.Ə.Sabirin "Molla Nəsrəddin"də ilk şeiri 1906-cı il aprelin 28-də 4-cü nömrədə işıq üzü gördü. Bu məşhur dillər əzbəri: "Millət necə tarac olur olsun, nə işim var?!" satirik şeiri idi. İmzasız və C.Məmmədquluzadənin baş məqalə kimi dərc etdiyi "Niyə məni döyürsünüz?" sərlövhəli felyetonunun tərkib hissəsi kimi verilmişdi.

Şeirin Şamaxıdan Tiflisə "Molla Nəsrəddin" redaksiyasına göndərilməsi və müəllifinin kim olması əhvalatı da maraqlıdır. Bu barədə də M.Cəlil yazmışdır: "Sabiri biz qabaqlarda tanımazdıq və həmin söylədiyimiz birinci əsəri Tiflisdə mətbəəmizə gətirən bir naməlum cavan oldu. Bu adam paket içində məktubu verir yoldaşım Ömər Faiqə və qaçıb gedir. Faiq bir tərəfdən təəccüb edir və bəlkə o, məktubu bədxahlar tərəfindən bizə təhdid və söyüş zənn edir. Demə o, söyüş əvəzində - həmin dəyərli mənzumə imiş... Bəli, çap elədik.

Ancaq bəs bunu yazan kimdir? Ay yoldaş Faiq, niyə qaçdı o zalım oğlu? Kimdir onu göndərən?

...Bir-iki həftə keçməmişdi, həmin naməlum oğlan yenə mətbəəmizə bir paket gətirir və Faiqə verir. Yenə qaçır gedir. Bu dəfə də paketin içindəki sovqatda ata dərs oxuyan oğlundan gileylidir: "Bilməm nə görübdür bizim oğlan oxumaqdan?"...

- Aman günüdür, Faiq yoldaş, tap o zalım oğlunu.

- Taparam, taparam, səbr et, bir də gəlsə, buraxmaram.

Elə ki, bir həftə də ondan sonra haman oğlan yenə o minval ilə əlində paket gəlir mətbəəyə və paket qoyur, istəyir qayıda, Faiq bu dəfə düşür onun dalınca və aparır çıxardır erməni bazarında şamaxılı Şeyxovların xalçaçı mağazasına.

Şeyxovlar qabaqca mətləbi açmaq istəmirmişlər, ancaq Ömər Faiqin təkidi ilə məsələni açırlar, bu şərtlə ki, söhbət buradaca qalsın".

1906-cı ildə "Molla Nəsrəddin" jurnalında M.Ə.Sabirin 21 satirik əsəri dərc olunmuşdur. Onlardan 14-ü "Hop-hop" imzası ilədir. Bu gizli imza təsadüfi verilməmişdi. Onun müəllifi də M.Ə.Sabir deyil, Mirzə Cəlildir. "Hop-hop" imzasına ilk dəfə jurnalın 19 may tarixli 7-ci nömrəsində rast gəlirik. M.Cəlil "Niyə mən dərsdən qaçdım?" sərlövhəli felyetonunu bu gizli imza ilə dərc etmişdi. 8-ci nömrədə felyetonun ardı verilmiş, onun sonunda M.Ə.Sabirin "O gün ki, sənə xaliq edər lütf bir övlad! Olsun ürəyin şad!" misraları ilə başlayan satirası əlavə olunmuşdu. Görünür M.Cəlil şeirin məzmunu felyetonunun məzmununa uyğun gəldiyi üçün belə etmiş və "Hop-hop" imzası qoymuşdu. Məlumdur ki, şanapipiklər dəstəsindən olan hop-hop (İrira eroros) ağac koğuşlarında yuva qurur, çox vaxt səsi gəlir, özü isə görünmür. İlk vaxtlar yuxarıda göstərdiyimiz kimi Sabirin də Şamaxıdan şeirləri gəlir, özü görünmür, kimliyi bilinmirdi. Qeyd edək ki, 1907-ci ildə "Molla Nəsrəddin" səhifələrində M.Ə.Sabirin 28 satirik şeiri dərc olunmuşdur.

Onlardan yalnız biri (1907, №1) "Hop-hop" imzası ilə çıxmışdır, 19-u imzasızdır, qalanlar "Fazil", "Çayda çapan", "Hörümçək", "Boynu yoğun", "Din dirəyi", "Qabaqda gedən Zəncirli" gizli imzaları ilə verilmişdir. 1908-1910-cu illərdə də təxminən belədir. Amma "Hop-hop"dan "Hophopnamə" kimi möhtəşəm irs yaranmış, qalmışdır.

M.Ə.Sabirə cəmi 5 il "Molla Nəsrəddin"lə əməkdaşlıq etmək səadəti nəsib olmuşdu. Şairin dostu və pərəstişkarı Abbas Səhhət 1911-ci il iyulun 12-də, onun vaxtsız vəfatından bir il sonra zor-güclə nəşrinə müvəffəq olduğu ilk 104 səhifəlik "Hophopnamə"yə yazdığı "Sabirin tərcümeyi-halı"nda jurnalla əlaqədar göstərirdi ki, Sabir "məslək və məzaqına müvafiq məzmun tapdığından gah qəzəl, gah mərsiyə, gah bəzi qitələr yazarmış. Çox keçmədən "Molla Nəsrəddin" jurnalı intişara başlayır, bu sevgili müzhik (məzhəkə) məcmuənin nəşrə başlaması ilə hünər və istedadın göstərməyə bir müsaid yer açılır... Yerli qəzetlər təqdir edir və hər yerdən təhsin (əhsən) və tərifllər alır... Bununla belə... yağış kimi üstünə yağan təkfir (kafir) və təhqirlərdən əsla geri getməyib öz məsləkində davam edir".

A.Səhhət xüsusi olaraq vurğulayırdı ki, Sabir "Azərbaycan ədəbiyyatında ən əvvəl yeni bir cığır açdı ki, ondan müqəddəm (əvvəl) kimsə o gözəl şivədə yazmamışdı. Nöqsanlarımızı və eyiblərimizi məzhəkə və mizac (məzac) təriqilə qayət şirin və hər kəsin anladığı bir dil ilə, qəhqəhələr ilə oxudub islaha çalışırdı. Nə çarə ki, ancaq beş ilə qədər ədəbiyyatımıza xidmət edə bildi. "Molla Nəsrəddin" jurnalı meydana çıxınca sahibi-zövq Sabirin ondakı nümunə əşarına (şeirlərinə) məftun olmaqdan kəndini (özünü) alamadı. O gözəl şerləri oxuyub da anlayanlar, o gözəlliklərin fərqinə varanlar, onları hifz etməyə həvəs etdilər. Halbuki, Sabir əfəndi əsərlərində işlətdiyi

ibarələr və yeni məzmunlar kimsəni təqlid deyil, məhz öz fikrinin nəticəsidir. Bununla demək istəyirəm ki, Sabir əfəndi müqəllәd (təqlid edən) deyil, bəlkə öylə mücəddiddir ki, (yenilikçidir ki) köhnə şerlər ilə yeni şerlər arasında bir əsrlik uçurum açdı ki, bir daha geri dönüb də o uçuruma atılmağa kimsədə cürət qalmadı.

Bir kərrə düşünülsün ədəbiyyatımızda nə qədər böyük bir təsir və nə qədər əzim bir inqilab vücuda gətirmiş!!".

M.Ə.Sabir Tiflisdə çıxan "Molla Nəsrəddin"lə yanaşı, Bakıda nəşr olunan mətbuat orqanları ilə redaksiyaların təşəbbüsü ilə sıx əlaqə saxlayır. Onun "Həyat", "İrşad", "Rəhbər", "Dəbistan", "Füyuzat", "Bəhlul", "Ülfət", "Günəş", "Səda", "Həqiqət", "Yeni həqiqət" və "Məlumat"da xeyli əsərləri dərc olunmuşdur. Tədqiqatçılar onları "misli görünməmiş şeirlər" adlandırırlar.

A.Səhhətin yazdığı tərcümeyi-halda Sabirin başına gələn bəlalardan da söhbət açılır. O yazır: "Böylə bir istedada malik olan şəxs yalnız avamünnas (avam insanlar) tərəfindən tənələr və söyüşlər eşitməyir, öz əyalı da (ailəsi də) ona düşmən olur. Necə ki, bu halını "Molla Nəsrəddin" məcmuəsinin 4-cü ilinin 17-ci nömrəsində olan şerində bəyan edir... Axırda iş bir payəyə (dərəcəyə) çatır ki, "kafir" və "babi" - deyə qəssablar ona quyruq satmırlar. Naçar qalıb quyruqçuluq və sabun bişirməkdən əl çəkir və üsuli-cədid üzrə təlim və tədris qaidəsin az-çox öyrənib bir nəfər müəllim ilə şərakətən (şərikli) məktəb açır və bunun adını "məktəbi-ümid" qoyur. Müəllimlikdən də çörək pulu çıxmayır (Sabirin 8 qızı və bir oğlu vardı -Ş.H.) Daha çarəsi kəsilib 1910-cu ildə Bakıya gedir. "Nəşri-maarif" cəmiyyətinin Balaxanıda olan məktəbində fars və şəriət müəllimliyinə qəbul olunur. Bakıda yazdığı şerlər ki, "Molla Nəsrəddin"in 5-ci ilindədir mühitin təsirindən dahiyanə əsərlərdir. Heyf, əfsuslar

olsun ki, 1911-ci ildə iyul ayında Bakıda məriz (xəstə) olur... Daha Bakıda qala bilməyib Şamaxıya qayıdır və oradan Tiflisə müalicə üçün gedir. "Molla Nəsrəddin" jurnalının heyəti-təhririyyəsi (redaksiya heyəti) maddi cəhətdən müavinət (yardım) edirsə də heyf ki, müalicəsi fayda - bəxş olmayıb biləxərə Şamaxıya qayıdır".

M.Ə.Sabirin 1912-ci ildə İsa bəy Aşurbəyovun "Kaspi" mətbəəsində çap olunmuş "Hophopnamə"sində "Şairi-şəhir" (məşhur şair) Sabir Tahirzadənin əsərləri" yazılmışdır. 1914-cü ildə yenə A.Səhhətin nəşr etdirdiyi geniş həcmli "Hophopnamə"də Azərbaycan dilində "El şairi", arxada rus dilində çap olunmuş titul vərəqində isə: "Хоп-хопнаме". Полное собрание стихотворений Кавказского-тюркского народного поэта Сабира Тахирзаде. Издательница: Ханума Таирзаде. 2-е полное издание. Баку, типо-литография "Каспий" Иса-бека Ашурбекова. 1914 год" sözləri yazılmışdır.

Qafqaz-türk xalq şairi M.Ə.Sabir "Molla Nəsrəddin" məktəbinin yetirməsidir. Onları bir-birindən ayırmaq mümkün deyil. Hər ikisi A.Səhhətin yazdığı kimi "öz xidmətinin mükafatını oz vicdanından alırdı".

"Günay", №9, 4 mart 2006

ORXAN ARASIN YAZDIQLARI

"525-ci qəzet"in bu ilin 28 fevral tarixli nömrəsində Almaniyadan Orxan Arasın "At minənindir, qılınc qurşananın..." sərlövhəli çox maraqlı və məzmunlu bir məktub-məqaləsi dərc olunmuşdur. "Vətənimi və dilimi mənə xatırladan nə varsa, hamısı mənim üçün əzizlərin əzizidir" - yazının canı budur. Görkəmli qələm ustadları Əli Kərim və Fikrət Sadığın ona göndərilən şeir kitabları barədə ürək dolusu söhbət açan Orxan bəy vətəni Azərbaycana ilk gəlişi barədə də öz təəssüratını bizimlə bölüşür: "Mən Azərbaycana ilk dəfə 1990-cı ilin 20 yanvar hadisələrindən sonra qardaşlarımın dərdlərinə şərik olmağa getmişəm. Həsrət içində yanan başqa hansı dostum gedə bildi bilmirəm, amma Türkiyədən Azərbaycan üçün bir gün belə ürəyi yanmayan, onları əsla və əsla tanımayan minlərcə insan dəfələrlə Azərbaycana getdilər. İçərilərində bir damlacıq türk və türklük duyğusu olmadığı halda getdilər, özlərini türk olaraq tanıtdılar və çoxu da əl üstündə tutuldular. Eyni şey Azərbaycanda da baş verdi. Ordan da Türkiyəni söyənlər, düşmən olanlar, "türk deyiləm" deyənlər Türkiyədən mükafatlar aldılar, əl üstündə tutuldular. Bu vəziyyət bizə hər şeyi isbat edir. Belə tip insanlar hər dövrdə və hər zaman işlərini hər hansı bir şəkildə yoluna qoya bilən insanlardır".

Martın 6-da İslam Şərqi və türk dünyasında ilk həqiqi demokratik Azərbaycan Xalq Cümhuriyyətinin banisi, yaradıcısı M.Ə.Rəsulzadənin vəfatının 51 ili tamam oldu. Bu, Orxan Arasın yazdığı adamların yadına düşdümü? Məzarını ziyarətə getdilərmi? Rəsmi və qeyri-rəsmi yad edildimi?

Azərbaycan xalqının zəlil və rəzil halına yanan 22 yaşlı Üzeyir bəy 1907-ci il fevralın 23-də "İrşad" qəzetində öz imzası ilə dərc olunmuş "Təəssüflər olsun!" sərlövhəli məqaləsində yazırdı:

"Lənət olsun o günə ki, maarif və mədəniyyət qapıları bizim üzümüzə bağlanıb, bizi cəhalət və vəhşaniyyət vadisində sərgərdan qoydu. Və lənət olsun bu uzun zamana ki, bu tulani (uzun) mürur (zaman) ilə bizim içimizdən millət, cəmaət qəhrəmanı olacaq bir dahi çıxara bilmədi. Bir dahi ki, həqiqi ömür sürmək üçün, qabağımızı kəsib duran sədləri nistü nabud (yox) edəcək qədər qüvvəti-mənəviyyəyə və cismaniyyəyə malik olub, bizi zülami-cəhalətdən nuri-maarifə tuş edə biləydi!

Onda biz indiki kimi yazıq olmazdıq. Başsız, rəhbərsiz, gələcəyi şəkk və şübhə ilə dolu qalmazdıq... Lakin olmuşuq və qalmışıq!".

Uzeyir bəy "Tərəqqi" qəzetinin 27 avqust 1909-cu il tarixli 193-cü nömrəsində intriqabazlığı, paxıllığı, fitnəkarlığı və bu kimi çirkin halları ifşa edərək yazırdı: "bir baş ki, onun içi təkfir (kafir), təlin (lənətə layiq), fitnə, fəsad, şeytanlıq, büxl (paxıllıq), həsəd, mənəmlik və bu kimi şeylərin iğvası (yoldan çıxartma) ilə dolu ola və ya inki bilmərrə boş ola - o başdan nə ummaq?"

Üzeyir bəy yazırdı ki, "bu axır zamanlarda o qədər alçaq və iyrənc hərəkətlər baş verməyə başlayıb ki, insanın səbr və təhəmmül etməyi (dözməyi) məhal (çətin) görünür...", "yenə bir cürə işlərdə üzümüzü ağardan və haqqımızın payinaşidə (dağılmış) olmasına namusi-millisi yol verməyənlərimiz var idisə, o da Əhməd bəy idi. Onu vətəndən qaçırtdılar... Əhməd bəydən

keçəndən sonra doktor Qara bəy Qarabəyov idi. Onu da vətəndən qaçırtdılar. Bunlardan başqa, Əlimərdan bəy Topçubaşov idi, onu da vətəndən qaçırtdılar. Bunlardan savayı doktor Nəriman Nərimanov idi, onu da qazamata saldırıb, bir böyük külfətini ac qoydular.

İndi böyük arsızlıq burasıdır ki, millətimizin qeydin çəkən və bu gün üçün bizə hər bir şeydən lazım olan o millət namusu çəkənlərimizin vətəndən iraq düşmələrinə təəssüflər etmək əvəzinə, hələ dallarınca da daş atırıq... Di, buyursun içimizdən biri çıxıb onların yerini versin. Onların burada olmağı şəxsi mənfəətin millət mənfəətinə tərcih verənlərin (üstün tutanların) xoşuna gəlmirdi".

Bu sətirlərin yazılmasından, oxunmasından cəmi 11 il keçdi. Üzeyir bəy nəsli, milli qeyrətli nəsil Azərbaycanın müstəqilliyinə nail oldu. 1918-ci il mayın 28-də müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin yaradıldığı elan edildi. Xalqın əsrlərcə həsrətində olduğu müstəqillik qazanıldı. Bu milli-azadlıq hərəkatına bütün mütərəqqi milli qüvvələri öz ətrafında cəmləşdirən Müsavat Partiyası, onun tanınmış lideri M.Ə.Rəsulzadə başçılıq edirdi. Bu həqiqətdir, bu tarixdir. Üzeyir bəy 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin açılış mərasimində iştirak edənlərdən, bu tarixi hadisəni qüdrətli qələmi, böyük istedadı, vətənpərvərlik sevinci və ruhu ilə tariximizə həkk etdirəndir. Dekabrın 9-da "Azərbaycan" qəzetində dərc olunmuş "Təəssürat"ında biz bunu açıq-aydın, bütün əzəməti və təfərrüatı ilə görürük. Üzeyir bəy yazırdı ki, "padşahlı məmləkətlərdə məclisi-məbusanı padşah açar, amma Azərbaycan Cümhuriyyətinin məclisi-məbusanını bir nəfər vətən övladı açdı". "Qəlbən nikbin olan və nikbinliyində də sabit qədəm olan", "açıq və gülər üzlü", "yerə baxmaq adəti olmayan" M.Ə.Rəsulzadənin millət vəkil-

lərinə xitabən söylədiyi nitqinin "hər bir cümləsi axırında alqışlar yağırdı", Məhəmməd Əmin açılış nitqində üç rəngli bayrağa işarə ilə "bu bayraq endirilə bilməz!" dedikdə bütün məclis ayağa qalxıb əl çala-çala bayraqları salamlarkən təəssüratı fövqəladəmdən başımın tükləri biz-biz oldu".

Qarşıdan el bayramı, milli cümhuriyyətimizin elan edilməsinin 88-ci ildönümü gəlir. Müstəqillik mücahidlərinin hər birini anmaq, onların xatirəsini əziz tutmaq, zəngin və ibrətamiz mənəvi, ədəbi və siyasi-ictimai təcrübə və irslərinə sahib çıxıb ondan faydalanmaq vacibdir. Vaxt olacaq vətəndən qaçırılanların məzarlarının Vətənə köçürülməsi kimi tarixi və müqəddəs borc da gündəlikdə duracaq. Yəqin ki, bunu istəməyənlər də tapılacaq. Onların cavabını 100 illiyini qeyd etdiyimiz "Molla Nəsrəddin"də Mirzə Cəlil hələ 1917-ci ilin oktyabrında vermişdi. Həmin yazını da oxuculara təqdim edirəm.

HƏNALI FİTNƏÇİLƏR

...İndi də Bakıda seçki məcəlləsi düşüb ortalığa və Məhəmməd Əmin Rəsulzadə həmişəki kimi çalış-vuruş, çalış-vuruş nə var, nə var, mən millətin əlindən yapışacağam. Çox əcəb, yapış, vuruş qəzet yaz, nitq söylə, o şəhərə get, yenə yaz, yenə yaz, yenə danış, amma, - bu işlərin iki nəticəsi var: biri budur ki, atalar demişkən "el üçün ağlayanın gözləri kor olar", nə qədər çalışırsan çalış, yenə axırda sənə qalacaq haman yazmaq, yazmaq və hələ çox danışsan və ata və analarından xəbəri olmayan müsəlman qardaşların arzusu yerinə yetsə - bəlkə dustaqxanalarda millət yolunda çəkdiyin günləri yenə ziyarət etmək.

Bu, bir nəticə.

İkinci nəticəsi budur ki, indi sən, əzizim, doğrudur ki, çalışırsan və bu çalışmaqdan da söz yox millətə də az-çox mənfəət gətirirsən və özünə də şöhrət qazanırsan, buna sözüm yox - amma burası var ki, sənin bu çalışmağın mənə xoş gəlmir, səbəb budur ki, əvvəla mənim məsləkimə ziddir və saniyən mənim fitrətim ilə düz gəlmir ki, sən millətçi olub şan və şöhrət qazanasan, mən də kənardan durub baxam.

Yox belə ola bilməz, mən səni qoymaram məqsədinə çatasan, mən səni peşman elərəm, mən səni sındıraram, mən səni yox elərəm və bundan da asan iş mənim üçün yoxdur, bir istəkan su içməkdən asandır, məhz lazımdır qabaqca saqqalımı qaraldıb daxil olum mollalar məclisinə və bir ovqat yalandan məsciddə görsənim və sonra orada-burada səs buraxım ki, Məhəmməd Əmin Rəsulzadə istəyir Quranın yeddi cüzini çıxardıb atsın.

Xülasə, fitnə fitnədir, xah (istər) bizim içimizdə, xah qeyri millətlərin içində, təfavütü budur ki, onlar fitnəyə "provokasiya" deyirlər, bizim fitnəçilər də saqqallarına hənə qoyurlar. Yoxsa qeyri bir təfavütü yoxdur.

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 30 oktyabr 1917, №21

"Günay", №10, 11 mart 2006

HAQQ VƏ HAQANİYYƏT CARÇILARI: "İRŞAD" VƏ "MOLLA NƏSRƏDDİN"

1905-1908-ci illərdə Bakıda nəşr olunan gündəlik "İrşad" qəzeti ilə Tiflisdə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı arasında məqsəd və amal birliyi bu yubiley günlərində də qeyd edilməlidir. Üzeyir Hacıbəyov və Mirzə Cəlil bu birliyin sərkərdələri idilər.

"Molla Nəsrəddin" jurnalının və ədəbi məktəbinin banisi C.Məmmədquluzadə ilə dahi bəstəkar, alim, yazıçı, publisist, ictimai və siyasi xadim Ü.Hacıbəyovun arasında tanışlıq və dostluq Mirzə Cəlil 1904-cü ildə "Şərqi-Rus" qəzetinin müvəqqəti redaktoru olarkən yaranmışdı. Həmin ildə 19 yaşlı Üzeyir bəy Gürcüstanın Qori Müəllimlər Seminariyasını bitirmiş və Tiflisdə redaksiyaya baş çəkmişdi. O, Mirzə Cəlilin yaradıcılığı ilə də əvvəlcədən tanış idi. "Molla Nəsrəddin" nəşrə başlayanda, yəni 1906-cı ilin aprelində Üzeyir bəy artıq Bakıda gənc və qüdrətli qələm sahiblərindən biri idi. 1905-ci ilin iyunundan Ə.Ağayev və Ə.Hüseynzadənin redaktorluğu ilə çıxan "Həyat" qəzetində Üzeyir bəy əvvəlcə tərcüməçi, sonra isə fəal əməkdaş kimi çıxış edir, 1905-ci ilin dekabrından Ə.Ağayevin nəşr etdiyi "İrşad" qəzeti redaksiyasında məsul ka-tib işləyirdi. O, həmçinin Bibiheybət kənd məktəbində ana dili, rus dili, riyaziyyat, coğrafiya və musiqi müəllimi idi. "İrşad" qəzetində Üzeyir bəyin "Filankəs" imzası ilə "Ordan-burdan" sərlövhəli satirik yazıları dərc olunurdu. Bakı mətbuatında satirik jurnalistikamızın M.F.Axundov və H.Zərdabi mək-

təbinin gənc davamçılarından biri Üzeyir bəy idi. "Molla Nəsrəddin"in nəşrinə bir gün qalmış, yəni 1906-cı il aprelin 6-da Üzeyir bəyin "İrşad"ın 83-cü nömrəsində "Bir başıqapazlı"nın söylənməyi" sərlövhəli felyetonu dərc olunmuşdu: "Bizim adımız başıqapazlıdır. Ya budur ki, gərək biz evdən bayıra çıxmayaq, ya ki, çıxsaq da hər tərəfdən qapaz yeməyi gözümüzün önünə alaq. Bilet alıb vaqona minirik - konduktor qapaz vurub deyir ki, nə üçün bilet alıb məni rüşvətdən məhrum edibsən? Bilet almayıb vaqona minirik - yenə konduktor qapaz vurub deyir ki, nə üçün biletsiz gedirsən? Sonra da tutub cibimizi soyur. Şəhər və kənd müəssisə (uçrejdeniye)lərinin qapısında həmişə boynu buruq və əli qoynunda durub həftələrlə "növbə" gözləyirik. Axırda da "zavtra" ilə bir qapaz alıb, məyus gedirik. Ürəyimizin qəmini dağıdıb əhvalımızın pərişanlığını düzəltmək niyyətilə "bulvar" və "sad" deyilən təfərrückahlara (gəzinti yerlərinə) çıxırıq - qaradovoy qapaz vurub bayıra çıxardır ki, bura sizin yeriniz deyil. Tamaşa üçün teatrlara gedirik - pul ilə də bizə bilet vermirlər. Görünür ki, ora dəxi bizim yerimiz deyil. Küçələrdə gəzmək bizim üçün xatadır. Sübh vaxtı qabağımıza çıxan adam bizi görüb, geri çəkilir ki, tfu "mənhus" (nəsh) adama rast gəldim. İşim düz gətirməyəcək. Axşamçağılarda da bizi qaradovoy və strajniklər soymasa - quldurlar soyur. Dilənçilər də bizi görüb, təkəbbürlük satırlar. İtlər də hər yerdə tək bizə hürür, uşaqlar da bizə sataşır. Guya ki, biz bu dünyaya gəlməkdə bir xəta etmişik "... Bakı şəhər idarəsi dəxi qumarbazlara bənzəyir. Əvvəlcə idarənin mədaxili başa gələn deyildi, amma indi... o ordan pul istəyir, bu, burdan pul istəyir. Pul da yoxdur"...

"İrşad" "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasını alqışlayan ilk mətbuat orqanlarından idi. Qəzetin aprelin 10-da çıxan 86-cı nömrəsində jurnalın ilk nömrəsinin çıxması barədə

xəbər və elanı dərc olunmuşdu. Aprelin 16-da qəzetin baş redaktoru Əhməd bəy Ağayev jurnalın ilk nömrələri barədə yazırdı: "...Baxın "Molla Nəsrəddinə". Bu cəridə nə gözəl cəridədir. Nə qədər ağıl, zəka, məharət və zövq göstərir. Nəinki biz müsəlmanlar, bəlkə ən mədəni, ən mütərəqqi tayfalar belə cəridələri ilə fəxr edərlər".

"İrşad"ın aprelin 17-si nömrəsində Üzeyir bəy "Mühüm suallar və əhəmli cavablar" felyetonunda "İdareyi-ruhaniyyələrimiz nə vaxt düzələcəkdir?" - sualına cavabında yazırdı: "İdareyi-ruhaniyyələrimizin düzəlməsi "Stanislav" və "Anna" nişanlarının çoxalmasına bağlıdır. Döşümüz nişanlarla təzyin edildikcə (bəzəndikcə), idareyi-ruhaniyyələrimiz müzəy-yən olub (bəzənib) düzələcəkdir. Nişan almağın da yolunu mən bilmirəm, "Molla Nəsrəddin"in əvvəlinci səhifəsi ilə bərabər "Tərcüman"ın 36-cı nömrəsindən xəbər al, desin".

Aprelin 19-da, yəni jurnal nəşrə başlayandan 12 gün sonra "İrşad" xəbər verirdi ki, "Molla Nəsrəddin" jurnalının 2-ci nömrəsi qırmızı rəngli olduğu üçün polis idarəsi tərəfindən müsadirə edilmişdir". Səhəri gün Üzeyir bəy qəzetdə bununla əlaqədar çox böyük təəssüf hissilə oxuculara bildirirdi: "...İndi zavallı "Molla Nəsrəddin" dustaqdır. Həbsxanada oturub, özözünə fikir edir: əcəba, ərbabi-hökumət bu qırmızı şeylərdən əcəb yaman ürkürmüş..."

"İrşad" qəzeti mühərrirləri "Molla Nəsrəddin" jurnalının hər bir nömrəsinin nəşri və məzmunu, onunla əlaqədar baş verən fakt və hadisələrin demək olar ki, hər birinə ciddi reaksiya verirdilər. Bu mühüm və vacib müdafiə və təbliğat işinin əsas təşkilatçısı yenə Üzeyir bəy idi. Məsələn "İrşad" xəbər verirdi ki, Bakıda, Qara şəhərdə polis məmurları "Molla Nəsrəddin" jurnalını zəbt etmişlər

(№148), "Molla Nəsrəddin"in növbəti nömrəsinin Bakıya gəlməməsindən narahatlıq üz vermişdir (№150), Bakıda zəbt edilmiş satirik jurnalları polis məmurları qəzet satan uşaqlara ucuz qiymətə satdırıb pulunu mənimsəmişlər (№155), "Qeyrət" mətbəəsinin xəzinədarı Məşədi Ələsgər Bağırovun imzası ilə çap edilmiş "Məktub"da xəbər verilir ki, təqribən iki ildən bəri işlədilən "Qeyrət" mətbəəsi maddi çətinlik çəkdiyindən satılacaqdır. Almaq istəyənlər haman Ələsgər Bağırova müraciət edə bilərlər (№185), Bakıda, müsəlmanların məsciddə çağrılmış yığıncağında çıxış edən axund Əbuturab demişdir: "Görürsünüz bu qəzetçilər bizim başımıza nə gətirirlər? Erkək işlərin böyüyü "Molla Nəsrəddin" bizim başımıza nə gətirir, müsəlmanlar onun birini bir abbasıya alıb oxuyurlar..."(№ 234), oktyabrın 20-də Tiflisdə "Molla Nəsrəddin" redaksiyasında axtarış aparılıb... Bu üçüncü dəfədir ki, redaksiya və mətbəə axtarılır. Lakin heç bir şey tapılmadığından məmurlar məyus gedirlər. Onlar silah yox, hökumət əleyhinə yazılmış bir kağız axtarırlar (№ 251), hətta Molla Nəsrəddin əminin ruznaməsi də zəngəzurluları oyatmaqda aciz qalır. Görünür natiqlərin nəfəslərində təsir yoxdur və Mollanın çaldığı nəğmələr zəngəzurluların xoşuna gəlmir, ələlxüsus bəy qisminin" (№269) və i. a.

"İrşad" 1906-cı il mayın 8-i nömrəsində xəbər verirdi ki, "İranın Batum konsulu rus qaradovoyları ilə əlbir olub "Molla Nəsrəddin"i oxuyanları "bədəfkar" dəftərinə yazırlar". Başqa bir xəbərdə oxuyuruq: "Şiəməzhəb müsəlmanların Nəcəfdə oturan baş müctəhidlərindən Məhəmməd Kazım Xorasani və Abdulla Mazəndarani, ordubadlı mollalardan Məhəmmədqasım, Murtuza Əlihüseyni Ordubadi, Əbdürrəhim Ənsari, Əbülhəsən Hüseyninin imzası ilə vərəqə şəklində Təbrizdə fitva çap edilib yayılmışdır. Fitvanı imzalayanlar "Molla Nəsrəddin" jurnalının

haram, onun redaktoru naxçıvanlı Cəlil Məmmədquluzadənin qətli vacib olduğunu elan edirlər" (1908, №4).

Bütünlükdə "İrşad" qəzetinin 1905-1908-ci illərdə çıxan 504 nömrəsindən 79-da "Molla Nəsrəddin" haqqında müxtəlif xəbər, məlumat, məktub, şərh dərc olunmuşdur. İrşadçılar tiflisli məsləkdaşlarının fəaliyyətini bəyənir və müdafiə edir, onlarla həmrəy olduqlarını bildirir, jurnalın Bakıda və Azərbaycanın digər şəhər və qəzalarında alınması və oxunmasına əməli yardım göstərirdilər.

Əlbəttə, Bakıda nəşr olunan qəzetlərdə, o cümlədən ana dilində çıxan mətbuat orqanlarında "Molla Nəsrəddin" və onun baş redaktoru C.Məmmədquluzadəyə münasibət eyni deyildi. Məsələn, 1907-ci il aprelin 1-dən çıxmağa başlayan "Təzə həyat" qəzeti və onun redaktoru Haşım bəy Vəzirov qəzetin 18 aprel tarixli 14-cü nömrəsində "Dostun birisi" imzalı məqaləsində Cəlil Məmmədquluzadəyə qarşı çox kəskin iftiralar yazmışdı, mayın 8-i, 24-ü, 27-si, 29-u nömrələrində də eyni tipli və məzmunlu yazılara rast gəlirik. "Təzə həyat" təkcə "Molla Nəsrəddin"ə deyil, onun müdafiəsinə qalxan "İrşad"a qarşı da Ü.Hacıbəyovun yazdığı kimi "şər atmaqda", hər ikisini "ləkələmək"də idı. Hətta Ü.Hacıbəyov rusca çıxan "Bakinski den" qəzetində (№44) bununla bağlı "İrşadçının cavabı" sərlövhəli kəskin bir yazı da dərc etdirmişdi.

Ü.Hacıbəyov 1907-ci il iyunun 12-də "İrşad"da jurnalın nəşrinin rəsmi dairələr tərəfindən qadağan edilməsilə əlaqədar xüsusi kəskin qısa bir yazı da vermişdi, onu oxuculara təqdim edirəm, çox ibrətamiz, dəyərli bir əsərdir.

Dövlət Dumasını bağladılar...

"Molla Nəsrəddin" jurnalını da bağladılar...

Dövlət Dumasını bağlayan hökumət oldu...

"Molla Nəsrəddin"i də bağlayan hökumət oldu...

Ancaq təfavüt burasındadır ki, Dövlət Dumasını bağladılar, padşah əmri ilə, amma "Molla Nəsrəddin" jurnalını - donos ilə...

Bəli, alimi-məşhur olan qədim Molla Nəsrəddini dəxi müstəbid və müstəbidlər xadimləri haqq və haqqaniyyəti üstündə sevməyib, o qədər incitdilər ki, yazıq axırda özünü dəliliyə vurdu...

"Molla Nəsrəddin"in bir o qədər "siyasi töhməti" yox idi ki, hökumət əhlinin xatirinə dəyə və onu da "Müzürr məsləkinə görə" bağlaya idi. Xeyr! "Molla Nəsrəddin"in rus hökuməti ilə bir o qədər işi yox idi. Bəlkə onun işi "bizim öz hökumətimiz ilə idi". Yəni "Molla Nəsrəddin" haqq söz danışırdı.

Və haqq və həqiqət acı olduğuna görə həmişə "şirni" yeməyə öyrənmiş "hökumətimiz"in xoşuna gəlmədi və gəlməyən surətdə "hökumət" hökumətə donos verib, haqq və həqiqət ağzını yumdurdu...

Lakin yumdura bildimi?

Bu özgə məsələdir. Bunu, get cəmaətdən xəbər al, desin!

Filankəs
(Üzeyir Hacıbəyov)
"İrşad", №109, 12 iyun 1907

"Günay", №11, 18 mart 2006

İKİ BÖYÜK ŞƏXSİYYƏTİN DOSTLUĞU VƏ "MOLLA NƏSRƏDDİN"DƏ İKİ FELYETON

Mirzə Cəlil - Üzeyir Hacıbəyov. İki nəhəng yaradıcı şəxsiyyət, iki səmimi dost! Onların münasibətləri haqqında bircə mötəbər şahid xatirəsi: 1911-ci ilin yayı. Gürcüstanın səfalı Bakuriani istirahət zonası. Həmidə xanım Məmmədquluzadə burada Mirzə Cəlil və Üzeyir bəyin münasibətiərini əks etdlrən bir əhvalat barədə xatirələrində yazır: "... həmin yayı bəstəkar Üzeyir Hacıbəyov da öz ailəsi ilə və qardaşı ilə birlikdə Bakurianidə istirahət edirdi. Biz onlarla söz qoyduq ki, birlikdə meşəyə seyrə gedək. Səhər bir günlük ərzaq aldıq, hamımız meşəyə getdik. Məni ağacın altında oturtdular. Mirzə Cəlil Üzeyiri çox sevirdi. Onlar baməzə söhbətlər edir, uşaqlarla birlikdə qaçışıb oynayırdılar. (Diqqət verin, bu vaxt M.Cəlilin 42, Üzeyir bəyin 26 yaşı vardı - Ş.H.) Qərara aldılar ki, naharı özləri hazırlasınlar və bozbaş bişirsinlər. Əvvəlcə gedib odun yığıb gətirdilər, ocaq qaladılar, ətrafına üç daş düzüb qazanı qoydular üstünə. Mirzə Cəlil və Üzeyir ocağın başından kənara çəkilmirdilər. Gah ocağa odun qoyur, gah da bozbaşın dadına baxırdılar. Mirzə Cəlil bu fikirdə idi ki, o, ömründə belə ləzzətli bozbaş yeməmişdir...".

Tədqiqatçılar haqlı olaraq M.Ə.Sabir, Ə.Haqverdiyev, Ö.F.Nemanzadə, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi və b. birlikdə Ü.Hacıbəyovu da "Molla Nəsrəddin"çilər sırasına, daha doğrusu onun yolunu tutanlar sırasına daxil edirlər. Məlumdur ki, Ü.Hacıbəyovun bu həftəlik siyasi-satirik və bədii jurnal

səhifələrində cəmisi iki felyetonu dərc olunmuşdur. Bunlar 1911-ci il iyulun 27-də "Molla Nəsrəddin"in 27-ci nömrəsində "Uşaq" və 4 avqust tarixli 28-ci nömrəsində dərc olunmuş "Hamam" sərlövhəli felyetonlardır. Birincisi "Lal uşaq", ikincisi "Hamamçı" imzaları ilə çıxıb. Hər iki felyeton 1911-ci ilin göstərilən aylarında Üzeyir bəyin Tiflis və Bakuriani səfərləri zamanı yazılıb və dərc olunub.

Məlümdur ki, dahi bəstəkar, qüdrətli yazıçı, maarif və mədəniyyət xadimi olan Uzeyir bəy, həm də mahir publisist və istedadlı satirik qələmə malik idi. Onun təkcə "İrşad" qəzetinin 1905-1908-ci illər nömrələrində "Ordan-burdan" ümumi başlığı altında 300-dən artıq satirik yazısı dərc olunmuşdur. Bu səciyyədən olan felyetonlara biz Üzeyir bəyin bilavasitə işlədiyi və əməkdaşlıq etdiyi "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal", "Açıq söz", "Azərbaycan" və digər mətbuat orqanlarında da rast gəlirik.

Üzeyir bəyin "Molla Nəsrəddin" jurnalında dərc olunmuş bu iki felyetonu nədənsə onun bu vaxtadək nəşr olunmuş publisistik əsərlərinə daxil edilməmişdir. Bunu nəzərə alaraq "Molla Nəsrəddin"in 100 illiyi ərəfəsində həmin felyetonları oxuculara təqdim edirəm.

UŞAQ

İstəyirəm sizə bir-iki kəlmə söz deyəm, amma özünüz bilirsiniz bizdə bir adət var ki, böyüklər yanında kiçiklər danışmaz. Mən də indi istəyirdim sizə bir-ikicə söz yazam, amma vallah, çox qorxuram. Çünki, siz bir qoca və molla kişi, mən bir "dünənki uşaq". Necə ola bilər ki, oturam sizinən adam kimi danışam.

İndi mən də öz yanımda belə qət eləmişəm ki, gərək böyüyüb-böyüyüb lap yekə oğlan olana kimi gözləyim, heç danışmayım. Amma bircə dərd burasındadır ki, bilmirəm mən bu zəhrimar, "kiçiklikdən" və "dünənki uşaq"lıqdan nə vaxt qurtula biləcəyəm? Çünki sən əgər 25-30 yaşında da olsan, yenə özündən beş yaş böyük adamın yanında lal olasan, ələlxüsus ki, bəy, xan və dövlətli olmuş ola. Çünki, hər halda sən kiçiksən, böyüyə hörmət lazımdır.

Əgər mümkün olsaydı, mən sizdən iki kəlmə söz soruşardım: Əvvəl onu soruşardım ki, görəsən heç qaranlıqda işıq ola bilərmi, ya yox?

Biz indiyə kimi görmüşdük ki, işıq bir elə qüvvədir ki, həmişə dörd tərəfini aydın eləyir, hər şey aşkar görünür. Amma bizim şəhərdə bir "İşıq" çıxıb öz ətrafı hələ qaranlıqdır ki, gözgözü görmür. Bu da bir belə qəribə işıqdır.

Əvvəl yevropalılar elə bilirdilər ki, bu təzə çıxan işıq yəqin "Rentgenin" tapdığı işıq kimi və ya "Radi"dən əmələ gələn işığa bənzəyir. Sonra gördülər, xeyr, bu da bir cürə işıqdır ki, özü gözə görünmür və ətrafında olan şeyləri də adama açıq göstərir və dörd bir yanına elə işıq saçır ki, nəinki, üzərində olan şeyləri, hətta insanın bədəninin içində olan sirri də göstərir. Bu günlərdə Yevropadan buraya bir neçə alimlər gəlmişdilər ki, görsünlər ki, bu təzə tapılmış işıq nə cür şeydir. Amma nədənsə olar burada çox qalmayıb qoyub vətənlərinə getdilər. Belə deyirlər ki, həmin yevropalılar nə qədər çalışdılar, bu işığın nə cür möcüz olduğunu heç başa düşə bilmədilər.

Kafirlər elə bilirlər ki, biz elə həmişə onların icad elədiyini başa düşməyəcəyik. İndi gəlsinlər görək olar da bizim aramızda təzə-təzə çıxan şeylərdən başları çıxarmı? Vallah ki, heç yüz il də çabalasalar bir şey qanmazlar. Olar hələ getsinlər qanqal otlamağa!

O ki, qaldı biz, biz də vallah, əvvəldən çox sevinirdik və dedik: İlahi! Sənə şükür, biz də axırda təzə bir belə yaxşı şey icad etdik. Çünki, zindanda olana azadlıq, qaranlıqda olana əlbəttə, işıq lazımdır. Sevindik ki, bəli, zülmətdə qalmış bacılarımızın üstünə bir gün düşdü. İnşaallah, buları zülmətdən və zindandan xilas edib işıqlığa çıxardar.

Bəli, biz belə bildik. Amma qəzanın işi özgə imiş. Yenə bir iş də var, onu da sizə indi diyirdim. Ancaq atam mənə öyrədib ki: "Uşaq çox danışmaz!". Ona görə indi gərək kiriyim, lal olam, mal olam. O vaxta ki, lap böyük ollam, onda yenə sizdən bir şey soruşacağam.

Soruşacağam ki: "Molla baba! Məni başa sal görüm "Nicat" sözü nə deməkdir?"

Bilmirəm vallah, doğrudumu? Amma burda bir para adamlar deyirlər ki, "Nicat", yəni günün günorta çağı (nə təhr adam olur, qoy olsun) alladıb öz evinə salıb, yaxşıca döyüb, baş-qulağını əzib, yola salmaq. Bax əsl nicat bundan ibarətdir.

Çünki, bilirsinizmi? Adam döyüb hirs soyutmaq, adamı qanına bulaşdırıb intiqam almaq, bizim aramızda ata-babadan qalma və muqəddəs bir adətdir. Buna görə də adam baş-qulağı əzməyə təəccüb eləmək heç lazım gəlmir, çünki, bu da bu cür nicatdır.

Bəli, molla baba, belə şeyləri sizdən xəbər almaq istəyirəm. Nə faidə ki, hələ bir az uşağam. Allah qoysa lap qocalanda bu şeylərin hamısını sizinlə danışaram. Amma, indi gərək kiriyim. Çünki böyüklərə hörmət lazımdır.

Lal uşaq
(Ü.Hacıbəyov)
"Molla Nəsrəddin", №27, 27 iyul 1911

HAMAM

Zaman iki insan hamama daxil olur, görür ki, hamamda "Müsavati-tammə" (tam bərabərlik) bərpadır, yəni hamı lüt və üryan olub ümumi bir sifətlə mövsufdurlar. Kənardan gələn adam heç vaxt bilə bilməz ki, bu lüt adamların sənəti nədir, kim nə karədir və nə yola qulluq edir. Çünki surəti-zahirdə hamı bir dondadır, bir sifətdədirlər. Amma eylə ki, bu lütlər hamamdan çıxır və hər kəs öz əsl donuna girir, o halda kənardan baxanın gözləri açılır, onda məlum olur ki, bu adamların biri molla imiş, biri həammal (hambal) imiş, biri bəy, biri qoçu, biri uçitel, biri baqqal, biri nə bilim nə imiş, qərəz məlum olur ki, hamamdakı mü ,avat müvəqqəti imiş. Bəlkə əsl ıəqiqətdə hər kəsin özünə məxsus donu varmış...

1905-ci sənədə mən Bakıya daxil oldum. Daxil olub da özözümə çox sevindim. Çünki Bakıda olan müsəlmanların hamısını bir sifətdə gördüm. Molla, tacir, bəy, qoçu, yazıçı, neftçi, milyonçu, uçitel, hamısı bir rəngdə idilər. Və hamısının ağzından tökülən söz bu idi: Müsavat, ədalət, üxüvvət (qardaşlıq).

Öz-özümə dedim: Pəh, pəh, pəh! Cəmaətimiz ayılıbdır.

1906-cı sənə gəldi-genə haman sifət, haman rəng. Genəpəh-pəh, pəh!!!

1907-08-ci sənələr gəldi. Bir də baxdım gördüm nə? Adamlar bir-bir hamamdan çıxırlar və hər kəs öz həqiqi donuna girir. Onda bildim ki, Bakı o zaman hamam imiş.

Bəli, elə ki, hər kəs öz donuna girdi, Bakı yavaş-yavaş qaynaşmağa başladı... Müsavat, üxüvvət sözləri əvəzinə özgə sözlər söyləndi. Birinə gəlmə dedilər, birinə yerli dedilər, döymək, öldürmək, qovmaq kəlmələri asimana büləndoldu.

Qafqaz müsəlmanlarının bir danə mərkəzi olan Bakıda min danə mərkəz əmələ gəldi. Bu mərkəz sahibi olan şəxslərin

başındakıları da bir neçə mərkəzə bölünüb hər mərkəzdən bir avaz çıxdı. Bakı oldu qatıqlı aş.

Bircə bunlara deyən yoxdur ki, ay cəmaət, axı nə olub, bu nə hay-küydür, bu nə erməni bazarıdır, bu nə zənənə hamamıdır.

Hərgah hal-hazırda sizi qaynaşmaya salan Tağıyev-Behbudov əhvalatıdırsa, mən imanım hay-küyünüz saxtadır. Sizin nə Tağıyevə yazığınız gəlir, nə də Behbudova. Mən bilirəm ki, sizin bir paranızı qızışdıran Tağıyevin adı, sanı, ələlxüsus puludur. Bir paranızı hay-küyə salan - aranı qarışdırıb mənfəətbərdar olmaq arzusudur. Bir para Mustafa bəy Əlibəyov kimiləri zingildədən yalançı pəhləvanlıq həvəsidir ki, o da başın boşluğuna dəlalət edər.

Bəli, gün o gün oldu ki, Bakıda hər kəs öz əsl donuna girdi və özünü bildirdi. İndi hərif istəyirəm ki, bu adamların indiki əsl surətlərini yadında saxlayıb iqtizai-zəmanə görə bu əsl dondan çıxıb özgə bir dona girmək istədikləri vaxt əlbəyaxa olub desin ki: Xeyr! İndi aslan dərisinə girməklə bizi aldada bilməzsiniz. Biz sizin, əsl dərinizi vaxtında görmüşük və kim olduğunuzu yaxşıca bilirik, vəssəlam.

Şer:

Sən murdar donunu çıxardıb hamama girirsən ki,
murdarlığını təmizliyəsən,
Amma mən bilirəm ki, hamamdan çıxan kimi
genə o murdar dona girəcəksən, ay yazıq!

Hamamçı
(Ü.Hacıbəyov)

"Molla Nəsrəddin", №28, 4 avqust 1911

"Günay", №12, 25 mart 2006

BİR ƏSRLİK MƏSAFƏ – NƏ DƏYİŞİB, NƏ QALIB?

M.Ə.Sabirin "Millətimizin mənəvi atası" adlandırdığı, milli müqəddəslərimizdən Həsən bəy Zərdabi çox danışıb, az iş görən, "bir güllə bahar olmaz" - deyib yaxasını qırağa çəkib vətən və millət qeyrəti çəkməyən soydaşlarına müraciətlə "Əkinçi"də yazırdı: "Halva-halva deməklə ağız şirin olmaz, siz də mənim kimi baldırınızı çırmayıb meydana daxil olun ki, bəlkə zikr olan xəyal əmələ gəlsin, yoxsa doğru deyirsiniz ki, bir gül ilə bahar olmaz".



Həsən bəydən sonra baldır çırmayıb meydana daxil olan böyük və istedadlı fədailərin ən görkəmlisi Cəlil Məmmədquluzadə – Molla Nəsrəddindir.

Bu il fevralın 10-da Azərbaycan Molla Nəsrəddini - Cəlil Məmmədquluzadənin anadan olmasından bir hesabla 140, başqa fikrə görə 137 il keçdi. Aprelin 7-də isə "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 100 illiyi tamam olur. 75 il bundan əvvəl -1931-ci il iyunun əvvəlində "İnqilab və mədəniyyət" jurnalında (№ 6) belə bir elan dərc olunmuşdur: "Azərbaycan mübariz allahsızlar ittifaqının mərkəzi və Bakı şurası "Molla Nəsrəddin" adlı yeni bir jurnal nəşrinə başlayır".

Həmin ilin avqustunda həmin yeni "Molla Nəsrəddin"in 1-ci nömrəsi çıxdı. Nömrədə "Dini mövhumatla 25 il qəhrəmancasına mübarizə edən yol. Cəlil Məmmədquluzadəyə mübariz allahsız salamı" sərlövhəli yazı verilmişdi. Yazıda deyilirdi: "Molla Nəsrəddin" bugünkü allahsızların kol qıranı, şumçusu, kotançısı olmuşdur...".

Bu üzdəniraq "Molla Nəsrəddin"i Mirzə Cəlilin "Molla Nəsrəddin"i hesab etmək, onunla eyni müstəviyə qoymaq ən azı insafsızlıqdır. Axı, 1924-cü ildən sonra nəşr olunan "Molla Nəsrəddin"lərdə Mirzə Cəlilin redaktorluq imzası yoxdur. "Heyəti-təhririyyə" - redaksiya heyəti yazılırdı. O, buna çox böyük təkid və qətiyyətli tələblə nail olmuşdu. Çünki, jurnalın istiqaməti, baş verən hadisələrə münasibəti Mirzə Cəlilin demokratik, ümummilli ruhuna uyğun deyildi. Mirzə Cəlili müxtəlif maddi və mənəvi təzyiqlərlə yeni allahsız quruluşun tərəfdarına çevirmək istəyirdilər.

Jurnalın Sovet dövrü nəşrini - yəni 1922-1931-ci illər fəaliyyətini obyektiv, tarixi-elmi və nəzəri cəhətdən yenidən tədqiq edib öyrənmək və işləmək zərurəti vardır. Elə ciddi elmi tədqiqatlardakı bəzi ciddi təhrif və ideoloji-sinfi baxışların da düzəldilməsi vacibdir. Məsələn, M.Cəlili - allahsız, dinsiz, ateist kimi qələmə vermək, ucdantutma xan-bəy düşməni kimi səciyyələndirmək nə qədər həqiqətə uyğundur?

Keçən əsrin 20-ci illərində və sonralar belə M.Cəlilə və "Molla Nəsrəddin" jurnalına, onun Bakıdakı fəaliyyətinə münasibət birmənalı olmamışdır. 1922-ci ildə Bakıda hətta N.Nərimanovun da iştirak etdiyi M.Ə.Sabirin abidəsinin açılışı mərasiminə M.Cəlili dəvət etməmişdilər. Jurnalın nəşrə başlamasının 25 illik yubileyi də istənilən səviyyədə keçirilmədi. M.Cəlil həyat yoldaşı Həmidə xanıma 1931-ci ilin fevralında yazdığı məktubda ona

xas olan eyhamlı tərzdə yazırdı ki, "mən onlara dedim ki, 25 illiyi bayram etmək tezdir. Allah qoysa 75 illiyini bayram edərsiz".

1931-ci ilin payızında jurnalın 25 illiyinə həsr olunmuş yubiley məclisi keçirildi. Amma necə? Q.Məmmədli bu haqda 1984-cü ildə nəşr etdiyi "Molla Nəsrəddin" salnaməsi"ndə yazır: "Təntənəli iclasın sonunda Mirzə Cəlil tribunaya çıxıb iki dəqiqəlik qısa bir nitq söylədi..., yubiley haqqında dövri mətbuatda məlumat yoxdur".

Obyektivlik naminə demək lazımdır ki, bəzi qeyd etdiyimiz kommunist partiya ideolojisindən gələn xətalara baxmayaraq M.Cəlilin zəngin bədii, ədəbi-ictimai, publisist və jurnalistik irsi çox geniş, dərin, hərtərəfli tədqiq edilmiş və edilməkdədir. Artıq jurnalın ərəb əlifbasından latın qrafikasına çevrilmiş 1906-1910-cu illəri əhatə edən çox nəfis şəkildə tərtib və nəşr olunmuş 3 cildi oxucuların istifadəsinə verilmişdir. Yəqin ki, yerdə qalan cildlər də bu səviyyədə işıq üzü görəcək.

"Molla Nəsrəddin"i yaşadan, bizə doğma edən onun xalqla, onun əsri dərdləri və problemlərilə bağlılığıdır. Onun satira atəşinə tutduğu xəstəliklərin, bəlaların aradan çıxdığını da söyləmək olmaz. Aşağıdakı nümunələrə diqqət verin:

"Bir gün deyirik "qatıq ağdır"- deyirsiz "bəli". Sabah keyfimiz istəyəndə deyirik: "qatıq qaradır" - deyirsiniz "bəli".

"Yazıq müsəlmanlar!"

"M.N.", 10 fevral 1907, №6

Məscidlərimiz ibadətxanalıqdan çıxıb dilənçixana olublar...

Bizim məscidlərə cəm olanlara diqqət eləsək, görərik ki, məscidə gələnlər ancaq fəhlə, hammal, kənkan, dilənçi, dəllək, pinəçi,

nalbənd, çərçi və xırda-xuruş alış-verişçilər, baqqallar, kərbəlayı və məşədilər və kasıb hacılardır. Əgər əcnəbi millətin birinin yolu bizim məscidlərə düşsə, elə yəqin edər ki, müsəlman içində bir dənə də rəğbətli, dövlətli, səliqəli, təmiz və nəcib adam, bir dənə bəy, xan, qulluqçu, oxumuş və sahibi-mənsəb yoxdur.

"M.N.", 24 noyabr №34

"25 manat məvaciblə 50 min manatlıq ev tikdirmək olmaz... Bəs 50 min manatlıq, ya 25 min manatlıq ev məgər göbələkdir ki, öz-özünə yerin altından pırtlayıb çıxsın?"

"M.N.", 21 aprel 1907, №16

Qərinələrlə millətimizin şirin canına milyonlarca ac daraşıb qanını sormaqdadır və məhz bu həşəratlar milləti xəstə edən, məhz bu mikroblardır onu bədnam edən!.. Lazımdır mikrobları millətin bədənindən kənar eləmək!

Yoxsa nə göz yaşı tökməklə azarlı şəfa tapar, nə dua yazmaqla!

"M.N.", 2 mart 1908, №9

Hər bir müsəlman qəzetini alırsan əlinə, görürsən ki, yazılıb "maşallah, filan milyonçu, maşallah, filan millətpərəst, maşallah, filan xan, filan bəy, filan hacı, filan kərtənkələ...". Amma heç kəs yazmır ki, bir yandan minlərcə müsəlmanlar acından ağlaşır və bir yandan da min-min manatlar xərclənirlər qonaqlıqlara, şöhrət ehsanlarına, qara neftə, püstə-badama, barışna və madama, sözü bir dəfə deyərlər adama!...

"M.N.", 27 yanvar 1908, №4

"...Hərdən bir keçmiş günləri yad etmək lazımdır. Salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi...

Hərdən bir ana dilində danışmaq ilə keçmişdəki gözəl günləri yad etməyin nə eybi yar?!

"M.N.", 7 aprel 1906, №1

"Zəhrimar olsun bir tikə çörək ki, insan onu qorxa-qorxa oğurluğunca yeyəcək..."

"M.N.", 26 oktyabr 1906, №29

"Rus padşahı Yaponiya ilə davanı təzə başlamışdı, Şamaxı məhkəməsinin üzvü Hacı Əbdurrəhim əfəndi öz tərəfindən ərəb dilində şerlə bir mədhnamə inşa edib, imperator Nikolay və imperatritsa adına Peterburqa göndərmişdi. Çox çəkmədi ki, bunun əvəzində padşah tərəfindən cənab qazıya bir ədəd qızıl saat, üstündə padşahın və əyalının surəti nəsb olunmuş, - göndərildi. Cənab əfəndi isə o hədiyyəni yadbud edib, o vaxtdan bəri hər işin tərk eləyib, yenə cənab imperatordan bir başqa hədiyyəyə nail olmaqdan ötrü bu neçə vaxtlarda tamah dişini gecə və gündüz itiləməyə məşğul olub, tədbirlər və politikalar tökürlər...".

"M.N.", 30 iyun 1906, №13

İnsan üçün böyük dərslərin biri də tarixdir. Aç qabağına tarixin səhifələrini və əgər gördün ki, bir vaxt insanlar bir para işlərdə səhv eləyibləri - dəxi sən həmin səhvi eləmə...

Qeyri millətlərin içində hürriyyət davası düşəndə uşaqlar dava meydanına çıxanda hərəsi cibinə bir elə şey qoyub çıxıb ki, dava vaxtı lazım olsun. Heç olmazsa Allahın bıçağına nə gəlib

(Yenə bıçaqla düşməni qorxutmaq olar...). Erməni-müsəlman davasında Şeytanbazar müsəlmanları Quranın ayələrini kağız üstə yazıb yapışdırmışdılar divarlara... Müsəlmanlar bərkə düşəndə düşmən qoşununun qabağına Quran çıxardırlar...

"M.N.", 14 iyun 1908, №28

Sabah qəzetlərdə oxuyursan ki, ingilis camaatı ianə yığırlar ki, çörək alıb göndərsinlər Samara aclarına. Firəngistanda mədənlərdə tələf olan əmələlərin əhli-əyalına Yaponiya əmələləri dünyanın o başından bu başına pul yığıb göndərirlər...

Amma bizə gələndə baxıb görürük ki, Arazın bu tayında olanlarımız Arazın o tayında olanlardan bixəbərdirlər.

"M.N.", 4 avqust 1908, №31

Böyükləri mədh etməyə səhifələrimiz açıqdır.

"M.N.", 2 avqust 1909, №31

Əgər dünyada türk dilini ərəbləşdirən bir yer varsa, o da İstanbuldur.

"M.N.", 19 iyul 1909, №29

Hər kəs yüzdə doxsan doqquz ərəb və fars kəlməsi işlətməsə, - heç kəs ona alim deməyəcək.

"M.N.", 9 avqust 1909, №32

Dünyada nə qədər tar çalan və oxuyan var - qarabağlıdır.

"M.N.", 6 sentyabr 1909, №36

Hər bir kəs yatıb yuxuda sayıqlasa, onun hədərən-pədərənini götürüb qəzetdə çap eləməzlər.

"M.N.", 4 oktyabr 1909, №40

"İrəvan və Qarabağ vilayətlərinin aclarının dad-fəryadı sizin qulaqlarınıza çatmır!...

Bir neçə gün bundan irəli mən gedib, Qarabağ və İrəvan quberniyasını gəzib dolanmışam. Bu dəfə mən yəqin eləmişdim ki, bir dənə də qarnıyoğun adam görməyəcəyəm, ondan ötrü ki, İrəvan və Qarabağ aclarının vayıltısı Tiflisdə gürcüləri ağladır... Amma bu dəfə mən başıdaşlı nə gördüm? Heç birinin qarnı təfavüt eləməyib".

"M.N.", 8 dekabr 1906, №36

"- Ay mənim gözlərim və qulaqlarım, Allah sizi mənə verib görməkdən və eşitməkdən ötrü. İndi kef sizindir. İstəyirsiniz görün və eşidin, istəyirsiniz kor və kar olun. Hər nə edirsiniz edin, amma qarnımnan işiniz olmasın".

"M.N.", 15 dekabr 1906, №37

"Ac-uc əmələlər gördülər ki, rus hökumətinin başı qarışıb və Şeytanbazar müsəlmanları deyən kimi yapışdılar xozeynlərin yaxasından ki, bizim muzdumuzu artırın. Şeytanbazar müsəlmanları doğru deyirlər ki, Rusiya iğtişaşı heç bir şey deyil, məhz məvacib davasıdır".

"M.N.", 29 dekabr 1906, №39

BAKI DƏRYASI (ixtisarla)

Nə gözəlsən, ey Bakı dəryası! Və necə xoşbəxtsən, ey Bakı dəryası! Ey Bakı dəryası, ey dəryaların seçilmişi! Ey göllərin padşahı! Nə göl kimi gölsən, ey Bakı dəryası, çünki yer üzündə sənin kimi böyük göl yoxdu! Nə dərya kimi dəryasan, ey Bakı

dəryası, çünki çəkilib şir kimi durmusan kənarda və heç bir özgə dəryalara qarışmırsan, heç kəs ilə işin yoxdur!...

...Həmişə səni yadıma salanda, ürəyim tab gətirmir, hövsələm daralır, ovqatım təlx olur və dəli-divanə kimi düşürəm yola və Tiflisdən bir başa gəlirəm sənin tamaşana... Xəbərin olmur ki, Məcnun kimi gəlib durmuşam astananda, mən dururam "Qubernat" bağında sənə tamaşa edirəm... Məşədi və hacılar da tamaşa edirlər.

Tək bircə mənəm sənə tamaşa edən. Pəs nəyə tamaşa edirlər hacılar, kərbəlayılar və məşədilər?

Dəryanın kənarında urus balaları çimir!...

"M.N.", 29 iyul 1907, №28

Neçə yüz ildən sonra biz də o məqama çata bilərik ki, gözümüzü açıb dostumuzu və düşmənlərimizi tanıyaq?... Allah özü dadımıza çatsın.

"M.N.", 1 sentyabr 1908, №35

Dünyanın heç bir nöqtəsində, heç bir tayfa arasında şeytan o qədər modda deyil ki, biz müsəlmanların arasındadır. Hər bir işdə, hər bir məqamda, məscid və minbərdən başlamış - evlərimizə, küçələrimizədək öz qəlblərimizi şeytanın adı ilə doldurmuşuq.

Özgə bir millət düşməndən ehtiyat eliyəndə müsəlman şeytandan qorxur... elə xəyal elənməsin ki, burada şeytandan murad Qarabağ və Naxçıvan şeytanlarıdır.

"M.N.", 15 sentyabr 1908, №37

Bu nədir - əmələlər acdırlar, kəndlilər torpaqsızdırlar, kəndlər şkolsuzdurlar, viran olub vətənimiz, elimiz, itib gedib dinimiz, həm dilimiz, əzilib əngimiz, sınıb belimiz, bəs biz ağlamayaq, kimlər ağlasın?!

"M.N.", 4 noyabr 1907, №41

Xəyal, fikir və əqidə düzəlməsə, iş heç vaxt düzəlməz, o səbəbə kl, ikinci birincilərə tabedir.

"M.N.", 24 sentyabr 1907, №36

Əks-səda

Min yaşasın sözün açıq danışan qələm sahiblərimiz.

"M.N." 8 oktyabr 1907, №38

Biçarə ruznamə yazanlar millət və insaniyyət yolunda gözlərinin nurunu töküb, axırda "lənət"dən savayı bir şeyə sahib olmurlar...

Camaatın bəsirət gözünü açıb, dostla düşmənini tanıtmaqdan savayı ruznamənin heç bir təqsiri yoxdur.

"M.N.", 27 oktyabr 1906, №30

Allaha şükür olsun

Allaha şükür olsun ki, axırı Bakıda da əmin-amanlıq bərqərar oldu. Doğrudan mən həmişə Bakının işlərini eşidəndə xarab olardım. Həqiqət, bu qədər bədbəxtlik, bu qədər zülm və fəsad ki, Bakıda üz verirdi heç bir yanda olmayan və eşidilməyən bir iş idi: gün olmazdı ki, küçə və bacada adam ölməsin, adam yaralanmasın, adam oğurlanmasın, heç kəs cürət eləyib küçəyə çıxa bilmirdi.

Xülasə, indi Allaha şükürlər olsun ki, bunların hamısı bir günün içində götürüldü. İndi Bakıda o qədər sakitlikdir ki, o qədər rahatlıqdır ki, o qədər arxayınlıqdır ki, əhali qurd-quzu kimi otlayırlar...

"M.N.", 8 mart 1909, №10

"Sözün doğrusunu danışmaq da bir hünərdir. Yoxsa öz-özümüzü başlayaq tərifləyək və özgələri pisləyək - bu yaxşı deyil".

"M.N.", 19 may 1907, №20

"Biz belə qanırıq ki, xəyal, fikir və əqidə düzəlməsə, feil (iş) heç vaxt düzəlməz".

"M.N.", 24 sentyabr 1907, №36

"Zindanda olana azadlıq, qaranlıqda olana əlbəttə işıq lazımdır".

"M.N.", 1911, №27

Özgə millətlər içində bir dövlətli öz millətinə dövləti ilə xidmət eləməsə, ona etina və hörmət eləməzlər.

Amma bizlərdə tərsinədir. İstər bir yanda aclar acından ölə-ölə İrəvan və Naxçıvanda dövlətlilərimiz kef çəksinlər, istər bir yanda aclarımız acından ölə-ölə Bakıda dövlətlilərimiz dəstəbazlıqla məşğul olsunlar, istər Qarabağda bəylərimiz şeytançılığa qurşansınlar, biz yenə hər yanda onları görən kimi ikiqat olacağıq.

"M.N.", 24 mart 1907, №12

Gərək oxucularımızın heç biri bunu inkar etməyə ki, biz bir dövlətlini görüb ikiqat olanda məhz onun dövlətliliyini nəzərə

alırıq, nəinki ləyaqətini, hüsni-əxlaqını, insaniyyətini, ibadətini, ya millət yolunda xidmətini.

Əgər biz bu sifətləri nəzərə alsaq, kasıblarda həmin sifətlər dəxi də tez tapılar, nəinki dövlətlilərdə...

"M.N.", 24 mart 1907, №12

Niyə dünyada hər nə bəla var müsəlmanların başına gəlir? Biz deyirik ki, Avropa hökumətləri xəyallarında qoyublar cəmi müsəlman hökumətlərini yer üzündən götürüb, özlərinə müti eləsinlər. Amma mən deyirəm ki, Avropa hökumətləri gözləyirlər ki, nə vaxt müsəlman hökumətləri öz-özlərini yer üzündən götürsələr, o vədə onlar da müsəlmanları sahiblənsinlər.

"M.N." 29 sentyabr 1908, №39

Əgər sən Dumada padşah tərəfdarı olsan, biz səni özümüzə vəkil seçərik, olmasan, bizə lazım deyilsən!

"M.N." 17 fevral 1907, №7

"Şvetsariya Zəngəzur mahalı böyüklüyündə ola-ola oranın qəzetlərinin iki milyon müştərisi olsun, "İrşad"ın 5 min də olmasın? Niyə Rusetdə "Novoye vremya"nın 3 milyon müştərisi, erməni "Mşak" qəzetinin 55 min müştərisi olsun, "İrşad"ın 5 min olmasın?".

"M.N." 1 dekabr 1906, №35

Bir millət ki, özünün, məscidinin, millətinin qədrini bildi, ona qəyyum lazım deyil, məsələn, polyak, alman, firəng, yəhudi və b. kimi.

"M.N." 7 aprel 1907, №14

"Molla Nəsrəddin"dən qabaq (qəzetlərdə) zarafatlar yox idi. İndi hamı "Molla Nəsrəddin"ə baxıb başlayıblar zarafatnan yazmağa.

"M.N." 21 aprel 1907, №16

Əgər belə getsə, bir az çəkməz ki, Rusiyada və Qafqazda nə qədər müsəlman məktəbi və qiraətxanası və cəmiyyəti - xeyriyyəsi və özgə bir cəmiyyətləri var - hamısının pulu qurtaracaq.

"M.N." 5 may 1908, №18

Osmanlıda qanuni-əsasi yolunda çalışır-bağır eyləyənlərin çoxu arvadlardır. Biz qəzetlərdə oxuduq ki, osmanlı arvadları bir yerə cəm olub nitqlər söyləyiblər və and içiblər ki, paymal olan hüquq və ixtiyarlarını qanuni-əsasi vasitəsilə geri alsınlar. Və hamı görür ki, minlərcə osmanlı arvadları bir meydana yığışıb, utanmaya-utanmaya və heç bir kişidən qaçmaya-qaçmaya, kişi kimi bir uca stolun ütunə çıxıb, kişilərin içində səslərini ucaldıb nitq söyləyirlər?

...Biz bu işləri görə-görə öz-özümüzə deməliyik ki, "bu nədir?".

"M.N.", 11 avqust 1908, №32

"Günay", №13, 14, 15; 1, 8, 15 aprel 2006

94 YAŞLI QULAM MƏMMƏDLİNİN "MOLLA NƏSRƏDDİN" HAQQINDA SONUNCU MÜSAHİBƏSİ



1991-ci il fevralın 27-də həmin ilin martında nəşri nəzərdə tutulan yeni "Molla Nəsrəddin" jurnalının bir əməkdaşı qocaman jurnalist, ədəbiyyat və mətbuat tariximizin tədqiqində misilsiz xidmətləri olan, C.Məmmədquluzadə, H.Ərəblinski, C.Zeynalov, H.Cavid, N.Nərimanov, Ü.Hacıbəyov, Azərbaycan teatrı kimi fundamental salnamələrin müəllifi 94 yaşlı Qulam Məmməd oğlu Məmmədli (1897-1994) ilə görüşüb "Molla Nəsrəddin"i diriltmək olarmı?" mövzusunda müsahibə alınmışdı. Həmin müsahibə 1992-ci il aprelin 22-də, yəni 14 il bundan qabaq yeni "dirçəldilmiş" "Molla Nəsrəddin"in 1-ci nömrəsində dərc olunmuşdur. Qeyd edim ki, bu nəşrlə əlaqədar jurnalın təsisçisi, müdir və baş mühərriri, mənim keçmiş tələbəm, istedadlı jurnalist, vaxtsız dünyasını dəyişmiş Malik Fərrux mənə də müraciət etmiş və fikrimi soruşmuşdu. Jurnalın 1-ci nömrəsində "Ruhun şad olsun!" sərlövhəsi altında bu təşəbbüs barədə İstanbuldan professor Camal Anadolun, xalq şairi B.Vahabzadənin, xalq yazıçısı B.Bayramovun, "Gənclik" jurnalının baş redaktoru M.İsmayılın, alim-şair R.Z.Xəndanın və mənim qısa mülahizələrimiz də dərc

edilmişdir. Mülahizə söyləyənlər içərisində "Molla Nəsrəddin" jurnalında bilavasitə işləyən, M.Cəlillə təmasda olan yeganə şəxs Qulam Məmmədli idi.

"Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 100 illiyini qeyd etdik. Jurnalın fəaliyyəti, ənənələri, tarixi rolu və əhəmiyyəti barədə səriştəli yazılar, verilişlərlə yanaşı, səthi, bəzən təhrif olunmuş yazılara və verilişlərə də təsadüf etdik. Bu, xüsusilə jurnalın sovet dövrü fəaliyyətinə, C.Məmmədquluzadənin fəaliyyət və yaşam tərzinə aid məsələlərlə əlaqədar problemlərə aid idi. Qulam Məmmədlinin bu sonuncu müsahibəsində - yəni müstəqillik dövründə ilk dəfə açıq dilə gətirdiyi, şahidi olduğu faktlar və mülahizələr tarixi baxımdan çox böyük əhəmiyyət kəsb edir. Qulam müəllim özünün də dediyi kimi, 1923-1928-ci illərdə "Molla Nəsrəddin" jurnalı redaksiyasında işləmişdir. Deməli, jurnal və M.Cəlillə bağlı məsələlər, əhvalatlar onun gözləri qarşısında cərəyan etmişdir. Buraya xeyli müddət Q.Məmmədlinin Respublika Dövlət Arxivində müdir müavini vəzifəsində işlədiyini və arxiv sənədləri ilə də lazımınca tanış olduğunu əlavə etsək onun son müsahibəsində söylədiklərinin əhəmiyyət və dəyərini müəyyənləşdirmək və qiymətləndirmək olar.

Məsələn, məlumdur ki, 1907-ci il mayın 19-da jurnalın 20-ci nömrəsində Mirzə Cəlilin "Erməni və müsəlman övrətləri" sərlövhəli irihəcmli bir felyetonu dərc olunmuşdu. Qulam müəllimin də dediyi kimi, ruhanilər bu yazının əleyhinə, ziyalılar lehinə mətbuat səhifələrində çıxış etdilər. Bu arada "Molla Nəsrəddin"i bağladılar. Ziyalılar bunun təqsirini mollaların, axundların yazılarında, moizələrində, donoslarında görürdülər. Bir aydan sonra jurnal nəşrə başladı. Qulam müəllim indi də sovet dövrü tədqiqatlarında olduğu kimi təkrar olunan həmin versiyaya aydınlıq gətirərək deyirdi: "Sonra tapdığımız sənədlərdən məlum oldu ki, jurnalın bağlanmasında mollaların heç bir iştirakı

olmamışdı. Türkiyədən Sultan Əbdülhəmid Rusiya imperatoru Nikolaya yazmışdı ki, sənin ölkəndə "Molla Nəsrəddin" adlı bir jurnal çıxır. O öz yazıları və karikaturaları ilə məni rüsvay edir. Xahiş edirəm onu bağlatdırasan. İmperator Nikolay bu xahişə görə tapşırıb jurnalı bağlatdırır. Rusiya zakonlarını incəliklərinə qədər bilən Mirzə Cəlil Tiflis xalq məhkəməsinə - indikiyə görə rayon məhkəməsinə ərizə verib sübut elədi ki, Rusiya zakonunun filan maddəsinə, filan bəndinə görə bu işdə mənim jurnalımın günahı yoxdur. Rayon məhkəməsi bu ərizə əsasında imperatorun əmrini ləğv elədi. Jurnal təzədən nəşrə başladı".

Qulam müəllim 1917-ci ildə, oktyabr inqilabından bir ay sonra da jurnalın bağlanması səbəbini aydınlaşdırdı: "C.Məmmədquluzadə demişdi ki, "biz belə deməmişdik" - yəni Türkiyədən və İrandan qayıdan rus soldatları yol uzunu İran, Türkiyə, Azərbaycan kənd və şəhərlərini talayırdılar. Bu barədə Mirzə Cəlilin sağ əli Əliqulu Nəcəfovun "Molla Nəsrəddin"də çap olunmuş bir şeiri var: "Dinmə, danışma ona, soldatdı o!" - təxminən belə başlayır şeir. Bu şeirə görə bağladılar".

Müsahibədə jurnalın 1921-ci ildə Təbriz nəşrinə də aydınlıq gətirilir: "1920-ci ildə aprel "inqilabı"ndan sonra Həmidə xanım Mirzə Cəlili məcbur etdi ki, mal-dövlətlərini götürüb İrana köçsünlər. Mirzə Cəlil Təbrizdə "Molla Nəsrəddin"i azərbaycanca nəşr etmək istədi. Lakin İran hökuməti buna razılıq vermədi - "gərək jurnal farsca çıxsın" - dedilər. Mirzə Cəlil bunun cavabında dedi: "Təbrizdə ermənilər ermənicə qəzet çıxarırlar. Siz isə Azərbaycan dilində jurnal nəşr etməyə icazə vermirsiniz. Elə isə icazə verin "Molla Nəsrəddin"i erməni dilində nəşr edim".

Diqqətimi ən çox cəlb edən bir məqam da M.Cəlil 1921-ci ilin iyununda respublika sovet rəhbərliyinin çox böyük təkidi və xahişi ilə Bakıya gəldikdən sonra qarşılaşdığı münasibətdir. Müsahibədə oxuyuruq: "Mirzə Cəlil ilə Mərkəzi Komitə arasında mübahisə başladı: "jurnal necə çıxacaq və nədən yazacaq?"

M.Cəlil deyirdi: "Sizdə mətbuat partiya orqanıdır, şəxsi adamlara qəzet çapına icazə verilmir. Mənsə "Molla Nəsrəddin"i özüm yaratmışam, özüm satmışam, özüm də nə istəmişəm onu yazmışam. Buna icazə verəcəksinizmi?". Nəhayət, 1922-ci ilin noyabrında 1-ci nömrə (Təbrizdən sonra) çıxdı. Həmin nömrədə "Bakı nefti" adlı şeir və karikatura verilmişdi. Əli vedrəli, bankəli, qablı-qacaqlı kim varsa bu sağmal neft inəyinə hücum edib onu sağmaq istəyir. Bunlar İngiltərə, Fransa, İtaliya, ABŞ, Rusiya idi. Karikatura böyük, hay-küyə səbəb oldu. M.Cəlil bunlara cavabında deyirdi: "Azərbaycan neftini kəndlilərimiz gedib qonşu respublikalardan birə on qat baha alıb yandırırlar ki, qaranlıqda qalmasınlar". Hər yerdə dillərdə oxuyurdular:

Bizi də bu dərd yandırır,
Özgələri bizdən ucuz yandırır.

Çox danışıq getdi. M.Cəlil təslim olmadı. M.S.Ordubadini jurnalın üstündə hərbi komissar təyin etdilər. Ondan icazəsiz heç bir yazı gedə bilməzdi. Ordubadi hələ keçmişdən jurnalın əleyhinə yazanlardan biri idi. M.Cəlil Ordubadiyə yazdığı məktubunda deyir: "Səid, bildiyini elədin, gələn nömrədən mənim adım redaktor kimi o jurnalda yazılsa, mən bilirəm hara şikayət edəcəyəm".

Beləliklə, 1925-ci ildən jurnalın redaktorunun adı əvəzinə "heyəti-təhririyyə" gedirdi. Qulam müəllim deyir:

"Hə... 1922-ci ildən sonra "Molla Nəsrəddin" tamam simasını itirdi. Mirzə Cəlil ağır mənəvi və sözün əsl mənasında maddi çətinliklər içində qaldı. Nəhayət, 1930-cu ildə xəstələndi. 31-in sonunda ağır vəziyyətə düşdü. 32-nin yanvarın 4-də dünyanı tərk elədi.

Yaddan çıxmış, gözdən düşmüş, tənqid hədəfi olmuş, üçüncü dərəcəli bir jurnalist kimi ölüb getdi. Aparıb dəfn edildiyi zaman

qəbrə qoyularkən Mehdi Hüseyn çıxış eləyib dedi: "Mirzə, biz sağlığında səninlə mübarizə apardıq, öləndən sonra da mübarizə aparacağıq".

Müxbirin "Bəs Mirzə Cəlil həyatda necə idi" - sualına Qulam Məmmədli belə cavab vermişdi:

- Çox az danışan, sakit. Yubiley idi. Daha doğrusu, bilirdilər ki, bu gün-sabah öləcək, yubileyi də ona görə keçirirdilər. Abdulla Şaiq məruzə elədi. Mirzə Cəlilə söz verdilər. Gəldi tribunaya iki-üç kəlmə ilə: bəs jurnal çıxıb, oxumusuz? Vəssəlam, daha heç nə demədi, keçdi oturdu.

Mirzə Cəlil, Seyid Hüseyn, Cəfər Cabbarlı, Əhməd Cavad, Hüseyn Cavidi əsəbləşən gördüm. Deyəsən, nəsə iclas idi, nəydi bilmirəm. Mehdi Hüseyn acıqla, - sən xırda burjua şairisən - dedi H.Cavidə. Cavid əfəndi: - Mən iri burjua şairiyəm, - deyə cavab verdi".

O ki qaldı yeni "Molla Nəsrəddin"in nəşrinə, Qulam müəllim müxbirdən xəbər aldı və soruşdu ki, "Bəs siz bu jurnalı siqlət, dil, məzmun cəhətcə təmin edə biləcəksiz? "Molla Nəsrəddin" üçün Mirzə Cəlil, Sabir, Ömər Faiq, Əbdürrəhim bəy, Əli Nəzmi lazımdır. Hələ Şmerlinqi, Rotteri demirəm. Bir möcüzəydi ki, onlar rastlaşıb tapışmışdılar". Nəticə məlumdur.

94 yaşlı müdrik bir jurnalist, alim, qüdrətli hafizə, bilik və qələm sahibi, bütöv bir əsrin salnaməçisi olan Qulam Məmmədlinin son müsahibəsi də tarixi bir sənəd kimi qiymətlidir. Ondan əxz edəsi, öyrəniləsi məqamlar da həddindən artıq çoxdur.

"Günay", №6, 22 aprel 2006

MİLLİ FACİƏDƏN "BAYRAM" DÜZƏLDƏNLƏRİN FACİƏSİ DƏ QAÇILMAZDIR

1920-ci ilin apreli - bahar günləri. Azərbaycan öz müstəqil dövlət həyatının 23-cü ayını yaşayır. Milli Sərq demokratiyası cərəyanının əməlli-başlı bir hadisəsi - artıq dünyada tanınan Azərbaycan Xalq Cümhuriyyəti çox ciddi və sürətli quruculuq işləri ilə məşğuldur. Ölkənin qanunvericilik məclisi olan parlamenti görün aprelin 26-da hansı məsələləri özünün 144-cü iclasında müzakirə edirdi:

Şuşa şəhərində hərbi-feldşer məktəbinin açılması, Gəncə qəzasının iki müstəqil qəzaya bölünməsi, Azərbaycan cümhuriyyəti tərəfindən 5 siyasi heyətin Qərbi Avropaya və Amerikaya göndərilməsi, Paris sülh konfransı heyətinin buraxılması, Nuxa şəhərinin daşqından qorunması üçün tədbirlər və s.

1920-ci il aprelin 27-si. Səhər tezdən Azərbaycan parlamentinin təcili fövqəladə iclası çağırılır. Bu iclasın protokolu hələlik arxivlərdə tapılmayıb. Yeganə mənbə "Azərbaycan" qəzetində (rusca) aprelin 28-də "Последние известия" rubrikası ilə dərc olunmuş məlumatdır. Orada deyilir:

"Dünən gecə saat 1-də hökumətə məlumat verilmişdir ki, bolşeviklərin hissələri respublika sərhədini keçmişlər və dəmir yol boyunca ölkənin içərilərinə irəliləyirlər.

Elə dünən parlamentin fövqəladə iclası olmuşdur. İclasda parlament hökumətə tapşırmışdır ki, münaqişənin aradan qaldırılması üçün əlindən gələni etsin və eyni zamanda ölkənin müdafiəsi üçün bütün tədbirləri görsün.

Göstərilən vəzifələrin həyata keçirilməsi üçün parlament aşağıdakı tərkibdə fövqəladə səlahiyyətlərə malik olan xüsusi nümayəndə heyəti yaratmışdır: nümayəndə heyətinin sədri - hökumətin üzvü Məmmədhəsən Hacınski, parlament üzvləri - M.Ə.Rəsulzadə, Q.B.Qarabəyov, Ə.B.Səfikürdski, S.A.Ağamalıyev və A.B.Qardaşov".

Hadisələrin sonrakı cərəyanı həmin gün parlamentin axşam fövqəladə iclasında geniş müzakirəyə çıxarıldı. Azərbaycan sovet-bolşevik ordusu tərəfindən işğala məruz qaldı. Bu barədə ən tutarlı elmi-tarixi təhlili cümhuriyyətin yaradıcısı M.Ə.Rəsulzadə vermişdir. 1938-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinin 20 illiyi münasibətilə Azərbaycan siyasi mühacirlərinin Berlində nəşr etdikləri "Qurtuluş" jurnalı (1934-1939) M.Ə.Rəsulzadənin "Azərbaycan problemi" adlı kitabçasını alman dilində ("Dac Problem Aserbeugch") buraxmışdı. Kitab M.Ə.Rəsulzadənin Berlinin nüfuzlu Hunboldt klubunda (Hunboldt kulübte) etdiyi məruzənin mətni idi. "Azərbaycanın coğrafi və iqtisadi durumuna qısa bir baxış", "Azərbaycanın siyasi tarixindən", "Azərbaycan mədəniyyətinin tarixi və önəmi", "Azərbaycanda çarlıq dönəmi", "Mədəni-milli oyanış", "Siyasi doğuş - Azərbaycan cümhuriyyətinin quruluşu", "Bolşevik işğalına qarşı milli savaş", "Siyasi mühacirlərin fəaliyyətləri", "Sovet Azərbaycanındakı milli ayrıseçkilik", "Milli hərəkatın təməl cizgiləri" və nəhayət, "Bolşevizmə qarşı aparılan savaş baxımından Rusiyadakı milliyyətlər problemi" fəsillərindən ibarət bu kitabçada (M.Ə.Rəsulzadənin bu əsəri

onun vətənində indiyədək nəşr olunmamışdır. 1995-ci ildə tanınmış qardaş türk tədqiqatçıları Perixan Mete və Səbahəddin Şimşir əsəri alman dilindən türk dilinə tərcümə etmiş və 1996-cı ildə Ankarada işıq üzü görmüşdür) 27 aprel işğalı və onu yaradan tarixi şərait qısa, lakin tutarlı şəkildə belə şərh edilir:

"Ortaq güclərin yıxılması (söhbət Almaniya və onun müttəfiqlərindən gedir. Ş.H.) və bununla əlaqədar Türkiyədəki hadisələr, o zamankı vəziyyəti heç də yaxşı olmayan Türkiyə bolşeviklərə Qafqazda öz imperialist məqsədlərini həyata keçirmək fürsəti verdi. Azərbaycanın iki Şərq qonşusu olan İran və Türkiyə Moskva ilə səmimi bir münasibət qurmaq məcburiyyətində idilər. O zamanlar yaradılmış Baltik dövlətləri ilə Qərb dövlətlərinin məqsədləri eyni idi. Baltik dövlətlərinin Qızıl imperialistlərə qarşı mücadilələrində onları maddi və mənəvi cəhətdən dəstəkləyənlərin başında Qafqaziya cümhuriyyətlərindən Azərbaycan bulunurdu. Qafqazda alman-türk qoşunlarının yerinə keçən müttəfiqlərin savaşdan yorğun düşmələri və Türkiyədə qarşılaşdıqları vəziyyətlə əlaqədar geri çəkilmələri gənc Qafqaz cümhuriyyətlərini yaxınlaşmaqda olan rus Qızıl Ordusuna qarşı təkbaşına öz zəif gücləri ilə müqavimət göstərmək məcburiyyətində qoymuşdu. Bu zamanlarda Azərbaycanın Milli Ordusu Qarabağ əyalətində erməni təcavüzkarları ilə vuruşurdu. Belə bir vaxtda 60 min nəfərlik bolşevik Qızıl rus ordusu fürsətdən istifadə edərək heç bir savaş elan etmədən Azərbaycan sərhədlərini keçərək 1920-ci il aprelin 27-də Azərbaycan Cümhuriyyəti paytaxtını işğal etdi. Əvvəlcə Qızıl işğalçılar guya Qərbi Avropa imperialistlərinə qarşı Mustafa Kamalın apardığı mübarizəyə kömək məqsədilə Anadoluya get-

mək üçün Azərbaycana daxil olduqlarını söyləyir və bu bəhanələrlə işğallarını ört-basdır etməyə çalışırdılar. Moskvanın yalançı təbliğatı işə yaramadığından, bolşeviklər Bakıdakı Azərbaycan proletarlarının onlara zülm edən kapitalist və müsavatçılığa qarşı üsyan qaldıraraq Lenin Qızıl Ordusunu köməyə çağırdıqlarını elan etdilər. Bakını işğal etdikdən sonra Azərbaycanın digər bölgələrində işğala başlayan Qızıl Ordu, hər yerdə böyük bir müqavimətlə qarşılaşdı. Moskva sürüləri Azərbaycanın ən önəmli şəhərlərini və ən strateji nöqtələrini ələ keçirənə qədər aylar keçdi. Açıq Sovet statistikasına görə, təkcə Gəncə uğrunda vuruşlarda 8500 işğalçı öldürülmüşdü..."

M.Ə.Rəsulzadə aldanılaraq Moskva bolşevikləri ilə birgə öz xalqına qarşı xəyanətkarlıq mövqeyi tutan, xüsusilə azğın rus şovinistləri və erməni daşnakları ilə birgə Azərbaycanı talayan və onun qeyrətli övladlarını məhv edənlərin faciəli aqibətinə toxunur və 1938-ci ildə Berlində elan edirdi:

"Məcid Əfəndizadə taxtından endirildi və tutuqlandı... Azərbaycanda son 7-8 ay içində təmizlənən əski kommunist böyükləri arasında Azərbaycan Sovet hökuməti Sovnarkomunun başqanı bolşevik Rəhmanov, hökumət üzvləri Dadaş Bünyadzadə, Ruhulla Axundov, Həmid Sultanov, Əlihcydər Qarayev və b. vardır". Əsəri nəşr edən Azərbaycan Milli hərəkatının mətbu orqanı "Qurtuluş" məcmuəsinin kitabda verilmiş "Yazar haqqında" (yəni M.Ə.Rəsulzadə haqqında - Ş.H.) arayışında oxuyuruq: "Azərbaycan Milli Cümhuriyyətinin elan edilməsindən 20 il keçdi. 1918-ci il mayın 28-də müstəqilliyini elan etdiyimiz ölkənin müstəqilliyini milli düşüncəyə sahib olan hər kəs - istər yurdun xaricində və hətta qanunsuz bir şəkildə öz ölkəsində belə nəşəli bir şəkildə qeyd etmişdir...

Keçən illər ərzində Azərbaycanda ortaya çıxan durumlar müəllif tərəfindən irəli sürülən tezisləri tam mənası ila izah edir və milli hərəkatın nə qədər canlı olduğunu isbatlayır".

M.Ə.Rəsulzadə isə çox qısa, bir neçə sətirlik "Ön söz"ündə bildirirdi: "Azərbaycan problemi qanımızdadır, bu mücadilə eyni zamanda xalqın azadlıq və müstəqilliyi üçün bir şansdır. Bu xalq -milliyyətçiliyə önəm verən insanları dost olaraq qəbul edir. İnsanlıq dəyərlərini ayaqlar altına alan və ideologiyaları kommunizm olan qırmızıları isə düşmən sayır..."

Həqiqi demokratik, çoxpartiyalı xalq cümhuriyyətini devirib yerində sovet totalitar rejimini quranlar 70 il ərzində işğal gününü 1 mayla birləşdirib bizə "bayram" etdirdilər, adını da qoydular "aprel inqilabı". Lakin tale və tarix bizim nəslə bu rejimin süqutunda da iştirak etməyi və nəticəsini görməyi qismət etdi. Ata-babalarımızın fədakarlıqla, qanları bahasına yaratdıqları müstəqil Azərbaycanın hər bir namuslu vətəndaşı istiqlal mücahidlərini anmağa, bu yolda şəhid olmuş qəhrəman vətən övladlarını yad etməyə borcludur. Ən əsası isə tarixdən ibrət dərsi almaqdır.

"Günay", №17, 29 aprel 2006

I DÖVLƏT DUMASI. ONA MÜNASİBƏT. VƏKİLLƏRƏ NƏSİHƏT

Rusiya Federasiyası Dövlət Dumasının təsis olunmasının 100 illiyini yüksək səviyyədə qeyd etdi. İndiki Dövlət Dumasının üzvləri Moskvadan Peterburqa yollandılar. Aprelin 27-də Rusiya tarixində ilk dəfə təsis edilmiş nümayəndəli qanunvericilik müəssisəsinin toplandığı Tavriya sarayında yubiley mərasimi keçirildi. Bu, həmçinin MDB Parlamentlərarası Assambleyasının bu münasibətlə keçirdiyi tədbir idi. XIX əsrin sonu və XX əsrin əvvəllərinin görkəmli rus dövlət xadimi, 1905-ci il oktyabrın 17-də çar II Nikolayın imzaladığı məşhur Manifestin müəllifi, 1905-1906-ci ilin aprelinə qədər baş nazir olmuş Sergey Yulyeviç Vitte (1849-1915) öz xatirələrində I Dövlət Duması barədə yazırdı: "Yeni seçki qanunu sayəsində yaranmış birinci Dövlət Duması bizim gözlədiyimizdən daha artıq dərəcədə solçudur. Gərək ki, bu Dumanı "xalqın qisas duması" adlandırıblar. Məncə, onu "ictimai əyləncə və dövlət təcrübəsizliyi Duması" adlandırmaq daha doğru olardı.

Əslində əgər kadetlərin azacıq da olsa dövlətçilik şüuru olsaydı, əgər onlar həqiqəti başa düşsəydilər və əgər bu partiya özünün "inqilabı qurğu"nu kəsib atmış olsaydı, o, Dumada ən başlıca partiya olardı, bu halda birinci Duma uzun müddət mövcud olar və çox ehtimal ki, rusların konstitusiyasını 17 oktyabrda qəbul edilən şəkildə və sonradan 17 oktyabr manifestinin icrası ilə əlaqədar mənim nazirliyimin yaratdığı qanunlara müvafiq olaraq həyata keçirmək və təcəssüm etdirmək kimi tarixi şərəfə layiq görülərdi. Bu Duma isə başını əyləncələrə qatdı və uğursuzluğa düçar oldu. O, buraxıldı, sonra isə ləyaqətli sayıla bilməyəcək Vıborq çağırışı peyda oldu".

Rusiya I Dövlət Duması ilə başlanan parlamentarizmin inkişaf tarixinə, mərhələlərinin tədqiqi və öyrənilməsinə önəm verilməsi təsadüfi deyil. Axı mütəxəssislərin də qeyd etdikləri

kimi, ingilislərin 1649-da, fransızların 1789-da həyata keçirdikləri yeniləşmə hərəkatına qoşulmaq üçün ruslar 1906-cı ildə təşəbbüs edib, yalnız 1917-ci ilin fevralında nail oldular. Həm də tam nail ola bildilərmi?

Rusiyada ilk yeniləşmə hərəkatının təşəbbüskarı olan Birinci Pyotr bunun səbəbini vaxtilə belə şərh etmişdi: "Qərbi Avropa qədim dünya elmini bizdən əvvəl mənimsəmiş, buna görə də bizi qabaqlamışdır. Biz də öz növbəmizdə həmin elmi mənimsəyəndən sonra ona çatacağıq"; Daha sonra: "Avropa bizə hələ neçə onillik də lazımdır, sonra isə ona arxamızı çevirə bilərik".

I Dövlət Dumasında kadetlərin lideri P.N.Milyukov isə deyirdi ki, "Dövlətin siyasi tərəqqisi onun iqtisadi inkişafını yenə qabaqlamışdır... Rusiya müflisləşmə bahasına Avropanın böyük dövləti səviyyəsinə ucaldılmışdır".

I Dövlət Dumasının təsis edilməsinin əsas təşəbbüskarlarından biri olan baş nazir S.Y.Vittenin elə aprel ayındaca vəzifəsindən kənar edilməsində xüsusi rolu olan P.A.Stolıpin Qərbi Avropa parlamentlərinə oxşayan Dövlət Dumasının 72 gündən sonra çar tərəfindən buraxılmasını alqışlayaraq demişdi: "Allaha şükür olsun ki, bizdə parlament yoxdur!"

1906-1917-ci illər arasında Rusiyada dörd Duma fəaliyyət göstərdi. Dumanı 1917-ci ilin fevralından sonra Sovetlər əvəz etdi. Tarixçilər Rusiyada 100 illik parlamentarizmi səciyyələndirərkən hələ XIX əsrin 60-cı illəri islahatlarının görkəmli xadimi A.İ.Koşelevin yazdıqlarını xatırlayırlar: "Bürokratiya Rusiya üçün əvvəllər baş vermiş, hazırda davam edən və gələcəkdə baş verəcək bəlaların mənbəyidir"; "Bəzi əclaflar başqaları ilə əvəz edilir"; "Rusiyanın bəlaları, onun zəifliyi, Avropa sivilizasiyasından geri qalması, ondan təcrid olunması - bütün bunlar yaxşı hallar kimi qələmə verilir".

Rusiya Federasiyası ilə bərabər uzun illər əvvəlcə çar, sonra Sovet imperiyası tərkibində olan, indi isə müstəqil dövlət həyatı yaşayan MDB ölkələrində də bu tarixi hadisə qeyd edilir. Azər-

baycanda da ilk dəfə nümayəndəli qanunvericilik məclisinə deputat seçkisi məhz 1906-cı ildə keçirilmişdir.

Azərbaycanda Duma seçkilərinə əhalinin çox az hissəsi buraxılmışdı. Məsələn, əhalisi 200 mindən artıq olan Bakıda seçici siyahısına cəmi 14 min nəfər daxil edilmişdi. Qeyd edək ki, I Dövlət Duması 1906-cı il aprelin 27-də Peterburqun Tavriya sarayında işə başlayanda hələ Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında Duma seçkiləri keçirilməmişdi, Seçkilər Yelizavetpolda mayın 16-na, Bakı quberniyasında isə yalnız mayın 31-nə təyin edilmişdi. Odur ki, Azərbaycan nümayəndələri bu mərasimdə iştirak etmirdilər. Məlumdur ki, I Dövlət Dumasına Azərbaycandan 6 nəfər deputat seçilmişdi. Bunlar: 42 yaşlı ali təhsilli hüquqşünas, "Kaspi" qəzetinin redaktoru Ə.M.Topçubaşov, 39 yaşlı ali təhsilli hüquqşünas, iri torpaq sahibi İsmayılxan Ziyatxanov, 36 yaşlı yazıçı, dramaturq, Peterburq Universitetində təhsil almış Ə.Haqverdiyev, 48 yaşlı ali təhsilli kənd təsərrüfatı mütəxəssisi Məmmədtağı Əliyev, 40 yaşlı, müəllimlər seminariyasının məzunu Əsədulla bəy Muradxanov və həkim X.İ.Bahadurov idi.

Azərbaycan deputatları iyunun əvvəllərində Peterburqa getdilər. İyunun 21-də Dumada Ə.Topçubaşovun başçılığı ilə müsəlman fraksiyası yaradıldı. Fraksiyanın 7 nəfərdən ibarət bürosuna İ.Ziyatxanov da daxil idi. Onlar Xalq Azadlığı partiyası ilə birgə fəaliyyət göstərməyi nəzərdə tuturdular.

I Dövlər Duması cəmisi 72 gün fəaliyyət göstərə bildi. 1906-cı il iyulun 9-da çar II Nikolay Dumanın buraxılması haqda fərman verdi.

Azərbaycan mətbuatında Duma seçkiləri, millət vəkilliyinə namizədlər, onların vəzifələri, Dumanın fəaliyyəti və s. haqqında xeyli yazı vardır. Məsələn, Üzeyir Hacıbəyovun "İrşad" qəzetinin 1906-cı il may nömrələrində "Dövlət Dumasının qurulması" sərlövhəli 6 məqaləsi (11,12,14,15,16,17 may) dərc edilmişdir. Üzeyir bəy yazırdı: "Millətimizin bir çox

hissəsindən ötrü Dövlət Dumasının əhəmiyyəti, yəni, vacib və lazım olduğu bir o qədər aydın olmadığını və seçki işinin, yəni Dövlət Dumasına üzv seçmək əmrinin hələ Qafqazda qurtarmadığını nəzərə alıb həmin Dumanın nə dərəcədə əhəmiyyətli olduğunu bir neçə sözlə bəyan etməyi lazım bildik".

Üzeyir bəy hesab edirdi ki, Rusiya kimi böyük bir məmləkətdə "camaatın dolanmağına elə bir etina olmayıb", verilən qanunların "millətdən ötrü xeyirli və ya zərərli" olduğu nəzərə alınmayıb, "lakin bu bir-iki ilin ərzində vaqe olan ixtişaş, bir o qədər tökülən qanlar, tələf olan canlar bildirdi ki, millət indiyədək pis dolanırmış və indi yenə də pis dolanmağa daha millətin tab və tavanası yoxdur, ona görə millət şikayət edir. Bəs nə üçün millət şikayətini dili ilə hökumətə demirdi və yaxud, yazıb bildirməyirdi və bunu qoyub ixtişaş salırdı?

Çünki bu cürə siyasi deyilən şeyləri dil ilə danışıb və yazı ilə yazmaq olmazdı. Zira danışıq və yazı azadlığı yox idi. Heç kəsin ixtiyarı yox idi ki, durub öz halından dil ilə, yaxud yazı ilə şikayət edə idi. Bir kəs bunu etsə idi, ona tənbeh olardı. Bəs nə üçün camaat bir yerə yığılıb şikayət üçün padşah yanına getməyirdi? Çünki əvvəla, belə-belə siyasi işlərdən ötrü bir yerə yığılmaq olmazdı, zira yığılmaq və ya bir yerə cəm olub dərdləşmək azadlığı yox idi. Hər kəs bu işi görmək istəsə idi, ona inqilabçı deyib tənbeh edirdilər".

Üzeyir bəy millət vəkili məsələsinə də toxunaraq yazırdı: "Camaat içində layiqli, yəni camaatın hər bir dərd və ehtiyacatını dürust anlayan və bununla bərabər camaatın getdikcə hər bir barədə tərəqqi edəcək yolunu bilən adamlar vardır. Camaat öz əvəzinə bu adamları seçib göndərir, bunlar... bir məclis qurub özləri qanun tərtib edirlər... və o qanunlar üzrə də camaatın işi yeriyib, camaatı müşkül ağır şərtlərdən azad edib, həm camaata və həm də dövlətə mənfəət verir. Haman bu məclis, yəni seçilmişlər məclisi Avropa dövlətlərinin hamısında var. Odur ki, o dövlətlər bizim dövlətdən elmli, sərvətli, qüvvətli olubdur.

Yaponiyada, İngilisdə, Almaniyada və sairlərində belə məclis çoxdan bəri qurulub, dövləti getdikcə tərəqqiyə mindirir... Bu seçilmişlər məclisinə hər yerdə bir ad qoyurlar. Bunun ümumi adı parlamentdir. Rusiya hökuməti bu məclisə "Qosudarstvennaya Duma" adı qoydu. Biz də türk dilimizdə - Dövlət Duması, yaxud məclisi - məbusan deyirik".

Üzeyir bəyin adını çəkdiyimiz 6 məqaləsi bizim günlər üçün də öz məna və əhəmiyyətini hifz etməkdədir.

Məlumdur ki, Duma mövzusu bir başqa tənqidi baxımdan "Molla Nəsrəddin" jurnalında da çox geniş işıqlandırılmış, şərh olunmuşdur. "Nəsihət. Camaat vəkillərinə" - Mirzə Cəlilin jurnalın 1906-cı il iyunun 16-sı tarixli 11-ci nömrəsində dərc olunmuş felyetonu belə adlanır. Onu oxuculara təqdim edirəm.

NƏSİHƏT
CAMAAT VƏKİLLƏRİNƏ

Sizədir bizim ümidimiz, biz müsəlman camaatının ümidi, ey millət vəkilləri! Allah sizə yaxşı yol versin!

Gedirsiniz gediniz, amma Mollanın xeyir-duasını yadınızdan çıxartmayasınız! Ey millətimizin seçilmişləri! Gediniz, Allah sizə yaxşı yol versin!

Gediniz, amma bunu hər dəqiqə yadınızda saxlayınız ki, sizin boynunuzda ağır təkliflər var ki, onları əmələ gətirməyi millətimiz sizdən tələb edəcək!

O təkliflər çox ağırdırlar. Üstünüzə götürdüyünüz əhd və xidmət dünyada etdiyiniz savab əməllərin ən əfzəlidir və bu xoşbəxt bəndələrin xoşbəxtisiniz.

Gediniz, Allah sizə yaxşı yol versin. Gediniz, amma bu bir neçə nəsihətimi fəramuş etməyiniz (unutmayınız).

Gedirsiniz, Rusiyanın paytaxtı olan Fitilbörkə və orada sizin kimi bəyənilmiş adamlarla dizbədiz oturub aylarla, bəlkə illərlə

köftgu (söhbət) edəcəksiniz. Amma aman günüdür, nə edirsiniz ediniz, bircə bunu yadınızdan çıxarmayınız. Həmişə ədəbli olunuz. Ədəbli, ədəbli, ədəbli!...

Aman günüdür biz müsəlman millətini 72 millətin vəkillərinin içində biabır etməyiniz. Elə rəftar eləməyiniz ki, desinlər: bu müsəlmanlar biədəb, bihəya və sırtıq millətdir. Aman günüdür, mənim bu nəsihətimi nəzərdə saxlayınız. Bunun da çarəsi heç dinməməkdir.

Əgər xamuş olmağa (susmağa) aylarla, illərlə dözə bilsəniz, dözünüz və illah əgər səbrü-qərarınız kəsildi və bir danışmaq istəsəniz, heç olmasa millətimizin xoş səadəti və tərəqqisi adına bu bir neçə tələbləri hökumətdən eləyiniz:

Əvvəlan: Tələb ediniz ki, İran məmləkəti ilə Qafqaz müsəlmanlarının arasında sərhəd götürülsün, belə ki, o tərəfdən bu tərəfə keçmək, şey gətirmək, adam gətirmək bimane (maneəsiz) olsun. Əgər işdir, həmin tələbin mənasını və səbəbini sizdən soruşsalar, deyiniz ki, sizə dəxli yoxdur. Bu mətləb İran məmləkəti ilə öz aramızda məxfi və məhrəmanə işdir, özümüz bilərik.

İkinci: Tələb ediniz ki, Rusiya hökumətinin yolunda canü-dillə xidmət edən müsəlmanlara layiqincə vəzifə və ənam (mükafat) verilsin və bununla belə Rusiyanın müstəbid idarəsinin tərəfdarı olmayan müsəlmanlar Saxalin cəzirəsinə göndərilsinlər.

Üçüncü: (Qalanını da sonra deyərik).

Molla Nəsrəddin

"M.N." N:11, 16 iyun 1906.

"Günay", №18, 6 may 2006

"FÜYUZAT"IN TƏKRAR NƏŞRİ. BİR MÜNƏVVƏR ALİM XANIM VƏ ÖVLADININ FƏDAKARLIĞI

Azərbaycan mətbuatı, ədəbiyyatı, ictimai fikir tarixində "füyuzatçılıq", "füyuzat" ədəbi məktəbi, "füyuzat"çı fəlsəfi fikir cərəyanı və s. bu qəbildən olan ifadələrə tez-tez rast gəlmək olar. Sovet-bolşevik hakimiyyəti illərində ən çox hücuma məruz qalan, saxtalaşdırılan mətbuat orqanlarından birincisi də məhz "Füyuzat", onun baş redaktoru Əli bəy Hüseynzadə və digər görkəmli "füyuzat"çılar idilər. Nə üçün? Türkçülük, azərbaycançılıq, turançılıq ideyalarını təbliğ etdikləri üçün. Onların yaradıcılıq yolu ədəbiyyat, mətbuat, fəlsəfəyə xidmət, sosial kredoları Azadlıq, Milli tərəqqi naminə birliyə çağırış idi. Əli bəyi təkcə Azərbaycanın deyil, bütün türklüyün oğlu sayan professor Turan Yazqan haqlı olaraq yazır ki, "Hüseynzadə Əli bəy (Turan) doğulduğu, yaşadığı, çalışdığı yerlərə baxmaqsızın bütün Türk dünyasının mücahididir".

Bu il ikinci dəfə əldə etdiyimiz dövlət müstəqilliyimizin 15 ili tam olacaq. Bayrağımızdakı üç rəngin üçünün də rəssamı Əli bəydir. Belə bir böyük tarixi şəxsiyyətin cəmiyyət həyatı, bəşər taleyi, insan mənəviyyatı haqqında düşüncələrlə zəngin ədəbi-fəlsəfi irsinə münasibət dəyişibmi? Müəyyən mənada bəli, dəyişib! Birinci növbədə Əli bəyin ifadələri ilə desək, "türk qanlı, islam etiqadlı, firəng düşüncəli, Avropa qiyafəli" vətənpərvər, fədakar şəxslərin səyi və gərgin əməyi sayəsində dəyişilməkdədir. Bu böyük missiyanı, zəhməti öhdəsinə götürənlərin birinci səfində Azərbaycan Respublikası MEA Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri namizədi Ofeliya xanım Bayramlı durur. 1994-cü ildə Ofeliya xanım Ə.Hüseynzadənin 1908-1910-cu illərdə "İrşad", "Tərəqqi" və "Həqiqət" qəzetlərində hissə-hissə dərc edilmiş "Siyasəti-fürusət" sərlövhəli oçerklərini sərraf dəqiqliyi ilə toplayaraq ayrıca

kitabça halında nəşr etdi. Əsərin adı müsəlmanları kazak atlarının ayaqları altında əzmək siyasətinə işarə olaraq götürülmüşdür ("Fürusət" - at oynatmaq deməkdir - Ş.H.). Bu, Əli bəyin vətənində işıq üzü görən ilk kitabı idi. Adını çəkdiyimiz qəzetlərin redaktorları Əhməd bəy Ağayev, Üzeyir bəy Hacıbəyov, müəyyən müddət M.Ə.Rəsulzadə idi.

Ofeliya xanım kitaba yazdığı çox geniş "Ə.Hüseynzadə və onun "Siyasəti-fürusət" əsəri" sərlövhəli 34 səhifəlik giriş, başqa deyimlə dərin tarixi-elmi araşdırmasında yazır: "İstibdadın ifşası, azadlığın tərənnümü Ə.Hüseynzadənin bütün əsərlərində olduğu kimi, mürəkkəb və ictimai-siyasi məzmunlu "Siyasəti-fürusət" adlı irihəcmli əsərində də bütün dərinliyi və çoxcəhətliliyi ilə bir küll halında təzahür olunmuşdu. Milli azadlıq hərəkatının böyük bir mərhələsini əks etdirən bu əsərdə ədibin əsas tənqid hədəfi əsrin əvvəllərində 1-ci rus inqilabının təsirilə oyanan Şərq xalqlarının milli-azadlıq hərəkatına qarşı çarizmin yeritdiyi müstəmləkəçilik siyasəti idi".

"Siyasəti-fürusət"dən iki il sonra – 1996-cı ildə Ofeliya Bay - ramlının çox böyük zəhməti və gərgin məhsuldar əməyinin nəticəsi olan Ə.Hüseynzadənin "Füyuzat" (1906-1907) jurnalında dərc olunmuş seçilmiş məqalələri "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adı ilə çox geniş və əhatəli elmi-tarixi izahlar (həcmi 53 səhifədir), "Ə.B.Hüseynzadənin həyatı və türkçülük fəaliyyəti" (həcmi 28 səhifə) sərlövhəli müqəddimə ilə işıq üzü gördü. Kitaba görkəmli ədəbiyyatşünas, tənqidçi, tədqiqatçı alim, professor Yaşar Qarayev çox sanballı bir təqdimat yazmışdır. Y.Qarayevin təqdimatında oxuyuruq: "Hər iki kitabın işıq üzü görməsi bilavasitə Ofeliya xanım Bayramovanın böyük əməyinin, milli və vətəndaşlıq xidmətinin nəticəsidir. Ofeliya xanımın hər iki kitabı istər Əli bəy, istərsə də ədəbiyyatşünaslığımız qarşısında bir əsrlik borcun qismən də olsa ödənilməsi deməkdir. Bir neçə on il müddətində Əli bəy ədəbi məktəbinə və XX əsr Azərbaycan "mürtəce romantizminə"(?), yalnız "Si-

yasəti-fürusət"ə yox, bütövlükdə "Siyasəti-Füyuzat"a çirkab, lənət və küfr yağdırmaqda bir-birilə yarışan rütbəli, titullu vətən "oğulları"nın günahını bu münəvvər xanımın qeyrəti və sərrast qələmi yuyub təmizləmişdir".

Aradan bir il də keçdi. 1997-ci ildə Ofeliya xanım Ə.Hüseynzadənin "Həyat" qəzetində (1905-1906), 20-ci yüzillikdə Azərbaycan torpağında, Bakıda nəşr olunan bu ilk gündəlik qəzetdə dərc olunmuş dövrün aktual-ictimai, siyasi hadisələrinə dair məqalələri, oçerkləri "Türklər kimdir və kimlərdən ibarətdir" sərlövhəsilə ayrıca kitab halında nəşr etməyə müvəffəq oldu. Tanınmış böyük tədqiqatçı və görkəmli ədəbiyyatşünas professor Əziz Mirəhmədovun "Türklüyə xidmət nümunəsi" başlıqlı ön sözü və Ofeliya xanımın zəngin arxiv sənədlərinə, tarixi materiallara istinadən yazdığı "Türklük" və "Həyat" qəzeti" sərlövhəli müqəddiməsi Ə.Hüseynzadə irsinin öyrənilməsi və dərk edilməsi üçün ən yaxşı mənbə, vasitədir. Bircə belə bir faktı nəzərə çatdırmaq istəyirəm ki, "Həyat" qəzetində Ə.Hüseynzadənin dərc olunan məqalələrinə yazılan izahların miqdarı 591, həcmi 50 səhifədir.

Ə.Mirəhmədovun ön sözündə oxuyuruq: "Birgə götürüldükdə bu üçcildlik Ə.Hüseynzadə irsinin, tam olmasa da, çox əhatəli, dolğun məzmunlu, olduqca dəyərli külliyyatı hesab edilə bilər.

Bu cildin və ümumiyyətlə, külliyyatın mətnini yıpranıb saralmış mətbuat nüsxələrindən seçib yığan, transliterasiya, tərtib, izah və şərh edən yorulmaz tədqiqatçı Ofeliya xanım Bayramlıdır".

Bu ilin noyabrında "Füyuzat" jurnalının nəşrə başlamasının 100 ili tamam olur. Professor Yaşar Qarayevin çox dəqiq söylədiyi kimi, "Əli bəy Hüseynzadənin şah əsəri "Siyasəti-fürusət"dirsə, tarixə irs qoyub getdiyi ən böyük kitabının adı "Füyuzat"dır".

Məlumdur ki, 1906-cı il sentyabrın 4-də "Həyat" qəzetinin nəşri dayandırıldı. Əli bəy bununla əlaqədar qəzetin axırıncı nömrəsində dərc olunmuş "Vidanamə"sində oxuculara bildirirdi: "6-7 milyon Qafqaz müsəlmanlarının bir-iki qəzetə dəxi

abunə qeyd olunmaq surətilə müavinət etməmələri həmiyyətsizliyə, qeyrətsizliyə həml olunmazmı?..." "Həyat" namına qarələrimizə (oxucularımıza) əlvida deyib eyni zamanda onlara "Füyuzat"ın salamını təbliğ ediriz". "Həyat" qəzeti kimi "Füyuzat" ədəbi, fənni, siyasi, ictimai, müsəvvər (illüstrasiyalı) həftəlik türkcə jurnalın da sahibi-imtiyazı (naşiri) Hacı Zeynalabdin Tağıyev, müdir və baş mühərriri Əli bəy Hüseynzadə idi.

Yubiley ərəfəsində Ofeliya xanım Bayramlı uzun illərin gərgin zəhməti hesabına hazırladığı "Füyuzat" jurnalının 1906-1907-ci illərdə işıq üzü görmüş və hər nömrəsi 16 səhifədən ibarət 32 nömrəsinin tam mətnini kitab halında latın qrafikasında oxuculara təqdim etmişdir. Nəfis şəkildə, yüksək poliqrafiya mədəniyyətilə nəşr olunmuş "Füyuzat" zənnimcə, ədəbi və elmi ictimaiyyətimiz tərəfindən çox böyük şükranla qarşılanacaqdır.

Ofeliya xanım kitaba yazdığı "Milli mədəniyyətimizın böyük abidəsi" sərlövhəli ön sözündə haqlı olaraq göstərir ki, "Füyuzat"ı öyrənmək, xalqın milli istiqlal uğrunda mübarizə tarixini, azadlıq, həqiqət yollarını öyrənmək deməkdir.

"Füyuzat"ı öyrənmək, bəşər mədəniyyətinə çox qiymətli sərvət vermiş, zəngin və qədim mədəniyyətə sahib olan böyük bir millətin təfəkkür xəzinəsini öyrənmək deməkdir".

Tərtibçinin kitaba əlavə kimi hazırlayıb verdiyi "Füyuzat" məcmuəsinin yazarları "qoşa səhifəsində 24 nəfərin şəkli və adları həkk olunmuşdur. Burada Ə.Hüseynzadə ilə yanaşı M.Ə.Sabir, M.Hadi, H.Zərdabi, A.Səhhət, H.Cavid, M.Ə.Rəsulzadə, İ.Qaspirinski, A.Şaiq, Ə.Kamal, A.Cövdət, A.Sur, T.Fikrət və b. vardır.

Nəhayət, mühüm bir cəhəti qeyd etməyi vacib bilirəm. Uzun illərdən bəri Ə.Hüseynzadə kimi böyük bir mütəfəkkir şəxsiyyətin ədəbi irsini axtarıb, toplayıb, ərəb əlifbasından müasir oxucunun oxuya bildiyi əlifbaya çevirib, çox dəqiq və geniş şərh və izahatlarla 4 ayrıca kitab halında işıq üzü görmüş bu irsin nəşrini kim öhdəsinə götürmüşdü... Akademiya nəşriyyatı?.

Xeyr! Rəsmi dövlət nəşriyyatları? Xeyr! Geniş imkanlı iş adamlarımız? Xeyr! Bəs kim?

1994-cü il. "Siyasəti-fürusət". "Tərtibçi eyni zamanda kitabın sponsoru Etibar Yolçiyevə öz təşəkkürünü qeyd edir".

1996-cı il. "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar". Professor Yaşar Qarayev "Ofeliya xanımın nəşrə hazırladığı hər iki kitab özlüyündə hələ yalnız yaradıcı-elmi axtarışların məhsulu kimi meydana çıxa bilməzdi. Bu kitablara o həm mənəvi, həm də maddi gücünü əsirgəmədən sərf eləyib (oğlu Etibar bəyin ən yaxından köməyi ilə). Əvvəlki illərin senzura və yasaq sədlərini keçdiyi kimi, indiki kitab çapı sahəsində daha keçilməz olan maliyyə və vəsait maneələrini Ofeliya xanım eyni fədakarlıqla dəf etmişdir".

1997-ci il. "Türklər kimdir və kimlərdən ibarətdir". Professor Ə.Mirəhmədov: "Əvvəlki cildlər kimi, bu kitabın da naşirlik səxavəti onun özünə aiddir".

2006-cı il. "Füyuzat"ın təkrar nəşri. Redaktorlar - akademik Bəkir Nəbiyev, filologiya elmləri doktoru Teymur Kərimli: "Kitab Yolçiyevlər ailəsinin maddi vəsaiti hesabına çap olunmuşdur".

Hörmətli oxucular! Səssiz-küysüz, təmənnasız alim-vətənpərvər ana gecəli-gündüzlü bütün gücü ilə tarixi bir iş görür, oğlu Etibar da eyni ürəklə anasına, millətinə dayaq olur, xeyirxahlıq və xeyriyyəçilik ənənəmizi davam etdirir. Vətənimizin bu qeyrət rəmzi - Ana-oğula Vallah, ən böyük Əhsən yaraşır! Mən belə düşünürəm, Siz necə?!

"Günay", №19 13 may 2006

İSTİQLAL TARİXİMİZƏ DAİR QİYMƏTLİ ARXİV SƏNƏDLƏRİ

1917-1920-ci illər Azərbaycan tarixinin ən mürəkkəb və ziddiyyətli, ən zəngin və ibrətamiz hadisələrlə dolu dövrü sayılır. Rusiyada 300 illik çar mütləqiyyət dövlətinin və müstəmləkə rejiminin süqutu, respublikanın elan edilməsi, imperiyanın parçalanması, leninçi bolşeviklərin hərbi qiyamı və hakimiyyəti zəbt etməsi, vətəndaş müharibəsi və xarici intervensiya, erməni və bolşevik şovinizminin baş qaldırması, erməni qətliamı, bütün bu və digər hadisələr Qafqazda, o cümlədən Azərbaycanda və onun ətrafında cərəyan edən hadisələri bir növ müəyyənləşdirən əsas amillər idi. Göstərdiyimiz dövr məhz bu səbəbdən uzun müddət tədqiqatçıların diqqət mərkəzində olub. Lakin sovet dövrü tarix ədəbiyyatı müəyyən ideoloji-siyasi səbəblər üzündən dövrün obyektiv mənzərəsini düzgün əks etdirməkdən və qiymətləndirməkdən uzaqdır. Lakin son 15 illik müstəqillik dövründə bəzi köhnə saxtakarlıqların təkrar olunmasına və qeyri-peşəkarların meydan sulamasına baxmayaraq, çox ciddi araşdırmalar aparanlar və iş görənlər də az deyil.

Respublika Milli Arxiv İdarəsi 1918-1920-ci illər dövrü tarixinə dair bu vaxta qədər işıq üzü görməmiş çox qiymətli sənədlər toplularının nəşrini həyata keçirməkdədir. 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi ilə əlaqədar "Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (stenoqrafik hesabatlar)", dövlət quruculuğu, xarici siyasət, ordu quruculuğu və başqa sahələrə dair çoxcildlik sənədlər toplusunu hazırlayıb, nəfis şəkildə nəşr edib oxucuların istifadəsinə vermişdir. 2001-ci ildə Türkiyənin Dövlət Baş Arxiv İdarəsi ilə birlikdə Ankarada ilk dəfə olaraq "Azərbaycan bölgələrində erməni sorunu (1918-1920)" adlı 682 səhifəlik sənədlər toplusu buraxılmışdır.

Bu, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il iyulun 15-də Gəncədə yaratdığı fövqəladə təhqiqat komissiyasının Qafqazda ermənilərin dinc azərbaycanlı əhalisinə qarşı məqsədyönlü şəkildə həyata keçirilən qətliam və etnik təmizləmə faktlarından ibarətdir. Məlumdur ki, Azərbaycan hökuməti toplanmış sənədləri rus, fransız, alman, türk dillərində nəşr etməyi planlaşdırmışdı. Göstərdiyimiz iclasda qeyd edilmişdir ki, bolşevik adı ilə quldurluq edən erməni hərbi hissələri mülki müsəlman əhalisinin həyatına və əmlakına qarşı eşidilməmiş vəhşiliklər törədirlər. Eyni zamanda həmin quldur dəstələri tərəfindən göndərilən yalan məlumatlar əsasında Avropa ölkələrində ictimai fikir tamamilə əks istiqamətə - müsəlman türklərə qarşı yönəldilir.

1920-ci ilin aprelinə, yəni 20 aya qədər fəaliyyət göstərən və müxtəlif millətlərin nümayəndələrindən ibarət fövqəladə təhqiqat komissiyası çox ətraflı, dəlilli-sübutlu faktik materiallar toplamışdı. XI Qızıl Ordunun gəlişi və işğalla yanaşı bu tarixi sənədlər də arxiv künclərində toz basıb qalmışdı. Yalnız hələlik onları Bakıda yox, Ankarada nəşr etmək mümkün olmuşdur. Bakı nəşriyyatlarının başı başqa nəşrlərə qarışıb. Lakin toplunu əlbəttə Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi hazırlamışdır. Elə topluya geniş giriş məqaləsini də bu işin təşəbbüskarı və təşkilatçısı, idarənin rəisi, görkəmli tədqiqatçı alim və vətəndaş Ataxan Paşayev yazmışdır. A.Paşayevin hələ 1998-ci il fevralın 13-də "Azərbaycan" qəzetində dərc olunmuş "Fövqəladə təhqiqat komissiyası" sərlövhəli məqaləsində söhbətgedən sənədlər, onların tarixi əhəmiyyəti və sovet hakimiyyəti illərində eyni siyasətin davam etdirilməsi haqqında çox əhatəli və tutarlı faktlarla danışılmışdır. Müəllif haqlı olaraq yazır ki, "1917-1920-ci illərdə ermənilər Azərbaycanın demək olar ki, bütün ərazisində azərbaycanlılara qarşı çox qəddarlıqla qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata ke-

çirmişlər". Odur ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yanında yaradılmış "Fövqəladə Təhqiqat Komissiyası xalqımızın azadlığı uğrunda apardığı mübarizə tarixində şərəfli yer tutur".

Yeri gəlmişkən, maraqlananlara A.Paşayevin bu və digər elmi-tədqiqat və müasir səciyyəli məqalələrilə onun 2001-ci ildə "Azərbaycan" nəşriyyatında çap olunmuş "Açılmamış səhifələrin izi ilə" kitabında tanış olmağı məsləhət görürəm.

Bu yaxınlarda "Adiloğlu" nəşriyyatı Azərbaycan Respublikası Milli Arxiv İdarəsi əməkdaşlarının hazırladıqları "Zaqafqaziya seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il" sənədlər toplusunu nəşr etmişdir. 214 səhifəlik - protokollar, müqəddimə, qısaltmaların siyahısı, qeydlər, adlı göstərici və coğrafi adlar göstəricisindən ibarət bu dəyərli toplu 28 may istiqlal bayramı ərəfəsində elmi ictimaiyyətimizə, tarix müəllimlərinə, cümhuriyyət dövrü tarixilə maraqlananlara ən qiymətli hədiyyədir. Topluya 1918-ci il martın 16-dan 1918-ci il dekabrın 3-dək olan dövrdə adı çəkilən fraksiya və Milli Şuranın bu vaxtadək hifz olunmuş protokolları daxildir.

Tarixdən bilirik ki, 1917-ci ilin oktyabrında Petroqradda və sonra Mərkəzi Rusiyanın digər şəhər və bölgələrində hakimiyyəti zəbt edən bolşeviklər 1917-ci il noyabrın sonlarında müvəqqəti hökumətin qərarı ilə müəssislər-məclisinə, demokratik yolla xalq tərəfindən seçilmiş deputatların səlahiyyətlərinə son qoydular. 1918-ci il yanvarın 5-də Ümumrusiya müəssislər-məclisinin (Всероссийского учредительного собрания)Petroqradda açılışı oldu və elə həmin gün də bolşevik hökuməti tərəfindən qovuldu. Zaqafqaziyadan bu məclisə 34 nəfər, o cümlədən 12 nəfər müsəlman deputat seçilmişdi. Lakin həmin deputatlar yollar bağlı olduğundan, gedə bilməmişdilər. Onlar Tiflisdə 1918-ci il fevralın 14-də yığılaraq Zaqafqaziyada hakimiyyət orqanı kimi Seym yaratmağı qərara almışdılar. Həm də

müəssislər-məclisinə seçkilər zamanı aldıqları səslərin sayı müqabilində partiyalar Seymdə öz nümayəndələrinin sayını da artırmaq imkanı əldə etdilər. Nəticədə Zaqafqaziya Seymində 44 nəfər azərbaycanlı nümayəndə iştirak edərək, Seymin müsəlman fraksiyasını yaratdı.

Söhbət açdığımız kitaba Zaqafqaziya Seymi müsəlman fraksiyasının 1918-ci il martın 16-dan mayın 25-dək 20 iclasının protokolları daxil edilmişdir. 41 səhifəlik bu 1-ci hissə çox ciddi taleyüklü problemlərin və məsələlərin müzakirəsi, ayrı-ayrı siyasi partiya və şəxsiyyətlərin mövqelərini öyrənmək və araşdırmaq baxımından çox böyük maraq doğurur. A.Paşayevin Azərbaycan və rus dillərində verilmiş giriş məqaləsində bu tarixi sənədlər dövrün ictimai-siyasi və beynəlxalq hadisələrilə əlaqədə çox geniş şəkildə şərh edilir, qiymətləndirilir, müstəqillik uğrunda xalqımızın görkəmli siyasət və dövlət xadimlərinin fəaliyyəti bütün çalarları və əhatəliliyi ilə işıqlandırılır.

Kitabın ikinci bölməsi Azərbaycan Milli Şurasının protokollarına (№921-35) ayrılmışdır. 1918-ci il mayın 27-dən həmin il dekabrın 7-nə qədər Azərbaycanda parlamentarizmin ikinci dövrü, Azərbaycan Milli Şurasının fəaliyyət dövrü başlayır.

1918-ci il mayın 25-də səhər Tiflisin Canişin sarayında Zaqafqaziya Seyminin bütün müsəlman fraksiyaları üzvlərinin növbədənkənar səhər iclası keçirilir. İclasda bildirilir ki, gürcülər öz müstəqilliklərini elan etmək üçün almanlarla gizli danışıqlar aparırlar. Qərara gəlirlər ki, "əgər Gürcüstan öz müstəqilliyini elan edərsə, o zaman Azərbaycan da öz müstəqilliyini elan edəcəkdir". Mayın 26-da Zaqafqaziya Seyminin buraxılması reallaşır. Gürcüstan öz müstəqilliyini rəsmən elan edir. Mayın 27-də Seymin müsəlmanlardan ibarət üzvlərinin fövqəladə iclası keçirilir. Bu barədə protokolda oxuyuruq: "...Əvvəllər Zaqafqaziya Seyminin üzvləri olmuş bütün müsəlmanların yığıncağı özünü Zaqafqaziya müsəlmanlarının koop-

tasiya hüququna malik olan Müvəqqəti Milli Şurasını elan edərək Şərqi Zaqafqaziyanın idarə edilməsini öz üzərinə götürməyi yekdilliklə qərara aldı... Sonra Milli Şuranın rəyasət heyətinin seçkisi başlandı. "Müsavat" partiyası Milli Şuranın sədri vəzifəsinə Məmməd Əmin Rəsulzadəni təklif edir. Rusiya müsəlmanlarının "İttihad" partiyası müstəsna olmaqla bütün partiyalar onun namizədliyini dəstəkləyir. M.Ə.Rəsulzadə gizli səsvermə yolu ilə səslərin mütləq çoxluğunu (22 səs) toplayaraq Milli Şuranın sədri seçildi".

Qeyd edək ki, M.Ə.Rəsulzadə Batumda türklərlə sülh danışıqlarında iştirak etdiyi üçün Tiflisdə yox idi. Onu qiyabi olaraq Milli Şuraya sədr seçmişdilər. Mayın 28-də Azərbaycanın dövlət müstəqilliyi haqqında İstiqlal Bəyannaməsi elan edildi. Bu bəyannamənin mətni kitabda həm Azərbaycan və həm də rus dilində o gündə elan olunduğu kimi verilmişdir.

Tiflisdə fəaliyyətə başlayan Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası və hökuməti 1918-ci il iyun ayının 16-da Tiflisdən Gəncəyə köçdü. Milli Şuranın Azərbaycandakı gərgin fəaliyyəti, qarşılaşdığı çətinliklər onun dərc olunmuş protokollarından aydın görünür.

Zaqafqaziya Seymindən Azərbaycan Cümhuriyyəti parlamentinin yaranmasına qədərki tarixi dövrün öyrənilməsi üçün çox dəyərli mənbə olan kitabın işıq üzü görməsi böyük hadisədir. Sənədləri çapa hazırlayanların əməyi ən yüksək qiymətə layiqdir.

"Günay", №20, 20 may 2006

28 MAY 1919.
BAKIDA İLK İSTİQLAL BAYRAMI.
PARİSDƏ ABŞ PREZİDENTİ İLƏ GÖRÜŞ

1919-cu il mayın 27-si. Bakı bayraqlar ilə bəzədilmişdi. Hər kəsdə bir tələş görünməkdə idi. Paytaxtımızın yuxarı hissəsində belə alaqapılar qayrılmaqda idi. Küçələr boyu məftillər çəkilərək əlvan işıqlar, rəngbərəng bayraqlar asılırdı. Türk uşaqları da bu bayramın əzəmətini, hörmətini yaxşıca düşündüklərindəndir ki, bir gün əvvəl rəsmi keçidə hazırlanırdılar...

Gözlənilən 28 may günəşi tulu etdi. Artıq paytaxtın bəzəyi onqat artmışdı. Küçələr boyu aşağı-yuxarı baxacaq evlərdən üç rəngli, hilallı, yıldız nişanlı bayraqların yellənməsi insanın qəlbində fərəh oyadırdı. Yaşıllıqlarla bəzədilmiş balkonlardan asılmış qiymətli xalılar, ipək örtüklər, "Yaşasın istiqlal!", "Yaşasın Azərbaycan!" yazılı bayraqlar millətdəki ruhu, vətən və millət məhəbbətini layiqincə göstərirdi.

Marşrut qərarı ilə məktəbli cocuqlar Məclisi-Məbusan qarşısına getməli idi...

Saat 9 radələrində Məclisi-Məbusan qarşısında izdiham, qələbəlik bir dərəcədə idi ki, artıq keçməyə yol tapmaq namümkün idi. Bütün o dairədəki evlərin damları, pəncərə və balkonları tamaşaçılar ilə dolmuşdu.

Damda qoşazurna çalınır. Qarşıdakı balkonda məşhur tarzən Şirin, məşhur xanəndə Cabbar Qaryağdıoğlu çalıb-oxuyurdu. Saat 10 radələrində mədən dairələrindən "Müsavat" və "Hümmət" firqələri tərəfindən təşkil edilmiş fəhlələr bayraq və musiqi ilə gəldilər.

Bir az keçdikdən sonra Məclisi-Məbusan qarşısında M.Ə.Rəsulzadə cənabları xitabət kürsüsünə çıxaraq xalqın alqışları altında bir nitq irad edərək camaatı böyük milli bayram və bəxtiyarlıq ilə təbrik etdi. "Bizim düşmənlərimiz, azadlıq və istiqlaliyyətimizi gözləri götürməyən rəqiblərimiz deyirlər ki, Azərbaycan istiqlaliyyətini xanlar, bəylər elan etmişdir, xalq onu istəmir, işdə camaat, bugünki izdiham, bugünki sevinc istiqlaliyyətin xanlar deyil, bəylər deyil, xalq tərəfindən elan edildiyini düşmənlərimiz artıq görsünlər ("Xalqın alqışı altında nitqinə xitam verir, ondan sonra başqa natiqlər də nitq edirlər").

Hörmətli oxucular, istiqlal bayramının Bakıda 87 il bundan əvvəl 1919-cu il mayın 28-də necə bayram edildiyi barədə yuxarıda yazdıqlarım Ü.Hacıbəyovun redaktoru olduğu "Azərbaycan" qəzetinin 1 iyun tarixli nömrəsində çox böyük təfərrüatla, şəkil və əyani vasitələrlə dərc olunmuş məqaləsindən götürülmüşdür.

1919-cu il mayın 28-də Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Nəsibbəy Yusifbəyov böyük bayram münasibətilə Azərbaycan vətəndaşlarına müraciət etmişdi. Bu da "Azərbaycan" qəzetinin 28 may nömrəsində dərc olunub.

Müraciətdə oxuyuruq:

"Azərbaycan vətəndaşları!

Bir il bundan əvvəl sizin seçdiyiniz insanların izhari-iradəsi ilə Azərbaycan xalqı müstəqil siyasi mövcudiyyət yoluna qədəm qoymuşdur: 28 may 1919-cu il - Azərbaycan Respublikasının milli bayramı günüdür. Bu bayram haqqında xatirə Azərbaycanın bütün vətəndaşları üçün həmişə müqəddəs olacaqdır, çünki sizin öz dövlət bayrağınız altında bir il ərzində yaşadığınız azad əməkçi həyatı bu böyük tarixi günün Azərbaycandan ötrü əhəmiyyətini hər hansı sözdən daha yaxşı izah edir. Biz ən yaxşı

hisslərimizi, mədəniyyətimizi və ən müqəddəs ideallarımızı tapdalamış çar irticaçı dövrünün çətin tarixini yaşamışıq. Biz azad və sərbəst mədəni inkişaf hüququndan, ən adi siyasi hüquqlardan məhrum edilmişdik. Bizim ən yaxşı niyyətlərimiz qətiyyətlə boğulurdu. Biz doğma yurdumuzu, uşaqlarımızı və arvadlarımızı qana qəltan etmiş, dağıntılara səbəb olmuş hərc-mərcliyin səbəbkarı olan bolşevik özbaşınalığının şahidi olmuşuq. Qanına qəltan edilmiş Azərbaycan türk xalqı taleyin ümidinə qalmış, yalnız öz gələcəyinə inam hissi ilə yaşamış və azad, müstəqil mövcudiyyət yoluna - dünyanın öz dövlətçiliyi olmayan bütün məzlum xalqlarının seçdiyi və geri qayıtmaq mümkün olmayan bir yola qədəm qoymuşdur.

Ötən bir ildə bizim dövlət orqanlarının yaradılması, milli dövlətçilik hisslərinin ən ucqar guşələrə tətbiq edilməsi üçün yorulmadan apardığımız işlər göstərdi ki, bizim seçdiyimiz insanların tutduğu yol xalqın iradəsinin azad ifadəsi yoludur. Millətin həyatında bu qısa müddətdə Azərbaycan insanları özlərinin bir dövlət kimi müstəqil yaşamaq qabiliyyətinə malik olduğunu sübut etdilər. Dövlətdə qənaətbəxş qayda yaradılmışdır, müstəqil mövcudiyyətin yeni şəraitinə uyğunlaşmış dövlət aparatı öz fəaliyyətini bircə dəqiqə də dayandırmır. İnqilabın bütün əsas nailiyyətləri qorunub saxlanmışdır. İndi biz Müəssislər Məclisinə seçkilər ərəfəsindəyik. Burada Azərbaycan xalqı öz azad iradəsini ifadə edəcəkdir. Azərbaycan Respublikasının müstəqilliyini, onun suveren hüquqlarını qorumaq bizim hamımızın müqəddəs borcumuzdur.

Azərbaycan vətəndaşları!

Təhlükə hələ sovuşmamışdır. Üzərimizə qara buludlar gəlir. Biz daxili asayişi qoruyub saxlasaq və [...] bizim müstəqilliyimizə qəsb edən bütün qüvvələrə qarşı mütəşəkkil mübarizə

aparmaqla biz rahat və azad mövcud olmaq hüququ əldə edəcəyik.

Azərbaycan vətəndaşları!

Qoy 28 may günü böyük ümumxalq sevinci günü olsun. Bu gün, gənc Azərbaycan demokratik respublikasının yarandığı gündə bütün vətəndaşlar milliyyətindən asılı olmayaraq özlərini tamhüquqlu vətəndaşlar kimi hiss etməlidirlər. Qoy bu gün dünya xalqlarının ən ali milli amalları və ədalətli hüquqlarının təntənəsi günü olsun. Azərbaycan hökuməti Azərbaycan Respublikasının mövcudiyyətinin ikinci ilinə milli birliyin qüdrətinə dərin inam hissi ilə, xalqın tam dəstəyinə ümidlə qədəm qoyur və Azərbaycanın bütün vətəndaşlarını bu böyük dövlət bayramı münasibətilə təbrik edir".

1919-cu il mayın 28-i digər mühüm bir hadisə ilə də tariximizə həkk olunub. Hətta Azərbaycan Sovet ensiklopediyasının 2-ci cildində (1978) ABŞ prezidenti Vudro Vilsona (1856-1924) həsr olunmuş yazıda oxuyuruq: "Qafqaz, o cümlədən Azərbaycan üzərində ABŞ-ın "himayəçiliyinə" nail olmağa çalışan Vilsonun təkidi ilə əksinqilabi Müsavat hökumətinin nümayəndə heyəti Paris sülh konfransına dəvət olunmuş və 1919-cu il mayın 28-də Vilson tərəfindən qəbul edilmişdi" (səh.480).

Bu il 15 illiyini qeyd edəcəyimiz ikinci müstəqillik dövründə yuxarıda ikrah hissilə qeyd edilən mühüm tarixi hadisəyə münasibət əsaslı surətdə dəyişmiş, Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin və xüsusilə onun başçısı - görkəmli siyasi dövlət xadimi, diplomat Əlimərdan bəy Topçubaşovun fəaliyyəti arxiv sənədləri, yeni ədəbiyyat və faktlarla öz həqiqi elmitarixi qiymətini almışdır. Bu sahədə professor Cəmil Həsənlinin tədqiqatları xüsusilə diqqəti cəlb edir. Onun "Ağ ləkə"lərin qara kölgəsi" (1991), "Azərbaycan beynəlxalq münasibətlər sistemində" (1918-1920) kimi fundamental monoqrafiyalarında (1993) bu tarixi hadisə çox geniş və düzgün əksini tapmışdır.

Məlumdur ki, gərgin əmək hesabına Versalda Azərbaycan istiqlalı haqqında hazırlanmış memorandum görüş zamanı V.Vilsona təqdim edilmişdi. Memorandumda Azərbaycan haqqında məlumat verilir, Azərbaycan Xalq Cümhuriyyətinin birillik fəaliyyəti əhatə edilir və azadlıq yolunda onun verdiyi qurbanlardan danışılırdı. Orada qeyd edilirdi ki, "İstiqlal uğrunda mübarizədə Azərbaycan 100 mindən 150 min nəfərə qədər adam itirmişdir". Yeri gəlmişkən, uzun əsrlərdən sonra, 1918-ci il mayın 28-də böyük qurbanlar bahasına milli dövlətçiliyimizi yenidən bərpa edən nəslin ünvanına 70 il sovet dövründə iftira, böhtan və söyüşdən başqa bir xoş söz eşidilmədi. Bəs indi necə? Bu qurban və mücahidlərin, istiqlal şəhidlərinin, cümhuriyyət qurucularının şərəfinə bir abidə ucaldılıbmı? Mərhum prezidentin gec də olsa sərəncamı oldu. Yerinə yetirilməsi necə?!

Əlimərdan bəy Bakıya, Azərbaycan hökumətinə mayın 28-də vurduğu teleqramda Vilsonla görüşdə qaldırılan məsələlərə ABŞ prezidentinin münasibətini belə şərh edirdi: Vilsonun fikrincə, 1)Onlar dünyanı kiçik hissələrə bölmək istəmirlər; 2)Əgər biz Qafqaz Federasiyası yaratmaq fikrinə qoşulsaq, bu bizim üçün yaxşı olar; 3)Bu konfederasiya Millətlər Cəmiyyətinin təklifi ilə hər hansı bir dövlətin köməyinə arxalana bilər; 4)Bizim məsələ rus məsələsindən əvvəl həll edilə bilməz.

Onu da qeyd etmək lazımdır ki, Paris sülh konfransına Gürcüstan və Ermənistan hökumətləri də çox böyük tərkibdə nümayəndə heyətləri göndərmişdilər. ABŞ prezidentilə ilk görüş isə Azərbaycan nümayəndə heyətilə olmuşdu.

Parisdə danışıqlar uzun çəkdi. Xüsusilə ermənilər çox böyük iddialarda idilər. M.Ə.Sidqi və Səməd Mənsurun 1918-ci il

oktyabrın 5-dən Bakıda nəşr etdikləri həftəlik satirik "Şeypur" jurnalı hələ dekabrın 7-si nömrəsində Ermənistan hökumətinin ərazi iştahası ilə əlaqədar yazırdı: "Bu hökumət deyir ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burada ancaq bir Ermənistan ola bilər. Qafqazın hamısı ya gərək Ermənistan olsun, ya da Ermənistana tabe kimi bir şey olsun".

Ə.M.Topçubaşovun başçılıq etdiyi nümayəndə heyəti Parisdə təkcə siyasi-diplomatik məsələlərlə deyil, həm də iqtisadi, mədəni-ideoloji məsələlərlə də məşğul olurdu.

Nəhayət, çox ciddi, gərgin, səriştəli daxili və xarici siyasətin nəticəsi olaraq 1920-ci il yanvarın 11-da Böyük Britaniyanın xarici işlər naziri Lord Gerzonun təklifi ilə Versal Sülh Konfransının Baş Şurası Azərbaycanın və Gürcüstanın istiqlaliyyətinin tanınması barədə yekdil qərar qəbul etdi. Bu, Azərbaycan diplomatiyasının beynəlxalq aləmdə qazandığı ilk ən böyük uğur idi. Qədri indi bilinirmi? Bu başqa məsələdir!

"Günay", №21, 27 may 2006

ZAMAN YENİ, XƏSTƏLİK KÖHNƏ, BƏS MÜALİCƏSİ NECƏ?

Bir əsrdən çoxdur ki, mətbuatı dördüncü hakimiyyət, jurnalistləri bu hakimiyyətin qvardiyası hesab edirlər. Əlbəttə, söhbət əsl, peşəkar jurnalistlərdən gedir. Həm də elə mətbuat yaranandan bu kütləvi informasiya vasitəsindən gərgin məqsədlərlə istifadə etmək, faydalanmaq təşəbbüskarları da həmişə olmuşdur. Bu, tarixi həqiqətdir. Bu, mətbuatdan əvvəlki üç hakimiyyətin - qanunvericilik, icra və məhkəmə sistemlərinin, aparatlarının, başqa deyimlə, dövlətin mübtəla olduğu xəstəliklərin bir növ təzahürüdür. Cəmiyyət necədirsə, mətbuat da elə ona layiq olur. Demokratiyanın, həqiqi xalq hakimiyyətinin bərqərar olduğu ölkələrdə, sistemlərdə kütləvi ünsiyyət vasitələri öz funksiyalarını əsasən icra etməyi bacarır. Əlbəttə, söhbət ideal şəraitdən gedə bilməz. Son vaxtlar respublikamızda da bu problem ön plana çıxmaqdadır. Bir tərəfdən Azərbaycan Jurnalistlər Birliyinin yeni sədri Elçin Şıxlının dediyi kimi, "qeyri-peşəkarların jurnalistikaya axını güclənib", "qəzetlərdə əsassız yazıların getməsi, təhqirlərə, jurnalist peşəsinə uyğun olmayan hərəkətlərə yol verilməsi, etik normaların gözlənilməməsi", digər tərəfdən jurnalistlərə qarşı təzyiqlərin, zorakılıq hallarının artması müşahidə olunur. Həm də ən çox peşəkar jurnalistlərimiz cəzalanır, döyülür, təzyiqlərə məruz qalırlar. Mən bu problemlə əlaqədar geniş söhbət açmaq fikrində deyiləm. Ancaq bir cəhəti qeyd etmək istəyirəm ki, dövr yeni olsa da, bu xəstəlik köhnədir, müalicəsi isə hələlik tapılmayıb. Buyurun, XX əsrin əvvəllərindən ta 1938-ci ilə qədər bir şair, publisist, naşir, tərcüməçi və ədəbiyyatşünas kimi fəaliyyət göstərmiş və hər iki – çar və sovet rejiminin siyasi repressiyalarına məruz qalmış Əlabbas Müznibin (1883-1938) 1916-cı ildə nəşr etdiyi satirik "Babayi-Əmir" jurnalında dərc olunmuş "Rəqabət-mətbuat-"mükafat". "Ciddi" diqqət buyurulsun!..." sərlövhəli yazısı ilə tanış olun, görün nə dəyişib, nə qalıb və niyə qalıb?

RƏQABƏT-MƏTBUAT. "MÜKAFAT". "CİDDİ" DİQQƏT BUYURULSUN!...

Rabət, yaşamağın böyük qüvvələrindən biri, bəlkə birincisidir. Rəqabətsiz irəliləmək, izzət ilə yaşamaq mümkün deyildir. Bu rəqabət müsəlmanlarında - xassə (xüsusilə) Bakı müsəlmanlarında iki qismdir. Biri: varlanmaq nöqteyi - nəzərindən oxumuşlar və oxumuşlara təqlid edənlərlə qoçulara məxsusdur. İkincisi: cəmiyyət və mətbuat əhllərinin sənətidir. Birincisindən: oxumuşlar və onlara təqlid edənlər: işi münasib, məvacibi çox bir qulluq gördükdə oradakı qulluqçunu çıxardıb özü girmək üçün cürbəcür vəsilələr axtararlar. Mümkün olan yerlərə müraciət edərlər. Və qanun yol verəcək maddələr ilə yerlərə, mülklərə dəxi sahib olmağa çalışarlar. Hətta evlənmək istədikdə olmazın vasitələr ilə varlı qızı almağa girişərlər. Əlhal (indi) öyləsi var ki, özü iyirmi yaşında olduğu halda arvadı qırx yaşındadır. Çünki, arvadın ölən ərindən çoxlu pul, mülk qalmışdır. Haman dul arvadı təzvic etməklə (almaqla) varlı olub, meydana çıxmışdır. Lakin bu sinfin bu təşəbbüsü heç kimi ləkələndirməyir və töhmət altına almayır.

Qoçular dəxi bu nöqteyi-nəzərlə açıq-açığına adam öldürür, oğurluq edir və etdirir, fəqət varlanmaq istəyir. Daha "sən flansan!" - deməyir. Ancaq deyir ki, mənə pul lazımdır. Hər növlə olursa-olsun, gərək varlanam. Hətta bunların da çoxu küçə arvadları saxlayıb varlanırlar. Bu cürə varlananlar isə bu gün hər kəsə məlumdur. Bunlar dəxi kimsəni ləkələndirməyir.

Cəmiyyət və mətbuat əhlləri (bəziləri)nin rəqabətləri isə bam-başqadır. Cəmiyyət və mətbuat rəqabətləri demək olar ki, dünyada mövcud olan bütün rəqabətlərin ən çirkin, ən alçağıdır. Cəmiyyətlərdə seçki olduqda cürbəcür intriqalar, olmazın dəsisələr (hiyləgərliklər) törədilir. Qaralamaq istənilən şəxslər oğurluq, pul yeməklik kimi yaramaz sözlər ilə müttəhim olunur. Bu haqda məhəlli qəzetələrimizdəki yazışmalar hamıya məlum olsun gərək. Mətbuat rəqabətinə gəldikdə: bu rəqabət yazılmaqla qurtaracaq şeylərdən deyildir. Mətbuat rəqabətini lazımınca bilmək üçün 1906-cı ildən başlanıb bu vaxta qədər çıxan qəzetələri oxumaq lazımdır. Bu 10 illik müddətdə çıxan qəzetələrin arasında dəxi əracir (şayiələr) görülmüşdür. Lakin biz hər şeyin saxtası olduğu kimi - onları da mətbuat saxtaları sayırdıq. Doğrudan da öylə idi. Amma bu saxtalıq get-gedə həqiqət məqamını aldı. Xüsusi qərəzkar dairələrin mürəvvici - əfkarı (fikir yayanı) oldu. Bu qara və çirkin fikirlərin nəşri camaatın əxlaqını pozdu. Əfkarını bərbad elədi. Oxucular nəzərində mətbuat ehtiramı qalmadı. Özü islaha möhtac olan şəxs millətin islahı haqqında nə yazacaqdır?... Şübhəsiz ki, küçə söyüşlərindən başqa bir şey bacara bilməyəcəkdir... Bu çirkin, bu alçaq rəqabətin dəhşətli bir qüvvəsi də bizim üzərimizdə partlamağa başlamışdır. Sürgündən gəldiyimiz zamanlarda nə qədər başqalara qulluqçuluq edirdiksə, o qədər dinc və asudə idik. O gündən ki, nəşriyyat binası qoymuşuq, haman ardı-arası üzülməyən hücumlara, təcavüzlərə məruz olmaqdayıq. Nə üçün? Nə səbəblə? Onun üçün və o səbəblə ki, heç bir ağanın hökmü altına girib, mətbuat nəşr etməyə girişməmişik. Yalnız öz səy və əməyimizin sayəsində kitablar və məcmuələr nəşr etməyə başlamışıq. Hər kəsin yaramaz hərəkətini açıqca yazmışıq. Tənbəllərə yol göstərmişik, şeytan fikirliləri qamçılamışıq. Bu hala nəzərən dəfəat ilə məcmuələrimiz saxlanılıb, özümüzü məhkəmələrə çəkmişlər. Bununla qələmimizi sındırmaq istəmişlər. Ancaq cənab haqqın inayəti ilə müvəffəq ola bilməmişlərdir. Bu xüsusda müfəssəl yazmaq üçün vaxt müsaid deyildir. Vaxtilə yazılacaqdır.

Lakin bu axırlarda məruz olduğumuz hücumlar daha acınacaq və ürək bulandıracaq hücumlardandır. Vərəqparələrdə iftiralar, böhtanlar yazılıb, küçələrdə paylanır. Şəklimiz olmazın qəbahətlər ilə çəkilib dükanlara, kafeşantanlara vurulur. Bəlkə vərəqparələr də dərc olunacaqdır. Nə edəcəklərsə - etsinlər! Nəfəsimiz var ikən əzmimizdən dönməyəcəyik. Əcəba, bu

hücumlar nə üçünmüş? Bir vaxt günahkar olub demişik ki, 27 xət nəzmdə (şeirdə) 27 danə belə-belə yazmaq caiz deyildir. Beş il bundan qabaq birinin yazısına yaramaz demişik və ya bir müəllimin hərəkətini tənqid etmişik və ya birinə "sən cəmiyyətdə yaramazsan" söyləmişik, bunlar dəxi indi səs-səsə verib ki, gərək Əli Abbas yer üzündən götürülsün. Halbuki söyüşə tənəzzül edən cənab bilməlidir ki, söyüşü hər kəs bilə bilər, söyüşlə, Əli Abbası qoçu qələmə verməklə "Babayi-Əmir"in yazıçılarına "Bəçcə əyar" (əxlaqsız) deməklə nəşriyyatı artmaz, nüfuz qazana bilməz, yaxud Əli Abbasın nüfuzuna sədəmə (bəla) yetirə bilməz. Çox da küçədə bir-iki adam vuruşmuşdur. Əli Abbas hər kəsin tərəfindən cavabdeh də ola bilməz. Bu cür töhmətlər, çirkin sözlər heç kəsin şöhrətinə, mənəviyyatına yardım etməz. Tutalım urusların Tolstoyu vardır, hər kəs onu sevir və yazıları, kitabları hər tərəfi bürümüşdür. Bir yazıçı 30 nəfər əliçomaqlı göndərib Tolstoyu əzdirərsə, o vaxt onun yazıları, əsərləri çoxalarmı? Xeyr! Daha da gözündən batar. Rəqabət öylə deyildir. Rəqabət hər nədə olursa-olsun ciddiyyət və ləyaqətlə olar. Hakəza (beləcə) mətbuatını çoxlu işə vermək istəyən mündərəcatına və nəfasəti - təbinə (təbinin incəliyinə) diqqət etməlidir, yazısını gözəlləşdirməlidir. Oxucularının rəğbətini qazanıb, bollu əsərlər nəşr etməlidir. Yoxsa bir yazıçıya oğru, qoçu, uşaqbaz, mən nə bilim nə-nə-nə... deməklə əsər çoxalmaz, oxumaq tərəqqi etməz, mətbuat irəli getməz.

Budur aylardan bəridir ki, divanxanalar qapısından qurtara bilməyirik. Haman yaxamız əldədir. Yazdıqlarımız tərcümə olunub məqamına təslim edilməkdədir. Axirüləmr (nəticədə) pasportumuz alınıb nəzarət altında qalmalı olduq. Əlbəttə, insaf, ədalət ərbabı yox olmamışdır ki, hər yetənin donosu müyəssər düşsün. Biz bu hücumları indi görməyirik. 1910-cu ildən görüb gəlməkdəyik. Ən əvvəl tutulduqda həbsimiz münasibətilə ziyafətlər verilmiş, şadyanalıqlar edilmişdir. Sürgün edildikdə evimizin qabağına bədiyyəçilər yığmışlar, meyxanalar söylətdirmişlər. Ata-anamın gözləri içinə söymüşlərdir. Bu kimi şeylərə öyrəncəliyik. Bu gün otağımızda bir sandıq söyüş məktubları vardır. Biz isə o məktubları söyüş hesab etməyirik. Hamısını "millət mükafatı" hesab edirik. Yenə millətin qədr bilənlərinə və yaxşı-yamanı fərq edənlərinə məğrur (xatircəm) olub nəşriyyatımızı davam etdirəcəyik. Müğərrizlərə (avaralara), müfsidlərə (fitnəçilərə) nəşriyyatımızı çoxaltmaqla şiddətli cavablar verəcəyik.

Budur: "İnsaf güzgüsü", "İbrət taziyanəsi", "Yaşayış özülü", "Tac Mahal tarixi" nam (adlı) dörd xırda əsər dəxi nəşriyyatımıza əlavə etdik. Hər kitabxanada satılmaqdadır. Bu yaxınlarda şairlərimizin: "Cənnəti", "Seydi", "Muniri", "Mehdi", "Seyid zərgər", "Seyid Məddah", Ağadadaş cənablarının rəsm, şer və tərcümeyi-halları, "Açıq məktublar" (otkritkalar) təbdən (çapdan) çıxıb satışa veriləcəkdir. Görək o vaxt kimlər qızaracaqdır. Bizim bu nəşriyyatımızın da nə tövr ilə binaləndiyi vaxtilə yazılacaqdır. Həyat baqi (sabit) qalsa, daha da artırıb hücumçulara yol göstərəcəyik. Onları bu hərəkətlərindən usandırıb peşiman etdirəcəyik. Yəni milyona malik olan nəşriyyatı söyüşdən xilas edib böyük kitablar nəşr etməklə arzuya müvəffəq olmaq ümidindəyik.

"Babayi-Əmir" mühərriri
(Əlabbas Müznib)
"Babayi-Əmir" jur. №16, 27 aprel 1916-cı il

"Günay", №22, 3 iyun 2006

AZADLIQ VƏ İSTİQLAL MÜCAHİDLƏRİ, DÜNYA İNQİLABI FANATİKLƏRİ

"Günay" qəzetinin 27 may tarixli sayında Cümhuriyyətimizin bir illiyi günü - 1919-cu il mayın 28-də Parisdə Paris sülh konfransına dəvət olunmuş Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun ABŞ prezidenti Vudro Vilsonla görüşü barədə məlumat vermişdik. Oxucularımız bununla əlaqədar Topçubaşovun ABŞ preziden-tinə təqdim etdiyi Azərbaycan Respublikasının "İstiqlalı haqqında" memorandumun tam mətni ilə maraqlandıqlarını bildirirlər. Digər tərəfdən 1920-ci il yanvarın 11-də Azərbaycanın istiqlaliyyətinin müttəfiqlər tərəfindən tanınmasına o vaxt hakimiyyətə müxalifətdə olan siyasi partiya və qüvvələrin münasibəti məsələsi ilə də əlaqədar qısa da olsa məlumat verilməsini xahiş ediriər. Bunu nəzərə alaraq bildirmək istəyirəm ki, həmin memorandumun mətni respublikamızın Dövlət Arxivində saxlanılır. 1998-ci ildə Cümhuriyyətimizin 80 illik yubileyilə əlaqədar A.Paşayevin rəhbərliyi ilə nəşr olunmuş çoxcildlik sənədlər toplusunda həmin sənəd də vardır. Fransız dilindən rus dilinə tərcümə edilmiş həmin sənədlə tanış ola bilərsiniz.

O ki qaldı Azərbaycan istiqlalının müttəfiqlər tərəfindən tanınması kimi mühüm tarixi bir hadisəyə münasibətə, o vaxtkı xarici işlər naziri Fətəli Xan Xoyski parlamentin 1920-ci il yanvarın 14-də keçirilən 117-ci iclasındakı çıxışında demişdir: "Bu xəbər bizdən ötrü böyük bayramdır. Bu yalnız bizim üçün deyil, islam milləti və ümumi türk aləmi üçün bir bayramdır. Böylə bir günü dərk etmək üçün qeyri-millətlər on illər ilə çalışmışlar. Biz

isə onu az müddətdə, bir il yarım içərisində qazandıq". Həmin iclasda M.Ə.Rəsulzadə, Bəhram bəy Vəzirov, Muxtar Əfəndizadə ("Əhrar"), Aslan bəy Səfikürdlü, əqəliyyətdə qalan millətlərin nümayəndələrindən erməni Malxazyan, polyak Vanseviç, yəhudilər tərəfindən Qoxman, gürcülər tərəfindən Baqradze gənc türk dövlətini təbrik etdilər. Parlamentin bu iclasında bu tarixi hadisənin əleyhinə çıxmağa cürət edən olmadı. Təkcə Səmədağa Ağamalı oğlu çox eyhamlı bir nitq söylədi. O dedi ki, bizim istiqlalımızı təsdiq edən Antanta deyil, "İngiltərə demokratiyasıdır, o demokratiya ki, ingilislərin Qafqasiyadan qoşununu geri çəkməyi tələb etdi". Amma bolşevik-"hümmət"çi Əliheydər Qarayev yanvarın 14-də redaktoru olduğu "Azərbaycan füqərası" qəzetində **"Azərbaycan istiqlaliyyəti qəbul olunmuşdur"** sərlövhəli bir baş məqalə vermişdi. Antantanı və müttəfiqləri "insaniyyət quldurları" adlandıran Qarayev iddia edirdi ki, "Antanta Azərbaycanın və Gürcüstanın istiqlaliyyətlərini bu şərtlə "qəbul" edirlər ki, onlar bolşeviklər ilə mübarizəyə girişəcəklər", "biz bilirik ki, bizim nicatımız Cahan inqilabındadır, Antantanın isə ölümü haman inqilabdan asılıdır". Yanvarın 18-də Ə.Qarayev adını çəkdiyimiz qəzetdə "Cahan inqilabı məhv olarmı ya!" sərlövhəli yazısında da eyni tezisi daha kəskin şəkildə əxlaqdankənar ifadələrlə təkrarlayırdı. "Qanlı köpəklər Zaqafqaziya zəhmətkeşlərinin qanlarını tökdürüb, onların sümüklərinin üstündə mülkədarların və sərvətdarların imarətini tikdirmək istəyir" və s. Məhz bu fanatik inqilabçılar dünya proletar inqilabı haqqında xülyalara uymuş, öz milli müstəqil dövlətlərinin əleyhinə çıxmışdılar.

Həm də onlar elə bilirdilər ki, Rusiyanın bolşevik rejimi bu ümumdünya inqilabının mərkəzi rolunu oynayacaq. Tarix bütün bu xülya və təşəbbüslərin avanturist səciyyə daşıdığını göstərdi. Digər tərəfdən milli dövlətçiliyimizi demokratik əsaslar üzərində bərpa edən, onu dünyada tanıdan həqiqi azadlıq və istiqlal müc-

ahidlərinin uzaqgörənliyini sübut etdi. Vaxtilə vətənimizin tarixini ilk qələmə almış Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində yazmışdır: "Tarix hökmsüz və zülmsüz elə bir hökmrandır ki, bütün Adəm övladı onun əmrlərinə boyun əyməkdədir". Heç bir nəsil tarix və taleyin hökmünü heç vaxt yaddan çıxarmasın gərək!

PARİS SÜLH KONFRANSINDA AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN ABŞ PREZİDENTİ T.V.VİLSONA MEMORANDUMU

28 may 1919-cu il.

1917-ci il oktyabrın 25-də baş vermiş bolşevik inqilabından və Rusiyada, o cümlədən Qafqazda mərkəzi hakimiyyət devriləndən sonra Azərbaycanın ümumi səsvermə yolu ilə seçilmiş Milli Məclisi 1918-ci il mayın 28-də Azərbaycan Respublikasının müstəqilliyini elan etmişdir.

Hazırda bu ölkədə ali hakimiyyət, tərkibinə təkcə yerli müsəlman əhalisinin nümayəndələri deyil, həmçinin qeyri-millətlərin: ermənilərin, rusların, polyakların və başqalarının nümayəndələri də daxil olan Parlamentə məxsusdur. Mövcud hökumətin nazirləri arasında da qeyri-müsəlmanlar vardır.

Qafqazda bu qayda ilə yaradılmış Azərbaycan dövləti artıq bir ildir ki, öz parlamenti tərəfindən tam müstəqil şəkildə idarə olunur. Böyük müharibə dövründə Azərbaycan xalqı Qafqazda müttəfiqlərin öz məqsədlərinə çatması üçün sanballı maddi yardım göstərmişdir. Hərçənd, çar rejimi dövründə bu əyalətin sakinləri hərbi mükəlləfiyyətə cəlb edilmirdi. Buna baxmayaraq, Azərbaycan general Xan Naxçıvanskinin, Mehmandarov, Şıxlinski, Usubov kimi başqa generalların, eləcə də öz igidliyi,

şücaəti və rəşadəti ilə fərqlənən 200-dən çox zabitin komandanlığı altında çoxsaylı könüllülərdən ibarət kontingenti müttəfiqlərin ordularının sərəncamına vermişdir.

Bu vilayət Antantanın sanitar ehtiyacları baxımından da köməyə gəlmiş, külli məbləğdə vəsait sərf edərək hospitalları və müxtəlif sanitar müəssisələrini müttəfiqlərin ordularının sərəncamına vermişdir.

Rusiyada inqilab və Qafqazda bolşevik hərəkatı başlanan vaxtdan biz öz xalqımızın temperamentinə və ruhuna əsla uyğun olmayan öhdəlikləri yerinə yetirməyə məcbur edilmiş, hər vasitə ilə buna qarşı mübarizə aparmalı və çox böyük qurbanlar verməli olmuşuq.

Əcnəbi bolşevik quldurlar bizə çox ciddi ziyan vurmuşlar. Məsələn, 2 şəhər və 500 kənd yandırılmış və talan edilmiş, 100 mindən 150 minə qədər sakin qanına qəltan edilərək öldürülmüş, qarətlər nəticəsində ölkəyə çox böyük məbləğdə zərər dəymişdir.

Ölkəmizin coğrafi mövqeyinə nəzər salsaq, asanlıqla görmək olar ki o, Qafqaz dağları vasitəsilə Rusiyadan tamamilə ayrılmışdır. Eyni qayda ilə etnoqrafik baxımdan bizim xalqın Moskva və Rusiyanın slavyan xalqı ilə heç bir əlaqəsi yoxdur.

Azərbaycan xalqı qəti əmin olduğunu bildirir ki, onun sülh konfransına göndərdiyi nümayəndə heyətinin köməyi ilə ümumi sülhün təcəssümçüsü və beynəlxalq mübahisələrdə qərəzsiz vasitəçi olan cənab Sədr onların milli ehtiyaclarına diqqət yetirəcək və aşağıdakı məsələlərin həllində himayədarlıq edəcəkdir:

1) Öz ərazisi, öz əhalisi, öz parlamenti, öz hökuməti və öz ordusu olan Qafqaz Azərbaycanının tam müstəqilliyinin tanınması.

2) Vilsonun böyük prinsiplərinin bütün millətlərə münasibətdə tətbiq edilməsi.

3) Azərbaycan hökuməti nümayəndələrinin dünyanın taleyini və onun ölkəsinin taleyini həll edən sülh konfransının işində iştirak etməyə buraxılması.

4) Azərbaycan Respublikasının Millətlər Liqasına buraxılması.

5) Azərbaycan əhalisinin ehtiyacları üçün Azərbaycan hökumətinin sərəncamına Birləşmiş Ştatların Hərbiyyə Nazirliyinin anbarlarından müəyyən miqdarda məmulat və predmetlər verilməsi.

6) Amerika ilə diplomatik və kommersiya əlaqələrinin təmin edilməsi. Bu, bizim külli miqdarda xammalı manufaktura məmulatları ilə mübadilə etməyimizə imkan verərdi, çünki bizim ölkəmizin təbii sərvətləri tükənməz neft, ipək, balıq, meşə, yun, balıq kürüsü mənbələrindən ibarətdir. Bu sərvətlər keçmiş Rusiyanın borcunun Azərbaycana aid hissəsini ödəməyə imkan verər.

Azərbaycan Respublikasının sülh nümayəndə heyətinin sədri Ə.Topçubaşov.

Sənəd fransız dilindən rus dilinə tərcümə edilərək bu kitabda dərc edilmişdir:

Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку 1998 г. стр.229-231.

Ruscadan tərcümə edəni:
O.QƏBƏLƏLİ

"Günay", №23, 10 iyun 2006

KÖHNƏ PROBLEMLƏR, YENİ DÜŞÜNCƏLƏR

VARLILARIN QORXUSU, KASIBLARIN TƏSƏLLİSİ

Şəxsiyyətinə və alimliyinə çox böyük hörmət etdiyim akademik Ziyad Səmədzadə son müsahibələrindən birində deyib: "Ulu Tanrı həmişə istəyir ki, yaratdığı insanların arasında yoxsullar, möhtaclar az olsun. Yaşlı nəsil qalan ömrünü əziyyət içərisində keçirməsin. İllər boyu cəmiyyət üçün, xalq üçün çalışmış insanların ahıl vaxtında çətinlikləri olmasın". Yaxşı arzudur. Bəs həlli necədir?

BDU-nun professoru, əməkdar elm xadimi Şahlar Əsgərov neçə vaxtdan bəri "525-ci qəzet"in şənbə nömrələrində işıq üzü görən çox yüksək intellektual və elmi səviyyədə, anlaşıqlı şəkildə qələmə aldığı "Düşüncə tərzi" silsilə məqalələrində də bu problemə toxunur. Professor IX məqaləsini "Yarımçıqlıq sindromu"na həsr edib (6.V.2006). Orada oxuyuruq: "XXI əsrin ən çox xoşladığı insani keyfiyyət kamillik və qənaətcillik, ən xoşlamadığı isə yarımçıqlıq, ifratçılıq olacaq. Şərq, Qərb və Sovet adət-ənənələri bir-birinə qatışaraq bədrəng bir düşüncə tərzi yaradıb. Bu "rəngarənglik" yaşayış tərzimizi bədrəng edib. Ona görə də yaşayış tərzimiz də yarımçıqdır". Bizim fəaliyyətimizdəki yarımçıqlıq, həm də sovet zamanı yarımüs-təqil dövlətin vətəndaşı olduğumuzla bağlıdır. "Belə ki, dini-milli mərasimlərdə (toy, dini mərasimlər), ictimai-kütləvi pro-seslərdə (təhsil, səhiyyə, mədəniyyət hadisələrində, iclaslarda), siyasi, ictimai təşkilatların (partiyalar və QHT) fəaliyyətində bu və ya başqa dərəcədə yarımçıqlıq üstünlük təşkil edir. Yarımçıqlıq sindromuna Azərbaycanda çox sahələrdə rast gəlmək olur".

Prof. Ş.Əsgərov işıq üzü görmüş 11-ci "Düşüncə tərzi" məqaləsində (27.V.) məişət problemlərinə nəzər salır. O yazır: "Qəbahət olsa da demək lazımdır ki, ümumiyyətlə Şərqdə, xüsusi ilə də bizdə yemək kultu mövcuddur. Azərbaycandan başqa hansı ölkənin şənlik stolunda 46 adda soyuq qəlyanaltı qoyular? Bununla biz millətimizə və dünyaya nə demək istəyirik? Hansı varlı dövlətdə bənzər mənzərəyə rast gəlmək olar?" Sonra "Biz zavodlar, fabriklər əvəzinə şadlıq sarayları tikirik. Dünyanm heç bir iri şəhərində Bakıda olduğu qədər şadlıq sarayı yoxdur". Professor belə hesab edir ki, indiki dünyada "Şimal-Qərb qarşıdurmasına ideoloji əsas yoxdur. Şimal-Cənub qarşıdurması isə var. Səbəb geriqalma problemidir, yaxud varlılıq və yoxsulluqdur. Məlumdur ki, varlılıq və yoxsulluq bəşəriyyətin qarşılaşdığı və həllində əsasən aciz qaldığı əbədi səciyyəli problemdir. 21-ci yüzilliyin ən əsas və vacib problemlərindən biri də budur. Beynəlxalq miqyasda bununla əlaqədar ən yüksək səviyyələrdə müzakirələrin ardı-arası kəsilmir. Məqsədim bu barədə geniş söhbət açmaq deyil. Elə respublikamızda rəsmi statistik məlumatlara görə, əhalinin 30 faizindən çoxu yoxsulluq şəraitində ömür sürür. İşsizlik, korrupsiya, yarımçıqlıq, məsuliyyətsizlik, məmur ozbaşınalığı və sair kimi ictimai bəlaların kökü kəsilmir. Nə üçün? Bu sualın cavabı da məchuldur. Lakin beynəlxalq miqyasda bu sahədə görülən tədbirlər və alınan real nəticələr də məlumdur. Professor Ş.Əsgərov bununla əlaqədar haqqında danışdığımız "Düşüncə tərzi"ndə Atatürkün aşağıdakı ibrətamiz kəlamını xatırladır: "Çalışmadan, öyrənmədən, yorulmadan rahat yaşama yollarını alışqanlıq halına gətirən millət, öncə şərəfini, sonra hürriyyətini, daha sonra gələcəyini qeyb etməyə məhkumdur". Sonra mütəxəssis hazırlığına toxunur və

göstərir ki, "bizdə gənclərin 80 faizi orta məktəb proqramını mənimsəmir", əgər ABŞ universitetlərində təhsil xərci təqribən 25-30 min dollardırsa, Avropa universitetlərində 15-20 min, Türkiyədə 4-5 min, Rusiyada 2 min, Azərbaycanda min dollar civarındadır. Söhbət dövlətin ayırdığı vəsaitdən gedir.

Dünyanın, o cümlədən Qərbin yüksək inkişaf etmiş ölkələrində həyat şəraitinin normal vəziyyətini, yoxsulluğun aradan qaldırılmasını təmin edən amillər haqqında da son vaxtlar geniş tədqiqat və araşdırmalar aparılır. Məsələn, bu ilin aprelində Rusiya və ABŞ vətəndaşlarının öz ölkələri və digər ölkələr haqqında hansı təsəvvürlərə malik olmalarını aydınlaşdırmaq məqsədilə birgə tədqiqat-sorğu keçirilmişdir. ABŞ sakinlərinin 83 faizi hakimiyyət sistemini, öz ölkələrindəki iqtisadiyyatı, demokratiyanın səviyyəsini yüksək qiymətləndirmişdir. Rusiyada öz ölkəsinin iqtisadiyyatına nikbin yanaşanlar 31 faizdir. Paradoks ondadır ki, amerikalıların əksəriyyəti öz ölkəsindən razıdır, Rusiyada isə əksəriyyət ölkədən yox, prezidentdən razıdır. Məhz buna görədir ki, Rusiyada ölkə başçıları dəyişdikcə, hər dəfə yenidənqurma prosesi başlayır. Hər şey alt-üst edilir. Varlı azlıq iradəsini yoxsul çoxluğa qəbul etdirir. Neçə yüz ildir ki, bu davam edir. Lakin indiki qloballaşma, informasiya cəmiyyəti şəraitində bu vəziyyətin bundan sonra da davam etmək şansı azalır. Əks təqdirdə sosial gərginliklərin yenidən gündəmə gəlməsi qaçılmaz olacaq. Çünki yoxsulların təsəlli "fəlsəfəsi"nin vaxtı da bitmək üzrədir. Bu düşüncə tərzini isə 99 il bundan qabaq 24 yaşlı Üzeyir bəy "Tərəqqi" qəzetində "Ordan-burdan" rubrikası altında dərc olunmuş felyetonunda çox ustalıqla şərh etmişdir. Tanış olun.

ORDAN-BURDAN

(Təsəlli)

...Təkcə oturmuşam. Məndən başqa idarədə bir kəs yoxdur. Yanımdakı şeylərdən tək bir asma saat öz vəzifəsinə məşğul olub tıqqıltı eləyir. O biriləri dinməz-söyləməz durubdular... Fikrə məşğulam...

Qapının zəngi cürətsiz bir surətdə səs eləyir. Kimdir bu? Gecənin bu vaxtı nə istəyir?...

Zəng yenə çalınır, gedib qapını açıram.

- A... yenə sən gəldin! Gecənin bu vaxtı nə var?

- Heç. Elə-belə... Ürəyim darıxdı, gəldim. İstədim ürəyim açılsın. Burada mənim ürəyim həmişə açılır... Təskinlik tapıram. Mənə elə görünür ki, bura hər bir dərdin dərmanı yeridir... Heç olmasa adamın ürəyi boşalır.

- Dərdin nədir?

- Dərdim nədir? Yox öylə demə: soruş ki, nədən dərd çəkirsən? Mən də deyim ki; dərdini çəkmədiyim bir şey yoxdur!...

- Əgər dünyada tək bir sən dərdli olsaydın, onda doğrudan da sən çox yazıq adam olardın, amma şair doğru deyibdir ki:

Dər in dünya kəsi biğəm nə başəd,
Əgər başəd - bəniadəm nəbaşəd.*

Sən deyirsən ki, sənin dərdin çoxdur, mən deyirəm ki, mənim dərdim çoxdur. Əgər bir üçüncüdən soruşsan ki, kimin dərdi çoxdur, o da deyər ki, hamınızdan mənim dərdim çoxdur.

**Bu dünyada dərdsiz-qəmsiz adam olmaz;*
Olarsa, deməli, o, adam deyil.

- Mənim dərdim hamıdan artıqdır: mən yoxsulam... Günlər olur ki, ac qalıram... Özüm cəhənnəm! Külfətim ac qalır... İş yoxdur. Heç kəs mənə iş vermir... Dövlətlilərin qapısına gedirəm, qovurlar. Heç kəsin ağlına da gəlmir ki, bəlkə mənim əhli-əyalım acından can verir! Dünyada bir adamın ümidini - o ümid ki, insanın diriliyi ondan asılıdır - haman o ümidi pozmaq böyük zülmdür. Halbuki, mən hər gün özüm bir ümid ilə evdən çıxıb əhli-əyalı da ümidvar edirəm, sonra sairlər məni naümid edən kimi mən də öz yaxın adamlarımın ümidini zayil etməyə məcbur oluram... Ah, bərr (quru) adamlar! Bəzi vaxt mən adamlardan qorxuram: mən öylə güman edirəm ki, bu adamlar hamısı ittifaqla mənə düşmən olub özümü və bütün külfətimi ölüm cəzasına məhkum eyləyibdirlər... Bazardan keçirkən mən dükanlarda, mağazalarda gördüyüm o yeyilən və geyilən şeylərdən qorxuram. Mən öylə bilirəm ki, o qırmızı almalar, sarı armudlar, isti çörəklər məni görüb deyirlər: itil burdan pulsuz oğlu pulsuz! Bizə yaxın durma!... Vallah, mən onlardan da qorxuram. Bəzi vaxt olur ki, müdam bütün insanlardan zəhləm gedir... Mən onlara düşmən oluram. Əgər bu hiss bir az da mənə qələbə etsə qabağıma çıxan adamı kamali-şövq ilə boğaram. Yanından keçməyə qorxduğum mağazaya soxulub onun yiyəsini də boğaram və oradakı şeylərə deyərəm: Sus! İndi siz mənim malımsınız! Daha sizdən qorxmuram!... Ax, bu pulu çıxardanın evi yıxılsın...

Dedim: - Qəm yemə! Çalış, iş taparsan. Ancaq mənə de görüm, sən buraya gələrkən qorxmurdun ki, səni oğurlayarlar?

Dedi: - yox!

- Bax, bu bir ümdə azadlıq ki, səndə var. Amma dövlətlilər ondan məhrumdurlar! Bundan başqa əgər bir dövlətli, bir milyonçu günlərin bir günü bütün dövlətini itirə və müflis qala, nə olar?

- Ya qüssəmərk olub ölər, ya dəli olar!

- Çox gözəl! Halbuki, sən ilə mənim bir qəpik pulumuz yoxdur. Özümüz də nə qüssəmərk oluruq, nə də dəli-divanə!... Bu bizə böyük bir təsəllidir, həmişə azad və mərdanə ömür sürürük. Vəssalam!

Filankəs
(Üzeyir Hacıbəyov)
"Tərəqqi" qəz. 9 yanvar 1909, №7

"Günay", №24, 17 iyun 2006

İRANDA İNQİLAB. BAKIDA QİYMƏT, HƏMRƏYLİK, ÜMİD

(Bəzi qeydlər)

***20**-ci yüzilliyin ilk on illiyində Şərqdə cərəyan edən mühüm yeniləşmə hərəkatları sırasında planetimizin ən qədim və möhtəşəm dövlətlərindən olan İranda 1905-1911-ci illər inqilabı özünəməxsus yer tutur. Bununla əlaqədar indinin özündə belə - hadisələrin başlanmasından 100 il keçməsinə baxmayaraq xeyli ədəbiyyat və şərhlər dərc edilməkdədir. Bu da təbiidir. İran mövzusu, bu ölkədə son onilliklərdə baş verən mühüm dəyişikliklər, monarxiya rejiminin nəhayət ki, ləğv edilməsi, islam respublikasının yaradılması, İranın dünyaya inteqrasiya prosesi sahəsində üzləşdiyi çətinlik və maneələr və s. beynəlxalq ictimaiyyətin diqqət mərkəzində qalmaqdadır. Bunlar günümüzün reallıqlarıdır.*

Azərbaycanda - daha dəqiq desək, Şimali Azərbaycanda (tarix ədəbiyyatında: İran Azərbaycanı, Qafqaz Azərbaycanı, Rusiya Azərbaycanı və s. var) tarixən çox sıx əlaqələr və tellərlə bağlı olduğumuz İranda cərəyan edən hadisələrə, o cümlədən 1905-1911-ci illər inqilabına münasibət xüsusi səciyyə daşıyıb. Biz bunu həmin illərdə Qafqazda, o cümlədən Bakıda nəşr olunan mətbuat orqanları səhifələrində aydın görürük. 1905-1911 - ci illərdə Azərbaycan dilində çıxan elə bir mətbuat orqanına rast gəlmək olmaz ki, bu hadisələrdən yazmasın. Bunların içərisində əlbəttə müxtəlif rəylər, şərhlər, münasibətlər mövcuddur. Qeyd edim ki, elə Tehranın özündə indi də bu tarixi yazılara maraq göstərənlər az deyil. Məsələn, bir neçə il bundan əvvəl Tehranın "Snehri nəqş" nəşriyyatı "M.Ə.Rəsulzadə. İran məşrutə inqi-

labından məlumatlar" adlı kitab nəşr etmişdir. Məlumdur ki, M.Ə.Rəsulzadənin əməkdaşlıq etdiyi "İrşad" (1905-1908), "Təkamül" (1906-1907) və "Tərəqqi" (1908-1909) qəzetlərində İran hadisələrilə əlaqədar onun müxtəlif janrlı və mövzulu xeyli yazıları dərc olunmuşdur. "İranda hürriyyət", "İranda inqilab", "İranda "yanvarın 9-u", "İran işləri", "İranda bomba", "Şahın vəfatına dair", "Təbriz vəkillərinin Bakıda dayanmaları", "İran işləri" və s. bu qəbildəndir. 1909-cu ilin əvvəllərində M.Ə.Rəsulzadə Bakıda nəşr olunan gündəlik "Tərəqqi" qəzetinin xüsusi müxbiri kimi İrana ezam edilmişdi. Onun bu qəzetin səhifələrində məşhur "İran məktubları" müntəzəm olaraq dərc edilirdi. Bu məktublar M.Ə.Rəsulzadənin əsərlərinin 1-ci cildinə daxil edilmiş və 1992-ci ildə Bakıda nəşr olunmuşdur. Tanınmış İran Azərbaycanı ziyalısı Rəhim Rəisniya bu cilddəki "İran məktubları"nı və ümumiyyətlə cilddə M.Ə.Rəsulzadənin İrana dair yazılarını fars dilinə tərcümə edərək Tehranda ayrıca kitab halında buraxmışdır. Yuxarıda adını çəkdiyimiz əsər budur.

Azərbaycanın müasir düşünən və millət təəssübü çəkən qələm əhlinin İran xalqının azadlıq və sosial ədalət hərəkatına münasibəti necə olmuşdur? Bu yazılarda, şərhlərdə ümumi cəhətlər hansılardır? İrandakı inqilab hərəkatı ilə Rusiyada cərəyan edən inqilabı hərəkatı arasında əlaqə vardımı?

"Həyat" qəzetinin (1905-1906) redaktoru Əli bəy Hüseynzadə Rusiyanı və Yaxın Şərqi bürümüş yeniləşmə hərəkatı ilə əlaqədar qəzetdə dərc olunmuş məqaləsində yazırdı: "...İllərdən bəri uyumuş, uyumuş, bir nöqtədə donub qalmış olan Rusiya, Ümumrusiya bu il oyandı, bu il başını qaldırdı, ayağa qalxdı... İnqilab öz-özünə vüqua gəlmiyor. O bir mübarizə, qəhrəmanə bir mübarizə qüvvətilə vüqua gətiriliyor. Meydani-mübarizənin bir tərəfində mazipərəstlər (mühafizəkarlar), köhnəpəsəndlər, hökumətimütləqə tərəfdarları, əhli-divanlar, digər tərəfdə isə hürriyyət və müsavat aşiqləri, məşrutiyyət, muxtariyyəti-cəmaət, səadətimüstəqbələ (gələcək) mücahidləri duruyorlar..." (1906, №124)

22 yaşlı M.Ə.Rəsulzadə 1906-cı il fevralın 20-də "İrşad" qəzetində İranla əlaqədar dərc olunmuş ilk məqaləsini "İranda hürriyyət" adlandırmışdı. Məqalədə deyilirdi: "...Tarixlərin səhifələrini öz istedad və mədəniyyəti ilə tənvir edən (işıqlandıran) İran, nifaq və şiqaqpərəstlər (ixtilafçılar), müftəxor və müstəbidlər, alimnüma cahillər ucbatından bir dərəcəyə çatmışdı ki, bu günlərdə qəlbimizdə bir ümid işığı peyda edən İran hürriyyətinə dair teleqraf xəbərlərinə heç kəs inanmaq istəmirdi. Çoxları, bu millət öldü, dəxi dirilməz - deyib dururdu. Amma bir az fikr edilirsə iranlıların qabiliyyət və istedadi-fitriyyələrinə bir nəzər edilərsə, tarixi mədəniyyətlərinə imani-nəzər olunursa srağagünkü farsi vərəqəmizdə (şahın mübarək dəst-xətti ilə) yazılmış manifestin surəti hər bir bədbin şəxsi şəkk və şübhədən ari etsin gərək". M.Ə.Rəsulzadə qeyd edirdi ki, "İranda inqilab başlandı. Rusiya inqilabına nisbətən bir ayrı tonda, bir ayrı rəngdə başlandısa da, eybi yoxdur. O da İranın əhval və şəraitinə bağlıdır. Rusiya inqilabının İran inqilabı ilə bir çox oxşarlığı varsa da, böyük bir təxəllüfi (fərqi) də vardır ki, o da İran inqilabının başında ruhani qisminin olmasıdır".

İran inqilabına dair yazılar içərisində Üzeyir Hacıbəyovun çox kəskin satirik felyetonlarını da qeyd etməliyik. Onlardan ikisini oxuculara təqdim edirəm.

İRAN RUSİYANI YAMSILAYIR

Doğrudan da İran Rusiyanı yamsılayır. İran camaatı baxıb gördü ki, rus camaatı öz dövlətindən azadlıq tələb edir. Ona görə o da öz dövlətindən azadlıq tələb etdi. İran dövləti baxıb gördü ki, rus dövləti camaatı dolamaq üçün dedi: dinməyin, sizə bir otaq verəcəyəm, adı "Государственная Дума", o da öz camaatını toplayıb dedi ki, sakit olun, Sizin üçün bir ev tikəcəyəm, adı olsun "Ədalətxanə". Rusiya camaatı tovlanmağını duyub, dövlətə bərk

acığı tutdu və ayağını yerə döyüb dedi: özün bil, ya vədinə vəfa elə, ya ki,... İran camaatı da rus camaatına baxıb dövlətinə dedi: bax, özün bil, ya "Ədalətxanə"ni bu saat qur, ya da ki... əyan və əşrəfdən dəstbərdar (əl çəkən) ol.

İran dövləti bilmədi ki, nə qayırsın. Çünki bu cürə təklifi gözləmirdi. Yenə baxdı ki, görsün qonşusu Rusiya dövləti nə cür tədbirlər görməkdədir. Rus dövləti isə camaatın üstünə hirslənib "qulaqburması" verməyə məşğul oldu. İran dövləti də qonşusunun bu tədbirindən xoşu gəlib indi bu saat öz camaatına "qulaqburması" verməkdədir. Lakin rus camaatının qulağı buruldusa da, burnu ovuldusa da, qılçı sındısa da, başı əzildisə də, yenə bununla belə Dövlət Dumasını alıb, bir az dincəldi. İndi görək İran camaatı da bu ittifaqda rus camaatını yamsılayacaq, yoxsa, birinci qulaqburmasından sonra "Ədalətxanə"ni, filanı yadından çıxardacaqdır...

***

İran camaatı bu sözün üstündə bizdən inciməsin, nə deyim, bəlkə qulaqburmasına, filana baxmayacaqdır, amma nə olsun, Osmanlı camaatı qulaqburmasından qorxub, "məclisi-məbusan"ın dadı damaqlarından getdiyinə görə istədilər yenə görsünlər ki, nə tövr ilə "məclisi" geri ala bilərlərmi. Amma baxıb gördülər ki, xeyr! "Məclisi" sultan həzrətləri elə yerdə gizlədiblər ki, bir də üzünü görmək olmaz. Ona görə çox bikef oldular. Və axırda baş götürüb "məclisi-məbusan"ı olan yerlərə qaçdılar. İndi onlar orada oturub, vətənin keçmiş gününü yada salırlar. Hərdən bir bu "şikəstə"ni oxuyurlar:

Keçən günə gün çatmaz,
Calasan günü-günə!

***

"Keçən günə gün çatmaz, calasan günü-günə!" Bu da bizim müsəlmanların dar gündə virdi-zəban (dilinin əzbəri) edilən təsəllilərindən biridir, ha!...

FİLANKƏS
(Ü.Hacıbəyov)
"İrşad" qəz., 15 iyun 1906, №140

ORDAN-BURDAN

Uyma dünyaya ey dili-qafil
Nə olur bu əcuzədən (fanilikdən) hasil!

Pəh-pəh gözəl sözdür və nə ali fikirdir ki, İranın hakimləri və bəzi üləma (alim) və ruhaniləri camaata oxuyub haqqın əl və ayağını yerdən-göydən üzürlər.

Bu hakimlərin və bəzi üləma və ruhanilərin nəzərində hürriyyət istəmək, millət məclisi açdırmaq, kasıb-kusubun qeydinə qalmaq, xalqı maarifləndirmək də hamısı, dünyaya uyub qafil (hər şeydən xəbərsiz) olmaqdır.

Amma rüşvət almaq, xalqı aldatmaq, camaatın başını qırxıb cibini soymaq adəti bir işdir ki, yatıb-durmaq, yeyib-içməklə onların arasında heç bir təfavütü yoxdur, odur ki;

Uyma dunyaya ey dili-qafil!

Yəni, ay camaat, hürriyyət, filan istəməyin, qoyun hakimlər, filanlar sizi həmişəki kimi soysunlar!...

FİLANKƏS
(Ü.Hacıbəyov)
"İrşad" qəz. 15 fevral 1907, №26

"Günay", №25, 24 iyun 2006

ƏSRLƏR KEÇİR, TƏCAVÜZKAR ERMƏNİ XİSLƏTİ DƏYİŞMİR

İnformasiya agentlikləri xəbər verirlər ki, ermənilər türkləri təhqir edən kliplər çəkirlər. Məsələn, erməni "System of A DOWN" qrupunun "Holy Mountanis" adlı klipində türklər bir millət olaraq təhqir edilib, kadrların birində Atatürkün şəkli altına "erməni soyqırımının səbəbkarlarından biri" sözləri yazılıb. Başqa bir kadrda isə Atatürkün şəklinin altında "qatil" və "yalançı" sözləri yazılmış titrlər verilib. Bundan başqa, Ənvər Paşa, Tələt Paşa, Sultan Əbdülhəmid və Camal Paşa da klipdə qatil kimi qələmə verilib. Bu, "System of A DOWN" qrupunun türklərə qarşı ilk təhqiri deyil. Qrupun konsertlərindən birində satışa çıxarılan biletlərin üzərinə "Zala itlər və türklər girə bilməz" sözləri yazılmışdı.

2006-cı il iyunun 18-də qəzetlərdə "Ermənistanda NATO rəsmisinə hörmətsizlik. Şimali Atlantika Alyansının türkiyəli təmsilçisi İrəvanda erməni spikerin təhqirinə məruz qalıb" sərlövhəli yazılar dərc olunmuşdur. Oxuyuruq: "NATO Parlament Assambleyası sədrinin müavini qismində Ermənistana gedən türkiyəli millət vəkili Vahid Ərdəm erməni spikerin (Tiqran Torosyanın) təhqirlərinə məruz qalıb". Vahid Ərdəm və onunla birlikdə səfərdə olan türkiyəli millət vəkilləri -Məhərrəm Qarslı, Faruk Ünsal İrəvandan Ankaraya dönən zaman da çox ciddi hörmətsizlik və maneələrlə üzləşiblər. Belə ki, onları yola salmalı olan şəxslər, avlomobil, ekspert və mühafizəçilər

gəlməyiblər. Türkiyəli deputatlar hoteldən taksi ilə çıxmaq məcburiyyətində qalıblar. Yolda taksi bir neçə dəfə saxlanılıb, yoxlanılıb. Hava limanında isə Vahid Ərdəmi təyyarənin qalxmasına 10 dəqiqə qalana qədər sırada gözlədiblər. Ərdəm bu davranışı həm özünə, həm də təmsil etdiyi NATO-ya hörmətsizlik kimi qiymətləndirib.

Hörmətli oxucular! 2006-cı ilin iyununda türkiyəli millət vəkillərinin İrəvanda başına gətirilənlər mənim üçün gözlənilməz və qeyri-adi bir hal deyil. 18 il bundan əvvəl - 1988-ci ilin iyununda mən bilavasitə özüm bu bədnam erməni "qonaqpərvərliyinin" şahidi olmuşam.

1988-ci ilin gərgin iyun günlərində respublikamızın kiçik bir rəsmi nümayəndə heyəti tərkibində mən də Ermənistanda idim. Hadisələrin çox kəskin, ehtirasların son həddinə çatdığı günlər idi. Biz, azərbaycanlıların yaşadıqları rayonlarda, kəndlərdə olduq. Çox şeylər gördük. Rəsmi danışıqlar və görüşlərdən sonra filologiya elmləri doktoru, professor Kamal Abdullayevlə mən İrəvanda bir neçə gün qalmalı olduq. Məqsədimiz o idi ki, hadisələri öz gözümüzlə görək. Axı, bir görmək min eşitməkdən yaxşıdır. İyunun 13-ü idi. Ermənistan SSR Ali Sovetinin iclasında Dağlıq Qarabağ məsələsinə baxılırdı. Biz isə təyyarə ilə Bakıya uçmalı idik. Bilet almaq və uçmaq üçün təyyarə meydanına getməliydik. Ermənistan SSR Nazirlər Sovetinin bizə təhkim etdiyi maşın gəlib çıxmadı. Zor-güclə bir xüsusi maşın tapdıq. Yolda başımıza gələnlər bir yana, təyyarə meydanının işçiləri bizim pasportu görən kimi onları elə bil ilan vurdu. Mən ermənilərin belə bir qatı düşmənçilik münasibəti ilə ilk dəfə idi qarşılaşırdım. 1988-ci il noyabrın 22-də "Azərbaycan gəncləri" qəzetinin müxbiri ilə müsahibədə bu barədə ətraflı məlumat vermişdim. Bunlar bizim günlərin, şahidi olduğumuz

illərin hadisələri. Bəs tarix nə deyir? 97 il bundan əvvəl -1909-cu il iyunun 29-da Bakıda nəşr olunan gündəlik "Tərəqqi" qəzetində qəzetin İrandakı xüsusi müxbiri M.Ə.Rəsulzadənin "Qəribə bir boykot" sərlövhəli məktubu dərc olunmuşdu. Təbrizdən göndərilmiş bu məktubda oxuyuruq:

"Rəfiqim "Russkoye slovo" müxbiri və o cənabın möhtərəm xanımı ilə bərabər erməni bağının qabağından keçirik. Atəşimizi yatırmaq üzrə bağa daxil oluruq ki, bir qədər mədən suyu içək. Gedirik balkonda bufetin qabağında oturub su istəyirik. Su verirlər. Rəfiqim nədən ötrü isə durub bufetə gedir. Mən ilə hörmətli xanım qalırıq... Bu vaxt bir nəfər cavan erməni yanıma gəlib, iki dəqiqəliyə xahiş edir ki, bir mühüm söz deyəcəkdir. Durub onun ardınca gedirəm. Məni bir tərəfə cəmaətdən kənar bir ağacın dibinə çəkib... rusca - mən sizə bəyan etməliyəm ki, müsəlmanların bu bağa gəlməyə ixtiyarı yoxdur".

M.Ə.Rəsulzadə yazır ki, "müsəlmanı bağdan çıxarmaq üçün haman türkcə danışmaq bilən erməninin rusca danışmağına nə ehtiyac vardı bilmirəm". Bəlkə belə vaxtlarda rusca danışmaq dəxi vəhşiyanə məramnamələrin bir mühüm fəslidir?

- Bu vəhşilik, bədəvilikdir - deyə etiraz edib belə bir cəmiyyətə də, bağa da tüpürdüm!

...Mən əhvalatı yoldaşlarıma hala edincə, onlar da tüpürüb etirazkarcasına bir surətdə bağı tərk etdik... Amma insanların bu dərəcədə bir vəhşi millətçilik, alçaq təəssübə, əclaf girü dara (əlləşməyə), alçaq bir duz-çörək itirməyə qapıldıqlarına heyf etdik... İnsanın təhqir və təkdir (əziyyət verilən) olunan bir məmləkətə həm nifrəti, həm də heyfi gəlirdi. Biçarə İran! Millətçilik! İnsan insanlar əvəzinə utanır, xəcalət çəkir!".

Bir də təkrar edirəm ki, bunlar 97 il bundan qabaq yazılanlardır. Bəs biz nələrin şahidləri oluruq. İranda ermənilər, indinin

özündə də azərbaycanlılara nisbətən daha böyük hüquqlara və imkanlara sahibdirlər. İranın hakim dairələrinin təcavüzkar Ermənistanla ən sıx, genişmiqyaslı əlaqələri göstərir ki, erməni-daşnak şovinist dairələri ilə fars şovinist dairələrinin antitürk, antiazərbaycan siyasəti üst-üstə düşür. Bircə fərq vardır ki, əvvəllər daşnaklar öz iftira və böhtanlarında "müsəlman" ifadəsini işlədirdilər, indi "türk", "azərbaycanlı" ifadələrini işlədirlər.

Özlərinin bədnam "böyük Ermənistan" xülyasını reallaşdırmağa cəhd edən erməni-daşnak güruhu neçə yüz ildir hər cür hiylə və riyakarlığa əl atır. Arxalandığı Rusiyadır. Xaricdəki erməni diasporası və Qərbin xaçpərəst dairələridir. I Pyotrdan başlamış indiki RF prezidenti V.V.Putinə qədər rus hökmdarları Qafqazda hökmran olmaq, regionu lazım olduqda ermənilərin əlilə çalxalamaq, "parçala və hökmranlıq et" siyasətini yürütmək üçün ermənilərdən bir təcavüzkar, fitnəkar qüvvə kimi istifadə etmişlər və edirlər. Azərbaycan ərazisi hesabına yaradılmış Ermənistan bu gün də Rusiyanın forpostudur.

Zaman dəyişir, əsrlər keçir, təcavüzkar daşnak-erməni xisləti dəyişmir ki, dəyişmir. M.Ə.Rəsulzadə yuxarıda söhbət açdığımız "Qəribə bir boykot" məqaləsini bu sözlərlə qurtarır: "Nasyonalizmin bu dərəcəsinə çıxmaq, haman o nasyonu bərbad etməkdir". İrəvan və onu əllərində vasitə edənlər bu həqiqəti nə qədər tez anlasalar, bir o qədər faydalı olar!

"Günay", №26, 1 iyul 2006

İNAMLA İŞLƏYƏNLƏR, ÜMİDLƏ YAŞAYANLAR

Milli mətbuat günümüz yaxınlaşır. Yeni informasiya cəmiyyəti dövrünün jurnalist ordusu öz peşə bayramını necə qeyd etməyə hazırlaşır? Keçən il ərzində kütləvi informasiya vasitələrinin fəaliyyətində nəzərəçarpan keyfiyyət dəyişikliklərindən danışmaq olarmı? Olarsa, bunları açıqlayaq, təqdir edək. Yox, hər şey əvvəlki kimidirsə, irəliləyiş, yeniləşmə hiss olunmursa, səbəblərini araşdırıb göstərək, çıxış yollarını arayaq. Bu, yaradıcılıq təşkilatlarının, araşdırma mərkəzlərinin işidir. Mən mətbuat və jurnalistika tariximizin tədqiq olunması sahəsində, ötən müddət ərzində bir sıra faydalı addımlar atıldığını, nəşrlər, elmi-nəzəri konfranslar, görüşlər keçirildiyini qeyd edə bilərəm. Nəşrlər içərisində Ofelya xanım Bayramlının bu il 100 illik yubileyini layiqincə qeyd edəcəyimiz "Füyuzat" jurnalının latın əlifbası ilə yeni tam nəşrini, 100 illiyi geniş şəkildə bayram edilən "Molla Nəsrəddin" jurnalının növbəti kitablarının nəşrə hazırlanması sahəsində görülən işləri xatırlatmalıyam. Bu yaxınlarda akademik İsa Həbibbəyli görkəmli ictimai xadim, publisist və maarifçi Məhəmmədağa Şahtaxtlının seçilmiş əsərlərini çox nəfis bir şəkildə oxuculara təqdim et-mişdir. Kitaba onun 1882-ci ildən başlamış 1923-cü ilədək "Kavkaz" (1846-1918), "Kaspi" (1881-1919), "Novoe obozrenie" (1868-1917), "Baku" (1902-1918) qəzetlərində rus dilində dərc olunmuş məqalələrindən bəzi nümunələr, redaktoru və naşiri olduğu "Şərqi-Rus" (1903-1905) qəzetində dərc olunmuş 18 məqaləsi və 1904-cü il iyunun 13-dən başlamış müntəzəm dərc olunun "Hər gün bir az" rubrikası ilə verilmiş aktual mövzularda 56 yazısından 40-ı, "Azərbaycan" qəzetində (1918-

1920) dərc olunmuş iki çox mühüm məqaləsi, Sovet hakimiyyətinin ilk illərində əlifba islahatı ilə əlaqədar "Yeni yol" (1923) qəzetində verilmiş iki məqaləsi, həmçinin 1901-ci ildə Parisdə nəşr olunmuş "Türkiyəni necə xilas etməli" traktatı, habelə əlifba layihələri və bir neçə məktubu daxil edilmişdir. Göründüyü kimi, çox böyük axtarış və gərgin əmək sayəsində belə bir vacib və çox lazımlı bir əsər işıq üzü görmüşdür. Həm də ilk dəfədir M.A.Şahtaxtlı kimi 85 il ömür sürmüş (1846-1931) nəhəng bir vətənpərvər alim və istedadlı qələm sahibinin seçilmiş əsərləri oxuculara təqdim olunmuşdur. Bu dəyərli əsər haqqında zənnimcə geniş və əhatəli söhbət gedəcəkdir. Axı bu il M.A.Şahtaxtlının anadan olmasının 160 ili tamam olur. Akademik İsa Həbibbəylinin bu töhfəsi ən böyük şükrana layiqdir.

Mən oxucularda təsəvvür yaratmaq üçün M.A.Şahtaxtlının ən böyük və şah əsəri olan "Şərqi-Rus"un 1903-cü il dekabrın 31-i nömrəsində dərc olunmuş "Türk və tatar qövminə müraciəti"nin yenidən mütaliə edilməsini lazım bilirəm. Bu müraciət yaşadığımız dövr üçün də aktualdır.

TÜRK VƏ TATAR QÖVMİNƏ MÜRACİƏT

Qəzetimizin nəşrini bu rus ilinin axırına bitirməyə müvəffəq olduq.

Biz nəşrə başlayanda Tiflisdə və Qafqazda nə qəzet var idi (söhbət anadilli qəzetdən gedir - Ş.H.), nə qəzetçi var idi və nə qəzet nəşr edə biləcək mətbəə. Hər şeyi özümüz yapdıq, hazırladıq. Məsarifimiz (xərclərimiz) həddən-həsirdən keçdi. Yazı və idarə zəhmətlərini millətimizə borclu olduğumuz xidmətin icabatından (zərurətindən) bildiyimizdən gözə aldırmışdıq. Fəzlə (artıq) olaraq bir də rəqabət, buğz (kin) və həsəd sövqilə

üzərimizə yağdırılan iftira və böhtanlara nişanə (hədəf) olub, ruhani əziyyətə düçar olduq.

Amma həmd (şükür) olsun mətanətimiz fütur (bezikmə) qəbul edənlərdən olmadığından vəzifə gücləndikcə biz xidmət yükümüzü daha ağırlandırmaq istədik.

Qonşu millətlərin: ermənilərin, gürcülərin yövmi (gündəlik) çıxan mütəəddid (çoxlu) qəzetləri var. Biz də o fikrə düşdük ki, qəzetəmizi yövmi (gündəlik) edib, onların qəzetələri kimi hər günün əhvalını həmin gün oxuyanlarımıza ərz edək.

Lazım olan təşəbbüslərə iqdam etdik ki, təzə rus ilindən "Şərqi-Rus" həftədə üç nömrə yerinə hər gün nəşr olunsun. Bu günlərə qədər qəzetəmizə işbu təzə rus ili üçün abunə, yəni müştəri olmaq dəftəri açammırdıq. Çün qəzeti həftədə qaç (neçə) dəfə çıxaracağımızı bilmirdik ki, cəmaətə deyək.

Ümidimizi nə üçün kəsək?

İnşaallah bu təzə ildən müştərilərimizin sayı diqqətəşayan surətdə çoxalar və rəhmdil (ürəyi rəhmli) rus dövləti bu xeyirli vəqəəni (hadisəni) ona feli (həqiqi) dəlil hesab edib ki, rus müsəlmanları üçün aləm əhvalını gündən-günə bilmək həqiqi ehtiyac olmuşdur. Qəzetəmizin hər gün çıxmasına müsadəsini əsirgəməz.

Məsləkimizi hər kəs bilir. Millətimizin mədəniyyətinə xidmətdir. Mədəniyyət ehtiyacımız felidir, həyatidir. Qonşularımızın həpisi mədəni olduqlarından kəsbükar (sənət), ticarət, sənaye, ziraət (əkinçilik), bir sözlə məişət aləmində onlarla rəqabət edə bilib, qövmimizin (xalqımızın), cinsimizin dünyada baqi (əbədi) qala bilməsini müdafiə edə bilməyimizə bağlıdır. Vəilla (əks halda) mədəni qonşularımız bizi əzib dünyadan qətü-nəsl edərlər (nəslimizi kəsərlər). Necə ki, Amerikanın qədim qövmlərini (tayfalarını) Amerikaya hicrət edən Avropa qövmləri elədilər.

Bir millətin həqiqətən təməddün (tərəqqi) edə bilməsi üçün ümdə şərt odur ki, ümumə aid məsələlərdə hər fikirlərini, rəy və əqidəsini kəmali-azadlıq (mükəmməl) və hürriyyətlə bəyan edə bilsin.

Bu azadlıqdan türk və tatar qövmini müstəfid (faydalı) etməkdən ötrü "Şərqi-Rus" meydana çıxmışdır. Çıxar-çıxmaz məsləkinin millətin həqiqi ehtiyacına təvafüq etdiyini görməyə müvəffəq olmuşdur.

Vaqiən (doğrudan) qəzetin məsləki məlum olar-olmaz Rusiyanın bir başından o başına qədər türk və tatar qövmi içində nə qədər fikir sahibi, millətini sevən, fəzl (ləyaqət) və vicdan yiyəsi, əhli-qələm varsa, hər əfkari-təatisi vasitəsi ilə millətin mədəniyyətinə ən ziyadə xidmət alacağı xüsusunda "Şərqi-Rus"la həməfkar (həmfikir) olub, təzə qəzetin sütunlarını əksəriyyən bir-birinə zidd olan əfkarlar (fikirlər) ilə zinətləndirməyə başladılar. Ölü görünən millətimiz hərəkətə gəldi. Diriliyin əsərləri o qədər diqqətəşayan göründü ki, "Şərqi-Rus"un rus müsəlmanları içində iqa etdiyi (ortaya atdığı) mədəni, əqli və vicdani inqilabdan bir çox şərqşünaslar öz millətlərinə: fransızlara, ruslara, almanlara, ermənilərə və qeyrə müfəssəl əhval şərhləri yazmağa məcbur oldular.

"Şərqi-Rus" açdığı yolunda davam edəcək, kəmali-qeyrət və istiqamət, şövq və zövqlə türk və tatar cinsinin mədəniyyətinə, səadətinə, şan və şərəfinə xidmət edəcək.

Biz vəzifəmizi qüdrətimizin axır dərəcəsinə qədər ifa edəcəyiz. İnşallah, millətimiz dəxi bizə göstərəcəyi müavinəti (köməyi) və iltifatı (diqqəti) ilə mədəni üttəb (xilqət) olduğunu sabit (təsdiq) edib.

"Türk və tatarların əhvali-aləm icab etdiyi (dünyanın lazım bildiyi) vicdani və əqli tərəqqiyə istedadları yoxdur. Bu qədər

əsrlik fanatizm dəyirman daşının altında onsuz belə zəif olan ağılları əzilib yox olmuşdur. Bunların mədəniləşməsinə və bu vasitə ilə milli həyatlarını təmin edə bilməklərinə nəinki çalışan və bəlkə ciddi olaraq innən belə əbləh və nadan olmalıdır", - deyənləri təkzib edər.

Himmət (səy) ediniz qardaşlar!

Bir ili üçün 7 manat, həftədə 3 kərə, öz dilimizdə, dünya və mafihanın (onda olanların) hal və əhvalını göstərən bir qəzet üçün çox bir şey deyil.

Müştərilərimiz əcələ edib (tələsib), abunə paralarını (pullarını) idarəmizə göndərsinlər ki, təzə ildən qəzet almalarına səktə (xələl) gəlməsin. Çün para gəlməsə qəzet mütləq kəsiləcək və hər müştəri kəndinə (özünə) bir-ikisini də rəfiq edib paralarını kontorumuza göndərtsin.

Onda iş təbii yoluna girər.

Məhəmmədağa ŞAHTAXTİNSKİ,
"Şərqi-Rus", 31 dekabr, 1903, №115

"Günay", №27, 8 iyul 2006

AZƏRBAYCANDA QADINLAR ÜÇÜN İLK MƏTBUAT ORQANI – "İŞIQ" - 95

"Qəzetəmizə xəbər və məqalə yazanlardan razılıq edib artıq təvəqqe eləyirik ki, yazıları mümkün olduğu qədər öz ana dilimizdə yazıb, ərəb və fars, osmanlı lüğətləri işlətməsinlər. Çünki oxucularımızın çoxu qəzetəmizin dilindən şikayət edirlər. Ana dilində yazılmayan məqalələr hərgiz dərc olunmayacaqdır".



"İşıq" qəzetinin 1911-ci il 23 iyul tarixli 24-cü nömrəsində dərc olunmuş idarədən bu bildirişə mən bu vaxta qədər ana dilimizdə nəşr olunan heç bir mətbuat orqanında rast gəlməmişəm. Bu təsadüfidirmi? Qətiyyən yox! Ana dilimizin ali mücahidləri, qoruyucuları elə analarımız olub. "Ata dili", "Ata vətən" ifadələri yoxdur, "Ana dili", "Ana vətən" vardır. Həm də əbədi vardır.

1911-ci ilin yanvarından Bakıda nəşrə başlayan "İşıq" qəzeti Azərbaycanda ilk qadın mətbuat orqanı idi. Onun naşiri görkəmli hüquqşünas, tərcüməçi, publisist və xeyriyyəçi Müstafa bəy Əlibəyov (1872-1943), redaktoru isə onun həyat yoldaşı həkim-ginekoloq Xədicə xanım Əlibəyova (1884-1961) idi.

20-ci yüzilliyin ilk iki onilliyi çoxminillik tariximizin ən məhsuldar, ən şərəfli dövrüdür. Mütərəqqi xalqçılıq, maarifçilik, milli-

mədəni oyanış, vətənpərvərlik və vətəndaşlıq hisslərinin əhatə dairəsinin genişlənməsi iqtisadi yüksəlişlə müşayiət olunmaqda idi. Rusiyanı hərəkətə gətirmiş yeniləşmə, demokratik-inqilabi hərəkat Azərbaycanda da yeni bir ictimai-siyasi və mədəni abhava yaratmışdı. Bu ümumxalq oyanışı və hərəkatı qadın problemini, onun cəmiyyətin həyatındakı rolu və vəzifələri, hüquqları problemini də gündəliyə çıxartmışdı. Belə bir şəraitdə Azərbaycanın sayca hədsiz dərəcədə az olan ziyalı qadınlarının real fəaliyyətə, həm də ictimai-siyasi fəaliyyətə başlaması sözün əsl mənasında qeyri-adi bir fədakarlıq, qəhrəmanlıq idi. Bu baxımdan Xədicə xanım Əlibəyovanın - Azərbaycanın bu ilk qadın redaktor-jurnalistinin fəaliyyəti ən yüksək qiymətə layiqdir. Əgər Həsən bəy Zərdabi ümummillii mətbuatımızın banisi, ilk redaktor və jurnalistimiz sayılırsa, Xədicə xanım Əlibəyova onun davamçısı, ilk qadın mətbuatımızın banisi, ilk qadın redaktor-jurnalistdir. Məncə onun nəşr etdiyi qəzetə də məhz bu baxımdan yanaşmaq, dəyərləndirmək lazımdır.

"İşıq" qəzetdə yazıldığı kimi, həftədə bir dəfə şənbə günü nəşr olunan, "tərbiyeyi-ətfalə (uşaq tərbiyəsinə), ədəbiyyata, təbabət və evdarlığa dair xanımlar qəzetəsi" idi. 1911-ci ilin yanvarından 1912-ci il dekabrın sonunadək qəzetin 68 nömrəsi buraxılmışdır. Onun nəşri və fəaliyyətilə əlaqədar çox geniş və müxtəlif fikirlər və rəylər mövcud olmuş və olmaqdadır. Təqdir edənlər də olub, əleyhinə çıxanlar da. Bu da təbii idi. Axı Şərqdə, o cümlədən islam-türk aləmində qadına münasibət, ölkənin ictimai-siyasi və mədəni həyatında onun rolu, hüquqları məsələsi hətta indinin özündə belə birmənalı qarşılanmır. Gənclər, mütərəqqi düşüncəli ziyalılar qəzetin nəşrini təqdir edir, alqışlayırdılar. Məsələn, o zaman Kiyevdə təhsil alan Yusif Vəzir Çəmənzəminli Xədicə xanıma göndərdiyi məktubda yazırdı: "...Arvadlarımızın zülmət içində yaşadığı bir zamanda onlar

üçün öhdəyə götürdüyünüz qəzetə nəşri böyük və müqəddəs bir vəzifədir. Bu böyük vəzifəni lazımınca ifa edib, məqsədə nail olmaq da çox hünər, çox cəsarət istəyir".

"İşıq" qəzeti Azərbaycanda qadın jurnalistlərin, müxbirlərin, qələm ustalarının, şair və yazıçıların yetişməsinə təkan verdi. "İşıq" qəzeti (bəziləri səhv olaraq onu məcmuə, jurnal adlandırırlar) haqqında az yazılmayıb. Namizədlik dissertasiyası müdafiə edilib, çox faydalı məqalələr yazılıb, tədqiqat aparılıb. Qəzetin nəşrinin 90 illiyində - 2001-ci ildə Fərrux Ağasıbəylinin "Vəkil Mustafa bəy Əlibəyov. O bizə şərəfdir, biz ona övlad" adlı çox sanballı bir monoqrafiyası işıq üzü gördü.

Azərbaycanın milli mətbuat günü ərəfəsində "İşıq" qəzetinin - ilk qadın mətbuat orqanının da 95 illiyini yad edir və qəzetdən bir neçə yazını oxuculara təqdim edirəm.

DİL MƏSƏLƏSİ

Bu son zamanda bəşəriyyət aləmində dil məsələsi mühüm məsələlər cümləsinə soxulmuşdur.

Həqiqətən hər qövmin yaşaması və diraliyi, adı haman adati-təbəiyyəsinin (təbii adətlərinin) hifzi ilə belə dilini möhkəm saxlamasıdır. Hər tayfa öz qövmini ancaq ana dili ilə isbat edər. Yaranmışların əvvəlindən olub ki, müxtəlif dillərə dara (malik) olublar, burası məlumdur. Tarix isə bir çox qövmin bu əsrdə yox olduğunu isbat edir. Onların məhv olmağına da ümdə səbəb haman dillərini və adətlərini dəyişdirmək olubdur. Yer üzündən yox olmayıblar, fəqət qeyri bir taifə adlanırlar...

Bir qədər vazeh (açıq) desək: bəşəriyyət aləmində dilinin qədrin bilməyən millətlərdən və bir çox qövmdən indi quru bir ad qalıbdır. Bəlkə bəzisinin adı da qalmayıb.

İndi başa düşüb və öz əcdadının tarixinə bələd olanlar istəyirlər ki, bir tövr ilə dilcə millətlərin diriltsinlər. Lakin heyhat! Çox uzaqlaşıblar öz dillərindən. Hər millət ki, əvvəldən öz dilini möhkəm saxlayıb, səadətlə yaşamağa müqtədirdir.

Necə ki, erməni milləti bir vaxt öz dilini batamam (tamamilə) unudub özgə dillər qatışdırıb danışırdılar. Birdən-birə ayılıb anladılar ki, gərək öz dillərinə vüsət verib erməni dilini bir ədəbi növə salsınlar. O vaxt erməni dilindən başqa bir dil ilə lazım gələn yerdə də danışmayıb mütərcimlər çağıtdırırdılar.

Əlhasil hər millətin bəqa (varlıq) və davamı dini, imanı, isməti vətən dili və ana dilinə bağlıdır. O millət ki, dilindən uzaq oldu tezliklə nabüd və puç olmağına heç şəkk və şübhə yoxdur.

Millətlər dedikdə biz də türk millətindən hesab olunuruq. Hər qövmi ayırıb ayrı-ayrı mizana vurmaq lazım gəlsə əzəmət və vəzn sahibi türk qövmi olmaqdan şübhə etməməlidir.

Onunla belə bu saət xalis türk dilin danışan bir türk tapmaq dünya üzündə belə olmaz.

Qafqaz və Osmanlının türklərinin danışdığı türk dili isə ərəb, fars və Avropa kəlmələrindən qatışır. Azərbaycan türklərinin danışığına gəldikdə əksərən farscadır. Qazanlı dayılarımızın danışığı isə on kəlmənin iki kəlməsi türk, bir kəlməsi fars, bir kəlməsi ərəbi, yerdə qalan altı kəlməsi rus kəlməsinə oxşar bir sözdür.

Bu axır zamanlarda ədiblərimiz bu qədər dilin vüsətsiz olduğunu görüb də o fikrə düşüblər ki, ana dilimizi bir qədər vüsətləndirsinlər, zira ki, dilimiz böylə qatışıq olar isə münğəriz (məhv) olacağız.

Balaca Aliyə xanım.
"İşıq" qəz. 23 iyul 1911, №24

QIZLARIMIZIN TƏRBİYƏSİ

Tolstoy deyir ki, "tərbiyə, bir adamın o biri adamı özünə oxşatmaq istəməsidir".

Doğrudan da diqqətlə baxsaq görərik ki, belədir. İstər pis tərbiyə, istər yaxşı tərbiyə hamısı bu mətalibin (mətləblərin) içindədir.

Məsələn: tərbiyəsiz bir adam, bir ana hər kəs olursa-olsun o biri adamı mütləqa özünə oxşatmağa çalışacaqdır. Həmçinin tərbiyəli, insaniyyətli bir adam, bir ana əlbəttə, istər ki, başqaları da özü kimi olsun. Çünki, özünü tərbiyəli bilir. Hakəza (beləcə) əvvəlki tərbiyəsiz də yenə özünü yaxşı bilir və əgər pis bilsə öz tərbiyəsini şübhəsiz düzəldər. Bunlardan anlaşıldığına görə Tolstoy demişdi ki, tərbiyə ancaq birinci adamın ikincini özünə oxşatmağından ibarətdir.

Belə olan surətdə tərbiyənin kökü haradan gəlir, kimdən alınır, orasına baxalım.

Tərbiyə əllərinə verdiyimiz sevgili qızlarımızın tərbiyə müəlliməsi kimlər olduğunu bir az fikir edəlim. Hər nə qədər bu gün şükür olunacaq hallardandır ki, qızlarımıza məxsus bir neçə məktəblərimiz vardır. Lakin bu kifayət edərmi? Əlbəttə eləməyir. Bu kimi məktəblərə yenə şükür olsun ki, rəğbət vardır, nifrət yoxdur. Lakin köhnə başlar, köhnə fikirlər, bunların səsi qoymur. Oxuduqları məktəb (!) yaxşıdır, deyirlər. Bura haradır, hansı məktəbdir.

Məktəb adı verilən hər bir tərbiyə və təlimdən məhrum olan arvad mollalarının evləridir.

Ax! Yazıq millət, yazıq günahsız qızlar. Bu mollaxanalar uşaqlara zərrə qədər mənfəət gətirməyib, zərər gətirirlər, əxlaqı xarab olur. Özü də illər ilə ömrünü nahaq yerə çürüdüb

zay edir. Bunların qabağını almaqla o qızların boş-boş keçirdiyi ömürlərini yaxşı tərbiyə və təlimə sərf etməklə onlara rəhm etməlidir. Belə məktəblərə getməkdənsə evdə oturub ev işlərinə məşğul olsalar min dəfə yaxşıdır. Ya ki, bu növ məktəblərin əvəzində tazə qayda ilə məktəblər güşad olunmalıdır ki, orada ana dilini, şəriəti, evdarlığı bir növ öyrənsinlər... Hər millət, hər qövm vətəninə, millətinə iş görmək, kömək etmək üzvləri yetişdirmək üçün ailə təşkilində mühüm vəzifəsi olan analaların hazırlanmağına çalışırlar. Və bu hazırlığı o balaca-balaca qızlardan gözləyib indidən onların tərbiyə və təlimlərinə çox diqqət edirlər. Amma biz heç orasını düşünmədik. Halbuki, bu düşünülməsi lazım, bunun çarəsinə baxmalı...

Şamaxı,
müəllimə Gövhər Şovqiyə.
"İşıq" qəz. 17 mart, 1912, №8

"Günay", №28, 15 iyul 2006

DOST ÖLKƏDƏ

"Bilik" cəmiyyətinin üzvü olan bir qrup sovet elmi işçisi ilə birlikdə sentyabr ayında Çexoslovakiya Sosialist Respublikasında olduq. Bizim nümayəndə heyətinə ölkəmizin on üç müttəfiq respublikasından 28 nəfər daxil idi. Qardaş sosialist ölkəsindən aldığım təəssüratı balaca dostlarımla bölüşmək istəyirəm.

Sərhəd dedikdə adətən gözümüz qarşısında tikanlı çəpər, şumlanmış zolaq, hündür gözətçi budkaları və s. canlanır. Odur ki, Moskva - Praqa qatarı Sovet-Çexoslovakiya sərhəddinə yaxınlaşdıqca marağımız da artırdı. Doğrudur, sosialist ölkələrinin sərhədçiləri arasında mehriban dostluq və qardaşlıq münasibətləri olduğunu bilirdik. Lakin bir var eşidib biləsən, bir də var öz gözlərinlə görəsən. Biz Sovet Çexoslovakiya sərhəddində yerləşən Çop stansiyasında saat yarıma yaxın dayandıq. Ona görə yox ki, sərnişinlərin sənədlərini yoxlamaq üçün çox vaxt tələb olunurdu. Xeyr. Məsələ bundadır ki, bizim dəmir yolları Avropanın digər ölkələrindəki dəmir yollarına nisbətən enlidir. Buna görə də stansiyada xüsusi avtomat qurğular vaqonları yuxarı qaldırır və onların təkərləri dəyişdirilir. Həm də bu zaman sərnişinlərin vaqonu tərk etməsi vacib deyildir. Çop stansiyasından Çexoslovakiyanın paytaxtı Praqaya qatarla 24 saatlıq yoldur. Karpat dağlarının sinəsindən keçən bu yol adamı yormur. Hər tərəf yaşıllıq, sıx meşəlikdir.

Praqa istiqamətində 30-a yaxın müxtəlif tunel vardır. Gözətçi budkaları gül-çiçəklə əhatə olunmuşdur.

Biz, Çexoslovakiya paytaxtına gündüz saat 12-də çatdıq. Bu, bizim vaxtla gündüz saat üçdür.

Praqa Avropanın ən qədim və gözəl şəhərlərindən biridir. Onun 2.500 illik tarixi vardır. Praqa abidələr şəhəridir. Onu "Yüzqülləli Praqa" da adlandırırlar. Enli Vltava çayı şəhəri iki hissəyə bölür. Çayın qərbində şəhərin mərkəzi sayılan Prajski

Qrad-Praqa Kremli yerləşir. Feodal çex dövlətinin yaradılması IV Karlın vaxtında əsası qoyulmuş məşhur Vita kilsəsi də buradadır. Keçmiş çex krallarının qiymətli qaş-daşla bəzədilmiş tacları bu kilsədə saxlanılır. Bunları görmək üçün möhkəm qıfıllarla bağlanılmış yeddi qapıdan keçmək lazımdır. Qapıların açarları bir adama etibar edilmir. Qaydaya görə hər qapının açarı ölkənin görkəmli dövlət xadimlərindən birində olmalıdır.

Bu ənənəyə indi də əməl edilir.

Prajski Qradda diqqəti cəlb edən tarixi yerlərdən biri kral Vladislavın vaxtında tikilmiş "Vladislav salonu"dur. Salonun uzunluğu 62, eni 16, hündürlüyü isə 13 metrdir. Bir vaxtlar burada çex krallarının taxta çıxmaq mərasimi icra edilərdi. 1918-ci ildən başlayaraq ta indiyədək parlament öz iclaslarını bu salonda keçirir. Çexoslovakiya prezidentləri burada seçilir.

Çexoslovakiya Sosialist Respublikasının indiki prezidenti Antonin Novatnı yoldaş da Prajski Qradda yaşayır və işləyir. Prezident dəftərxanası və iqamətgahı olan binalar istisna edilməklə, Prajski Qradın qapıları zəhmətkeşlər və xarici qonaqlar üçün həmişə açıq olur.

Prajski Qradda prezident sarayının üzərində Çexoslovakiya Respublikasının dövlət bayrağı dalğalanır. Tarixi ənənəyə görə prezident, ölkənin sərhədlərindən kənara səfərə çıxdıqda bu bayrağı da özü ilə aparır.

Əlbəttə, Praqa təkcə tarixi abidələr, gözəl saraylar, bağlar və parklar şəhəri deyil, o, həm də sosialist şəhəridir. Ölkənin iqtisadi və siyasi həyatında mühüm rol oynayır. Praqa zavodlarının, Praqa müəssisələrinin istehsal etdiyi mallar bütün dünyada məşhurdur. Praqa Çexoslovakiyanın mədəni mərkəzidir. Biz bunu Akademiyada, Karl Universitetində və digər elmi-mədəni müəssisələrdə olarkən aydın hiss etdik. Karl Universiteti mərkəzi Avropada ən qədim universitetdir. O, 1348-ci ildə təşkil olunmuşdur. Bundan əvvəl yalnız Fransa, İngiltərə və İtaliyada ali məktəb vardı. Biz, Karl Universiteti müəllimləri ilə

görüşüb dostcasına söhbət etdik. Çexoslovakiya ali məktəblərində dərslər oktyabr ayının birindən başladığına görə tələbələrlə görüşə bilmədik. Yeri gəlmişkən göstərim ki, Çexoslovakiyada ibtidai məktəbə uşaqlar altı yaşından gedirlər. Orta məktəblərdə isə təhsil müddəti on iki ildir. Orada şagirdlərin biliyini qiymətləndirmək də bizdən fərqlidir. Məsələn, Çexoslovakiyada "bir" qiymət almaq "əla" almaq deməkdir.

Biz, Praqada sovet əsgərlərinin məzarlarını ziyarət etdik. Çexoslovakiya məktəbliləri bu qardaşlıq məzarına çox böyük qayğı göstərirlər. Praqanın azadlığı uğrunda vuruşlarda həlak olanlar içərisində azərbaycanlılar da vardır. Mən qəbir daşları üzərində Əvəz İbrahimovun, Köçərli Tağıyevin, Seyidəhməd Əhmədovun və Məmməd Əliyevin adlarını oxudum.

Biz Praqada altı gün qaldıqdan sonra Çexoslovakiyanın digər yerlərinə səyahətə çıxdıq.

LİDİTSE KƏNDİNİN FACİƏSİ

Praqadan avtobusla Çexoslovakiyanın məşhur kurort şəhəri Karlovı Varıya yola düşdük. Şose yolunun hər iki tərəfində alma, armud, gavalı və s. meyvə ağacları əkilmişdi. Sürücü dedi ki, bu ağacları yaxın kəndlərin məktəbliləri əkmişlər.

On-on beş kilometr getmişdik ki, sürücü avtobusu kiçik bir binanın qarşısında saxladı. Bu, Liditse muzeyinin binası idi. Bu kəndin adı bütün dünyaya məlumdur.

...1938-ci ildən alman faşistləri Çexoslovakiyanın qərb sərhəd rayonlarını tutdular. Sonralar bütün Çexoslovakiyanı ələ keçirdilər. 1941-di ildə faşist Almaniyası Sovet İttifaqına hücum etdikdən sonra, çex vətənpərvərinin də hitlerçi işğalçılara qarşı mübarizəsi gücləndi. Fürer polis generalı Heydrixə Çexoslovakiyanı "sakitləşdirməyi" tapşırdı. Qəddar və qaniçən Heydrix minlərlə vətənpərvərə divan tutdu, qanlı cinayətlər törətdi. Çex

vətənpərvərləri Heydrixi öldürməyi qərara aldılar. Onlar bu əməliyyatı 1942-ci ilin mayında Praqanın lap mərkəzində həyata keçirdilər: Heydrix öldürüldü. Qəzəblənmiş faşistlər əvvəlcə heç kəsi ələ keçirə bilmədilər. Heydrixi öldürənləri tapmaq üçün 5 milyon kron "mükafat" vəd olundu. Xəyanət nəticəsində hitlerçilər vətənpərvərlərin izinə düşdülər. Onların gizləndiyi kilsədə bir neçə saat şiddətli vuruşma oldu. Düşmənin əlinə sağ keçməmək üçün vətənpərvərlərdən hər biri axırıncı güllə ilə özünü nişan aldı.

Hitlerçilər Heydrixin intiqamını Liditse kəndindən aldılar. 1942-ci il iyunun 10-da faşistlər kəndi yandırdılar. Kəndin bütün yaşlı kişilərini - 184 nəfəri güllələdilər. Qadınları və uşaqları isə ölüm düşərgəsinə göndərdilər.

- Hazırda köhnə Liditse kəndinin yerində faşizm qurbanlarına əzəmətli bir abidə qoyulmuşdur. Yaxınlıqda isə yaraşıqlı yeni Liditse kəndi salınmışdır.

MƏRCİ I PYOTR UDMUŞDUR

Çexoslovakiyanın qərbində bütün dünyada tanınan kurort şəhərləri yerləşir. Karlovı Varı, Marianski Lazne, Frantişkovı Lazne...

Bu kurort şəhərlərindən ən gözəli və ən qədimi Karlovı Varıdır. Onun əsası XIV əsrdə, imperator IV Karl tərəfindən qoyulmuşdur. Deyilənlərə görə, Karl Çexiyanın qərb meşələrində ceyran ovuna çıxıbmış. Bu vaxt o, yerdən qaynayan isti su çıxdığını görür. Karl əmr edir ki, bu yerdə - səfalı dağların qoynunda qəsr tikilsin. Həmin vaxtdan bura Karlovı Varı - "Karlın isti suyu" adlanır.

Karlovı Varıda çoxlu mədən suları vardır. Bunların içərisində ən faydalısı və istifadə olunanı "Vrcidlo"dur. Onun temperaturu 72 dərəcədir. Su yerin altından çox böyük təzyiqlə çıxır. Vrcidlo fantanı 12 metr hündürlüyə qalxır.

Çexoslovakiyanın bu məşhur kurort şəhərində müxtəlif vaxtlarda dünyanın ən görkəmli adamları, alim və mütəfəkkirləri müalicə olunmuş, istirahət etmişlər. Bunların içərisində İ.Göte, L.Bethoven, F.Şiller, F.Şopen, İ.Brams, I Pyotr və başqaları da vardır.

Şəhərin lap mərkəzində, Tepla çayının kənarında, uca dağ başında I Pyotrun heykəli ucalır. Bu heykəlin qoyulması tarixi də maraqlıdır. I Pyotr Karlovı Varıda olarkən onun iştirak etdiyi məclisdə bərk mübahisə düşür. Pyotr bir çəllək çaxırdan mərcə girir ki, o yəhərsiz atın belində dağın başına qalxar. Şərti yerinə yetirir və mərci udur. Sonralar Pyotrun at üstündə qalxdığı bu dağın başında onun heykəlini qoyurlar.

Karlovı Varıda ən böyük sanatoriya "İmperial" adlanır. Çexoslovakiyalı dostlarımız bu sanatoriyanı sovet adamları üçün ayırmışlar. Hər ay 400-ə yaxın sovet vətəndaşı burada müalicə olunur, istirahət edir.

Ölkənin ikinci mühüm kurort şəhəri Marianski Lazne rus yazıçılarının ən çox sevdiyi yer olmuşdur. Siz bilirsinizmi ki, görkəmli rus yazıçısı Qoqol "Taras Bulba" və "Şinel", Qonçarov "Oblomov" və "Uçurum" əsərlərini, M.Qorki V.İ.Lenin haqqında oçerklərini və "Artamanovların işi" əsərini Marianski Laznedə yazmışlar. İndi görkəmli rus yazıçılarının yaşadıqları evlərə xatirə lövhələri vurulmuşdur.

Qorki 1924-cü ildə Marianski Laznedə dörd ay yaşamışlır. O, çex məktəbliləri ilə möhkəm dostluq etmiş, onlarla xeyli yazışmışdır. Marianski Laznedə rus və sovet yazıçılarına həsr edilmiş xüsusi muzey vardır. Biz bu muzeyin eksponatlarına çox böyük maraqla baxdıq.

TƏBİƏTƏ EL QAYĞISI

Çexoslovakiya inkişaf etmiş sənaye ölkəsidir. Lakin bizi heyran edən başqa bir cəhət - ölkənin təbii sərvətlərinə: əkin sahələrinə, meşələrə, çöl quşlarına və heyvanlara olan çox böyük el qayğısı oldu. Təsəvvür edin ki, otlaqlarda, zəmilərdə, meşələrdə, kəklik, qırqovul, dovşan qorxusuz-hürküsüz gəzişir. Elə bilməyin ki, Çexoslovakiyada ovçu yoxdur. Xeyr, var, özü də lap çox. Amma onlar təkcə ovlamağı deyil, həm də gələcək ova yaxşı qulluq etməyi, qayğı göstərməyi də bacarırlar. Hər il ölkədə 15 min maral, 76 min dağ keçisi, 484 min qırqovul, 214 min kəklik və təxminən 1 milyona yaxın dovşan ovlanır. Əgər bu çöl quşu və heyvanlarına ümumi el qayğısı olmasaydı, onların kökü çoxdan kəsilmişdi. Halbuki ölkədə çöl quşu və heyvanların sayı ildən-ilə artır.

Biz Marianski Laznedən Pisek şəhərinə gedərkən avtobusumuzun çarxları altında bir kəklik balası qaldı. Sürücünün bunun üçün nə qədər böyük həyəcan keçirdiyini görsəydiniz...

Pisek şəhərində biz başqa bir hadisənin şahidi olduq. Otava çayının sahili boyu sıra ilə oturmuş həvəskar balıqçılara yaxınlaşdıq. Nə görsək yaxşıdır?

Ovçular tilova düşən balıqların xeyli hissəsinin yenidən ehtiyatla suya buraxırlar. Bizə dedilər ki, müəyyən ölçüdən kiçik olan balıqları tutmaq olmaz. Belə balıqlar tilova düşəndə onlar suya buraxılmalıdır.

"TÜRK ƏJDAHASI"

Praqadan sonra Çexoslovakiyanın ikinci böyük şəhəri Brnodur. Brno Moraviyanın paytaxtıdır. Çox qədim şəhərdir. O, uzun əsrlər boyu Avstriya monarxiyasının tərkibinə daxil olmuşdur. Şəhərdə və onun ətrafında çoxlu tarixi yerlər, abidələr və muzeylər vardır. Bunların içərisində Şpilberq qəsri, şəhərdən 15 kilometr aralıda şərqə doğru uzanıb gedən məşhur Austerlis çölü diqqəti daha cəlb edir.

Şpilberq qəsri şəhərin yuxarı hissəsində, gözəl bir təpənin üstündə tikilmişdir. XIII əsrdə əsası qoyulmuş bu qəsr sonralar Avstriya imperatorluğunun ən dəhşətli zindanına çevrilmişdir. Qəsr hündürlüyü 15-20 metr olan qalın divarlarla əhatə olunmuşdur. Biz zindanın qaranlıq və rütubətli kameralarını gəzdik, cəza və edam otaqlarına baxdıq. Bu zindanda təkcə Avstriya və çex vətənpərvərləri deyil, həmçinin İtaliya, Macarıstan və Polşadan da ən "qorxulu" siyasi məhbuslar, inqilabçılar saxlanılırdı. İtaliyalı şair Silvo Pelliko da bu zindana salınmışdır.

Biz, məşhur Austerlis çölünü gəzdik. 1805-ci il noyabrın 20-də bu çöldə üç imperatorun döyüşü olmuşdur: Napoleonun, Avstriya imperatoru I Fransın və rus imperatoru I Aleksandrın. Bu vuruşda Napoleon ordusu qələbə çalmışdır. Austerlis Sülh kurqanında bu döyüş münasibəti ilə qoyulmuş nəhəng və əzəmətli abidəyə tamaşa etdik. Biz Austerlis muzeyinə, Napoleon və Kutuzovun qaldığı evlərə də baxdıq.

Brno şəhər bələdiyyə idarəsinin tağlı darvazasının yuxarı hissəsində nəhəng bir timsah - "əjdaha" asılmışdır. Çex dostlarımızdan öyrəndik ki, "əjdahanı" 300 il bundan əvvəl Türkiyə sultanı şəhərin hakiminə hədiyyə göndərmişdir. Həmin vaxtdan da bu "Türk əjdahası" Brno şəhərinin rəmzi, emblemi olmuşdur.

Brnodan Slovakiyanın paytaxtı Bratislava şəhərinə qatarla cəmisi 5 saatlıq yoldur. Təəccüblü burasıdır ki, Çexoslovakiyanın dəmir yollarında əsas aparıcı qüvvə daş kömürlə işləyən paravozlardır. Yalnız Sovet İttifaqı sərhəddindən Praqaya qədər olan dəmiryol xətti elektrikləşdirilmişdir. Bu vəziyyət ölkədə elektrik enerjisinə olan böyük ehtiyacla əlaqədardır. Ümumiyyətlə göstərmək lazımdır ki, Çexoslovakiyada duru yanacağa ehtiyac çoxdur. Ölkənin özündə ildə yalnız 300 min ton neft istehsal olunur. "Dostluq" kəməri vasitəsi ilə Sovet İttifaqından aldığı neft ölkənin gündən-günə artan tələbini hələlik ödəmir. Odur ki, çexoslovakiyalı dostlarımız kəmərin ikinci hissəsinin başa çatdırılmasını böyük səbirsizliklə gözləyirlər.

Bratislava Dunay çayının sahilində yerləşir. Dunayın üzərində şəhərin hər iki tərəfinin birləşdirən yalnız bir körpü vardır.

Bratislava uzun əsrlər macar krallığına daxil olmuşdur. XV əsrdə türklər Macarıstanın cənub rayonlarını tutduqdan sonra - 1526-ci ildən o, Macarıstanın rəsmi paytaxtı elan olunmuş, 300 il paytaxt şəhəri olaraq qalmışdır.

Bratislavanın ən gözəl tarixi abidələrindən biri Bratislava Kremlidir. Kremlin zirvəsindən Avstriya sərhəddi, Avstriya torpağı açıq-aydın görünür.

Biz Bratislavada 3 gün qaldıq. Çexoslovakiya - Sovet Dostluğu Cəmiyyətinin üzvləri ilə görüşdük. Şəhərin 13 kilometrliyində yerləşən "Dostluq" kənd təsərrüfatı artelinin üzvlərinə də qonaq getdik. Məşhur pedaqoq Y.A.Komenskinin adını daşıyan Universitetin professor və müəllimləri ilə görüşüb fikir mübadiləsi etdik. Bütün bu görüşlər zamanı bir daha yəqin etdik ki, Sovet - Çexoslovakiya xalqlarının vahid məqsəd və əqidə birliyinə əsaslanan dostluğu getdikcə möhkəmlənir.

"Azərbaycan pioneri", 11, 21, 25 noyabr 1966-cı il

BÖHTAN VƏ MƏKRLƏ DOLU BİR SUALA CAVAB



"Alternativ" qəzeti 17-23 iyul tarixli sayında hiddət və nifrət doğuracaq əcaib bir sual - "Bəxtiyar Vahabzadənin anası ermənidir" (?) başlıqlı yazı dərc etmişdir. Redaksiya, məsələnin və redaksiyaya gələn üzdəniraq "oxucunun təqdim etdiyi "sənəd"in mahiyyətini lazımınca araşdırmadan "sevincək" olmuş, Amerika açmış bir poza götürərək millətimizin fəxri, şərəf və ləyaqəti simvoluna çevrilmiş, həqiqətən dünyaca tanınmış bir xalq şairini əslində ləkələməyi, gözdən salmağı qarşısına məqsəd qoymuşdur. Qayəm belə qələm dəllallarına, iftira və böhtan orqanına cavab vermək deyil. Belə şərəfsizlərə qoşulmaq mənim yaşıma və əqidəmə də yaraşmaz. Amma qoyulan suala konkret cavab verməyi özümə bir borc bilirəm. Çünki əvvəllər də B.Vahabzadənin ülvi sənətinə, milli qeyrətinə kölgə salmaq cəhdləri az olmamışdır. Mən, Bəxtiyar Vahabzadənin eloğlusu, 70 illik dostu, ailəsini, nəsil-nəcabətini yaxından tanıyan bir adam kimi "Alternativ" qəzetində dərc olunan məqalədəki suala öz münasibətimi bildirmək istəyirəm. Bəxtiyarın həqiqi anasına, onu dünyaya gətirənə nənə, analığına isə "ana" deməsi nə ilə əlaqədardır? Aydınlıq gətirmək istəyirəm.

Bəxtiyarın kökünə bələd olan çox yaxın adam kimi deyə bilərəm ki, onun anası xalis türk-müsəlman qadını Xanım Məcid qızıdır. Bu həqiqəti şairin doğulduğu Şəkinin Yuxarıbaş mə-

həlləsində bilməyən yoxdur. Xanım arvad vaxtilə mənim anamla birlikdə Şəkinin 3 nömrəli ipək fabrikində barama çeşidləyən sexdə işləyirdi.

1905-ci ildə erməni-müsəlman qarşıdurmasında Vartaşenin (indiki Oğuz rayonu) Söyüdlü kəndindən 2-3 yaşında bir erməni qızı Şəkiyə gətirilir. Onu Şəkidə Allahverdi adında xeyirxah bir kişi qızlığa götürür. Adını Gülzar çağırır. Qız bu ailədə müsəlman adətləri ilə böyüyür. Oruc tutur, namaz qılır. 1918-ci ildə bu qızı Şəkinin Yuxarıbaş məhəlləsinin sakini Mahmud Zəkəriyyə oğlu Vahabov adlı bir gəncə "Gülzar Allahverdi qızı" adı ilə ərə verirlər. 6-7 il keçir, Gülzarın övladı olmur. Həkimlər onun sonsuz olduğunu müəyyənləşdirəndən sonra Mahmud və Gülzar 1925-ci ildə Zəkəriyyə və Xanımın 3-cü övladı olan Bəxtiyarı oğulluğa götürürlər.

1934-cü ildə Mahmud və Gülzar uşaqla bərabər Bakıya köçür.

Bəxtiyar onların himayəsində böyüyür.

Demək, Bəxtiyarın doğma atası Zəkəriyyə Vahab oğlu, anası isə Xanım Məcid qızıdır. Amma o, uşaqlıqdan doğma atası olan Zəkəriyyəni babası, doğma anası Xanım Məcid qızını isə nənəsi kimi tanıyır.

Bu barədə şair özü "Şənbə gecəsinə gedən yol" kitabında (1991) ətraflı yazmışdır.

1954-cü ildə şair "Sadə adamlar" adlı poema yazır. Həmin poemada şairin:

Öz ana yurduna vurğun deyildir
Vurğunun şerinə vurulmayanlar -

misrası S.Vurğunun müxaliflərini qəzəbləndirir və 1954-cü ildə "Kirpi" dərgisində B.Vahabzadəni "S.Vurğunun şəxsiyyətinə pərəstiş"ə uymaqda günahlandırırlar. Gənc şairi daha artıq itti-

Бахтияр Вагабзаде

Мы на одном корабле

СТИХИ. ПОЭМЫ

Перевод с азербайджанского

От имени и с разрешения Высокого Совета нового друга Мир Мухаммедмухаммеду, человеку который в minуту становится близким

Ольга Сухова

23 мая 87 г.

МОСКВА
СОВЕТСКИЙ ПИСАТЕЛЬ
1986

ham etmək üçün onu millətçilikdə, erməni xalqına düşmənçilikdə ittiham edirlər.

Poemada oxucu kitabxanaçıdan soruşur:

"Namus"u yoxdurmu Şirvanzadənin?

Məlumdur ki, oxucu kitabxanaçıdan erməni yazıçısı Şirvanzadənin "Namus" kitabını istəyir. Amma şairi millətçilikdə ittiham etmək istəyənlər göstərir ki, şairdə millətçilik o yerə çatır ki, böyük erməni yazıçısı Şirvanzadənin namusu olub-olmadığını şübhə altına alır.

Beynəlmiləlçiliyin bayraq olduğu o zaman şair özünü müdafiə etmək, millətçi deyil, beynəlmiləlçi olduğunu sübut etmək üçün Mərkəzi Komitəyə yazdığı məktubda qeyd edir ki, "Mən erməni xalqına və onun klassiki Şirvanzadəyə necə düşmən ola bilərəm ki, anam erməni qızıdır". Bu cümlə, sadəcə, o vaxt rejimdən qorunmaq üçün yazılmış qeyri-dəqiq bir cümlə idi.

Burada şairin "səhvi" onda olub ki, "məni himayə edən analığım" sözünün əvəzinə "anam" sözünü yazıb. Lakin bunu da başa düşmək lazımdır. Bəxtiyar onu böyütmüş, həm də milli və islam ruhunda böyütmüş bir qadına sağ ikən necə "analığım" deyə və yaza bilərdi? Bu, onun qəlbinə dəyməzdimi?

Əslində həqiqət belədir:

Şairin doğma atası, baba kimi qəbul etdiyi Zəkəriyyə Vahab oğlu, anası isə nənə kimi qəbul etdiyi Xanım Məcid qızıdır. Gülzar xanım isə əslində onun ata bir, ana ayrı ögey qardaşının arvadıdır.

Hörmətli redaksiya!

Mən, Şəki-Qəbələ bölgəsinin qazisi Hacı Səlim Əfəndi Səfərov, xalqımızın ləyaqətli oğlu Bəxtiyar Vahabzadənin doğulduğu Yuxarıbaş məhəlləsində onların qapıbir qonşusu olmuşam. Yəni mən Vahabzadələr nəslinin 4-5 arxadönənini tanıyıram.

Bəxtiyar müəllim haqqında "Alternativ" qəzetinin yazdığı böhtanı oxuyanda mən yox, rayonumuzun və xüsusən məhəllərimizin bütün sakinləri təəccübləndik. Çünki bu yazı böhtandan başqa bir şey deyil. Yazılanlar barəsində bildiyimiz səhih məlumatı xalqa çatdırmağı özümüzə borc bildik.

Bəxtiyar Vahabzadə ata bir, ana ayrı ögey qardaşı Mahmudun və onun sidq ürəklə islam dinini qəbul etmiş həyat yoldaşı Gülzar Allahverdi qızının doğma övladları deyil, himayəyə götürüb böyütdükləri götürmə övladıdır. Belə ki, Bəxtiyar müəllimin baba kimi tanıdılan doğma atası Zəkəriyyə Vahaboğlu, nənə kimi tanıdılan doğma anası, yeddi arxadönəninə qədər müsəlman-türk olan Xanım Məcid qızıdır.

Sözümün sonunda B.Vahabzadənin həm ata, həm də ana tərəfindən xalis türk oğlu türk olduğuna bir din xadimi kimi Allah qarşısında yəmin edirəm.

Hörmətlə:

Hacı Səlim Əfəndi
və Yuxarıbaş məhəlləsinin bir neçə sakini

Şirməmməd HÜSEYNOV,

"Yeni Müsavat", №202(1777), 1 avqust 2002-ci il

OLJAS SÜLEYMENOV ROMADAN MƏKTUB GÖNDƏRİB



Bu yaxınlarda tanınmış qazax şairi, alim və publisist, Qazaxıstanın İtaliyadakı səfiri Oljas Süleymenov qısa müddətlik səfərlə Bakıya gəlmişdi. Səfər ərəfəsində xalq şairi Bəxtiyar Vahabzadə Oljası 1997-ci il dekabrın 17-də "525-ci qəzet"də dərc olunmuş 1986-cı il məşhur Qazaxıstan hadisələrilə əlaqədar özünün yazdığı şer və Ş.Hüseynovun "Şairin fəhmi, zamanın hökmü (bir şerin tarixçəsi)" yazısı ilə tanış etmişdi. Hər iki yazı rus dilində tərcümə olunub Oljasa göndərilmişdi. Bu günlərdə Romadan - Oljas Süleymenovdan faksla B.Vahabzadəyə cavab məktubu gəlib. Həmin məktubla oxucuları tanış edirik.

Bəxtiyar Vahabzadəyə

Əziz müəllim!

Qəzet vasitəsilə Sizin məktubunuzu, uzaqgörən şeirlərinizi və Şirməmməd müəllimin ürəkdən gələn şərhini alıb oxuyanda çox sevindim. Bütün bunlar mənə 87-ci ilin noyabrındakı görüşünüzü xatırlatdı:

"Bir anın içində uçub məhv olur,
Yüz illik, min illik imperiyalar".

Bu misralarınızı dəfələrlə təkrar oxudum. Qazax gənclərinin 1986-cı ildəki məğzi etibarilə SSRİ-də ilk demokratik aksiya olan dekabr etirazlarının əhəmiyyətini Sovet İttifaqında heç bir şair belə ucadan və aydınlıqla deməmişdi.

O vaxtdan çox sular axıb. Amma tarixi hadisələrin coşğun axarında belə alnında "birincilik" nişanəsi olanlar itib-batmır. Belə hadisələrə 86-cı ilin dekabr Alma-Atası kimi, 90-cı il Bakısının yanvarı da aiddir.

Ümid edirəm ki, zamanın bu axarında sevincli, zəfərli günlər də qabarıq görünəcək.

Bu yaxınlarda Sizi və Bakıdakı başqa dostlarımı görməkdən çox məmnun qaldım. Heydər Əliyevlə görüş məndə xoş ovqat yaratdı. Allah onu salamat eləsin. Onunla görüşdən sonra Azərbaycanın çətinliklərin öhdəsindən gələcəyinə məndə dərin inam yarandı.

Bir daha Sizi, yaxınlarınızı, Şirməmməd müəllimi bərk-bərk bağrıma basıram.

Oljas SÜLEYMENOV,
İtaliya, Roma
May, 1999-cu il

"525-ci qəzet", 26 may 1999-cu il.

İNFORMASİYALI CƏMİYYƏTİN İNFORMASİYALI TƏDQİQATÇISI

Tanınmış jurnalistika nəzəriyyəçisi, Bakı Dövlət Universitetinin kafedra müdiri Cahangir Məmmədlinin 60 yaşı tamam olur



Son 20 ildə dünyada, xüsusilə keçmiş Sovetlər Birliyi ölkələrində baş verən qlobal dəyişiklik və yeniləşmə proseslərini bu dövrü yaşayanların əksəriyyəti geniş mənada qiymətləndirmək iqtidarında deyil. Bu, təbiidir. Amma yeni bir formasiyanın, yeni dünya düzəninin başlandığı göz qarşısındadır.

Bu formasiyanın adı informasiyalı cəmiyyətdir. Kütləvi informasiya (kommunikasiya) vasitələri bu cəmiyyətin əsas aparıcı qüvvələrindən biridir. Köhnə informasiya vasitələri kimi klassik jurnalistika anlayışı da dəyişib. Çünki artıq elektron informasiya vasitələri mətbu vasitələri üstələməkdədir. Bu tarixi gərdişi duyan, onun qarşıya qoyduğu yeni tələbləri dərk edən jurnalistika nəzəriyyəçiləri sırasında mən BDU-nun jurnalistika fakültəsinin kafedra müdiri Cahangir Məmmədlinin adını çəkə bilərəm.

Son illər çox geniş mütaliə, ən yeni tədqiqatlarla tanışlıq, gərgin əməli fəaliyyət nəticəsi olaraq, Cahangir Məmmədli yeni dövrün jurnalistikasına dair faydalı məqalə və əsərlərlə çıxış etməkdədir.

"Multimedialaşma epoxasında mətbuatın yeri", "Dünya jurnalistikasından bilgilər", "İnsan hüquqlarının müdafiəsində KİV-in rolu", "Televiziyanın aparıcı imici", nəhayət "Jurnalistikaya giriş" dərs vəsaiti bu qəbildəndir.

Cahangir Məmmədli həm tədqiqatçı, həm də müasir dövrün tələbləri səviyyəsində duran ustad pedaqoq, müəllimdir. 35 ildir ki, BDU-nun jurnalistika fakültəsində dərs deyir. Onun neçə dərs dediyini çoxminlik tələbə ordusu yaxşı bilir. Respublikamızda elə bir kütləvi informasiya vasitəsi tapmaq olmaz ki, orada Cahangir müəllimin yetirməsi işləməsin.

Mən bilərəkdən Cahangir müəllim barədə "tələbəm" ifadəsini işlətmirəm. Çünki o, artıq özü həqiqi savadı, ləyaqəti, davranışı, əqidə və məsləkilə seçilən, sayılan müəllim və ziyalılarımızdan biridir.

Anadan olmasının 60 illiyi münasibətilə jurnalist və müəllim həmkarımızı ürəkdən təbrik edir, informasiyalı cəmiyyətin informasiyalı tədqiqatçısına yeni uğurlar arzulayıram.

Şirməmməd HÜSEYNOV

Redaksiyadan: *Dəyərli alim, gözəl müəllim, səmimi insan olan Cahangir Məmmədlini biz də ömrünün altıncı onilliyini arxada qoyması münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı arzulayırıq.*

"525-ci qəzet" □16(1126), 24 yanvar 2002-ci il

"ŞƏRQİ-RUS" QƏZETİ -100

Azərbaycan mətbuat tarixində əhəmiyyətli rol oynamış "Şərqi-Rus" qəzetinin 100 yaşı tamam olur. 100 ildir ki, mətbuat tariximizdə adıçəkilən "Şərqi-Rus" böyük bir məktəb olaraq görkəmli jurnalistlərimizin formalaşmasında ciddi rol oynamışdır. Bu qəzetdə aşağıdakı müəlliflər iştirak edirdi: M.Şahtaxtlı, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, Ö.F.Nemanzadə və s. Mətbuat tariximizin dəyərli araşdırıcısı, Bakı Dövlət Universitetinin professoru Ş.Hüseynovla söhbətimiz də elə bu haqdadır.

- "Sərqi-Rus" qəzetinin Azərbaycanın mətbuat tarixində yeri və rolu nədən ibarətdir?

- "Şərqi-Rus" qəzeti XX yüzillikdə Azərbaycan dilində çıxan iik mətbuat orqanıdır. "Kəşkül" qəzetinin 1891-ci ilin oktyabrında axırıncı nömrəsinin çapdan çıxmasından "Şərqi-Rus" qəzetinin nəşri arasında 12 il müddətində Azərbaycanda heç bir mətbuat orqanının çıxarılmasına icazə verilmədi. 15-ə yaxın adam, o cümlədən, N.Nərimanov, Ə.Ağayev, M.Şahtaxtlı, Ə.Topçubaşov qəzet çıxarmağa ciddi səylər etmişlər, hətta çoxlu qəzet adları söyləmişlər, amma qəzetin nəşrinə icazə verilmirdi. Bu işə Məhəmməd ağa Şahtaxtlı da qoşuldu. O, Almaniyada, Fransada, Rusiyada təhsil almışdı. Yeddi dil - türk, rus, alman, fransız, ingilis, ərəb, fars dillərini bilirdi. Qəzet işi ilə həm Avropada, həm də Rusiyada məşğul olmuşdu. Moskvada ən nüfuzlu qəzet "Moskovskie vedomosti" 1756-cı ildən 1907-ci ilə qədər çıxıb. Bu, hökumət orqanlarına yaxın qəzet idi. M.Şahtaxtlı onun İstanbulda xüsusi müxbiri olub. 1891-ci ildə "Kəşkül" bağlandıqda 1893-cü ildə M.Şahtaxtlı "Kaspi" qəzetində müvəqqəti redaktor işləyib. 57 yaşında ikən üç dildə - türk, rus, fars dillərində qəzet çıxartmaq istəyir. Lakin buna icazə vermirlər. Sonra icazə verirlər. Onu da bununla əlaqələndirirlər ki, Qafqaz Senzura Komitəsi yazır: "Buna icazə vermək lazımdır ki, Türkiyədən Azərbaycana çoxlu sayda qəzetlər gəlir. Ana dilində qəzetlər olmadığından onları oxuyurlar. Əgər biz

icazə verməsək, burada panislamizm, pantürkizm güclənər. "Şərqi-Rus"a icazə verək ki, onun qarşısını alsın".

Bakıda qəzet çıxarmağa imkan olmadığından və Senzura Komitəsi Tiflisdə yerləşdiyindən, qəzet də martın 30-da Tiflisdə çıxdı. 1903-cü ilin martın 30-dan 1905-ci ilin yanvarın 15-nə qədər qəzetin 392 nömrəsi çıxıb. Həftədə üç dəfə - çərşənbə, cümə və bazar günləri çıxırdı. 4 səhifəlik həcmində idi. Qəzet 1500 tirajla nəşr olunurdu. Bu qəzetin tarixi rolu həm dövrün salnaməsi idi, dövrün hadisələrini əks etdirirdi, həm də jurnalist kadrlarını yetişdirirdi. Xalqa oxumaq öyrədirdi ki, başqa qəzetlərin də oxucusu olsun. Deməli, camaatda oxumaq vərdişi yarandı.

- "Şərqi-Rus" qəzetinin bağlanma səbəbləri hansılardır?

- "Şərqi-Rus"un birinci düşməni hökumət, ikinci düşməni senzorlar idi. Kişmişov, Qaraxanov daim yazırdılar ki, "Şərqi-Rus" pantürkistdir, panislamistdir. Üçüncü, "Şərqi-Rus"un kollektivi ilə Bakı jurnalistləri arasında bir konflikt yaranmışdı. "Şərqi-Rus" qarşıya elə məsələlər qoydu ki, o, reaksiya almadı. Məsələn, qadın problemi, şəriət, əlifba məsələsi. Bunlar o vaxt yaxşı qarsılanmırdı. Ona görə də onunla din xadimləri arasında bir mübahisə düşdü. Odur ki, qəzetin tirajı yə oxucusu azaldı. Qəzet çox maddi çətinlik qarşısında qaldı. 2000 manat borcu oldu. 1904-cü ilin yayında M.Şahtaxtlı vəziyyətdən çıxmaq üçün özü Peterburqa arayış almağa və hökumətdən kömək istəməyə getdi, qəzetə müvəqqəti redaktor Cəlil Məmmədquluzadəni qoydu. O, qəzetin radikal istiqamətini dəyişdi, qəzetə milli birlik ideyası gətirdi. Mirzə Cəlil Ə.Ağayevlə, Bakı jurnalistləri ilə danışdı, M.Şahtaxtlını da onlarla yaxınlaşdırdı. Əhməd bəy Tiflisə getdi ki, M.Şahtaxtlı ilə qəzetə şərik olsunlar. Odur ki, Ə.Ağayev Tiflisə gələndən sonra qəzetdə məqalələri çıxmağa başladı. Qəzetin maddi vəziyyəti düzəldi. Amma çar idarələri, senzura komitələri Əhməd bəyin qəzetə şərikli olmağına icazə vermədilər. Hətta Əhməd bəyin fikri qəzetin nəşrini Bakıya gətirmək idi. Bu iş baş tutmadı. İnqilab başladı. 1905-ci il yanvarın 15-də qəzetin nəşri dayandı.

"Şərqi-Rus" qəzetinin digər mətbuat orqanlarına təsiri nə dərəcədə idi?

- Kadrlar yetişdirdi. C.Məmmədquluzadə "Şərqi-Rus"a gəldi, "Molla Nəsrəddin"i nəşr etdirdi və Ömər Faiq Nemanzadə "Molla Nəsrədin"ə şərik oldu. C.Məmmədquluzadə "Xatiratım" əsərində yazır: "Məni qəzet dünyasına M.Şahtaxtlı gətirib, "Şərqi-Rus" gətirib". Eyni zamanda M.Ə.Sabiri gətirib, Ö.F.Nemanzadəni gətirib. M.Ə.Rəsulzadə ilk dəfə bu qəzetdə çıxış edib. Yeganə qəzetdir ki, Azərbaycan jurnalistlərini, qələm əhlini öz ətrafına yığıb və H.Cavid, M.S.Ordubadi, Ə.Nəzmi kimi bir ordu yaratdı - jurnalist ordusu. İlk dəfə mühərrir yox, redaktor, təbliğat yox, propoqanda sözləri bu qəzetdə işlənib.

-"Şərqi-Rus" qəzetinin ideyası nə idi?

- Şövqi Novruzov, Mirzə İbrahimov, Əziz Mirəhmədov, Abbas Zamanov əsərlərində "Şərqi-Rus"dan danışırlar. C Məmmədquluzadənin bu qəzet haqqında xatiratı var. Amma Sovet dövründə yazıldığına görə, o, hələ elmi cəhətdən qəzet haqqında obyektiv bir mənzərə yaratmayıb.

"Şərqi-Rus" İ.Qasprinskini, Ə.Topçubaşovu, H.Zərdabini ifşa edirdi. Onlar da onu tənqid atəşinə tuturdular. Amma bu, şəxsi vuruş deyildi, ideya vuruşu idi. Bəzən şəxsi vuruş da vardı, müşəlmançılıq da vardı. Göstərmək lazımdır ki, bu vuruş millətə ziyan vurur. M.Ə.Rəsulzadə yazırdı: "Nə qədər bir qəzet vardı, hamı onun ətrafında idi, ikinci bir qəzet olsa, ümumi məsələ qalacaq bir qıraqda, qəzetlər bir-birlərilə vuruşacaqlar. Çünki bizim adətimiz vuruşmaqdır. İdeya və ideyasızlığa görə vuruş. Amma şəxsi hisslər, milli hissləri həmişə üstələyir".

Müsahibəni apardı:
Səfa Xansuvar,
Bakı Dövlət Universiteti,
Jurnalistika fakültəsinin tələbəsi

"Jurnalist" qəzeti, □10, 8 aprel 2003

Əlavələr

FƏXRİ ADIN MÜBARƏK, ŞİRMƏMMƏD MÜƏLLİM!

Şirməmməd Hüseynovu təkcə paytaxtımızda – M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetində deyil, respublikamızın hər yerində yaxşı tanıyırlar. Şəkiyə gələndə isə onunla görüşməyə, ürək sözlərini deməyə can atdığı adamlar arasında təbii ki, yerli jurnalistlər - "Şəki fəhləsi", "İpəkçi" qəzetlərinin və Şəki radiosunun əməkdaşları, respublika qəzetlərinin müxbirləri xüsusi yer tuturlar.

Əslində xalq məhəbbətini, tələbə sevgisini bütün mükafatlardan uca hesab edən Şirməmməd Hüseynovun özündən xəbərsiz az vaxtda iki dəfə şərəfləndirilməsi Şəki jurnalistlərinin də ürəyincə idi.

Şəki jurnalistləri Şirməmməd Hüseynovun yolunu səbirsizliklə gözləyirdilər. Gözləyirdilər ki, onu bu il aldığı mükafatlara görə bir daha təbrik etsinlər. Lakin professoru yaxşı tanıdıqları üçün həm də əmin idilər ki, Şirməmməd müəllim mükafat, fəxri ad xatirinə çalışanlardan deyil. Amma fakt faktlığında qalırdı.

Təşkil olunmamış, planlaşdırılmamış "Dəyirmi stol" arxasında, çay stolu arxasında professor Şirməmməd Hüseynovun söhbətlərini dinləmək, bu günümüzlə, həyatımızla səsləşən açıq, güclü məntiqə söykənən mülahizələrinə qulaq asmaq yaradıcı kollektiv üçün - professorun tələbələri üçün maraqlı idi.

Ş.Hüseynovla söhbətdə onun sabahın jurnalistləri kimi təqdim etdiyi nəvələri Əhəd və Toğrul da iştirak edirdilər.

Həmkarları da borclu qalmadılar. Professor Şirməmməd Hüseynovun Azərbaycan Respublikasının Əməkdar Jurnalisti fəxri adı alması və lap bu yaxınlarda Azərbaycan Jurnalistlər İttifaqının İdarə Heyəti tərəfindən ilk Zərdabi mükafatına layiq görülməsi münasibətilə ürəkdən təbrik etdilər. Ona uzun ömür, cansağlığı arzuladılar. Bir də əlavə etdilər ki, televiziyada üzünə, sözünə həsrət qalan tamaşaçılar onu yenidən mavi ekranda görsünlər və desinlər: "Sakit, Şirməmməd Hüseynov danışır!".

"İpəkçi" qəzeti, 7.VIII.1991

CƏDVƏLƏ DÜŞMƏYƏN DƏRS

Ali məktəb müəllimlərimiz

Dostlarımın çoxuyla ilk tanışlığım Azərbaycan Dövlət Universitetində (indiki BDU-da) oxuyarkən olub. Xasiyyətimiz tutur, sözümüz-söhbətimiz düz gəlirdi. Tezliklə mehribanlaşdıq. Bir vaxt gördük ki, özümüz də bilmədən əməllibaşlı dostlaşmışıq.

Biz təhsilimizi 50-ci illərdə başa çatdırmışıq. Respublikamızın hər tərəfinə səpələnmişik. Amma gözdən uzaqlaşsaq da, heç vaxt könüldən uzaq olmamışıq. Münasibətlərimiz öz təravətini itirməyib. Əlaqələrimiz davam eləyir. Mümkün olduqca, tez-tez görüşürük. Şirin-şirin söhbətlər eləyib xoş günlər, saatlar keçiririk. Fikrən 35-40 il əvvəllərə qayıdırıq, tələbəlik illərini hökmən dönə-dönə yada salırıq, gah sevinclə, gah həsrətlə xatırlayırıq. Axı, o dövr ömrümüzün ən haylı-haraylı, çal-çağırlı vaxtlarıydı. Həyat eşqi çox güclüydü. Bu eşq bizi dolğun yaşamağa, insan adını ləyaqətlə daşımağa çağırırdı.

Təhsil illərində işlərimizin hər babətdən uğurla getməsi təkcə öz hünərimiz deyildi. Hər səmərəli addımımız həm də müəllimlərimizin məhsuldar fəaliyyətinin bəhrələriydi. Axı bizim təhsilə və həyat hadisələrinə münasibətimizin formalaşmasında onların iştirakı tutarlıydı. O zaman ADU-da dərs deyən müəllimlər respublikamızın ən görkəmli, ən istedadlı alimləri sırasında addımlayırdılar. Məmməd Arif Dadaşzadə, Əzəl Dəmirçizadə, Yusif Məmmədəliyev, Mir Cəlal Paşayev, Bəxtiyar Vahabzadə, Əziz Əfəndiyev, Həsən Şahgəldiyev, Seyfulla Əliyev, Səidə İmanova, Həmid Araslı, Məmməd Hüseyn Təhmasib, Feyzulla Qasımzadə, Cəfər Xəndan, Xəlil Əlimirzəyev və onlarca başqa dərin zəka sahibləri bizə son dərəcə maraqlı mühazirə oxuyur, canlı seminar məşğələləri keçirdilər. Biz bilirdik ki, müəllimlərimizin çoxu əsl elm fədaisi idi, onların

apardığı tədqiqat işləri dərin və əhəmiyyətli idi. Eyni zamanda hiss eləyirdik ki, hər birinin insanlığı alimliyindən çox-çox yüksək və irəli idi. Onlar el arasında deyildiyi kimi, aydan arı, sudan duruydular. Gözü-könlü tox, qəlbi-əli təmiz adamlardı. Pedaqoji fəaliyyətdə onların yalnız bir məqsədi vardı: tələbələri böyük həyata, böyük milli vəzifələrin yerinə yetirməyə hazırlamaq! Başqa bir təmənnaları yoxdu. Qəbul, sessiya və dövlət imtahanları günlərində nə valideynlərlə sövdələşir, nə də artıq-əskik qiymətlər yazırdılar. "Əsl meyyar bilikdir!" sözləri onda şüar yox, real gerçəklikdi. Məhz buna görə də müəllim-tələbə münasibətlərində bir billurluq vardı. Hamı bir-birinin üzünə dik baxa bilirdi. Bu saflığın qədir-qiymətini biz illər keçdikcə təhsil sistemində indi baş verən eybəcərliklər barədə eşitdikcə daha yüksək tuturuq. Müəllimlərimizi də çox tez-tez fərəhlə, qürurla xatırlayırıq. Şirməmməd Hüseynov daha çox yadımıza düşür.

O, ali təhsilini başa çatdırdıqdan sonra aspiranturada oxuyub dissertasiya müdafiə eləmiş və tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Pedaqoji fəaliyyətə universitetin filologiya fakültəsinin jurnalistika şöbəsində başlamışdı. O zaman mən də həmin şöbədə təhsil alırdım.

Tələbələrin qəribə bir adəti var: təzə müəllimi elə hey öyrənməyə çalışır, onun qırımını yoxlayırlar. Jurnalistika şöbəsində oxuyanlar da o zaman Şirməmməd müəllimi diqqətlə dinləyir, ona hər cəhətdən maraq göstərirdilər. İlk təəssürat yaxşı idi. O, orta boylu, qara, qıvrım saçlı, şahin baxışlı, mülayim, aydın tələffüzlü bir kişi idi. Səsində azacıq bir cingilti vardı. Çöhrəsində təbəssüm və ciddilik bir-birini çox tez-tez əvəz eləyirdi. Boş danışıqdan xoşu gəlmirdi. Hər yerdə, hər şəraitdə yalnız ən vacib məsələlərdən danışığa meyl eləyirdi. Bildiklərini ətrafındakılara, xüsusən tələbələrə öyrətməyə çalışırdı. Bildikləri isə hədsiz çoxdur. Hiss eləyirdik ki, onun mütaliəsi sistemli, planlı, əhatəli və səmərəlidir. Təkcə öz ixtisası, elmi işi

üzrə lazımi ədəbiyyatı oxumaqla kifayətlənmirdi. Humanitar elmlərin bütün sahələri üzrə biliyini daim zənginləşdirirdi. Elə buna görə də mühazirələri, söhbətləri son dərəcə maraqlı, təsirli, canlı olurdu. Auditoriyanın diqqəti yayınmırdı.

Şirməmməd Hüseynov universitetin yaşlı müəllimlər nəslinin ənənələrini ardıcıl davam elətdirirdi. Lakin özünəməxsus iş təcrübəsi də vardı. Misal üçün o, mühaziräni oxumurdu, yalnız söyləyirdi. İbarəli ifadələrdən, təmtəraqlı gurultulu cümlələrdən qaçır, mühazirə mətnini kənara qoyaraq ən sadə, anlaşıqlı bir dildə danışırdı. Əsas diqqətini tələbələrə elm öyrətməyə yox, tələbələrdə elm öyrənməyə maraq oyatmağa yönəldirdi. Öz dinləyicilərinin qəlbinə dərin bilik almaq qığılcımı salırdı.

Mühazirə oxumaq qaydalarını düşünülmüş surətdə tez-tez pozurdu. Bir də görürdün ki, mətndən kənara çıxır, mövzudan xeyli uzaqlaşırdı. Keçirdi respublikamızda, ölkədə və planetimizdə baş verən əsas hadisələrdən danışmağa. Başlayırdı həyatın irəli sürdüyü ən kəskin suallara cavab verməyə. Çalışırdı ki, hər birimizdə milli qeyrət hissini gücləndirsin. Məsələn, Fransa, yaxud İspaniya kommunist mətbuatından danışanda bəzən söhbəti hərləyib-fırlayıb yönəldirdi Azərbaycan mətbuatı tarixinə tərəf. O zamanlar mürtəce hesab olunan qəzet və jurnallar, burjuaziya ziyalısı adı ilə damğalanan mütərəqqi fikirli böyük şəxsiyyətlər barədə yana-yana söhbət açırdı.

Aydınca anlayırdıq ki, o bizi təkcə yaxşı jurnalist kimi yetişdirməklə işini bitmiş hesab eləmək istəmirdi. Şirməmməd müəllim öz tələbələrini həmişə mənalı və ləyaqətli yaşamağa, namuslu və qeyrətli olmağa, sevinci və çətinlikləri mərdanə qarşılamağa, nadanlıq və cəhalətdən xilas olmağa, siyasi naşılıqdan yaxa qurtarmağa, boş təbliğata uymamağa, hər şeyə açıqgözlə, sağlam düşüncəylə baxmağa hazırlayırdı. O zamanlar jurnalistika şöbəsində tədris olunan fənlərdən biri dərs cədvəlinə düşmür, rəsmi qeydiyyata alınmırdı. Biz bunu həyat fənni

adlandırırdıq. Faktiki mövcud olan həmin fənni Şirməmməd Hüseynov deyirdi. O əsl həyat müəllimiydi.

Tələbələr onu çox sevirdilər. Ali təhsili başa çatdırdığımız fərəhli dövrdə ürəyimizdən dalğa-dalğa gizli kədər də keçirdi. Səmimi surətdə müqəddəs hesab elədiyimiz müəllimlərdən, xüsusən Şirməmməd Hüseynovdan ayrılmağımıza heyfsilənirdik.

- Bir də onun söhbətlərinə qulaq asmayacaq, mühazirələrini eşitməyəcəyik - deyib qəmlənirdik. Sadəlövhlüklə səhv elədiyimizi sonralar başa düşdük. Sən demə, o, bizim üçün daim müəllim olaraq qalırdı. Axı o, altmışıncı illərdə radio ilə (onda televiziya hələ lazımınca inkişaf eləməmişdi) vaxtaşırı çıxış eləyib ən yeni əhəmiyyətli beynəlxalq hadisələrin şərhini verirdi. Tez-tez əmək kollektivlərinə gedib respublika "Bilik" cəmiyyətinin mühazirəçisi kimi söhbət aparırdı. Azərbaycan milli demokratik mətbuatının açılmamış səhifələrinin tədqiqatıyla məşğul olur, əldə elədiyi nəticələri kitab və qəzet oxucularına çatdırırdı.

Bir vaxtlar Şirməmməd müəllim universitetin qəbul komissiyasında məsul vəzifə sahibi idi. Öz səlahiyyətlərindən qeyrətlə istifadə eləyirdi: universitetə yalnız istedadlı abituriyentlərin qəbul edilməsinə çalışırdı. Möhtəkirlərə, vicdan dəllallarına qarşı amansız mövqe tuturdu. Onun qətiyyətli hərəkətlərini bütün respublika alqışlayırdı. Biz məzunlar isə böyük heyranlıqla daha çox fərəhlənirdik. Öz aramızda deyirdik ki, bəzi ziyalıların mənəvi təmizliyi südə bənzəyir. İçərisinə bir zərrə çirk düşən kimi çürüyür. Şirməmməd müəllimin vicdanı pas tutmayan metal kimidir. Bütün vəziyyətlərdə saf və parlaq qalır.

1985-ci ildən sonra alimlərin və yaradıcı ziyalıların potensial gücünün hərəkətə gəlib səmərə verməsi üçün geniş imkanlar yarandı. Lakin onların çoxu həmin imkanlardan istifadə eləməyə hazır deyildir. Qəti hərəkətlər vaxtı bəziləri çaş-baş düşür, bəziləri aydın bir mövqe tuta bilmir, bəziləri də qatı mühafizəkarlıq eləyirdilər. Bununla belə, keyfiyyətcə yeni şəraitdə

öz istedadını, elmi-nəzəri hazırlığını böyük milli problemlərin həllinə bir an da yubanmadan istiqamətləndirməyi bacaranlar da vardı. Şirməmməd müəllim onların ön sırasındaydı. O, milli demokratik mətbuat tarixinin tədqiqatını dərhal intensivləşdirdi. Böyük demokrat, siyasi xadim və alovlu publisist Məhəmməd Əmin Rəsulzadənin əsərlərinin dördcildliyini (geniş şərhlər və izahatlarla) çapa hazırlamaq kimi çox gərgin bir işə girişdi. Birinci cild artıq hazırdı. Universitetin professoru Şirməmməd Hüseynov yeni şəraitdə siyasi həyatın ən mühüm məsələləri barədə öz sözünü televiziya kameraları qarşısında, dövri mətbuat səhifələrində ən səmimi şəkildə deməyə başladı. "Azərbaycan," "Dalğa", "Azadlıq" qəzetlərinin və başqa mətbuat orqanlarının səhifələrində öz publisistik məqalələriylə çıxış elədi. Onun "Bərəkət" qəzetində hər həftə iki dəfə çap olunan siyasi şərhləri diqqəti xüsusilə cəlb eləyir. Həmin yazılar müasir həyatın ən aktual məsələləri barədə ən operativ, ən yığcam anlaşıqlı izah və təsvirləridir. Hörmətli professor xeyirdən-şərdən qalan deyil, toy və hüzr məclislərində vaxt imkan verən qədər iştirak eləyir. Həmin məclislərdə o, öz adətincə zamanın gərdişindən danışır, dinləyənlərin marağını nəzərə alıb dəbdə olan ən aktual mövzulara toxunur.

Bir sözlə Şirməmməd müəllim bizim üçün öz müəllim vəzifəsini yenə də layiqincə yerinə yetirir. Bu işi indi respublikamızın çox böyük hissəsini əhatə eləyən nəhəng bir auditoriyada görür. Biz taleyin qarşıya çıxardığı çətinlikləri aradan qaldırmağın ən yaxın yollarını, mürəkkəb vəziyyətlərin, dolaşıq-qarışıq düyünlərin mənasını başa düşməyin üsullarını ondan öyrənirik. Ümumiyyətlə, Şirməmməd müəllimin çıxışlarına, söhbətlərinə, məqalələrinə maraq respublikamızda çox böyükdür.

Belə bir marağın səbəblərini onun elmi və publisistik fəaliyyətinin xüsusiyyətləriylə izah eləmək olar və eləmək lazımdır. Bunun üçün 1985-ci ildən başlayaraq sovet mətbuatında gö-

rünən köklü dəyişikliklərə ötəri nəzər yetirək. Uzun illər boyu Sov. İKP-nın daxili və xarici siyasətini ardı-arası kəsilmədən şit-şit tərifləyən kütləvi informasiya vasitələri öz siyasi xətlərində tədricən 180 dərəcə dönüş elədilər. Onlar başladılar hakim ideologiyanı, mövcud quruluşu, sarsılmaz hesab edilən siyasi sistemi qamçılamağa. Elə ona görə də qəzetlərə, jurnallara, radio və televiziyaya maraq qat-qat artdı. Lakin uzun sürmədi. Səmərəsiz tənqiddən, bəzən söyüş və təhqirdən ibarət olan məqalələr, çıxışlar oxucuları, dinləyiciləri və tamaşaçıları yormağa başladı. Çünki publisistlərin yazıları, söhbətləri əsasən "Ölkədə vəziyyət necə olmuşdur? İndi necədir? Niyə böhran başlandı? Təqsir kimdədir?" suallarına uzun-uzadı cavab verirdi. Bu prosesdə Ş.Hüseynov ən əlverişli mövqe tutdu. Tənqidbazlığa uymayaraq publisistlərin konstruktiv təfəkkürlü dəstəsində qaldı. O, çıxışlarını və yazılarını "Vəziyyətdən çıxmaq üçün nə etməli? sualıyla əlaqədar mövzulara həsr eləyirdi. Qısaca desək, o, üzünü keçmişə yox, gələcəyə tutur.

Professorun yazmaq və çıxış eləmək üslubu orijinaldır, tədqiq olunmağa, öyrənməyə, geniş yayılmağa layiqdir. Həmin üslubun bir xüsusiyyəti budur ki, Ş.Hüseynov uzunçuluğu sevmir. Çıxışa və yazıya əsas mətləbdən başlayır. Yorucu girişdən, çoxlu haşiyələrdən qaçaraq sözünün canını deyir və yazır. Elə bu səbəbə görə də onun qələm məhsulları yığcam və təsirli olur, düz hədəfə dəyir.

Bizim müəllimimiz məlum həqiqətləri sadalamağı, başqalarının dediklərini, yazdıqlarını təkrar eləməyi, hər hansı hadisəni və vəziyyəti qiymətləndirməkdə dəbə uymağı xoşlamır. Bəzən efirə, mətbuat səhifəsinə yol tapan boşboğazlıqdan əsəbiləşir. Hər bir hadisə və fakt haqqında yalnız öz mülahizələrini bildirir. Həyat təcrübəsi zəngin, intellektual səviyyəsi yüksək, siyasi təfəkkürü geniş olduğu üçün qaldırdığı məsələlər auditoriyada başa düşülür. O, faktlara, rəqəmlərə müraciət edərkən

oxucuya, dinləyiciyə və tamaşaçıya informasiya vermək məqsədi güdmür. Yalnız söylədiyi mülahizələri təsdiq eləməyə çalışır. Çox vaxt isə faktların, rəqəmlərin özlərini şərh eləyir, onların arxasında duran mətləbləri, gizli niyyətləri açıb göstərir. Bəzən isə tarixdən və müasir dövrdən gətirdiyi səciyyəvi faktlar, rəqəmlər onlarla şərhi, təhlili izahı və sübutu əvəz eləyir.

Belə xüsusiyyətlər aydın göstərir ki, şərh, fakt, ifadə eləmə üsulu, dəmir məntiq professorun çıxışlarında və yazılarında təbii bir vəhdət halındadır. Bunlar bir-birini tamamlayır və önə çıxarır. Qısasını desək, onun publisistikası kamil, yetkin, döyüşkən və səmərəlidir. Respublikamızın ağır vəziyyətdən qurtarması uğrunda mübarizədə kəsərli bir silahdır.

Bu yaxınlarda hörmətli professorun ad günü olmuşdur. Gəlin həmin hadisə münasibətilə onu ürəkdən təbrik eləyək, istedadlı publisistimizə uzun ömür, möhkəm cansağlığı, səadət diləyək! Gəlin arzulayaq ki, Şirməmməd müəllimin parlaq istedadı, iti qələmi, kəsərli nitqi, sağlam təfəkkürü uzun illər boyu xalqımıza xidmət eləsin, müstəqil həyat yoluna qədəm qoyan Azərbaycanın real tərəqqisi uğrunda mübarizənin önündə getsin.

Teymur XƏLİLOV

"Azərbaycan müəllimi"
3 yanvar 1992-ci il.

"İŞIĞIMIZ SÖNMƏYƏCƏKDİR"

Bakı Dövlət Universitetinin professoru, görkəmli tədqiqatçı-alim, gözəl pedaqoq Şirməmməd Hüseynovu respublika televiziyasında görən həmyerliləri çox sevindilər. Və mübaliğəsiz deyək ki, təkcə şəkililər yox, respublikamızın bütün bölgələrindən olan tamaşaçılar millətin, xalqın bu ağır sınaq günlərində ürəkdən gələn qəlbə, ruha, zehinlərə işləyən ağıllı, səmimi, səfərbərədici sözə ehtiyac duyurdular: Şirməmməd Hüseynov 11 ay idi ki, belə geniş bir auditoriya ilə ünsiyyətdən kənarda qalmışdı. Professor özü də belə bir canlı təmas üçün qəribsəmişdi. Şirməmməd Hüseynov məhz indi - Vətənin, millətin dar günündə gözə görünməsini, indiyədək ürəyindəkiləri sevimli tamaşaçılara deyə bilməməsinin səbəblərini özünəməxsus tərzdə açıqladı.

Həmişə olduğu kimi, bu dəfə də hörmətli professor tamaşaçılarla üzbəüz dayanarkən XX əsrin görkəmli şəxsiyyətlərinin, ziyalılarının uzaqgörənliklə söylədikləri fikirlərə istinad etdi, bu günümüzlə səsləşən həmin proqnozların geniş şərhini verdi. M.Ə.Rəsulzadənin "XX əsr faciələr əsri olacaqdır," Ömər Faiqin "İşığımız sönməyəcəkdir," "İqbal"da yazılmış "Bizdə cürət... ittifaq hissi batıb getmişdir" sözlərinin əsrin sonunda da öz aktuallığını saxladığını, bu günümüzün reallığı ilə üst-üstə düşdüyünü qeyd etdi.

"İşığımız sönməyəcəkdir" fikrini qüvvətləndirən Şirməmməd Hüseynov son iki ayda hakimiyyətə gələn yeni rəhbərliyin

respublikanın ictimai-siyasi iqlimini sağlamlaşdırmaq üçün həyata keçirdiyi tədbirlərə müsbət münasibətini bildirdi. Qeyd etdi ki, indi bütün sağlam qüvvələr, xalqın qeyrətli oğulları bu işığın ətrafında əl-ələ verməli, sıx birləşməli, müharibədən, məhrumiyyətlərdən, böhran şəraitindən çıxmaq üçün səylər səfərbərliyə alınmalıdır. Milli birlik təfəkkürü, milli birlik ideologiyası yaratmaq, müstəqilliyimizi sözdə yox, işdə möhkəmləndirmək, saxta vətənpərvərlik hissindən uzaq olmaq indi həmişəkindən daha çox lazımdır.

Şirməmməd Hüseynova qulaq asandan sonra tamaşaçı istər-istəməz üzünü televiziya şirkətinin sədri Babək Hüseynoğluna tutub demək istəyir:

- Hörmətli sədr! Bu gün Şirməmməd Hüseynov kimi ziyalıların, hadisələri düzgün qiymətləndirməyi bacaran, xalqa, millətə, "düzü-düz, əyrini əyri" demək üçün özündə cəsarət tapan, nüfuzlu adamların, ağıllı siyasətçilərin, elm, mədəniyyət xadimlərinin, el ağsaqqallarının ekrana çıxıb öz ürək sözlərini həmvətənlərinə söyləməsi çox vacib, çox gərəkli işdir. Arzu edirik ki, Şirməmməd Hüseynovun özü ilə tamaşaçı arasındakı görüşün "intervalı" bundan sonra daha qısa olsun!

"ŞƏKİNİN SƏSİ"
qəzetinin redaksiya heyəti.

"Şəkinin səsi" qəzeti,
10, 15 sentyabr 1993-cü il.

"UYDURMA MÜƏMMALAR, ƏSİLSİZ İTTİHAMLAR"

Hörmətli Şirməmməd müəllim, Firudin İsaqoğlunun "Naxçıvan" qəzetində "L.P.Beriya Müsavatın üzvü olmuşdur?.." sərlövhəli yazısına cavab olaraq yazdığınız məqaləni oxuduq. Həmin məqaləyə görə sağ olun, Sizə minnətdarıq. Bizim və Sizin üçün Vətən məlum həqiqətlərdən başqa, həm də M.Ə.Rəsulzadənin hürriyyət və istiqlala söykənən ictimai-siyasi irsinin qorunması deməkdir.

Hörmətli professor, "Uydurma müəmmalar, əsilsiz ittihamlar" ("525-ci qəzet", 17 yanvar 1998) adlı məqalənizi oxuyarkən hiss etdim ki, böyük öndərin şəkillərini rəsmi dövlət idarələrindən götürülməsi Sizdə acı təəssüf hissi doğurur. Onun büstünün dağıdılması Sizi kədərləndirir. Lakin belə məsələlərdə təskinlik üçün də əl yeri var. Axı həmin idarələrdə oğurluq, əyrilik baş alıb gedir. Nə yaxşı ki, öndərin şəkilləri oralardan götürülüb, yoxsa onun ruhu narahat olardı.

Bizə məlumdur ki, idarələrdə asılan başqa portretin altında şıdırığı alver edirlər. Nə etmək olar, atalar demişkən: "Su axar çuxurunu tapar."

Şirməmməd müəllim, Siz uzun illərdir M.Ə.Rəsulzadənin ideya-siyasi irsini damla-damla üzə çıxardır, tədqiq edir və ictimaiyyətin nəzərinə çatdırırsınız. İstedad, intellekt və ağır zəhmət tələb edən bu işə görə Sizə sevgilərimizi bildiririk. Çox sağ olun. Tanrı Sizi bizə çox görməsin.

Şəki müsavatçıları adından:
S.MİKAYILOV

"Yeni Müsavat" qəzeti,
10-12 mart 1998, □ 36 (399)

PROFESSOR ŞİRMƏMMƏD HÜSEYNOVA 75 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ

Əziz Şirməmməd müəllim! Azərbaycan Xalq Cəbhəsi Partiyası Sizi - çağdaş milli azadlıq hərəkatımızın fəal iştirakçısını, milli mətbuat tariximizin və ölməz M.Ə.Rəsulzadə irsinin yorulmaz araşdırmaçısını 75 illik doğum gününüz münasibətilə təbrik edir, uzun ömür və cansağlığı arzulayır.

Siz çağdaş istiqlal hərəkatının, müstəqil Azərbaycanın qurulmasında böyük xidməti olan ziyalılarımızdansınız.

Azərbaycan milli mətbuat tarixinin dirçəldilməsi, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Ə.M.Topçubaşi, Əhməd Ağa oğlu, Üzeyir Hacıbəyov və bu silsilədən olan nəhəng ziyalı dairəsinin dövrümüz üçün qiymətli olan elmi-nəzəri və publisistik irsinin millətimizə təqdim edilməsi milli hərəkatımızın əvəzsiz lideri M.Ə.Rəsulzadə irsinin toplanması və nəşri yalnız Sizin fədakarlığınız sayəsində mümkün olub. Ölkəmiz üçün, vətənimiz üçün ən həlledici məqamlarda hər zaman Sizin ağsaqqal sözünüz eşidilib, prinsipial mövqeyiniz çoxlarına örnək olub. Siz öz publisistik yazılarınız ilə çoxlarının deyə bilmədiyi mətləbləri, xüsusilə vətən və millət məsələsində vətənpərvər mövqeyinizi açıq-aydın ortaya qoyursunuz.

Siz sözün tam mənasında çağdaş Azərbaycanın böyük müəllimi və böyük ziyalısısınız. 75 illik doğum gününüzü təbrik etməkdən iftixar duyur və Sizə möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

Ə.ELÇİBƏY,
Azərbaycan Xalq
Cəbhəsi Partiyasının sədri

"Azadlıq" qəzeti, □231, 18 dekabr 1999

PROFESSOR ŞİRMƏMMƏD HÜSEYNOVUN 75 İLLİYİNƏ

Çox hörmətli Şirməmməd müəllim! "Azadlıq" qəzetinin kollektivi Sizi - Azərbaycan jurnalistlərinin indiki nəslinin müəllimini, mətbuatımızın tanınmış nümayəndəsini 75 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı arzulayır. Azərbaycan mətbuat tarixinin araşdırıcısı olaraq Siz yeni nəsli milli mətbuatımızın ənənələri ilə bağladınız. Tarixi varislik missiyasını öz üzərinizə götürdünüz. Sizin tələbələriniz olaraq bizlər Sizdən yalnız sənətin sirlərini deyil, mətbuatın milli tarixdə və taledə oynadığı rolu, mətbuat tariximizin iftixar edilə biləcək səhifələrini də öyrəndik. Biz Sizin simanızda XX əsrin əvvəllərində yaşayıb-yaratmış böyük ziyalılarımızın əməllərini, ənənələrini görürük. Həyatda və mətbuatda prinsipial mövqeyiniz, vətənə bağlılığınız, millət adamı olmağınız hər kəs üçün nümunə ola bilər. Siz şərəfli bir ömür yaşayırsınız. Vicdanlı və şərəfli həyat mövqeyinizlə əsrimizin sonunda Azərbaycanın son dərəcə nadir və azsaylı ziyalılarından sayılırsınız. Redaksiyamız 75 illik yubileyinizi təbrik etməklə yanaşı, "Azadlıq" qəzeti ilə uzun illər səmərəli əməkdaşlığınızla fəxr edir, bu əməkdaşlığı bərpa etmək arzusunda olduğunu bildirir. "Azadlıq" azad mətbuatın yaradılması və inkişafı yolunda əvəzsiz xidmətinizi heç vaxt unutmayacaq.

Sizin tələbələriniz

"Azadlıq" qəzeti,
231, 18 dekabr 1999-cu il

USTADIMIZ ŞİRMƏMMƏD HÜSEYNOV

Gəlimli-gedimli dünyada insanın sitayiş etdiyi, həmişə xidmətində durmağa can atdığı üç unudulmaz, ülvi doğması olub: Ulu Tanrı, Valideyn və Müəllim. Azərbaycan jurnalistlərinin böyük bir nəslinin yetişməsində əvəzsiz xidmətləri olan Şirməmməd müəllim də belə doğmalardandır.

Yarım əsrə yaxın dövrdə Bakı Dövlət Universitetində gələcək qələm sahiblərinə dərs deyən Şirməmməd Hüseynov milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin "Bizə bu dünyada ancaq təmiz ad və ləyaqət qalacaq" kəlamına dönmədən sadiq qalmış və özünün davranışı, təmənnasızlığı, təmizliyi ilə indiki ağır zamanda çoxlarına örnək olmuşdur.

Müəllim adını həmişə uca tutan, BDU-nun jurnalistika fakültəsinin şərəf və ləyaqətini dönmədən qoruyan ustadın 75 yaşı tamam olmuşdur. Dərs deməklə yanaşı, uğurlu elmi araşdırmalar aparan Ş.Hüseynov müasir gəncliyimizə daim qorxmazlıq, mətinlik və mübarizlik hissləri aşılamaqdadır. Neçə-neçə monoqrafiyanın, 200-dən çox elmi məqalənin müəllifi olan Şirməmməd müəllim publisist kimi də dövri mətbuatda müntəzəm çıxış etməkdədir.

"Alternativ"çilər ağsaqqal jurnalist, ustad Şirməmməd Hüseynovu 75 illik yubileyi münasibətilə səmimi təbrik edir, sevimli müəllimlərinə uzun ömür və cansağlığı arzulayırlar.

"Alternativ" qəzeti,
22 dekabr 1999-cu il

MƏNİM TANIDIĞIM ŞİRMƏMMƏD MÜƏLLİM

M.Ə.Rəsulzadə adına BDU-nun jurnalistika fakültəsinin professoru Şirməmməd Ağaməmməd oğlu Hüseynovun 75 yaşına sözardı

QƏBUL İMTAHANINDA... TƏYİNAT, YAXUD ŞİRMƏMMƏD MÜƏLLİM MƏNİM "DAYI"M OLUB

1966-cı il avqustun əvvəlləri idi. Universitetin filologiya fakültəsinin jurnalistika şöbəsinə qəbul imtahanı verirdim. İlk imtahandan ("Azərbaycan dili və ədəbiyyat" - yazılı) "5" almışdım. İndi həmin fənnin şifahisi idi. Bilet çəkib ön sırada əyləşdim. Suallarla tanış olanda gördüm ki, müəllimlərdən biri (sonra biləcəkdim: Famil Mehdi) o birinə (professor Əlövsət Abdullayevə) deyir: "Bu, Şirməmməd müəllim deyən oğlandır. Özünü çağırmaq lazımdır". Sanki bu sözləri gözləyirmiş kimi, Şirməmməd müəllim (əlbəttə, o vaxt nə adını bilirdim, nə də üzünü görmüşdüm) auditoriyaya daxil oldu. İşarə elədilər ki, bu, həmin oğlandır. Mənə yaxınlaşıb suallarıma baxdı: 1)M.F.Axundovun "Puşkinin ölümünə Şərq poeması"; 2)Süleyman Rüstəmin Cənub şeirləri; 3) Cümlə təhlili.

- Fikirləşmədən danışa bilərsənmi?
- Bəli.
- Elə isə gəl.

Məndən imtahanın ilk iki sualını o özü (dəqiq bilmirəm: o vaxt Şirməmməd müəllim fakültənin ya dekan muavini, ya da ilk partiya təşkilatı katibi idi. Onu bilirəm ki, jurnalistika şöbəsinə qəbulun məsuliyyətini o daşıyırmış) götürdü.

Şirməmməd müəllim: - Poema hansı dildə yazılıb?

Mən: - Farsca.

Ş.m.: - Bir parça əzbər deyə bilərsənmi?

M.: - Kimin tərcüməsində?

Ş.m.: - Kimlər tərcumə edib ki?

M.: - Mikayıl Muşfiq, Cəfər Xəndan, Böyükağa Qasımzadə...

Ş.m. - Mikayıl Müşfiqin.

M.: - Gecə etdim uyğumu gözümdən kənar, Sordum: "Ey sirr çeşməsi ürəyim, nə var?.."

Ş.m.: - Bəs Cəfər Xəndanda necə başlanır?

M.: - Gözlərimdən yuxu qaçmış məni boğmaqda xəyal. Düşünən beynimi sarmış yenə bir qəmli sual...

Ş.m.: - Keç ikinci suala. De görüm, "Cənub şerləri"nin qayəsi nədir?

M.: - Qayəsi budur ki, əvvəl-axır Azərbaycan birləşib bütöv olacaq.

Ş.m.: - Cumləni təhlil elə.

M.: - Necə: morfoloji, yoxsa sintaktik?

Mənə heç nə deməyib üzünü rəhmətlik Əlövsət müəllimə tutdu:

- Kişinin qiymətini köçür aşağı (yəni yazıdan aldığı "5"-i təkrar et). Bu, gələcəkdə jurnalistika fakültəsinin müəllimi olacaq.

Sonradan öyrəndim ki, mənim yazı işim yoxlanarkən də həlledici sözü Şirməmməd müəllim deyib. "Qəhrəman Azərbaycan qadınları" adlı sərbəst inşam mübahisələrə səbəb olub. Bəziləri deyiblər ki, burada Bəsti Bağırovanın, Şamama Həsənovanın və başqa əmək qəhrəmanlarının adları çəkilməyib, yalnız Tomrisdən, Nüşabədən, Nigardan, Həcərdən yazılıb. Şirməmməd müəllimin sözü kəsə olub: "O, "5" almalıdır".

Arxadan kimsə pıçıldayıb: - Bəs deyirdilər, bu, heç kəsi düzəltmir?

Şirməmməd müəllimin qulağı pıçıltını çalıb və cavab verib:

- Gələcəkdə görərsiniz mənim düzəltdiyim kimdir?

"PRAVDA" VƏ MÜSTƏQİLLİK

Şirməmməd müəllim III kursda bizə dərs deməyə başladı. Fənninin adı "Partiya-sovet mətbuatı tarixi" idi. Yəni "İskra"-dan, "Pravda"dan, "Proletari"dən... danışırdı. Amma elə danışırdı ki, elə bil bunlar bolşevik qəzetləri deyildi, gələcəkdə Azərbaycan jurnalistlərinə lazım olacaq təcrübə məktəbi idi. Şirməmməd müəllimin o vaxt bizi Azərbaycanın müstəqillik dövrünə hazırladığını xeyli sonralar başa düşdük.

"KƏLƏK"

Qəbul imtahanı vaxtı Şirməmməd müəllim mənə necə "vurulmuşdusa", seminarlarda heç vaxt məndən dərs soruşmurdu. Bir gün semestrin axırına yaxın onun sabahkı seminarına hazırlaşanda kirayədə qaldığım evin işığı söndü və ilk dəfə onun dərsinə hazırlıqsız getdim. Bir az da arxayınçılığım vardı ki, onsuz da məndən soruşmayacaq. Zəngə 2-3 dəqiqə qalmış üzümə baxıb dedi: "Sən heç mənə dərs danışmamısan. Gəl görum". Özümü o yerə qoymayıb yazı taxtasının yanına getdim və aram-aram danışmağa başladım: "Lenin yoldaşın gözəl bir kəlamı var. Deyir, tarix nədən başlanırsa, fikirlərin gərdişi də oradan başlanmalıdır. Hər hansı bir hadisəyə qiymət verərkən həmin hadisanin baş verdiyi tarixi şəraiti araşdırmaq lazımdır. Mən də "Pravda" qəzetinin yarandığı tarixi şəraitdən danışmaq istəyirəm..."

Bu yerdə Şirməmməd müəllim üzünü tələbə yoldaşlarıma tutub dedi: "Baxın, öyrənin, dərsi belə danışarlar. Halal olsun..."

Elə bu vaxt zəng vuruldu və biz tənəffüsə çıxdıq (Bu "sirri" birinci dəfədir açıram).

"SƏNİN BABAN ŞAUMYANDIR, YOXSA ƏMİRYAN?"

1918-20-ci illərin bolşevik mətbuatından danışanda tələbələrdən biri yana-yana dedi: "Heyif ki, 1918-ci ildə bizim babalarımızı - 26 Bakı komissarını ingilislər güllələyiblər".

Şirməmməd müəllim dözə bilməyib cavab verdi: "Şəxsən mənim elə babalarım olmayıb. Bəs səninki hansıdır - Şaumyan, yoxsa Əmiryan?"

"BURJUA CƏMİYYƏTİNDƏ JURNALİSTLƏR TƏQİB OLUNUR"

IV kursda Şirməmməd müəllim bizə "Xarici olkələrin kommunist və fəhlə mətbuatı tarixi"ni tədris edib. Özü də necə? Məsələn, Vyetnam mətbuatından danışanda deyirdi ki, Vyetnam vətənpərvərləri yadelli işğalçılara qarşı mübarizə aparanda qarınlarını cırıb qumbaranı oraya yerləşdirirlər ki, əsir düşəndə də yağılara ziyan vura bilsinlər. Sonra astadan əlavə edərdi: "Vətənin müstəqilliyini belə qoruyarlar, bizim kimi yox".

Xarici mətbuat dərslərində "Deyli yorker", "Morninq star", "Humanite" kimi kommunist qəzetlərinin çıxma tarixini göstərəndən sonra daha çox "burjua" qəzetlərindən danışar, oradakı müəlliflərin yazılarını vətənpərvərlik baxımından təhlil edərdi. Məsələn, İspaniya mətbuatından danışanda özü ilə Mariano Xose de Larranın "Satirik oçerklər" kitabını gətirmişdi. Mən həmin kitabdakı oçerkləri tələbələr qarşısında oxuyub ruscadan birbaşa tərcümə edirdim. Yadımdadır: bir dəfə Larranın "Sən saydığını say, gör fələk nə sayır, yaxud jurnalist olmaq nə deməkdir?" oçerkini oxuyanda Şirməmməd müəllim gördü ki, tələbələrdən biri (Onun haraya xidmət etdiyini bəzilərimiz bilirdik) çox narahatdır və qarşısındakı kağıza nəsə

yazır. Dərhal mənim sözümü kəsib dedi: "Görürsuz, dəə, uşaqlar, burjua cəmiyyətində jurnalistləri necə təqib edirlər".

Sonralar mən həmin oçerkin tərcüməsini "Müxbir" jurnalında dərc etdirmək istəyəndə Qlavlit (senzura) icazə vermədi. Redaktor Oqtay Cəfərov, Şirməmməd müəllim və mən məsləhətləşib ona bir ön söz yazdıq. Məzmunu təxminən belə idi ki, əziz oxucular, biz sovet jurnalistləri çox xoşbəxtik, kapitalist ölkələrində isə onların heç bir azadlığı yoxdur. Bundan sonra tərcümə növbəti nömrədə dərc edildi və çox böyük əks-səda doğurdu...

"Xarici mətbuat" dərslərində Şirməmməd müəllimin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də Azərbaycan mətbuatının beynəlxalq əlaqələri idi. Əcnəbi müəlliflərin Azərbaycan mətbuatında dərc olunmuş yazılarını və xarici mətbuatda respublikamız haqqında çıxmış məqalələri özü ilə gətirib bizə oxudardı. O vaxtdan məndə bu sahəyə böyük həvəs yarandı və xarici publisistikada Azərbaycan mövzusuna dair əvvəl diplom işi, sonra isə namizədlik dissertasiyası yazdım.

QƏBUL İMTAHANINDAN 9 İL SONRA

1971-ci ildə fakültəni bitirib Azərbaycan televiziyasına təyinat aldım (yenə də Şirməmməd müəllimin köməyi ilə). Fikirləşirdim ki, yəqin Şirməmməd müəllim məni unudub (o vaxt jurnalistika şöbəsi fakültəyə çevrilmişdi və Şirməmməd müəllim dekan idi). 1975-ci ilin dekabrında şəxsən özü zəng vurub məni fakültəyə işə dəvət etdi. Və beləliklə, 1966-cı ilin avqustunda dediyi ("Bu, gələcəkdə fakültənin müəllimi olacaq") sözə əməl etdi.

Hazırda jurnalistika fakültəsində işləyən professor, dosent və müəllimlərin əksəriyyətini müxtəlif vaxtlarda məhz Şirməmməd müəllim seçib gətirib. Ona görə də...

SÖZARDINA SÖZARDI

Ona görə də, BDU-nun jurnalistika fakültəsi bəlkə də yeganə yerdir ki, heç bir müəllim heç bir tələbə qarşısında gözükölgəli deyil. Bunu məzunlar da təsdiq edə bilər, bugünkü tələbələr də. Və bu halallıq ənənəsinin müəllifi məhz uzun illər fakültədə müxtəlif rəhbər vəzifələrdə işləmiş professor ŞİRMƏMMƏD HÜSEYNOVdur. 70-ci illərin əvvəllərində fəlsəfə müəllimlərindən birinin qiyabiçi tələbədən pul alması barədə Şirməmməd müəllimə siqnal çatır və həmin müəllim dərhal həbs olunur.

Bu gün jurnalistika fakültəsinin müəllimləri ağır iqtisadi durum qarşısında əyilməmək, sınmamaq üçün öz əsas iş yerləri ilə yanaşı, ya bir neçə özəl universitetdə də dərs deyir, ya da müxtəlif informasiya vasitələrində çalışaraq başlarını əvvəlki kimi yenə də dik tuturlar. Buna görə də harada işləmələrindən asılı olmayaraq, fakültə məzunları öz müəllimlərinə halallıq nümunəsi kimi baxır, həmişə onların yolunu saxlayırlar. Və bütün bunlar Şirməmməd müəllimin böyük xidməti kimi qiymətləndirilməlidir.

ŞİRMƏMMƏD MÜƏLLİMİN DEYİMLƏRİNDƏN

Biz tələbə olanda Şirməmməd muəllim deyərdi: "Zəif oxuyan yoldaşınızla munasibətləri korlamayın. Onlar gələcəkdə rəhbər vəzifələrdə çalışacaqlar".

Bir dəfə Baksovetdə işləyən rəhbərlərdən biri Şirməmməd müəllimdən soruşur: "Niyə evlənmirsiniz?"

Şirməmməd müəllim cavab verir ki: "Evlənmək sözü iki hissədən ibarətdir: "ev" və "lənmək". Siz EV verin, mən də lənim".

P.S.Rəşad Məcid düz deyir: Şirməmməd müəllim haqqında yazmaq çox çətindir. Mən də ayrı şey yazmaq istəyirdim, sonra ayrı şey alındı. İnşallah, 80 yaşı tamam olanda borçumu qaytaracam.

Nəsir ƏHMƏDLİ,
BDU-nun jurnalistika fakültəsinin dosenti

"Müxalifət" qəzeti, 29 dekabr, 1999

HAMININ MÜƏLLİMİ - ŞİRMƏMMƏD HÜSEYNOV!

...Dünən "Nübar" şadlıq evində Azərbaycanın milli ruhuna sayğılı qonaqların hamısı istəkli Şirməmməd Hüseynovun 75 illik yubileyini təbrikə gəlmişdilər. Böyük öndər Məmməd Əmin Rəsulzadənin məhz ad günündə - yanvarın 31-də Azərbaycan sevgili Şirməmməd müəllimin ad gününün qeyd olunması təsadüfi deyildi. Geniş şərhə ehtiyac yoxdur ki, Şirməmməd müəllim Məmməd Əmin Rəsulzadə irsinin böyük tədqiqatçısıdır və ömrünün bəlkə də hamısını Azərbaycanda milli şüurun oyanışına həsr edib.

... Həyatda zahiri görkəminə və əməlinə görə hərəni kiməsə oxşadırlar. Kimini dayısına, kimini atasına, kimini əmisinə yaxud müəlliminə. Şirməmməd Hüseynov bəlkə də yeganə şəxsiyyətdir ki, məhz özünə oxşayır. Yəni, elə özüdür ki, var. Nə qədər çalışırıq Şirməmməd müəllimin kiməsə oxşarlığını tapaq, mümkünsüz olur.

Həyatda yalnız özü olan Şirməmməd müəllimin yubileyinə toplaşanlar sırasında xalq şairi Bəxtiyar Vahabzadə, Müsavat başqanı İsa Qəmbər, professor-şair Famil Mehdi, şair Məmməd İsmayıl, şair Akif Səməd, Məmməd Əmin Rəsulzadə irsinin inadkar tədqiqatçısı Nəsiman Yaqublu, yubilyarın istəkliləri - Teyyub Qurban, İlham İsmayıl, Vurğun Əyyub, Arıf Hacıyev və başqaları vardı...

Böyük insan Şirməmməd Hüseynovun 75 illik yubileyini təbrik edənlər də bu gözəl kişinin adına və özünə layiq təmkinlə, sadəliklə söz deyirdilər.

Bir il əvvəl daha bir məşhur 75 illik yubiley yola salmışıq. AzTV-nin, qaçqınların, köçkünlərin dilindən düşməyən o yubileydən fərqli, Şirməmməd Hüseynovun bu 75 illik yubileyində "dünyaşöhrətli," "müdrik", "dahi" sözləri eşidilmədi. Hamı, sadəcə, MÜƏLLİM - deyə müraciət etdi...

Biz də Şirməmməd müəllimi təbrik edir, ona Tanrıdan uzun ömür, titrəməyən qələm və cansağlığı diləyirik.

Tanrı qorusun! - deyirik Şirməmməd müəllimə!

İstəklərlə
"Təzadlar"ın kollektivi

4, 1-8.II.2000

PROFESSORUN YUBİLEYİ M.Ə.RƏSULZADƏNİN İLDÖNÜMÜNƏ TƏSADÜF ETDİ

Mətbuatımızın ağsaqqalı Şirməmməd Hüseynovun 75 illik yubileyi Məmməd Əmin Rəsulzadənin 116-cı doğum günündə qeyd olundu.

Çağdaş Azərbaycan jurnalistikasının ağsaqqalı, M.Ə.Rəsulzadə irsinin yorulmaz tədqiqatçısı, professor Şirməmməd Hüseynov özünün 75 illik yubileyini rəmzi olaraq, dahi öndərin 116-cı ildönümü ilə eyni gündə qeyd etməyi qərara aldığından, ölkənin bir çox tanınmış siyasət, ədəbiyyat və mədəniyyət adamları dünən 6-cı mikrorayondakı "Nübar" sadlıq sarayında Rəsulzadə xatirəsinin işığına, Şirməmməd müəllimin dövrəsinə yığışmışdılar.

Məclisdə ilk sözü söyləyən Müsavat başqanı **İsa Qəmbər** M.Ə.Rəsulzadənin millətimizin taleyindəki rolundan, tariximizdəki xüsusi mövqeyindən danışaraq, Ş.Hüseynovun ön dərin irsinin araşdırılması yolunda göstərdiyi fədakarlığı yüksək qiymətləndirdi. İ.Qəmbər M.Ə.Rəsulzadənin ildönümünü keçirməyə daha çox Ş.Hüseynovun, həmçinin Müsavat Partiyasının haqqı çatdığını ayrıca vurğuladı.

M.Ə.Rəsulzadənin tariximizdəki şərəfli mövqeyi barədə, onun siyasi və ictimai fəaliyyəti, ilk müstəqil cümhuriyyətimiz haqqında ilkin məlumatları Ş.Hüseynovdan eşitdiyini deyən şair **Famil Mehdi** öz dünyagörüşünün, milli duyğularının formalaşmasındakı roluna, əməyinə görə mətbuatımızın ağsaqqalına dərin minnətdarlığını dilə gətirdi.

Şair **Məmməd İsmayıl** ilk müstəqil, demokratik dövlətimizin qurucusu olan böyük öndərin işıqlı ideyalarının, müsavatçılıq ənənələrinin yaşadılmasında Ş.Hüseynovun, həmçinin

Müsavat başqanı İ.Qəmbərin zəhmətini yüksək dəyərləndirdi. M.İsmayılın millətsevərlik, azadlıq ruhu ilə yazılan "**Türkün sevgisi**" şeirini şairin öz dilindən eşitmək məclis iştirakçılarında dərin təəssürat oyatdı.

Məclisə bir qədər gec qatılan xalq şairi **Bəxtiyar Vahabzadə "50 illik dostunun indi artıq bütün millətin, türk dünyasının dostuna çevrilməsindən"** duyduğu fərəhi dilə gətirdi. B.Vahabzadə, Ş.Hüseynova qələmini bundan sonra da yorulmadan işlətməyi, xalq, millət eşqinə yazıb-yaratmağı arzuladı.

Hərbi vətənpərvərlik ruhlu mahnı və marşların tanınmış ifaçısı **Şəmistan Əlizamanlının** əzəmətli səslə oxuduğu "Yol ver türkün bayrağına" nidalı bəstədən sonra yazıçı **Sabir Azəri** söz aldı. Özünün sənət və əqidə müəllimləri kimi məclisdəki iki ağsaqqal ziyalıya - Ş.Hüseynov və B.Vahabzadəyə üz tutan S.Azəri keçdiyi həyat yoluna görə bu gün hər iki müəlliminin qarşısında utanmadan, alnıaçıq dayana bilməsindən duyduğu fərəhi, qürur hissini təsirli sözlərlə ifadə etdi. Mərasimin rəmzi səbəbkarı **Ş.Hüseynov** böyük öndərin əsərlərinə öz səhifələrində müntəzəm yer verən "525"-ə öz təşəkkürünü bildirdi: **"Bugünkü məclis həm də "525"çilərindir, bu təntənənin mühüm bir hissəsi də onların payına düşür".**

Məclis iştirakçılarının sırasında Müsavat Partiyasının baş katibi Vurğun Əyyub, partiyanın katibləri – Mehman Cavadoğlu, Arif Hacıyev, görkəmli şairlər – Ramiz Rövşən, Rüstəm Behrudi, tanınmış söz adamlarından Akif Səməd, Teyyub Qurban, Nəsir Əhmədli, Nəsiman Yaqublu və bir sıra başqa ziyalılar, mətbu orqanların rəhbərləri də vardı.

SEYFƏDDİN

"525-ci qəzet",
1 fevral 2000-ci il

MƏTBUATA XƏRCLƏNƏN ÖMÜR

Məmməd Əmin Rəsulzadənin adını daşıyan Bakı Dövlət Universitetinin bir əsrə yaxın yaşı – 80 illiyi münasibətilə bu böyük təhsil ocağının müəllimləri elm və təhsil sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası prezidenti tərəfindən fəxri adlarla təltif edildi.

Elm, pedaqogika, yaradıcılıq sahələrində saçını ağartmış, ömrünü xərcləmiş, cəmiyyətə yüzlərlə ali təhsilli mütəxəssis vermiş universitet müəllimlərindən bir çoxu çəkdikləri zəhmətin qiymətini gördülər: 17 nəfər **"Şöhrət" ordeni,** 18 nəfər **"Tərəqqi"** medalı, 13 nəfər **"Əməkdar elm xadimi"**, 21 nəfər **"Əməkdar müəllim"** adını qazandı. Amma danılmaz bir fakt, acı bir həqiqət də var ki, 4-cü hakimiyyət adlanan mətbuat və kütləvi informasiya vasitələrinin özülü olan BDU-nun jurnalistika fakültəsi ad sarıdan kasadlığa düşdü. Görünür, bu, güzgü rolunu oynayıb cəmiyyətin hər üzünü əks etdirən qələm sahiblərinin öz zamanında həmişə birmənalı qarşılanmamasından irəli gəlib.

Bu təltiflər sırasında jurnalistika fakültəsinin dekanı Yalçın Əlizadə ilə yanaşı, həyat illərini elmin mürəkkəbinə batırıb cildlər qalaqlamış, bu yaradıcı elmin məziyyətlərini arayıb yeni nəsillərə ötürmüş bir çox müəllimlərin də adını görmək istərdim...

Məsələn, professor Şirməmməd Hüseynovu. O, Azərbaycan təhsil sisteminin mənəvi mərkəzi hesab edilən BDU-da 1954-cü ildən çalışır. Ş.Hüseynov jurnalistika ixtisası üzrə Moskvada elmi yaradıcı iş müdafiə etmiş ilk azərbaycanlıdır. 75 yaşlı Ş.Hüseynovun fəaliyyəti elmi, pedaqoji, yaradıcı, ictimai olmaqla bir neçə şaxəyə ayrılır. Jurnalistikanın bir elm kimi formalaşmasında Şirməmməd müəllimin xidməti daha böyükdür. Mətbuat tariximizin müxtəlif dövrlərinə aid məzmunlu mülahizələri, müəlliflərindən biri olduğu ikicildlik "Jurnalistika məsələləri" kitabı yüzlərlə tələbənin dərs vəsaitinə çevrilib.

Hələ imperiya dövründə belə Ş.Hüseynov özünü demokratik, cəsarətli, aydın və müstəqil fikirləri ilə seçilmiş bir insan kimi o dövrkü rəhbərlik tərəfindən dəfələrlə təqibə məruz qalıb. Lakin o, Azərbaycanın müstəqilliyi yolunda ön xətdə duraraq ardıcıl və cəsarətli mübarizəsindən çəkinməyib.

Azərbaycan mətbuatı tarixində Şirməmməd Hüseynovun ən böyük xidməti M.Ə.Rəsulzadə irsini təmənnasız olaraq ədəbi nəşrini tərtib etməkdir. Birinci cildin çapından az sonra üzərində işlədiyi 2-ci cildin materiallarını hal-hazırda mətbuat səhifələrində müntəzəm dərc etdirir. Yaxın həmkarlarından birinin dediyinə görə, Şirməmməd müəllim M.Ə.Rəsulzadənin mətnlərinin dəqiq, səhvsiz işlənməsi üçün şəxsi xahişi ilə şərqşünas, tarixçi, filoloq alimlərin köməyindən istifadə edir. Bir əlində böyüdücü şüşə (lupa), bir əlində lüğət arxivlərdə kitabların toztorpağının içində heç kimdən təmənna ummadan ömrünü fəda etməsi bütün Azərbaycanda Ş.Hüseynovun birinci dərəcəli əsl tədqiqatçı-jurnalist olduğunu sübut edir.

Əgər 80 illiyini təntənə ilə qeyd etdiyimiz BDU-nun adını daşıyan M.Ə.Rəsulzadə irsinin əsas araşdırıcısı, müstəqil cümhuriyyətimiz haqqında ilkin məlumatların tədqiqatçısı kimi bir böyük insana öz qiyməti verilmirsə, dövlətin digərlərinə "payladığı" adlar şübhə altına düşür.

Sevda SABİRQIZI

"Təzadlar" qəzeti,
22-29.02.2000

QURTAR

Müəllimim, məslək və əqidə dostum professor Şirməmməd Hüseynova

Tanrım, qurtar bizi, bu dərddən qurtar,
Dərdə dərd calayan namərddən qurtar.
Qurtar quzuları qurdun əlindən,
Qurtar doğmaları yadın əlindən,
Qurtar zəmiləri odun əlindən,
Qoyma şahmar ilan çala ceyranı,
Namərd körpüsündən keçəni qurtar.
Aslan pəncəsindən bala ceyranı,
Quzğun caynağından cücəni qurtar.
Qurtar ki, qəssablar cərrahlaşmasın,
Cərrahlar çaşmasın, cəlladlaşmasın.
Bu dünya şahiddir əzəldən bəri,
Dəryalar söndürmür ürək bişəndə.
Başlayır zamanın qara günləri,
Adilər seçilib dahiləşəndə,
Dahilər kiçilib adiləşəndə.
İblis meydan açır mələk donunda
Qış yazı bəyənmir, yer göyü saymır.
Dil ağızda yatmır, qılınc qınında,
Dar gözün, kor gözün gözləri doymur.
Nə sirr yox bir ömrün macərasında.
Hara ayaq bassa, orda dərd bitir,
Zalımçün cinayət məcəlləsində
Yalnız bir maddə var - əlli yeddidir.
Qurtar insanları belələrindən,
Qurtar öz nəfsinin kölələrindən.

Daş yağdır göylərdən qafatasına,
Əlilə açdığı bazar dağılmır.
Oğul gələ bilmir ata yasına,
Qızın göz yaşları məzara yağmır.
Pələng də əriyər dar bir qəfəsdə,
Yarsan ürəyində qoşa dağ olar.
Qılınclar altında, mərmilər üstdə,
Nə qədər, nə qədər yaşamaq olar?!
Yox özgə güvəncim, arxam, dayağım,
Şəhər - dilim-dilim, kənd - bölük-bölük.
Yüz yerə, min yerə bölünən xalqın,
Qorxusu içində özündən böyük.
Tanrım, qurtar bizi, bu dərddən qurtar,
Dərdə dərd calayan namərddən qurtar.
Sənsən, yeri-göyü sənsən yaradan,
Qoru bəxtimizi, taleyimizi.
Bizi qurtarmasan sən bu bəladan,
Yeyib qurtararıq bir-birimizi.

2000-2001

Famil MEHDİ

"Yeni Müsavat" qəzeti,
17 fevral 2002, №95

"SAĞLAM QÜVVƏLƏR TÜRKİYƏNİ DARDA QOYMAYACAQ".

ŞİRMƏMMƏD HÜSEYNOV ƏMİNDİR

Fransa Senatının "erməni soyqırımı" haqqında saxta sənədi qəbul etməsi hələ uzun müddətli və bəlkə də heç vaxt səngiməyəcək mövzu olaraq qalacaq. Avropanın Türkiyəyə qarşı açıq düşmənçiliyi göz önündədi. Avropa Türkiyənin Avropaya yolunu əngəlləmək istəyir. Bunun üçün də hər cür çirkli vasitədən istifadəyə çalışır. Avropa Birliyinə üz tutmuş Türkiyənin ilkin reaksiyası artıq məlumdur. Sonra nə olacaq?

Professor Şirməmməd Hüseynovu söhbətə çəkdik.

Türkiyənin yaxın 10-15 ildə dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsinə qalxmasını qarşısına məqsəd qoyduğunu deyən Şirməmməd Hüseynov qeyd etdi ki, Türkiyə Avropa Birliyinə daxil olmaq istəyir. Bunun üçün də Avropada öz mövqelərini möhkəmləndirir. Avropa isə buna qarşı tədbir görməyə başlayıb. Hələ bir müddət əvvəl Almaniya Xristian Demokrat Partiyasının keçmiş lideri Helmut Kol partiyanın qurultayında çoxlarının deməyə cürət etmədiyi, amma ürəyindən keçirdiklərini dilinə gətirmişdi: "Avropa Birliyi xristian ölkələri birliyidi. Müsəlman ölkəsi olan Türkiyəni ora qəbul etmək olmaz". Şirməmməd Hüseynovun fikrincə, o vaxt bundan bir qədər çəkinənlər, Türkiyəni Avropa Birliyindən təcrid etməyin başqa yollarını aradılar. Bu yollardan biri kimi qondarma "erməni soyqırımı"nın qəbul edilməsini seçdilər. İndi də çalışırlar ki, Türkiyə bunu boynuna alsın. Türkiyə də bunu heç vaxt boynuna almayacaq. Çünki belə soyqırım olmayıb. Bu bir strateji oyundu. Bunu təkcə ermənilərin qələbəsi kimi düşünmək də səhvdi. "Çingiz Aytmatov deyirdi ki, dünyada kapitalizm, sosializm qarşıdurması bitib. XXI əsr mədəniyyətlərin qarşıdurması əsri olacaq. Yəni xristian, islam, buddizm mədəniyyətlərinin", - deyən

professordan Türkiyənin hansı addımları atmalı olduğunu da soruşduq. Cavabı bu oldu ki, bizim səhvimiz hadisə olandan sonra haray salmağımızdadı. 52 dövləti özündə birləşdirən İslam Ölkələri Təşkilatı yığışıb birdəfəlik demir ki, belə qətliam olmayıb. Bunun da səbəbini professor, iqtisadi gücün Avropada olmasında görür. Çünki bütün islam aləmində Qərbin dolları, funtsterlinqi, markası hakimdi. Avropa islam ölkələrini bir-birindən ayırır, vuruşdurur. Buna görədir ki, Fələstin məsələsi 50 ildir həll olunmur. ABŞ hər il Misirə 3 milyard dollara yaxın vəsait ayırır. Müqabilində Misir, sözdə Fələstinə arxa durur, amma bir iş görmür. Qərb 7 dəfə İslam dünyasına səlib yürüşü edib. Bunun qarşısını türklər kəsib. Türklərə nifrət Qərbdə dərin köklüdü. Bu tarixdən gəlir və onların qan yaddaşındadı. Türkiyə hökumətinin atacağı addımlara gəlincə, professor qeyd etdi ki, təbiətdə güclülük qanunu var. Kim güclüdürsə, özündən zəif olanı sıxışdırır, tabe edir. Elə-belə bəyanatlar verməyin, partiyaları bir yerə toplamağın bir xeyri olmayacaq. Əgər biz yaxın 10 ildə olanı heç kəsə sübut edə bilmiriksə, 1915-ci ildə olanı necə isbat edəcəyik? Bunu isbat üçün güclü dövlət lazımdı. Şirməmməd Hüseynov sonda Çernışevskidən bir misal da çəkdi; tarixin inkişaf yolu Nevski prospektinin səkisi deyil. Türklər min illiyin məfkurə tərzindən, fanatizmindən silkələnirlər və çətinliklə müasir bəşəri inkişafla ayaqlaşmağa çalışırlar. Təbii ki, bu yolda da maneələr olacaq. Nəinki kənardan, elə Türkiyənin öz içində də. "Bir şey də var ki, müasirləşmək üçün ilk əvvəl gərək özünə qayıdasan. Öz milli varlığını isbat edəsən ki, o kökdə müasirləşəsən. Yoxsa, Avropanı, Amerikanı təqlid etmək müasirləşmək deyil", - söyləyən Şirməmməd Hüseynov əmin olduğunu bildirdi ki, sağlam qüvvələr Türkiyəni darda qoymayacaq.

Məlahət RZAYEVA

"Şərq" qəzeti,
25 yanvar 2001-ci il

AXCP ŞİRMƏMMƏD HÜSEYNOVA "TƏŞƏKKÜRNAMƏ" TƏQDİM ETDİ

M.Ə.Rəsulzadənin əsərlərinin toplanmasında və nəşrində əvəzsiz xidmətlərinə görə

Məmməd Əmin Rəsulzadənin 120 illik yubileyi ilə bağlı dünən AXCP-nin keçirdiyi böyük toplantıda professor Şirməmməd Hüseynova partiyanın xüsusi "Təşəkkürnamə"si təqdim olunub. Partiyada yubiley komissiyasının sədri Cəmil Həsənli Ş.Hüseynovu "Böyük millət mücahidi" kimi dəyərləndirib. O, qeyd edib ki, Ş.Hüseynov Rəsulzadə irsini araşdırmaqla, onun yazılarını hazırlayıb iki cilddə çap etdirməklə elə bir iş görüb ki, Rəsulzadə nə zaman yad olunacaqsa, ən böyük mənbə kimi hər zaman o əsərlərə müraciət ediləcək. AXCP sədri, millət vəkili Əli Kərimli isə qeyd edib ki, müasir dövrümüzdə M.Ə.Rəsulzadə irsinin öyrənilməsi və təbliği üçün zəhmət çəkən çoxlu alimlərimiz olsa da, Şirməmməd müəllimin bu sahədəki fəaliyyətinin xüsusi seçilməsi ilə hamı razılaşar. Sonra Ə.Kərimli "Təşəkkürnamə"nin mətnini oxuyub və onu AXCP adından Ş.Hüseynova təqdim edib: "Azərbaycan milli istiqlal hərəkatının lideri, müstəqil Azərbaycan Respublikasının qurucusu, böyük siyasi xadim Məmməd Əmin Rəsulzadənin əsərlərinin toplanmasında, nəşrində və təbliğində dəyərli xidmətlərinə görə professor Şirməmməd Hüseynova təşəkkür edilsin".

AQİL

"Azadlıq", 31 yanvar 2004

"ONUN ƏSƏRLƏRİNİ OXUYANDA SEHRLİ ALƏMƏ DÜŞÜRƏM"

Məmməd Əmin Rəsulzadə irsinin ən fəal araşdırıcısı, professor Şirməmməd Hüseynov böyük öndərin əsərlərini tədqiq edən zaman özünü sehrli, təmiz bir aləmdə hiss etdiyini söylədi: "Mən fəxr edirəm ki, millətimin belə bir övladı olub. 26 yaşında o, Tehrana gedib, orada Avropa tipli gündəlik qəzet buraxıb". Tanınmış tədqiqatçı Rəsulzadənin "Tərəqqi" qəzetində çap etdirdiyi və bugünümüzlə səsləşən "Vəsiyyətnamə" adlı bir məqaləsini toplantı iştirakçılarına oxudu: "Rəsulzadə yazırdı ki, "yüksək vəzifəyə layiq görmədiyiniz şəxsi, özünüzü, həm də başqalarını aldadıb, böyük tarixi şəxsiyyət fərz etməyin. ...Əgər təzə təşkil edəcəyiniz məmləkətin əsasları köhnədirsə, labüd olaraq inqilabdan keçərək bir milli hökumət təşkil edin. ...İdarəyə və Milli Məclisə elə adamları seçin ki, onun özünün müstəqil fikri olsun, vicdanla rəy versin. Gözləməsin ki, filankəs nə rəy verəcək, mən də ona baxıb rəy verim. ...Əgər, Allah eləməmiş, çətinliyə düşüb jurnalist olsanız, ən azı sərxoş halda heç bir şey yazmayın" (Sözügedən məqalə qəzetimizin növbəti sayında bütövlükdə çap olunacaq - red.).

Ş.Hüseynov tədbirdə çoxları üçün maraqlı sayılacaq faktları da açıqladı: "1918-ci ildə Azərbaycanda cəmisi 62 nəfər ali təhsilli şəxs olub. Onların siyahısı da məlumdur. Bu şəxslərdən 13 nəfəri bolşevik idi. Demək, 49 nəfər ziyalı Azərbaycanın müstəqil dövlətini yaradıb. Dövlət sərhədimizi müəyyən edib, himnimizi, bayrağımızı bizə bəxş ediblər. Bu böyük irsə sahib çıxmalıyıq".

"Azadlıq" qəzeti,
31 yanvar, 2004-cü il

JURNALİSTİKAYA HƏSR EDİLMİŞ ÖMÜR

Azərbaycan jurnalistikasının, jurnalist tədqiqatçılığının tarixən bəxti bir də onda gətirib ki, Şəki ikiillik müəllimlər institutunun fizika-riyaziyyat fakültəsini bitirib indiki Bakı Dövlət Universitetinin şərqşünaslıq şöbəsinə sənəd verən, lakin yaşına uyğun gəlməyən güclü mühakimələri və məntiqi ilə komissiya üzvlərini heyran qoyaraq hüquq fakültəsində oxumaq təklifi alan və həmin təklifi rədd edən Şirməmməd Hüseynov növbəti təklifə - "Şəki fəhləsi" qəzetində işləməsi nəzərə alınaraq jurnalistika şöbəsində oxumaq təklifi ilə razılaşıb.

Bu, 1945-ci ildə olmuşdu. Onda Şirməmməd müəllimin 21 yaşı vardı, jurnalistika şöbəsinə isə ilk tələbə qəbulu idi. Tədris prosesinə, xüsusilə ixtisas fənlərindən tədrisə praktiklər cəlb olunmuşdu. Bunlar güclü jurnalistlər idi. Jurnalistika kafedrasının müdiri Həsən Şahgəldiyev, Nəsir İmanquliyev, İsrafil Nəzərov, Qılman İlkin, Cümşüd Əzimov, Şirməmməd müəllim, professor Mikayıl Rəfili, Məmməd Arif, Feyzulla Qasımzadə, Məmməd Cəfər, Məmməd Qaziyev kimi alimlərin də mühazirələrini dinləmişdi.

Jurnalistika şöbəsinin ilk buraxılışı 1950-ci ildə oldu. Şirməmməd müəllim məzun oldu. Onun jurnalistikadan ayrılmayacağı bəlli idi. Lakin o, bu əsrarəngiz aləmə başqa mövqedən gəlməyi qərara almışdı. Deyildiyi kimi, ixtisas müəllimləri yüksək səviyyəli peşəkarlar idi. Ancaq Şirməmməd müəllim özünəməxsus fəhmlə hiss edirdi ki, müəllimdə praktik yaradıcılıq nə qədər güclü olsa da, bu elmi zəminə, elmi bünövrəyə söykənməsə, davamlı və perspektivli ola bilməz, olsa da səmərəsi kifayət etməz.

Həmin il Şirməmməd Hüseynov bu qayə ilə Lomonosov adına Moskva Dövlət Universiteti jurnalistika fakültəsinin aspiranturasına qəbul olundu. Apardığı araşdırmalar 1954-cü ildə "1917-1918-ci illərdə Azərbaycan mətbuatı" mövzusunda namizədlik dissertasiyasının uğurla müdafiəsi ilə nəticələndi.

Azərbaycanda ali jurnalistika təhsilinin formalaşmasına və inkişafına Şirməmməd müəllim ilk töhfəni məhz bu dissertasiya ilə gətirdi və jurnalistika sahəsində ilk elmlər namizədi oldu.

Sonralar bu yolu Nüsrət Bağırov, Seyfulla Əliyev, Nurəddin Babayev, Salman Qarayev davam etdirdilər. Filologiya fakültəsi nəzdindəki jurnalistika şöbəsinin elmi-pedaqoji potensialı bu minvalla genişlənməyə və güclənməyə başladı.

Şirməmməd müəllim Moskva Dövlət Universitetinin təhsil abhavasını Bakıya gətirdi. Bir sıra ixtisas fənlərinin, xüsusilə də "Xarici ölkələrin jurnalistika tarixi" fənninin tədrisində əyanilik, predmetə bələdlilik baxımından ona yeni yanaşma üslubu bu fənni Şirməmməd müəllimin adı ilə bağladı.

Şirməmməd müəllim öz pedaqoji fəaliyyəti ilə ali jurnalistika təhsilinə ciddiyyət, prinsipiallıq gətirdi. "Oxumaq, oxumaq, oxumaq" deyimini "düşünmək, düşünmək, düşünmək" deyimi ilə tədricən tələbələrinə təlqin etməyə başladı.

Şirməmməd Hüseynov həmişə zamanı qabaqlayan, yeniliyi duyan və onunla ayaqlaşan, ehkamçılığı qəbul etməyən alim-pedaqoq kimi formalaşırdı. Ötən əsrin 50-ci illərinin sonu, 60-cı illərin əvvəllərində artıq onun öz ürəyindən olan tələbə-məzun korpusu yaranırdı. Famil Mehdiyev, Tofiq Hacıyev, Tofiq Rüstəmov, Şamil Şahməmmədov, Nəriman Zeynalov, Əliş Nəbili, Ceyran Əbdürrəhimova, Şamil Qurbanov, Osman Mirzəyev,

Mailə Muradxanlı, Yusif Kərimov, Şamil Fərzəliyev və onlarla başqaları Şirməmməd Hüseynovu həyat müəllimi adlandırırdılar.

Sonralar onların bir çoxu Şirməmməd müəllimin layiqli seçimi və qayğısı ilə görkəmli jurnalistika nəzəriyyəçilərinə çevrildilər. Professor yev Azərbaycanda jurnalistika sahəsində ilk elmlər doktoru oldu. Professor Tofiq Rüstəmov, professor Ceyran Əbdürrəhimova, professor Şamil Qurbanov, dosentlər Nəriman Zeynalov, Əliş Nəbili məhz Şirməmməd müəllimin xeyir-duası ilə həyatlarını birdəfəlik jurnalistika fakültəsi ilə, peşəkar jurnalist kadrlarının yetişdirilməsi prosesi ilə bağladılar.

Şirməmməd müəllimin kadr seçimlərində zərgər dəqiqliyi mövcuddur və bu seçimlərdə o heç vaxt yanılmır. Onun tələbəsi, sonralar mətbuat tariximizin gözəl araşdırıcılarından biri kimi tanınan mərhum professor Şamil Qurbanov "Müəllimlər" adlı kitabında Şirməmməd Hüseynova həsr etdiyi "Mətbuat tarixinin çətin yollarında" adlı məqaləsində taleyinin Bakı Dövlət Universiteti ilə bağlanmasını belə təsvir edir: "Bir gün dosent Seyfulla Əliyevlə Şirməmməd müəllim redaksiyaya gəldi.

- Biz istəyirik səni universitetə aparaq. Rəhbərliklə də razılaşmışıq.

Mən belə təklifi gözləmirdim. Dedim:

- Getməyə razı olaram, amma Nəsir İmanquliyevdən ayıbdır. O, heç icazə verməz, üstəlik xasiyyətnamə almalıyam, arayış almalıyam, o, qətiyyən bunlara qol çəkməz.

- Bunları ölçüb-biçmişik. İstəyənlər çoxdur. Ancaq bir səni istəyirik ki, ora səni götürək. Birbaşa dosent yerinə gedirsən. Səndən heç bir sənəd istəməyəcəklər, sadəcə razılığın lazımdır.

Mən universitetə gedəsi oldum. Bu iş üçün əlbəttə Şirməmməd müəllimə minnətdarlığımı bildirirəm".

Artıq kifayət qədər potensialı olan jurnalistika şöbəsi 1969-cu ildə filologiya fakültəsinin nəzdindən ayrılaraq müstəqil fakültəyə çevrildi və bu addımın təşəbbüsçülərindən biri, bəlkə də birincisi Şirməmməd Hüseynov oldu. O, yeni fakültənin ikinci dekanı kimi, fəaliyyət göstərdiyi 1970-76-cı illərdə Azərbaycanda ali jurnalistika təhsilinin yeni istiqamətdə təşkili və onun nüfuzunun artması yolunda xeyli sayda iş gördü.

Həmin dövrdə istər dünya, istərsə də ölkə miqyasında bir sistem kimi kütləvi informasiya vasitələrinin formalaşması prosesi artıq başa çatmış, onların qarşılıqlı əlaqə və təsir mexanizminin tədrisi və tədqiqi yolunda addımlar atılmışdı.

Şirməmməd müəllimin dekan kimi yadda qalan xidmətlərindən biri bu oldu ki, həmin vaxta qədər yalnız bir ixtisaslaşdırma üzərində qurulan jurnalistika təhsilində ixtisasların sayının artırılması məsələsini qaldırdı və istəyinə nail oldu. 1971-ci ildən fakültədə kadr hazırlığı 5 ixtisaslaşma - qəzetçilik, televiziya jurnalistikası, radio jurnalistikası, nəşriyyat işi və tərcümə işi üzrə ixtisas qruplarında aparılmağa başladı. Kütləvi informasiya vasitələri kanallarından hər birinin onların öz spesifikası baxımından tədrisi, tədqiqata cəlb olunması, ən başlıcası isə qəzet, televiziya, radio və nəşriyyat üçün daha hazırlıqlı və peşəkar kadr hazırlığı istiqamətində yeni addımlar atıldı.

Şirməmməd müəllim keçmiş SSRİ məkanında ali jurnalistika təhsili verən universitetlər arasında inteqrasiya prosesinə Bakı Dövlət Universitetinin də cəlb olunmasında önəmli rol oynadı. Moskva və Leninqrad Dövlət Universitetləri, Kiyev, Rostov,

Sverdlovsk, Tbilisi, Minsk, Kişinyov, Daşkənd universitetləri ilə sıx tədris və elmi əlaqələr, yaradıcılıq əlaqələri yarandı. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin jurnalistika üzrə elmi-metodik şurasının 1971-ci ildə Bakıda keçirilən səyyar iclası da xeyli dərəcədə Şirməmməd müəllimin təşəbbüsü ilə baş tutmuşdu. Ölkənin jurnalist kadrları hazırlayan 30-dan çox ali məktəbinin jurnalistika fakültələrinin rəhbərləri Bakı Dövlət Universitetində toplaşmışdır.

Şirməmməd müəllimin dekanlıq fəaliyyətinin daha bir əlamətdar və yadda qalan cəhəti bu oldu ki, 1971-ci ildə fakültədə yeni bir kafedra - mətbuat tarixi kafedrası açıldı. Bu kafedra ilk növbədə "Əkinçi"dən başlayan Azərbaycan milli mətbuat tarixinin öyrənilməsi, tədqiqi sahəsində elmi-metodiki mərkəzə çevrildi. Şirməmməd Hüseynov həm də kafedranın üzvü kimi professor Qulu Xəlilov, dosentlər Nüsrət Bağırov, Seyfulla Əliyev, Nəriman Zeynalov, Əliş Nəbili ilə çiyin-çiyinə milli dildə dərslik və dərs vəsaitləri yaratmaq, ittifaqın jurnalistika ictimaiyyətini, xüsusən araşdırıcılarını Azərbaycan mətbuatı tarixi, onun demokratik ənənələri ilə yaxından tanış etmək missiyasını layiqincə yerinə yetirə bildilər. 1972-75-ci illərdə MDU və "Mısl" nəşriyyatları müəlliflərindən biri də Şirməmməd Hüseynov olan "Многонациональная советская журналистика" monoqrafiyasını nəşr etdi. N.Zeynalovun iki hissədən ibarət "Azərbaycan mətbuatı tarixi", I hissəsi 1966-cı ildə buraxılmış "Jurnalistika məsələləri" kitabının II hissəsi çapdan çıxdı. Azərbaycan Dövlət Universiteti elmi əsərlərinin "Jurnalistika" seriyası Şirməmməd müəllimin baş redaktorluğu ilə mütəmadi çıxmağa başladı.

1975-ci ildə "Jurnalist kadrlarının hazırlanması və onların ixtisasının artırılmasını yaxşılaşdırmaq haqqında" Mərkəzi Komitənin qərarı Şirməmməd müəllimin dekan olduğu jurnalistika fakültəsində də kadr hazırlığında keyfiyyət dəyişikliyinə xidmət edəcək addımların atılmasına gətirib çıxardı. Yaradıcılıq müsabiqəsinin tətbiqi fakültəyə kütləvi axının qarşısını xeyli aldı və onun yaradıcı statusu gücləndi.

Çox təəssüf ki, son 12 ildə bu müsabiqənin dayandırılması arzuolunmaz həmin prosesin yenidən təkrarlanmasına gətirib çıxarmışdır.

Şirməmməd müəllim jurnalistika fakültəsində 5 il mətbuat tarixi kafedrasına rəhbərlik etmişdir. Milli mətbuatımızın rəngarəng palitrasının tədqiqi, öyrənilməsi və təbii ki, tələbə jurnalistlərə aşılanması kafedranın fəaliyyətində aparıcı istiqamətlərdən biri sayılmışdır. Şirməmməd müəllim özü etiraf edirdi ki, əlimə qələm alıb müstəqil yaradıcılığa başladığım andan ən böyük arzum gördüklərimi, düşündüklərimi, həqiqəti yazmaq olub. Mətbuat tariximizi tədqiq edib qüdrətli qələm sahiblərimizin XX əsrin ilk onilliklərində dövri mətbuatda dərc olunmuş yazılarının heyranlıqla oxuduqca bu istək yaşamaq qayəmə çevrildi.

Şirməmməd müəllimin 80 illik ömür yolunun 13 ili müstəqil Azərbaycanın payına düşmüşdür. O, belə fikirləşirdi və yenə də həmin fikirdədir ki, azad Azərbaycanın səviyyəsi demokratik Azərbaycan jurnalistikasından çox asılıdır. Jurnalistikamızın, jurnalist təhsilinin təəssübünü çəkmək, sənətimizi yabançı təsirlərdən qorumaq, milli mənafe və milli dəyərlərimizin keşiyində dayanmaq Şirməmməd Hüseynov publisistikasının aparıcı istiqamətlərindəndir.

Bu gün qəzet bolluğu içərisində bir qəzet yoxsulluğu da var. Bu gün ikinci bir peşə sahəsi tapmaq çətindir ki, oraya jurnalistikaya olan qədər müdaxilə edilsin, Şirməmməd müəllim bununla barışa bilmir. Onun öz sözləridir: "Cahil və nadanın əlinə odlu silah vermək ətraf üçün nə qədər qorxuludursa, siyasi mədəniyyəti, milli qeyrəti, şərəfi olmayan kəmsavadların və qələm dəllallarının əlinə söz silahı, mətbuat orqanı vermək cəmiyyət üçün ondan yüz qat qorxuludur.

...Azərbaycanda demokratik islahatlar və insan hüquqlarının müdafiəsi hərəkatına siyasi naşıları və qələm parazitlərini yaxın qoymaq ən azı tarix və xalq qarşısında məsuliyyətsizlikdir".

Azərbaycanda ali jurnalistika təhsili inkişafının 50 illik bir dövrü professor Şirməmməd Hüseynovun adı və məhsuldar elmi-pedaqoji fəaliyyəti ilə bağlıdır. Bu dövrün yetirmələri olan Bakı Dövlət Universitetinin 3 minə qədər jurnalist diplomlu məzunu Şirməmməd müəllimi öz ustadı bilmiş və yeni gələn jurnalist tələbə nəsli də belə bir ustaddan dərs almaları ilə fəxr edirlər.

Şirməmməd müəllim, bizlərə keçdiyiniz vətəndaşlıq, milli təəssübkeşlik, mənəvi-əxlaqi saflıq, jurnalistikamıza, mətbuat tariximizə dərin ehtiram və məhəbbət dərslərinə görə çox sağ olun.

Y.ƏLİZADƏ,
Bakı Dövlət Universiteti
Jurnalistika fakültəsinin dekanı, dosent
(2004-cü il dekabrın 18-də BDU-da yubiley mərasimindəki çıxışı)

BİZİM TALİSMAN

Rektorun çıxışından sonra hiss olundu ki, Abel müəllim özü də fimdamental elm sahəsindən olmasına baxmayaraq, Şirməmməd müəllimin bəlkə də fizika-riyaziyyat məqamına verdiyi qiymət interpritasiyasında bizdən qiymətli oldu. Şirməmməd müəllimin müəllimliyi böyük bir jurnalist ordusunun yaranmasını, mənim dostlarımın, mənim müəllimlərimin müəllimi auditoriyasının yaranmasına gətirib çıxarıb.

Şirməmməd müəllim böyük müəllimdir. Mən onun biblioqrafiyasını buraxanda müəllim sözünü mütləq böyük hərflə yazdım və dedim ki, bu imkanı bizə Şirməmməd müəllimə görə Tanrı özü bəxş edib ki, sözlə onun böyüklüyünü göstərə bilək. Həqiqətən Şirməmməd müəllim böyük müəllimdir və Azərbaycan jurnalistlərinin böyük bir ordusunun müəllimi olaraq qalmaqdadır. Şirməmməd müəllim öz dərslərində həmişə vətəndaşlıq qeyrəti, azərbaycançılıq öyrədib. Sitatın arxasında onun öz interpritasiyaları var.

Şirməmməd müəllim fakültəyə rəhbərlik edəndə də, kafedraya rəhbərlik edəndə də, hərçənd ki, o, indi də kafedranın rəhbəridir, mən bu auditoriyaya hesabat verərək deyirəm ki, O (Şirməmməd müəllim), kafedraya girəndə Landau kimi girir.

Şirməmməd müəllim haqqında hər cür söz deyildi, mənim bir cümləmi uşaqlar çox yüksək qiymətləndirirlər. Belə bir qeyri-təvazökarlıq da edim: Şirməmməd müəllim mənim müdafiəmdə yekun sözündə mənim həyatımın mənası olan bir söz dedi. Dedi ki, mən Moskva Dövlət Universitetində, aspiranturada oxuduğum günlər yadıma düşdü, o anda mən kövrəldim, çünki mən özüm üçün dünyada bundan böyük qiymət almayacağam. Bu adı mənə Şirməmməd müəllim vermişdi.

Şirməmməd müəllim Moskva dərsləri alıb. Bunu da unutmaq olmaz və yenə də o qədər də radikallıq etməyək ki, Moskva "şkola"sı bizim üçün ögeydir. Bu belə deyil. Mən Abel müəllimə də çox təşəkkür edirəm ki, o həmişə çox açıq şəkildə deyir ki, Moskva Dövlət Universitetinin belə bir məktəbi ilə elmi bağlarımızı birdən-birə qətiyyən qıra bilmərik və qırmamalıyıq. Mən bunu keçən il bu vaxt Moskvada olarkən Moskva Dövlət Universitetinin rektoruna da dedim.

Biz, onun yanında işləyənlər və ondan kənarda olanlar da, yəni onun bütün tələbələri həmişə bir iş görəndə belə bir sual veririk: "Görən Şirməmməd müəllim nə deyər?" Və əgər o, işdə bir qram narahatlıq və qeyri-insani bir şey varsa, adam o dəqiqə, işdən çəkinər. Ona görə də mən öz yazımda demişəm və burada da təkrar edirəm: Şirməmməd müəllim bizim taleyimizdə başımızın üzərində dayanan bir talisman və Tanrı qüvvəsidir, Allah onun ömrünü uzun eləsin.

C.MƏMMƏDLİ,
Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, dosent

(2004-cü il dekabrın 18-də BDU-da yubiley mərasimindəki çıxışı)

GÖZ GÖRDÜYÜNƏ İNANAR

Adətən yubileylərdə səbəbkarı təbrik etmək üçün gül dəstələri, qiymətli, yaddaqalan hədiyyə bağışlayır və xoş sözlər deyirlər. Təəssüf ki, təbrik etmək arzusunda olduğum insan bu basmaqəlib vərdişlərimizin heç birini sevmir. Ona görə də mənim işim lap "çətin"ə düşüb. Əvvəl istədim ki, ürəyimdən keçən ən yaxşı suallarımı (əlbəttə, siyasətdən kənar) bir kağıza köçürüb gedim hörmətli müəllimimizin hüzuruna. Sonra yubileyqabağı belə arzuya düşən həmkarlarımın çox olacağını düşünüb fikrimdən daşındım. Və belə qərara gəldim ki, olmuş bir əhvalatı - canlı şahidi və iştirakçısı olduğum hadisəni xatırlatmaqla ötənlərə qayıdım.

1968-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olunanda məni təbrik edən tanışlardan birinin "bax, çalış yaxşı oxuyasan, sizin fakültədə bir şəkili müəllim var, Şirməmməd Hüseynov, heç bir sözə, tapşırığa baxan deyil", - xəbərdarlığı elə bil məni səksəkəyə saldı. Bu barədə kiməsə bir söz demədən dərslərin başlanmasını səbirsizliklə gözlədim. Elə ilk dərs günü ənənəyə uyğun olaraq Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin Fəxri Xiyabandakı məzarını ziyarət etməli olduq. Qayıdıb universitetə gələndə (o vaxt bizim fakültə indiki İqtisad Universitetinin binasında, darvazanın yanındakı otaqlarda yerləşirdi) elə pilləkənlərin üstündə 3-4 müəllimin söhbətləşdiyini uzaqdan gördüm. Amma şux yerişli, qara, qıvrım saçlı, bir qədər də zəhmli görkəmli şəxsin oraya yaxınlaşması ilə həmin müəllimlərin tələm-tələsik içəri girməsi bir oldu. Elə həmin adam da onların ardınca içəri keçdi.

Fikirləşdim ki, yəqin "həmin müəllim" budur. Ehtimalımda yanılmamışdım. Bu hadisədən sonra müəllimlər otağının qarşısından çox ehtiyatla keçirdim.

Biz ikinci kursda oxuyanda həmin müəllim artıq fakültəmizin dekanı idi. Nədənsə, mənə elə gəlirdi ki, nəinki tələbələr, elə müəllimlərin özləri də (hətta yaşca ondan böyük olanlar da) Şirməmməd müəllimdən çəkinir və onunla hər məsələdə hesablaşırlar. Bütün bunların səbəbi isə hələlik mənim üçün sirr olaraq qalırdı.

Dördüncü kursa qədər görüb-eşitdiklərim həqiqətən məni daim qorxu içərisində saxlayırdı. Dördüncü kursda onun dərsləri başlayan gündən yalnız bu tələbkar müəllimə imtahan verəcəyim gün barədə fikirləşirdim. Etiraf edim ki, imtahana yaxşı hazırlaşmağıma baxmayaraq, çox qorxurdum. Mayın 15-də imtahan verməli idik, lakin bir gün əvvəl xəstəxanaya düşdüm. Dedim yəqin mənimki bura qədər imiş, müəllim elə biləcək qəsdən belə eləmişəm.

İmtahan sessiyasının sonuncu günü, mayın 24-də xəstəxanadan çıxan kimi fakültəyə gəlib, katibədən imtahana girmək üçün göndəriş vərəqəsini götürərək, üstünə "dekan" sözü yazılan açıq qapının qabağında dayandım. Müəllimin "nə lazımdır" sualına titrək səslə "imtahan vermək istəyirəm" desəm də, bütün sual-cavablar beynimdə bir-birinə qarışmışdı. Məni içəri çağıraraq o vaxtadək eşitmədiyim həlim bir səslə "imtahana yaxşı hazırlaşmışdın?" - sualının ardınca qiymət kitabçamı istəməsi, məni lap çaşdırmışdı. Elə bil mənim doğrudan da imtahana hazır olduğumu üzümdən oxumuşdu. Doğrusu, nə baş verəcəyini həyəcanla gözlədiyim halda, onun "qızım, sənə "yaxşı" yazıram, narazı deyilsən ki," deməsi elə bil məni yuxudan ayıltdı: "Axı, mən cavab vermədim" desəm də, tələm-tələsik təşəkkür edib,

səhhətimə görə narahat olub mənimlə gələn və küçədə məni gözləyən həyat yoldaşımın yanına qayıtdım. O da tez qayıtdığımı görəndə, imtahandan kəsildiyimi zənn eləmişdi...

Həmin hadisədən nə az, nə çox, düz 32 ildən artıq vaxt keçib. Bu illər ərzində mən Şirməmməd müəllimin həyat və yaradıcılığı ilə daha yaxından tanış olmaq imkanı qazanmışam. Və belə qənaətə gəlmişəm ki, o, radio-televiziya ilə çıxış edəndə də, tələbələri qarşısında mühazirə oxuyanda da, hansısa tədbirdə danışanda da, evdə-ailədə öz yaxınlarının əhatəsində olanda da, həmişə eyni adamdır, elə Şirməmməd müəllimdir, vəssalam. Hətta, onun mətbuatda çap olunmuş yazılarını imzasını görmədən belə hiss edirsən ki, həmin sətirlərin arxasında yalnız Şirməmməd müəllimin məğrur siması dayana bilər. Onun hər bir hadisəyə baxışı, çıxardığı nəticə və verdiyi qiymət daşdan süzülüb keçən büllur suya bənzəyir.

Nəfsinə hakim kəsilməklə də başqalarından yerlə-göy qədər fərqlənən bu məğrur insan ziyalılıq zirvəsini çoxdan fəth edib. Özünün dediyi kimi, keçdiyi həyat yolu da hamar olmayıb. Hələ üç yaşında atasını itirən, nəfsinə hakim kəsilməyi anasından, gözəl əxlaqi keyfiyyətləri və elmlərə kamil yiyələnməyi orta və ali məktəb müəllimlərindən öyrənən şərəfli ömür sahibinin özü bu gün 80 yaşlı canlı məktəbdir.

Böyük alim, vətənpərvər və müəllim Firudin bəy Köçərlinin dediyi "bir milləti məhv etmək üçün ikicə şərt kifayətdir: belə ki, əgər müəllimi savadsız olsa, o ruhən məhv olar, həkimi kəmsavad olsa cismən", - müdrik fikrini dönə-dönə öz oxucusu və dinləyicisinə xatırlatmağı sanki özünə borc sayır, Şirməmməd müəllim.

Keçdiyi keşməkeşli həyat yolunun onun xarakterinə təsirini özü belə xarakterizə edir: "Həyatın hər üzünü görmüşəm. Dağ-

dan odun da gətirib satmışam, 10 kilometrlərlə məsafə qət edib taxıl zəmilərindən sünbül də yığmışam. 30-cu illərin Şəki üsyanının şahidiyəm. Onda uşaq idim, lakin evimizin qabağındakı dağda adamların necə güllələnməsini gözlərimlə görmüşəm.

Digər tərəfdən mən vəzifəlilərin və onların uşaqlarının firavan həyatını da uzun illər müşahidə etmişəm. Ədalət hissi, həqiqət hissi insanın qanına ictimai ədalətsizliklərlə daxil olur. Kim ictimai ədalətsizlik uğrunda mübarizə aparmırsa, deməli, yel dəyirmanları ilə mübarizə aparır".

Bəlkə də elə qanına-canına hopan mübarizlik ruhunun təsiridir ki, hələ keçən əsrin 50-ci illərində Moskvada aspiranturanı bitirərək "1917-1918-ci illər Azərbaycan mətbuatı" mövzusunda dissertasiya müdafiə edən Şirməmməd Hüseynov elə 50 ildir həmin yolu davam etdirərək, M.Ə.Rəsulzadə, Əhməd bəy Ağayev, Əlibəy Hüseynzadə, Ömər Faiq Nemanzadə, Üzeyir bəy Hacıbəyli və digər böyük vətənpərvər qələm sahiblərimizin qiymətli fikir və mülahizələrini araşdırır, onları üzə çıxarıb çap etdirmək yolunda hər insanın dözə bilməyəcəyi əziyyətlərə qatlaşır və bundan qürur duyur. 20-ci illərə qədər olan anadilli mətbuatımızın yorulmaz araşdırıcısı və tədqiqatçısı professor Şirməmməd Hüseynov bu gün də gənclik həvəsi ilə işləməkdən yorulmur.

Belə bir fikri də tərəddüdsüz söyləmək olar ki, Şirməmməd müəllim harada olursa-olsun, kiminlə söhbət edirsə-etsin, fərqi yoxdur, mütləq müdrik kəlamlara, tarixi hadisə və faktlara müraciət etməklə həmsöhbətinin diqqətini məharətlə həmin istiqamətə yönəldə bilən mahir bələdçidir.

Fəxrlə söyləmək olar ki, ata ocağının ənənələrini davam etdirən hər iki övladı - Azərbaycan Musiqi Akademiyasının professoru, musiqişünas Fərəh xanım Əliyeva və Azərbaycan Bəstəkarlar İttifaqının məsul katibi, musiqişünas Lalə xanım Hüseynova artıq özlərini təsdiq etmiş, sayılıb-seçilən Azərbaycan ziyalılarındandır.

Xalq şairi Bəxtiyar Vahabzadə əqidə dostu haqqında belə yazır: "Şirməmməd Hüseynovu yaxından tanıyanlar çox yaxşı bilir ki, onu ömrü boyu tutduğu yoldan və tapındığı əqidədən qoparmaq, heç olmasa, bir balaca laxlatmaq belə mümkün deyil. O, inandığına inanır, nifrət etdiyinə sona qədər nifrət edir, sevdiyini isə tərəddüdsüz sevir. Bir sözlə, qələmindən çıxan yazılarının arxasından onun sınmaz, dönməz, əyilməz şəxsiyyəti boylanır. Onun öz yaxınlarına, qohum-qardaşına, dostlarına və hətta övladlarına olan münasibəti də eyni güzəştsiz prinsip və eyni baxış əsasında qurulmuşdur".

50 illik müəllimlik fəaliyyəti dövründə milli və demokratik ruhlu Azərbaycan jurnalistlərinin yetişməsində əvəzsiz xidmətləri olan, ana dilinin, vətəninin, xalqının mənafeyini hər şeydən uca tutmağı bacaran hörmətli müəllimimizi tələbələri, o cümlədən, "Elm və həyat" jurnalının kollektivi adından yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı arzulayıram!

Maral POLADOVA

"525-ci qəzet", 16.XII.04

DÜNƏNİN, BU GÜNÜN, SABAHIN JURNALİSTİ

(Tanınmış alim, professor Şirməmməd Hüseynovun anadan olmasının 80 illiyinə)

Əvvəlcə yazacağım məqaləni "Jurnalistlərin müəllimi" adlandırmaq istədim. Lakin elə həmin ərəfədə onun haqqında çap olunan "Biblioqrafiya" kitabının redaktorluğu işi mənə tapşırıldı və maraqlı, çalışqan, istedadlı bir jurnalist həyatı ilə qarşılaşdığımı anladım. Bu, adi bir insan ömrü deyildi və hər günü, hər ömür məqamını mənalı yaşamağa çalışmış bir şəxsiyyətin xalqına, millətinə təmənnasız sevgisi və xidmətləri idi. Bu həyat həqiqətləri ilə rastlaşdıqdan sonra fədakar bir jurnalist haqqında yazmağa üstünlük verdim. Və düşündüm ki, bu jurnalist (onsuz da hamı onun gözəl pedaqoqluğunu və obyektivliyini təfərrüatı ilə bilir) böyük fikir məbədlərimiz olan H.Zərdabinin, Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, Ü.Hacıbəylinin, M.Ə.Rəsulzadənin, M.B.Məmmədzadənin ruhunu, nəfəsini, vətən əxlaqı və milli sevgisini özündə yaşadan "köhnə" və olduqca da müasir kişilərdəndir (Tanınmış yazıçı Çingiz Aytmatovun gözəl bir sözünü xatırladım bu məqamda: "O, kişilər atlarını sürüb getdilər. Təəssüf, həmişəlik getdilər").

Bir zamanlar həmin kişilərin yazdığı məqalələrin, əsərlərinin təxmini siyahısını tutub real rəqəmlərə bərk təəccüblənirdim. Və düşünürdüm ki, M.Ə.Rəsulzadə 15-20 cildlik əsərləri necə yazıb? Mirzə Bala Məmmədzadənin məqalələrinin sayı doğrudanmı iki mini keçib?

Və belə sualların heyrətində yaşadığım zamanda Şirməmməd müəllimin redaktoru olduğum "Biblioqrafiya"sındakı

yazılarının sayının 600-dən çox olduğunu öyrəndim (Ümumilikdə isə belə yazılarının sayı 800-ü ötməkdədir. Çünki o, hər zaman axtarır, arayır, yazır və tədqiq edir.)

KİMDİR JURNALİST? JURNALİST NECƏ OLMALIDIR?

Jurnalistika bir elm və peşə olaraq XIX əsrin 90-cı illərində ABŞ universitetlərində tədris edilməyə başlayıb. İlk dəfə 1893-cü ildə Pensilvaniya Universitetində jurnalist kadrlarının hazırlığına başlanılıb. 1908-ci ildə isə Missuri statındakı universitetdə ilk jurnalistika fakültəsi yaradılıb. Maraqlıdır ki, bu gün bütün dünyanı silkələyib öz sehrinə bürüyən, bütün digər elmləri geniş imkanlarına, sürət və texniki vasitələrdən istifadəsinə görə geridə qoyan jurnalistikaya müxtəlif təriflər verilsə də, hələ son nöqtənin qoyulduğunu demək çətindir. Amma jurnalistikaya və jurnalistə hələ 1880-ci ildə Fransada nəşr edilmiş "Peşələr lüğəti"ndəki yanaşma daha dolğun səslənir: "Mühəndis işi olmasa da, mühəndisliyində qalır; vəkil və həkimlər də müştəriləri olmasa, öz sənətlərində qalırlar. Lakin jurnalist o zaman jurnalist olur ki, o, qəzet üçün yazır". (Ümumiyyətlə yazır - N.Y.)

Jurnalist yazmalıdır. O, yazanda jurnalist olur. Bu şərəfli peşənin elə çətinliyi də, dəyərliliyi də ondadır ki, yazırsan və yazmalısan. Bax, Şirməmməd müəllim ona görə jurnalistdir ki, o, həmişə yazır. Onun qələmindən çıxan yüzlərlə məqalə qəzetlərimizi maraqlı və oxunaqlı edir. Hər həftənin şənbə günləri yəqin ki, çoxları "Günay" qəzetini nə orada gedən reklamlara, nə də afişalara, proqramlara görə alır. Əksəriyyəti maraqlandıran həmin gün Şirməmməd müəllimin "Günay"da çap olunan yazılarıdır. Bu, adi jurnalist yazıları deyil. Bu yazılarda tarix

var, müasirlik var, bəşəri dəyərlər var, millətin problemlərinə baxış var, bu ağrılardan xilas yolları var, nəhayət, tarixin ibrət dərsləri var. Bu yazılarda klassiklərimizin sirli, sehrli, heyrətedici fikir dünyası, əqidə, məslək çağırışı var, vətən sevgisinə, millət yanğısına bürünmüş harayları var.

NƏDƏN YAZMALI, NECƏ YAZMALI?

Əslində jurnalist üçün ən çətini bu iki sualı düzgün cavablandırmaqdır. İnformasiya texnologiyasının yüksək inkişafı dövründə yaşayan insanı oxumağa həvəsləndirmək çox çətindir. Bura əlavə etsək ki, hər gün İnternet vasitəsilə müasir insanın 5-10 milyon arası informasiya almaq imkanı var, onda XXI əsr jurnallistinin fəaliyyətinin və iş metodlarının mürəkkəbliyi danılmaz həqiqətə çevrilir.

Şirməmməd müəllim isə nədən və necə yazmağı yaxşı bilir. Onun özünəməxsus üslubu və dəst-xətti var. Onun publisistikası klassiklərimizin (H.Zərdabinin, M.A.Şahtaxtlının, Ü.Hacıbəylinin, M.Ə.Rəsulzadənin, C.Məmmədquluzadənin və b.) ənənələrindən güc-qüvvət alıb. Odur ki, bu yazılar, bu məqalələr oxunandır, maraqlıdır. Bu yazılarda sərt faktlarla yanaşı, tənqid də, yumor da, istehza da müşahidə olunmaqdadır. Bu məqalələri oxuyan oxucu yorulmur, faktlardan da bezmir, məlumatlardan isə özündə qeydlər aparır (yaxud həmin yazıların üzünü köçürüb öz arxivində saxlayır).

Jurnalist-dinləyici, jurnalist-oxucu auditoriyasının əsas xüsusiyyətlərini və tələblərini həmişə duyub yerinə yetirən Şirməmməd müəllim bir peşəkar olaraq H.Zərdabi ənənələrindən axıb gələn "maraqlı, yığcam məlumat" prinsipini əsas götürür. Baş verən hadisədən, yaxud toxunduğu problemdən birbaşa danışmaq məharəti Şirməmməd müəllimin publisistik yazılarının vuran qəlbidir. Odur ki, bu məqalələri oxuyanda yorulmursan və böyük zövq alırsan.

Avropa ölkələrinin mətbuat qanunlarında jurnalistin fəaliyyəti belə xarakterizə olunur: "Jurnalist aktual həyat hadisələri ilə bağlı intellektual fəaliyyəti həyata keçirməlidir". Əslində Şirməmməd müəllimin bütün yazılarında bu prinsip gözlənilir. Yüksək intellektin, məntiqli təhlilin, müqayisəli faktların hüdudlarında məqalələr, yazılar... Etiraf edək ki, çağdaş dövrümüzün qəzetləri, jurnalları, elektron KİV-lərimiz necə də susayıb belə jurnalistika nümunələrinə! Və yaxşı ki, Şirəməmməd müəllim kimi jurnalistlər belə yazıları qəzet səhifələrində hərdən çap etdirir, ənənəni yaşadırlar.

TARİXİLİK, MÜASİRLİK

Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadə yazırdı: "Bir millətin tarixini bilmək qədər yüksək təməddün (inkişaf) təsəvvür oluna bilməz". Bəli, tarixi öyrənilən, təbliğ edilən xalqlar güclü, qüvvətli olur, problemlərini vaxtında həll edə bilirlər. Belə xalqların sosial tərəqqisi, milli şüuru, azad və müstəqil dövlət qurmaq bacarığı da yüksək olur. Lakin bu tarixilik müasirliklə də müşahidə edilməlidir. Müasirləşməyən millətlər tarixin qaranlıq dalanlarında ilişib qalır; bəşəri tərəqqidən məhrum olurlar.

Böyük mütəfəkkirimiz H.Zərdabi hələ XIX əsrdə yazırdı: "Biz müsəlmanlar Avropa elmlərini öyrənməsək, həmişə başı qapazlı olaraq qalacağıq". Müasirləşmə, yeniləşmə probleminə böyük öndər M.Ə.Rəsulzadə isə belə dəyər verirdi (1916-cı ilin oktyabrında "Açıq söz" qəzetində nəşr edilmiş "Keçdiyimiz yol" məqaləsindən): "Müasirləşmək - iştə bütün millətləri sülh və

nicat yoluna çıxaran böyük vasitə! Müasirləşməyən, yəni zaman və əsrindəki maddi və mənəvi vasitəni - mədəniyyət ilə silahlanmayan bir cameyət (toplum) gərək qan və dilcə birləşmiş milliyyət və ya din, ruh və vicdanca tanışmış beynəlmiləliyyət olsun - mümkün deyil!"

Etiraf edək ki, Şirməmməd müəllimin Azərbaycan xalq hərəkatı başlanandan (1988-ci ildən) bu günə qədərki yazılarının başlıca motivini bu iki başlıca dəyər təşkil edir. O, sanki bütün yazılarında yeni cəmiyyəti qurmaq istəyən inqilabçı nəslə (cəbhəçi-müsavatçı) ucadan, lap ucadan demək istəyir: "Diqqətli olun! Ehtiyatlı olun! Azərbaycan dövlətçiliyi ilə zarafat etməyin! Tarixi oxuyun, öyrənin, ondan ibrət götürün! Müasirləşin! İslahatçı, yenilikçi olun! Köhnə qaydalarla yaşamayın!"

Bu gün o qədər də uzaq olmayan, çoxumuzun yaşayıb şahidi olduğumuz son 15 illik tarixi hadisələri təhlil etməyə, nöqsan və qüsurları aramağa da ehtiyac görmürəm. Bundan ötrü Şirməmməd müəllimin dövri mətbuatda nəşr edilmiş məqalələrini oxumaq çox nəticələr çıxarmağa kifayət edir. Vətəni sevmək, millətə sevgi hissləri bəsləmək hələ dövlət quruculuğuna, "Azərbaycan problemi"nin həllinə bələdçilik edə bilməz və bu problem çox ciddi və təhlükəlidir. Bu problem çox siyasətçilər nəslini sıradan çıxarıb və tarixin yaddaşına atıb. Azərbaycan problemi bir oddur ki, onunla oynamaq çox ehtiyatlı davranış tələb edir. Şirməmməd müəllimin bu mövzudakı yazılarında bir haray, nigarançılıq, narazılıq var. 1992-93-cü illərdəki xalq hakimiyyətinin qüsurlarından, sonrakı müxalifətçilik dövrünün səhvlərindən necə də narahatdır. Tarixi səhvlərin təkrarlandığını görən tanınmış mütəfəkkir sanki ucadan demək istəyir: "Siz nə edirsiniz? Belə səhvləri etməyin!" Elə bu yanğıyla da tanınmış şair Bəxtiyar Vahabzadənin, böyük yazıçı İsmayıl Şıxlının

narazılıqlarına şərik olur və acı həqiqətlə barışır: "Körpü çaydan uzaq düşüb!"

Böyük bir tarixi imkanı əldən verməyimizlə barışmayan Şirməmməd müəllim məlum iyun hadisələrindən sonra ilk demokratik dövlətimizin qurucusu M.Ə.Rəsulzadənin müdafiəsinə başlayır və nəşr edilən böhtanlara tutarlı cavablar yazır. Bu, o zaman elə də asan iş deyildi və belə mövqedən çıxış edən tədqiqatçı jurnalistlərdən biri olan Mövsüm Əliyev məhz həmin məqalələrinə görə həbs edilmişdi (Üç aydan çox həbsxanada qalan M.Əliyevin sonradan vəziyyəti pisləşdi və Poluxin küçəsindəki evində heç kimin xəbəri olmadan dünyasını dəyişdi).

Şirməmməd müəllimin publisistikasında aparıcı bir qırmızı xətti də görmək mümkündür: Azərbaycan davası! Azərbaycan həqiqətləri! Bu dava, bu həqiqətlər öz məsnədlərini (yəni qaynaqlarını) Azərbaycan xalqının zəngin tarixindən, adət və ənənəsindən, əxlaqından, mənəviyyatından götürür. Bu zəngin mənəvi dəyərlərdən yazmaq üçün gərək insanın özü zəngin olsun. Yoxsul mənəviyyatla, dar düşüncə ilə nə H.Zərdabidən yazmaq olar, nə də M.Ə.Rəsulzadədən! Bu şəxsiyyətlərdən yazmaq üçün öncə özün şəxsiyyət olasan gərək!

Bu sətirləri yazarkən tatar maarifçisi Seyid Cəfər Krımərin M.Ə.Rəsulzadəyə yazdığı bir məktubu xatırladım: "Bir gün həyatınızı yazacaq bəxtli bir türk gənci, yaxud da şəxsiyyətinizi canlandıracaq bir türk sənətkarı ömrünüzün hər dövrünü qavrayıb anladıqca "nə şərəflidir mənə ki, bu yaşamağa dəyər səhifələri canlandırıram" - deyə sevinəcəkdir. Bunların əsərlərini oxuyan və ya seyr edənlər də sizi daima sonsuz məhəbbət, hörmət və rəhmətlə anacaqlardır."

Bu məqaləni hazırlayarkən Şirməmməd müəllimin iki dəyərli kitabı demək olar ki, eyni vaxtda nəşr edildi. Publisistik yazılardan ibarət olan həmin kitablar bunlardır:

1) Şirməmməd Hüseynov. "Milli haqq və ədalət axtarışında", "Adiloğlu" nəşriyyatı, Bakı - 2004, 420 səh;

2) Şirməmməd Hüseynov. "Mənəvi irsimiz və gerçəklik", "Adiloğlu" nəşriyyatı, Bakı - 2004, 526 səh.

Diqqət yetirdinizsə, bir ildə Şirməmməd müəllimin ümumi həcmi 946 səhifədən ibarət olan iki kitabı nəşr edildi. Deməli, O, jurnalist olaraq öz işindədir və 80 yaşın hüdudlarında belə vətənə, millətə təmənnasız xidmətini göstərir.

Şirməmməd müəllimə həsr etdiyim bu məqaləni onun öz dəyərli sözləri ilə də bitirirəm: "Tarixin və taleyin əsrarəngiz qanunları, təzadları var. Hər nəsil bu intəhasız, əvvəl-axırı bilinməyən, əbədi və müvəqqəti həyat adlanan məkanda öz rolunu oynayır, keçib gedir. Lakin hələlik daimi görünən vətən torpağıdır, xalqdır, maddi və mənəvi mirasdır. Hər kəsdən qalan isə məncə, inam və inancdan doğan vətəndaş ad-sanı, doğruluq və dürüstlük, həqiqi milli qeyrət və namusdur."

Nəsiman YAQUBLU

"Yeni Müsavat", 17 dekabr 2004

ŞİRMƏMMƏD HÜSEYNOV – 80

HÖRMƏTLİ ŞİRMƏMMƏD BƏY!

80 illik yubileyinizi təbrik edir, Sizə uzun ömür, can-sağlığı arzulayıram.

Çağdaş jurnalistikamızın beşiyi başında dayananlardan biri kimi Siz Azərbaycan mətbuatının inkişafına zəngin töhvələr vermiş qələm sahiblərimizdənsiniz.

Biz Sizi ilk növbədə ömrünün böyük bir hissəsini universitet auditoriyalarında keçirmiş təcrübəli müəllim kimi tanıyırıq. Bu gün Azərbaycan mətbuatında öz imzası və dəst-xətti ilə seçilən neçə-neçə peşəkar jurnalistlər məhz Sizin tələbələriniz olduqları üçün böyük qürur hissi keçirirlər. Çünki onlar Sizdən təkcə bu peşənin sirlərini öyrənməklə kifayətlənməyiblər. Siz onlara eyni zamanda əsl jurnalist üçün zəruri olan müstəqil düşüncə, obyektiv mövqe və ilk növbədə bütün tarixi məqamlarda Sözün, qələmin ucalığını, dəyərini qurmaq kimi müqəddəs keyfiyyətlər aşılamısınız.

Biz Sizi həm də vətəndaş bir ziyalı kimi tanıyırıq. Xalqımızın taleyüklü məqamlarında Siz sovet ideoloji sisteminin sərt qəliblərini qıraraq istər mətbuatda, istərsə də Azərbaycan televiziyasında çıxışlarınızla ictimai-siyasi fikrin ümummilli mənafeyə uyğun formalaşmasında müstəsna xidmətlər göstərmisiniz.

Biz Sizi həm də Azərbaycan mətbuat tarixinin tədqiq olunmasında yorulmadan çalışan və bu işdən yüksək dərəcədə mənəvi zövq olan alim kimi tanıyırıq. Bu tədqiqatların başlıca obyektivləri isə əlbəttə ki, mətbuat tariximizə yeni-yeni səhifələr yazan "Molla Nəsrəddin", "Şərqi-Rus", "Açıq söz", "Azərbaycan" və s. qəzet və jurnalları, bir də onların yaradıcıları olan C.Məmmədquluzadə, Ü.Hacıbəyov, M.Şahtaxtlı, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və digər qüdrətli qələm sahibləri olub.

Siz Azərbaycanımızın müstəqilliyi ilə bağlı daha bir şərəfli missiyanı öz üzərinizə götürmüsünüz. Azərbaycan Xalq Cümhuriyyətinin tarixini, onun banisi, ulu öndər M.Ə.Rəsulzadənin həyatını, siyasi və publisistik fəaliyyətini tədqiq edərək, bu əvəzolunmaz xəzinənin bir hissəsini Azərbaycan xalqının ixtiyarına vermisiniz. Bu tədqiqatlar xalqımızın şərəfli tarixinin öyrənilməsi baxımından olduqca zəngin və qiymətli sayıla bilər.

HÖRMƏTLİ ŞİRMƏMMƏD BƏY!

Bir daha Sizi yübileyiniz münasibətilə təbrik edirəm. Arzu edirəm ki, Ulu Tanrı Sizdən yaşamaq və yaratmaq eşqini heç bir zaman əskik etməsin.

Hörmətlə,
İsa QƏMBƏR,
Müsavat Partiyasının başqanı

"Yeni Müsavat" qəzeti, 17 dekabr 2004

ŞİRMƏMMƏD MÜƏLLİMİN "ŞİNEL"İ

Son günlər həmkarlarım və qələm əhli ilə söhbətlərimin çoxunda söz-sözü çəkərək Şirməmməd müəllimin üzərinə gəlir. Yəqin bu, yubiley əhval-ruhiyyəsindəndir. Ölkə jurnalistlərinin ağsaqqalı, Bakı Dövlət Universitetinin professoru 80 yaş ərəfəsindədir. Onun yüzü də aşıracağına əminik. Minlərin xeyir-duası müqabilində bu nədir ki... Tanınan, üzdə olan, hətta hələ uğurlara imza atmayan jurnalistlər sanki sözləşiblərmiş kimi, söhbətin əvvəlində, ya sonunda şəstlə vurğulayırlar: Biz Şirməmməd müəllimin "şinel"indən çıxmışıq.

Tələbəliyimin bir hissəsi Vətəndən uzaqlarda keçdiyindən, Şirməmməd Hüseynovun müəllim, dekan, kafedra müdiri işlədiyi universitetlərdə mühazirələrini dinləmək xoşbəxtliyi mənə nəsib olmayıb. Bu üzdən, yaxından müşahidə etmədiyim, daxilinə nəzər salmadığım həmin "şinel"in parametrlərini, xüsusiyyətlərini yalnız nəzəri cəhətdən xəyalımda canlandırıram. Bu zaman istər-istəməz, milli jurnalistikamızın korifeyi Mirzə Cəlilin Azərbaycan ictimai mühitinə səmimi etirafla təqdim etdiyi, zərb-məsələ çevrilən sözləri yada düşür: "Biz Qoqolun "Şinel"indən çıxmışıq". Bu bircə cümlə bəs edib ki, hətta Qoqolu tanımayanlar belə klassik rus yazıçısını görkəmli şəxsiyyət kimi qəbul edələr. Söhbət öz ustadlarımızın üzərinə gələndə isə məsələ qəlizləşir. Çox vaxt susuruq, duruxub qalırıq, böyüklərimizi sağlıqlarında olduğu kimi qiymətləndirməkdə çətinlik çəkirik. Toz-torpaqlı, yamaq götürməyən, nimdaş "Şinel" sahibini Vətənimizdə şöhrətləndirənlərin özləri nədənsə belə diqqətdən uzun müddət kənarda qalırlar.

Bəlkə də bu müqayisəm kimlərəsə məqbul görünməyəcək. Zənnimcə, Şirməmməd müəllimin "şinel"i bütün yadelli nümunələrlə müqayisədə mənə daha möhkəm, yaraşıqlı və geniş

görünür. Çünki bu "şinel" demokratiya havalıdır. Şirməmməd müəllim mühazirələrində də, beynəlxalq şərhçi kimi çıxışlarında da, publisistik yazılarında da, adi həyatda da haqqı nahaqqa verməyi, boğazdan yuxarı fikirlər söyləməyi, həqiqəti həmişə, hər yerdə gözün içinə dik deyi, bəzilərinin sərtlik kimi qiymətləndirdiyi xasiyyətində daxilən humanizmə, xeyirxahlığa səxavətlə yer ayırdığı üçün belə qənaətdəyəm. Gəlin görək bu "şinel"dən kimlər çıxmayıb?! Adları sadalamağa kifayət qədər vaxt və hövsələ gərəkdir. Bir də qorxuram inciyənlərin sayı çox ola. Yalnız onu deyə bilərəm ki, bu "şinel"in istisinə qızınanlar, ondakı hikmət dünyasından, xəzinədən pay götürənlər ad-sanından, tutduğu mövqedən asılı olmayaraq, peşə prinsiplərini sədaqətlə qoruyan layiqli vətəndaş kimi tanınırlar. Durus gətirməyənlər də tapılır. Bunu da təbii saymaq olar. Çünki hər jurnalist fakültəsində oxuyanın alnına jurnalist olmaq yazılmayıb...

Bəzən düşünürəm ki, mən də dəfələrlə Şirməmməd Hüseynov məktəbinin müdavimləri ilə bir sırada əyləşib onun şirin ləhcəli düzümlü-biçimli, həm də cəsarətli mühazirələrini, valideyn nəsihətlərinə bənzər söhbətlərini dinləmişəm. Bütün bunlar romantik təxəyyülün təsvirləri olsa da, müasir jurnalistikamızda Şirməmməd Hüseynov məktəbinin mövcudluğunu kimsə dana bilməz. Bu məktəbin sonadək müdavimi olmaq, necə deyərlər, hər jurnalistin işi deyil. Dərs yükü də ağır, əməl yükü də. Bunu mən demirəm, dünənki və bugünkü tələbələri etiraf edir. Elə mənim özüm də onun fikir dünyasından nələrisə əxz etməkdə həmişə maraqlıyam. Çünki bu böyük insanı tutduğu yoldan döndərmək, tapındığı əqidədən sapdırmaq mümkün olmayıb, onun inancı da, nifrəti də, məhəbbəti də sonadəkdir.

İcra strukturlarında uzun müddət vəzifə tutub yenidən jurnalistikaya qayıdarkən bir həsir, bir də Məmmədnəsir vəziyyə-

tində olan həmkarımız geniş maddi imkanlardan imtinasına, təmənnasızlığına görə hörmət sahibi olmasını belə əsaslandırır: "Mən də Şirməmməd müəllimin "şinel"indən çıxmışam". Şəstlə, vüqarla söylənilən fikirlər istər-istəməz adamı o "şinel"ə boylanmağa sövq edir.

Yenə məndən inciməsinlər, daha bir müqayisəm var. Görürsən ki, kifayət qədər tanınmayan, bir neçə kitabı çıxan şəxslər az qala hər gün mətbuatın gündəmindədirlər. Doğrusu, bu ürək sözlərimi qələmə alarkən də mənə məlum idi ki, Şirməmməd müəllimin həyat və fəaliyyətini işıqlandıran məxəzləri tapmaq müşkül işdir. Axtarmadım, özü ilə də əlaqə saxlamadım. Xarakterinə bələd olduğumdan, əmin idim ki, mənə lazım olanları deməyəcək. Bakı Dövlət Universitetində yubileyi ərəfəsində "Şirməmməd Hüseynov. Biblioqrafiya" kitabı tərtibçilərinin bu ərmağan üçün hansı çətinliklər çəkdiklərini də təsəvvür edirəm. Həmin nəşrdəki hər cümləyə, hər fikrə necə məsuliyyətlə yanaşıldığı göz qabağındadır. Orada toplanmış materiallardan bir mətləb hasil olur ki, Şirməmməd Hüseynov istəsəydi, dünyanın istənilən ölkəsinin öncül universitetlərində fəxri yerlərdən birini tutardı. Amma o, Vətənə üstünlük verib, öz "şinel"i, öz məktəbi ilə cığırını salıb, yüzlərin, minlərin könlündə özünə rəğbət, məhəbbət şamı yandırıb. Buna baxmayaraq, böyük bir mənəvi xəzinənin sahibi - 15 kitabın, 43 toplu və jurnalda, qəzetdə dərc edilən 600-ə yaxın məqalənin müəllifi olduğunu kimsə xatırlatmağı özünə rəva bilmir. Amma mən xatırlatmağı vacib bilirəm ki, Şirməmməd Hüseynovun bütün işlərini bir kənara qoysaq, təkcə Azərbaycan Demokratik Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin irsini toplayıb üzə çıxarması bir institutun görə biləcəyi nəhəng işdir.

Şirməmməd müəllim qeyrət çəkən Kişilərdəndir. Onun elmdə də güzəşti yoxdur. Keçmiş tələbələrindən biri deyir ki, diplom işimdə həmin mövzu ilə əlaqədar monoqrafiyası olan iki müəllimini tənqid etdiyinə görə bir qədər ehtiyatlanırmış. Müdafiə uzun çəkib, geniş müzakirə və mübahisələrə səbəb olub. Yekun nöqtəsini isə Şirməmməd müəllim qoyub: "Əgər bizim məzun belə məsul məqamda sözünü cəsarətlə deyə bilirsə, o, diploma, əla qiymətə və sabah jurnalist kimi işləməyə layiqdir".

Şirməmməd müəllimin dərsləri bizlərə nələri öyrədir? Bu barədə günlərlə danışmaq mümkündür, amma bir neçə məqam üzərində dayanmaq istərdim. Milli mətbuatımız Həsən bəy Zərdabidən bəri 130 ilə yaxındır yol gəlir. Onun ənənələrinin davamında, inkişafında, əxz olunmasında Şirməmməd Hüseynovun pedaqoq, tədqiqatçı və jurnalist kimi xidmətləri misilsizdir. Şirməmməd müəllim prinsipiallıq, işgüzarlıq, obyektivlik nümunəsidir. Elə bu gün də o, istedad işartısını duyduğu hər bir tələbəyə qayğı ilə yanaşır, fakültəyə "paraşüt"lə düşənlərə isə hər hansı bir güzəşti praktikasına yad sayır. Əks halda "Şirməmməd müəllimin "şineli" fenomeni olmazdı.

Əflatun AMAŞOV,
Azərbaycan Mətbuat Şurasının sədri

"525-ci qəzet", 17 dekabr 2004-cü il

MÜƏLLİM ADININ UCALIĞINDA

Hörmətli Şirməmməd Ağaməmməd oğlu Hüseynov! Sizi - müasir Azərbaycan jurnalistlərinin müəllimi və ağsaqqalını anadan olmağınızın 80 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirik.

Siz hər vətəndaşa, hər jurnalistə örnək ola biləcək şərəfli ömür yolu keçmisiniz. Respublikanın ictimai-mədəni, mətbu həyatındakı coşqun fəaliyyətiniz, elmi-pedaqoji sahədəki xidmətləriniz ən yüksək qiymətə layiqdir.

Çağdaş Azərbaycan mədəniyyətinin sütunları M.F.Axundov və H.Zərdabi, ictimai fikir və mətbuat tariximizin parlaq simaları Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Üzeyir bəy və Ceyhun bəy Hacıbəyli qardaşları, Cəlil Məmmədquluzadə, Haşım bəy Vəzirov kimi qələm və kəlam sahiblərinin irsi və idealları Sizin çağlayan, tükənməyən mənəvi qida mənbəyiniz olub.

Siz Sovet rejimi və ideologiyasının hakim olduğu illərdə milli-mənəvi dəyərlərin daşıyıcısı və gənc nəslə ötürücüsü idiniz. Tələbələriniz auditoriyalarda Sizin azadlıq eşqi ilə çırpınan qəlbinizin səsi ilə kursdan-kursa adlayırdılar. Bu gün həmin tələbələr müstəqil Azərbaycanın qurucuları sırasındadırlar və Sizinlə fəxr edirlər. Bu sözləri söyləyərkən jurnalistika fakültəsinə qəbul olunduğum 1980-ci ilin ilk tədris günü yadıma düşür. Dekan Şirməmməd müəllim auditoriyaya daxil olur, bizi salamlayır, təbrik edir və öz ilk tövsiyələrini verir: "Yeməyinizə, sağlamlığınıza fikir verin, idmanla məşğul olun. Bir də ki, özünüzü maşından qoruyun. İnanıram ki, bu mühit sizin əksəriyyətinizi yaxşı jurnalist, o da olmasa, ən azı yaxşı vətəndaş kimi yetişdirəcək". Siz mühit dedikdə, o vaxt

bizə dərs deyən və bu gün haqq dünyasında olan Mir Cəlal Paşayev, Nəsir İmanquliyev, Qulu Xəlilov, Famil Mehdi, Nuraddin Babayev, Xəlil Əlimirzəyev, Seyfulla Əliyev, Tofiq Rüstəmli, Əliş Nəbili kimi görkəmli elm, ədəbiyyat xadimlərinin, nüfuzlu pedaqoqların çalışdığı universitet həyatını nəzərdə tuturdunuz. Siz mühit dedikdə, bizə o vaxt dərs deyən və bu gün də Sizinlə çiyin-çiyinə çalışan Yalçın Əlizadə, Cahangir Məmmədli, Akif Rüstəmli, Nəsir Əhmədli kimi səriştəli, savadlı, tələbəni duyan, hiss edən, bütün varlığı ilə müəllim adını, şərəfini uca tutan pedaqoqları nəzərdə tuturdunuz. Bax, tələbələriniz Sizinlə fəxr edir dedikdə, bu sözləri, həm də Sizin timsalınızda bizə dərs demiş bütün müəllimlərimizə ünvanlayıram.

Hörmətli Şirməmməd müəllim! Biz əminik ki, doğma Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə bundan sonra da var qüvvənizlə çalışacaqsınız. Bu əlamətdar gündə Sizi bir daha təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

Sizin tələbəniz
Abid TAHİRLİ

"525-ci qəzet", 17 dekabr 2004-cü il

BİZİM HƏYAT İDEALIMIZ

ÇAĞDAŞ AZƏRBAYCAN JURNALİSTİKASININ MƏNƏVİ ATASI ŞİRMƏMMƏD HÜSEYNOVUN 80 YAŞINA

Əslində həmin gün tək jurnalistlərin yox, dünyanın hər yerindəki, Azərbaycanın təəssübünü çəkən bütün soydaşlarımızın bayramı idi. Həmin gün uzun illər azad söz həsrətilə yaşayan Azərbaycan ziyalısının, qanlı-qadalı illərdə ölkənin ən ucqar guşəsində ONUN şərhlərilə təsəlli tapan tamaşaçının bayramı idi. Həmin gün klassik jurnalistikanın qüdrətini ONUN təqdimatında kəşf edən əlahəzrət oxucunun bayramı idi. Və nəhayət, həmin gün Şirməmməd müəllimin mühazirələrindən fərəhdən gözləri yaşarmış halda çıxan yüzlərlə tələbənin təəssüratlarını ONA çatdırmaq cəsarətini özündə tapan yazı müəllifinin bayramı idi. Ötən şənbə günü Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində həm də ona görə bayram idi ki, 80 illik yubileyini keçirməyə professor Şirməmməd Hüseynovu razı salmaq mümkün olmuşdu və yubiley tədbiri, nəhayət ki, baş tutmuşdu...

"Şirməmməd müəllim şəffaflıq dərəcəsinə görə Bakı Dövlət Universitetində birinci yerdə dayanır. Şirməmməd müəllim harada olursa, o yeri tarixiləşdirir". Bunu rektor Abel Məhərrəmov dedi. O, yubilyarı qısaca təbrik etdi və bildirdi ki, Şirməmməd müəllimin ömrünün 81-ci ilinə qədəm qoyması bütün Universitet üçün bayramdır.

Sonra həm ənənəvi, həm də ənənəvi olmayan təbriklər başladı. Şirməmməd müəllimə məhəbbətini ifadə etmək üçün hər kəs özünün söz sandığında olan ən gözəl kəlmələri seçməyə çalışırdı. Jurnalistikamızın sayılıb-seçilən simaları - Hacı Hacıyev, Əflatun Amaşov, Arif Əliyev, Cahangir Məmmədli, Mailə Muradxanlı.

Jurnalistika fakültəsinin dekanı Yalçın Əlizadə sonuncu kursda bizə dedi ki, Şirməmməd müəllim sizə dərs deyəcək, ona görə belə qərara gəlmişik ki, jurnalistika haqqında təsəvvürləriniz bütöv olsun. Oldu da. Sonuncu kursda möcüzə baş verdi. Jurnalistika fakültəsinin axırıncı kurs tələbələri başa düşdülər ki, indiyəcən onların tanıdıqları, bildikləri jurnalistika, əslində, tamam başqa aləm imiş. Dünyanın ən gözəl müəlliminin mühazirələrində bu peşə hər dəfə ayrı çalar alırdı, hər dəfə daha gözəl olurdu. Kövrək tələbə ürəyinə, hələ yetkinləşməmiş qələminə etibar etməsə də, yazı müəllifi bu dərslərdən aldığı təəssüratları ifadə etməyə cəhd göstərəcək. Axı, o heç ağlına da gətirməzdi ki, vaxtilə babasının yanında əyləşib, yeganə Azərbaycan telekanalında, nə danışdığını anlamasa belə, nənəsinin tez-tez "vallah düz deyir" deməsindən çox böyük adam olduğunu hiss etdiyi bu şəxsiyyət çox sonralar onun müəllimi olacaq, günlərin bir günü tələbə kimi əyləşəcək bu şəxsiyyətin qarşısında, hətta onun haqqında yubiley yazısı da yazacaq. Və anlayacaq ki, dünyanın ən zəngin dili belə, sevimli müəllimi haqqında tələbənin ürəyindəkiləri ifadə etmək iqtidarında deyil. Şirməmməd Hüseynov Tanrının təkcə jurnalistlərə deyil, dünyadakı bütün azərbaycanlıların taleyinə yazdığı gözəl qismətdir. Bu gün Azərbaycanda söz və mətbuat azadlığı qanunla təsbit olunursa, bu gün Azərbaycanda vicdanlı jurnalist, vicdanlı olmağa çalışan jurnalist varsa, bu, ilk növbədə Şirməmməd müəllimin xidmətidir. Bu gün biz Məhəmməd Əmin Rəsulzadə dühasını, Həsən bəy Zərdabini, Üzeyir Hacıbəylini, Ə.Topçubaşovu, Cəlil Məmmədquluzadəni tanıyırıqsa, buna görə məhz Şirməmməd Hüseynova minnətdar olmalıyıq. Bu klassiklərin irsinin öyrənilməsi, aşkara çıxarılması, nəşri, təbliği Şirməmməd Hüseynovun Azərbaycan xalqına misilsiz xidmətidir.

Bu gün jurnalistika ayrıca bir tədqiqat sahəsi kimi mövcuddursa, buna görə də biz Şirməmməd Hüseynova minnətdar olmalıyıq. Bir sözlə, o, ixtisasından asılı olmayaraq, ömrünü bu sənətə bağlayanların sənət məbədidir.

Şirməmməd müəllim jurnalistika fakültəsinin ilk məzunudur. Qədim Şəki torpağında doğulub böyümüş, hələ uşaq çağlarında başqalarından seçilən, 6-cı sinifdəykən şer söyləmək istedadı bütün respublikaya yayılan Şirməmməd Hüseynov fəaliyyətə fizika-riyaziyyat müəllimi kimi başlayır. Şəkidə ikillik pedaqoji təhsildən sonra o, Zaqatalanın Varxian, Şəkinin Aşağı Göynük və Oxut orta məktəblərində fizika-riyaziyyat müəllimi işləyir. Vaxtilə Şəkidə çıxan "Nuxa fəhləsi" qəzetində ədəbi işçi kimi fəaliyyət göstərən Şirməmməd Hüseynov müharibədən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin yenicə açılmış jurnalistika şöbəsinə daxil olur və bununla da keçmiş fizik Azərbaycanda jurnalist sənətkarlığının "cazibə qanunu"nu kəşf edir. Şirməmməd müəllimin riyazi təfəkkürü sonralar jurnalistikanı filoloji yanaşmadan xilas edir. ONUN mühazirələrində olanlar yaxşı bilirlər ki, Şirməmməd müəllim jurnalistikanın mahiyyətini necə riyazi dəqiqliklə xarakterizə edir. Bir dəfə Şirməmməd müəllim bizə dedi ki, İohan Quttenberq ixtisasca zərgər olub, ona görə də jurnalistika zərgər dəqiqliyilə yanaşma tələb edir. Sən demə, Quttenberq kitab şriftlərini zərgər qəliblərində hazırlayırmış. Bəlkə də BDU-nun jurnalistika fakültəsi dəqiqliyi, əqidəsi, halallığı, bütövlüyü ilə ona görə fərqlənir ki, bu fakültəni də öz qəlibinə məhz keçmiş riyaziyyatçı Şirməmməd Hüseynov salıb. ONUN əliylə qurulmuş bu ocaq müqəddəsdir. Bunu yubiley tədbirində söz alanların hamısı etiraf etdi. Şirməmməd müəllim olan yerdə ədalət var, həqiqət var, təmizlik var. Bu gün jurnalistika fakültəsində

oxuyanlar, çalışanlar bilirlər ki, bu fakültədə Şirməmməd müəllim adında bir şəxsiyyət var və Allah göstərməsin, kiminsə tamahı güc gəlsə, kimsə yolunu azsa, onu hansı aqibət gözləyir.

...Şirməmməd müəllim hələ 2-ci kursdan Universitet qəzetinin redaktor müavini təyin olunur. Ümumiyyətlə, bu şöbənin ilk məzunları arasında sonralar jurnalistikada öz sözünü demiş qələm sahibləri çoxdur. "Kommunist" qəzetinin redaktoru, Mərkəzi Komitənin mətbuat şöbəsinin müdiri olmuş Rəşid Mahmudov Şirməmməd müəllimin tələbəlik illərini bizimlə söhbətində belə xatırladı: "Şirməmməd müəllim çox gözəl tələbə olub. O bizdən bir az yaşlı idi. "Nuxa fəhləsi"ndən gəlmişdi. Aramızda situasiyadan tez baş çıxarması, aydın təfəkkürü ilə seçilirdi, bütün müəllimlərin, tələbələrin sevimlisi idi. Biz onunla bir yataqxanada qalırdıq. Çətin illər idi. Elə olurdu ki, bir tikə çörəyi də bölüb yeyirdik. Sonra onu yaxşı tələbə olduğuna görə Moskva Dövlət Universitetinə aspiranturaya qəbul etdilər. Şirməmməd Hüseynovun müdafiəsində jurnalistika fakültəsinin banisi Həsən Şahgəldiyev özü də var idi. Şirməmməd müəllim çox zəhmətkeş insandır. Ən əsası odur ki, bu insan yüzlərlə kadr yetişdirib, saçlarını jurnalistikanın yolunda ağardıb. Mən onu Azərbaycan jurnalistikasının müəllimi sayıram. Ona uzun ömür, cansağlığı, 100 il yaşamağı arzu edirəm".

Moskva həyatı Şirməmməd müəllimin həyatında mühüm mərhələ olur. 1950-54-cü illərdə Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin aspiranturasında təhsil alan Şirməmməd müəllim burada da fərqlənir. Orada Şirməmməd müəllim jurnalistika istiqamətində ən ciddi əsərlərin müəllifi kimi tanınan Yasen Nikolayeviç Zasurski, məşhur tədqiqatçı Boris İvanoviç Yesin kimi alimlərlə yoldaşlıq edir. MDU-nun jurnalistika fakültəsinin dekanı, Amerika ədəbiyyatı mütəxəssisi Zasurski Şir-

məmməd Hüseynov haqqında deyir: "Şirməmməd Hüseynov hələ aspirantura illərindən Azərbaycanın böyük patriotudur. O elmi işində də, həyat tərzində də, dünyabaxışında da həmişə azərbaycanlıdır. Biz araq içməyə gedəndə, başqa əyləncələrə sərf etdiyimiz vaxt ərzində Şirməmməd yataqxanada daha bir kitabı oxuyub başa çatdırırdı" ("Şirməmməd Hüseynov. Biblioqrafiya". 2004).

Şirməmməd müəllim neçə-neçə elmi-praktik konfranslarda, jurnalistika ilə bağlı müşavirələrdə Azərbaycanı təmsil edib. Onu başqalarından fərqləndirən və sevdirən bu insanın qeyri-adi dərəcədə orijinal olmasıdır. Şirməmməd müəllim Amerika jurnalistlərinin işləyib hazırladıqları jurnalistika nəzəriyyələrinin Məhəmməd Əmin Rəsulzadənin, Həsən bəy Zərdabinin, Üzeyir Hacıbəyovun fikirlərindən həm də uzağa getmədiyini, bizim klassiklərin fikirlərini elə ustalıqla, o qədər aydın şərh edir ki, tələbədə Azərbaycan ziyalısının əslində ən böyük qiymətə layiq olduğuna əminlik yaranır. Şirməmməd Hüseynovla Azərbaycan jurnalistikasında yeni mərhələ - tədqiqat mərhələsi başlayır. Sovetlərin istilasınadək mövcud olan Azərbaycan mətbuatını ona qədər heç kim bu qədər dəqiqliklə tədqiq etməyib. Şirməmməd müəllim 800-dən artıq elmi-publisistik məqalənin, 15-dən çox kitab və monoqrafiyanın müəllifidir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcısı və rəhbəri, görkəmli ictimai xadim, mətbuat tarixi haqqında ilk elmi əsərin müəllifi Məhəmməd Əmin Rəsulzadənin dəyərli publisistik irsinin Azərbaycan oxucusuna çatdırılması Şirməmməd müəllimin öz milləti qarşısında böyük xidmətidir.

Həmin tədbirdə Şirməmməd müəllimin ünvanına çox xoş sözlər söylənildi. Dünyanın ən gözəl müəllimi, ən fədakar tədqiqatçısı, ən gözəl publisisti, ən mərd insanı, müəllimlərin

müəllimi adlandırdılar Şirməmməd Hüseynovu. Bu həm də böyük-böyük jurnalistlərin Şirməmməd müəllim qarşısında nitq mədəniyyətindən, jurnalist sənətkarlığından verdikləri imtahan idi. Bütün hallarda, Şirməmməd müəllim haqqında düşüncələrini onun şəxsən özünə çatdıra bilmək, bu hadisəni yaşamaq özü böyük zövq idi. Yazı müəllifi də cəsarətə gəlib deyəcək:

- Sizi sevirik, müəllim! Siz bizim üçün həyat idealısınız! Təmizliyiniz, qətiyyətiniz, zəhmətkeşliyiniz, istedadınızla! Siz qocaman elmlərin arasında ürkək gəzib-dolaşan, hələ sümükləri bərkiməmiş çağdaş Azərbaycan jurnalistikasının mənəvi atasısınız! Bayramınız mübarək, ATA!

Sizin 90 yaşınızın tamamında daha peşəkar yazmaq arzusuyla tələbəniz.

Ülviyyə ƏSƏDZADƏ

"525-ci qəzet", 21 dekabr 2004-cü il

"ÖLMƏK QORXULU DEYİL, ƏN DƏHŞƏTLİSİ YAŞAMAMAQDIR"

Müsavat Partiyası Azərbaycanın görkəmli alimi, professor Şirməmməd Hüseynovun 80 illik yubileyini qeyd etdi

İsa Qəmbər: "Şirməmməd müəllim Azərbaycanı Rəsulzadədən götürüb gələcəyə aparan körpüdür"



Dünən Azərbaycan mətbuatının ən nəhəng simalarından biri, görkəmli ziyalı, ləyaqətli vətəndaş, vicdanlı müəllim Şirməmməd Hüseynovun 80 yaşı tamam oldu. Bu münasibətlə Müsavat Partiyasının qərargahında kiçik, təntənədən uzaq, amma olduqca səmimi atmosferin hökm sürdüyü bir yubiley tədbiri keçirildi. Şirməmməd müəllimin yubileyinə onun ailə üzvləri, tələbələri, Azərbaycanın tanınmış ziyalıları, qələm sahibləri, siyasətçiləri təşrif buyurmuşdular. Bu sırada tanınmış ziyalılarımızdan Sabir Azəri, Nurəddin Mustafayev, Cavanşir Quliyev, Mürşüd

Məmmədli, Əlisa Şükürlü, Şövkət Tağıyeva, Almaz Əliqızı, Nüşabə Sadıxlı, Nəriman Qasımoğlu, Böyük Quruluş Partiyasının başqanı Fazil Qəzənfəroğlu, jurnalistika sahəsinin tanınmış isimlərindən Zeynal Məmmədli, Arif Əliyev və digərləri vardı.



Bu qədər tanınmış simanın toplaşmasına, onların hamısının Şirməmməd müəllimlə bağlı deməyə sözünün olmasına baxmayaraq, təntənəylə, təriflə o qədər də arası olmayan yubilyar tələbələrinə, onu sevənlərə bu imkanı vermədi. Amma cəmi bir saatlıq, dördçıxışlıq bu tədbir o qədər maraqlı, canlı keçdi ki, zənnimizcə, hətta bir gün davam edən, böyük təntənə ilə qeyd olunan hansısa yubileydən belə bu qədər ləzzət almaq mümkün olmazdı.

"Biz Şirməmməd müəllimdən həm jurnalistika, həm vətəndaşlıq, həm də düzlük dərsi öyrənmişik"

Tədbirdə ilk sözü Şirməmməd müəllimin tələbəsi, Müsavat başqanının müavini Mehman Cavadoğlu söylədi. O, adı Azərbaycan ictimaiyyətinə yaxşı tanış olan müəllimindən çox dərs aldığını dedi: "Biz ondan həm jurnalistika elmini, həm vətəndaşlıq elmini, həm də qeyrətli olmaq, düz olmaq, bütün situasiyalarda fəal vətəndaş mövqeyi tutmaq dərsini öyrənmişik". Şirməmməd müəllimin təkcə jurnalistika sahəsində çalışanlara deyil, Azərbaycan cəmiyyətinin bütün kəsimlərinə örnək olası ömür yaşadığını deyən Mehman bəy onunla bağlı çox xatirələrinin olduğunu söylədi: "Təsəvvür edin ki, 70-ci illərdə biz universitetin auditoriyalarında hətta bəzən bu gün də kimlərinsə cəsarət edib deyə bilmədiyi sözləri Şirməmməd müəllimin dilindən eşidirdik. Bir dəfə Şirməmməd müəllim Azərbaycan mətbuatının dili ilə bağlı mühazirə aparırdı. Qəzetlərin dilinin bərbad olmasından söhbət gedirdi. Onda Şirməmməd müəllim dedi ki, "Azərinform" Azərbaycan dilini uçuruma yuvarladan irtica yuvasıdır. Azərbaycan dilinin başına açılan bütün oyunlar məhz oradan qaynaqlanır. Təsəvvür edin ki, bu sözləri 70-ci illərdə dilə gətirmək nə demək idi. Həmin vaxtlarda "Azərinform", "Kommunist" qəzeti, "Pravda" qəzeti elə təxminən Sovet hökuməti demək idi, bu hökumətin əsas dayaqları idi. Şirməmməd müəllimin həmin sözləri o vaxtdan bizim qulağımızda sırğa oldu".

"Vaxt olacaq, Şirməmməd müəllimin zəngin irsini araşdıranlar deyəcəklər: "Nə xosbəxtəm ki, belə bir maraqlı ömür səhifələrini vərəqləyirəm".

Qocaman professorun həyat və yaradıcılıq yolundan keçmiş tələbəsi, hazırda isə müəllim yoldaşı olan Müsavat Partiyasının Divan üzvü Nəsiman Yaqublu danışdı. Şirməmməd müəllimi təbrik etməklə sözə başlayan Nəsiman bəy böyük Məhəmməd Əmin Rəsulzadədən sitat gətirdi: "Rəsulzadə yazırdı ki, Azərbaycan davası iki-üç adamın adına bağlanacaq bir dava deyil, bu mübarizəni bizdən əvvəl də davam etdirənlər olub, bizdən sonra da davam etdirənlər olacaq. Yəni əslində Məhəmməd Əmin Rəsulzadə başda olmaqla, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Həsən bəy Zərdabinin, çağdaş dövrümüzdəki siyasətçilərimizin fəaliyyətinə, Azərbaycan cəmiyyətinə fayda vermək uğrundakı çalışmalara diqqət yetirdikdə, bu fikrə gəlmək olur ki, doğrudan da, Azərbaycan davası yalnız hər kəs öz bacardığı qədər fayda verəcəyi halda həllini tapa bilər."

Əsrin əvvəlində böyük öndərlərimizin bizə zəngin bir irs, hazır bir Azərbaycan modeli qoyub getdiklərini deyən N.Yaqublu qeyd etdi ki, bu gün Şirməmməd müəllim o sərvəti bizə çatdırır: "Bu gün Şirməmməd müəllimin yazdıqlarının əsası odur ki, Azərbaycan cəmiyyəti üçrəngli bayrağımızda da əksini tapdığı kimi, müasirləşməlidir. Şirməmməd müəllimin Zərdabinin, Rəsulzadənin, Əhməd Ağaoğlunun, Əli bəy Hüseynzadənin irsini araşdırıb bu günkü nəslə çatdırmasının əsas motivi odur ki, bu insanların qoyub getdiyi ən düzgün, ən faydalı dəyər sistemi müasirləşməkdir. Mənə elə gəlir ki, biz Şirməmməd müəllimin əsərlərini oxuduqca həm keçmişimizə bağlanacağıq, həm də gələcək nəsil üçün yaxşı bir baza qoyacağıq və bizə də rəhmət oxuyacaqlar."

Adətən çıxışlarını böyük Azərbaycan demokratlarından gətirdiyi maraqlı sitatlar üzərində quran Nəsiman bəy sonda da adətinə xilaf çıxmadı: "Mən 90-cı ildə Türkiyədə Məhəmməd Əmin Rəsulzadə haqqında araşdırmalar aparanda orada Seyid Cəfər Krımərin bir məktubunu tapdım. Bu məktub Məhəmməd Əmin Rəsulzadənin 70 illiyi münasibətilə yazılmışdı. Orada bir söz



məni tutdu və onu öz kitabım üçün epiqraf seçdim. Həmin cümlə beləydi: "Emin bəy, bir zaman gələcək ki, sizin həyatınızı araşdıracaq bir şəxs hər dəfə bu maraqlı həyat məqamları ilə rastlaşdıqca deyəcək ki, nə mutlu mənə ki, belə bir dəyərli ömür səhifələrini araşdırıram". Mənə elə gəlir ki, bir zaman gələcək, Şirməmməd müəllimin qoyub getdiyi zəngin irsi araşdıran, ondan faydalanan insanlar bu sözləri təkrarlayacaqlar: "Nə xoşbəxtəm ki, belə maraqlı bir ömür səhifələrini vərəqləyirəm".

"Şirməmməd müəllim keçmişlə bu gün kimi ünsiyyət qura, dərdləşə bilir"

N.Yaqublu çıxışını bitirdikdən sonra Mehman bəy tələbəlik illərinin xatirələrindən söz açdı: "Mən inanmıram ki, hər hansı fakültənin tələbəsi öz dekanına bizim Şirməmməd müəllimə güvəndiyimiz kimi güvənə bilər. Bu, bir yubiley sözü deyil, həqiqətdir. Şirməmməd müəllimin bizdən bir tələbi vardı: "Balası, nə edirsiniz edin, amma gəlin, düzünü danışın." O, bizim istənilən günahımızı bağışlayırdı, təki düz danışaydıq. Tələbə haqsız da olanda, düz danışırdısa, Şirməmməd müəllim onu müdafiə edirdi."

Bu girişdən sonra M.Cavadoğlu sözü "70-ci illərdə jurnalistikanın ən yaxşı oxuyan və ən nadinc tələbəsi" kimi təqdim etdiyi Zeynal Məmmədliyə verdi. Zeynal müəllim də Ş.Hüseynovun ən çox yalana nifrət etdiyini vurğuladı: "Onun prinsipi belədir ki, sən yalan danışma, ən böyük yanlışlığını belə boynuna al, bağışlanmaq imkanın qalsın. Mənimlə oxuyan bir tələbə təcrübədə olmamışdı, amma Şirməmməd müəllimi aldatmışdı ki, guya olub. Şirməmməd müəllim onu xaric etdi. Amma siz təsəvvür edin ki, o adam indinin özündə də Şirməmməd müəllimi necə çox istəyir. Yəni cəza günaha adekvat olanda inciməyə yer qalmır. Şirməmməd müəllimin jurnalistika üçün etdiklərində mən keçmişlə qırılmaz ünsiyyət görürəm. Amma bu, keçmiş olduğu üçün ünsiyyət deyil. Məsələn, siz Şirməmməd müəllimi heç zaman gurultulu məclislərdə görməzsiniz. Amma mən əminəm ki, Şirməmməd müəllim daima Məhəmməd Əmin bəylə, Topçubaşovla dərdləşir. O, keçmişi özü üçün reallığa çevirə bilib, keçmişlə bu gün kimi dərdləşə bilir. Bu mənada biz Şirməmməd müəllimdən çox şey öyrənirik".

Z.Məmmədli əvvəllər tariximizə skeptik və kompleksli baxdığını, lakin Ş.Hüseynovun Rəsulzadə dövrü və jurnalistika ilə bağlı araşdırmalarını oxuduqdan sonra bu rəyinin dəyişdiyini vurğuladı: "Mən gördüm ki, bizim bu gün Avropadan götürmək

istədiyimiz demokratiya, insan haqları və bu kimi anlayışları bizim nəhəng şəxsiyyətlərimiz əsrin əvvəlində çox dəqiq şəkildə ifadə ediblər. Yəni mən tarixi bilmədiyimdən, ona kompleksli baxırdım. Mən Şirməmməd müəllimə məni, digər tələbələrini bu kompleksdən qurtardığı üçün təşəkkürümü bildirirəm".

Sonda Şirməmməd müəllimə həmişə gənc qalmağı arzulayan Zeynal müəllim çıxışını zarafatla yekunlaşdırdı: "Mən Şirməmməd müəllimlə birlikdə pilləkəni çıxa bilmərəm. Heç vaxt çıxa bilmərəm, geri qalaram. Arzu edirəm ki, elə belə də qalasınız, Şirməmməd müəllim."

"Şirməmməd müəllim həmişə tələbələrdən əla qiymət alıb"

Mehman bəy xoş sözləri, arzuları davam etdirmək üçün Müsavat Partiyasının başqanı İsa Qəmbərə söz verdikdə, Şirməmməd müəllim bir əlavə etmək istədiyini dedi: "Mənim yeni nəşr olunan kitabımda bir şəkil var. Bu, mənim orta məktəbdə çəkdirdiyim şəkildir. Həmin şəkildə İsa bəyin anası Tahirə xanım da var. Biz onunla 10 il bir sinifdə oxumuşuq. İndi tarixə baxın, Şəkidə bir kənd məktəbində eyni sinifdə oxuyan Tahirə xanımın oğlu Müsavatın başqanı olub, Şirməmməd Hüseynov isə Müsavatın birinci başqanının tarixçisi. Mən həmişə o şəklə baxıram, İsa bəyə baxıram və deyirəm ki, bu, taleyin işidir..."

Professorun bu təqdimatı zalda alqışlarla qarşılandı. Şirməmməd müəllimlə şəxsən 80-ci illərin ortalarında tanış olduğunu deyən Müsavat başqanı isə həmin tarixə qısa ekskurs etdi: "O zaman Azərbaycanın əsas fikir mərkəzlərindən biri Şirməmməd müəllimin, Bəxtiyar Vahabzadənin, Nurəddin Rzayevin, Xudu Məmmədovun, Mahmud İsmayılovun və digər dəyərli insanların cəmləşdiyi mərkəz idi. Təsəvvür edin ki, məni - nisbətən cavan bir adamı həmin mərkəzə dəvət edib müəyyən məsələləri deyirdilər, mənim də gənclərlə, akademi-

yadakı vəziyyətlə bağlı fikirlərimi soruşurdular. Mən də bununla çox fəxr edirdim. Həmin günlərdə güneyli bir dostumuz yanıma gəldi, dedi ki, xanımı jurnalistika fakültəsində oxuyur, Şirməmməd müəllim onu imtahandan kəsib, eşitmişəm, onunla salam-kəlamınız var, deyin, qiymət yazsın. Mən də Şirməmməd müəllimin xasiyyəti barədə eşitmişdim, amma fikirləşdim ki, güneyli dostumuz xahiş edir, mən necə imtina edim? Şirməmməd müəllimlə görüşüb, bu məsələni ona dedim. Mənə cavab verdi ki, "İsa, o adam güneylidir, bir bal ona görə yazıram. Sən məndən xahiş etdin, bir bal da yazıram. Bu oldu iki. Bir balaca da oxusun, gəlsin, bir üç yazaram".

İsa bəyin danışdığı bu əhvalatı zalda toplaşan və Şirməmməd müəllimin prinsipiallığına bələd olan insanlar qəhqəhəli alqışlarla qarşıladılar. Müsavat başqanı isə bu əhvalatı təsadüfən xatırlamadığını dedi: "Mən istəyirəm ki, Şirməmməd müəllimin şəxsiyyət kimi qiymətini dərk edək. Avropalı yumorist sosioloqlardan biri deyir ki, ictimai rəy mayak deyil, gəzişən, sayrışan işıqlardır. Ancaq tarixdə, cəmiyyətdə insanlar varki, onların özləri də, fəaliyyətləri də mayakdırlar. Həmin şəxslərdən biri Şirməmməd müəllimdir. 70-ci illərdə tarix fakültəsində oxuyanda orada tələbələr arasında söhbətlər olurdu, müəllimlərin hamısının qiymətini tələbələr özləri müəyyənləşdirirdilər. O qiyməti alanların içində əlaçı olanlardan biri də Şirməmməd müəllim idi. 70-ci illərin auditoriyasını siz təsəvvür edin. Həmin vaxtlarda mənə danışırdılar ki, Şirməmməd müəllim, Bəxtiyar müəllim auditoriyada gənclərə Müsavatdan, Rəsulzadədən danışırlar, olub-keçənlərə prinsipial qiymətlər verirlər. Buna çox təəccüblənirdik, eyni zamanda sevinirdik ki, bu sözləri danışan adamlar varsa, deməli, biz də nəsə deyə bilərik. Yəni bu insanlar həmin ənənəni yaşadıblar." Şirməmməd müəllim 80 il ləyaqətlə yasamağın mümkün olduğunu sübut edib.

Ş.Hüseynovun Azərbaycan qarşısında çox böyük xidmətlərinin olduğunu deyən İsa Qəmbər onun Müsavat irsini

toplayıb, araşdırıb xalqa çatdırmasını xüsusilə önə çəkdi: "Doğrudan da Şirməmməd müəllim elə şəxsiyyətləri tədqiq edir ki, onun haqqında danışmaq istəyən kimi başlayırsan həmin şəxslərin haqqında danışmağa. Həmin şəxslərin birçoxu haqqında məlumatları da biz Şirməmməd müəllimin tədqiqatlarından alırıq. Rəsulzadə misli olmayan bir nəhəngdir. O qədər nəhəngdir ki, Şirməmməd müəllim neçə illərdir çalışır, özü də deyir ki, hələ dənizin sahillərindədir, yavaş-yavaş mərkəzə yaxınlaşmaq istəyir. Bu xəzinəni çox az insanlar, ancaq o dediyimiz mayaklar bizə çatdırmağa çalışıblar. Biz bu böyük xəzinədən hələ ki az faydalana bilirik. Mən bu günkü tədbiri siyasi meydana çevirmək istəmirəm, amma açıq etiraf elmək lazımdır ki, biz bu insanların qiymətini verə bilmirik. Bizim gücümüz çatmır, hakimiyyət də ki, başqa dəyərlər kontekstində fəaliyyət göstərir. Bir ölkədə ki, aeroportundan tutmuş kiçik bir dalanına qədər hamısına Heydər Əliyevin adı verilir, ancaq Rəsulzadənin 120 illiyində Azərbaycan Dövlət Universitetinin adı boş qalıb. Ölkədəki ad qoyulması mümkün olan yerlərin yarıdan çoxuna Heydər Əliyevin adı verilir, ancaq bir universitetin adı Rəsulzadədən alınır və ziyalılarımız da susurlar. Bizim yubilyar kimi bir neçə nəfər prinsipial, mübariz şəxs buna münasibət bildirir, ancaq bu gün özünü ziyalı adlandıran, balaca bir söz deyən kimi xətrinə dəyən hörmətli ziyalılarımız buna göz yumurlar. Onlar buna necə göz yuma bilirlər ki, hara baxırıq Heydər Əliyevin adını görürük, ancaq Rəsulzadənin, Üzeyir Hacıbəylinin adı yoxdur? İndiki rejimi müdafiə etmək cəsarətinə sahib olan ziyalılarımız buna nə cür dözürlər? Mən başqa bütün məsələləri bir kənara qoyuram, onlar bircə buna görə öz övladlarının gözünə necə baxırlar? Gələcək nəslin gözünə necə baxacaqlar? Bir cəmiyyətdə ki, Rəsulzadənin qiyməti verilmir, biz təbii ki, bu məmləkətdə Şirməmməd müəllimin qiymətinin verilməsini gözləməkdə bəlkə də bir qədər sadəlövhlük göstəririk. Ancaq gücümüz çatan qədər

dəyərləri görməyi, dəyərləndirməyi bacarmalıyıq və mən Şirməmməd müəllimi də xalqımızın, millətimizin ən böyük dəyərlərindən biri hesab edirəm. Bu zalda əyləşən ağsaqqallarımız var, ancaq deyəsən, Şirməmməd müəllim onların içərisində ən yaşlısıdır. 80-dən yuxarı yaşı olan varsa, desin..."

Bu məqamda Şirməmməd müəllim yenə zarafatı ilə hamını güldürdü: "Varsa, əlini qaldırsın."

Müsavat başqanı isə zalda Şirməmməd müəllimdən yaşlısı olmadığı kimi, ondan cavanının da olmadığını söylədi: "Onun bu enerji ilə çalışması mənə elə gəlir ki, hər birimizə örnəkdir. Şirməmməd müəllimin varlığı bizdə ümid oyadır ki, əvvəla, 80 yaşa qədər yaşamaq mümkündür. İkincisi, Şirməmməd müəllim onu sübut edib ki, 80 yaşa qədər ləyaqətlə yaşamaq mümkündür. Çünki bizdə bir çoxları 30 yaşa qədər ləyaqətlə yaşayırlar. 40-a, 50-yə çatanlar var, amma 60-a çatanda çoxları sınır. Bir çox dəyərli ziyalılarımız 60 yaşa çatanda sındılar. Mən onları da qınamaq istəmirəm. 60 yaşa çatırlar, düşünürlər ki, mən bu millət üçün filan işləri görmüşəm, filan kitabları yazmışam, filan vaxt xalqı müdafiə etmişəm, həqiqəti söyləmişəm, amma mənə bir orden verən, prezident təqaüdünə yazan yoxdur, bu, necə olur? Və o adamlar elə həmin anda da sınırlar. Təəssüf ki, mən əsas sınma yaşını 30 və 60 yaşında insanlarda görürəm. Allaha şükür ki, az da olsa, sınmayan insanlarımız var. Şirməmməd müəllim də 80-ə çatıb, ləyaqət-lə yaşamağın mümkün olduğunu sübut edən bir adamdır. Bu, mənə ümid verir ki, biz də çalışsaq, yolumuzu düzgün davam etsək, bütün həyatımızı ləyaqətlə yaşaya bilərik. Stalin, Mircəfər Bağırov, Heydər Əliyev dövründən keçməklə, bu günkü insan ləyaqətini qorumağın çətin olduğu dövrdə ləyaqətli yaşamaq mümkün olubsa, deməli, biz hamımız nümunə götürə bilərik."


İsa bəy Şirməmməd müəllimə hələlik 100 il ömür arzuladığını, onun 90, 100 illik yubileylərini qeyd edəcəklərini bildirdi: "Arzu edirəm, o vaxtadək hamımız salamat qalaq ki, bu

kişinin 90 illiyini qeyd edək. 100 illiyini də mən ümid edirəm ki, Şirməmməd müəllimlə birlikdə qeyd edəcəyik. Ancaq bizə görə demirəm, xalqa görə Şirməmməd müəllimin yubileyi ölkənin ən böyük zallarında qeyd olunmalıdır, ölkənin ən yüksək ordenləri, medalları belə şəxslərə verilməlidir."

Başqanın bu istəyinə özünəməxsus şəkildə etiraz edən Şirməmməd müəllim yenə zarafatından qalmadı: "Allah göstərməsin, istəmirəm." Rəsulzadə mükafatı təsis ediləcək və onun ilk laureatı Şirməmməd Hüseynov olacaq.

İsa Qəmbər sözünə davam edərək bildirdi ki, "Şərəf" ordenini Şirməmməd müəllimə deyil, başqa birina verməklə həmin adamın şərəfini artırmaq mümkün deyil: "Ordenlə şərəf artmır. Orden, sadəcə, cəmiyyətə mesajdır ki, sən də millətin üçün nəsə etsən, dövlət bunu qiymətləndirəcək. Hələlik bizim əlimizdə belə imkanlar yoxdur. Ancaq mən inanıram ki, inşallah, yaxın zamanlarda xalq hakimiyyətə gələcək və o zaman xalqın dəyərli insanlarının da əsl qiyməti veriləcək. Mən hələlik əvvəlcədən bir məsələni bəyan edirəm ki, Azərbaycanın Rəsulzadə adına mükafatı təsis olunacaq və onun ilk laureatı Şirməmməd müəllim olacaq. Bizim söhbətimiz oldu ki, indi hər təşkilat bir mükafat təsis edir, bəlkə biz də indi bir mükafat təsis edib Şirməmməd müəllimə verək. Ancaq qərara gəldik ki, mükafatların, adların dəyərini aşağı salmaq olmaz. Bu, dövlət səviyyəsində olmalıdır və inşallah, olacaq. Həmin mükafatın birinci laureatı Şirməmməd müəllim olacaq. Heç kim o yerə iddia etməsin. Çünki Rəsulzadə adı gələndə mən mütləq Şirməmməd müəllimin adını onunla yanaşı görürəm. Mən Şirməmməd müəllimi təbrik edirəm. Arzu edirəm ki, Şirməmməd müəllim öz arzularını həyata keçirə bilsin. Çünki onun arzuları millətin, cəmiyyətin arzularıdır. Bu gün Şirməmməd müəllimin ailəsi, övladları, nəvələri buradadır, onların hər biri görkəmli insanlardırlar və bu ailənin böyüyü ilə fəxr edirlər. Mən istəyirəm ki, bu ailə xoşbəxt olsun. Çünki bu ailə xoşbəxtliyə layiqdir."

Azərbaycanı Rəsulzadədən götürüb gələcəyə aparan körpü



Sonda Müsavat başqanı Şirməmməd müəllimə öz hədiyyələrini çatdırdı. İlk hədiyyə İsa Qəmbərin təbriki yazılmış buklet və gül çələngi oldu. Növbəti hədiyyə isə Xudafərin körpüsünün əks olunduğu bir tablo idi. Müsavat başqanı Azərbaycan idealı ilə yaşayan adamların bu körpünün dəyərini bildiklərini söylədi: "Bu körpü Azərbaycanın keçmişinin və gələcəyinin rəmzidir. Eyni zamanda təkcə torpaqlar arasında deyil, zamanlar arasında da bir körpü olur. Şirməmməd müəllim özü də bir körpüdür. Azərbaycanın ən qədim zamanlarından gələn dəyərli insanların xəttini davam etdirən, Azərbaycanı Rəsulzadədən gotürüb gələcəyə aparan bir körpüdür. Ona görə də bu rəmz həm də Şirməmməd müəllimin özünə aiddir."

"Ölmək qorxulu deyil, ən dəhşətlisi yasamamaqdır"

İsa bəyin təbrikindən sonra Şirməmməd müəllim üzünü Mehman bəyə tutaraq "daha əlavə sözə ehtiyac yoxdur" - deyə çıxışların tamamlanmasını istədi. Və yekun sözü özü dedi. Bu, əslində adi söz, adi çıxış deyil, dərs idi. 80 yaşlı gənc müəllimin tələbələrinə keçdiyi həyat dərsi: "Ölmək qorxulu deyil, ən dəhşətlisi yaşamamaqdır. Adama insan kimi yaşamaq müyəssər olmursa, o, ruhən rahat yatmırsa, gələcəyindən narahat olmursa, uşaqlarının üzünə alnıaçıq baxa bilmirsə, keçmişə namus-qeyrətlə üzünü çevirmirsə, nəhəng kişilərin ruhu ilə danışmırsa, onların qoyub getdiklərini öyrənmirsə, onları özünə böyük saymırsa, yaşamaq olmur. Mənim fikrimcə, iki cür dövlət var. Bunun biri maddidir. Biri isə bizim mənəvi xəzinəmizdir. Bizim maddi xəzinəmizə sahib duranlar çoxdur: amerikanlar, ingilislər, avropalılar. O sahib çıxanlar burada istədiklərini ediblər. Xalq necə yaşayır, nə ilə nəfəs alır, necə ömür sürür, onların eyninə deyil. Onlar sakitçilik istəyirlər. Kimin qırılmağının, zülm çəkməyinin hesabına? Onun bunlara dəxli yoxdur. Məhəmməd Əmin yazırdı ki, avropalılar, amerikalılar öz ölkələrində demokratdırlar, kənara çıxanda müstəmləkəçidirlər. Ona görə deyirdi ki, bizə avropalıların elmi, texnikası, Şərqin əxlaqı lazımdır. Demək istəyirəm ki, dövlətin maddi xəzinəsinə sahib çıxanlar çoxdur. Pul qazanmaq heç də pis deyil, amma halallıq olmalıdır. Həsən bəy Zərdabi deyirdi ki, "bizə pul qazanmaq elmini öyrənmək lazımdır. Bu elmi öyrənməsək, qonşularımız o elmə yiyələnib, bizi özlərinə nökər edəcəklər." Pul qazanmaq elmini öyrənmək lazımdır. Amma bunun bir halallığı var."

Şirməmməd müəllim bildirdi ki, mənəvi xəzinəyə sahib çıxmağın əsas şərti nəfsə hakim olmaqdır: "Nəfsinə hakim olmayan adamdan millət adamı olmaz. Nəfsinə hakim olmaq üçün gərək bunu özünə tərbiyə edəsən."

Çıxışını "uşağın güclü yeri ayağı, cavanın güclü yeri dizi, orta yaşlının güclü yeri beli, qocanın da güclü yeri çənəsidi" - deyə zarafatla yekunlaşdıran yubilyar tədbirə toplaşan hər kəsə təşəkkürlərini çatdırdı: "80 yaş sağlam yaşamaq üçün adam daxilən təmiz olmalıdır. Daxilən təmiz olanda adam ölümündən də narahat olmur, rahat başını qoyub yatır. Mən hələ bilmirəm ki, yuxusuzluq nədir. Adam ki, mənən, ruhən təmiz olur, nəfsinə hakim olmağı bacarır, onu heç nə narahat etmir. Kim deyirsə ki, bu həyat maraqsızdır, mən buna inanmıram. Mən maraqsız həyat yaşamaq istəmirəm. Maraqlı həyat isə həyatın içindədir. Nə işlə məşğul olursan ol, həyatı maraqlı yaşamaq lazımdır."

Beləcə, Şirməmməd müəllimin 80 illik yubileyi münasibətilə Müsavat Partiyasının təşkil etdiyi tədbir yekunlaşdı. Tədbirdən sonra isə İsa Qambər Şirməmməd müəllimə ürək sözlərini çatdıra bilməyən, amma bu arzusunu mütləq yerinə yetirmək istəyən hər kəsi çay süfrəsinə dəvət etdi.

Könül ŞAMİLQIZI
Foto: Alim KAZIMLI

AZƏRBAYCAN JURNALİSTLƏ□RİNİN MÜƏLLİMİ

...2001-ci ilin may günlərinin birində qəzetimizin naşiri Mahmud Məmmədovun tapşırığı ilə keçmiş müəllimim, Azərbaycan mətbuatının ən nüfuzlu, vicdanlı, obyektiv və xeyirxah şəxsiyyətlərindən biri olan Şirməmməd Hüseynova birgə işlə bağlı zəng edəndə ağlıma belə gətirə bilməzdim ki, bu təsadüf çox böyük tədqiqatçılıq, dəyərli publisistik fəaliyyəti ilə sonuclanacaq və Azərbaycanın keçmiş və çağdaş həyatının inandırıcı və konkret tarixi faktlar əsasında dolğun və obyektiv mənzərəsini yaradacaq əməkdaşlığa çevriləcəkdir. Elə mənzərə ki, təkcə "Günay" qəzetinin minlərlə oxucusu deyil, hətta ayrı-ayrı tədqiqatçılar, aspirantlar, hətta tələbələr dönə-dönə Ş.Hüseynovun dörd il ərzində inamla və çox böyük məsuliyyətlə apardığı rubrikaya müraciət edəcəklər.

Şirməmməd müəllim bu dörd il ərzində "Günay"ın səhifələrində 150-dən artıq araşdırma məhsulu, az qala hər biri elmi əsər ola biləcək məqalələr dərc etdirmişdir. Bu publisistik materiallar öz əhatə dairəsinə, sanbalına, maraqlılığına və akademizminə görə istənilən elmi-tədqiqat institutunun fəxr etdiyi araşdırmalarla cəsarətlə rəqabətə girə bilər.

Ş.Hüseynovun tədqiqat diapazonu, müraciət etdiyi mövzuların əhatə dairəsi kifayət qədər genişdir. Onun "Günay" qəzetində dərc olunmuş əsərlərinin əsas mahiyyətində Azərbaycan, onun keçmişi, indisi, gələcəyi və doğma yurdumuzu ilgiləndirən regional və qlobal problemlər dayanır. Şirməmməd müəllim özü "Günay" qəzetində işıq üzü görmüş araşdırmalarını belə xarakterizə edir:

"Əsas qayə tarixi, elmi baxımdan günün və dövrün aktual problemlərinə öz münasibətimi bildirməkdən, son illərə qədər aşkarlanmamış, işıq üzü görməmiş, bəzən təhrif olunmuş və hətta saxtalaşdırılmış hadisə və şəxsiyyətlərə aid tarixi faktları, mətbu nümunələri oxucuların nəzərinə çatdırmaqdır".

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin mətbuat tarixi kafedrasının professoru Ş.Hüseynovun "Günay" qəzetində pərvəriş tapmış yazıları bir-birindən kifayət qədər fərqli, kifayət qədər müxtəlif işləmə tərzinə malik olsalar da, onları istənilən tədqiqatçı üçün mühüm kateqoriya sayılan və publisistik məhsulun sənətkarlıqla yanaşı mütləq uğurunu təmin edən "Tarix" və "Elm" anlayışları birləşdirir.

Qısa zaman kəsiyində tarixi, bəşəri, mənəvi və əxlaqi dəyərlərin tez-tez dəyişməsi fondunda öz yaradıcı "mən"inə, öz dəstixəttinə, öz üslubuna və heç vaxt dəyişilməyən publisistik əqidə və vicdana sadiqlik istənilən müəllifdən çox böyük insani və ziyalı xüsusiyyətləri tələb edir. Ş.Hüseynov elmi tədqiqatla, maarifləndirmə ilə və Azərbaycan tarixinin ayrı-ayrı qaranlıq səhifələrinin üzə çıxarılması ilə fəal şəkildə məşğul olduğu 50 il ərzində bir dəfə də olsun öz həyat prinsiplərinin əksinə getməmişdir.

Professor Ş.Hüseynovun "Günay" qəzetində dərc olunmuş yazıları sistematik, məntiqi və ictimai fikrə, belə demək mümkündürsə, xronoloji şəkildə təsir göstərmək üzərində qurulmuşdur. Bu 150 yazının hər biri müstəqil və zəhmət tələb edən tədqiqat işi, ürək yanğısı olsa da, onları birləşdirən ümumi və dəyişməz bir ünvan vardır: bu Şirməmməd müəllimin sevgisini heç vaxt ritorik pafosla dilə gətirmədiyi, lakin əsl vətəndaş duyğuları ilə bağlandığı, nəfəs aldığı Azərbaycandır.

Təsadüfdürmü, zərurətdirmi, deməkdə çətinlik çəkirəm, lakin Ş.Hüseynovun "Günay" qəzetinin 2001-ci il may tarixli nömrəsində dərc olunmuş ilk yazısı "Ürək qanı ilə yazılmış sətirlər" adlanır. Bu başlıq, bu həqiqət və bu yanaşma tərzi Şirməmməd müəllimin dörd il ərzində qəzetdə dərc edilmiş bütün materiallar üçün eyni dərəcədə xarakterikdir. Həcmindən və xarakterindən asılı olmayaraq işlənmiş bütün materialların, sözün əsl mənasında, Şirməmməd müəllimin ürək qanı ilə yazıldığına əmin olmamaq qeyri-mümkündür.

Ş.Hüseynovun tədqiqatçı alim kimi əsas yaradıcılıq məziyyəti Azərbaycanın ictimai-siyasi həyatının tarixilik baxımından ayrı-ayrı mərhələlərinə uğurla nəzər salmaq və eyni uğurla da qanunauyğunluqlar aşkar edərək paralelliklər aparmaqdır.

Məsələn, o, "Əsrlər keçir, problemlər isə qalır, niyə?" başlıqlı yazısında Qarabağın tacı olan Şuşada dünyaya göz açmış, Rusiya və Fransada mükəmməl təhsil görmüş, sonralar Azərbaycan Milli Məclisinin katibi olmuş Əhməd bəy Ağayevin iki çıxışını oxuculara təqdim edir. Bu çıxışlarda Azərbaycanın düçar olduğu bəlaların tarixi kökləri barədə, xalqın gələcəyi haqqında səslənmiş ayrı-ayrı fikirlər bu gün də aktual səslənir:

"Avropa ilə yolumuz bağlıdır, orada nə olduğunu bilmirik. Halbuki Avropada hüququ olan hadisatdan müqəddəratımız asılıdır. Avropada nə olduğunu bilməli və ona münasib də siyasətimiz olmalıdır..."

Və yaxud Ş.Hüseynovun "Günay" qəzetinin 27 may 2001-ci il tarixli 21-ci nömrəsində dərc olunmuş "İstiqlal dövrü, təqib illəri, sevincli, əzablı günlərimiz" başlıqlı, 28 may - Respublika gününə həsr olunmuş yazıda cəmi 23 ay ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza "daddırdığı" istiqlal, onun tarixi əhəmiyyətli və indiki nəslin düzgün, sağlam ruhda

böyüməsi üçün reallaşdıra bildiyi ən vacib məqamlardan söhbət açılmışdır. Fikrimizcə, bu yazıda ən əhəmiyyətli məqam Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu il mayın 28-də gənc nəslə ünvanladığı müraciətdir. Bu müraciət bəlkə də indiyədək vətəni necə sevməyi, ona necə bağlanmağı və onun uğrunda canından belə keçmək lazım gəldiyinin uzun-uzadı akademik ifadələrlə deyil, qısa, sadə və anlaşıqlı dildə öz həllini tapdığı yeganə hökümət sənədidir.

"Gənc nəslə.

Azərbaycan gənci! Bu gün sənin cümhuriyyətinin bir yaşı bitir. Kim bilir, tarixi ilahinin tövfiqi ilə qaç, bəlkə də yüzlərlə, minlərlə sənələr sən bugünkü gündə bayrağını götürüb səmimi bir sevinc, həqiqi bir vüqar ilə istiqlal aldığı bu günü xatırlayacaqsan.

...Azərbaycan gənci! İftixar et, qardaş. Oğuz xan nəsli arasında birinci olaraq ən mədəni üsul-idarəyə, cümhuriyyət üsuluna nail olan yenə sənsən.

...Azərbaycan gənci! Gəl, yoldaş. Bu məhsullu əkinlər, sərin sulu yaylalar, həşəmətli ormanlar, qarlı dağlar, meyvəli bağlar, bağçalar, qara altun verən zəngin mədənlər həpsi sənindir".

Şirməmməd müəllimin yuxusuz gecələrdə, tozlu və qaranlıq arxivlərdə, narahat axtarışlarda ötən anların hesabına nəinki Azərbaycan mətbuat tarixinin, eləcə də Azərbaycanın bütöv çağdaş tarixinin qürurunu çevrilən hadisələr aşkar edilərək xalqa qaytarılır. Cəsarətlə demək olar ki, 15 sentyabr 1918-ci il Bakının azadlıq gününün hansı qurbanlar, məhrumiyyətlər bahasına başa gəldiyi və türk qardaşlarımızın bu taleyüklü məsələdə həlledici rolunun aşkar edilib xalqımıza çatdırılmasında professor Ş.Hüseynovun şəksiz xidməti olmuşdur. "Günay" qəzetinin 9 sentyabr 2001-ci il tarixi nömrəsində "Millət sizə minnətdardır" başlıqlı yazısında Ş.Hüseynov tarixi faktların köməyi ilə Bakının azad edilməsinin o vaxtkı mənzərəsini inandırıcı şəkildə göstərə bilmişdir.

Bu günün geniş şəkildə qeyd edilməməsinin əsas səbəbini göstərən Ş.Hüseynov həmin məqalədə yazır:

"Sovet dövründə bu tarix saxtalaşdırıldı, xilaskarlar işğalçı adlandırıldı. Böhtan və iftira baş alıb getdi. Tarixi unutqanlıq bizə baha başa gəldi, amma indi də bu tarixi gün layiqincə qeyd edilmir. Bunu nəzərə alaraq bəzi tarixi sənəd və materiallarını oxuculara təqdim edirəm".

Bu yazı heç kimin, bəlkə heç professor Ş.Hüseynovun da gözləmədiyi çox böyük rezonans yaratdı. "Günay" qəzetinin çıxışından sonra ölkənin kütləvi informasiya vasitələrinin böyük əksəriyyəti bu tarixi hadisəyə geniş yer ayırdılar, dəyirmi masalar, elmi konfranslar keçirildi. Sentyabrın 15-də isə Bakının işğalçılardan azad olmasının ildönümü təntənə ilə qeyd olundu.

Bu qüdrətə, bu məharətə, inandırma gücünə yalnız professor Ş.Hüseynovun qələmi və publisistik bacarığı malik ola bilərdi.

Fədakar alimin, görkəmli tədqiqatçının yorulmadan təbliğ etdiyi işıqlı simalar, bütün Azərbaycan xalqının fəxr edəcəyi, onun işıqlı gələcəyi uğrunda yorulmadan mübarizə aparmış, hətta həyatını qurban vermiş şəxsiyyətlər qalereyasında kimlər yoxdur? Üzeyir Hacıbəyov, Həsən bəy Zərdabi, İsmayıl bəy Qaspiralı, Əli bəy Hüseynzadə, Məhəmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Xəlil Xasməmmədov, Əhməd bəy Ağayev və adlarını sadalamadığımız onlarca digər millət mücahidləri.

Ş.Hüseynovun xalq qarşısında ən böyük xidməti bu böyük şəxsiyyətlərin həyat və yaradıcılığının tədqiq olunmasında ənənəvi yollarla getməməsi, onların fəaliyyətinin indiyədək işıqlandırılmamış hissəsinin aşkar edilməsinə can atmasıdır.

..Rus hökmdarı Birinci Pyotrun məşhur vəsiyyətnaməsi elm ictimaiyyətinə yaxşı məlumdur. Ş.Hüseynov tədqiqat zamanı ötən əsrin əvvəllərində Bakıda nəşr olunan "Dirilik" jurnalını vərəqləyərkən 1915-ci il 1 iyun tarixli 16-cı nömrəsində bu yazıya rast gəlir. Araşdırmalar zamanı məlum olur ki, bu vəsiyyətnamə 1725-ci ildə yazılsa da, məxfi saxlanılıb və heç yerdə dərc olunmayıb. Amma sonralar xaricə ötürülüb, əvvəlcə fransız, sonra Qərbi Avropa dillərində nəşr olunub.

Uzun axtarışlardan sonra Ş.Hüseynov həmin sənədi İnternet səhifəsindən tapır və bu vəsiyyətnaməni əldə edən İqor Ladovun şərhi ilə tanış olur. Tədqiqat zamanı məlum olur ki, bizə məlum "Dirilik" jurnalında nəşr olunan vəsiyyətnamə ilə İqor Ladovun əldə etdiyi vəsiyyətnamənin arasında xeyli fərq vardır və bu fərqləri Ş.Hüseynov tapıb üzə çıxara bilib.

"Günay" qəzetinin 3 iyul 2004-cü il tarixli sayında dərc olunmuş bu yazı çox böyük rezonansa səbəb oldu. Ayrı-ayrı elmi dairələrin nümayəndələri ilə yanaşı, slavyan ölkələrinin bəzi səfirlikləri də həmin vəsiyyətnamə ilə bağlı müfəssəl aşardırmaya görə redaksiyaya zəng edərək, müəllifə təşəkkürlərini bildirdilər.

Professor Ş.Hüseynov bir pedaqoq olaraq da dünyada, eləcə də ölkədə gedən təhsil islahatlarından dönə-dönə bəhs etmişdir. Onun bu mövzuda "Günay" qəzetində "Milli məktəb və milli ruh", "İnformasiyalı cəmiyyət və təhsil proqramı", "Tənbəllik və ətalət bəlasına qarşı həyəcan təbili" və digər başlıqlı onlarla məqaləsi dərc olunmuşdur. Bu yazılarda Ş.Hüseynov dünya təhsil sistemi ilə Azərbaycan təhsili arasında paralelliklər apararaq və inkişaf etmiş ölkələrin təhsil sahəsində maraqlı təcrübəsini şərh edərək müasir dövrdə təhsil sistemində islahatlara öz münasibətini bildirir.

O, çağdaş Azərbaycan publisistikasının əsas problemlərindən, yaralarından, jurnalist peşəsini nüfuzdan salan meyllərdən də ürək ağrısı ilə danışır. O, "Günay" qəzetində dərc olunmuş "Mətbuat cəmiyyətin övladıdır" başlıqlı məqaləsində yazır:

"Bu gün Azərbaycanda qəzet reketi, mətbuat reketinin nümunələri vardır. Kimin kimdən xoşu gəlmirsə, ağına-bozuna baxmadan öz qəzetində onu ən ağır küçə söyüşləri ilə söyüb biabır edə bilir. Bu ondan irəli gəlir ki, mətbuat həqiqi həyatdan uzaq düşür. Jurnalistlər arasında mövzu yeknəsəqliyi var. Mətbuat ictimaiyyətin görən gözü funksiyasını yerinə yetirə bilmir".

Professor Ş.Hüseynovun "Günay" qəzetində dərc olunmuş 150-yə yaxın müxtəlif janrlı yazısı haqqında saatlarla söhbət açmaq, danışmaq olar. Bu yazıların hər biri, yuxarıda qeyd etdiyimiz kimi, təkcə Azərbaycan publisistikasının deyil, həm də Azərbaycan elminin, tarixinin qiymətli nümunəsi hesab edilə bilər.

Son dörd il ərzində "Günay" qəzeti Ş.Hüseynova, Ş.Hüseynov isə "Günay" qəzetinə, eləcə də onun oxucularına çox yaddaqalan anlar yaşatmağa çalışmışdır.

Qəzetimizin səhifələri Azərbaycan jurnalistlərinin müəllimi, görkəmli tədqiqatçı, pedaqoq və əsl insanın üzünə həmişə açıq olmuşdur və bu ənənə gələcəkdə də davam edəcəkdir. Fikrimizcə, bu uğurlu əməkdaşlıqdan bəhrələnən təkcə "Günay" qəzetl deyil, həm də onun minlərlə oxucusu olmuşdur. Həmin oxucudan birinin, tarix elmlər doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Tofiq Köçərlinin fikirləri ilə razılaşmamaq qeyri-mümkündür:

"Mən həftəlik "Günay" qəzetinin hər bir nömrəsinin çıxmasını səbirsizliklə gözləyirəm. Neçə illərdir ki, o qəzetin az qala hər nömrəsində Şirməmməd müəllimin görkəmli şəxsiyyət-

lərimizdən kiminsə vaxtilə çıxmış və unudulmuş yazısını bizə təqdim edir. Kaş "Günay" (yaxud başqa bir təşkilat) həmin materialları toplayıb kitab şəklində də buraxaydı.

Şirməmməd müəllim düz adamdır. Heç bir halda qəlbini, mövqeyini gizlətməyən, haqqı nahaqqa dəyişməyən şəxsiyyətdir".

Şirməmməd Hüseynovun anadan olmasının 80 illik yubileyi ərəfəsində hörmətli akademikimizi və "Günay" qəzetinin oxucularını, eləcə də görkəmli alimin pərəstişkarlarını sevindirmək istəyirik. "Günay" qəzetinin naşiri Mahmud Məmmədov professor Ş.Hüseynovun qəzetimizdə dərc olunmuş yazılarını kitab halında, "Mənəvi irsimiz və gerçəklik ("Günay" səhifələrində)" başlığı ilə buraxmaq qərarına gəlmiş və bu nəcib ideya uğurla reallaşmışdır.

Fürsətdən istifadə edib, Azərbaycan jurnalistikasının iftixarı olan professor Şirməmməd Hüseynovu əlamətdar yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Tofiq YUSİFOV

"Günay", №51, 17 dekabr 2004-cü il

AÇIQ SÖZLÜ MÜƏLLİM

"Jurnalist" qəzetinin baş redaktoru Nəsiman Yaqublunun məqaləsi, sonra isə başqa qəzetlərdə çıxmış xronikalar olmasaydı, professor Şirməmməd Hüseynovun səksən yaşının tamamını bilməzdim. Şirməmməd müəllimlə kafedrada hər gün görüşürük, söhbətləşirik, kafedra müdiri kimi, Şirməmməd müəllimin ciddi göstərişlərini hər həftə eşidirik, amma mən onun səksən illiyini bilmirdim. Şirməmməd Hüseynov bir məqalə, yaxud xronikalarla yada düşən alim-ziyalılardan deyil. O, ən yüksək dərəcə sayılan ağsaqqal ziyalı adına layiq insanlardandır. Şirməmməd müəllim haqq yolundan bir dəfə də olsun çıxmadığı üçün həmişə sözü üzə deyən və həmişə də sözü eşidən insanlardandır.

Şirməmməd müəllimi tanıyanlar şahiddirlər ki, o, yeriyəndə də tələsir, hər adam onunla ayaqlaşa bilmir. Bu da jurnalistlik təbiətindəndir. Əsl jurnalist hətta yuxu vaxtına da, yemək vaxtına da qənaət edir. Tələsməyi jurnalistin peşə xəstəliyi sayırlar.

Şirməmməd müəllim neçə-neçə nəsil jurnalistlərin taleyini müəyyən edib. Səksən yaş sənksən müqəddəs il deməkdir. Səksən il respublikada əsl tədqiqatçı alim və əsl jurnalist peşəsinin daha bir ömrüdür.

Özünün yadına gəlmir, ancaq o, mənə dərs deyib. Bəlkə hansı müəllimisə əvəz edib, amma dərs deyib. Bu barədə mən öz yaddaşımdan çox razıyam, çünki Şirməmməd Hüseynovun şəxsində mən bir müəllim də qazanmışam. Allah, Allah, necə gözəl müəllimlərim olub! Hərəsi bir elm nəhəngi! Həsən Şahgəldiyev, Məmməd Arif, Mir Cəlal, Əli Sultanlı, Cəfər Xəndan,

Məmməd Cəfər, Feyzulla Qasımzadə, Nəsir İmanquliyev, Hadı Mirzəzadə, Əliyar Qarabağlı, Abbas Zamanov! Bu alimləri görmək, səslərini eşitməyin özü yüzlərlə universitetə dəyərdi. Tələbəlik dostum və qonşum Qulu Xəlilov deyirdi ki, bu alimlər ayrı-ayrılıqda əsl akademik, birlikdə isə əsl Akademiya idi. Biz də Universitet yox, Elmlər Akademiyasının bitirmişik, vicdan haqqı belə idi!.." Mən həyatda istər jurnalist, istərsə yazıçı kimi, nəyə nail olmuşamsa, hamısını müəllimlərin sayəsində qazanmışam. Mən bütün müəllimlərimə - Nurəddin Babayevə, Nüsrət Bağırova, Seyfulla Əliyevə, o cümlədən Şirməmməd Hüseynova borcluyam.

Müəllim, ustad - Azərbaycanda həmişə uca tutulub. Uşaq ata-ana gücünə böyüyə bilər, ancaq müəllimsiz kamil insan kimi yetişə bilməz. Müəllim əməyi ilahi əməkdir. İblisin günahı üzündən Allah-Təala insanı göydən yerə endiribsə, müəllim əməyi insanı təzədən göylərə qaldırır. Mən şəxsən millət vəkili olsaydım, hər iclasda müəllimin maaşını qaldırmağı tələb edərdim, o dərəcəyədək ki, ehtiyac kölgəsi bu müqəddəs addan uzaq dolanaydı, müəllim maaşının azlığı üzündən iki-üç universitetdə dərslərinə çatmaq üçün avtobuslar yorğunu olmayaydı. Mən özüm müəlliməm və müəllimin nələr çəkdiyini bilirəm. Bilirəm ki, namuslu müəllim son zamanlar müəllimlik adına çıxan əskik sözlərdən necə əzablar çəkir.

Pensiya adı ilə dövlət qəzetindən uzaqlaşdırılandan sonra kimi heyfsləndi, kimi dedi ki, "Universitet daha yaxşı, hər sessiyada tələbələrdən zaçot haqqı var, imtahan haqqı var". Əlbəttə, bazar iqtisadiyyatının vəhşiləşmiş "Qara bazar" məntiqi ilə tələbənin "dərisini də soymaq" olar. Mən imtahan haqqını - rüşvəti gecik-

dirməyi üstündə bir müəllimin tələbənin abrını aldığını görmüşəm: yanımdaca, utanmadan, qızarmadan. Bilmirəm, bəlkə də utanmaq, qızarmaq, abır-həya hissləri bələləri üçün arxaikləşib, həyasızlıq, vicdansızlıq "yeni iqtisadiyyat" normasına çevrilib, bilmirəm! Bir onu bilirəm ki, "keçid dövrü" adlandırılan - kişi dözümü, kişi ləyaqəti tələb edən bu ağır illərdə çəkdiyim məhrumiyyətlərin ən ağırı hər gün salamlaşdığım həmin elmi dərəcəli müəllimi bir alverçi sifətində görməyim oldu. Bu, dirigözlü cəhənnəmi görməyə bərabər, bəlkə də daha dəhşətli idi. Çünki "Salam" Allahın bir adıdır. Hər görüşdə haqqı-ədaləti, mərdliyi yada salmağın rəmzi mənasıdır. O, mənim pərtliyimi, əsəbi susluğumu görüb özünü ələ almağa çalışdı, əlini şəstlə çiynimə vurub, "Bu nə mısmırıqdı, sən özün almırsan?", - dedi. "Yox! Yox!" - deyə onun üstünə qışqırdım. O, sınmaqdansa, ucadan güldü və "Elə ona görə də bu köhnə mitil-util "Jiquli"də gəzirsən də ...", - dedi. Mən artıq heç nə demədim. Çünki həyasızla gərək həyasız dilində danışasan, o dil də məndə yoxdur. Müəllim adına ləkə gətirən həmin məxluqu nə vaxtdır universitetimizdə görmürəm. Yəqin ki, rədd eləyiblər.

Şirməmməd müəllim, mən Sizin qarşınızda baş əyirəm. Çünki Sizin kafedranızdan olan müəllimlərin adına hələ bir çöp də sınmayıb. Necə ki, Sizin adınız təmizdir, Sizin ətrafınıza yığılan jurnalist müəllimlər müəllim adını ucadan-uca tuturlar. Çünki hər dəfə sonsuz fəxr və minnətdarlıqla adlarını çəkdiyim və çəkmədiyim müəllimlərimiz bizə lazım olanda pul veriblər, bizdən pul almayıblar, bizə elm öyrədiblər, Allah dərgahına yüksəlməyin yollarını öyrədiblər, rüşvət öyrətməyiblər. O vaxtlar rüşvət "köpəy oğlu"dan da ağır söyüş sayılıb.

Bəli, bu gün ağır zəmanədir, insan çörəklə imtahana çəkilir. Hünər də odur ki, bu imtahandan iblisə əyilmədən, üzüağ, təmiz vicdanla çıxasan. Allah yolunu azmayasan. Ağır günündə xalq ziyalısına güvənir, ziyalıda təpər tapır. Çünki ziyalı düyünlər açandır. Ziyalı Allaha ən yaxın olandır. Ziyalısı sınmayan xalqın özü də sınmaz olur.

Çox sağ olun, Şirməmməd müəllim!

Sizə daha uzun ömür, cansağlığı və könül xoşluğu arzulayıram.

P.S. *"İqtisadiyyat" qəzetinin baş redaktoru, akademik Ziyad Səmədzadə, qəzetin elmi şurası və yaradıcı əməkdaşları hörmətli alimimiz, professor Şirməmməd Hüseynovu 80 yaşı münasibətilə ürəkdən təbrik edir, ona can sağlığı və yaradıcılıq uğurları arzulayırlar.*

Köhnə "Jiquli"də gəzən
professor ƏFQAN,
əməkdar incəsənət xadimi

"İqtisadiyyat", 24-30 dekabr 2004

AZADLIGIN TARİXİNİ ÖYRƏDƏN İNSAN

Dünən Bakı Mətbuat Klubu və Mətbuat Şurasının birgə təşəbbüsü ilə görkəmli alim, professor Şirməmməd Hüseynovun 80 illiyi ilə bağlı yubiley tədbiri keçirilmişdir. Tədbiri Bakı Mətbuat Klubunun prezidenti Arif Əliyev açaraq yubilyar haqqında xoş arzularını bildirdi.

Daha sonra Mətbuat Şurasının sədri Əflatun Amaşov söz alaraq bildirdi ki, Şirməmməd Hüseynov yazdığı əsərlərin bütün dövrlər üçün aktual olduğunu sübut etdi. Bakı Slavyan Universitetinin rektoru Kamal Abdulla Şirməmməd Hüseynovu sözün vicdanlı, ləyaqətli sahiblərindən biri kimi tanıdığını vurğuladı və dedi ki, Şirməmməd Hüseynov heç vaxt özünü tərif etməyən, özü haqda danışmayan insanlardandır. Dövlət Televiziyasının "Səhər" proqramının baş redaktoru Qulu Məhərrəmli qeyd etdi ki, Ş.Hüseynov əlinə qələm aldığı gündən həqiqəti yazıb və həqiqəti söyləyib. Ş.Hüseynov öz davranışları ilə göstərdi ki, həqiqət uğrunda çarpışmaq lazımdır. Biz ondan həm də azadlığın tarixini öyrənmişik. Ş.Hüseynov jurnalistikamız üçün böyük bir mayakdır. O, öz yaradıcılığı ilə jurnalistikamıza abidə qoyub. Tədbirin sonunda Ş.Hüseynovun iki yeni kitabının - "Milli haqq və ədalət axtarışında" və "Mənəvi irsimiz və gerçəklik" ("Günay" səhifələrində) - təqdimatı keçirildi. Müəllifin birinci kitabında 1988-2000-ci ildə yazdığı və respublikanın müxtəlif mətbu orqanlarında dərc olunmuş ictimai və tarixi əhəmiyyət daşıyan, dövrün çox mühüm problemlərinə həsr olunmuş məqalə, müsahibə, çıxış və s. daxildir. İkinci kitaba müəllifin 2001-2004-cü ildə "Günay" qəzetində dərc olunmuş 150-yə yaxın müxtəlif janrlı yazısı daxil edilmişdir. Müasir oxuculara təqdim olunan bu yazılar müəllifin yarım əsrdən artıq bir müddətdə apardığı araşdırmaların nəticəsidir.

LAÇIN

"Günay", №52, 25 dekabr 2004-cü il

Professor Şirməmməd Hüseynov – 80

Hörmətli Şirməmməd müəllim!

Sizi - Azərbaycan mətbuatının ağsaqqalını anadan olmağınızın 80 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz hər kəsə nümunə ola biləcək şərəfli bir həyat yolu keçmisiniz.

XX əsrin əvvəlində yaşayıb yaratmış, millətin tarixi və taleyində böyük rol oynamış mütəfəkkirlərin irsinin öyrənilməsi, eləcə də təbliği baxımından sizin xidmətləriniz əvəzedilməzdir. Üzeyir Hacıbəyli, Əlibəy Hüseynzadə, Əhməd Ağaoğlu və Məmməd Əmin Rəsulzadə kimi dahi şəxsiyyətlərin irsinin ortaya çıxarılması və bu böyük irsin Azərbaycan müstəqilliyinin dayaq nöqtəsinə çevrilməsində müstəsna xidmətləriniz heç vaxt unudulmayacaqdır. "Müstəqilliyin çətin yolu" adlı kitabınız tək keçmişin tarixi dərsləri deyil, həm də gələcəyimizi müəyyənləşdirən böyük bir elmi mənbədir.

Məmməd Əmin Rəsulzadə irsinin öyrənilməsi və nəşri baxımından gördüyünüz işləri xüsusi qcyd etmək istərdim. Sözün həqiqi mənasında siz böyük bir elmi institutun görə biləcəyi işi təkbaşına həyata keçirmisiniz.

Azərbaycan Milli Azadlıq Hərəkatının lideri, böyük mütəfəkkir Məmməd Əmin Rəsulzadənin əsərlərinin 1 və 2-ci cildlərinin çapı millətə xidmətin ən böyük nümunəsi hesab oluna bilər.

Siz bugünkü bütün Azərbaycan jurnalistlərinin böyük müəllimisiniz. Həsən bəy Zərdabidən, Mirzə Cəlildən, Üzeyir Hacıbəylidən başlayan "jurnalistin qələmi xalqına xidmət etməlidir"

tarixi bir yolun davamçısı olaraq Azərbaycan mətbuatında həm müəllim kimi rolunuz, həm də alim, ziyalı, vətəndaş kimi əməyiniz danılmazdır. Azərbaycan yenidən müstəqilliyini qazandıqdan sonra cəmiyyətdə plüralizmin, demokratiyanın, milli özünüdərkin formalaşmasında da çox böyük işlər görmüsünüz.

Hörmətli Şirməmməd müəllim!

Sizi bir daha 80 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıram.

Ulu Tanrı yardımçınız olsun!

Hörmətlə,

Əli KƏRİMLİ,
AXCP sədri, millət vəkili

"Azadlıq", 17-20 dekabr 2004

ŞİRMƏMMƏD HÜSEYNOVUN KİTABLARININ TƏQDİMAT MƏRASİMİ KEÇİRİLİB

Dünən Bakı Mətbuat Klubunda bu qurumun və Mətbuat Şurasının təşəbbüsü ilə professor Şirməmməd Hüseynovun "Mənəvi irsimiz və gerçəklik", "Milli haqq və ədalət axtarışında" kitablarının təqdimat mərasimi keçirilib. Tədbirdə həm də Ş.Hüseynovun jurnalist tələbələri və həmkarları bir araya gəliblər. Mərasimi Bakı Mətbuat Klubunun rəhbəri Arif Əliyev açaraq Ş.Hüseynov haqqında fikirlərini tədbir iştirakçıları ilə bölüşüb. Mətbuat Şurasının sədri Əflatun Amaşov da tədbirdə çıxış edib. Daha sonra Mətbuat Şurasının üzvü, professor Kamal Abdulla Ş.Hüseynovla bağlı xatirələrini danışıb.

K.Abdulla deyib ki, 1988-ci ildə Ş.Hüseynovla birgə İrəvanda səfərdə olub və həmin səfərin təəsüratlarını hələ də unutmayıb. Telejurnalist Qulu Məhərrəmli isə Ş.Hüseynovun insan, müəllim və jurnalist kimi müsbət keyfiyyətlərindən danışıb. Tədbirdə Mətbuat Şurasının üzvü Rəşad Məcid də çıxış edib. Daha sonra yubilyarı jurnalist tələbələri və həmkarları süfrə arxasında təbrik ediblər.

"525-ci qəzet", 25 dekabr 2004-ci il

"AZADLIQ" YENİ DÖVR MƏTBUATININ İLK QARANQUŞU İDİ

Şirməmməd Hüseynov:
"Azadlıq" qəzetini qorumaq lazımdır".

Bu il dekabrın 24-də çağdaş Azərbaycan mətbuatının ilk müstəqil qəzeti - "Azadlıq"ın nəşrə başlamasının 15 yaşı tamam olur. Bu münasibətlə yubiley gününədək "Azadlıq"ın 15 ildə keçdiyi yol, uğurları, qüsurları ilə bağlı müxtəlif zamanlarda onun fəaliyyətində iştirak etmiş və ya qəzetimizin daimi oxucuları olan insanların fikirlərini, rəylərini sizlərə çatdıracağıq. Budəfəki qonağımız Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin qocaman müəllimi, vaxtilə "Azadlıq"ın yazarlarından olan **Şirməmməd Hüseynovdur:**

- "Azadlıq" çoxları kimi mənim üçün də doğma qəzetdir. 1992-95-ci illərdə bu qəzetdə mənim 24 məqaləm dərc olunub. Əgər qəzet mənə doğma olmasaydı, yazılarımı yəqin ki, orada çap etdirməzdim. Qəzetin əqidəsi, məsləki, istiqaməti adamın ruhuna, dünyagörüşünə uyğun olursa, orada çap olunur. "Azadlıq" bizim yeni dövr və milli istiqlal dövrü mətbuatının ilk qaranquşu idi. Birinci nömrəsi 200 min tirajla çıxmışdı. Camaatın arzu etdiyi azadlığın tərcümanı idi. Azadlığı camaat ilk dəfə o qəzetin adında gördü. O vaxt qəzet öz ətrafına namuslu, qeyrətli qələm sahiblərini toplamışdı. Mənim üçün "Azadlıq" qəzetinin 15 illik tarixi bizim respublikamızın tarixinin ayrılmaz hissəsidir. İstiqlal dövrünü tədqiq eləmək istəyən gərək "Azadlıq" qəzetini vərəqləsin. İndi biz 1918-20-ci illərin hadisələrini

"Azərbaycan" qəzetindən öyrənirik. Mənə belə gəlir ki, "Azadlıq" da milli tariximizi əks etdirən bir nəşrdir.

Bu qəzeti qoruyub-saxlamaq lazımdır. Onu siyasi oyunlar üçün istifadə etmək olmaz. O, tam müstəqil qəzet olmalıdır. Həqiqəti, azadlıq uğrunda vuruşanları, həqiqi mübarizləri, fədailəri öz ətrafına yığmalıdır. Heç vaxt öz yolundan sapmamalıdır. Bəzilərini tanıyıram ki, qəzetə gəliblər, lakin az sonra uzaqlaşıblar. Çünki onlar əqidəli insanlar olmayıblar.

Düzdür, indi mənim bu qəzeti müntəzəm oxumağa o qədər də imkanım yoxdur. Amma vaxtı ilə əvvəldən axıra qədər oxuyurdum. İndi qəzetlər çoxalıb, camaatın qəzet almaq imkanları isə azalıb.

"Azadlıq" qəzetinə və bütün kollektivinə uğurlar arzulayıram. O şey ki, mənim üçün tarixdir, müqəddəsdir, mən ora ayrı gözlə baxa bilmərəm.

Gültəkin KNYAZQIZI

"Azadlıq" qəzeti, 17 dekabr, 2004-cü il

VƏTƏNDAŞLIQ DƏRSİNİN USTADI

...Sənət qapılarının açılmasının mürəkkəb iş olduğunu hər birimiz dərk etmişik. Ələlxüsus da çətin sənətlərin.

Müasir jurnalistikanın bu qəbildən olduğu zənnimcə şübhəsizdir. Yaxşı xatırlayıram, jurnalistika fakültəsinə daxil olduğumuz çağlarda istəklə bərabər bizim tələbə duyğularımızı böyük həyəcan sarırdı: görəsən bu peşəyə layiqincə yiyələnə biləcəyikmi?... Peşə yollarını aşmaqda bir çox müəllimlər bizə bələdçi oldular. Onlardan yalnız bir neçəsi həm sənət tarixçəmizdə, həm də ömür yazımızda əvəzsiz iz qoydu. Şirməmməd müəllimin adı çəkiləndə Azərbaycan jurnalistlərinin neçə-neçə nəslinə mənsub olanların sanki gözləri işıqlanır.

Tək ona görə yox ki, o bizə müəllimlik edib. Dərin fikir, səlist söz və bənzərsiz cəsarət kimi dəyərlərin daşıyıcısı olan Şirməmməd müəllim o insanlardandır ki, qeyri-adi üslubla sənətlə tələbə arasında maneəsiz ünsiyyət yaradır. Onun metodikasının əsas elementi kimi mən özüm üçün "şəxsi münasibət" amilini müəyyən etmişəm.

İllər ötdükcə bir şeyi dönə-dönə müşahidə edirəm - şəxsi münasibət olmadıqda nə mövzunu, nə də faktı layiqincə açmaq (açıqlamaq) mümkün olur. Əslində bu element elə vətəndaş mövqeyinin təməl daşını təşkil edir...

Mənim üçün bu qənaət Şirməmməd müəllimin dərsinin həqiqətidir. Bu gün bizim Şirməmməd müəllimin 80 yaşı tamam olur. Şəxsən mənim üçün bu həm əziz adamın yubileyi, həm də peşə bayramımdır. Ona görə də bu münasibətlə həm həmkarlarıma gözaydınlığı diləyirəm, həm də böyük ustadıma uzun ömür arzulayıram...

Tofiq ABBASOV

"525-ci qəzet", №190, 17 dekabr 2004

SİZDƏN BİR DƏ OLMAYACAQ

DÜNYAMIZI PİS KİŞİLƏRİN ÜMİDİNƏ QOYMAYIN, ŞİRMƏMMƏD MÜƏLLİM, YAŞAYIN!

...Türk qardaşlarımız, cinsindən asılı olmayaraq, hamıya kişi deyirlər. Bizlərsə bu sözə çox həssasıq, onu çox ehtiyatla işlədirik. Sözün qısası, hər yetənə kişi demirik. Onlarmı haqlıdır, bizmi haqlıyıq - ürək döyüntüsü və şirin xatirələr burulğanında, həsrətli və nisgilli bir ovqatnan qələmə aldığım bu yazıda həmin məsələni araşdırmaq fikrindən çox uzağam. Məqsədim əsl kişi kimi tanıdığım və bu günə qədər oxşarına rastlaşmadığım dəyərli bir insan haqqında söhbət açmaqdır.

Həyatda şanslı adam deyiləm. Həmyerlilərim demişkən, bir ovuc sudan ötrü Kürün üstünə getsəm, o boyda çayı qurudaram. Amma bir şeydə bəxtim gətirib. Orta məktəbdə və ali təhsil aldığım Azərbaycan Dövlət Universitetində iki qeyrətli insanın nurlu çöhrəsi ömür yoluma işıq tutub. Birincisi - oxuduğum orta məktəbin direktoru Məşədi İmanqulu Həsənov olub. Qəbri nurnan dolsun. İkincisi isə... Tələsməyəcəyəm.

Bu yazını başlayanda oxucunu intizarda saxlamaqdan ötrü cürbəcür variantlar düşünmüşdüm. Alınmadı. İlk sətirlərdən hiss edirəm ki, kimdən söhbət açacağım artıq diqqətli oxucuya məlumdur. Beləliklə...

...Sentyabrın axırları idi. İllərdən bəri xəyalıynan yaşadığımız tələbəlik həyatına, Bakının bir gündə üç-dörd dəfə dəyişən şıltaq havasına, elə bu havaya bənzəyən müxtəlif xasiyyətli universitet müəllimlərinə öyrəşməyə hələ macal tapmamışdıq. Bir gün bizi, yəni birinci kursun qızlarını otaqlardan birinə yığdılar. Əvvəlcə dekanlıqda işləyən yupyumru, həlim xasiyyətli qadın

gəlib dedi ki, qızlar, fakültəmizin dekanı sizinlə söhbət eləmək istəyir. Sonra da əlavə etdi ki, bizim dekan dünyanın ən yaxşı kişisidir və kaş onda olan keyfiyyətlərin heç olmasa yarısı qalan kişilərdə olaydı. Çox böyük qiymət idi, həm də çox riskli... Nəfəsimizi qısıb "dünyanın ən yaxşı kişisi"ni gözləməyə başladıq... Sonra dekan gəldi. Bu adamın sifəti tanış idi. Universitetin tələbə qəbulu komissiyasının məsul katibi olmuşdu. Açığını deyim ki, o zaman bu adamın görkəmi ehtiyatlandırmışdı məni. Elə düşünmüşdüm ki, onun həndəvərinə belə dolanmaq, adi bir söz də soruşmaq olmaz. İndi o, qarşımızdaydı. Əvvəlcə bizi tələbə adını qazanmağımız münasibətilə təbrik etdi, universitetdə, jurnalistika fakültəsində oxumağın məsuliyyətindən danışdı. Sonra əsl mətləbə keçdi. Dedi ki, məktəb partasından təzə qalxmısınız - cavansınız, hələ çox şeyləri anlamırsınız. Bu sinif otaqlarında sizə müxtəlif xasiyyətli müəllimlər dərs deyəcəklər. Onların arasında nadürüstlər də tapılacaq. Zaçot, qiymət yazmaqdan ötrü sizə söz deyənlər - görüş təyin edənlər, harasa dəvət edənlər ola bilər. Bizim fakültənin müəllimləri buna cürət (!) edə bilməzlər. Amma sizə başqa fakültə və institutlardan da müəllimlər dərs deyəcəklər... Barmağını hədələyici şəkildə silkələdi: belə şeylər olarsa, mən bilməliyəm... O söhbət bu gün çoxlarına modern görünməyə bilər. Elə o zaman da bəziləri bu söhbətə kinayə ilə yanaşmışdılar. Yəni, biz uşaq deyilik ki... Amma mənim - boyasız, riyasız kənd mühitində böyümüş, həyatı ancaq kitablardan (həm də həyatı problemlərsiz təsvir edən, qəhrəmanları namuslu kişilər, abırlı qadınlar və ismətli qızlar olan sovet romanlarından) öyrənən bir qızın şüurunda bu sözlər şimşək kimi çaxdı. Çaxdı... və çox mətləblərə işıq saldı. Aylar, illər keçdikcə Şirməmməd müəllimin sözlərindəki həqiqət təsdiqlənirdi. Dərs danışanda sözümüzü eşitməkdən çox gözlərim-

izə baxan, imtahan götürəndə stolun altından ayağımızı basdalamağa çalışan nanəciblərə də rast gəldik. Amma... Şirməmməd müəllimin hədələyici barmağı çox şeyin qabağını kəsmişdi...

... Ondan yaman qorxurduq. Bu "qorxu" sözündə qəribə bir şirinlik var. Qorxa-qorxa sevirdik onu. Sevə-sevə qorxurduq ondan. Heç kəs onun gözünə görünmək istəmirdi. Kimə desəydilər, səni dekan çağırır, sarısını udurdu. Amma onun otağından çıxanda "hə, nə olmuşdu, səni niyə çağırmışdı" deyə soruşanlara hamı belə cavab verirdi: "O, yaxşı kişidir". Oğlanla qızın fərqi yoxuydu ondan ötrü. Hamını eyni tərzdə danlayar, acılayardı. Heç kəs incimirdi. Hamı bilirdi ki, o sərt baxışlı, acı dilli kişinin sinəsində isti bir ürək döyünür. Elə bir ürək ki, tələbəni sevir, qayğısını çəkir, qoruyur, əsl vətəndaş kimi, gərəkli insan kimi yetişməsi üçün var qüvvəsini sərf edir. "Mənə qiymət faizi deyil, tələbənin biliyi lazımdır" deyirdi Şirməmməd müəllim. Sonra da deyirlər ki, əvəzedilməz insan yoxdur. Yalandır! Bütün yaxşı adamlar əvəzedilməzdir! Pislər bir-birilərini çox asanlıqla əvəz edirlər. Çünki onlar çoxdular. O vaxt deyirdilər ki, respublikamızın təhsil nazirliyində - onu "jurnalistika fakültəsinin rektoru" adlandırırlar. Bir də onu deyirdilər ki, Şirməmməd müəllimin dekan olduğu dövrdə jurnalistika fakültəsinə daha çox "proletar balası" daxil olub. Çünki heç kəsə boyun əymədən, heç kəsi "eşitmədən" işləyirdi bizim dekanımız. O dövrdə səbatsızlıq, milli duyğulara hörmətsizlik göstərənlərin çoxu bunu imperiya siyasəti ilə bağlayaraq özlərinə haqq qazandırmaq istəyirdilər. Amma Şirməmməd Hüseynov sübut eləyirdi ki, insan hər bir şəraitdə öz xalqının övladı ola bilər və olmalıdır da.

Bizə dərs də deyib Şirməmməd müəllim. Heç yadımdan çıxmaz. Bir gün dekabristlər dövrü rus jurnalistikasından danışanda sözünü kəsib baxışlarını auditoriyada dolandırdı: "Görürsünüz,

uşaqlar, belə oğulları olan xalq həqiqətən xoşbəxtdir" dedi. Dedi və susdu. Gözləri yol çəkdi... Həmin anı bu gün də unutmuram və həmişə də fikirləşirəm ki, görəsən, həmin o anda Şirməmməd müəllim nə düşünürdü? Elə bilirəm, çox şey demək istəyirdi, amma deyə bilmirdi... Və mən onun deyə bilmədiklərini necə də bilmək istəyirdim...

Zaman hökmünü verdi. Çox şeylər dəyişdi. Və Şirməmməd Hüseynovun "525-ci qəzet"in səhifələrindəki silsilə yazılarını oxuyanda anladım ki, o zaman gözləri yol çəkəndə nə düşünürmüş, nələri dilinin ucundan qaytarırmış. O bilirmiş ki, bu millətin də onu xoşbəxt etməyə qadir olan və bunun uğrunda canını belə əsirgəməyən oğulları olub. İndi öz qələmiylə onları bizə tanıdan Şirməmməd müəllimin özünü necə xoşbəxt hiss etməsi hər sözündən, hər cümləsindən oxunurdu.

Bir çıxışı da yaddaşıma həkk olunub. Universitetin iclas zalında hansı tədbirdəsə dedi: "Kaş, insanların vicdanını göstərə bilən rentgen kəşf olunaydı, qadınlarla işim yoxdur, əminəm ki, kişilərin çoxu bu rentgendən təmiz çıxmazdı". Bu sözlər gurultulu alqışlarla qarşılandı. Bu sözlərdə həm cəsarət, həm də əsl kişilik manerası vardı.

Şirməmməd müəllim, çox heyf ki, cəngavərlik dövrü çox arxada, uzaq əsrlərin qoynunda qaldı. Elə bir dövr ki, kişilər qadınların yerə düşmüş ətirli dəsmalını qaldırıb yiyəsinə təqdim etməyi (həm də təzim edə-edə) özlərinə şərəf bilirdilər. İndi çörəyini əlindən alırlar. Uzun illər torpağımızın sərvəti ilə fəxr etmişik. Amma millətin əsl şərvəti onun kişiləridir. Mən qadınları ona görə demirəm ki, qadın da əsl kişilərin əhatəsində özünü əsl xanım kimi hiss edir. Uşaqlıqdan, tay-tuşlarımdan fərqli olaraq, müğənnilərin, kino ulduzlarının deyil, əsl kişi saydığım adamların şəkillərini toplamışam. İstərdim ki, bu yazı da Şir-

məmməd müəllimin şəkli ilə birlikdə dərc edilsin və mən də həmin şəkli qəzetdən götürüb öz albomuma vurum.

Yazılarının dərc olunması hər bir müəllif üçün zövqdür. Mənimsə bir şeyi düşünəndə alacağım zövqü heç nəynən müqayisə etmək olmaz. Təsəvvür edirəm ki, Şirməmməd müəllim bu yazını oxuyur, özünəməxsus bir şəkildə dodağını büzüb gözlərini qıyır: "Doğrudanmı, mənim belə bir tələbəm olub?!" Bilirəm, nə qədər düşünsə də, məni heç cür xatırlaya bilməyəcək. Bax, əsl zövq budur! Olub, Şirməmməd müəllim! Və o tələbə həmişə bundan qürur duyur...

Bu yazını münasibətsiz yazıram. Universiteti bitirən gündən Şirməmməd müəllimi görməmişəm. Bilmirəm onun həyatında nələr baş verib, hansı işləri görüb, hansı adları, mükafatları alıb. Mən heç onun doğum gününü də bilmirəm. Bildiyim bir şey var ki, onun kimi kişilər hər gündə, hər ildə doğulmurlar. Və belə kişilər əsl milli sərvətdir!

...Bu yaxınlarda televizorda bir süjetdə gördüm onu. Göz dəyməsin, elə həmin Şirməmməd müəllimdi. Yaşayın, Şirməmməd müəllim! Dünyamızı pis kişilərin ümidinə qoymayın! Yazıqlar olar bizə...

Vəsilə USUBOVA

"525-ci qəzet", 4 yanvar 2005-ci il

GÖYDƏ, ONUN YANINDA...

Bir qəzetin kompüter tərtibatçısı, gəncliyinə baxmayaraq, öz işinin ustası Fuad danışırdı ki, yaşıdı "... Aydın Sadiq və dəstəsi təqdim edirlər" səhifəsindəki məqaləni oxuyub dillənir:

- Bu, nə yazıdır?! Heç nə başa düşmək olmur.

- Axı niyə oxuyursan?! Səhifənin yuxarısma bax: o, sənin üçün yazılmayıb...

"Düşünən adamlar üçün"... Ənənəvi səhifədə verilən bu xəbərdarlıq zarafat, atmaca deyil. Müəllif sıravi qəzet oxucusunu ayıldır ki, vaxtını itirməsin - ya birbaşa o biri səhifələrə keçsin, ya da oxumağı elə buradan başlasın və...

Hər bir yaradıcı adam öz sənət məhsulunun mənəvi istifadəçisi haqqında düşünür. Əgər kim isə deyirsə ki, özü üçün yazır, rəsm çəkir, musiqi bəstələyir - səmimi deyil. İnsan adətən həyatda öz əməyinin "istehlakçısı" - yaradıcılığının düşüncə, rahatlıq, fərəh bəxş etdiyi adamlarla rastlaşmadıqda belə söyləyir. Yandığından...

Yaradıcı jurnalist üçün onu oxuyub sevən insan sevib oxuyandan qat-qat üstündür.

Beləsinə həyatda rast gəlmədikdə, yenə ümidini qırmır, qəlbinin, şüurunun dərinliklərində onun yerini saxlayırsan. Həmişə də, 1-ci sırada.

...Neçə vaxtdır deyirdilər ki, Şirməmməd Hüseynov yazılarımı maraqla oxuyur və ...təbliğ edir. Şəxsən tanış olmasaq da, anladım ki, müasir adamdır, gəncdir.

Dedilər, məclisi keçiriləcək. Gedib arxa sıraların birində əyləşdim. Şübhəm doğruldu: təntənəli tədbir gənc Şirməmmədin özünə yox, qoca elm və təhsil məmurlarına lazım idi. Axı, istedadlı gəncə diqqət yetirmədiklərinə görə qınanacaqdılar.

Tələbələri kiçik tədris otağına əvvəldən yığmışdılar. Yaşlılar - vəzifəlilər, vəzifə yolunda saç ağartmışlar və daha kimlər, o cümlədən Şirməmməd müəllimin keçmiş tələbələri gəldikcə, indiki tələbələrini yerindən qaldırıb otaqdan çıxarırdılar. Sonra, ilk çıxışlarda adını tezliklə unutmağa nail olduğum bir nəfər əvvəlki gəncliyinin sovet dövründə keçdiyinə görə Şirməmmədi qınadı. Amma özləri hələ də cır sovet üsulu ilə işləyirlər: dərs otağından çıxarılan tələbələr həyatı boyu fərəhli duyğularla xatırlayacaqları bir neçə andan və məzmunlu söhbətdən məhrum oldular...

Neçə-neçə dövrdə gənc qalmış müdrik insanı anlamaq üçün heç olmasa bir dəfə rüşeymlikdən böyümək lazımdır.

Şirməmməd müəllim - sadə oğlan, güclü kişi iradəsini asanlıqla idarə edərək bütün çıxışlara dinməz-söyləməz qulaq asdı. Mən də şuluq salmırdım. ...Düşünürdüm ki, ötən illər ərzində bu müəllimin tələbəsi olmuş, sözünü dinləmiş neçə-neçə nadan insanı, cılız jurnalisti tanıyıram. Onların belə olduqlarına görə Şirməmməd müəllimin təqsiri nə qədərdir? "Düşünən adamlar üçün" yazıları oxuyub düşünən adam olmayanların beləliyinə görə ...mənim günahım qədər.

Məclisdə bir neçə dəfə müxtəlif bəhanələrlə kişinin təqvim yaşını xatırlatdılar. Deyənlər - həmin rəqəmə özləri də inanmırdılar. İnananların inamını isə qadınlar puça çıxardılar: sən demə, Şirməmmədi o qədər qadın sevirmiş, onu öpmək üçün fürsət gözləyirmiş ki...

Sevənin ağlı olmaz, sevilənin - yaşı.

Odur ki, Düşüncəli adam Şirməmməd Hüseynov kimi yaşsız Şüuru sevmək üçün ağlını itirmiş Qəlb olmaqdan çəkinməyənlərin ayaqları həmin gün aldıqları öpüşdən sonra hələ uzun müddət yerə dəyməyəcək...

Aydın SADİQ

"Azadlıq", 31 dekabr 2004 - 3 yanvar 2005

BAKIDA JURNALİSTLƏR SÜLALƏSİ



Bizim kütləvi informasiya vasitələrində əvvəllər neftçi, həkim, hüquqşünas və digər ixtisas sahiblərindən, onların peşələrinin nəsildən-nəsilə ötürülməsindən yazmaq xoş ənənəyə çevrilmişdi. Artıq 100 ildən çoxdur ki, əmək qəhrəmanı usta Piri Quliyevin neftçilər sülaləsi ölkəmizdə neft quyuları qazır, istismara verir, emal edir. Onun iki oğlu atalarının ənənələrini davam etdiriblər. Məhəmməd Paşa Milli Elmlər Akademiyasının akademiki, İsrafil Lenin mükafatı laureatıdır. Qızı Validə neftçi-kimyaçıdır. Hazırda isə nəvələri də babalarının və ulu babalarının ailə ənənələrini davam etdirirlər.

Azərbaycanın tibb aləmində isə Əziz Əliyevin təməlini qoyduğu həkimlər sülaləsi böyük nüfuz və hörmət sahibidir. Onun oğlu Tamerlan uzun illər Tibb İnstitutunda kadefraya rəhbərlik edib, qızı Zərifə xanım tibb sahəsi üzrə akademik olub, digər oğlu Cəmil də akademikdir, onkologiya üzrə elmi tədqiqat mərkəzinin direktorudur.

Və yaxud əfsanəvi Mustafa bəy Topçubaşovu, onun oğlu istedadlı cərrah və gözəl bəstəkar İbrahimi xatırlayaq. Mustafa bəyin oğlu Ceyhun isə hazırda Mərkəzi Kliniki Xəstəxanaya rəhbərlik edir.

Bu sətirləri yazdıqca öz-özümə fikirləşirdim ki, nəyə görə Bakıda formalaşmış, yetişmiş jurnalistlər sülaləsini də xatırlamayaq.

Və mən mövzuya bu yaxınlarda təntənəli şəkildə 80 illiyi qeyd edilmiş Azərbaycan jurnalistikasının patriarxından başlamağa qərar verdim.

Professor Şirməmməd Hüseynov. O, kifayət qədər yetkin yaşda olmasma baxmayaraq, hər şənbə mütləq "Günay" qəzetində Azərbaycan jurnalistikasının tarixindən bəhs edən yazı ilə çıxış edir. Şirməmməd müəllim Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində çalışdığı on illər ərzində, eləcə də "Təfəkkür" Universitetinin jurnalistika kafedrasında fəaliyyəti dövründə çoxsaylı peşəkar jurnalist ərsəyə gətirib. Onun yetirmələrinə Azərbaycanın bütün qəzet və jurnallarında, radio və televiziya kanallarında rast gəlmək mümkündür. Deyirlər ki, BDU-nun jurnalistika fakültəsinin hazırki müəllim heyəti bütünlüklə onun yetirmələridir.

Öz jurnalistlik karyerasına isə Şirməmməd Hüseynov "Nuxa fəhləsi" adlı rayon qəzetində başlayıb. Hələ universitetin II kursunda oxuyarkən o, bu təhsil ocağında nəşr olunan "Kadrların leninçi tərbiyəsi naminə" adlı qəzetin redaktor müavini vəzifəsinə təyin olunmuşdu. Universiteti bitirdikdən sonra "Azərbaycan müəllimi" qəzetində işləyib. Ancaq Ş.Hüseynov təbiəti etibarilə daima elmi axtarışlara can atdığından tale onu Moskva Dövlət Universitetinin aspiranturasına çəkib gətirir. O, buranı bitirərək

"Azərbaycan mətbuatı 1917-1918-ci illərdə" adlı namizədlik dissertasiyasını böyük müvəffəqiyyətlə müdafiə edir. 1954-cü ildə Bakıya döndükdən sonra Şirməmməd müəllim universitetə dəvət alır və bu təhsil ocağının jurnalistika kafedrasında ilk elmlər namizədi olur. Artıq burada çalışdığı on illəri əhatə edən dövr ərzində Şirməmməd müəllim müxtəlif vaxtlarda jurnalistika fakültəsinin dekanı olmuş, bir sıra kafedralara rəhbərlik etmiş və hazırda öz doğma təhsil ocağının ən adlı-sanlı professorlarındandır. Şirməmməd müəllim öz ömrünü milli jurnalist kadrlarının yetişdirilməsinə həsr edib və eyni zamanda bir çox qəzetlərdə sistemli şəkildə bir publisist kimi də çıxışlar edib. Bu qəzetlər "Bakı", "Sovet kəndi", "Kommunist", "Azərbaycan gəncləri", "Azərbaycan", "Mədəniyyət", "Həyat", "7 gün", "Bərəkət", "Xalq qəzeti", "525-ci qəzet"lərdir. Son beş ildə isə o, mütəmadi olaraq "Günay" qəzetinin səhifələrində çıxış edir. Ümumiyyətlə isə biblioqrafik sorğu kitabında mən Şirməmməd müəllimin dövri mətbuatda, radio və televiziyada 700-dən yuxarı publisistik çıxışını sadaladım. Bundan əlavə Ş.Hüseynov 15 kitabın, eləcə də 1972 və 1975-ci illərdə "Mısl" (Düşüncə) və Moskva Universitetinin birgə nəşri olan "Çoxmillətli sovet jurnalistikası" iki cildliyinin, fundamental elmi-tədqiqat əsəri olan "Müstəqilliyin çətin yolu. Biz hara gedirik" (1996), "Jurnalistikanın problemləri" (1966), "Həqiqət və ədalət carçısı" (1988) kitablarının müəllifidir. 2004-cü ildə isə onun iki işi - "Milli haqq və ədalət axtarışında" və "Mənəvi irsimiz və gerçəklik" kitabları işıq üzü görüb.

Ş.Hüseynov Azərbaycanın əməkdar jurnalistidir. "Qızıl qələm", Y.Məmmədəliyev, H.Zərdabi, M.Rəsulzadə, Vorovski adına mükafatlar laureatıdır. Şirməmməd müəllimin ailəsində onun həyat yoldaşı və iki qızı da jurnalistika yolunu seçib.

Şirməmməd müəllimin həyat yoldaşı Ülkər xanım BDU-nun jurnalistika fakültəsini bitirib və onun tələbəsi olub. Ülkər xanım 1966-cı ildən "Elm və həyat" jurnalında işləyib. O bu yeganə elmi-kütləvi nəşrdə şöbə müdiri, redaktor müavini, 1995-1997-ci illərdə isə baş redaktor işləyib. Hazırda isə maddi vəsaitin çatışmazlığından jurnal ildə 2-3 dəfə işıq üzü görür. Ülkər xanım elmin müxtəlif sahələri üzrə çoxsaylı məqalələr müəllifidir. Onun Azərbaycan dilinə tərcümə etdiyi və çapa hazırladığı "6, 7, 8 və 9 yaşlı uşaqlarda intellektin inkişafı" adlı kitab Təhsil Nazirliyinin və "Soros" fondunun keçirdiyi açıq müsabiqənin yekunlarına əsasən qəbul edilib. Ülkər xanım "Kimya sənayesi üzrə rus-azərbaycan-ingilis lüğəti"ni nəşr edən nəşriyyat qrupunun redaksiya heyətinin üzvüdür. O, "Elm və həyat" jurnalında Azərbaycan gəncləri arasında elmi və texniki biliklərin təbliğatına görə, Jurnalistlərin Həmkarlar İttifaqının "Qızıl qələm" mükafatına və "Vətən" diplomuna layiq görülüb. Ülkər xanım həmçinin "Heydər Əliyevin neft-kimya sənayesinin inkişafında rolu" kitabını rus dilindən Azərbaycan dilinə tərcümə edib çapa hazırlayıb, hazırda isə dünya şöhrətli alim Lütfi Zadənin həyat yoldaşının kitabının tərcüməsi üzərində işləyir.

Şirməmməd müəllimin və Ülkər xanımın iki qızı var. Fərəh, Bakı Musiqi Akademiyasının tarixi nəzəriyyə fakültəsini bitirib. O, hələ tələbəlik illərində müxtəlif elmi konfranslarda musiqişünaslıq üzrə maraqlı tədqiqatlarla çıxış edərək bir sıra diplomlara layiq görülüb. Hazırda Musiqi Akademiyasında musiqi tarixi kafedrasının professoru və elmi katib vəzifələrini daşıyır. "Musiqi dünyası", "Elm və həyat", "İrs", "Azərbaycan interneşl" və bir sıra dərgilərdə tez-tez Fərəh xanımın yazıları dərc olunur. O, iki cildlik "Musiqi tarixinin səhifələri", "XX əsr Azərbaycan musiqi mədəniyyətinin tarixi qaynaqları", "Azərbaycan musiqisində üslub axtarışları" kitablarının müəllifidir. Fərəh xanım həmçinin Ü.Hacıbəyov, Q.Qarayev, F.Əmirov, H.Sarabski və mədəniyyətimizin digər korifeyləri haqqında tarixi araşdırmaların müəllifidir.

Digər qızı Lalə də Bakı Musiqi Akademiyasının tarixi nəzəriyyə fakültəsini fərqlənmə diplomu ilə bitirib. İxtisasca musiqi tənqidçisidir. O, 1982-ci ildə incəsənət üzrə respublika olimpiadasında qalib gəldikdən sonra Leninqrada ümumittifaq olimpiadasına göndərilmişdi. 1995-ci ildən isə Lalə xanım Bəstəkarlar İttifaqında çalışır. O, vaxtaşırı "Sovet musiqisi", "Mədəniyyət və həyat" dərgilərində, "Bakı", "Musiqi dünyası", "Ədəbiyyat və incəsənət" və digər qəzetlərdə yazılarla çıxış edib. Lalə xanım hazırda Bəstəkarlar İttifaqının məsul katibidir. Bu yaxınlarda isə o, "XX əsrdə respublikamızda mədəniyyətin inkişafında Azərbaycan Bəstəkarlar İttifaqının rolu və yeri" adlı namizədlik dissertasiyası üzərində işi başa vurub.

Azad ŞƏRİF,
1959-1962-ci illərdə "Molodyoj Azerbaydjana" qəzetinin redaktoru

"525-ci qəzet", 19 noyabr 2005

Ağsaqqal jurnalist, siyasi icmalçı, hörmətli müəllimim ŞİRMƏMMƏD HÜSEYNOVA Açıq məktub

Əziz Şirməmməd müəllim!

Sizə bəlkə də qəribə görünəcək bir məktubla müraciət edirəm. Bilmirəm, nədənsə belə bir etirafı özümə borc bildim.

Məni xatırlamağa çalışıb özünüzü əziyyətə salmayın. Hüzurunuzda tələbə sifətilə dayandığım vaxtdan otuz il keçir. Müəllimlik fəaliyyətinizə mənim tələbəlik illərimdən də iyirmi il əvvəl başladığınıza, yarım əsrdən çox fəaliyyətiniz ərzində minlərlə tələbə gördüyünüzə görə və bu otuz illik zaman bölümündə mənim də fövqəladə xidmətlərim olmadığından yaddaşınıza həkk olunmadığımı obyektiv şəkildə dərk edir, bu həqiqətlə barışıram.

Qarşınızda oturan minlərdən biri olsam da, dinləyicini məftun edən, bir kəlməsini belə qaçırmadan mənimsəməyə çalışdığımız mühazirələrinizi, qeydsiz, yazısız, axıcı bir məntiqlə bir-birinin ardınca düzdüyünüz faktları, tarixçələri, əhvalatları bizə çatdırarkən gözlərinizlə axtardığınız (sanki eyni biliklərə sahib həmsöhbətlərikmiş kimi bizi öz gözünüzdə qaldırdığınız) müsahiblərdən biri olmuşam. Hər mühazirədən sonra özümü bir az da Sizə yaxın hiss etmişəm. Sanki hər dərsi bütün auditoriyaya, iki qrupun tələbələrinə yox, şəxsən mənə demisiniz. O vaxt Sizə yaxınlaşmağa cəsarət etməzdik. Ən azından özümü nəzərdə tuturam. Uzaqdan-uzağa fəxr edərdim ki, Sizin işığınızdan nur almaq kimi bəxtəvərlik nəsib olub mənə. İllər ötdükdən sonra Sizi, səhrada qızmar günəş altında qalmış yolçunu öz kölgəsində dincələn əzəmətli ağaca bənzətdim. Və təəssüf edirəm ki, ağacın kölgəsində yorğunluğunu çıxarıb yoluna davam

edən səyyah, adətən, ağacın da qayğıya ehtiyacı olduğunu düşünmədiyi kimi, mən də minlərlə tələbədən biri olaraq taleyin mənə hazırladığı yola davam etmişəm. Keçən müddət ərzində Sizin cəsarətli, müdrik, təmkinli çıxışlarınızla maraqlanıb qürurlansam da, həmişə tamamilə və ardıcıllıqla izləyib öyrənmək imkanım olmayıb. Tale məni, bir dəfə mühazirələrinizdən birində söylədiyiniz kimi, başqa dövlətdə, başqa mühitdə "Ay bəri bax"ı oxutmağa və dinləməyə vadar edib ki, Vətəndən uzaqda öz musiqisini eşidəcəyini gözləməyən həmyerlilərimiz evimin qabağından keçəndə ayaq saxlasınlar.

Bu yerdə Sizin gözəl yumor hissinizi xatırlayıb, bir əhvalat söyləmək istəyirəm. Sizi hər zaman özünə yaxın dost, güvənc, dayaq hesab edən digər müəllimim Cahangir Məmmədlinin xoşuna gəldiyi üçün Sizə də xoş təsir bağışlayacağını düşünürəm.

Türklərdə bir atalar sözü var: "Qəribə bir salam, min altuna bərabərdir". Bu deyimin doğruluğunu Moskvaya gəldiyim ilk illərdə çox aydın hiss edirdim. Həmyerlilərimizin sayı o qədər az, məskənləri o qədər dağınıq idi ki, rastlaşmağımız özü bir toy-bayrama çevrilirdi. Öz dilimizdə danışıq eşidəndə mütləq o səmtə dönər, bir bəhanə ilə söhbətə qoşulardıq ki, qəribsəməyək. İndi isə məlum və naməlum səbəblərdən həmyerlilərimizin sayı, maşallah, elə həddə çatıb ki, yoldaşlara zarafatla tövsiyə edirəm, arabir bu ruslara da ağızucu salam verin ki, özlərini qərib hiss etməsinlər.

Yəni Allaha şükürmü deyim, taleyin qismətindənmi deyim, Moskvadakı azərbaycanlı (eləcə də Sankt-Peterburq, Kiyev, Minsk və s.) bu gün özünü Sizin mühazirəniz zamanı həmin o macar həmyerlimiz kimi qərib hiss etmir.

Mətləbdən uzaq düşdüm. Sizinlə bərabər bir Azərbaycan elinin oğlu olduğum üçün fəxr etdiyim kimi, "kiçik" Vətənimizin-Şəkinin də ikimiz üçün ata yurdu olması ilə öyünürəm. Bunu həm də ona görə açıq deyirəm ki, şəkililər (təkcə şəkililər yox) xırda yerliçilik hissindən uzaqdırlar. Bir şəkili kimi Sizin köl-

gənizə sığınmışam, amma əsl Böyüklər kimi kölgənizi şəhər, rayon, kənd fərqi qoymadan hamımızın üstünə eyni səxavətlə salmısınız. Biz də Sizin aşıladığınız dəyərləri mənimsəyib, arzuladığınız pillələrə qalxmağa çalışmışıq. Bu vəzifəyə müvəffəq olanlar da az deyil. Bu gün müstəqil Azərbaycan dövlətinin mətbuat, radio, televiziya, ictimai-siyasi tərcümə, bir sözlə, indi dilə yatmayan KİV şəklində işlədilən məfhumun əhatə etdiyi bütün sahələrdə Sizin həyat vəsiqəsi verdiyiniz gözəl mütəxəssislər çalışır.

Əziz Şirməmməd müəllim!

Bu sətirləri gecə saat ikidə yazıram. Niyə belə məktuba ehtiyac duyduğumu soruşsanız, cavabım yoxdur. Bəlkə də ömrün müəyyən aşırımında insan onu yetişdiyi məqama gətirən adamlara vaxtında minnətdarlıq etmədiyinin fərqinə varır. Çoxları belə addımı aradan xeyli vaxt keçdiyinə görə atmaq istəmir, bəziləri "görən, kənardan baxan nə deyər?" kimi gərəksiz mülahizənin təsirinə düşür, bəziləri də (mən də onların dəstəsindəyəm) fikirləşir ki, öz müəllimin kimi rəvan və dilavərliklə deyə bilməsən də, səni çuğlayan hissləri dilə gətir, bəyan et.

Cəfər SADIQ

"525-ci qəzet", №87, 11 may 2005

SALAM, MÜƏLLİM!

Şirməmməd Hüseynovun 81 yaşı tamam olur

Salam, müəllim, adətən Sizə bayramlarda və əziz günlərdə zəng vururam. Çünki bilirəm ki, zəng vuranlar çoxdur. Ona görə də vaxtınızı almaq istəmirəm. Amma Sizə demək istədiklərim çoxdur, lap çox. Tələbə kimi qarşınızda oturduğum 70-ci illərdə bəlkə də yeganə müəllim idiniz ki, mühazirələrinizi az qala nəfəs çəkmədən dinləyirdik. O zaman bizə xarici mətbuat tarixindən dərs deyərdiniz. Bu gün internet səhifələrində rahatca oxuduğumuz Qərbin mətbu orqanlarının adlarını ilk dəfə Sizdən eşitmişdik. Son dərəcə sərt və tələbkar idiniz. Kimsə Sizə kimisə "tapşırmağ"a cürət etməzdi. Ona görə də hamı çalışırdı ki, özü oxuyub qiymətini alsın. Sizin imtahan gününüz yaxınlaşdıqca həyəcanımız birə-beş artırdı. İmtahan günü isə olduqca təzadlı bir an yaşayardıq. Min bir həyəcanla, tələşlə imtahana girib bir qucaq sevinclə, gülərüzlə çıxardıq.

Heyif! O günləri bir daha yaşaya bilməyəcəyik.

Sovet ideologiyasının tüğyan etdiyi bir dövrdə mətbuat tarixindən dərs deyib, amma tələbələrdə haqqa tapınmaq, özü-nüdərk hissləri oyatmaq asan deyildi. Əksinə, çox çətin idi. Siz o çətinin öhdəsindən çox məharətlə gəldiniz. Heç yadımdan çıxmaz, III kursda idik, mənim kurs işim Şəkidə çıxan "İpəkçi" qəzetinin fəaliyyətinə həsr olunmuşdu. Mən də qəzetdə beynəlmiləlçilik mövzusunun təhlilinə geniş yer ayırmışdım. Hətta beynəlmiləl ailələrlə bağlı qəzet yazılarını müsbət bir hal kimi təqdir etmişdim. Müdafiə vaxtı Siz öz rəyinizi belə bildirdiniz:

"A qızım, sənin yazından belə çıxır ki, kombinatda işləyən Məmməd Marusya ilə evlənib, çox yaxşı iş görüb. Mən deyirəm ki, çox nahaq iş görüb. Şəkidə evlənməyə bir qız yox idi ki, gedib Ukraynadan qız alırdı?" Bunu özünüzəməxsus bəməzə bir ləhcə ilə elə dediniz ki, ətrafda hamı gülüşdü. Amma dedi-

yinizin əslində böyük problem olduğunu sonradan dərk elədik. O zaman Sizdən eşitdiklərimizin çoxunu anlamaq üçün tam yetişməmişdik. Görünür, buna müəyyən zaman lazım imiş. O zamanı yaşadıq.

Amma heyif ki, o günləri bir daha yaşaya bilməyəcəyik.

Yaxşı nədir, pis nədir, əyri nədir, düz nədir, halal nədir, haram nə? Bu qəbil sorğuların bütün cavabını Sizdən və yaşıd həmkarlarınızdan eşitdik. Nə yaxşı da ki eşitdik. O illərdən üzübəri bu eşitdiklərimiz əsas bələdçimiz oldu. Xərclədiyimiz hər nə varsa, Sizin və yaşıd həmkarlarınızın bizə bəxş etdiyiniz o "söz xəzinəsi"ndəndir. Bu gün Siz sıraları tükənən o nəslin sonuncususunuz. Professor Cəmil Həsənli demişkən, Siz bu gün Həsən bəy Zərdabinin, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Məmməd Əmin Rəsulzadənin, Üzeyir Hacıbəyovun və digər böyük fikir adamlarının ömrünün davamını yaşayırsınız. Adama elə gəlir ki, sanki onların yadigarısınız, bir də biz tələbələrinizin bir daha yaşaya bilmədiyi o illərinin.

Hörmətli Şirməmməd müəllim, dekabrın 16-sı Sizin ad gününüzdür. 81 yaşınız tamam olur. Hər tələbəyə müəlliminin ad günündə Ona üz tutmaq səadəti müyəssər olmur. Mənə bu səadəti bəxş etdiyiniz üçün ÇOX SAĞ OLUN. Özünüzdən elə muğayat olun ki, hələ uzun illər bundan sonra belə mən də qarşınızda özümü lap o illərdə olduğu kimi tələbə hiss edim.

Çünki o illəri bir daha yaşaya bilməyəcəyəm.

Bütün tələbələriniz adından:
Zərxanım ƏHMƏDLİ,
İctimai Radionun informasiya departamentinin direktor müavini

"Şərq" qəzeti, 16 dekabr 2005-ci il

ŞİRMƏMMƏD MÜƏLLİMİN CƏSARƏT TƏLQİNLƏRİ

"Duyğular" silsiləmi mənim üçün əziz olan, içimdə daim yaşatdığım, öləziməyə qoymadığım hisslərdən hörəcəyəm. O hisslərdən ki, vaxtilə bir sıra səbəblərdən; siyasi quruluş üzündən, tuş gəldiyim haqsızlıqlardan, evsizlikdən, əsəb gərginliyindən, vaxt məhdudluğundan düzüb-qoşa, qələmə ala bilməmişəm. Amma onları dəfn edə, özümlə qara torpağın altına apara bilməzdim, xalqım üçün qoruyub saxlamalı, yazılı halda ona da təhvil verməliydim. Və bunun üçün əziz oxucum, səni həmdəm seçdim. Olsun ki, gələcəkdə bu silsiləm ucbatından qınaqlarına, tənqidlərinə də məruz qalam. Axı milli mentalitetimizin bu üzü də var ki, gərək düşündüklərini, yaşadığın duyğuların böyük bir qismini dilinə gətirməyəsən. Əlbəttə bəzi məqamları mən də nəzərə alacam. Amma ümumilikdə götürəndə, yox. Silsiləmin baş məqsədi belədir: düzü-düz, əyrini-əyri. Yəni səmimi.

1964-cü ildə S.M.Kirov adına (bu ada bir də qayıdacağıq) Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsinə (o zaman şöbə idi) qəbul imtahanlarından 24 nəfər gənc qalib çıxdı. Sonralar bir nəfər İraq ərəbini də gətirib otuzdurdular bizim qrupumuzda ki, bu da sizinlə birlikdə təhsil alacaq. Adı da Əkrəm Hüseyn Məhəmməd idi. Bir, yoxsa iki semestr oxuyandan sonra birdən-birə yoxa çıxdı. Qrupumuzda yaşca ən balacası mən idim. Ona görə də "sonbeşik" deyirdilər mənə. Uşaqlarımızın çoxu nisbətən yaşlıydı və bəziləri hətta universitetə gələnəcən qəzetlərdə müxbirlik də eləmişdi. Ən əsası bu idi ki, hamımız bu peşəni sevib, seçib gəlmişdik və gələcəyə böyük ümidlərlə baxırdıq. Üstəlik də biləndə ki, zaman-zaman adları dünyanı tutmuş alimlər, yazıçılar, pedaqoqlardan, şairlərdən dərs alacağıq və onların təlimlərindən bəhrələnib gələcək müstəqil fəaliyyətimizdə kommunizmin işıqlı sabahlarını vəsf edəcəyik, uçmağa

qanad axtarır, onların auditoriyamızda nə zaman zühur edəcəklərini səbirsizliklə gözləyirdik. Budur, onlar vaxtaşırı üzə çıxır, qarşımızda mühazirələr söyləyirlər: Mir Cəlal Paşayev, Mehdi Məmmədov, Nəriman Həsənzadə, Nurəddin Babayev, Famil Mehdi, Əli Fəhmi, Gülhüseyn Hüseynoğlu, Nəsir İmanquliyev... Hər birisinin özlərinə xas özəllikləri, dərs demə metodları, qəribəlikləri, baməzəlikləri. Bir sözlə, al-əlvan rəssam palitrasını xatırladan bir mühitə düşmüşük.

Və birdən-birə bu mühitə daha bir "rəng", bir ayrı ovqat, bir başqa atmosfer daxil olur, özüylə gətirdiyi çox qəribə, o dövr üçün həddindən artıq cəsarətli, həm də son dərəcə demokratik abu-havayla bizi silkələyir, gözümüzə çökmüş hayılmayıllıq pərdəsini yox edir, sentimental, melanxolik əhval-ruhiyyəmizi pərən-pərən salıb bizləri ayıq olmağa, ətrafımızda cərəyan eləyən ictimai-siyasi hadisələrə praqmatikcəsinə, gələcəyin jurnalistləri olaraq fakta, olaya prinsipial mövqedən yanaşmağa səsləyir. Kim olsa yaxşıdır bu adam, bu ovqat, bu atmosfer - o zaman hələ tarix elmləri namizədi kimi tanınmış, universitetin jurnalistika kafedrasının demək olar sıravi müəllimi Şirməmməd Hüseynov. O Şirməmməd müəllim ki, hələ 1950-ci illərin ortalarında Azərbaycan Kommunist Partiyasının tarixi ilə əlaqədar istər öz tərəfimizdən, istərsə də mərkəzdən - Moskvadan olan hücumlara ilk olaraq etiraz eləmiş, bu münasibətlə keçirilən yığıncaqda o zamankı SSRI paytaxtından gəlmiş SOV.İKP.MK-nın məsul işçilərinə ötkəm cavab vermişdi və bu səbəbdən də adı lap o mərkəzdə - Moskvada yüksək çinlilərin dilində hallanmışdı. Bəli, elə ilk mühazirəsiylə Şirməmməd müəllim qəlbimizdə (hər halda mənim içimdə) özünə heç zaman uçulmayacaq bir hücrə, bir qalaça qurdu və bu gün də orda yaşamağındadır.

O bizə dünya jurnalistikasından dərs deyirdi. Bununla paralel o bizə ümumiyyətlə jurnalist dərsi verir, bizi dünya işlərindən, onun minbir oyunlarından, oxuduğumuz təhsil ocağının üstündə

adı olan S.M.Kirovun bəd əməllərindən, kommunizm, partiya sistemindəki boşluqlardan danışır, dövlət siyasətində çox böyük islahatlara ehtiyac olduğunu dönə-dönə vurğulayırdı. Və dönə-dönə söyləyirdi ki, sizin üçün çətin olacaq, qalacaqsız iki daşın arasında, başlayacaqsız nala-mıxa vurmağa. Həyat həqiqətləriylə illüziyalar arasında çırpınacaqsız, amma yüksək jurnalist sənətkarlığına yiyələnsəniz daxilən özünüzü rahat hiss edəcək, bu sənətə gəlməkdə səhv etmədiyinizə əmin olacaqsız. Vay o günə ki, qrafamon oldunuz. Onda hayıf olsun dörd-beş illik zəhmətinizə. Hər sahəmizdə olduğu kimi özünüzdə, daxilinizdə də yeniləşməyə, islahatlara daimi ehtiyac duyun, can atın...

Bəzən Şirməmməd müəllimin mühazirələri elə həddə gəlib çatırdı ki, açığı xof bizi bürüyür, düşünürdük ki, dərsin tamamında, yaxud eləcə dərs gedə-gedə auditoriyanın qapısı açılacaq və müəllimli tələbəli hamımızı damlayacaqlar. Bununla belə qəribə bir istək, inam, məftunluq duyğusu bizi Şirməmməd müəllimə daha sıx tellərlə bağlayırdı və onun yolunda hətta elliklə damlanmağa belə razıydıq...

Dinlədiyimiz bütün mühazirələr, bilmirəm bu günlər necədir, amma o vaxt jurnalistikaya qəti dəxli olmayan "quyruq fənnlər", Şirməmməd müəllimin təlimləri, təlqinləri fonunda işığını itirir, öləziyir və onunla hər görüşü təmiz bahar nəsimi, ən maraqlı roman, baxmalı film kimi gözləyirdik.

Bir dəfə (gərək ki, 1967-ci il idi) Tibb İnstitutunda oxuyan şair dostumuz Əşrəf Şəfiyev universitetə gəlib rəhmətlik Səyavuş Sərxanlıyla məni tapdı və həyəcanla bildirdi ki, nə yatmısız, "medinstitutun" rus dilli tələbələri, əsasən də ruslar onların dərs proqramına daxil edilən Azərbaycan dili fənninə etirazlarını bildiriblər. İ.Tyaqunov adlı birisi də institutun rus dilində buraxılan rəsmi qəzetində dilimizi elə salır, Azərbaycan dili kafedrasının müdiri Məmməd Qasımovun adını tərsinə çevirməklə (Vomusaqdemam) onu eybəcər həşərat dilində danışan tüklü uzunqulağa bənzədib.

Bunu eşitəcəyin o boyda universitetdə ilk ağlımıza gələn Şirməmməd Hüseynov oldu. Səyavuşla birgə axtarıb onu tapdıq, məsələdən hali elədik, Əşrəfin gətirdiyi o qəzeti də göstərdik. İlk sözü bu oldu ki, qəzeti hər tərəfə yayın və tələbələrimizi də xəbərdar eləyin. Rəngi ağappaq ağarmışdı Şirməmməd müəllimin. Az sonra Bəxtiyar Vahabzadəni tapıb ona da məsələni danışdı. Bir-iki saatın içində universitet çalxalanan dənizə dönmüşdü. Dövlət Təhlükəsizlik orqanları əl-ayağa düşdü və tezliklə həmin qəzet materialını yazan, Azərbaycana ezam olunmuş bir rus zabitinin oğlu İqor Tyaqunov Tibb Universitetindən qovuldu, deyəsən atasının da iş yerini digər respublikaya dəyişdilər. Bütün bunlara Şirməmməd müəllimin sayəsində nail olduq.

Qəribədir, özü kommunist ola-ola kommunist rejiminə qarşı daim radikal mövqedən çıxış eləyən Şirməmməd Hüseynovu gün o gün oldu ki, ADU-nun partiya komitəsinin üzvü seçdilər. Və hər şeyə yenilikçi, reformator ölçüləri ilə yanaşan Ş.Hüseynov bu vəzifəsinin icrasına da yeni ideyalar, yeni metodlarla başladı. Tezliklə bu qədim təhsil müəssisənin partiya həyatında köklü dəyişiklik, mənəvi mühitində saflaşma özünü göstərdi, arabir baş qaldıran neqativ hallara - rüşvətxorluğa, korrupsiyaya, təsərrüfat sahəsindəki dağıntılara qarşı amansız müharibə elan edildi və neçələri vəzifələrini itirəsi oldular.

Şirməmməd müəllimin tələbələr arasında ən çox qaraladığı imkanlı, vəzifəli şəxslərin övladları idi. Belələri universitetdə çox idi və daha çox şərqşünaslıq, bir də hüquq fakültələrində lövbər salmışdılar. Ağızları nəydi ki, Şirməmməd müəllimin qənşərində özlərini saymazyana, təşəxxüslü aparaydılar, müəllimlərlə hədsiz sərtliyi vardısa da hüdudsuz demokratikliyi, misilsiz mehribançılığı, səxavəti də yox deyildi. Cod, köntöy, cırqursaq, müəllimlərlə öcəşən olsalar da, qələmli, istedadlı tələbələri sevər, onların şıltağına dözər, hər bəladan hifz edər, "nə olsa bunlardan olacaq" deyərdi...

Eşitmişəm, bilirəm, inanıram ki, bu gün professor kimi elmi ad və dərəcələri, başlıcası isə MÜƏLLİM kimi müqəddəs adı şərəflə daşımaqda olan, ölkənin siyasi həyatında daim fəal iştirak edən, müxalifət partiyalarına düzgün yol göstərməklə onların çatışmazlıqlarını üzlərinə deyən, o cümlədən iqtidarımızla da bəzən sözü düz gətirməyən, amma elə həmin iqtidar tərəfindən sayğıyla qarşılanan, hətta prezident təqaüdünə layiq görülən (halal xoşunuz olsun, müəllim) Şirməmməd Hüseynov ömrün qürub çağlarına baxmadan bu gün də öz əzəli və əbədi missiyasını yerinə yetirməkdə, dərs dediyi gənc jurnalistlərə həqiqətpərəstlik, prinsipiallıq elmini tədris, təlqin eləməkdədir. Yəqin ki, bu missiyasını o, son nəfəsinə, ürəyinin son vurğusunacan daşıyacaq. Arzumsa, arzumuzsa budur ki, ulu Tanrı o son nəfəsi, o son vurğunu uzun və uzun illər, qərinələr sevimli müəllimimizdən əsirgəsin!

İntiqam MEHDİZADƏ

"525-ci qəzet", 17 noyabr 2006

"YAŞAYIR İNSAN"

Bu məşhur mahnının sözləri xalq şairi Cabir Novruzundur:

O hər gün axtarır, hər gün döyüşür,
Gah sevinc tapır, gah da ki, qəmə düşür.

Oda hər gün axtarır. Axtardığını tapanda sevinir. Bəzən qəmə də düşür. Amma döyüşür. Yarım əsrdən çoxdu döyüşür. İllər ildırım sürəti ilə bir-birini əvəzləyir. Fəsillər də dəyişir, nəsillər də. Məsləklər də dəyişir, məzhəblər də. Şüurlar da dəyişir, əqidələr də. Bu vurhavurda, bu qovhaqovda o dəyişməz olaraq qalır. Həm də döyüşkən olaraq qalır. Ən qəribəsi də bu uzun illərin bitib-tükənməyən savaşında silahı yalnız və yalnız qələmidir. Bu qələmin gülləsi də sözdür. Soruşa bilərsiniz ki, axı davası nə üstədir? İstəyi nədir, bu insan övladının? Bu söhbətdə mən onun bütün istəklərini deyəcəm. İlk növbədə istəyir ki, Mirzə Vəlilin təbirincə desək, övladi-vətən avarə dolanmasın, elmə, biliyə yiyələnsin. İstəyir ki, həmvətənlərinin torpaq qeyrəti, vətən eşqi tüğyan eləsin. Istəyir ki, halal-haramı, yalan-doğrunu, zülmət-işığı, qara-bəyazı üstələməsin. İstəyir ki, özü qələminə, əqidəsinə sadiq qaldığı kimi, digər qələm əhli də bu məziyyətlərdən mənfəətbərdar olsun. İstəyir ki, cümlə sahibi məzhəblər özlərindən öncə vətəni, milləti, xalqı düşünsünlər. Uümlə istəklərinin məğzi budur. Necə bilirsiniz, istədiyi azdır, yoxsa çox? Sizi bilmirəm, mən deyərdim ki, çoxdur. Çox böyük istəkdir. Bu istəyin, bu əqidənin sahibi neçə on illərdir qələmini süngüyə çevirib ömrünün səkkiz onilliyini arxada qoyan, saf və təmiz söz döyüşünün sərkərdəsi olan professor Şirməmməd Hüseynovdur.

Tarix boyu gördükləri xeyirxah işlərin müqabilində bədxahların zərbəsinə tuş gələn, ustadlarını yada salan, zaman-zaman bizə keçmişimizi xatırladan, uzaqları yaxınlaşdıran,

qələmi ilə haray salıb bizi gələcəyə olan borcumuzu dərk etməyə çağıran Şirməmməd müəllim. Etiraf etmək gərəkdir ki, istər orta, istərsə də ali məktəbdə oxuduğumuz illərdə müəllimlərimiz çox olub. Amma o çoxun içində lap az müəllim var ki, yaşımızdan, həyat və sənət təjrübəmizdən asılı olmayaraq onun adı qarşısında həmişə səjdədə durmağı fəxarət bilmişik.

82 il bundan önjə dekabrın 17-də Şəkidə dünyaya gələn Şirməmməd müəllim bizim jurnalist nəsli üçün belə az müəllimlərin bəlkə də tənhasıdır.

H.Zərdabi, Ü.Hacıbəyov, C.Məmmədquluzadə, Ə.Ağayev Azərbaycanın fikir tarixində kimdisə, Şirməmməd müəllim də bugünkü fikir tariximizdə sanki onların birləşmiş obrazıdır. Özü də bu fikirdə olan təkcə mən deyiləm. Professor Cəmil Həsənli yazır ki, Zərdabi yeni başlanan, yeni formalaşan, hələ barmaqla sayılajaq qədər, lakin siyasi və mənəvi yükü sayından çox-çox böyük olan ziyalı mühitinin başında dayanırdısa, 21-ci əsrin bu günlərində Şirməmməd müəllim bilgisayarla sayılacaq geniş bir ziyalı dairəsinin içində tənhadır.

Tənhadır - gördüyü işlərin milli qayəsinə, atdığı addımların ictimai mahiyyətinə görə. Professor R.Hüseynov yazır ki, Şirməmməd müəllim çağdaş gəncliyin milli şüurunun oyanmasına güclü təsir göstərir. Tarix və qananlar bunun qiymətini əlbəttə ki, verəcək. Niyə deyir tarix və qananlar? Çünki görülən işlərin əsil mahiyyətini anlamaq üçün zaman gərəkdir və onu qanan, dərk edən, anlayan gərəkdir. Sıradan hər bir kəs bu xidməti nə anlaya bilər, nə dəyərləndirə bilər. Xalq şairi Bəxtiyar Vahabzadə isə deyir ki, onun qələmindən çıxan yazıların arxasında onun sınmaz, əyilməz şəxsiyyəti boylanır.

Şirməmməd müəllim hər gün axtarışdadır. Həm də çox narahatdır. Bilirsiniz nəyin narahatçılığını çəkir? Narahatdır ki, Azərbaycan curnalistika tarixi haqqında fundamental bir əsər hələ yoxdur. Narahatçılığının bir səbəbi də odur ki, Üzeyir bəy yaradıjılığında hələ də tədqiq olunmalı sahələr çoxdur. Amma

Üzeyir bəyi tədqiq etmək istəyən oğul da heç olmasa, Üzeyir təfəkküründün bircə faizi də olsa olmalıdır. Bir də ona görə narahatdır ki, bütün inkişaf etmiş ölkələrdə mətbuat tarixini öyrənən xüsusi institutlar var.

Mən sizə deyim ki, bu əslində xoşbəxt bir narahatçılıqdır. Bu qəbil narahatçılıq insanı hər zaman axtarışa sövq edir. İnsan isə istədiyini sidqürəklə axtaranda hətta onun zəif vücuduna belə ilahi bir güc gəlir. Bu mənəvi güc ona imkan verir ki, axtardığını tapsın. Tapır da. Amma baxır nə axtarasan, harda axtarasan və nəyi tapanda sevinəsən? Arifə bir işarə yetər, - deyib atalar. Elə bilirəm ki, arif dinləyici üçün də əlavə şərhə ehtiyac yoxdur. Ehtiyac öz xalqının, millətinin mənəvi saflığı uğrunda daim axtarışda olanlaradır, ehtiyac Füzulinin təbirinjə desək, mərifət bəhrinin qəvvaslarınadır. Çünki o mərifət bəhrindən dürlü-dürlü inciləri çıxaran o qəvvaslardır! Necə ki, Şirməmməd müəllim Azərbaycanın fikir tarixindən, söz dəryasından o inciləri axtarır, tapır, tapanda da yaşının bu çağında belə az qala məsum bir uşaq kimi sevinir. Arzu edək ki, Tanrı onun bu sevinc payını bol eləsin. Onun bizim kimi tələbələri də hələ neçə illər bundan sonra belə qürurla desinlər ki, Şirməmməd müəllim hər gün axtarır, saf, təmiz söz uğrunda hər gün döyüşür və bu qələbəsinin sevinci ilə yaşayır.

Zərxanım ƏHMƏDLİ,
İctimai Radionun İnformasiya və analitik verilişlər departamentinin direktor müavini

2006-cı il dekabrın 17-də
İctimai Radio ilə verilən mətn

Xatirələr

ƏZİZ VƏ DOĞMA ADAM



-Mən Arif müəllimi 1940-cı ildən tanıyıram. Onun həyat yoldaşı Zümrüd xanım Axundova Şəkidə həm bizim qapıbir qonşumuz, həm də anamın əmisi qızı idi. O illərdə Arif müəllim hər yay ailəlikjə Şəkiyə istirahətə gələrdi. Bu ailə ilə elə o vaxtdan tanış olmuşdum. Açığını deyim ki, məni ali məktəbə getməyə həvəsləndirənlərdən biri də Arif müəllim idi. 1945-ci ildə universitetə qəbul olundum. Tələbəlik illərində onlara çox gedib-gəlirdim. Mən onların evində həmişə ziyalı mühiti görmüşəm.

1950-ci ildə ali məktəbi bitirdikdən sonra məni universitetdə saxladılar. Həmin ilin oktyabr ayında aspiranturada təhsil almaq üçün Moskvaya getməli idim. Avqust ayında Heydər Hüseynovun kitabı ilə bağlı aparılan kampaniya, xüsusilə filarmoniyanın binasında "respublika ziyalılarının" yığınjağında Mir Cəfər Bağırovun Məmməd Arifə qarşı kəskin hücumu bizim hamımızı sarsıtmışdı. Arif müəllim vəzifədən və partiyadan xaric edildikdən sonra evdən bayıra çıxa bilmirdi. Həmin vaxtlarda mən də onlarda qalırdım. Hər dəfə qapının zəngi basılanda, bütün ailə üzvləri həyəcan keçirirdi. Gözləyirdik ki, bu saat bu dəqiqə gəlib onu aparacaqlar. Xüsusilə Heydər Hüseynovun özünü asmasından sonra nigarançılıq daha da artmışdı. Biz gecə-gündüz onun keşiyini çəkirdik. O,

işsiz qaldığı illərdə də boş-bekar oturmur, rus və dünya ədəbiyyatından gözəl nümunələr tərjümə edirdi. Məhz həmin illərdə Arif müəllim L.Tolstoyun, N.Qoqolun, A.Çexovun, Servantesin və digər tanınmış yazıçıların bir çox əsərlərini Azərbaycan dilinə tərjümə etdi. Çox-çox sonralar, Bağırov erası bitəndən sonra Məmməd Arif özü də etiraf etdi ki, Heydər Hüseynovun başına gələnlərdən sonra o da intihar etmək istəyirmiş.

Ümumiyyətlə, mən bir akademik, bir ziyalı kimi onu heç kimlə müqayisə edə bilmirəm. Sanballı adam idi. Təmkinliliyinə, sadəliyinə söz ola bilməzdi. Təsəvvür edirsinizmi, 1974-cü ildə 70 illik yubileyi qeyd olunarkən ona birinci sinifdə dərs demiş Əlməmməd Mustafayev adlı müəllimini tapdırmış, onu evində təşkil etdiyi ziyafətin yuxarı başında əyləşdirmişdi. O, çox böyük vəzifələrdə olmuşdu. Böyük elmi titullara malik idi. Əlində kifayət qədər imkan, şərait olmasına baxmayaraq, heç vaxt haram tikəyə əl uzatmamışdı. Onun kimi nəfsinə hakim adam təsəvvürümə gətirə bilmirəm. Az danışıb çox iş görən adam idi. Heç vaxt ona qarşı olan haqsızlıqları dilinə gətirməzdi. Bir sözlə, nadir şəxsiyyət, qənimət adam idi Arif müəllim.

Sonralar aylar, illər, onilliklər keçəcəkdi. Məmməd Arif bir vaxtlar M.C.Bağırova yarınmaq üçün ona "xalq düşməni", "vətən xaini", "burcua tənqidçisi" damğası vuran naxələflərin hamısını bağışlayacaqdır.

"Günay", №18, 3 may 2003-cü il

DOST HAQQINDA BİR NEÇƏ SÖZ



Hörmətli dostum, məsləkdaşım, uzun illər bir yerdə işləyib, mütəmadi təmasda olduğum Məmməd bəy Xələfov haqqında düşünərkən məşhur mütəfəkkir ədibimiz Əhmədbəy Ağayevin Həsən bəy Zərdabinin dəfn mərasimində söylədiyi sözlər yadıma düşdü: "Dünyadan cümləmiz böyləcə gedəcəyik. Heç bir şey aparmayacayız! Bizdən qalan fəqət o insanlıq, o öz millətimizə, öz taifəmizə və ümuminsaniyyətə qulluq və xidmət qalacaq ki, əlan Həsənbəyin ruhunu bu qədər əziz və möhtərəm ediyor!"

M.Xələfovla mən 1946-cı ildə tanış olmuşam. Hər ikimiz universitetin tələbə həmkarlar komitəsinə üzv seçilmişdik. O, hüquq fakültəsində Stalin təqaüdü alırdı. Mən isə filologiya fakültəsinin curnalistika şöbəsində Nizami təqaüdü. 1947-ci ildə universitetdə çoxtiraclı "Lenin tərbiyəsi uğrunda" adlı qəzet nəşrə başladı. Bu qəzetdə M.Xələfovun şəklini və haqqında yazı vermişdik. Sonralar hər ikimiz aspiranturaya daxil olduq. Qeyd edim ki, təhsil aldığımız müddətdə universitetdə çox görkəmli alim və ziyalı şəxsiyyətlər müəllimliklə məşğul idilər. İstiqlal, həqiqi vətəndaşlıq və milli qeyrət məktəbi keçmiş bu ziyalılar təqib və təcavüzlərə məruz qalsalar da, sıraları azalsa da, xeyli qismi öz insanlıq və müəllimlik simalarını saxlayıb mühafizə etmişdilər. Nümunə götürüləcək, öyrəniləcək ziyalı - müəllimlər az deyildi. Hər fakültədə belə müəllimlər vardı. Bunların istedadlı, işgüzar, zəhmətsevər gənjlərə qayğısı hədsiz idi. Sonralar bir yerdə həmkarlıq etdiyimiz ağsaqqallarımız

Maqsud Cavadov, Əşrəf Hüseynov, Məmməd Arif, Mehdi Əliyev, Vahid Qəhrəmanov, Feyzulla Qasımzadə, Məmmədrza Təhmasib, Cəlal Qasımov, Həsən Dadaşov və başqalarının adlarını fəxrlə çəkə bilərəm.

M.Xələfov ziyalılarımızın 40-50-ci illər nəslinin ən yaxşı keyfiyyətlərini özündə cəmləşdirən, bütün həyatı boyu insanlıq keyfiyyətini qoruyub saxlayan şəxsiyyət idi. Müxtəlif şəraitlərdə, məqamlarda hər ikimiz dekan olarkən mən M.Xələfovu yolundan sapan, yersiz güzəştə gedən, ağa qara deyən, yarınan görməmişəm. Əksinə, ona yarınanlar çox idi, fayda görən lap az. Bəlkə də yox idi. Milli mənafe, milli heysiyyət baxımından M.Xələfov heç kəsə güzəşt etməzdi. Mən Tiflis Universitetinin elmi şurasında M.Xələfov doktorluq dissertasiyası müdafiə edərkən bunun şahidi oldum. Nəinki respublikamızın, həm də İttifaqın hüquqşünas alimlərinin Məmməd müəllimə böyük hörmət və ehtiramını gördüm.

Yay günlərində dostlar Şüvəlanda Məmməd müəllimin bağında onun başına toplaşardıq. Ciddi söhbətlərimiz, mübahisələrimiz olardı. Amma heç kəs bu ağır təbiətli, dərin düşüncəli adamı müvazinətdən çıxara bilməzdi.

Təbiətən sakit, hədsiz səxavətli, elmə - öyrənməyə həvəsli insanı heç vaxt yadımdan çıxara bilməmişəm və yəqin ki, bilməyəcəyəm.

"Haqqa qovuşan insan", 2002, səh.186-187

SƏMİMİ İNSAN, ŞƏHİD GENERAL



1991-ci il noyabrın 25-də "Bərəkət" qəzetində 20 noyabr faciəsi ilə əlaqədar mənim "Vertolyot qəzaya uğrayıb, yoxsa vurulub?" sərlövhəli məqaləm dərj olunub. Yazını belə başlamışdım: "Noyabrın 20-si Azərbaycan tarixinə təkjə dəhşətli qara fajiə günü kimi deyil, həm də ən böyük yalan, riyakarlıq, maymaqlıq və məsuliyyətsizlik günü kimi daxil olajaq.

1991-ci ilin 20 noyabr fajiəsi 1990-cı ilin 20 yanvar fajiəsinin, 1988-ci ilin 20 fevral fajiəsinin, əslində 1905, 1918, 1920-ci illərin fevral-mart fajiələrinin davamıdır", "erməni vəhşiləri, XX əsrin bu əliqanlı janiləri hərbi vertolyotu vurub xalqımızın qeyrətli oğullarını qanlarına qəltan etmişlər".

Mən hadisənin dördüncü günü bu sətirləri yazarkən qarşımda yaxşı tanıdığım, çox böyük hörmət gördüyüm və məhəbbət bəslədiyim ləyaqətli vətən övladları sırasında Məhəmməd Əsədovun da nurlu simasını, sakit və mələhətli danışığını, inzibati orqan işçiləri içərisində çox nadir halda təsadüf etdiyim ziyalı mədəniyyətinə malik bir insanı gözlərim önündə canlandırırdım.

Məhəmmədlə mənim yadımda qalan, hafizəmə əbədi həkk olunmuş bir görüşü, səmimi söhbəti bir daha xatırlatmaq istə-

yirəm. 1990-cı ilin qanlı yanvar hadisələri hamımızı sarsıtmışdı. Yanvarın 21-də mən xalq şairi Bəxtiyar Vahabzadə ilə səhər tezdən telestudiyaya getdik. Hər yanda əliavtomatlı rus əsgərləri keşik çəkirdilər. Hərbçilər telestudiyadakı zabitləri ilə telefon əlaqəsi saxlayıb, bizim kim olduğumuz barədə xəbər verdilər: Bəxtiyar - millət vəkili, mən isə - telestudiyanın siyasi icmalçısı... Bizi içəri buraxdılar. Sədr müavini Fuad Tarverdiyevin otağına getdik. Burda da olan hadisələr barədə geniş məlumat vermək fikrim yoxdur. Ordan çıxıb Ali Sovetin binasına getdik. Deputatlar yavaş-yavaş toplaşırdılar. Bəxtiyarın "Azadlıq" radiosu ilə müraciəti və Ali Sovet əməkdaşlarının Xalq Cəbhəsi fəallarının köməyi ilə müxtəlif kanallarla təcili tədbirlər nəticəsində sessiyanın baş tutacağı ehtimalı da artırdı. Mən belə bir məsuliyyətli, gərgin şəraitdə Məhəmməd Əsədovu da orada gördüm. Onun necə həyəcan keçirdiyinin şahidiyəm. Bütün günü və hətta gecəni Ali Sovetdə qalmalı olduq. Şəhərdə komendant saatı tətbiq edilmişdi. Səhər tezdən Məhəmməd müəllim məni axtarıb tapdı. Öz maşını ilə evimizə qədər apardı. Maşında çox açıq söhbətimiz, fikir mübadiləsi oldu. Mən qarşımda həqiqi bir vətənpərvər, sakit və təmkinli, fəal düşünən, emosiyadan çox ağıla və məntiqə üstünlük verən bir dövlət xadimini görürdüm.

İkinci yaddaqalan görüşümüz yenə Ali Sovetdə oldu. Məhəmməd Əsədov artıq respublikanın daxili işlər naziri idi. Yenə əvvəlki qayda ilə birlikdə Ali Sovetdən onun maşınında evə döndüm. Yolda maşında olan bir nəfərlə məni tanış etdi və dedi ki, yəqin ki, nazirliyin cinayət axtarışı şöbəsinə başçılıq edəcək. Mən zarafatyana dedim ki, respublikada cinayəti axtarmağa

hajət yoxdur. Başdan-ayağa hər tərəf cinayətlə doludur. Düş, bir küçənin, idarə, müəssisə, mağaza və s. bu başından o başına qədər yoxla, bir sürü cinayətkarı qat qabağına, cəmiyyətimiz özü cinayətkarlar yetişdirən cəmiyyətdir. Mən məsləhət görərdim ki, sənin özün kimilərdən bir düzlük, doğruluq, halallıq axtaran dəstə təşkil edib, "düzlük axtaran şöbə" yaradasan. Məhəmməd Əsədov ona xas olan təmkinlə gülümsəyib, əlini çiynimə qoydu və dedi:

- O şöbədə işləməyə razısansa, ərizəni yaz, götürüm.

General! Ləyaqətli insan Məhəmməd Əsədov vətən yolunda şəhid olanlar içərisində bu şərəfli, fəxarətli ada ən çox layiq olanlardandır. Xatirəsi, həmişə əziz, nurlu siması qəlbimizdə yaşayır.

"Günay", №47, 26 noyabr 2005-ci il

BİZİM HADİ MÜƏLLİM



Professor Hadi Mirzəzadə Azərbaycanda dil tarixinin ən yaxşı bilicisi olmaqla yanaşı, inqilabdan əvvəlki ziyalılarımıza xas olan ən gözəl keyfiyyətləri özündə təcəssüm etdirən, haqq-ədalət, ləyaqət, insanlıq mücəssəməsi idi. İnqilabdan əvvəlki ziyalılar deyəndə, mən Həsən bəy Zərdabi, Firudin bəy Köçərli, Üzeyir bəy Hacıbəyov kimi böyük şəxsiyyətləri nəzərdə tuturam. Hadi müəllim o böyük kişilərin səsini, nəfəsini, müqəddəsliyini, ujalığını, ölməzliyini yaşadırdı.

Mən onun mühazirələrinə qulaq asmışam. Son dərəcə hazırlıqlı, savadlı, dərin zəkalı, yüksək intellektə malik bir alim idi. Alim demək azdı, milli təəssübkeşlik hissi ilə yaşayan böyük vətəndaş, böyük Azərbaycan oğlu idi. Biz sözü ilə əməli düz gəlməyən çox alimlər görmüşük. Hadi müəllim bir başqa aləm idi. Sözü, əməli düz olan, gecə-gündüz ana dilimizin keşiyində dayanan qüdrətli bir alim, mehriban ata, gözəl dost...

Bir dəfə Hadi müəllim, professor Əşrəf Hüseynov, universitet partiya təşkilatının katibi Kərim Köçərli və mən Bərdəyə, Ağdama getmişdik. Onda mən universitet qəzetində baş redaktorun müavini idim. Bərdə və Ağdamda Hadi müəllimə, Əşrəf müəllimə nə boyda hörmət və məhəbbət gördüm. Bu insan, adamlarla elə canlı, isti, səmimi, mehriban söhbət eləyirdi ki, adamlar öz doğmaları kimi bütün dərdsərlərini Hadi müəllimə danışırdılar. Sözün düzü, mən heyran qaldım. Hadi müəllim cavan ikən ağsaqqal idi. Xeyirxah işlərdə qabağa düşürdü, yol göstərirdi, əl tuturdu. Evi daim qonaqlı-

qaralı idi. Ən ağır vaxtda belə bir tikə çörəyini dostla bölüşərdi. Sovet dövrünün güclü təbliğat ab-havası, mənim tanıdığım Hadi Məşədi İsmayıl oğlunu - bu böyük insanı zərrə qədər də olsun dəyişdirə bilmədi.

50-ci illərdə Hadi müəllimi Sofiya Universitetinə türk dili tarixindən dərs deməyə dəvət etdilər. Siz təsəvvür eləyirsiniz, türk dili tarixindən dərs deməyə o boyda Türkiyədən yox, məhz Azərbaycandan böyük alim Hadi Mirzəzadəni dəvət eləmişdilər. Bu, Hadi müəllimə çox böyük etimad idi. Həm türkoloq kimi, həm də böyük şəxsiyyət kimi...

Böyük ambisiyalardan uzaq olan, az danışıb, çox iş görən bu görkəmli şəxsiyyət həm də gözəl ailə başçısı idi. Həyat yoldaşı Almas xanım əsli-kökü olan bir nəslin qızı olmaqla yanaşı, həm də Şəkinin ən ləyaqətli, ən gözəl xanımlarından sayılırdı. Təsadüfi deyil ki, bu ailədə böyüyən övladlar da ölkəmizin ən tanınmış, ən istedadlı vətəndaşlarıdır. Xəyyam kimi, Çimnaz xanım kimi...

Hadi müəllim özündən sonra zəngin irs qoyub gedib. Çox təəssüf ki, belə təbiətli nadir insanlar indi demək olar ki, qalmayıb".

"Günay", №9, 28 fevral 2004-cü il

MƏNƏVİ TƏMİZLİK ÖLÇÜSÜ



Nəsir İmanquliyev mənim üçün həm yüksək əxlaqi-mənəvi keyfiyyətli, hərtərəfli savadlı, təcrübəli jurnalist-müəllim, sonralar həm də səmimi və xeyirxah həmkar, qayğıkeş dost, böyük qardaş olmuşdur. 1945-ci ildə Azərbaycan Dövlət Universitetində filologiya fakültəsində curnalistika şöbəsi yaradıldı. Mən də elə həmin il bu şöbəyə daxil oldum. O vaxt fakültədə respublikanın ən tanınmış adlı-sanlı alim-müəllimləri dərs deyirdi. Məmməd Arif, Mir Cəlal Paşayev, Əli Sultanlı, Mikayıl Rəfili, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Cəfər Xəndan, Məmmədağa Şirəliyev, Hadi Mirzəzadə, Həbib Səmədzadə, Feyzulla Qasımzadə və b. 1946-cı ildə fakültədə "jurnalistikanın nəzəriyyə və təcrübə" kafedrası yaradıldı. Kafedranın müdiri 30-cu illərdə Moskvada Dövlət Jurnalistika İnstitutunu bitirmiş, zəngin elmi-nəzəri və təcrübi hazırlığı olan Həsən Şahgəldiyev təyin edildi. Həsən müəllim respublikanın tanınmış jurnalist və rəhbər mətbuat işçilərini tədris işinə cəlb etdi. Bunların sırasında respublikanın ən nüfuzlu rəsmi "Kommunist" qəzeti redaktorunun birinci müavini Nəsir İmanquliyev, həmin redaksiyanın məsul katibi İsrafil Nəzərov, "Azərnəşr"in direktoru, yazıçı Qılman Musayev, tanınmış tərcüməçi Cümşüd Əzimov və başqaları vardı.

Nəsir müəllimlə dördillik tələbə-müəllim münasibətlərimiz

yaddan çıxmadı. Jurnalistikanın əsas sirlərini, yazmaq vərdişini, məsuliyyət hissini, dürüstlük və dəqiqliyi biz öz müəllimlərimizdən öyrənmişdik.

1950-ci ildə mən şöbəni bitirdim. Moskva Dövlət Universitetinin aspiranturasına qəbul olundum.

1954-cü ildə namizədlik dissertasiyası müdafiə edib doğma universitetə qayıtdım. Elə bu vaxtdan öz müəllimlərim, o jümlədən Nəsir müəllimlə həmkarlıq illəri başladı. Nəsir müəllimlə onun ömrünün sonuna qədər fasiləsiz bir fakültədə canla-başla işləmişik. Doğrudur, Nəsir müəllimin əsas iş yerləri zamanla dəyişirdi; o, Dövlət Radio və Televiziya Komitəsində sədr müavini, Azərbaycan KP MK-nın təbliğat-təşviqat şöbəsində müavin, 1958-ci ildən təxminən 30 il "Bakı" və "Baku" axşam-səhər qəzetlərinin baş redaktoru işləyirdi. Lakin müəllimlik fəaliyyətini bir an belə kəsməmişdi.

Nəsir müəllimlə birgə elmi əməkdaşlığımız da vardı. 1966-cı ildə "Azərnəşr" kafedramızın hazırladığı "Jurnalistika məsələləri" dərs vəsaitini nəşr etdi. Bu kitabın əsas müəlliflərindən biri də N.İmanquliyev idi. "Qəzetdə xəbər" bölməsini Nəsir müəllimlə mən birgə yazmışdıq. Tələbələr indi də bu dərs vəsaitindən istifadə edirlər. Dərslik "Qızıl qələm" mükafatına layiq görülmüşdür. Sonralar bu birgə elmi əməkdaşlığımız davam etdi. Dərsliyin 1972-ci ildə növbəti nəşri çıxdı. Yenə əsas müəlliflərdən biri Nəsir müəllim idi. Bu elmi əməkdaşlığımız sonralar da davam edirdi. Nəsir müəllim Azərbaycan mətbuatının Böyük Vətən müharibəsi dövrü fəaliyyətinə dair namizədlik dissertasiyası yazdı və uğurla müdafiə etdi. Dosent və sonralar universitetin jurnalistika kafedrasının professoru

oldu.

Nəsir müəllim Azərbaycan curnalistika kadrlarının bir neçə nəslinin xeyirxah, səmimi, qayğıkeş müəllimi olmuşdur.

Mən dəfələrlə Nəsir müəllimgildə olmuşam. O evdə çörək kəsmişəm. Onun səmimi və alicənab həyat yoldaşı Gövhər xanımı, sevimli, istedadlı alim, şərqşünas qızı Aida xanımı çox böyük hörmətlə xatırlayıram.

Əgər bu gün universitetin jurnalistika fakültəsində işgüzar atmosfer, tələbkarlıq və düzlük, xeyirxahlıq və səmimiyyət varsa, bu keyfiyyətləri yaradan və miras qoyanlardan biri də məhz Nəsir İmanquliyev olmuşdur.

"Günay", 27 may 2006, №21

NURƏDDİNİN BAĞ EVİ, H.BAYQARANIN KİTABI, İSTİQLAL MÜZAKİRƏLƏRİ



Azərbaycanda və onun hüdudlarından kənarda tanınan ziyalılarımızdan olan Nurəddin Rzayevlə daima təmasda olanlardan biri də mənəm. Biz əqidə və məsləkdostlarıyıq.

Nurəddinlə məni xalq şairi, dostum və qardaşım Bəxtiyar Vahabzadə tanış edib. 30 ildir bu yaxınlıq davam edir. Təmkini, güclü məntiqi, yüksək şəxsi mədəniyyəti, geniş dünyagörüşü, tariximizə, ədəbiyyatımıza bələdçiliyi, qayğıkeşliyi ilə hamımıza nümunə olan Nurəddin müəllimi mən həmişə nikbin görmüşəm. Onun varlığı həmişə xalqının tərəqqisi, bu günü və gələcəyi ilə həmahəngdir. Nurəddin müəllim hədsiz təvazökardır, təmənnasızdır, yoldaşlıqda, dostluqda sədaqətlidir, əqidə və məsləkində sabitqədəmdir. Bəxtiyar Vahabzadə məktəbinin, məclisinin daimi üzvlərindəndir. Həm də bu məclislərdə ən ciddi mövzularda müsahibə və müzakirələri rövnəqləndirən ağıl və zəka sahiblərindən biridir. Mən dəfələrlə bunun şahidi olmuşam.

Nurəddin Rzayevi mən Azərbaycanın müasir istiqlal mücahidlərindən – az danışıb çox iş görən, xalqını ürəkdən sevən, ona xidmət etməyi vicdani borc bilən mücahidlərindən hesab edirəm.

Nurəddin daim öyrənməyə, mütaliə etməyə, təkmilləşməyə jan atan nadir şəxsiyyətlərdəndir. Birjə nümunə: 1977-ci ildə görkəmli diricor və bəstəkarımız Niyazi Türkiyə səfərindən qayıtdıqdan sonra çox sevdiyi və ruhən yaxın olduğu Bəxtiyar müəllimə bir kitab vermişdi ki, oxuyub tənqidi bir məqalə

yazsın. Bu həmyerlimiz, gənj yaşlarından Azərbaycan istiqlalı uğrunda fədakarcasına mübarizəyə qoşulub, 20-ci illərdə vətəni tərk etməyə məcbur olmuş, tarixçi, hüquqşünas alim və mücahid Hüseyn Bayqaranın (Qara Hüseynovun) "Azərbaycan istiqlal mücadiləsi tarixi" kitabı idi.

Bəxtiyar özü diqqətlə oxuduqdan sonra kitabı mənə verdi ki, tənqidi məqaləni mən "yazım". Rəsmi tarix ədəbiyyatında, bədii əsərlərdə, hətta görkəmli şairlərimizin şeirlərində söyülən, böhtan və təhqirə, saxtakarlığa məruz qalan 1918-1920-ci illər tariximiz, tarixi şəxsiyyətlərimiz, bütövlükdə XIX və XX yüzilliyin əvvəllərində Azərbaycan istiqlalına nifrət təlqin edən yazılardan sonra belə bir işıqlı, tutarlı elmi-tarixi, yerli-yataqlı əsərlə tanış olmaq möcüzə sayıla bilərdi. Mən də kitabı acgözlüklə oxudum. Nurəddin və Xudunun hələlik xəbərləri yox idi. Həmin həyəcanlı günlərdə Nurəddin öz adəti və səxavətkarlığı üzrə bizi bağ evinə dəvət etdi. H.Bayqaranın kitabını da özümlə götürdüm. Nurəddin müəllimin bağ evində onu birgə oxuyub müzakirə etməyə başladıq. Söhbət yalnız tarixdən deyil, bu istiqlal yolunun davam etdirilməsindən, bunun vasitələri, imkanları və perspektivlərindən gedirdi. Söhbətlərimizi, düşünjələrimizi, arzularımızı, qeyrətli və cəfakeş ata-babalarımıza, müsavatçı adlanan istiqlalçılara münasibətimizi yenə də milli mütəfəkkir, istiqlal şairimiz Bəxtiyar Vahabzadə bir şeiri ilə ümumiləşdirdi. "Müsavat" şeirini yazdı. Həmin günlərin ruhunu özündə əks etdirən bu nadir əsər 22 ildən sonra bu yaxınlarda işıq üzü görmüşdür (bax: B.Vahabzadə, "Bir ömür yuxu", 1998, s.21.).

Mən Nurəddin Rzayevi də bu əsərin meydana gəlməsi səbəbkarlarından biri hesab edirəm. Bəxtiyar, Xudu, Nurəddin – bu üçlük mənən, ruhən bir-birini, həm də bizim hamımızı birləşdirir, azərbayjançılıq, müstəqillik, sosial ədalət uğrunda mübarizəyə səsləyirdi.

4 iyun 1999
"Nurəddin Rza-70", 1999, səh.95-96

İKİ MƏKTUB, DOSTLUQ DÜŞÜNCƏLƏRİ



Dünyagörüşlü, keşməkeşli, mənalı fə fəal ömür sürmüş yaşlıları həyata bağlayan ən güclü amillərdən biri də tarixi yaddaşdır. Bu qiymətli, mənəvi xəzinəyə zaman-zaman kövrək hissiyyatla baş vurmalı, yaddaş dəftərini vərəqləməli olursan. 40 ilə yaxın bir müddət dostluq etdiyim, halal çörək kəsdiyim, əqidəsinə, məsləkinə, cəsarətinə, məntiqinə, alimliyinə hədsiz məhəbbət və hörmət etdiyim Qulu müəllimin də yaddaş dəftərində xüsusi yeri və mövqeyi var.

Qulu məndən 6 yaş kiçik idi. Mən universitetin jurnalistika şöbəsini qurtaran ili o birinci kursa qəbul olunmuşdu. 1954-cü ildə mən Moskva Dövlət Universitetində aspiranturanı bitirib, namizədlik dissertasiyası müdafiə edərək universitetə qayıdan ili Qulu təhsili başa vurmuşdu. O vaxtkı, filologiya fakültəsində jurnalist tələbələrdən söhbət gedərkən bir neçə nəfərin adını çəkərdilər. Bunların sırasında Qulu Xəlilov və Xəlil Rza da vardı. Məni onların hər ikisi maraqlanırdı. Qulu ilə yaxın münasibətlərimizin əsas səbəbkarlarından biri məşhur alim-tənqidçi, Səməd Vurğunun "ədəbiyyatımızın vicdanı" adlandırdığı akademik Məmməd Arif Dadaşzadə, onun həyat yoldaşı, universitetin sayılan, istedadlı və yiyəsiz gənclərinə analıq məhəbbəti göstərən pedaqogika kafedrasının dosenti Zümrüd xanım Axundova oldular. Hər ikisi Qulunun çox böyük istedad və ən əsası vətəndaşlıq və milli qeyrət sahibi olduğunu dəfələrlə şəxsi, ailə çərçivəsi söhbətlərdə qeyd edirdilər. 1963-cü ildə M.Arif müəllimi Ağcabədidən Azərbaycan SSR-nin Ali Sovetinə deputatlığa namizədliyini irəli sürmüşdülər. Arif müəllimi Ağcabədiyə seçicilərlə görüşə kimlər müşayiət edirdi; indi çoxlarına təəccüblü gələ bilər: Nizami adına Ədəbiyyat İnstitutundan baş elmi işçi Qulu Xəlilov və universitetin dosenti Şirməmməd Hüseynov. Bizi rəsmi dairələr yox, M.Arif müəllim özü seçmişdhi. Mən Ağcabədidə Qulunun ata-anası, qardaş-bacıları ilə tanış oldum. Bu barədə Qulu müəllim ətraflı yazdığımdan təfərrüata varmıram.

Bu səfərdən sonra eyni ictimai zümrədən olduğumuz üçün Qulu mənim üçün doğmalaşdı. Çox böyük vuruşdan, çəkişmələrdən sonra Qulunu jurnalistika fakültəsinə dəvət etdik. Mən onun simasında fakültəyə yeni milli ruh, vətənpərvərlik ehtirası və məsuliyyəti gəldiyini, sıralarımızın gücləndiyini gördüm. Qulu mənalı ömrünün sonunadək də bu kollektivin əzizi, sevimlisi oldu.

Qulu müəllimin mənə qardaşcasına yazdığı, görüş və düşüncələrini bölüşdüyü bir neçə məktubu var. Mən onları qayğı ilə hifz edib saxlamışam. 1968- və 1972-ci illərdə yazılmış bu şəxsi məktublarda dövrün səciyyəsi, ictimai-siyasi problemləri, Qulunun ailə və övlad qayğılarına həsr olunmuş sətirlər var. Azərbaycan ziyalısı, alim və yazıçısının qələmindən, qəlbindən süzülən bu sətirləri həyəcansız oxumaq olmur. Hörmətli və unudulmaz dostum 70 illik yubileyi ilə əlaqədar bu məktubların işıq üzü görməsini də vacib sayıram.

7.VII.2000-ci il.

YUXUM

Əzizim Şirməmməd! Dünən (28 sentyabr) axşam sənə zəng vurandan və partiya iclasının yekunları barədə ötəri bir məlumat alandan sonra bərk yorulduğum üçün tez yatdım. Şirin yuxuya getmişdim, bir də gördüm ki, çox eybəcər bir neçə ifritə yavaş-yavaş mənə sarı gəlir. Əvvəlcə vecimə almadım, düşündüm ki, axı o qədər belə şeylər görmüşəm ki. Qoy lap yaxın gəlsin, "qılıncımı sıyırıb vuruşacağım. Gördüm hərif lap yaxına gəldi, lakin mənim saymazyana yatdığımı, bir balaca qurcalandığımı görüb, addımlarını çox ehtiyatla, qorxa-qorxa atmağa başladı. Bir balaca başımı qaldıran kimi məni boğmağa gələn ifritə götürüldü... və tapa bilmədim. Səhər oyandım və öz yuxumu sənə danışmaq istədim. Bəlkə, sən yuxunu yozdun. Bu yuxu ilə əlaqədar yadıma bəzi şeylər düşdü.

Fikirləşdim ki, tam halda götürsək, həyatda iki cür adam olur. Bir qrup adam yoluxucu xəstəliklərə oxşayırlar. Onlar yaxşı geyinir də, danışır da, bir çox rütbələri əldə edir də, ancaq ətəyini ətəyini bir balaca qaldıranda, qəlb aləminə nüfuz edəndə çirkab və üfunət iyi verir. Çünki bələləri cəmiyyətin və xalqın sinəsində irinləmiş çibana bənzəyir. Belə adamlar "heyvanları da korlayırlar" Mənə görə, mədəniyyət pərdəsi altında mədəniyyətsizlik, təmizlik əvəzinə natəmizlik, çirkab, xəbislik namusluluq əvəzinə hiyləgərlik, dələduzluq, ədalət pərdəsi altında ədalətsizlik, qansızlıq, həqiqəti dəf etmək, ciddi iş əvəzinə pedantlıq, intriqa, dedi-qodu, yüksək amal əvəzinə idealsızlıq, simasızlıq, riyakarlıq, ikiüzlülük, həqiqət uğrunda mübarizə əvəzinə ölgünlük, süstlük, ədalət, üzdə gülüş-tərif arxada böhtan, badalaq, kirli təşviqat, ayıqlıq və sağlamlıq əvəzinə, kütlük,

xəstəlik... yayan bu cür adamcıqlara qarşı vuruşmağın özü şərəfdir, insanlıq ləyaqətini qorumaqdır. Riyakarlıq və rəzillik zirehinə bürünmüş, vicdanlı qarşısında bir dəfə də olsa sarsılmayan, titrəməyən və getdikcə heyvanlar dünyasına yaxınlaşan belətiplərə qırmanc-şallaq-qamçı dəyməsə ətraflarına da üfunət yayar, zərər verərlər. Əqrəb kimi analarının ciyərini yeyib doğulan və bundan sonra dəhşətli qorxunun vahiməsindən irəli də gedəndə, geri də gedəndə zəhərini buraxan belə adam, Qorkinin qəhrəmanlarının birinin dili ilə desək, başını kif basmış hikmətlərin qırıntılarına bulaşmış ucuz həqiqətlərlə doldurub, xəsis bir evdar qadının ona tamamilə lazım olmayan və heç bir şeyə yaramayan hər cür zir-zibil saxladığı dəhlizə bənzəyir. Belə bir adama toxunduqda, onun qapısını açdıqda burnuna çürüntü üfunəti gəlir və tənəffüs etdiyin hava murdar bir qoxu ilə dolur. Bu bədbəxt adamcıqları ruhca möhkəm adamlar, prinsip və əqidə adamları adlandırırlar. Lakin heç kəs görmək istəmir ki, belə adamlar üçün əqidə öz bədənlərinin çılpaqlığını örtmək üçün tumandan və şalvardan başqa, bir şey deyil. Belə adamların alınlarında həmişə hamıya məlum olan "sakitlik və təmkin" kəlmələri, - saxta bir yazı oxunmaqdadır! Mən nə qədər belə adamlar görmüşəm. Belə xırdavaçı adamların dükanlarının sayı-hesabı yoxdur! Bu dükanlarda kəfən üçün müşənbə də, qətran da, nabat da mətbəx qurdlarını qırmaq üçün dərman da tapsan, - ancaq təzə, qızğın və sağlam heç bir şey tapmazsan! Sən tənhalıqdan yorulmuş xəstə qəlbinlə onlara müraciət etsən, canlı bir şey eşitmək yanğısı ilə onların yanına gəlsən, onlar sənə isti bir saqqız, özlərinin çeynədikləri və köhnəlib qıcqırmış, qıfşamış kitab düşüncələri təklif edəcəklər.

Mənə elə gəlir ki, belələri şəhər kənarına zibil daşıyan boynu zınqrovlu, tox, lakin məst, öz taleyindən məmnun olan bədbəxt madyan və ya yabı cinsini xatırladır.

Madam ki, belə "cinslər" var, onda həyat bizim doğma anamız ola bilməz, bizim tələbkar, mübariz sahibimiz ola bilər. Belə çirkablar, rəzillər sıxlaşıb üstümüzə gələrkən sarsılmamaq, müvazinəti itirməmək üçün mərd, təmiz, vicdanlı, namuslu, ruhən sağlam, cəsur, cəngavər adamlar lazımdır. "Əgər yararsız insanlar birləşərək böyük bir qüvvə əçmələ gətirirsə, namuslu insanlar da beləcə birləşməlidirlər. Axı, bu, çox sadə bir işdir" (Pyer Bezuxov). Həqiqəti, işıqlı və mütərəqqi olanları qorumaq üçün, cəmiyyəti insanlığı, bəşəriyyəti... çirkabdan, üfunətdən təmizləmək üçün, saf, təmiz, məsum, ləkəsiz, insani ürəkləri qorumaq üçün, yanan, yandıran, yaşayan, humanist vicdanları qorumaq üçün... Mənim barəmdə ürəyinə hansı bir hiss yol tapmaq istəsə də, açıq deyəcəm: mən səni bu cür təmiz və insani fikirlərin, ideyaların paklığını özündə cəmləşdirən adamlardan biri sayıram! Təkcə ona görə yox ki, mənə yuxuda ifritələr hücum edərkən onların səddini pozmusan, dağıtmısan, həm də ona görə ki, (bu, ən vacibi və əhəmiyyətlisidir!) sənin şəxsində, hərəkət və əməllərində öz istək və arzumun təcəssümü görürəm. Axı, indiki şəraitdə bu cür bütöv və saf xarakterə malik olamaq Suvorovun Alp dağlarını yarmasından heç də asan deyil. Mənə elə gəlir ki, bu cür xarakterə sahid olmaq böyük qəhrəmanlıqdır, xüsusi istedad əlamətidir, insanlığın nəcib arzularına çatması üçün uzaq-uzaq məsafəni xeyli ixtisara salmaqdır. Burda Çernışevskinin Raxmetovu yadıma düşür. Böyük mütəfəkkir yazır ki, Raxmetov kimi adamların yolu şəxsi sevinclər üçün kasıb olsa da, şərəflidir: "Bəli, onlar pis adam

deyillər. Onlar azdır, lakin bütün insanların həyatını çiçəkləndirən onlardır. Onlarsız bu həyat çürəyərdi, turşuyardı. Onlar azdır, lakin onlar bütün insanlara nəfəs verirlər, onlarsız insanlar boğularlar. Namuslu və xeyrxah insanlar kütləsi böyükdür, Raxmetov kimi adamlar isə azdır. Lakin namuslu və xeyrxah insanların arasında onlar çayın ətri, gözəl şərabın atəşidir. Kütlənin qüvvəsi və gözəlliyi onlardır. Onlar ən yaxşı insanların yaxşısıdır, mühərriklərin mühərrikidir, dünyanın canının canı, cövhərinin cövhəridir." Mən, heç mübaliğə etmədən, qəlbimə heç bir qara hiss yaxın qoymadan sən Şirməmməd Hüseynovu da tərəddüdsüs, bu cür adamdan, müasir raxmetovlardan biri sayıram. Madam ki, belədir onda yalınçılığa, riyakarlığa, dələduzluğa, çirkaba, üfunətə, ikiüzlüyə, yaltaqlığa... qarşı mübarizədə məni də özünlə çiyin-çiyinə gör. Arzu edirəm ki, bu şərəfli işdə sevinc və xoşbaxtlıq nəşə və müvəffəqiyyət daimi yol yoldaşım olsun!

Dərin hörmət və minnətdarlıq hissi ilə,

Qulu XƏLİLOV

Bakı, səhər saat 8.

29.IX.68.

ƏN ÇƏTİN YAZILAN MƏKTUB

Əzizim Qasım, Kamran, Şirməmməd, Aslan, Ziyəddin müəllim və başqa dostlar. Dünyada mən heç bir məktubu bu qədər çətin yazmamışam. Elə bil ilhamımın odu tamam sönüb, qollarım süsləşib, beynim, ağlım kütləşib, gözlərim tükənməz-qurumaz bulağa dönüb. Nədəndir, bilirsiniz. Bəlkə də, mən sağalıb gələndən sonra bu məktubdakı sözləri yada salıb məni zəif iradəli bir adam kimi lağa qoyacaqsınız. Allah eləsin. Az qala, bir aya yaxındır ki, sizi özümə həddən artıq yaxın bilib ürəyimin bir neçə gizlin sözünü sizə çatdırmaq istəyirdim. Bu məktubu bir siz, bir də mən bilirəm. Adamın taleyi tükdən asılı olanda məktub yazmaq yaman çətin olurmuş. Bəlkə, vəziyyət səciyyəli bu məktub da bir yüngüllükdür - mənim üçün. "Gedirəm, yamandır ayrılıq dərdi".Müvəqqətimi, əbədimi? Onu heç kim deyə bilməz. Ən mahir həkim belə. Bıçaq müalicədə son çarədir. Mənim taleyim isə elə gətirib ki, yalnız bıçaqlara pənah aparmaqla yaşaya bilirəm. Burda - bu mürəkkəb və örtülü-təhlükəli sürüşkən aləmdə hər şey ola bilər. Mən bunları çox görmüşəm. Bu mənada həyat və ölüm, - bu bir-birinə zidd iki qüvvə insanə həm çox yaxındır, həm də çox uzaq. Lakin mənim kimi 7 qabırğasız, dalaqsız, ciyərləri on-on beş yerdən doğranmış və iki yeni əməliyyat qarşısında dayanmış yarımcan üçün daha çox yaxındır və bunun üçün heç bir həkimi danlamazlar. Çünki "ölüm haqdır, çıxmaq olmaz əmirdən". Mən heç zaman operasiyadan indiki qədər qorxmamışdım. Məni yanvarın 5-də yaracaqdılar. Lakin ürəyimə damdı ki, stolda qalacağam. Çünki kəsiləcək yerlərin əti indidən titrəyirdi. Mən birinci dəfə gedəndə balalarımı öpməmiş getmişdim. Gəldim ki, onları öpüm və yeni döyüşə hazırlaşan əsgər kimi özümü bir az hazırlayam, operasiya təlimi keçəm. Körpə uşaqlarım olmasa və sizin kimi nəcib insanlarla, bir çox təmiz nəfəsli adamlarla yaxınlaşmasam, dostlaşmasam, heç bir ölümdən qorxmaram... Tale

mənim bədənimi lap uşaqlıqdan əzab-əziyyətlə yoğurub. Mən yaşayanda da əziyyət çəkirəm, həm artıq adətkar olduğum bədənimdəki ağrılardan, həm də namərd, kəmfürsət adamların törətdikləri haqsızlıqlardan. İndi mənim gözlərim yaman sulu olub. Deyirəm yəqin uşaqlıqdan bədənimə dolan yağış-qar suyudur, indi gözlərimdən süzülüb-durulub çıxır. Allah kömək olmuş Ziyəddin müəllim də sübut etmək istəyir ki, (Marksist kimi) bəşəriyyətin inkişafında həzz iztirabdan çox olub! Ay oldu ha?! Təkcə mənim çəkdiyim iztirabı varlı - firavan-xoşbəxt ailələrin iki nəsli çəkə bilməz...

Hər bir namuslu ata kimi mən də balalarımı çox sevirəm. Onlar körpədir və hamısının ataları kimi qayğıya böyük ehtiyacları var. Mən sizin hamınızdan, həmçinin adlarını çəkməyə inkanım olmadığı dostların - yaxınların hamısından xahiş edirəm ki, başıma bir iş gəlsə, qəza məni sizinlə bir də görüşməyə, dərdləşməyə həmməsləkləşməyə imkan verməsə, o uşaqların ali məktəb qurtarmaları üçün əlinizdən gələn qayğını əsirgəməyin. Məktəb bitirsələr, özlərini birtəhər dolandıracaqlar. Mənim aman-güman bir oğlum var - Azər! Mən ona ata deyirəm, o da mənə. Həm körpədir, həm də səhhəti normal deyil. Amma hər şeyi yaman başa düşəndir. O da xəstəxanada mənimlə birlikdə mənə deyir ki, ata, sənə qan lazım olsa, mən qanımın hamısını sənə verərəm, təki sağal. Görünür, o atasızlığın faciəsini indidən başa düşür. Mənim xatirimə, düşəndə, ona xüsusi qayğı göstərin. Mən bilirəm ki, sizin hamınızın boynunuzda yükünüz çoxdur. Lakin mən sizdən, həm də bir çox gözəl insanlardan o qədər qayğı görmüşəm ki, bütün bunları qiymətləndirməkdə acizəm və bunlar da mənə əziyyət verir. Siz mənim qəm yükümü qayğı və məhəbbət yükü ilə əvəz eləmisiniz. Mənə təskinlik verən sizin böyük qayğınızdır və buna görə də operasiyaya indi qorxmadan gedirəm və inanıram ki, sağ çıxacağam...

Mənim allahdan tutmuş B.Axundova, H.Əliyevə qədər gizli məktublarım var. Ümumiyyətlə, mənim yazdıqlarımın çoxu

demək olar ki, çap olunmayıb. Çap olunanların isə əksəriyyəti nadan, cahil, qorxaq redaktorlar, ədəbi işçilər tərəfindən bıçaqlanıb, yaralanıb, qanına qəltan olunmuş vəziyyətdə çıxıb. Mənim qəlbimin böyük bir parçası, həyatımın, şüurlu hissəsi o yazılarda səpələnib. Əsrimiz yaman mürəkkəb və amansız əsrdir. Sahibsizi, kimsəsizi, köməksizi qarışqa kimi ayaqlayıb keçirlər. Hətta nəhəngləri də bəzən gedər-gəlməzə göndərir. Yüz min tonlarla su tutumu olan gəmilər kimi dəryalara batırıb qərq eləyirlər. Gəl gör mənim kimi ayağı təzəcə yer tutanlar ola. Siz əli qələmli - hünərli adamlarsınız. Mən arzu edərdim ki, düşəndə o yazı-pozunu da işıq üzü görməsi taleyilə maraqlanasınız, onların insanlara lazım olanlarını itib-batmağa qoymayasınız. Bu həm mənim balalarıma maddi və mənəvi kömək olar, həm də oxuyanlar görərlər ki, mən bu torpağa sadəcə yük olmamışam. Amma onu da bilin ki, sinəmdə yazı-pozuya köçürtdüyümdən hələ daha çox şey var.

Sizin hər biriniz əli silahlı döyüşçüsünüz. Namərd adam sizin hansı birinizə diş qıcayanda sizin hamınız süngünüzü ona qarşı tuşlasanız, heç bir şey eləyə bilməz. Təəssüf ki, bəzən bizim birimizi təkləyib, az qala, təngnəfəs eləyirlər. Biz əlimizdəki o kəskin silahdan istifadə etmirik. Arzu edərdim ki, süngünüz-silahınız həmişə iti olsun, canınız sağ, həyatınız xoşbəxt.

Daha göz yaşlarım imkan vermir qəlbimdən keçənləri yazam. Dünyanın bu saat ən kövrək və gözüyaşlı adamı mənəm. Allah amanatı! Balalarım amanatı! Bir-birinizin amanatı... Sizin Qulu Xəlilov.

Bakı, 7.II.72

Torpaq dərdli insan (Qulu Xəlilli xatirələrdə)
2000, səh.141-150.



BDU-da Şirməmməd Hüseynovun 80 illik yubileyi.
18 dekabr 2004-cü il



Yubiley iştirakçıları




Ş.Hüseynovun çıxışı



Ş.Hüseynov ailə üzvləri ilə



"Əkinçi" qəzetinin 125 illiyi münasibətilə .
BDU-da keçirilən elmi konfransda BDU-nun rektoru,
AMEA-nın müxbir üzvü Abel Məhərrəmovun çıxışı




Azərbaycan mətbuatının 130 illiyi münasibətilə
Respublikanın təhsil naziri Misir Mərdanovun jurnalistlərlə
görüşü. 18 iyul 2005-ci il



BDU-nun mətbuat tarixi kafedrasının kollektivi



Jurnalistika fakültəsində Respublika Radio və Televiziya işçiləri üçün təşkil olunmuş məşğələdə Ş.Hüseynovun məruzəsindən sonra




Bakı, 16 noyabr 1985-ci il. B.Vahabzadənin 60 illiyi münasibətilə rəssam Toğrul Nərimanbəyovun emalatxanasının qarşısındakı damın üstü (Filarmoniyanın qarşısı). Ç.Aytmatov, B.Vahabzadə, Ş.Hüsenov, T.Nərimanbəyov, Z.Məmmədov, N.Rzayev



B.Vahabzadənin 60 illik yubileyinə təşrif gətirmiş qonaqlar və tanınmış ziyalılar



Oljas Süleymenov B.Vahabzadənin 60 illik yubileyində. Sağdan sola: N.Rzayev, X.Məmmədov, B.Vahabzadə, Ş.Hüseynov, Oljas Süleymenov, İ.Rəhimli və b.



15 iyul 1992-ci il. ABŞ-ın Azərbaycandakı ilk səfiri Robert Fin Şəkidə. Xan Sarayının həyəti. Sağdan sola: H.Manaflı, S.Əliyarov, Robert Fin, B.Vahabzadə, Ş.Hüseynov



1995-ci il. Şəki. B.Vahabzadə ilə görüşdən sonra



İyul, 1990. Türkiyə prezidenti Turqut Ozalın həyat yoldaşı Səmra Ozalın Şəkiyə səfəri zamanı karvansarada görüş



Bakı. Rumıniya səfirliyində B.Vahabzadəyə orden təqdimi zamanı



Əqidə və məslək dostları.
Sağdan sola: Ş.Hüseynov, M.İsmayılov, B.Vahabzadə



Şəki, avqust, 2005-ci il.
Qeyri-adi müsahibə. Qulu Məhərrəmli və Ş.Hüseynov



Türkiyə Respublikasının prezidenti Turqut Ozalın həyat yoldaşı Səmra Ozalla səmimi görüşdə. İyul, 1990. Şəkil "Tərcüman" qəzetinin (Türkiyə) 28 temmuz (iyul) 1990-cı il sayından götürülmüşdür.



B.Vahabzadə ilə gözdən iraq ikili yaradıcılıq söhbəti



Şəkildə sağdan sola: H.Ziya, B.Vahabzadə, E.Sabitoğlu, Ş.Hüseynov və b.



1975-ci il mayın 4-də Dzerjinski klubunda mətbuat gününə həsr olunmuş rəsmi iclasın rəyasət heyəti



30 iyul 1940-cı il.
Ş.Hüseynov İttifaq üzrə əlaçı şagird və tələbələr dəstəsində.
Oturanlardan soldan 3-cü.



Şəki, Kiş kəndi. 1946-cı il. Arxada soldan birinci: Universitetin II kurs tələbəsi Ş.Hüseynov, Şəki şəhər sovetinin sədri A.Əhmədov, Şəkinin ilk inqilabi komitə sədri Q.Axundov, oturanlar soldan: hakim M.Əliyev, xanəndə Kiçik Ələskər, məşhur tarzən Ə.Tahirov, kamança çalan N.Bədəlov, N.Axundov



1950-ci ilin avqustunda Kislovodskda. Oturanlar: Emin Sabitoğlu, Araz Dadaşzadə, arxada ayaq üstə Ş.Hüseynov



Bakı, avqust, 1952-ci il. Ş.Hüseynov və qardaşı Həsən Hüseynov



1 sentyabr, 1953-cü il. Moskva. MDU-nun yeni binasının açılışı günü. Lomonosovun abidəsi qarşısında





Приглашение есть сюрприз, постарайтесь!

Министерство Культуры СССР и Московский ордена Ленина Государственный университет им. М. В. Ломоносова приглашают Вас на митинг, посвященный

ОТКРЫТИЮ НОВЫХ ЗДАНИЙ УНИВЕРСИТЕТА НА ЛЕНИНСКИХ ГОРАХ

Митинг состоится 1 сентября 1953 года в 10 часов утра на площади у новых зданий университета.

Министерство Культуры СССР
МГУ им. М. В. ЛОМОНОСОВА.

Приглашение есть сюрприз, постарайтесь!

Уважаемый товарищ Чуйкин Ю.А.

Ректорат, партком, профком и Вузком ВЛКСМ Московского ордена Ленина Государственного университета им. М. В. Ломоносова приглашают Вас на вечер коллектива университета, посвященный началу 1953/1954 учебного года.

Вечер состоится в субботу 5 сентября 1953 г. в Актовом зале новых зданий МГУ на Ленинских горах.

Начало в 7 часов вечера.



Görkəmli səhnə xadimləri məclisində: sağdan ikinci xalq artisti Yusif Vəliyev, Ş.Hüseynov, beşinci Əliağa Ağayev



Tanınmış Şəki ziyalıları. Sağdan ikinci: Baxşəli Axundov, mühasib Əbülqasım, Ağarza Axundov, Ş.Hüseynov.



Jurnalistika şöbəsinin 1962-ci il buraxılış qrupu



1964-cü il.
Filologiya fakültəsinin elmi şurasında dissertasiya müdafiəsi.
Ön sırada: professorlar M.Hüseynzadə, N.Məmmədov, Mir Cəlal Paşayev, Məsud Əlioğlu; ikinci sırada: X.Əliyev, P.Xəlilov, Ş.Hüseynov, İ.Bəktaşi və b.



1966-cı il.
Praqada Karlovo Universitet qarşısında



1966-cı il.
Çexoslovakiyada
Karlovı Varı
kurort şəhərində

1972.
Bolqarıstan.
Albena kurort
şəhərində





1978-ci il. Universitetni müəllimlərindən bir qrupu.
Sağdan sola: A.Abbasov, Ə.Nəbiyev, F.Hüseynov, İ.Bəktaşi,
Q.Xəlilov, Ş.Hüseynov, P.Xəlilov, S.Əliyev, F.Mehdi, N.Bağırov




Zaqatala şəhərində jurnalistlərin yaradıcılıq görüşü iştirakçıları. 15 sentyabr, 1971-ci il



İyul, 1971-ci il. Şuşa. Bəstəkar Süleyman Ələsgərovla İsa bulağında



Şuşa. Cıdır düzü. 1980-ci il



22 iyul, 1987-ci il. Şəki, Kiş. Prof. S.Əliyarovun ailəsi ilə istirahət zonasında



Türkiyə. Ankara. Əsri qəbiristanlığı.
M.Ə.Rəsulzadənin məzarı önündə. Sağdan: Ş.Hüseynov,
Ü.Hüseynova, M.Kəngərli, H.Hacıyev, Ə.Qaraca.
Noyabr, 1988-ci il



1989-cu il. Respublikanın Ali Sovetində. Soldan: prof.
S.Əliyarlı, xalq şairi B.Vahabzadə, Ş.Hüseynov



"Sovyet qəzetçilər "Yeni asır"ı gezdi".
Şəkil həmin qəzetin 1988-ci il, 19 qasim (noyabr) sayında
dərc edilmiş yazıdan götürülmüşdür



Şəkinin Baş Künküt kəndində yay istirahəti.
B.Vahabzadə və Ş.Hüseynovun ailəsi. Avqust, 1976.



13 avqust 1973-cü il.
Vilnüs.
Hüseynovlar ailəsi



1983, dekabr. Ş.Hüseynovun yaxın qohumları.
Sağdan Aqil, Siyavuş (bacısı), Fazil, Əzizə (bacısı), Yunis,
Suqra (bacısı), Aida, Atlas, Raya, Ofelya, Gilanə



1983-cü il, 14 noyabr. SSRİ ATN jurnalistika üzrə elmi-metodik şurasının iclası vaxtı



Şəkidə M.F.Axundovun anadan olmasının 170 illik yubiley iştirakçıları. Oktyabr, 1982-ci il.



1984-cü il. Şəkidə görüş. Sağdan sola: Y.Səfərov, B.Vahabzadə, M.Rəsulov, Ş.Hüseynov, Ə.Nəzərli



Almata, 15 may 1990-cı il. Qazax Dövlət Universitetində jurnalistlərin Beynəlxalq konfransı iştirakçıları ilə



Üç dost: X.Əlimirzəyev, Z.İbrahimov, Ş.Hüseynov.
1971-ci il.



Şəki, 1982-ci il. M.F.Axundovun anadan olmasının
170 illik yubiley təntənəsi iştirakçıları qədim karvansarada



1986-cı il. Şəkidə Kiş çayında daşqından sonra selin gətirdiyi
böyük bir daşın qarşısında. Sağdan H.Rəcəbov, B.Vahabzadə,
Ş.Hüseynov, H.Həsənov, V.Qəniyev



Şirməmməd Hüseynov nəvəsi Əhəd Əliyevlə. Şəki, 2006



Bakı. May, 1990-cı il.
ABŞ-ın Moskvadakı səfiri Cek Metlokun mətbuat konfransında



1982-ci il. Azərbaycan Dövlət Dram Teatrında
Bəxtiyar Vahabzadənin "İkinci səs" tamaşasından sonra.
Ortada: B.Vahabzadə, Əhməd Şəmidə və Ş.Hüseynov



Qələm dostları sağdan: Sabir Rüstəmxanlı, Ş.Hüseynov,
T.Hacıyev, Ə.Səfərli



Bakı Şirvanşahlar sarayı, 16 noyabr 1985-ci il. B.Vahabzadə,
Ç.Aytmatov, T.Nərimanbəyov, Ş.Hüseynov, N.Rzayev,
Ş.Ələkbərzadə və b.



1952. Moskvada nümayişdə. Sağdan sola: H.Mirzəyev, Ş.Hüseynov, F.Köçərli, E.Mikaylov, Ə.Sərkərov, M.Qəniyev.




16 noyabr 1985-ci il. .B.Vahabzadənin 60 illiyinə gəlmiş qonaqlarla birlikdə



1966. Çexoslovakiyada



BDU. Tarix fakültəsində elmi şurada



Auditoriyada



Filologiya fakültəsinin müəllimlərinövbəti noyabr bayramı nümayişində



1971. Jurnalistika fakültəsinin müəllimləri Zaqatalada



1953. Moskva. MDU-nun aspirantları universitetin yeni binası qarşısında



Novxanı. M.Ə.Rəsulzadənin evində



Ş.Hüseynov və A.Dadaşzadənin qızları Lalə və Zümrüdün orta təhsili başa vurduqları gün. Hər iki ailənin birgə rəsmi



Ş.Hüseynov tələbələri
Elmira Əmrahqızı və Zərxanım Əhmədli ilə

Ş.Hüseynov ailəsi ilə.
Moskva.
Qızıl meydan. 1970





Bilgəh istirahət evində.



Şəkidə istirahətdə. Sağdan sola: Ş.Hüseynov, B.Vahabzadə, A.Hüseynov, Ə.Rəhimov



Jurnalistika fakültəsində növbəti yubiley şənliyi . 2005.



BDU-nun tarix fakültəsində dissertasiya müdafiəsi.
Sağdan sola: opponet Ş.Hüseynov, elmi şuranın sədri, professor M.Qaziyev, professor Ş.Qəndilov, dissertant M.Məmmədov, trubinada - Qulam Məmmədli

KİTABIN İÇİNDƏKİLƏR

ÖN SÖZ 3
ÖZ GÖZÜ İLƏ GÖRÜB ÖZ AĞLI İLƏ DÜŞÜNMƏK 4
NƏHƏNG ELM MƏBƏDİ, QÜDRƏTLİ TƏHSİL OCAĞI 8
100 İL BUNDAN ƏVVƏL OLMUŞLAR VƏ BƏZİ DÜŞÜNCƏLƏR 17
QAFQAZI "BƏLAYA" SALANLAR KİMLƏRDİR? 23
DAHA BELƏ YAŞAMAQ YARAMAZ! 36
1917-Cİ İLİN FEVRAL İNQİLABI NİYƏ QEYD EDİLMİR? 46
85 İL BUNDAN ƏVVƏL QARABAĞDA ERMƏNİ QİYAMI VƏ ONUN LƏĞVİ 50
AZƏRBAYCAN ZİYALILARININ İLK AÇIQ İSLAHAT TƏLƏBLƏRİ 64
ƏHMƏD BƏY AĞAYEVİN ƏSƏRLƏRİ NİYƏ VƏTƏNİNDƏ NƏŞR OLUNMUR? 71
ƏHMƏD BƏY AĞAYEVİN NƏRİMAN NƏRİMANOVA MƏKTUBU 76
İNGİLİS HƏRBİ JURNALİSTİ MƏKRLİ ERMƏNİ TƏBLİĞATI HAQQINDA 81
ÜZEYİR BƏYİN YAZDIQLARINI NİYƏ İXTİSAR VƏ HƏTTA REDAKTƏ EDİBLƏR? 91
ÜZEYİR BƏYİN PUBLİSİSTİK İRSİNİN NƏŞRİNƏ DAİR QEYDLƏR 95
İSTİQLALIN MƏŞƏQQƏTLİ YOLU, MİLLİ MÜCAHİDLƏRİN QƏTİYYƏTİ 99
TİFLİSDƏ MƏRASİM, GƏNCƏDƏ ŞƏNLİK, BAKIDA TƏŞVİŞ 103
HƏYAT DAVAM EDİR! 107
ZƏRDABİYƏ QƏDƏRKİ İNTİBAH 112
"ƏKİNÇİ"yə APARAN YOL, MİLLİ İNTİBAHIN M.F.AXUNDOV DÖVRÜ 117
RUSİYADA ƏVVƏLİMCİ TÜRK QƏZETƏSİ 121
ŞƏRQ JURNALİSTİKASI TARİXİNƏ DAİR CİDDİ BİR ARAŞDIRMA 127
ŞƏRQ JURNALİSTİKASININ İCMALI 134
ÜZEYİR İRSİNİN ƏSRARƏNGİZ SƏHİFƏLƏRİ 141
TÜRK DÜŞMƏNÇİLİYİ NƏ VAXTA QƏDƏR DAVAM EDƏCƏK? 149
KİM LAYİQLİ MİLLƏT VƏKİLİ OLA BİLƏR? 154
İLK MİLLƏT VƏKİLİMİZ, İLK PARLAMENT SƏDRİMİZ 159
AZADLIQ VERİLMİR, ALINIR! 172
"ƏKİNÇİ"nin LAYİQLİ DAVAMÇISI 177
MƏTBUATIMIZIN YUBİLEYLƏR İLİ 183
XALQA "ÖZ CAMALINI" GÖSTƏRƏN MƏTBU ORQAN 186
"MOLLA NƏSRƏDDİN" JURNALI NƏDƏN VƏ NECƏ YAZMAĞA BAŞLADI? 190
MİRZƏ CƏLİLİN USTA ZEYNALI MOSKVADA POLİTBÜRODA 195
"QEYRƏT" MƏTBƏƏSİNİN MÜDİRİ – MİRZƏ CƏLİLİN SAĞ ƏLİ 201
XİDMƏTİNİN MÜKAFATINI ÖZ VİCDANINDAN ALAN ŞAİR – M.Ə.SABİR 206
ORXANARASIN YAZDIQLARI 212
HAQQ VƏ HAQANİYYƏT CARÇILARI: "İRŞAD" VƏ "MOLLA NƏSRƏDDİN" 217
İKİ BÖYÜK ŞƏXSİYYƏTİN DOSTLUĞU VƏ "MOLLA NƏSRƏDDİN"DƏ İKİ FELYETON 223

BİR ƏSRLİK MƏSAFƏ – NƏ DƏYİŞİB, NƏ QALIB? ... 229
94 YAŞLI QULAM MƏMMƏDLİNİN "MOLLA NƏSRƏDDİN" HAQQINDA SONUNCU MÜSAHİBƏSİ ... 241
MİLLİ FACİƏDƏN "BAYRAM" DÜZƏLDƏNLƏRİN FACİ□ƏSİ DƏ QAÇILMAZDIR ... 246
I DÖVLƏT DUMASI. ONA MÜNASİBƏT. VƏKİLLƏRƏ NƏSİHƏT ... 251
"FÜYUZAT"IN TƏKRAR NƏŞRİ. BİR MÜNƏVVƏR ALİM XANIM VƏ ÖVLADININ FƏDAKARLIĞI ... 257
İSTİQLAL TARİXİMİZƏ DAİR QİYMƏTLİ ARXİV SƏNƏDLƏRİ ... 262
28 MAY 1919. BAKIDA İLK İSTİQLAL BAYRAMI. PARİSDƏ ABŞ PREZİDENTİ İLƏ GÖRÜŞ ... 267
ZAMAN YENİ, XƏSTƏLİK KÖHNƏ, BƏS MÜALİCƏSİ NECƏ? ... 273
AZADLIQ VƏ İSTİQLAL MÜCAHİDLƏRİ, DÜNYA İNQİLABI FANATİKLƏRİ ... 278
KÖHNƏ PROBLEMLƏR, YENİ DÜŞÜNCƏLƏR ... 283
İRANDA İNQİLAB. BAKİDA QİYMƏT, HƏMRƏYLİK, ÜMİD ... 289
ƏSRLƏR KEÇİR, TƏCAVÜZKAR ERMƏNİ XİSLƏTİ DƏYİŞMİR ... 294
İNAMLA İŞLƏYƏNLƏR, ÜMİDLƏ YAŞAYANLAR ... 298
AZƏRBAYCANDA QADINLAR ÜÇÜN İLK MƏTBUAT ORQANI – "İŞIQ"-95 ... 303
DOST ÖLKƏDƏ ... 309
BÖHTAN VƏ MƏKRLƏ DOLU BİR SUALA CAVAB ... 317
OLJAS SÜLEYMENOV ROMADAN MƏKTUB GÖNDƏRİB ... 322
İNFORMASİYALI CƏMİYYƏTİN İNFORMASİYALI TƏDQİQATÇISI ... 324
"ŞƏRQİ-RUS" QƏZETİ -100 ... 326

ƏLAVƏLƏR

FƏXRİ ADIN MÜBARƏK, ŞİRMƏMMƏD MÜƏLLİM! ... 330
CƏDVƏLƏ DÜŞMƏYƏN DƏRS ... 331
"İŞIĞIMIZ SÖNMƏYƏCƏKDİR" ... 338
"UYDURMA MÜƏMMALAR, ƏSİLSİZ İTTİHAMLAR" ... 340
PROFESSOR ŞİRMƏMMƏD HÜSEYNOVA 75 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ ... 341
PROFESSOR ŞİRMƏMMƏD HÜSEYNOVUN 75 İLLİYİNƏ ... 342
USTADIMIZ ŞİRMƏMMƏD HÜSEYNOV ... 343
MƏNİM TANIDIĞIM ŞİRMƏMMƏD MÜƏLLİM ... 344
HAMININ MÜƏLLİMİ - ŞİRMƏMMƏD HÜSEYNOV! ... 350
PROFESSORUN YUBİLEYİ. M.Ə.RƏSULZADƏNİN İLDÖNÜMÜNƏ TƏSADÜF ETDİ ... 352
MƏTBUATA XƏRCLƏNƏN ÖMÜR ... 354
QURTAR ... 356
"SAĞLAM QÜVVƏLƏR TÜRKİYƏNİ DARDA QOYMAYACAQ" ... 358
AXCP ŞİRMƏMMƏD HÜSEYNOVA "TƏŞƏKKÜRNAMƏ" TƏQDİM ETDİ ... 360
"ONUN ƏSƏRLƏRİNİ OXUYANDA SEHRLİ ALƏMƏ DÜSÜRƏM" ... 361
JURNALİSTİKAYA HƏSR EDİLMİŞ ÖMÜR ... 362
BİZİM TALİSMAN ... 369
GÖZ GÖRDÜYÜNƏ İNANAR ... 371
DÜNƏNİN, BU GÜNÜN, SABAHIN JURNALİSTİ ... 376
ŞİRMƏMMƏD HÜSEYNOV – 80 ... 383
ŞİRMƏMMƏD MÜƏLLİMİN "ŞİNEL"İ ... 385
BİZİM HƏYAT İDEALIMIZ ... 391
"ÖLMƏK QORXULU DEYİL, ƏN DƏHŞƏTLİSİ YAŞAMAMAQDIR" ... 397
AZƏRBAYCAN JURNALİSTLƏ□RİNİN MÜƏLLİMİ ... 411
AÇIQ SÖZLÜ MÜƏLLİM ... 419
AZADLIGIN TARİXİNİ ÖYRƏDƏN İNSAN ... 423
PROFESSOR ŞİRMƏMMƏD HÜSEYNOV – 80 ... 424
ŞİRMƏMMƏD HÜSEYNOVUN KİTABLARININ TƏQDİMAT MƏRASİMİ KEÇİRİLİB ... 426
"AZADLIQ" YENİ DÖVR MƏTBUATININ İLK QARANQUŞU İDİ ... 427
VƏTƏNDAŞLIQ DƏRSİNİN USTADI ... 429
SİZDƏN BİR DƏ OLMAYACAQ ... 430
GÖYDƏ, ONUN YANINDA... ... 435
BAKIDA JURNALİSTLƏR ... 437
AĞSAQQAL JURNALİST, SİYASİ İCMALÇI, HÖRMƏTLİ MÜƏLLİMİM ŞİRMƏMMƏD HÜSEYNOVA AÇIQ MƏKTUB ... 442
SALAM, MÜƏLLİM! ... 445
ŞİRMƏMMƏD MÜƏLLİMİN CƏSARƏT TƏLQİNLƏRİ ... 447
"YAŞAYIR İNSAN" ... 452

XATİRƏLƏR

ƏZİZ VƏ DOĞMA ADAM ... 456
DOST HAQQINDA BİR NEÇƏ SÖZ ... 458
SƏMİMİ İNSAN, ŞƏHİD GENERAL ... 460
BİZİM HADİ MÜƏLLİM ... 463
MƏNƏVİ TƏMİZLİK ÖLÇÜSÜ ... 465
NURƏDDİNİN BAĞ EVİ, H.BAYQARANIN KİTABI, İSTİQLAL MÜZAKİRƏLƏRİ ... 468
İKİ MƏKTUB, DOSTLUQ DÜŞÜNCƏLƏRİ ... 470
ƏN ÇƏTİN YAZILAN MƏKTUB ... 476

Kompüter tərtibçisi:
Aliyə Qabilqızı

Jığılmağa verilmişdir: 16.01.2007
Çapa imzalanmışdır: 5.04.2007
Kağız formatı: 60x84 1/16
Çap vərəqi: 30,25
Tiraj 200

Hazır dipozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.

Ünvan: Təbriz küç., 17
"Təfəkkür" Universitetinin mətbəə
Tel.: 541-05-88

ŞİRMƏMMƏD HÜSEYNOV

MƏTBU İRSİMİZDƏN SƏHİFƏLƏR

Bakı – 2007